# AZƏRBAYCAN NƏSRİ ANTOLOGİYASI

Ш6
A99

# AZƏRBAYCAN NƏSRİ ANTOLOGİYASI

245440

BEŞ CİLDDƏ

II CİLD

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2006

Tərtib edəni və
ön sözün müəllifi: **Zaman Əsgərli**

**894.361'3'008-dc22**
**AZE**
**Azərbaycan nəsri antologiyası.** Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2006, 368 səh.

Kitabda XX əsrin əvvəlləri Azərbaycan nəsrinin nümayəndələrindən Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Süleyman Sani Axundov, Sultanməcid Qənizadə, İbrahim bəy Musabəyov, Abdulla Şaiq, Əlabbas Müznib, Abdulla bəy Divanbəyoğlu, Yusif Vəzir Çəmənzəminli və Cəfər Cabbarlının nəsr əsərlərindən nümunələr verilmişdir.

**ISBN10 9952-34-077-X**
**ISBN13 978-9952-34-077-8**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

Azərbaycan türklərinin sosial-fəlsəfi, bədii-siyasi, nəzəri-estetik, elmi-mədəni fikir, bütövlükdə kültur sahəsində yeni erada keçdiyi iki min illik tarixi XX yüz il tamamlayır. Məhz bu əsrdə türkün öz keçmişinə – "milli mənlik və kişilik yaddaşına qayıdışı" (M.K.Atatürk) başlanır. 1905-ci ilin yanvar ayında Rusiyada başlanan xalq inqilabı tezliklə ölkənin hər yerini, o cümlədən Bakı şəhərini bürüyür. Azərbaycan xalqı siyasi azadlıq və demokratiya uğrunda mübarizəyə qoşulur. Bakıda kapitalist ağalara qarşı etirazlar güclənir, siyasi tətillər keçirilir. Zəhmətkeşlər və ziyalılar hökumətdən onlara söz, mətbuat azadlığı, siyasi birliklər yaratmaq haqqı verilməsini tələb edirlər.

Rusiyadakı və Bakıdakı inqilabi çıxışlardan ruhlanan cənubi azərbaycanlılar da istismarçı şah rejiminə qarşı qızğın mübarizəyə qalxırlar. 1906-cı ildə Tehranda məşrutə elan olunur, məclis açılır və "Qanuni-əsasi" qəbul edilir. Təbrizdə baş verən üsyana və getdikcə yüksələn İran inqilabına "Sərdari-milli" ləqəbi qazanmış məşhur sərkərdə Səttar xan başçılıq edir. Xalq onun ətrafında birləşir. Lakin bu inqilab da qələbə qazana bilmir; rus çarizmi Cənubi Azərbaycanı və İranın bir hissəsini istila edir, işğalçılar yerli şahpərəstlərlə birləşib, İran və Cənubi Azərbaycan inqilabını yatırdırlar. Səttarxanı hiylə ilə Tehrana çağırıb, orada ona xəyanət törədirlər. Atışma zamanı Səttarxan ağır yaralanır və uzun sürən xəstəlikdən sonra vəfat edir. Az sonra Birinci Dünya müharibəsi başlanır. Rusiyada fevral burjua və sosialist inqilabları baş verir. "İkibaşlı qartal"ın zəifləmiş caynaqlarından xilas olan Azərbaycanda yeni dövlət qurumu Demokratik Cümhuriyyət yaranır.

Dəyişən zəmanə, yeniləşən həyat və təzə ictimai-siyasi münasibətlər bədii fikirdə, estetik inkişafda da öz əksini tapır. Cəmiyyət ədəbi gedişata, bədii sözün inkişafına təzə istiqamət verir, estetik inkişafın forma və üsullarını zənginləşdirir; ədəbiyyat klassik maarifçi realizmi qoruyub saxlamaqla yanaşı yeni tipli tənqidi realizmi və romantizmi də həyata gətirir. Bu realizmin ideya əsasını "artıq burjua epoxasının yaratdığı demokratik ideologiyanın və millətçi məfkurənin nailiyyətləri təşkil etməyə başlayır. Fərdi ünvanlara yox, müflis bir ictimai həyat və quruluş tərzinə etiraz və üsyanı bütöv bədii bir proqram kimi məhz realizmin bu yeni mərhələsi elan edir"[1].

[1] Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı, 2002, səh.306.



Həmin realizmin beşiyi başında hamıdan əvvəl və hər kəsdən artıq nasir Cəlil Məmmədquluzadə dayanır. Bütövlükdə XX əsrin Azərbaycan nəsri onun "Poçt qutusu" ilə başlanır; bədii nəsrin yeni qəhrəmanı, üslubu və ideya aləmi bu kiçik hekayə ilə müəyyənləşir. Cəmiyyətin "adi, xırda adamları" bu realizmin qəhrəmanı olur. Yaşar Qarayev doğru deyir ki, Cəlil Məmmədquluzadənin ədəbiyyatda yeni mövzu və yeni qəhrəman axtarışlarının əsasında hələ ümummilli, sosial-etnik oyanmadan əvvəlki sadə adamın, xalq nümayəndəsinin – Novruzəlinin surəti dayanır. Yazıçı məhz bu adi adamı milli məslək və vətəndaşlıq namusu, millətin mənafeyinə münasibət baxımından səciyyələndirir[1].

"Poçt qutusu"nun qəhrəmanı Novruzəli sadə, mömin və avam bir kəndlidir. Olduqca saf, səmimi bir insandır. Başlıca idealı ağasına sədaqətlə xidmət etmək, ölənə qədər onun qulluğunda durmaqdır. Ədib onun daxili saflığını və səmimiyyətini sonsuz məhəbbətlə, avamlığını isə böyük mənəvi ağrı ilə təsvir edir; Novruzəli o qədər avamdır ki, poçt qutusunun nə olduğunu da bilmir. Ağasının məktubunu ora salandan sonra məəttəl qalır: görəsən, qayıdıb getsin, yoxsa qutunun yanında durub, kağızın keşiyini çəksin?! Elə bu vaxt poçt məmurunun qutunu açıb məktubları oradan götürdüyünü görür. Güman edir ki, o kağızları oğurlayır. Tez qaçıb poçt məmurunun qolundan yapışır: "Aşna, hara aparırsan kağızları?" – deyə onu tənbeh edir, doğru yola çağırır.

– Belə işlər (yəni oğurluq – *Z.Ə.*) yaxşı deyil, adam özgənin malına tamah salmaz. Məgər sizin şəriətdə oğurluq günah yazılmayıbdı?"[2].

Poçt məmuru onun sözlərindən heç nə anlamayıb öz vəzifəsini yerinə yetirmək istədikdə Novruzəli daha da qəzəblənir. Bu qəzəb öz mənbəyini bir tərəfdən Novruzəlinin avamlığından, onun poçt məmurunu tanımayıb, onu oğru hesab etməyindən götürürsə, digər tərəfdən onun öz ağasına hədsiz sədaqətindən mayalanır: "Novruzəli hələ ölməyibdir ki, sən onun ağasının kağızını aparasan". Məhz ağasına sədaqət hissi onun daxili ehtiraslarını coşduraraq, hökumət məmurunu yerə çırpmaq dərəcəsinə qədər yüksəldir: "Gördüm ki, hərif istəyir qoya qaça. Vallah hirs vurdu təpəmə, ikiəlli yapışdım kafirin çiynindən, bunu üzü üstə elə gətirdim yerə ki, heybətdən ağzı qanadı. Sonra nəçərnik divanxanasından soldatlar töküldü məni döyə-döyə aparıb atdılar damа"[3].

Hekayədə bədii gülüşü doğuran və onun tipini səciyyələndirən bir mühüm estetik keyfiyyət də komik situasiya ilə xarakterin daxili vəhdətidir: Novruzəli özünün bütün hərəkətlərini, işlədiyi qəbahəti və cinayəti tamamilə qanuni və təbii bir iş hesab edir. O özünü deyil, məktubları yığıb aparmaq istəyən

[1] Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı, 2002, səh.319.
[2] Cəlil Məmmədquluzadə. Əsərləri. 6 cilddə, I cild. Bakı, 1983, səh.85.
[3] Yenə orada, səh.85-86.

vəzifə sahibini müqəssir bilir. Elə buna görə hekayədə gülüşü "Novruzəlinin hərəkətlərindən, vəziyyətindən çox, onun əhvalatı böyük inam və etiqadla, özünə haqq qazandırmağa çalışmaqla danışması, xana olan sədaqətini tez-tez, xüsusi vurğu ilə ifadə etməsi və işlədiyi cinayətdə məhz "kafirin" müqəssirliyini sübut etmək cəhdi" qüvvətləndirir[1].

Novruzəli C.Məmmədquluzadə gülüşünün obyektidir. Bu gülüşü ifa edən, həyata keçirən birinci surət isə Vəli xandır. Hekayədə Novruzəli kimi o da yüksək yazıçı səmimiyyəti ilə təsvir olunur. Lakin bir sıra təhlillərdə Vəli xan "tüfeyli" adlandırılır. Onun qəhqəhələri Novruzəliyə istehza, həqarət kimi mənalandırılır və buna görə o, nifrət hədəfi hesab edilir: "Vəli xan mülkədardır, heç bir iş görmədən, zəhmət çəkmədən, hazır mədaxil hesabına yaşayan tüfeylidir"[2]. "Xanın gülüşündə istehza, kinayə, yoxsul və avam kəndliyə həqarətli münasibət hakimdir... Onun gülüşü ağayana, həqarətli, rişxənd və istehza ilə qarışıq bir gülüşdür... Əgər Novruzəli rəğbətlə qarşılanırsa, mütəşəxxis, etinasız Vəli xan nifrətlə yad edilir. Xanın həqiranə gülüşü bizi hiddətləndirir; biz onun gülüş və qəhqəhələrini bir qədər də tündləşdirib, qəzəb hissi ilə yoğurub xanın öz üzərinə yağdırırıq"[3].

Əslində isə Vəli xanın gülüşü istehza və rişxənd yox, qəlbin dərinliklərindən gələn kinayəsiz, küdurətsiz şən gülüşdür. Onun Novruzəliyə münasibətində heç bir həqarət yoxdur. Əgər Vəli xan öz kəndlisinə həqarətlə baxsaydı, Novruzəli çoxdan bəri onun yanına bu qədər sədaqətlə, özü də əlidolu gəlibgetməzdi. İkinci tərəfdən xan həqarət bəslədiyi adamı zaminə götürmək üçün divanxanaya, pristavın yanına gedirdimi? Tədqiqatçı bunları nəzərə almadan hekayədə Vəli xana qarşı "ictimai-siyasi mahiyyəti satira" görür. Guya C.Məmmədquluzadə kiçik adamları "istismar edənləri ictimai satiraya tutmaq əzmi göstərir. O, istismarçıları adi ev şəraitində, kəndli, nökər və qulluqçuları ilə davranış və hərəkətlərində belə öz sinfi mənsubiyyəti ilə təmasda verir".

Əslində isə hekayədə ictimai ziddiyyətləri əks etdirən heç nə yoxdur. F.Hüseynov doğru deyir ki, C.Məmmədquluzadə nə Vəli xanın hakimiyyətindən, zərbdəstindən, yoxsullara etinasızlığından, nə də kəndlinin məzlumluğundan bir kəlmə söhbət salmır. O, mövcud ictimai mühitdə zülm, bərabərsizlik, ağalıq-qulluq barədə də bir söz demir[4]. Məsələ ondadır ki, avam, sadəlövh Novruzəli həm də itaətkar bir adamdır. O, xana xidmət etməkdən, ağasının qulluğunda durmaqdan həzz alır və bunu daxili bir məmnunluqla dilə gətirir:

[1] Firidun Hüseynov. Adi əhvalatlarda böyük həqiqətlər. Bakı, 1977, səh.55.
[2] Məmməd Məmmədov. Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı, 1963, səh.31; Həmçinin bax: Cəlil Məmmədquluzadə. Həyat və yaradıcılığı. Bakı, 1974, səh.58.
[3] Firidun Hüseynov. Adi əhvalatlarda böyük həqiqətlər. Bakı, 1977, səh.54-56.
[4] Yenə orada, səh.56.



"Başına dönüm, xan... Qadanı alım... Mən ölənə kimi sənə qulam... Qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın! Sənin qədəmlərinə mən qurban olum..."[1] və s.

C.Məmmədquluzadə Novruzəli surəti ilə Azərbaycan ədəbiyyatında kəndli surətinin – adi adamın yeni səciyyəvi xüsusiyyətlərini təqdim edir. O, Azərbaycan kəndlisinin məzlumluğunu, yazıqlığını, mütiliyini və ictimai arxasızlığını XIX əsrdə Məhəmmədhəsən əminin simasında canlandırmışdı. Onun avamlığını isə yazıçı XX əsrin başlanğıcında Novruzəlinin timsalında diqqət mərkəzinə gətirir. Lakin bu dəfə yazıçı onu – adi adamı milli məslək, vətəndaşlıq namusu, cəmiyyətdə yeri, mövqeyi baxımından səciyyələndirir. Aydın olur ki, daxili saflıq, ağasına qarşı maksimal sədaqət və itaətkarlıq hissi onun iç dünyasında ciddi bir kəsir – çatışmazlıq yaratmışdır: Yaşar Qarayev bunu ictimai şüur, fəaliyyət kasıblığı – "vətəndaşlıq kasıblığı" adlandırır[2].

Azərbaycan vətəndaşının fikir, düşüncə kasıblığı – avamlığı və cəhaləti "İranda hürriyyət" hekayəsində də Cəlil Məmmədquluzadəni narahat edən başlıca məsələdir. Lakin "Poçt qutusu"ndan fərqli olaraq, bu hekayədə bədii təhkiyənin mərkəzinə kəndlinin yox, fəhlənin avamlığı gətirilir. Əsərin qəhrəmanı – İrandan çörəkpulu qazanmaq üçün Qafqaza gəlmiş fəhlə Kərbəlayı Məmmədəli də kəndli Novruzəli kimi savadsız, dünyadan bixəbər, avam bir adamdır. O, İranın Ərəblər kəndindəndir. "İki il yarımdır ki, qürbətə çıxıb az-çox çörəkpulu qazansın və əhli-əyalını saxlasın... Əvvəllər Kərbəlayı Məmmədəli fəhləlik edərdi və iki-üç ayda bir üç-dörd manat xərclik və altı-yeddi arşın çit göndərərdi evinə. Keçən il erməni-müsəlman davası düşəndə Kərbəlayı Məmmədəli getmişdi vətənə və beş-on manat pul da aparmışdı. Amma səkkiz aydır ki, evindən çıxıb gəlib indiyədək ancaq bir dəfə Ərəblərə anasına iki manat göndərib ki, evdə xərclik ödəsinlər"[3].

Kərbəlayı Məmmədəli İranda camaata hürriyyət – azadlıq verildiyini eşidəndə uşaq kimi sevinir, padşaha dua edir. Lakin Kərbəlayı Məmmədəlinin "hürriyyət" haqqında heç bir təsəvvürü yoxdur. O belə güman edir ki, hürriyyət nə isə, maddi nemətdir. Buna görə həmin hürriyyətdən özünə pay umur və Ərəblər kəndinə – anasına məktub yazaraq, ona çatacaq hürriyyət payını tezliklə göndərməyi xahiş edir.

Yaşadığı dövrün tərəqqi və inkişaf surətini dərk edə bilməyən Kərbəlayı Məmmədəli artıq yoxsulluqdan qurtaracağını, maddi vəziyyətinin yaxşılaşacağını güman edərək arvadına deyir: "Allah qoysa, bundan sonra pulumuz çox

[1] Cəlil Məmmədquluzadə. Əsərləri. 6 cilddə, I cild. Bakı, 1983, səh.81-85.
[2] Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı, 2002, səh.319.
[3] Yenə orada, səh.111-112.

olar. Elə hə deyirdin ki, monə urus məxmərindən bir arxalıq al. İndi, vallah, bundan sonra alaram! Axı özün görürdün ki, pulum görmürdü; amma, Allah qoysa, bundan sonra pulum çox olar"[1].

"İranda hürriyyət" çoxproblemli əsərdir. Hekayədə gülüş hədəfi təkcə avamlıq, mədəni-siyasi gerilik deyil; yazıçı siğəbazlıq, ikiarvadlılıq, yalançılıq kimi ictimai-əxlaqi kəsirləri də tənqid edir. Kərbəlayı Məmmədəlinin acyalavac ailəsinin gözünü yolda, ürəyini intizarda qoyan təkcə Qafqaz səhələrinin "şuluq" olması, iş yoxluğu deyil, ilk növbədə "onun bir dul arvadı siğə etməsi"dir. Məhz siğə etdiyi arvada (onun adı Pərinisədir) çəkdiyi xərclər Kərbəlayı Məmmədəlini tamam pulsuzlaşdırır və o, aylarla öz ailəsinə bir-iki manat əvəzinə bir paket yalan göndərir.

Hekayədə C.Məmmədquluzadənin gülüş hədəfi etdiyi surətlərdən biri də Məşədi Molla Həsən surətidir. Yazıçının "kiçik adamlar" qalereyasına daxil olan surətlərin çoxu kimi Məşədi Molla Həsən də İran əhlidir – həmşəridir: "On-on iki il bundan irəli Məşədi İrəvanda başına yeddi-səkkiz müsəlman uşağı yığıb müdərrislik elərdi. Axırda uşaqlar başladılar bir-bir dağılmağa; o səbəbə ki, uşağın biri dərsini bilməyəndə Məşədi Molla Həsən tüpürürdü uşağın üzünə. Bir neçə dəfə uşaqlar gedib atalarına şikayət elədilər, bir neçə dəfə uşaqların atası gəlib Mollanın üzünə tüpürdü. Amma bunlar hamısı ötüşərdi, əgər uşaqlar dağılmasa idilər. Uşaqlar dağıldılar"[2].

Bundan sonra Məşədi Molla Həsən kitab satmağa başlayır. Ancaq alveri çox zəif olduğundan güzəranı kağız yazmaqla keçir. Ədib onun məktub yazmaq üsulunu təfərrüatlarına qədər təqdim edir: "Məşədi Molla Həsən əvvəl eynəyi taxır gözünə, sonra qələmdanı açır, qələmdanın dəvatına bir qətrə su tökür, qamış qələmin ucunu basır sol əlinin şəhadət barmağının ucuna, sonra bir vərəq çirkli poçt kağızını kitabın içindən tapıb yarıdan cırır, yarısını səliqə ilə qoyur kitabın arasına, yarısını qoyur sol dizinin üstünə, qələmi batırır mürəkkəbə və öz-özünə başlayır kağızı yazmağa"[3].

Belə təsvir üsulu obrazın fəaliyyət sferasını aydın və canlı əks etdirir. Öz xəttinə vurğunluq nəticəsində Məşədi Molla Həsən bir gündə yazdığı iki kağızın ünvanlarını dəyişik salır və bununla da hadisələrin inkişafı yeni və daha gülməli istiqamət alır. Kərbəlayı Məmmədəlinin avamlığından başqa qorxaqlığını və yalançılığını da əyaniləşdirən yeni epizodlar meydana gəlir. O, qürbətdə aldığı Pərinisəyə sədaqət və etibarını nümayiş etdirmək istərkən vətəndəki arvadı Tükəzbana etibarsızlığı və sədaqətsizliyi aşkar olur...

[1] Cəlil Məmmədquluzadə. Əsərləri. 6 cilddə, I cild. Bakı, 1983, səh.113.
[2] Yenə orada, səh.110.
[3] Yenə orada, səh.111.



XX əsrin ilk illərindən başlayaraq bədii nəsrdə Azərbaycan vətəndaşının, xüsusilə fəhlələrin (yəni "kiçik adam"ın) ağır həyatı, məişət, dolanışıq problemləri ilə yanaşı, həmin problemlər qarşısında qalan insanın keçirdiyi sarsıntılar, daxili saflığı, mənəvi təmizliyi, yaddaqalan bədii lövhələrlə göstərilir. Təkcə özünün deyil, bütün ailəsinin maddi böhran, aclıq və səfalət qarşısında qalan zəhmət adamının həqiqi insani keyfiyyətləri qorumaq uğrunda göstərdiyi möhkəm iradə Sultanməcid Qənizadənin "Allah xofu" hekayəsində xalis maarifçilik mövqeyindən əks etdirilir. Müəllif işçi-əmələ həyatını təsvir edərkən bədii təhlilin mərkəzinə burjua-mülkədar quruluşunun sosial-iqtisadi problemlərini deyil, onun etik-əxlaqi məsələlərini gətirir.

Halallığa çağırış ideyasının yüksək bədii intonasiya ilə təbliğ olunduğu bu əsərin mərkəzində Məşədi Əsgər surəti dayanır. Yazıçı onun bioqrafiyası haqqında ətraflı məlumat verir. Körpə vaxtlarından yetim qalan Məşədi Əsgər on iki yaşında doğma yurdu Dərbəndi tərk edərək, bir təsadüf nəticəsində Bakıya gəlib çıxmış, neft gəmilərinin birində muzdurluq etməyə başlamışdır. Ağır əmək şəraiti onun bədənini möhkəmləndirmiş, əl-ayağını kobudlaşdırmış, barmaqlarını həmişəlik qabarlı etmişdir: "Qısaboylu, genkürəkli zorluca Məşədi Əsgər qırx yaşında bir kişi idi... İyirmi səkkiz ilin müddətində od ilə su arasında bişib, bərkiyib abnosa[1] dönmüşdü, azar-bezar nə olduğunu əsla bilməzdi. Oturanda iki adamın xörəyini yeyib, qalxanda üçünün işini görməyə mahir idi. İyirmi səkkiz ilin ərzində bircə gün olsa da qulluqdan qalmadıqda ancaq ikicə ay xozeyindən möhlət alıb, imam Rza ziyarətinə getmişdi.

Yavan çörəyə qənaət edən muzdur illər uzunu boğazından kəsdiyindən on ilin ərzində altı yüz manat nağd cəm edib, Qanlıtəpə adlanan məhəllədə özü üçün bir daxma tikmişdi və sonra yenə on il qənaətlə bir altı yüz manat da cəmləyib evlənmişdi. İndi səkkiz il idi ki, muzdur Məşədi Əsgər Qanlıtəpədə bir arvadı və üç baş uşağı ilə ayda iyirmi manata kirayə edərək dolanırdı"[2].

Belə kasıb həyat keçirməsinə baxmayaraq, güzəranından daima razılıq edən, həmişə namusla yaşayan Məşədi Əsgəri taleyi yeni və daha çətin bir imtahana çəkir; bir gün o, yelkəni açarkən nərdivandan yıxılıb sol qolu sınır. Fəhlənin təxminən bir ay iş görə bilməyəcəyini eşidən "xozeyin" hirslənərək, onun axırıncı haqq-hesabını verib işdən çıxardır. Məşədi Əsgər sahibkarın verdiyi son qəpik-quruşları ilə mağazadan nisyə aldığı malların pulunu ödəyib, balaları ilə birlikdə dörd divar arasında ac-susuz qalır. Bütün günü çörəkpulu qazanmaq barədə düşünüb-daşınsa da heç nə əldə edə bilməyən bu namuslu kişi əlacsızlıqdan oğurluq etməli olur. Lakin Məşədi Əsgər hərəkətinə görə dərhal peşmançılıq çəkir. "Allah qorxusundan" ağlayıb, şeytana lənət

[1] A b n o s – qara rəngli, olduqca bərk və qiymətli ağac
[2] Sultanməcid Qənizadə. Gəlinlər həmayili. Bakı, 1986, səh.102-103.

oxuyur. "Əməlinin qəbahəti balalarının aclığını ona unutdurur. Məşədi Əsgər yalnız çamadan yiyəsini tapıb oğurladığı əşyanı ona qaytarmaq, hərəkəti üçün üzrxahlıq etmək, əcnəbi müsafirdən bağışlanmasını diləmək barədə düşünür. Ertəsi gün çox böyük çətinlikdən sonra çamadanı divanxanaya gətirib Sədrəddin bəyə verməklə günahlarını yuyur və vicdan əzabından xilas olur.

Məşədi Əsgərin bu əməli Allah yanında bəyənilir; xeyir əməli ona xeyir gətirir; tacir Hacı Məhəmmədhüseynin şərtinə görə oğurlanmış pulun düz iyirmi faizi – on dörd min üç yüz yetmiş beş manatı ədalət divanı vasitəsilə Məşədi Əsgərə çatır. "Gündə dörd abbasıya möhtac olan muzdur indi minlərə sahib olduğundan başına gəlmiş qəziyyəni Allah-taalanın iradəsi sayaraq, əldə etdiyi pula barkaz, gəmi alıb, gəmiçilik şirkəti düzəldir. Günbəgün var-dövləti artan Məşədi Əsgər Hacı ziyarətinə gedib "Hacı" ləqəbi qazanır. O həmişə kasıb günlərini xatırlayaraq övladlarına daxilən saf, təmiz olmağı məsləhət bilir: "Ürəyinizdə Allah xofu olsun. Vəssalam"[1].

Beləliklə, S.Qənizadə bir maarifçi olaraq, cəmiyyətin sosial-siyasi tərəqqisini, bəşər oğlunun əbədi səadətini mənəvi-əxlaqi saflaşma və daxili təkamül amilləri ilə bağlayır. Gözəl və xoşbəxt insan cəmiyyəti qurmağın real yolu – inqilabi çevrilişlər deyil, həm ayrı-ayrı fərdlər, həm də bütöv xalq miqyasında mənəvi sərvətləri çiçəkləndirmək, güclü təkamüldür. Yalnız daxilən saflaşmış, hər cür əxlaqi naqislikdən uzaq insan əbədi xoşbəxtliyə layiqdir. "Allah xofu" bu ideyanın bədii təsdiqi, real görüntüsüdür.

Əsərdə Məşədi Əsgər kimi Sədrəddin bəy surəti də həmin ideyanın daşıyıcısıdır. Onu S.Qənizadənin "moralist baxışlarının ifadəçisi" hesab edən X.Məmmədov doğru deyir ki, ədib "Sədrəddin bəyi hekayədə maarifçi fikirlərinin ruporuna çevirmiş, onun simasında qurulacaq "zəka səltənətinin" tipik nümayəndəsini təqdim etmişdir"[2]. Divanxanada silistçi işləyən Sədrəddin bəy "nəcib adamlardan biridir, həmişə millətdaşların halına yanıb, divanxanalarda onlara kömək edir"[3]. O, insanların təbiətindəki qüsurlara qarşı inadla mübarizə aparır, pis cəhətləri islah etməyə çalışır. Sədrəddin bəy özünün ağıllı söhbətləri ilə Məşədi Əsgərin ruhunu oxşayır, muzdurun batini aləmində özgə bir təsəlli nuru işıqlandırır. Məşədi Əsgər cəhalətin, pis adətlərin insana vurduğu ziyanlar haqqında Sədrəddin bəyin söhbətini dinlədikdən sonra daxili bir məmnunluq duyaraq deyir: "Sədrəddin bəy çox ağıllı adamdır, çox da yaxşı adamdır. Ax, kaş ki, bu cür adam axund olaydı, mərsiyəxan olaydı, çıxardı minbərə, moizə deyərdi, mərsiyə oxuyardı, adam ləzzət aparardı"[4].

---

[1] Sultanməcid Qənizadə. Gəlinlər həmayili. Bakı, 1986, səh.128.
[2] Xeyrulla Məmmədov. Sultanməcid Qənizadə. Bakı, 1983, səh.190.
[3] Sultanməcid Qənizadə. Gəlinlər həmayili. Bakı, 1986, səh.116.
[4] Yenə orada, səh.123.



Sədrəddin bəy Qurandan ayə gətirib deyir ki, cinsindən asılı olmayaraq oğurluq edən şəxsin əli kəsilməlidir. Ancaq burada əsil mətləb əl kəsmək deyil, bəlkə oğurluğun kötüyün kəsməkdir. Oğurluq o payədə yaman qəbahətdir ki, əl kəsilsə, ondan yaxşıdır ki, daha bu qəbahət təkrar olmasın və ya ki, təkrarı çətin olsun. Əl kəsməkdən ibarə odur ki, heç kəs əlin oğurluğa uzada bilməsin və yaxud uzatmasın... Oğurluğun qəbahətin yaxşıca anlamaqdan ötrü qanacaq lazımdır ki, şəriətin intişarına bağlıdır... Əgər insanlar Allah qoyduğu şəriətlə zindəganlıq etsələr, əlbəttə ki, dünyada hərgiz oğurluq ola bilməz, çünki heç kəs oğurluqda olan murdar qəbahəti boynuna götürməz... Amma çifayda? Elm və şəriət hala o dərəcədə intişar tapmayıbdır ki, hamı insanlar insanlıq şərəfini anlayıb, vicdan ismətin saxlaya bilsinlər... Amma bir vaxt olar ki, maarif məşəlinin işığı aləmi basar; ölkələrdə, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə, obalarda məktəblər bina olunar, qiraətxanalar açılar, əsil ürf tiryəki insanların təbiətinə yerləşib vicdanlarına sirayət edər. Onda əl "kəsmək" məsələsi o mənada istemal olur ki, hər kəsin başı üstündə öz vicdanı qılınc olub dayandıqda əlləri hərgiz oğurluğa uzana bilməz"[1].

XX əsrin maarifçi yazıçıları mənəvi-əxlaqı saflığı, "Allah xofu"nu – vicdan səsinə qulaq asmağı təbliğ etməklə yanaşı burjua həyat və yaşayış tərzini, bu həyatın insanlarda əmələ gətirdiyi eybəcərlikləri, xüsusilə mənəvi yoxsulluğu, əxlaqi kəsirləri də pisləyirdilər. Əbdürrəhim bəy Haqverdiyevin "Ata və oğul", İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" kimi əsərlərində cəmiyyəti eybəcərləşdirərək məhvə aparan proseslər xalis əxlaqi mövqedən təhlil və şərh edilir. Hər iki əsər milli maarifçi məfkurənin və realist bədii estetik modelin görümlü ifadəsidir. Onların ikisində də didaktik pafos ilk plandadır; müəlliflər həyatda nəyin yaxşı, nəyin pis olduğunu, zəhmətlə tüfeylin, ağılla cəhalətin, işıqla qaranlığın qarşılaşdırılması yolu ilə əks etdirir. Həm Ə.Haqverdiyev, həm də İ.Musabəyov insanı uçuruma aparan ağılsızlığın, cəhalətin, əxlaqsızlığın törətdiyi faciələri təsirli əks etdirmək üçün ilk növbədə ağlın, zəhmətin, saf, təmiz əxlaqın yaratdığı gözəlliyi canlandırır.

Bu əsərlərin ikisində də zəkanın, namuslu əməyin qurub-yaratdığı gözəlliyi, həmin gözəlliyə müxalif mövqedə duran əxlaqsızlığı məhv edir. Ə.Haqverdiyev də, İ.Musabəyov da təsvir etdikləri personajları iki qütbə ayırır, birini yaxşı, ikincisini isə pis nümunə kimi göstərirlər. Cəlil ağa ("Neft və milyonlar səltənətində") nə qədər ki, ağlın, zəkanın hökmünə qulaq asır, taleyi onu xoşbəxtliyə doğru aparır; o, yetim, kimsəsiz bir uşaq ikən çoxlu var-dövlət sahibi olur. İçkiyə, işrətə qurşanıb, ağla, zəkaya, namuslu həyata arxa çevirəndə isə onun təkcə bir sahibkar kimi yox, həm də bir insan kimi faciəsi başlanır. Bütün var-dövlətini küləyə sovuran Cəlil ağa ailəsini və həyatını da kayb edir.

---

[1] Sultanməcid Qənizadə. Gəlinlər həmayili. Bakı, 1986, səh.121, 122.

Ə.Haqverdiyevin "Ata və oğul" hekayəsində də hadisə və süjet iki istiqamətdə davam edir. Əsərin birinci hissəsində təhkiyənin mərkəzinə Hacı Xəlilin, ikinci hissəsində isə onun oğlu Əkbərin bioqrafiyası gətirilir. Atadan yetim qalmış Xəlil Ağahüseyn kimi nəcib şəxsin himayəsinə düşdüyündən günbəgün tərəqqi edib, öz fərasəti və bacarığı ilə hamının hörmətini qazanır və "şəhərdə, tacirlər arasında əvvəlinci şəxs hesab olunur". Onun oğlu Əkbər isə, əksinə, pis adamla – Rüstəm kimi bir tüfeyli ilə yoldaşlıq etdiyindən atadanqalma varidatının hamısını itirib özü də həbs olunur. Hadisələrin belə təsviri yazıçının maarifçi dünyagörüşünə və maarifçi estetikanın prinsiplərinə tam uyğun gəlir.

XX əsrin əvvəlləri Azərbaycan nəşrində humanizm, insana məhəbbət ideyaları dini-mənəvi keçmişə – kökə, folklora marağı artırır. Əlabbas Müznib şifahi xalq ədəbiyyatı nümunələri əsasında yazdığı hekayələrdən ibarət "Qiraət" kitabını və müqəddəs "Quran"ın "Yusif" surəsi əsasında qələmə aldığı "Yusif və Züleyxa" romanını çap etdirir. Bütün islam dünyasında məşhur olan qədim bir əhvalatı yenidən bədii təhkiyənin predmetinə çevirməklə müəllif öz çağdaşlarının əxlaqi saflıq və müqəddəslik duyğularını oyandırır. Əsərdə məlum hadisələr danışılsa da, yazıçı onları tamam yeni bədii strukturda təqdim edir. Xüsusilə əhvalatların fəsillər üzrə verilməsi, süjetdə epik konfliktin kəskinləşdirilməsi, dil sadəliyi romana aydın görünən bir özünəməxsusluq gətirir.

Ə.Müznibin "Yusif və Züleyxa" romanında olduğu kimi Cəfər Cabbarlının "Aslan və Fərhad" hekayəsində də mənəvi-əxlaqi təmizliyə çağırış ideyası yüksək bədii intonasiya ilə ifadə olunur. Bu əsərin də məzmununda "Yusif" surəsi həmçinin, "Yusif və Züleyxa" romanı ilə səsləşən məqamlar görmək mümkündür: ərli qadının gənc oğlanın gözəlliyi qarşısında şəhvət hissləri ilə yaşaması, ona vurğunluğu, xəyanət səhnələri və s. Ancaq surədən və romandan fərqli olaraq, hissi-sentimental ruhun daha qabarıq təqdim olunduğu hekayədə Cabbarlı bəşəri əxlaqa, xüsusilə daxili "mən"ə sədaqətin qurduğu xoşbəxtliyi deyil, xəyanətin törətdiyi faciəni əks etdirir.

Yusif kimi Aslan da özünə qarşı riyakarlığı qardaşından görür; Fərhad Aslanın ona olan güclü sevgisindən istifadə edərək qardaşını aldatmağa başlayır; məktəbdən qaçıb günlərini bulvarda keçirdiyi, "gah o qızın, gah bu qızın dalınca düşdüyü" halda evə gəlib, guya kitab üçün, yaxud məktəb forması üçün pul istəyir. Qardaşını dəlicəsinə sevən, öz xoşbəxtliyini onun inkişafında görən Aslan isə nəinki min bir əziyyətlə qazandığı pulları, hətta quru canını da Fərhadın yolunda qurban verməyə hazırdır. Məhz qardaşına olan "Məcnun eşqi" Fərhadda yaranmış eqoizmi, riyakarlığı görməkdə Aslana mane olur.



Yazıçı zəhmətkeş Aslanı, "insan suratində göydən enmiş mələk" adlandırır. Ata-anasının ölümündən sonra o, balaca bacısına da, qardaşına da pasiban olur, onları böyüdür, xoşbəxt olmaları üçün əlindən gələni edir. Fərhad isə qardaşının böyük fədakarlığına, kiçilməz məhəbbətinə ondan daha böyük bir xəyanətlə cavab verir; onun namusunu ləkələyir.

"Yusif və Züleyxa"da (həm surədə, həm nağılda, həm də romanda) olduğu kimi, "Aslan və Fərhad" hekayəsində də oğlanı qız – Fərhadı Gülzar düz yoldan sapdırmaq istəyir. Bu məqam romanda Yusifin daxili saflığını, hekayədə isə Fərhadın əxlaqi naqisliyinin görünməsinə şərait yaradır və beləliklə, Fərhadın daxili eybəcərliyi bütün dəhşətləri ilə təzahür edir. O, Gülzarın "təbəssümlərlə oynayan gözlərinə baxıb..." nazik belini qolları arasında qucanda təkcə qardaşını yox, əzab-əziyyət içərisində qovrulan bacısını da unudur.

"Aslan və Fərhad" hekayəsindəki hissi-sentimental təsvir üslubu Abdulla bəy Divanbəyoğlunun "Can yanğısı" povesti üçün də səciyyəvidir. Əsərdə şəxsi məhəbbət duyğuları vətən sevgisi ilə qarşı-qarşıya qoyulur. Hansı daha əsasdır: qadın, yoxsa vətən sevgisi? Povestin baş qəhrəmanı kimi ayrı-ayrı personajları da üstünlüyü vətənə verirlər. Həm Əhməd, həm də Ruqiyyə birlikdə nə qədər xoşbəxt görünsələr də Vətəndən kənarda iztirab çəkir, kədərlənirlər. Hətta Əhməd bu iki məhəbbəti bir qəlbdə birləşdirməyə cəhd edir, lakin heç nə alınmır: "Vətənim anamdır, ağuşunu açıb "gəl" deyirdi. Mən getməzdim, amma qan çəkirdi, qan aparırdı, ruh pərübal açmışdı, könül cuşa gəlmişdi, qəlbim "vətən, vətən" vururdu... İstədim vətən məhəbbətini Ruqiyyə məhəbbətində qərq edim, bacarmadım. Vətən məhəbbətini Ruqiyyə eşqi-atəşində yandırmaq istədim, qəsdim yerimədi, Ruqiyyənin zülfləri ilə dolaşmadı, torp düşmədi... Fikrim-zikrim Ruqiyyədən vətənə getdi... Vətən məhəbbəti aşıb, coşub ləpəsi məni arxasına aldı..."[1].

Povestdə kənd şəhərə qarşı qoyulur: saf təbiət, əkinçilik, maldarlıq həyatı idealizə olunur. Müəllifə görə, şəhər mühiti paklığı, təmizliyi, kökü, mayanı, ilkinliyi zədələyir, məhv edir. Bütün ömrünü çöldə təbiətin qoynunda keçirmiş Ruqiyyənin atası şəhərdə bir həftə qalandan sonra deyir: "Böylə yerdə partlaram, mən gedəcəyəm... Qara meşə qabağımda, göy dağ başımın üstündə olmasa, qara naxırın, ağ sürünün mələrtisini, göyün çaqqıltısını, gurultusunu eşitməsəm, mən dolana bilmərəm. Bunlarsız dolanma mənə haram olar... O yanda malın göyşəməsi, ilxının oxrantısı qulağıma gəlmir. Başım üstündə yarpaq-yarpaq ilə danışırmı?"

[1] Abdulla bəy Divanbəyoğlu. Can yanğısı. Bakı, 1981, səh.171.

Əhməddən və atasından fərqli olaraq Ruqiyyə insana-sevgiliyə məhəbbəti üstün tutur. O, doğma çöllərdən, ata-anasından ayrılıb Əhmədlə şəhərə gəlir və öz səadətini Əhmədlə olmaqda görür. Lakin Əhməd Ruqiyyənin fədakarlığını qiymətləndirə bilmir. Doğma yurdundan, əziz adamlarından ayrı düşən Ruqiyyəni Əhməddən gördüyü soyuqluq və biganəlik daha çox incidir, üzür. O, xəstələnib ölür. Öz mahiyyəti etibarilə bu ölüm melodramatik səciyyə daşıyır və Əhmədin ürəyindən silinib getmiş "köhnə eşq, köhnə məhəbbət" hisslərini oyadaraq, onun qəlbinə, canına güclü bir daxili yanğı gətirir. Əhməd bu yanğı ilə çöllərə düşüb, dağları, daşları, meşələri dolaşsa da qəbahətini yuya bilmir. İnsana etinasızlıq onun vətənpərvərliyinə də xələl gətirir. Böyük insanpərvər olmadan həqiqi vətənpərvər olmaq mümkün deyil! Povestin ümumi məzmunundan çıxan fəlsəfi-əxlaqi nəticə budur.

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında, o cümlədən nəsrdə maarifçilik realizmdən başqa bir də romantik estetik konsepsiya ilə zənginləşir. Ədəbiyyatda maarifçi düşüncə və ideologiya özünü həm realizm, həm də romantizm şəklində göstərir və milli bədii nəsrin bir sıra nümunələri romantik üslubda yaranır: M.Hadinin "Səadəti-zailə", A.Şaiqin "Köç", "Məktub yetişmədi", A.Səhhətin "Bədbəxt ailə", "Qaragünlü Həlimə", Ə.Hüseynzadənin "Siyasətifürusət", A.Divanbəyoğlunun "Ərdə dərəsi", "Əbdül və Şahzadə", C.Cabbarlının "Mənsur və Sitarə", Surun povest və hekayələri... Yüksək sənətkarlıqla yazılmış bu əsərlərin hamısında real varlıq ideal həyat baxımından tədqiq və təhlil edilir. Onların əsas ideyası humanizmdir. İnsan, onun ləyaqəti, cəmiyyətdə mövqeyi, daxili-mənəvi çırpıntıları, arzu və istəkləri varlı-kasıb münasibətləri dövrün mənəviyyat, məişət və əxlaqla bağlı problemləri həmin əsərlərdə özünün romantik əksini tapan ciddi problemlərdir.

Milli azadlıq, onun uğur və çətinlikləri, xilaskar türk əsgərinin qəhrəmanlıq səhifələri, istiqlal uğrunda şəhidliyi, Bakıda ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı, qanlı daşnak irticası mövzuları da XX əsrin əvvəlləri, daha dəqiqi, Cümhuriyyət dövrü Azərbaycan nəşrində mühüm yer tutur. Tağı Şahbazi Simürğün "Hürriyyət günəşi", Böyükağa Talıblının "Mədən sahibinin fərasəti", Ağababa Yusifzadənin "Sınıq qanad", Əli Fəhminin "Sərsəm kişi", M.Rəfizadənin "Mücadileyi-həyat", İ.Oruczadənin "İxtiyar", Seyid Hüseynin "Həzin bir xatirə" hekayələri bu baxımdan xüsusi aktuallıq kəsb edir.

Nəhayət, XX əsrin əvvəlləri Azərbaycan nəşrinin mühüm bir qismi də tənqidi-satirik və tənqidi-yumoristik üslubda yaradılmışdır. Bu istiqamət ədəbi-tarixi prosesdə əsasən, "Molla Nəsrəddin" ədəbi məktəbinə məxsus yazıçıların əsərləri ilə təmsil olunmuşdur. Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy



Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli kimi sənətkarların "Qurbanəli bəy", "Bomba", "Qiraət", "Şeyx Şəban", "Cənnətin qəbzi", "Sərhəd məsələsi", "Mərsiyəxan" və s. hekayələrində satirik və yumoristik pafos aparıcı mövqedədir. Bu əsərlərin hər birində həyat və insanlar gülüş vasitəsi ilə təqdim olunur. Həmin gülüşlərin rəngi də, işığı da bir-birindən seçilir. Bunu məsələn, Cəlil Məmmədquluzadə və Ə.Haqverdiyev gülüşlərinin tipoloji müqayisəsi əsasında izah edən T.Mütəllimov yazır: "Mirzə Cəlil gülüşündə kədərdən doğan dərin bir inilti, sızıltı duyulmaqdadır; orada talesiz insanların naləsi, fəryadı (? - Z.Ə.) çox qüvvətli təzahürünü tapmışdır. Mirzə Cəlil gülüşü şaxtalı qış havasının kəskin sazağı kimi yandırır, titrədir! Ə.Haqverdiyev gülüşü isə daha nikbindir, daha işıqlı və şaqraqdır. Bu gülüşdə sanki qızmar yay günəşinin boş işığı və yandırıb-yaxıcı hərarəti vardır... Haqverdiyev gülüşünün ümumi intonasiyası daha yüksəkdir. Bunun əsas səbəbi onunla izah oluna bilər ki, Mirzə Cəlil daha çox məzmun və məhkum insanların məişətindən və xarakterindən danışmaqla öz dərdlərini ifadə edirdisə, Haqverdiyev həmin insanların canına daraşmış "mikrobların" - istismarçı və tüfeyli siniflərin satirik-sarkastik xarakterini və əməllərini bütün eybəcərliyi ilə bilavasitə göstərməklə, nümayiş etdirməklə onlara ittiham hökmü oxumağı üstün tuturdu"[1].

Bu sənətkarlardan fərqli olaraq, Y.V.Çəmənzəminlinin yaradıcılığında gülüş tamam başqa rəngdə və çalarda səslənir. Doğrudur, onun da tənqid hədəfləri bir çox cəhətdən mollanəsrəddinçi yazıçıların təsvir etdiyi tiplərə oxşayır; dəmirçi, bənna, pinəçi, başmaqçı, palanduz, nalbənd, malakeş kimi şəhər sənətkarlarının "xırda adam"ların ailə-məişət qayğıları, fikir və düşüncələri onun da hekayələrinin ("Sərhəd məsələsi", "Borclu", "Həkim", "Cümə axşamı", "Bir qəpik" və s.) əsas mövzusudur. Avamlıq, mədəni gerilik, rüşvətxorluq, məişət problemləri, ər-arvad münaqişələri onun da hekayələrində sənətkarlıqla tənqid olunur. Lakin C.Məmmədquluzadə və Ə.Haqverdiyevdən fərqli olaraq Yusif Vəzirin gülüşündə ironiya ilə yanaşı ağır bir nisgil, dözülməz mənəvi ağrı da var. O, təsvir etdiyi surətlərin avamlığı ilə bərabər, kasıblığın, mədəni geriliyi ilə yanaşı işgüzarlığını, zahiri çatışmazlıqları ilə bir yerdə mənəvi keyfiyyətlərini də sənətkarlıqla canlandırır. Fərdi təhkiyə üslubu, təsvirədası, ifadə tərzi də onu həmkarlarından tamamilə ayıraraq orijinal yazıçı kimi tanıdır.

Bədii-estetik məzmun, mövzu, ideya zənginliyi ilə seçilən XX əsrin əvvəlləri Azərbaycan nəşri poetika-struktur, janr-üslub polifonizminə görə də yeni keyfiyyətlər qazanır. Ənənəvi povest, hekayə, fəlsəfi traktat janrları bu

[1] Təhsin Mütəllimov. Əbdürrəhim bəy Haqverdiyevin poetikası. Bakı, 1988, səh.228.

dövrdə daha da çeşidlənir, yeni tipli roman, miniatür hekayə, novella və s. epik janrların gözəl nümunələri, bədii təsvir, təhkiyə və təqdimat üsullarının orijinal formaları yaranır[1]. Təəssüf ki, bu kitabda həmin nümunələrin hamısını dərc etmək mümkün olmadı. Xüsusilə, "Əbdül və Şahzadə" (A.Divanbəyoğlu), "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan firəngiməab" (M.S.Ordubadi), "Siyasəti-fürusət" (Ə.Hüseynzadə), "Cəhənnəm məktubları" (Ə.Haqverdiyev) kimi qismən irihəcmli povest və romanlar həcmə sığmadı. Buna baxmayaraq inanırıq ki, "Azərbaycan nəsri antologiyası"nın bu cildinə toplanmış əsərlər böyük maraqla oxunacaq və XX əsrin əvvəlləri Azərbaycan nəsri haqqında aydın təsəvvür yaradacaqdır.

***Zaman Əsgərli***

[1] Əflatun Məmmədov. Azərbaycan bədii nəsri. Bakı, 1983; Tehran Əlişanoğlu. Əsrdən doğan nəsr. Bakı, 1999; Vəli Nəbioğlu. Azərbaycan bədii nəsrinin janr-üslub təkamülü (XIX-XX əsrlər). Bakı, 2004.



*XX əsrin əvvəlləri*

# AZƏRBAYCAN NƏSRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

# CƏLİL MƏMMƏDQULUZADƏ

(1869-1932)

*Dahi Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə Naxçıvanda doğulmuşdur. İlk təhsilini mollaxanada almış, sonra şəhər məktəbində oxumuşdur. 1882-1887-ci illərdə Qori Müəllimlər Seminariyasının tələbəsi olan C.Məmmədquluzadə oranı bitirdikdən sonra Azərbaycanın müxtəlif şəhər və kəndlərində müəllim, məktəb müdiri, hökumət idarələrində məmur, məhkəmə vəkili vəzifələrində çalışmış. 1903-cü ildə Tiflisə gələrək "Şərqi-Rus" qəzetinin redaksiyasında jurnalistlik fəaliyyətinə başlamışdır. 1906-cı ildə məşhur "Molla Nəsrəddin" jurnalını nəşr etməyə başlayan C.Məmmədquluzadə bu jurnalın nəşri boyu onun redaktoru olmuşdur. Ədib 1932-ci il yanvarın 4-də Bakıda vəfat etmişdir.*

*Cəlil Məmmədquluzadə bədii yaradıcılığa XIX əsrin sonlarında başlasa da yazıçı və publisist kimi XX əsrin əvvəllərində məşhurlaşmışdır. Onun ilk mətbu əsəri "Poçt qutusu" (1903) hekayəsidir. İlk dəfə 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap olunan bu əsər müəllifinə böyük şöhrət gətirmiş, sonralar dəfələrlə nəşr edilmiş, müxtəlif dillərə çevrilmişdir. Yazıçının "İranda hürriyyət" və "Qurbanəli bəy" hekayələri də təkcə onun öz yaradıcılığında deyil, bütövlükdə XX əsr bədii nəsri tarixində özünəməxsus yeri və sanbalı olan əsərlərdir. Bu hekayələr XX əsrdə həm Azərbaycan, həm də başqa dillərdə dəfələrlə nəşr olunmuş və dərin rəğbətlə qarşılanmışdır. Burada verilən mətnlər yazıçının altıcildlik "Əsərləri"nin birinci cildindən (Bakı, 1983) götürülmüşdür.*

## POÇT QUTUSU

Noyabr ayının 12-ci günü idi. Hava çox soyuq idi. Amma hələ qar əlaməti görsənmirdi. Həkim axırıncı dəfə xanın naxoş övrətini yoluxub, cavab verdi ki, dəxi naxoşun əhvalı yaxşıdır; belə ki, bir həftəyədək səfərə çıxmaq mümkün olar. Xan çox tələsirdi İrəvana getməyə; çünki xanı orada çox vacib işlər gözləyirdi. Və bir də ki, qorxurdu qar yağa və hava dəxi də soyuya və naxoş üçün yola çıxmaq qeyri mümkün ola. Xan götürdü qələmi, irəvanlı dostu Cəfər ağaya bu məzmunda bir müxtəsər kağız yazdı:

"Əzizim! Bir həftəyədək, ümidvaram, İrəvana gəlim övrət-uşaq ilə. Artıq-artıq təvəqqe edirəm, buyurasan bizim otaqlara fərş salıb, əlbəttə-əlbəttə peçləri yandırsınlar ki, otaqların havası pişəzvəqt[1] təmizlənsin və isinsin, bəlkə naxoş üçün orada narahatçılıq üz verməsin. Bu kağızın cavabını mənə teleqraf vasitəsilə yetirəsən. Sən mənə dediyin işlərin hamısını yerbəyer eləmişəm. Xudahafiz!

*Sənin xeyirxahın Vəli-xan. Fi 12 noyabr".*

Xan kağızı bükdü qoydu paketə, üstünü yazıb və markasını yapışdırıb, istədi nökəri çağırsın ki, aparıb salsın poçta; amma tez xanın yadına düşdü ki, nökəri göndərib özgə işə. Bu heyndə qapı döyüldü. Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi "İtqapan" kəndinin əhli Noruzəlidi. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin. Bu səfər də Noruzəli əliboş gəlməmişdi; çünki xanı görcək əl ağacını dayadı qapının bucağına və başladı qapının o biri tayını açmağa. Qapını açıb bir yüklü ulağı sürdü həyətə "çoçi-çoçi" deyə-deyə və yükün arasından üç-dörd toyuq-cücəni çığırda-çığırda yerə qoyub, yükü açıb dolu çuvalları saldı yerə və xanın üzünə baxıb ikiqat əyilib salam verdi. Xan salamı alıb dedi:

– A kişi, Noruzəli! Bu nə zəhmətdi, çəkmisən?

Noruzəli çuvalların kəndirini aça-aça cavab verdi:

– Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...

Bu sözü deyə-deyə Noruzəli başladı üstünün tozunu silməyə... çünki günortadan bir saat keçirdi və ola bilərdi ki, poçtun vaxtı keçsin, xanın ağlına belə gəldi ki, yazdığı məktubu versin Noruzəli aparıb salsın poçta.

Xan üzünü tutdu qonağa:

– Noruzəli, poçtxananı tanıyırsan?

Noruzəli cavab verdi:

– Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?

– Çox əcəb, nəçərnik divanxanasını ki tanıyırsan?

– Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan bizim bu katdamız özgə tayfadandı; odu ki, bizi görməyə gözü yoxdu. Keçən həftə mənim iki buzovum itmişdi. Getdim...

[1] Pişəzvəqt – qabaqcadan



– Hələ bu sözlərini sonra deyərsən. Qulaq as, gör nə deyirəm: nəçərnik divanxanasının qabağında bir yekə dam-daş var, qapısının ağzında bir qutu vurulub divara, haman qutu poçt qutusudu. O qutunun bir xırda və uzun qapağı var. Bu saat apar bu kağızı haman qutunun qapağını qovza, kağızı sal qutunun içinə, qapağını yatırt və tez qayıt gəl!

Noruzəli hər iki əlini açdı xanın qabağına, qorxa-qorxa kağızı aldı, bir az baxdı kağıza, bir az baxdı xanın üzünə, sonra çəkildi divara səmt və yerə əyilib istədi kağızı qoysun divarın dibinə. Xan ucadan dilləndi:

– Qoyma ora! Qoyma ora! Kağız çirklənər, tez apar sal qutuya, qoy gəl!

– Xan, başına dönüm, qoy bu ulağın başına torba keçirdim; heyvandı, ac qalmasın, yoldan gəlib.

– Yox, yox... Heç ziyanı yoxdu. Kağızın vaxtı keçir. Torbanı sonra keçirdərsən ulağın başına.

– Di elədə qoy ulağın qıçını bağlayım, yoxsa gedər həyətdə ağacları gəmirər.

– Yox, yox... heç eybi yoxdu, qaç tez, kağızı sal gəl!

Noruzəli kağızı ehmal qoydu qoynuna və genə dedi:

– Xan, qadanı alım, bu xoruzlar qaldılar burda, heyvandılar, qoyaydın qıçlarını açıb, bir az dən səpəydim bulara. Elə dən də gətirmişəm.

Noruzəli əlini saldı cibindən dən çıxarsın... Xan ucadan səsləndi:

– Yox, yox!.. Qoy hələ qalsın. Qaç, çaparaq kağızı sal poçta!

Noruzəli əl ağacını götürüb, başladı uşaq kimi qaçmağı. Sonra bir zad fikirləşib qayıtdı və üzünü tutdu xana.

– Xan, qadanı alım, dəsmalın içində yumurta var, gözdə-qulaqda olun, yoxsa ulağ ağnar, yumurtaları sındırar.

Xan daha ucadan səsləndi:

– Daha uzun danışma. Qaç kağızı sal; vaxtı keçir.

Noruzəli istədi uzaqlaşsın, xan onun dalıyca çığırdı:

– Noruzəli, bilməzsən kağızı verərsən özgəsinə ha!.. Heç kəsə vermə, heç kəsə göstərmə! Tez sal qutuya, qayıt gəl!

Noruzəli dəxi də ucadan cavab verdi:

– Niyə, mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç nəçərnik də bu kağızı mənim əlimdən ala bilməz.

Noruzəli bu sözləri deyəndən sonra gözdən itdi... Xan girdi otağa və üzünü arvadına tutub şirin dillə dedi:

– Di hazırlaş, mənim gözümün işığı. Kağız yazdım İrəvana ki, otaqları sazlasınlar. İndi daha gedə bilərik. Maşallah yaxşısan. Həkim özü deyir ki, havanı dəyişmək səndən ötrü lap vacibdi.

Bir qədər də xan arvadı ilə getmək barəsində söhbət edəndən sonra nökəri gəldi və xana dedi:

– Xan, bu ulağ kimindi, bu şeyləri kim gətirib?

Xan cavab verdi:

– Ədə, o şeyləri yerbəyer elə! Onları bizə itqapanlı Noruzəli sovqat gətirib.

Nökər cücələri və yumurtaları apardı aşbazxanaya və ulağı sürüb qatdı töyləyə, qapısını örtdü, sonra gəlib un çuvalının birisinin ağzını açıb, içindəki undan bir çimdik götürüb, gətirdi tutdu xanın qabağına və dedi:

– Xan, yaxşı ağ undu.

Xan una baxandan sonra buyurdu nökərə küçə qapısını bağlasın və çörəyi çəkib gətirsin.

Çörəyin yeyilməyi iki saat çəkdi. Ancaq çörəkdən sonra Noruzəlinin kağızı poçta aparmağı xanın yadına düşdü. Xan nökəri çağırıb soruşdu və nökər cavab verdi ki, hələ kəndli poçtdan qayıtmayıb. Xan Noruzəlinin bu qədər yubanmağına təəccüb elədi və fikrinə gəldi ki, bəlkə Noruzəli kağızı poçta salıb özünü verdi bazara çörəkdənzaddan alıb yesin və yainki bazarlığı-zadı var, eləsin. Bir saat da keçdi, Noruzəli gəlmədi.

Xan, nökəri çağırıb dedi ki, getsin poçta səmt və görsün harda qaldı Noruzəli və nə bais oldu ki, bu qədər yubandı. Yarım saat keçməmiş nökər qayıdıb cavab verdi ki, kəndlini görə bilmədi. Xan çıxdı balkona və bir papiros yandırıb başladı var-gəl eləməyə. Dəxi ona aşkar oldu ki, Noruzəlinin başına bir iş gəldi ki, bu qədər yubandı. Xan bu fikirdə idi – polis yasavulu dayandı qapıya və xanı görcək dedi:



– Xan, pristav buyurur gələsiniz polsaya[1] və kətdinizə zamın olasınız. Yoxsa zamını olmasan, pristav göndərəcək navaxta[2].

Xan bu sözlərə o qədər təəccüb elədi ki, üzünü yasavulun üzünə tutub mat qaldı və heç bilmədi ki, nə desin. Sonra dilləndi:

– Balam, o kətdi bir fağır adamdı, o nə qayırıb ki, pristav onu tutub saxlayıb?

Yasavul cavab verdi:

– Daha mən heç zad bilmirəm. Ancaq özün polsaya buyursan, yaxşı olar; yoxsa yazıqdı o kişi.

Xan bu əhvalatı övrətinə bildirmədi ki, narahat olmasın. Geyinib getdi polisə və əvvəl akoşkadan dustaqların damına baxıb gördü ki, yazıq Noruzəli bir neçə dustaqlar ilə oturub damın bucağında və uşaq kimi ağlayır, gözünün yaşını çuxasının ətəyi ilə silir...

Xan, Noruzəlinin əhvalatını pristavdan öyrənib və ona zamın olub kəndlisini saldı yanına və gətirdi evə. Noruzəli həyətə girən kimi başladı ağlamağa və saman torbasını ulağın başına keçirdib çömbəldi divarın dibində. Xan girdi evə və bir papiros yandırıb çıxdı balkona, Noruzəlini yanına çağırıb dedi:

– Di indi əhvalatı nağıl elə, Noruzəli! Sənin bu hekayətin çox şirin hekayətdi. Kitaba yazılmalıdı. Nağıl elə təfsilən; yəni hamısını birbəbir. Başla burada kağızı götürüb aparmağından, ta dama düşməyinə kimi...

Noruzəli durdu ayağa, xana yavıqlaşıb və çuxasının ətəyi ilə gözünün yaşını silib başladı:

– Başına dolanım xan, məni çövür balalarının başına, məni bağışla! Mənim heç bir günahım yoxdur. Bir kətdi adamam, mən nə bilirəm kağız nədi, qutu nədi, poçt nədi? Başına dönüm, xan, məni çövür o gülüzlü balalarının başına. Heç ziyanı yoxdu, həyə ölməmənəm, sağ qalaram, qulluq elərəm, əvəzi çıxar, bir qələtdi eləmişəm, ta neyləmək? İşdi belə oldu. Bular hamısı Allahdandı. Gərək belə olaymış. Bağışla məni, xan. Mən ölənə kimi nökərəm sənə...

Bu sözləri deyib, Noruzəli bir az da yavıqlaşdı xana və istədi onun ayaqlarından öpsün. Xan bir az dala çəkilib dedi:

– Noruzəli! Heç ürəyini sıxma. Mən sənə nə deyirəm ki? Sən mənə nə pislik eləmisən ki, mən səni bağışlayım?

[1] Polsa – "polis" sözünün təhrif olunmuş şəkildə tələffüzüdür.
[2] Navaxt – qazamat, həbs

– Qurban olum sənə, bundan artıq daha nə pislik olacaq? Kağızı əlimdən verdim o kafir oğlu kafirə qoydu cibinə, çıxdı düzəldi yola, qoydu getdi.

– Kim kağızı qoydu cibinə, qoydu getdi?

– O kafir oğlu urus dana!

– Hara qoydu getdi?

– Getdi girdi orada bir yekə dam-daş vardı ki, qapısına qutu vurulubdu, getdi girdi ora.

Xan bir qədər duruxdu.

– Bəs sən kağızı qutuya salmadın?

– Necə ki, salmadım! Elə kağızı qutuya salan kimi, kafir gəlib qutunu bilmirəm nə təhər açdı, kağızı götürdü apardı.

– Qutuda sən saldığın kağızdan başqa ta özgə kağız yox idi?

– Necə ki, yoxdu? Çox kağızlar vardı. Elə onların hamısını yığışdırıb apardı.

Xan qah-qah çəkib güldü.

– Yox, Noruzəli, gərək hamısını nağıl eliyəsən başdan axıra kimi: necə kağızı apardın, necə saldın qutuya və nə üstə urusla savaşdın.

Noruzəli başladı:

– Xan, başına dönüm, mən kağızı buradan apardım, getdim çıxdım nəçərnik divanxanasının yanına. Sən mənə nişan verdiyin dam-daşı tapdım və qutunu tapdım, getdim qutunun qapağını qaldırdım. İstədim kağızı salam qutuya; bir kağıza baxdım, bir qutuya baxdım. Doğrusu, qorxdum ki, sənin mənə qeyzin tuta. Doğrusu, bilmədim salım, salmıyım; çünki yadımdan çıxdı səndən soruşum ki, kağızı qutuya salandan sonra durum qutunun yanında, ya qoyum gəlim evə. Fikirləşdim ki, əgər kağızı salım, durum qutunun yanında havədəyədək durum. Axı qurbanın olum, xan, özün gördün ki, ulağı ac qoydum getdim, cücələri qıçı bağlı qoydum. Bir tikə un gətirmişdim, hələ indiyə kimi də qalıb burda. Xan, başına dolanım, qoy elə indi yaxşı vaxtdı, qoy nökər gəlsin bu çuvalları götürək qoyaq evə, yağışzad yağar, un islanar.

– Yox, Noruzəli, sənin işin yoxdu... De, de sonra necə oldu?

– Kağızı salmadım. Qutunun qapağını örtdüm, çəkildim durdum bir az kənarda. Əvvəl istədim qayıdıb gəlib səndən soruşum; sonra, doğrusu, qorxdum mənə qəzəbin tuta. Doğrusu, qorxdum öz könlümdə deyəsən ki, Noruzəli çox heyvan adamdı, çox eşşək adamdı.



Qərəz çömbəldim divarın dibində ki, bir az yornuğumu alım. Aha, gördüm ki, bir erməni uşağı, olardı bax bu boyda, olardı on iki-on üç yaşında, gəldi, getdi düz qutunun yanına, qapağını qalxızdı və sən mənə verdiyin kağız kimi bir kağız saldı qutuya, qapağını örtdü, düz qoydu getdi işinə. Nə qədər o nainsafı çağırdım soruşum ki, desin görək bəs kağızı qutuda qoyub hara gedir, bilmirəm dilimi anlamadı, nədi ki, heç cavab vermədi; heç zalım oğlu üzümə də baxmadı. Elə erməni uşağı uzaqlaşmışdı bir urus arvadı tez-tez gəlib qutuya yavıqlaşıb, bir kağız saldı, qoydu getdi. Ta indi mən bir az ürəkləndim, ta dedim vallah görükən budu ki, elə bu qutuya salınan kağızlar gərək qalsınlar qutunun içində. Mən o qədər ürəkləndim ki, bismillah deyib, cürətnən getdim qutunun qapağını qaldırdım, kağızı saldım qutuya, çöndüm gəlim qulluğuna. Qutudan elə buradan ora kimi uzaqlaşmışdım ki, haman urus gəldi yetişdi qutunun yanına. Mən əvvəl elə bildim ki, bu da istiyir qutuya kağız salsın. Amma gördüm xeyr, lotunun fikri özgədi, qutunun yanından sağ əlini uzadıb qutunun içinə. Mən əlüstü duydum ki, hərif istəyir kağızları oğurlasın... Xan çox baş ağrısı verirəm, məni bağışla, oğlana buyur gəlsin məni yola salsın, bivaxtdı, gedib kəndə yetişə bilmənəm.

– A kişi, hələ hara qoyuram səni gedəsən. Nağıl elə görüm sonra necə oldu?

– Bəli, başına dolanım, xan, qurban olsun sənə mənim yetimyesirim! Sənsiz mənim bir günüm olmasın!.. Bəli, gördüm ki, hərif utanmaz-utanmaz kağızları qutudan ehmallıca çıxartdı, dəstələyib vurdu qoltuğuna! Qutunun qapısını örtüb, istədi düzəlsin yola. Mən tez qaçıb yapışdım urusun qolundan, qoymadım getsin. Dedim, ay aşna, hara aparırsan kağızları? Xalq səndən ötrü kağızları bura salmayıbdı ki! Dinməz-söyləməz üzünün suyunnan xalqın kağızlarını qoy yerinə! Dedim Noruzəli hələ ölmüyübdü ki, sən onun ağasının kağızını aparasan. Belə işlər yaxşı deyil, adam özgənin malına tamah salmaz. Məgər sizin şəriətdə oğurluq günah yazılmayıbdı? Xan, məni çövür balalarının başına, məni mürəxxəs elə, qoyun gedim: bivaxtdı, hava qaranlıqlayır.

– Hələ tələsmə, gedərsən... Sonra necə oldu?

– Qoy görüm harda qaldım... Ədə, qoyma-qoyma, ulağ tənəkləri sındıracaq.

Noruzəli istədi qaçsın ulağın yanına, xan qoymadı.

– Noruzəli, getmə, hələ getmə. De görüm sonra necə oldu?

– Ta necə olacaq? Nə qədər yalvardım, yapışdım ki, mənim xanım məni öldürər. Dedim barı mənim xanımın kağızını ver; illah dedi ki, vermənəm. Gördüm ki, hərif istəyir qoya qaça. Vallah hirs vurdu təpəmə, ikiəlli yapışdım kafirin çiynindən, bunu üzü üstə elə gətirdim yerə ki, heybətdən ağzı qanadı. Sonra nəçərnik divanxanasından saldatlar töküllüb məni döyə-döyə aparıb atdılar dama. Sənin qədəmlərinə belə mən qurban olum. Sən olmasaydın məni indi çoxdan göndərmişdilər Sibirə; çünki damda məndən savayı bir neçə dustaq vardı, mənə dedilər ki, o rus qulluq adamıdı. Ta... mən neyləyim? Xan, başına dolanım, di gör günah kimdədi?

Xan çox güldü, çox qah-qah çəkib güldü.

Hava qaranlıqlaşmışdı. Noruzəli boş un çuvallarını ac ulağın üstünə salıb, ulağı qatdı qabağına və zoğal ağacı ilə döyə-döyə getdi kəndinə.

Üç gündən sonra xana İrəvandan teleqraf çıxdı ki, "kağızın yetişib və otaqlar hazırdır". Xan yığışıb getdi İrəvana.

Ay yarımdan sonra Noruzəlini divana gətirdib "qulluqçunu bihörmət eləmək barəsində" üç ay navaxt kəsdilər; amma Noruzəli günahını boynuna almadı. Hələ üç ay da keçdi ancaq bu xəbər İrəvanda Vəlixana çatdı. Xan bir qədər fikir elədi.

*12 noyabr 1903*

# İRANDA HÜRRİYYƏT

Bizim məscidin dalında, qapının səkisində əlli-əlli beş yaşında bir kişi oturub kasıblıq edir; bunun peşəsi bisavad müsəlmanlara və çox vaxt İran qəriblərinə məktub yazmaqdır. Bu kişinin adı Məşədi Molla Həsəndir.

Məşədini burada yayda da görmək olar, qışda da, payızda da və baharda da.

Gah vaxt yay fəsli küçə ilə keçən vaxt görürsən ki, Məşədi Molla Həsən başını dayayıb səkinin bucağına, mürgüləyir, ya bir özgə vaxt keçəndə görürsən: bir o taylı çömbəlib Məşədinin qabağında və Məşədi gözlüyü burnunun üstə keçirdib, sol dizi üstə əlinin içində



yarım vərəq çirkli kağız tutub və başını yuxarı qalxızıb, gözlüyün altından kağıza baxıb, farsca oxuyur: "Və saniyən: əgər bizim vilayətin əhvalını xəbər almaq istəsəniz, lillahülhəmd, sağ və salamat sizin ömrünüzə duagu varıq və özgə bir nigaranlığımız yoxdur, savay sizin ayrılığınızdan; xudavəndi-aləm bir səbəb salsaydı ki, sizi mən bir də görə idim...".

Qış fəsli məscidin qabağından keçəndə görürsən ki, Məşədi Molla Həsən əbaya bürünüb və qabağına bir manğal qoyub, əyilib az qalır manğalı qucaqlasın. Ya bir vaxt keçəndə görürsən bir qəribə çömbəlib Məşədinin qabağında və əlləri ilə yavaş-yavaş manğalın odlarını deşir və Məşədi Molla Həsən sol əlində yazılı bir kağız tutub, sağ əlini qoltuğuna soxub kağızı oxuyur: "Məndən dua yetirəsiniz əmoğlum Kərbəlayı Qasıma, dayıoğlum Cəfərə, bibimə, Səkinə xanıma, Gülsüm əmiqızıma. Məndən dua yetirin Heydərə, Kərbəlayı Əliyə. Məndən dua yetirin Məşədi Xəlilə, Məşədi İskəndərə və Hüseynə və Qulaməliyə və Məşədi Zülfüqara və Usta Zeynala. Məndən çox-çox dua yetirin Məşədi Rüstəm əmimə və Nəcəfəliyə və Bayrama, Orucəliyə və Səbzəliyə və Kərbəlayı İsmayıla və Məhəmmədə. Və Məhəmmədə degilən ki, qardaşı Murtuzaqulu sağ və salamatdır və İrəvanda Hacı Həmidin bağında bağbandır və bir arvad da alıb, uşağı da olub və çox-çox dua göndərir və uşağın gözləri ağrıyır, amma şükür Allaha, özü salamatdır və çox-çox dua göndərir...".

Məşədi Molla Həsən İran əhlidir. On-on iki il bundan irəli Məşədi İraəvanda başına yeddi-səkkiz müsəlman uşağı yığıb müdərrislik elərdi. Axırda uşaqlar bir-bir başladılar dağılmağa; o səbəbə ki, uşağın biri dərsini bilməyəndə Məşədi Molla Həsən tüpürürdü uşağın üzünə. Bir neçə dəfə uşaqlar gedib atalarına şikayət elədilər, bir neçə dəfə uşaqların atası gəlib Mollanın üzünə tüpürdü. Amma bunlar hamısı ötüşərdi, əgər uşaqlar dağılmasa idilər.

Uşaqlar dağıldılar.

Əvvəlləri Məşədi Molla Həsən kitab satardı. İndi də onun səkisinin üstündə bir neçə köhnə cildli kitablar var: iki "Gülüstan", dörd cild "Camei-Abbas", bir cild Quran, iki cild çox köhnə "Nisab", bir dənə cildi dağılmış "Tərəssül" və bir dənə təzə "Əbvab"[1]. Amma

[1] "İranda hürriyyət" hekayəsinin yazıldığı zaman Azərbaycanda çox oxunan kitablardır.

bu kitablardan bir ilin içində Məşədi Molla Həsən yeddi-səkkiz ciddən artıq sata bilməz.

Odur ki, Məşədinin güzaranı kağız yazmaqla keçir. Gün olmaz ki, üç-dörd qərib və kəndli gəlib Məşədi Molla Həsənə kağız yazdırmasın. Hər kağızın birinə Məşədi iki qəpik, üç qəpik, ya düşəndə bir şahı alır. Kağız yazdıran çox kasıb olanda bir qəpiyə də yazır; bu şərtlə ki, kağızı, yazdıran özü gərək alıb gətirsin.

Allah bərəkət versin; yaxşı sənətdir. Müsəlman aləmində heç sənət o mərtəbədə rəvac deyil, nə qədər ki, özgələrə məktub yazmaq. Anadolu məscidlərinin qapılarından keçmək mümkün deyil; o tərəfi-bu tərəfi müsəlmanlar tutub doluşurlar bir və ya iki mollanın başına ki, kağız yazdırsınlar. Habelə Tehran, Təbriz, İrəvan, Tiflis, Bakı ya qeyriləri. Gəncə məscidinin qapısının hər bir səkisində bir Məşədi Molla Həsən kimi şəxs əyləşib. İyirmi-otuz adam bunları əhatə edir ki, kağız yazdırsınlar. Məscidə girib-çıxmaq mümkün olmur.

Allah bərəkət versin.

Amma bircə burası yaxşı deyil, kağız yazdıranların hamısı kasıb adamlar olur. Görürsən ki, bir fəqir fəhlə gəlir ki:

– Məşədi əmi, mənə bir kağız yaz!

Məşədi Molla Həsən bunu eşitcək sağ əlini uzadır fəhlənin qabağına və soruşur:

– Çıxart görüm, cibində nəyin var?

Fəhlə əlini salıb cibindən iki qəpiyi çıxardır.

Məşədi deyir ki:

– Bu azdır.

Fəhlə and içir ki:

– Dəxi pulum yoxdu.

Məşədi and içir ki:

– Yazmanam.

Axırda fəhlə razı olur ki, gedib bir qəpik də tapıb gətirsin.

Sonra Məşədi Molla Həsən əvvəl eynəyi taxır gözünə, sonra qələmdanı açır, qələmdanın dəvatına[1] bir qətrə su tökür, qamış qələmin ucunu basır sol əlinin şəhadət barmağının ucuna, sonra bir vərəq çirkli poçt kağızını kitabın içindən tapıb yarıdan cırır, yarısını səliqə

[1] Dəvat – keçmişdə qamış qələmlə yazmaq üçün işlənən qara rəngli mürəkkəb



ilə qoyur kitabın arasına, yarısını qoyur sol dizinin üstünə, qələmi batırır mürəkkəbə və öz-özünə başlayır kağızı yazmağa. "Sahiba, qibləgaha! Əvvələn və saniyən..." Qərəz xeyir-duanı və axırda "amin ya rəbbülaləmin" yazıb üzünü tutur kağız yazdırana və deyir:

– İndi sözünü de yazım.

Kağız yazdıran dərdini yazdırıb qurtarandan sonra qəpikləri verib Məşədi Mollaya, kağızı alıb qoyur qoltuq cibinə ki, gedib görsün vətənə gedən varmı ki, kağızı yollasın.

Miladi tarixinin min doqquz yüz altıncı ilində sentyabr ayının 13-də Məşədi Molla Həsən iki nəfər adama kağız yazıb: birini İranın "Ərəblər" kəndinin sakini Kərbəlayı Məmmədəliyə, o birini təbrizli Usta Cəfərə.

Ax, başı bəlalı kağızlar! Dünya və aləmi bir-birinə vurdunuz! Kaş sizi yazanın barmaqları quruya idi və sizi yazıb xalqı bu qədər bəlalara salmaya idi!

Qərəz, keçək mətləb üstə.

Kərbəlayı Məmmədəli iki il yarımdır ki, qürbətə çıxıb az-çox çörək pulu qazansın və əhlü əyalını saxlasın. Əhlü əyalı ibarətdir bir anasından, bir arvadından və yeddi-səkkiz yaşında bir oğlundan.

Əvvəllər Kərbəlayı Məmmədəli fəhləlik edərdi və iki-üç ayda bir üç-dörd manat xərclik və altı-yeddi arşın çit göndərərdi evinə. Keçən il erməni-müsəlman davası düşəndə Kərbəlayı Məmmədəli getmişdi vətənə və beş-on manat pul da aparmışdı. Amma səkkiz aydır ki, evindən çıxıb gəlib indiyədək ancaq bir dəfə "Ərəblərə" anasına iki manat göndərib ki, evdə xərclik eləsinlər. İki dəfə anası və arvadı sifariş eləyiblər və iki dəfə kağız göndəriblər ki, xərclikdən yana korluqları var və Kərbəlayı Məmmədəlidən bir az pul istəyiblər. Bu sifarişlərin və kağızın cavabında Kərbəlayı Məmmədəli bir dəfə kağız göndərib və bir dəfə də sifariş eləyib ki, buralar şuluqdur və iş-zad o qədər yoxdur; bir az səbr eləsinlər, inşallah, ara sakitləşəndən sonra evə xərclik göndərər.

Bu vilayətin şuluq olmağını Kərbəlayı Məmmədəli düz yazırdı, çünki doğrudan buralar şuluq idi. Amma orasını yalandan yazırdı ki, iş-zad o qədər yoxdur; gün olmazdı ki, Kərbəlayı Məmmədəli fəhləlikdən dörd abbası, bir manat qazanmasın və bunu da demək olmaz ki, Kərbəlayı Məmmədəli əhlü əyalını istəmirdi. Çox səy edirdi ki, pul göndərsin; amma göndərə bilmirdi. Nə qədər istəyirdi göndərsin,

birdən görürdü ki, cibində pul yoxdur. Bir neçə gün keçirdi, öz-özünə deyirdi ki: "inşallah, bu gün vətənə gedən adam taparam və heç olmasa, iki manat evə göndərərəm". Amma axırda genə göndərə bilmirdi. Ondan ötrü göndərə bilmirdi ki, xərci çox idi və xərci də ondan ötrü çox idi ki, Allahın izni ilə, peyğəmbərin şəriəti ilə Kərbəlayı Məmmədəli burada bir dul arvad siğə eləmişdi.

Həmin arvad Kərbəlayı Məmmədəlinin yoldaşı bir fəhlənin bacısı idi. Əvvəllər bu arvad Kərbəlayı Məmmədəlinin paltarını yuyardı.

Bir dəfə Kərbəlayı Məmmədəlini yoldaşı evlərinə qonaq aparmışdı. Nə tövr düşdü ki, Kərbəlayı Məmmədəli arvadın qıçlarını görüb xoşladı və axırda da ki, aldı. Qabaqca Kərbəlayı Məmmədəli "Aslan karvansarası"nın bir hicrəsində qalırdı və danışmışdı təzə arvadına ayda bircə manat xərclik versin. Amma sonra arvadı bir az da artıq xoşlayıb köçdü arvadın evinə. Arvadın adı Pərinisə idi.

* * *

Günlərin bir günü Kərbəlayı Məmmədəli qaçaraq evə gəlib təzə arvadına dedi:

– Ay qız, Pərinisə, muştuluğumu ver!

Pərinisə təəccüblü soruşdu:

– Nə olub?

Kərbəlayı Məmmədəli dübarə dedi:

– Muştuluğumu ver!

Pərinisə genə soruşdu:

– Nə olub?

Kərbəlayı Məmmədəli genə dedi:

– Muştuluğumu verməsən, demiyəcəyəm.

Pərinisə Kərbəlayı Məmmədəliyə yaxınlaşıb yapışdı əllərindən və genə soruşdu:

– Sən Allah, de görüm nə olub?

Kərbəlayı Məmmədəli genə dedi:

– Vallah, muştuluğumu verməsən, demiyəcəyəm.

– Yaxşı, muştuluğun borc olsun, de görüm nə olub?

Kərbəlayı Məmmədəli dedi:

– Bizim İrana hürriyyət verilib.



Pərinisə bir qədər dayanıb soruşdu:

– Nə verilib?

– Ay qız, hürriyyət də!.. İndiyə kimi bunu da bilmirsən?

Pərinisə genə bir qədər dayanıb və bir az təəccüblü soruşdu:

– Hürriyyət nədi?

Kərbəlayı Məmmədəli arvadın əllərini özündən kənar eləyə-eləyə başını sol tərəfə çöndərdi və bir cür narazı olan kimi cavab verdi:

– Ay rəhmətliyin qızı, indi axı mən sənə nə deyim, necə səni başa salım? İndi dünya-aləm bilir ki, İrana hürriyyət verilib. İndi küçədə uşaqlar da bilirlər ki, İrana hürriyyət verilib. Bu gün həmşərilərin hamısını qonsur[1] çağırmışdı məscidə, padşaha dua eləyirdilər ki, İrana hürriyyət verib. Mən də getmişdim məscidə. O qədər adam vardı ki, iynə salmağa yer yox idi. Kərbəlayı Həsənqulu da orada idi. Həmşərilər o qədər sevinirdilər ki! Doğrudan da indiyə kimi biz yazıq həmşərilər çox qara gün çəkmişik. Fəhləlik eləməkdən canımız çıxdı. Amma görürsən, Ursetdə heç fəhlə yoxdu, hamısı yazıq həmşəridi. Pərinisə, Allah qoysa, bundan sonra pulumuz çox olar. Elə ha deyirdin ki, mənə urus məxmərindən bir arxalıq al. İndi, vallah, bundan sonra alaram! Axı özün görürdün ki, pulum görmürdü; amma, Allah qoysa, bundan sonra pulum çox olar. Kabla İmaməli, Kabla Noruz, Qasıməli, Oruc, Məşədi Bayram o qədər sevindilər ki, az qalırdılar börklərini göyə atalar. Qonsur, deyillər, sabah həmşərilərin hamısını çağıracaq, hürriyyət paylıyacaq. Ay can, ay can!.. Sağ olsun bizim padşahımız, ay can!..

Bu sözləri deyə-deyə Kərbəlayı Məmmədəli çıtmıq çalıb oynayırdı. Pərinisə sevincək genə gedib yapışdı ərinin əllərindən.

Sabah oldu. Axşam vaxtı Kərbəlayı Məmmədəli gəldi evə və içəri girən kimi Pərinisəyə dedi:

– Pərinisə, balam, qonsur bizə heç zad paylamadı, dedi sizin hürriyyət payınızı İranda öz vətəninizdə paylıyacaqlar.

Bu sözləri eşidəndən sonra Pərinisə qaş-qabağını tökdü və bir az dinməyib axırda ərinə dedi:

– Yalan deyirsən.

Kərbəlayı Məmmədəli başladı and içə-içə arvadını inandırmağa:

– Yalan deyirəm atama nəhlət! Qonsur bizə heç zad paylamadı.

[1] Qonsur – konsul

– Yalan deyirsən.

– Vallah, heç zad paylamadı.

– Söz yox, paylamaz. Mənim baxtım harada idi ki, paylasın. Burada paylamadı ki, İranda vətəninizdə paylasın, yetişsin o kaftar arvadına. Mənim baxtım harada idi ki, burada paylasın.

Bir qədər öz baxtından şikayət edəndən sonra Pərinisə acıqlı ərinə dedi:

– Bax, Kabla Məmmədəli, mən onu-bunu bilmənəm, həyə mən sənə arvadam, gərək canın çıxsın, arvadını saxlayasan. İndi iki aydır mən səndən bir məxmər arxalıq istəyirəm. Almırsan ki, kasıbam, pulum yoxdu. İndi də başlamısan ki, mənim payımı qonsur vermədi, vətəndə verəcəklər. Mən heç vədə dözə bilmənəm ki, mənim qismətimi o kaftar arvadın alıb yesin. Ya helə bu gün get, kağızı yazdır ki, sənin payını yollasınlar bura, özünə, o kaftara verməsinlər; ya ki, mən bilmirəm neylərəm.

Bu sözlərin cavabında Kərbəlayı Məmmədəli dedi:

– Ay arvad, sən Allah boş-boş danışma. Vətəndə hər nə paylasalar, verəcəklər anama. Anam heç olmaz ki, mənim payımı özümə göndərməsin. Vallah, göndərər, anam məni çox istəyir. Ürəyini sıxma, dur bir tikə çörək gətir yeyək.

Pərinisə çörək gətirib qoydu ərinin qabağına, amma özü gedib oturdu bucaqda.

Axırda Kərbəlayı Məmmədəli and içdi ki, sabah olcaq gedib vətənə kağız yazdırar ki, onun payını göndərsinlər burada özünə yetişsin. Pərinisə bir az sakit oldu.

Sübh tezdən Kərbəlayı Məmmədəli çıxdı küçəyə və bilməzdi nə eləsin. Bir tərəfdən Pərinisədən çox qorxurdu və heç özü də bilmirdi ki, nəyə qorxurdu. Bir tərəfdən də vətəndəki arvadı Tükəzbandan da qorxurdu ki; qorxurdu ki, kağız yazdırıb göndərsə, vətəndə Tükəzban duyar ki, əri payını təzə arvaddan ötrü istəyir. Burada evlənməyini Kərbəlayı Məmmədəli bərk gizlədirdi. Ondan ötrü ki, vətəndən gələndə Tükəzbanın qardaşları onu qorxutmuşdular ki, əgər qürbətdə evlənsə, gəlib burada onun başını yararlar. Tükəzban da and içmişdi ki, əgər Kərbəlayı Məmmədəli qürbətdə evlənsə, başıaçıq, ayaqyalın gəlib təzə arvadının saçlarını yolar.

Bu işləri fikir eləyə-eləyə Kərbəlayı Məmmədəli gəlib yetişdi məscidin qapısına. O vədə Məşədi Molla Həsən təbrizli Usta Cəfərə kağız yazıb təzə qurtarmışdı. Usta Cəfərin kağızı bu məzmunda idi:



"Əvvələn... salam-dua... və saniyən... Amin ya rəbbülaləmin. Ey mənim istəkli anam, neçə müddətdir ki, gəlib qürbətdə işləyirəm, heç səni yadımdan çıxarmıram. Amma, ay ana, vallah məndən incimə ki, sənə xərclik göndərmirəm. Ha istəyirəm göndərəm, amma vallah, bilmirsən buralar necə bahalıqdır. Görürsən, əvvəlləri mən tək canıma qalırdım, o vədə xərcim az olurdu, hərdənbir sənə bir-iki manat göndərirdim. Amma, söz yox, Allah özü buyurub ki, müsəlman bəndələrin tək qalmağı yaxşı deyil və Allahın buyurmağına görə necə də ki, məsələn, mollalar həmişə vəz eləyəndə bizə deyiblər ki, müsəlmançılıqda tək qalmaq yaxşı deyil, odur ki, məsələn, səndən də ayıb olmasın, Allahın izni ilə və peyğəmbərin şəriəti ilə burada səndən də ayıb olmasın bir arvad siğə eləmişəm. Genə necə olsa arvaddır, xərci-zadı olacaq. Vallah, qazandığım ancaq evimizin xərcini görür, dəxi o qədər qalmır ki, sənə də göndərəm və bir də mənim əvəzimdən bizim oğlanın üzündən öp və bir də cəmi qohum-əqrəbaya dua yetir".

* * *

Məşədi Molla Həsən həmin kağızı təzə qurtarmışdı ki, Kərbəlayı Məmmədəli yavıqlaşıb salam verdi və üzünü mollaya tutub dedi:

– Molla əmi, mənə də bir kağız yaz!

Məşədi Molla Həsən, Kərbəlayı Məmmədəliyə dedi:

– Baş üstə, – və Usta Cəfərə dedi ki: – Götür qələmi kağıza qol qoy. – Usta Cəfər mollaya cavab verdi ki:

– Qoy kağız qurusun, mən gedim paket alım gətirim, sonra qol qoyaram.

Usta Cəfər durub getdi. Kərbəlayı Məmmədəli çömbəldi mollanın qabağına və Məşədi Molla Həsən, Usta Cəfərə yazdığı kağızı qoydu günün qabağına, kitabın içindən bir vərəq çirkli poçt kağızı çıxardı və sonra sağ əlini Kərbəlayı Məmmədəliyə uzadıb dedi:

– Çıxar görüm, mənə nə verəcəksən?

Kərbəlayı Məmmədəli yavaş-yavaş sağ əlini uzatdı cibinə və üç dənə tək qəpik qoydu mollanın qabağına.

Məşədi Molla Həsən pulları götürüb, əvvəl tutdu günün qabağına, sonra saldı cibinə, sol dizini qalxızdı yuxarı, kağızı sol əlinin içində qoydu dizinin üstə. Qələmi batırdı mürəkkəbə və başladı

yazmağa: "Əvvələn... salam və dua...və saniyən...Amin ya rəbbülələmin..." Bunu yazandan sonra üzünü tutdu Kərbəlayı Məmmədəliyə:

– De görüm sözün nədi?

Kərbəlayı Məmmədəli bir öskürüb başladı:

– Molla əmi, sənin yanında qalsın, məsələn... – Məşədi Molla Həsən istədi yazsın, Kərbəlayı Məmmədəli tez əlini uzadıb yapışdı qələmdən:

– Yox, yox, yazma. Hələ qulaq as!

Məşədi Molla Həsən qələmi çəkdi və başladı qulaq asmağa. Kərbəlayı Məmmədəli dedi:

– Məsələn: yazgilən, ay ana, deyirlər İrana hürriyyət veriblər.

Məşədi Molla Həsən başladı yazmağa: "Ay ana, İrana hürriyyət veriblər".

Kərbəlayı Məmmədəli dedi:

– Yaz dünən qonsur bizə xəbər verdi ki, bizim payımızı vətəndə paylayacaqlar. – Məşədi Molla Həsən bu sözləri də yazdı. Kərbəlayı Məmmədəli dedi: – Yaz indi, ay ana, mən, vallah, heç zad istəmirəm. Amma ayıb olmasın... qoy görüm necə yazaq? Molla əmi səndən də ayıb olmasın, bizim ev adamı, ayıb olmasın...

Məşədi Molla Həsən istədi yaza, genə Kərbəlayı Məmmədəli əlini atdı qələmə və çığırdı:

– Yox, yox, nə qayırırsan? Sən imam, onu yazma, yazma. Bilməzsən mənim sözlərimin hamısını yazarsan ha! Yox, yox başına dönüm, a molla, məni xanəxərab elərsən...

Məşədi Molla Həsən qələmi kağızdan çəkib, başladı qulaq asmağa. Kərbəlayı Məmmədəli başladı:

– Yaz mənim payıma hər nə düşsə, göndər mənim özümə...

Məşədi Molla Həsən bu sözləri yazdı. Kərbəlayı Məmmədəli başladı:

– Hərçənd mən bilmirəm nə qədər düşəcək. Elə tutaq ki, az da düşsə göndər. Çünki doğrudan, a molla, mən heç bu sözləri ağzıma alıb danışmazdım, amma bu arvadların öhdəsindən məgər gəlməkmi olur?..

Məşədi Molla Həsən istədi yaza. Kərbəlayı Məmmədəli tez əlini uzadıb yapışdı qələmdən və çığırdı:

– Yox, yox, sən Allah, yazma. Arvad sözü yazma. Birdən bilməzsən yazarsan, arvad almışam... Elə bircə onu yaz ki, payımı göndərsinlər. Vəssəlam.



Məşədi Molla Həsən bunu da yazdı. Kərbəlayı Məmmədəli dedi:

– Vəssəlam. Bir də yaz mənim əvəzimdən bizim oğlanın üzündən öp və ayıb olmasın, ev adamının kefi necədi və hamı qohum-əqrəbaya dua göndərirəm. Vəssəlam. Di indi buları da yaz, vəssəlam. – Məşədi Molla Həsən bu sözləri də yazdı.

Axırda Kərbəlayı Məmmədəli təvəqqə elədi ki, yazdığını bir dəfə oxusun. Molla başladı yazdığını oxumağa. "Əvvələn salam-dua... və saniyən...Ya rəbbül-aləmin...Ay ana, deyirlər İrana hürriyyət veriblər. Dünən qonsur bizə xəbər verdi ki, bizim payımızı vətəndə paylayacaqlar. İndi, ay ana, mənim payıma hər nə düşsə, göndər və bir də mənim əvəzimdən bizim oğlanın üzündən öp və ayıb olmasın, ev adamının kefi necədi və hamı qohum-əqrəbaya dua göndərirəm. Vəssəlam".

Kağızı oxuyub qurtarandan sonra Məşədi Molla Həsən bu kağızı da qoydu Usta Cəfərin kağızının yanına, günün qabağına. Bu heyndə Usta Cəfər əlində bir çirkli paket gəldi, Məşədi Molla Həsən Usta Cəfərin kağızını və qələmi verdi ki, qol qoysun. Usta Cəfərin gözü sataşdı Kərbəlayı Məmmədəliyə yazılan kağıza və əyilib haman kağıza diqqətlə baxıb dedi ki:

– Ay Məşədi Molla əmi, öz aramızdı, amma bu kişinin kağızını mənim kağızımdan yaxşı yazmısan? Bax mənim kağızımın xətti o qədər gözəl deyil, amma o kağızın xəttinə bax...

Bu sözləri deyə-deyə Usta Cəfər Kərbəlayı Məmmədəlinin kağızını əlinə götürüb başladı ikisini də bir-biri ilə tutuşdurmağa. Kərbəlayı Məmmədəli də başını uzadıb əvvəl öz kağızına baxdı, sonra Usta Cəfərin kağızına baxdı və bir söz demədi. Məşədi Molla Həsən bu kağızları əlinə alıb, hər ikisinə eynəyinin altından diqqətlə baxa-baxa dedi:

– Pəh-pəh... Afərin belə xəttə, bir-birindən gözəldi.

Bu sözləri deyəndən sonra Məşədi Molla Həsən Kərbəlayı Məmmədəliyə yazdığı kağızı səhvən verdi Usta Cəfərə, Usta Cəfərə yazdığı kağızı qoydu günün qabağına. Usta Cəfər bilməyə-bilməyə Kərbəlayı Məmmədəlinin kağızını molladan aldı, qələmi götürdü, kağızı qoydu sol dizinin üstə və hıqqana-hıqqana, kəhildəyə-kəhildəyə on dəqiqənin müddətində yaman-yaxşı adını yazdı, sonra yazdığı yerə bir çimdik torpaq töküb paketi qoydu qoltuğuna və ayağa durub, "xudahafiz" deyib getdi.

Usta Cəfər uzaqlaşandan sonra Məşədi Molla Həsən Kərbəlayı Məmmədəliyə də dedi ki, gedib paket alıb gətirsin. Kərbəlayı Məmmədəlinin fikri bu idi ki, kağızı paketə qoymamış aparsın əvvəl Pərinisəyə göstərsin, sonra qoysun paketə. Məşədi Molla Həsən Usta Cəfərə yazdığı kağızı dörd qat büküb verdi Kərbəlayı Məmmədəliyə və dedi ki:

– Sonra nə vaxt paketini gətirsən, üstünü yazaram.

Kərbəlayı Məmmədəli kağızı götürdü əlinə və qələmi alıb hıqqana-hıqqana bir belə cızma-qara çəkdi: Məmməd ələd. Guya ki: Məmmədəli. Sonra dörd qat büküb qoydu qoltuq cibinə və durdu getdi.

Kərbəlayı Məmmədəli gəldi evinə, kağızı qoltuq cibindən çıxarıb uzatdı arvadına və dedi:

– Bax, Pərinisə, gedib kağız yazdırdım, göndərəcəyəm anama. Yazmışam ki, mənim hürriyyət payımı göndərsinlər. Həyə inanırsan, heç; inanmırsan, al apar kağızı hər kəsə istəyirsən oxut, gör belədi, ya yox.

Pərinisə kağızı aldı əlinə, o tərəfinə baxdı, bu tərəfinə baxdı, sonra büküb qoydu taxçaya. Axşam vaxtı arvad kağızı götürüb qoydu qoltuğuna və getdi qardaşı Kərbəlayı Rzanın evinə. Kağızı çıxartdı verdi qardaşına və dedi:

– Dadaş, sən Allah bu kağızı apar ver bir adam oxusun, görək burada nə yazılıb?

Kərbəlayı Rza əvvəl kağızın əhvalatını bacısından soruşdu və bir qədər fikirləşib dedi:

– Ay qız, Pərinisə, sənin heç ağlın yox imiş.

Pərinisə soruşdu:

– Niyə, dadaş?

Qardaşı cavab verdi:

– Ay axmaq, bir fikir elə gör İrannan da bura hürriyyət gələr?

Pərinisə dedi:

– Ay dadaş, sən niyə elə söz danışırsan? İran nə uzaq yerdi ki, gəlməsin? "Ərəblər" kəndi odur a... Arazın qırağındadı. Nə bir uzaq yoldu ki? Burdan ora üç-dörd günlük yoldu.

– Yaxşı deyirsən, Pərinisə, "Ərəblər" çox uzaq yer deyil. Amma axı İrannan bura hürriyyət gələr?



Pərinisə bir az acıqlı kimi dedi:

– Ay dadaş, sən niyə elə söz danışırsan? İran nə uzaq yerdi gəlmiyə? Sən elə mənim hər sözümü axmaq hesab eləyirsən. Oxutmursan, ver mənə kağızı, mən özüm aparıb oxudaram.

Kərbəlayı Rza kağızı vermədi və gülə-gülə dedi:

– Yaxşı, Pərinisə, mən kağızı sabah aparıb oxudaram. Qoy Kərbəlayı kağızı göndərsin, amma vallah genə axırda mən deyən olacaq; çünki, axı kim eşidibdi ki, o taydan bura hürriyyət gəlsin. O taydan bu üzə hena gələr, səbzə, badam içi gələr, tütün, çay, tiryək... belə zadlar gələr; yoxsa vallah, mən ömrümdə bir dəfə də eşitməmişəm ki, hürriyyət gələ. Heç bu tərəflərdə hürriyyət alış-veriş eliyəni də mən eşitməmişəm.

Pərinisə bir az fikir eləyəndən sonra genə qardaşından təvəqqə elədi ki, kağızı aparıb bir adama oxutsun. Qardaşı söz verdi ki, kağızı sabah oxudar.

Sabah oldu və Kərbəlayı Rza kağızı apardı əvvəl Molla Orucəlinin yanına. Molla Orucəli iki ildi burada bir məktəb açıb və başına beş-on uşaq yığıb oxudur.

Molla Orucəli kağızı aldı və diqqətlə baxandan sonra dedi ki:

– Bu kağız tərəssül[1] xətti ilə yazılıb. Çox qarışıq yazılıb. Mən bu xəttə aşina deyiləm. Apar elə bir adama oxut ki, bu xəttə aşina olsun.

Kərbəlayı Rza kağızı aldı, apardı rus-müsəlman məktəbinin müəllimi Mirzə Həsənə nişan verdi və təvəqqə elədi oxusun. Mirzə Həsən həmin məktəbdə müsəlman dərsinin müəllimidir və özü də "seminariya" deyilən müəllimxanada təhsil eləyib. Mirzə Həsən kağıza diqqətlə baxıb dedi:

– Bu kağızı yazanın əlləri çolaq olsun! Elə narın və rizə yazıb ki, oxumaq mümkün deyil.

Kərbəlayı Rza kağızı Mirzə Həsəndən aldı və bilmədi daha kimin yanına getsin və kimə oxutsun. Birdən Kərbəlayı Rzanın yadına düşdü ki, Əttar Məşədi Hüseyn gərək çox dərs oxumuş adam ola; çünki çox məclislərdə Məşədi Hüseynin şəriətdən, həqiqətdən, xilqətdən və hidayətdən bəhs etməyini Kərbəlayı Rza bir neçə dəfə eşitmişdi. Həmişə Məşədi Hüseyn danışanda Kərbəlayı Rza öz-özünə deyərdi ki: "Yəqin Məşədi Hüseyn alim adamdır".

[1] Tərəssül – ərəb əlifbası ilə xətt növüdür.

Kərbəlayı Rza Məşədi Hüseynin dükanına yetişib, gördü ki, Məşədi tərəzinin bir çanağına bir parça nabat qoyub çəkir və müştəriyə bu sözləri deyir:

– Allah ölənlərinə rəhmət eləsin, rəhmətlik babam həmişə məni qucağına alanda atama deyərmiş, bax, oğlum, Kərbəlayı İsmayıl, bu uşaqdan muğayat ol, bunun gözlərindən elm yağır. Bu uşaq əvvəl-axır alim olacaq. İndi mən baxıram ki, həqiqət də rəhmətlik babam bilirmiş ki, mən axırda nə olacağam. Amma, söz yox ki, elm elə bir şey deyil ki, öz-özünə gəlsin girsin adamın başına. Elmi təhsil eləmək lazımdır, sümük sındırmaq lazımdır; yoxsa elm bir elə şey deyil ki, öz-özünə gəlib girsin adamın başına. Elmi təhsil eləyincə insanın anadan əmdiyi süd adamın burnunun dəliklərindən gəlib tökülür. Heç bilmirsən başıma nə işlər gəlib, ayaqlarıma nə qədər çubuqlar dəyib, nə qədər kötəklər yemişəm. Axırı ki, gözümün nuru tökülüb, bir tövr alimlər cərgəsinə daxil olmuşam. Yoxsa, qadan alım, bu işlər zarafat deyil və bir də insanda qabiliyyət də gərək olsun, zəkavət də gərək olsun. Hamı oxuyan alim olmaz.

Kərbəlayı Rza yetişib kağızı tutdu Məşədi Hüseynin qabağına və dedi:

– Məşədi əmi, Allah atana rəhmət eləsin, bir bax görək bu kağızda nə yazılıb?

Məşədi Hüseyn müştəriyə nabatı verəndən sonra Kərbəlayı Rzadan kağızı aldı və başladı diqqətlə baxmağa. Bir azdan sonra dedi:

– Bu kağızı kim yazıb?

Kərbəlayı Rza cavab verdi ki:

– Bilmirəm kim yazıb. Gərək ki, məscid qabağında kağız yazan molla yazmış ola.

Məşədi Hüseyn başladı kağızı oxumağa: "Əvvələn: ümdeyi-mətləb səlamətiyi-vücudi-zicudi-şümast. Və saniyən, əgər əhvalati-in canibra xastə başid, əlhəmdulillah səhih və sələmət həstim və nigarani nədarim sivai-duri-əz şüma. Xudavəndi-aləm səbəbi sazəd və vəsileyi-xeyr əngizəd ki, didari-şərifi-şümara bəxeyrüxubi didar nümayim. Amin, ya rəbbülaləmin!.. və bəd..."[1].

[1] Tərcüməsi: əvvələn ümdə mətləb sizin qiymətli vücudunuzun səlamətliyidir. Sonrakı, əgər bu tərəflərin əhvalını bilmək istəsəniz, əlhəmdüllah, sağ və salamat varıq və sizdən ayrı olmağımızdan savayı nigarançılığımız yoxdur. Xudavəndi-aləm elə bir səbəb yaratsın, elə bir xeyir iş görsün ki, sizin xoş üzünüzü yaxşılıq və gözəlliklə görək. Amin, ya rəbbül-aləmin... və ilaxir.



Məşədi Hüseyn kağızı buraya kimi oxuyub burada dayandı və genə kağıza diqqətlə baxıb çətinliklə bu sözləri oxudu: "Qürbət vilayət". Sonra genə duruxdu və kağızı işığa tutub başladı o tərəf-bu tərəfə çöndərməyə və genə diqqətlə baxıb hıqqana-hıqqana bu sözləri oxudu: "Çünki"...

Bir-iki dəfə də Məşədi Hüseyn "çünki", "çünki" deyib dayandı; kağızı qoydu tərəzinin çanağına və üzünü tutdu Kərbəlayı Rzaya:

– Balam, bu kağızı yazanı mən tanıyıram. Bunu yazan Məşədi Molla Həsəndir. Zalım oğlu, zalım, yazdığı kağızı heç kəs oxuya bilməz; çünki Məşədi Molla Həsən doğrudan dərin molladı. Mən deyirəm Təbrizdə də belə oxumuş adam az tapılar və Məşədi Molla Həsən yazdığı kağızı az-az adam oxuya bilər. Maşallah kağız yazana! And olsun Allaha, kişiyə deyəsən vergi verilib. Bir xəttə bax, xəttə bax!

Bu sözləri deyə-deyə Məşədi Molla Hüseyn genə kağızı götürdü əlinə və başladı tamaşa eləməyə.

Kərbəlayı Rza aldı kağızı və qoydu cibinə və istədi qayıdıb gəlsin evə. Məscidin yanından keçəndə Kərbəlayı Rzanın fikrinə gəldi ki, kağızı yazan haman eynəkli molladır ki, məscidin qapısında səkinin üstündə oturub, bir kəndliyə kağız yazırdı. Kərbəlayı Rza Məşədi Molla Həsənin yanına gəlib dedi:

– Səlamün-əleyküm, Molla dayı! Molla dayı, sən Allah bir mənə de görüm dünən Kərbəlayı Məmmədəliyə sənmi kağız yazmısan?

Məşədi Molla Həsən eynəyinin altından Kərbəlayı Rzaya diqqət edib cavab verdi:

– Hansı Kərbəlayı Məmmədəliyə?

Kərbəlayı Rza dedi:

– Haman adama ki, yazıb onun hürriyyət payını özünə göndərsinlər.

Məşədi Molla Həsən cavab verdi:

– Bəli, bəli, mən yazmışam. Dünən yazdım. Yaxşı yazmışam, arxayın ol, yəqin göndərərlər; çünki yaxşı yazmışam. Deyəsən sən özün gəlib dünən yazdırdın?

– Xeyr, mən deyiləm, mənim yeznəmdi.

– Bəli, bəli, inşallah göndərərlər. Arxayın ol!

– Allah atana rəhmət eləsin, xudahafiz!

Kərbəlayı Rza bir az rahat olub gəldi evə və kağızı Pərinisəyə verib and içdi ki, kağız yazan molladan əhvalatı bilibdir və Kərbəlayı Məmmədəli kağızı necə ki deyir, elə də yazdırıbdır.

Axşam Pərinisə kağızı verdi Kərbəlayı Məmmədəliyə ki, göndərsin vətənə.

Kərbəlayı Məmmədəli kağızı götürdü və getdi makulu Hacı Əli adlı tacirin dükanına və kağızı Hacı Əliyə verib təvəqqə elədi ki, Makuya gedən olsa, kağızı versin aparsınlar Şahtaxtında versinlər çayçı Məşədi İskəndərə ki, Məşədi İskəndər göndərsin "Ərəblərə", onun anasına.

* * *

Aradan bir ay keçdi. Gündə bir dəfə Kərbəlayı Məmmədəli axşamlar işdən evə gələndə Pərinisə soruşurdu:

– A kişi, kağızdan bir xəbər varmı? – Kərbəlayı Məmmədəli cavab verərdi ki:

– Bir xəbər yoxdu.

Əvvəl vaxtlar Kərbəlayı Məmmədəli belə cavab verəndə arvadı deyərdi:

– Yalan deyirsən, – və Kərbəlayı Məmmədəli and içərdi ki:

– On iki imam haqqı yalan demirəm.

Arvad genə deyərdi ki:

– Yalan deyirsən – və Kərbəlayı Məmmədəli cavab verərdi:

– Həyə yalan deyirəm, atama nəhlət! – Arvad deyərdi:

– Bəlkə heç kağızı göndərməmisən? – və Kərbəlayı Məmmədəli cavab verərdi ki:

– Qoy qardaşın Kərbəlayı Rza getsin makulu Hacı Əlidən soruşsun görsün, göndərmişəm ya göndərməmişəm.

Axır vaxtlarda da Kərbəlayı Məmmədəli deyəndə "kağızdan bir xəbər yoxdu", Pərinisə başlardı əri ilə dava-mərəkə eləməyə ki, "yəqin kağızdan xəbər var, amma sən məndən gizləyirsən". Dəxi burada and içməkdən başqa Kərbəlayı Məmmədəlinin özgə bir çarəsi olmazdı.

Bir gün sübh tezdən Pərinisə yuxudan ayılıb, başladı Kərbəlayı Məmmədəlini təpikləyib oyatmağa. Kərbəlayı Məmmədəli oturdu və başladı gözlərini ovuşdurmağa. Arvad ərinə dedi:

– Kərbəlayı Məmmədəli, indi bu gün kağızdan yaxşı xəbər çıxsa mənə nə verərsən?

Kərbəlayı Məmmədəli dedi ki:

– Hər nə desən, verərəm. – Pərinisə başladı ki:

– Bu gün yaxşı xəbər gələcək. – Əri soruşdu ki:



– Nə bilirsən? – Arvad cavab verdi ki:

– Yuxu görmüşəm. – Kərbəlayı Məmmədəli genə soruşdu ki:

– Nə yuxu görmüsən? – Pərinisə cavab verdi:

– Nə işin var nə yuxu görmüşəm? Amma mən bilirəm ki, bu gün yaxşı xəbər gələcək. – Genə Kərbəlayı Məmmədəli başladı yalvarmağa ki:

– Sən Allah, de görüm, nə yuxu görmüsən? – Pərinisə cavab verdi ki:

– Yuxumu demənəm. Desəm, çin olmaz.

Kərbəlayı Məmmədəli paltarını geyib, durdu getdi işə və günortadan iki saat keçmiş qayıdıb gəldi evinə. Pərinisə soruşdu:

– Nə var, nə yox? – Əri cavab verdi ki:

– Bir şey yoxdu.

Pərinisə gətirdi ərinin qabağına pendir-çörək qoydu və özü də oturdu ərinin yanında. Kərbəlayı Məmmədəli çörəkdən bir tikə ağzına qoyub başladı:

– Ay qız, bə sənin yuxun necə oldu? Bə deyirdın: bu gün xəbər çıxacaq?

Pərinisə belə cavab verdi:

– Kərbəlayı Məmmədəli, mən genə sənə deyirəm ki, yaxşı xəbər gələcək. Onnan ötrü ki, mən yuxuda həmişə qarpız görəndə şad oluram. Keçən həftə Sara bacım da yuxuda qarpız görmüşdü, əri Məşədi Haqverdi gəlib mollaya Sara bacımın yuxusunu nağıl eləmişdi. Molla demişdi ki, qarpız şadlıqdı. Mən də həmişə yuxuda qarpız görəndə sevinirəm. Xeyir olsun, yuxuda gördüm ki, rəhmətlik Şərəbanı əmidostum minib bir eşşəyə, bizə qonaq gəlib. İndi gəlməsin. Rəhmətlik məni çox istərdi. Hə... eşşəyin üstə yekə-yekə çuvallar çatılmışdı; elə yekə çuvallar idi ki, nə bilim bu dam boyda...

Kərbəlayı Məmmədəli qah-qah çəkib dedi:

– Ay qız, ay qız, dam yekəlikdə də çuval olar? Qah-qah-qah...

Pərinisə başladı and içməyə:

– Yalan deyənin atasına nəhlət! Vallah, yalan demirəm. Elə bu dam yekəlikdə idilər. Hə... mən çıxdım rəhmətliyin qabağına və dedim, – indi çıxmayım və indi deməyim, – dedim: ay əmidostu, sən həzrət Abbas, bu nə xəcalətlikdi mənə verirsən? Rəhmətlik gəlib məni qucaqladı. – İndi qucaqlamasın. – O üzümdən öpdü, bu üzümdən öpdü və qarpızların bir yekəsini gətirib verdi mənə. Allah rəhmət eləsin, torpağı sanı yaşıyasan, məni çox istərdi; indi istəməsin.

* * *

Pərinisə bu sözləri deməkdə idi, Kərbəlayı Məmmədəlinin qulağına "hoqquş... hoqquş..." səsi gəldi. Ər-arvad üzlərini həyətə tərəf çöndərib gördülər ki, həyətə bir ulağ girdi, ulağın üstündə bir arvad və yanında bir kişi.

Pərinisə və Kərbəlayı Məmmədəli əvvəl bilmədilər ki, bu gələnlər kimdirlər; hətta Kərbəlayı Məmmədəli zarafatla dedi ki:

– Ay qız, yuxun çin oldu. Budur Şərəbanı əmidostun sənə qarpız gətirir.

Pərinisə genə diqqətlə həyətə girənlərə baxıb, durdu ayağa. Kərbəlayı Məmmədəli də bir qədər diqqət eləyib birdən "vay!" – deyib qaçdı evin bucağına və istədi gizlənsin. Pərinisə hövlnak qaçdı ərinin yanına və bilmədi nə eləsin. Kərbəlayı Məmmədəli qaçdı akoşkaya tərəf və istədi akoşkanı sındırıb özünü salsın eşiyə. Sonra genə həyətə baxıb, qayıtdı qapıya tərəf və göz-gözə verib özünü saldı həyətə və başladı qaçmağa. Ulağ üstə gələn arvad əlinə bir daş alıb, başladı Kərbəlayı Məmmədəlini qovlaya-qovlaya söyməyə:

– Köpək oğlu, arvad almağın bəs deyil, hələ götürüb mənə kağız yazıb acıq da verirsən?!

Arvadın yanındakı kişi də Kərbəlayı Məmmədəlinin üstünə hücum elədi. Arvad əlindəki daşın birini atdı Kərbəlayı Məmmədəliyə. Daş gedib dəydi toyuqların birinə. Kişi əlindəki ağacı tulladı Kərbəlayı Məmmədəliyə. Ağac gedib dəydi divara. Kərbəlayı Məmmədəli həyətin alçaq divarından aşıb düşdü o biri həyətə və qaçdı.

Pərinisə evin içində başladı "havar", "havar" deyib bağırmağa. Həyətdə arvad və kişi Kərbəlayı Məmmədəlini o cür söyürdülər, necə ki, küçədə on yeddi-on səkkiz yaşında müsəlman uşaqları aşıq oynayanda bir-biri ilə söyüşürlər.

Kərbəlayı Məmmədəlini qovlayan arvad onun "Ərəblər"dəki arvadı idi; həmin kişi də arvadın qardaşı idi.

Dəxi bilmirəm mərəkənin axırı hara çatdı.

*23 noyabr 1906, Tiflis*



## QURBANƏLİ BƏY

*Qoqol, Allah sənə rəhmət eləsin!*

Xəbər çıxdı ki, bu gün naçalnik gəlir kəndə və sonra məlum oldu ki, pristavın arvadının ad qoyulan günüdür.

Kənddə şuriş düşdü. Kənd əhlindən bu gün çöl işinə gedən olmadı. Camaatın yarısı çıxmışdı kəndin kənarına və təpələrə dırmaşıb boyluyurdular ki, görsünlər gəlirmi naçalnik. Camaatın yarısı pristavın mənzilini əhatə edib durmuşdular. Qıraq kəndlərdən də camaat baxəbər olub yavaş-yavaş gəlirdilər.

Pristavın həyətinə adam əlindən girmək mümkün deyildi və katda, yasavul və qlava mirzələrindən savayı həyətə girmək heç kəsə izn verilmirdi.

Pristavın həyətində it yiyəsini tanımırdı. Səsdən və qiylü-qaldan qulaq tutulurdu: bir yanda quzular mələyirdi, bir yanda qıçları bağlı cücə və toyuqlar bağırırdılar, bir yanda qlavaların atları kişnəyirdilər. Bir tərəfdən pristavın qulaqları uzun tulaları gah qlavanın üstünə atılıb "haff" eləyirdilər, gah katdanın üstünə tullanıb "haff" eləyirdilər. Hərdən bir pristavın arvadı balkona çıxıb nazik səslə çığırırdı: "tişe"; yəni "yavaş". Və sonra genə girirdi içəri.

Pristavın aşpazları, bellərində ağ önlük hərdənbir həyətə çıxıb qlavanın birinə deyirdi:

– Tez yarım girvənkə zəfəran tap.

Qlava "baş üstə" deyib, əvvəl bir başını salırdı aşağı, sonra mirzəsinə üzünü tutub buyururdu:

– Ada, Mirzə Həsən, durma tez şəhərə adam göndər, yarım girvənkə zəfəran gətirsin.

Bir az keçirdi, bir ayrı aşpaz əlində katlet bıçağı qlavanın birinə üzünü tutub buyururdu:

– Qlava, dörd-beş yüz yumurta lazımdır.

Qlava sevincək əlini uzadırdı həyətdəki səbətlərə və cavab verirdi:

– Nə danışırsan? Burada mindən artıq yumurta var.

Birdən qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavalar çıxdılar qapıya, xanım çıxdı balkona, tulalar hücum çəkdilər adamların üstünə və bir qədər keçdi guya qurbağanın gölünə daş atdılar; çünki

bu gələn naçalnik deyilmiş, özgə mahalın pristavı imiş. Pristav atdan yenib girdi həyətə və balkona çıxıb xanıma rusca bir neçə söz deyib özü də güldü və xanımı da güldürdü. Və sonra hər ikisi girdi içəri.

Genə katlet bıçaqlarının taqqıltısı, adamların tappıltısı, atların kişnəməsi, cücə-toyuqların və qlavaların bağırtısı və tulaların hafıltısı qarışdı bir-birinə. Bir ucdan təzə gələn qlava və katdalar atdan yenib, dolu xurcunları doldururdular həyətə. Bir ucdan kəndlilər dallarında qab-qazan, xalı və palaz daşıyırdılar. Bir ucdan kəndlilər həyətin dibində quzuları və toyuq-cücələri yan-yana yığıb öldürüb təmizləyirdilər.

Birdən qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavalar qaçdılar qapıya, xanım və qonaq çıxdılar balkona, tulalar tullandılar həyətə və bir qədər keçdi genə qurbağanın gölünə daş atdılar; çünki bu gələn naçalnik deyilmiş, kazak böyüyü bir əfsər imiş. Bu da atdan yendi, qaça-qaça çıxdı balkona və xanımın əlini öpüb, kefini soruşdu və sonra girdilər otağa.

Bir qədər keçdi genə qaçaqaç düşdü; genə dedilər "naçalnik gəlir". Amma bu da yalan oldu. Adamları araladılar, bu qonaq da girdi həyətə. Bu da "Qapazlı" kəndinin bəyi və mülkədarı məşhur Qurbanəli bəy idi.

Bəy həyətə girən kimi baxdı bir sağa, bir sola. Tulaların biri qaçıb gəldi Qurbanəli bəyin qabağına və başladı bəyin ayaqlarını yalamağa. Bəy əyilib itin başını tumarladı və dedi:

– Malades sobak, – və sonra qalxıb xanımı balkonda görüb çığırdı:

– İzdrasti! – və börkünü götürüb sağ əlilə qalxızdı yuxarı və qışqırdı:

– Urra! – Sonra qalxdı balkona və xanıma baş əydi. Xanım əlini uzatdı Qurbanəliyə. Bəy xanımın əlini alıb rusca dedi:

– Nə qədər mənim canım sağdı, sənə mən nökərəm, ay xanım.

Xanım bir az güldü və dedi:

– Spasibo.

Bəy bir ah çəkəndən sonra hər ikisi girdi içəri.

Bir az keçdi, mahal həkimi gəldi, sud pristavı gəldi, iki uçitel gəldi, genə bir əfsər[1] arvadı ilə gəldi, genə bir özgə həkim arvadı ilə gəldi.

[1] Əfsər – zabit



Bir az keçdi genə qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavaların biri at üstə çaparaq gəlib özünü saldı yerə və həyətə soxulub qaçdı xanımın qabağına və çığırdı:

– Naçalnik idyot.

Xanım bir girdi içəri, bir çıxdı balkona. Qonaqlar da çıxdılar həyətə və qaçdılar qapıya. Tappıltı, şaqqıltı və çığır-bağır, qoyma, dinmə, çəkil, gəl, get... axırda bir yoğun çinovnik girdi həyətə, yeridi xanıma tərəf, sol əli ilə börkünü çıxardıb sağ əlini uzatdı xanıma və xanımın əlini öpüb qonaqlarla bir-bir əl-ələ verib qalxdı balkona və girdi otağa.

Naçalnikdən sonra genə bir neçə qonaq gəldi. Bunların da bir neçəsi arvadları ilə gəlmişdilər.

Qonaqlar yığışmışdılar zal otağına. Ortaya düzülmüşdü stollar və stolların üstünə düzülmüşdü növ-növ şirin çörəklər, suxarılar, paxlavalar, halvalar, kanfetlər, lumu-partaxallar, quru yemişlər. Stolun üstünə qoyulmuşdu yekə samavar və qulluqçular çay töküb qoyurdular qonaqların qabağına.

Naçalnik oturmuşdu yumşaq divanın üstündə, pristavın arvadı oturmuşdu onun yanında, qonaqlardan da bir neçəsi düzülmüşdü bunların yanına və naçalnik qabağındakı stəkanın qəndini qarışdıra-qarışdıra pristavın arvadı ilə söhbət edirdi.

Bu heyndə küçədən açıq akoşkalardan bir at kişnəməsi qalxdı. Bundan sonra bir ayrı at daha da ucadan başladı kişnəməyə. Qonaqların bir neçəsi akoşkadan baxdılar küçəyə. Atlar daha da ucadan başladılar kişnəməyə. Qurbanəli bəy akoşkadan başını çıxartdı küçəyə və çığırdı:

– Ədə Kəblə Qasım, heyvan oğlu heyvan, atı kənarda dolandır, yoxsa əlindən qurtarıb qaçar.

Bir az keçdi, atlar daha da şiddətlə başladılar çığırmağa. Qurbanəli bəy atlardan bərk başladı nökərinə çığırmağa və qonaqların hamısı qaçdılar akoşkaların qabağına.

Küçədə tövlənin qabağında bir strajnik[1] bir ağ atın cilovundan yapışıb dolandırırdı. Bu at naçalnikin atı idi.

Qurbanəli bəyin nökəri bir kəhər atın cilovundan yapışıb bir az kənarda dolandırırdı. Bir-iki kəndli də bir az kənarda bir ayrı atların

[1] Strajnik – polis nəfəri, keşikçi, qoruqçu

cilovlarından yapışıb dolandırırdılar. Akoşkanın qabağında kəndlilər düzülüb pristavın akoşkalarına baxırdılar.

Hərdən bir naçalnikin atı kişnəyə-kişnəyə qabaq ayaqlarını döyür yerə və Qurbanəli bəyin atına baxıb, hirsindən cilovu gəmirtləyirdi. Qurbanəli bəyin atı hərdənbir nərə təpib, qabaq ayaqlarını qaldırırdı havaya və az qalırdı ki, Kərbəlayı Qasımı da göyə qaldırsın. Kərbəlayı Qasım da bərk-bərk cilovdan yapışıb çığırırdı:

– Buna bax ha!

Naçalnik gördü ki, kəhər at Qurbanəli bəyin atıdır və üzünü Qurbanəli bəyə tutub soruşdu ki, atı neçə yaşındadır?

Qurbanəli bəy papirosunu yandırıb naçalnikə dedi ki, atı bu il təzə dörd yaşa ayaq qoyur.

Genə naçalnik akoşkaya tərəf yeriyib, başladı Qurbanəli bəyin atına tamaşa eləməyə; sonra Qurbanəli bəyə çönüb dedi:

– Nə gözəl atdı!

Doğrudan, Qurbanəli bəyin atı gözəl at idi.

Qurbanəli bəy hər iki əlini sinəsinə qoyub naçalnikə cavab verdi:

– Peşkəşdi.

Naçalnik Qurbanəli bəyə dedi:

– Sağ ol – və genə başladı ata tamaşa eləməyə və genə Qurbanəli bəyə üzünü tutub soruşdu:

– Qaçmağı necədi? İti yüyürürmü?

Qurbanəlibəy naçalnikə dedi:

– Ay naçalnik, əgər sənin mahalında bir belə yüyürən at tapılsa, mən bığlarımı qırxdırmasam qurumsağam.

Yarım saatdan sonra qonaqları çağırdılar xörək otağına. Otağın ortasında uzun xörək stolu, üstünə düzülmüşdü hər cür xörəklər və içkilər.

Pristavın arvadı oturdu stolun baş tərəfində. Xanımın sağ tərəfində naçalnik əyləşdi və qeyri qonaqlar da hərə bir yer tutub oturdular.

Naçalnik araq şüşəsini əlinə götürüb əvvəl öz fincanını, sonra pristavın arvadının, sonra xanımların və sonra qeyri qonaqların fincanlarını doldurub durdu ayağa və rumkasını xanımın rumkasına vurub dedi:

– Mübarək olsun xanımın ad bayramı.



Naçalnikdən sonra xanımlar və ağalar yerlərindən qalxıb həmin sözləri dedilər və sonra naçalnik və qeyriləri şüşələri başlarına çəkib boşaltdılar.

Pristavın arvadı fincanı götürdü əlinə, qonaqlardan razılıq elədi, amma Qurbanəli bəyə baxıb gördü ki, bəy arağını hələ içməyib. Xanım bəydən soruşdu ki:

– Niyə içmirsiniz?

Bəy gülə-gülə başını saldı aşağı və dinmədi. Naçalnik Qurbanəli bəyə baxıb qəh-qəh çəkib dedi ki:

– Yoxsa sən də fanatik müsəlmanlardansan, onun üçün içmirsən?

Qonaqlardan bir neçəsi güldü və bir neçəsi də dedi ki:

– Götür iç!..

Axırda Qurbanəli bəy rumkasını götürdü əlinə və dedi:

– A kişi, siz Allah bu nədi? Buna bizdə üskük deyərlər ki, arvadlar barmaqlarına geyib tikiş tikərlər; yoxsa bizlərdə bunnan araq içməzlər.

Qonaqlar bu sözləri eşidib genə qəh-qəh çəkib güldülər və pristavın xanımı dedi:

– Da, da, doğrudur. Günah məndədir. Qurbanəli bəy rumkaynan araq içməz.

Bu sözləri deyəndən sonra xanım bir çay stəkanı aparıb qoydu bəyin qabağına və araqla doldurub verdi bəyə. Qurbanəli bəy stəkanı götürüb dedi:

– Bax, buna nə demişəm?!.. Yoxsa üsküyü qoyublar mənim qabağıma ki, nə var, nə yox...

Qonaqlar genə gülüşdülər və Qurbanəli bəy arağı çəkdi başına, stəkanı qoydu yerə və çörəkdən bir tikə götürüb tutdu burnunun qabağına.

Ağalar və xanımlar məşğul oldular yeməyə, içməyə və eşikdə də toy və zurnanın səsi ucaldı. İki saatdan sonra qonaqlar qalxdılar ayağa, düzüldülər akoşkanın qabağına və başladılar tamaşa eləməyə.

* * *

Baharın ikinci ayı idi. Çiçəklərin və otların ətri qarışmışdı birbirinə, çeşmələrin səsi qarışmışdı quşların səsinə. Hərdən bir zurnanın səsi ucalıb, özgə səslərin hamısını batil eləyirdi. Zurna sakit olan

kimi adamların səsi ucalırdı. Evin qabağında, çayın kənarında, çəmənin üstündə bir neçə fərş döşənmişdi. Bir tərəfdə üç yekə samavar qoyulmuşdu və yanlarında otuz-qırx stəkan-nəlbəki, nimçələr, qəndlər, mürəbbələr, şirin çörəklər, lumu-partaxallar, kanfetlər, qurabiyələr və qeyri çay ilə və çaysız yeməli şeylər, yağlar, xamalar, qaymaqlar, quru yemişlər düzülmüşdü. Ətrafdan qoyulmuşdu yasdıq və balışlar. Bir tərəfdə qlavalar[1] tatarı əllərində kəndliləri döyə-döyə bir yerə yığırdılar ki, əl-ələ verib yallı getsinlər.

Ağalar və xanımlar akoşkalarda görünən kimi kəndlilər "urra" deyib papaqlarını atdılar göyə və yapışdılar yallı getməyə. Pristavın xanımı qonaqlara təklif elədi ki, buyursunlar, çayın kənarında başladılar yallı getməyə.

Ağalar və xanımlar yendilər. Kəndlilər genə "urra" çəkib qarışdılar bir-birinə və sonra genə başladılar yallı getməyə.

Qurbanəli bəyin nökəri Kərbəlayı Qasım kənarda durub, əllərini qoymuşdu ciblərinə, baxırdı və Qurbanəli bəyi görcək ikiqat əyildi. Bəy papirosunu ağzına alıb Kərbəlayı Qasıma işarə elədi. Kərbəlayı Qasım qaçıb gəldi ağasının yanına və spiçkanı cibindən çıxarıb yandırdı və tutdu ağasının qabağına. Bəy papirosu yandırıb dedi:

– Axmaq oğlu, axmaq, bə sən niyə yallı getmirsən?

Kərbəlayı Qasım başını əydi aşağı və dedi:

– Ay ağa, mən qocalmışam. Daha mənə yallı getmək yaraşmaz.

Bəy papirosunu göyə üfləyib yapışdı Kərbəlayı Qasımın çiynindən və çəkə-çəkə apardı yallı gedənlərin yanına və dedi:

– Yapış, heyvan balası, heyvan! Yoxsa vallah döyə-döyə səni öldürərəm!

Kərbəlayı Qasım yapışdı kəndlilərin əlindən və istər-istəməz başladı onlarla bir yerdə dolanmağa. Qurbanəli bəy özü də dəstənin başından yapışıb başladı atılıb düşməyə. Pristavın arvadı Qurbanəli bəyə çəpik çaldı. Naçalnik də qəh-qəh çəkib güldü və başladı çəpik çalmağa. Özgə qonaqlar da çəpiyi tutub başladılar gülməyə. Qurbanəli bəy özü ağzını göyə açıb qəh-qəh elədi və çığırdı:

– Ay xanım, mən istəyirəm sənin sağlığına içim. Buyur mənə çaxır gətirsinlər. Urra, urra!

Nökərlər butulkaları başladılar daşımağa. Qurbanəli bəy bir stəkan içib genə başladı fırlanmağa, genə başladı dolanmağa.

[1] Qlava – başçı, rəis, rəhbər



Bir qədər keçdi, genə bir stəkan içib çığırdı:

– Xanımın sağlığına – və genə başladı dolanmağa bir qədər keçəndən sonra yorulub çəkildi kənara və bir stəkan çaxır doldurub nökəri Kərbəlayı Qasımı çağırıb və dedi:

– İç.

Kərbəlayı Qasım başladı yalvarmağa:

– Ay ağa, sən bilirsən ki, mən içmənəm. Aman günüdü, məni çövür balovun başına, mən içə bilmənəm.

Bəy bir qədər də nökərini yaxalayıb gördü ki, içmir və çaxırın bir azını tökdü Kərbəlayı Qasımın üstünə və bir azını da özü içdi.

Ağalar və xanımlar məşğul oldular çay içməyə. Qurbanəli bəy də gedib bir tərəfdə oturdu və üzünü naçalnikə tutub dedi:

– Mənim nökərim Kərbəlayı Qasım lap biqeyrətdi. Mən indiyə kimi nə qədər eləmişəm ona bir qətrə çaxır içirdə bilməmişəm. Deyirəm ki, axı, ay axmaq, sən ki, üzümü yeyirsən, axı bu nədi ki? Üzüm suyu deyil məgər? Nə qədər eləyirəm, içmir.

Naçalnik Qurbanəli bəyə cavab verdi ki, Kərbəlayı Qasım qanmır, avamdı. Qurbanəli bəy qəh-qəh çəkdi və dedi:

– Necə qanmır? Çox yaxşı qanır. O məgər qanmır ki, çaxır üzümdən qayrılır? Çox əcəb qanır. Ancaq biqeyrətdi, onun üçün içmir.

* * *

Yarım saata kimi ağalar və xanımlar çay içməyə və söhbətə məşğul oldular. Kəndlilər də yallı gedirdilər. Xanımların biri hərdənbir əllərini basırdı qulaqlarına və ərinə şikayət edirdi ki, "zurnanın səsindən az qalır qulaqlarım tutulsun". Pristav xanımın gileyini başa düşəndən sonra toyçulara çığırdı ki, daha çalmasınlar. Toyçular sakit oldular.

Toyun səsi kəsilcək Qurbanəli bəy üzünü toyçulara çöndərib çığırdı:

– Ədə, çalın, namərdlər!

Pristav bəyə dedi ki, toyun səsi xanımlara xoş gəlmir, qoy çalmasınlar. Qurbanəli bəy durdu ayağa, pristava dedi:

– Mən ölüm qoy çalsınlar, mən istəyirəm oynayam.

Pristavın cavabını gözləməyib Qurbanəli bəy toyçulara çığırdı:

– Ədə, çalın! "Uzun dərə" çalın.

Toyçular hazırlaşırdılar çalmağa. Naçalnik durdu ayağa və börkünü başına qoyub bəyə dedi:

– Bəy, hələ sonra oynarsan. Göndər nökərini sizin atınızı çəkib gətirsin, mən istəyirəm ata baxam.

Qurbanəli bəy sağ əlini qoydu gözünün üstünə və dedi:

– Naçalnik, qurbandı sənə mənim atım!

Bu sözlərdən sonra bəy nökərini çağırdı:

– Kərbəlayı Qasım, tez get atı çək gətir, naçalnik baxsın.

Kərbəlayı Qasım qaçdı və tövlədən atı çıxartdı eşiyə. Naçalnik, pristav, Qurbanəli bəy, pristavların biri və xanımların biri getdilər atın yanına. Qurbanəli bəy ata yavıqlaşıb başladı atın alnını tumarlamağa. Naçalnik keçdi atın dalına, sonra keçdi qabağına və istədi ağzını açıb dişlərinə baxsın. At başını göyə qalxızıb çəkildi bir tərəfə. Qurbanəlibəy çığırdı ata:

– Tərpənmə, axmaq!

Naçalnik genə çəkildi atın dal tərəfinə. Qurbanəli bəy yapışdı atın dodağından və ağzının bir tərəfini açdı və naçalnikə dedi:

– Naçalnik, buyur bax. Həyə inanmırsan, buyur bax bu il dördünə ayaq qoyur.

Naçalnik yavığa gəlib əyildi və başını uzatdı atın ağzına. At genə başını qovzadı göyə. Qurbanəli bəy hirslənib istədi atın ağzından bir yumruq vursun. At qabaq əllərini qaldırdı göyə və az qaldı noxtanı Kərbəlayı Qasımın əlindən qoparsın. Kərbəlayı Qasım asıldı noxtadan və çığırdı:

– Buna bax, ha!

Sonra naçalnik Kərbəlayı Qasıma dedi ki, bir az atı dolandırsın. Kərbəlayı Qasım atı yavaş-yavaş çəkdi bir tərəfə. Heyvan Kərbəlayı Qasımın dalınca gedə-gedə hərdən alnını sürtürdü Kərbəlayı Qasımın kürəyinə və hərdənbir o tərəfə-bu tərəfə baxıb kişnəyirdi.

Naçalnik Qurbanəli bəydən yenə atın qaçmağını soruşdu. Qurbanəli bəy baxdı naçalnikin üzünə və bir söz deməyib Kərbəlayı Qasımı çağırdı. Kərbəlayı Qasım atı çəkdi yavığa və Qurbanəli bəy tez qalxdı atın üstünə və heyvanı təpiklədi. At durduğu yerdə bir neçə arşın fasiləni sıçrayıb, üz qoydu yola tərəf qaçmağa və yarım dəqiqənin içində gözdən itdi. Yarım dəqiqədən sonra Qurbanəli bəy çaparaq qayıdıb gəldi və atı sürüb az qaldı soxulsun qonaqlar oturduğu məclisə. Xanımlar çığırışıb qaçışdılar bir tərəfə və Qurbanəli bəy



tez atı saxlayıb özünü tulladı yerə və durdu naçalnikin qabağında. Naçalnik bəyə dedi:

– Moladets – və bəy cavab verdi:

– Naçalnik, bu nədi ki! Hələ sən mənim o biri atımı görməmisən. Bəlkə onu görəsən! Bu nədi ki, onun yanında.

Kərbəlayı Qasım atı çəkib apardı.

* * *

Hava qaraldıqdan sonra pristavın otaqlarında çıraqları yandırdılar və qonaqlar məşğul oldular kart oynamağa. Saat on birdə qonaqları genə dəvət elədilər xörək otağına və genə ağalar və xanımlar xörək stolunun ətrafına düzülüb başladılar şam eləməyə. Naçalnik cücənin ətindən bir-iki tikə yeyəndən sonra götürdü çaxır butulkasını və başladı əvvəl öz stəkanını, sonra qonşularının stəkanını doldurmağa və sonra ayağa durub stəkanı uzatdı pristavın arvadına tərəf və dedi:

– Bu gün bizim buraya yığışıb belə ləzzətlə vaxt keçirməyimizə siz səbəb olubsunuz. Buna cəhət mən bu stəkanı içirəm sizin sağlığınıza.

Bu sözləri deyib, naçalnik stəkanı vurdu xanımın stəkanına və çaxırı içib oturdu. Yavuqda oturan qonaqlar da stəkanlarını uzadıb xanımın stəkanı ilə çıqqıldatdılar və içdilər. Qurbanəli bəy də yerindən qalxıb, dolu stəkanını götürüb vurdu xanımın stəkanına və xanımın başının üstündə durub dedi:

– Mən özümü bu gün xoşbəxt hesab eləyirəm ki, bu məclisdə varam. Allah sənin ərin Mixail Pavloviçi bizim mahaldan uzaq eləməsin. Ondan ötrü ki, çünki nə qədər ki, Mixail Pavloviç bizim mahalda deyildi, bizim kəndlilər də bədbəxt idilər, mən də bədbəxt idim. Ondan ötrü ki, bilmirəm nədəndirsə keçən pristavları mən o qədər istəməzdim ki, Mixail Pavloviçi istəyirəm. Amma beş-on il bundan irəli burda bir pristav vardı; çox lotu oğlan idi. Mənə bir tula bağışlamışdı. Allah onu da sağ eləsin, səni də sağ eləsin, hamımızı sağ eləsin. İçirəm mən sənin sağlığına, a xanım, urra!

Bu sözləri deyəndən sonra Qurbanəli bəy çaxırı çəkdi başına və içəndən sonra stəkanı çöndərib ağzı yerə tərəf tutdu ki, görsünlər stəkanda bir qətrə də çaxır qalmayıb və keçib oturdu yerində. Bir qədər keçəndən sonra pristavın arvadı götürdü çaxırı və naçalnikin

stəkanını, öz fincanını və qonşularının stəkanlarını doldurub üzünü naçalnikə tutdu və dedi:

– Mən özümü borclu hesab edirəm sizdən razılıq eləməyə ki, bu uzun yolu zəhmətlə buraya gəlib məni sərəfraz buyurubsunuz.

Sözlərini deyəndən sonra xanım fincanını tutdu dodaqlarının qabağına. Qonaqlar da stəkanlarını uzadıb vurdular naçalnikin stəkanına. Qurbanəli bəy yerindən qalxıb, əlində dolu stəkan gəlib durdu naçalnikin yanında və dedi:

– Naçalnik ağa, içirəm mən bu stəkanı sizin sağlığınıza. Allah da buna şahiddir ki, nə qədər bizim vilayətə naçalniklər gəlib – gedib, mən onların heç birini o qədər istəməmişəm. Naçalnik ağa, sən bizim başımızın sahibisən. Nə qədər ki, bizim mahalda camaat var, onlar hamısı sənin yolunda başlarından keçərlər. Mən özüm sənin yolunda oda girərəm. Qurban sənə mənim canım. Nə qədər ki, mən sağam nökərəm sənə. İçirəm mən bu stəkanı naçalnik ağanın sağlığına. Urra!

Bu sözləri deyən kimi Qurbanəli bəy stəkanı çəkdi başına, stəkanın ağzını çöndərdi yerə, guya bir qətrə də qalmadı; sonra gedib oturdu yerində.

Qonaqlar genə məşğul oldular yeməyə.

Bir qədər keçəndən sonra xanımın əri pristav götürdü çaxır şüşəsini, əvvəl öz stəkanını doldurdu, sonra qonşularının stəkanını doldurdu və sonra ayağa durub dedi:

– Ağalar və xanımlar! Məlumdur ki, bir düşmən istəyə bizim üstümüzə hücum çəkə, bizi saxlayan qoşunlarımız olacaq. Buna cəhət mən içirəm bu stəkanı bizim qoşunlarımızın əfsəri Nikolay Vasilyeviçin və onun xanımı Anna İvanovnanın sağlığına.

Pristav bu sözləri deyib stəkanı uzatdı bir əfsərə və onun yanında oturan arvada tərəf. Qonaqlar da habelə stəkanlarını çıqqıldadıb içdilər. Qurbanəli bəy də ayağa durub dolu stəkanını uzatdı əfsərə və arvadına tərəf dedi:

– Ay əfsər ağa, ay xanım, mən içirəm sizin sağlığınıza. Allah sizin kölgənizi bizim başımızın üstündən əskik eləməsin. Allah düşmən qabağında sizin qılıncınızı kəskin eləsin. Yəni mən bu sözləri ondan ötrü demirəm ki, düşməndən qorxuram. Hansı düşmən cürət eləyib mənim qabağıma çıxa bilər?! Bu xəncəli mən soxaram onun qarnına! Mən heç düşməndən qorxmuram. Sizin dövlətinizdən mən



heç bir kəsdən qorxmuram. Nə qədər canım sağdır, mən nökərəm sənin xanımına. Sağ olsun Anna xanım, urra!

Bəy çaxırı çəkdi başına.

Bu qayda ilə ağaların və xanımların bir-bir sağlığına içdilər. Hər dəfə Qurbanəli bəy dururdu ayağa, hərənin barəsində bir nitq söyləyir, bir dolu stəkan içirdi və otururdu. Yavaş-yavaş çaxırın buxarı qalxdı bəyin başına və lap axırda bəy bərk kefləndi.

Qonaqların hamısının sağlığına içəndən sonra qonaqlar başladılar Qurbanəli bəyin sağlığına içməyə. Xanımlar bir-bir stəkanlarını uzadıb vurdular bəyin stəkanına. Qurbanəli bəy şadlığından az qaldı özündən getsin. Qonaqların hamısı bəyin sağlığına içəndən sonra bəy stəkanı yuxarı qalxızıb dedi:

– Ağalar və xanımlar! Siz ki, mənim sağlığıma içdiniz, qurban olsun sizə mənim canım. Mən öləնə kimi bu günü yadımdan çıxarmanam. Amma, ağalar, mənim sizdən bir xahişim var. Mən ölüm, mənim sözümü yerə salmayın. Mən sizin hamınızı sabah öz evimə qonaq təklif eləyirəm. Vallah, billah, atamın goru haqqı, mən bilmirəm necə sizin xəcalətinizdən çıxım?! Mən lap əriyib yerə girirəm ki, bu qədər xanım mənim sağlığıma içsin. Mən nəyəm ki, bu qədər xanım mənim sağlığıma içsin? Mən bu xanımların ayağının torpağı da ola bilmənəm. Vallah, billah, atamın goru haqqı sabah bizə qonaq gəlməsəniz, mən özümü öldürərəm. Mən istəyirəm sizə qulluq eləyim. Mən istəyirəm sizə nökərçilik eləyim. Sabah bizə gəlməsəniz, mən bu xəncəli soxaram qarnıma. Cənab naçalnik, səndən də çox təvəqqə eləyirəm, ay xanım, səndən də təvəqqə eləyirəm. Əfsər ağadan da eləyirəm. Anna İvanovna, qurban olsun sənə mənim canım, səndən də təvəqqə eləyirəm. Ağalar, xanımlar! Hamınızdan təvəqqə eləyirəm. Hər kəs gəlməsə, namərddi. Aman günüdü, özümü öldürərəm! Qurban olsun sizə mənim canım. Sağ olsun xanımlar. Urra! Urra!

Bəy stəkanı çəkdi başına. Naçalnik siğarı damağına salıb, üzünü tutdu pristavın xanımına və dedi:

– Gələsən sabah qonaqlığa gedək, Qurbanəli bəyə qonaq olaq?
– Xanım baxdı ərinin üzünə və dedi:

– Mən çox xoşhallıqla gedərəm. Yaxşı olar. Bəyin arvadını da görərəm. Görərəm necə paltar geyir.

Əfsər də arvadından soruşdu:
– Gedərsənmi?
Arvadı dedi:
– Gedərəm.
Qonaqların biri də dedi ki:
– Əgər bəy bizə bir yaxşı müsəlman plovu versə, gedərəm.
Qurbanəli bəy plov sözünü eşitcək tez qalxdı ayağa və çığırdı:
– Necə plov? Necə plov? Atamın goru haqqı, sizə elə bir plov verərəm ki, ömrünüzdə yeməmiş olarsınız. Mənim aşpazım bişirən plovu kim bişirə bilər? İnanmırsınızsa Kəblə Qasımdan soruşunuz. Hanı Kəblə Qasım? Kəblə Qasım, Kəblə Qasım!
Qurbanəli bəy başladı ucadan Kərbəlayı Qasımı çağırmağa; guya ki, Kərbəlayı Qasım buradadır. Pristavın nökərlərindən biri içəri girib dedi ki, burada Kərbəlayı Qasım yoxdur. Bəy hirslənib nökərə dedi ki:
– Çağırın o axmaq oğlunu gəlsin.
Nökər çıxdı getdi və bəy özü də qapıya tərəf yeridi. Pristavın arvadı bəyə dedi ki:
– Sən zəhmət çəkmə, nökərlər çağırarlar gələr.
Bəy genə başladı plovu tərifləməyə.
– Mən siznən mərc gələrəm. Həyə bir yanda elə plov yemiş olsanız, tüpürün mənim üzümə.
Qonaqlar güldülər. Naçalnik də gülə-gülə dedi:
– A bəy, söz yox ki, evdəki tərifli atını da bizə görsədərsən.
Qurbanəli bəy naçalnikə yavıqlaşıb hər iki əllərini qoydu gözünün üstə və dedi:
– Bu gözlərim üstə, hansını bəyənsən, peşkəşdi. Lotu lotuyana deyirəm, mən təzvir-məzvir bilmənəm. Hansını xoşlasan, atamın goru haqqı peşkəşdi sənə.
Nökər girdi içəri və dedi ki, Kərbəlayı Qasım yatıb. Bəy nökərin üzünə baxıb əvvəl dinmədi və sonra xəncərinin dəstəsindən yapışıb dedi:
– Get, o haramzada oğlu haramzadaya de ki, bu saat durub bura gəlməsə, bu xəncəli gedib soxaram onun qarnına!
Nökər çıxdı eşiyə. Pristavın arvadı bəyə üzünü tutub dedi:
– Niyə biçarə kişini oyadırsan? Nəyə lazımdır?
Bəy cavab verdi:



– Ay xanım, başına dolanım, necə nəyə lazımdır? Ağzı nədi bu tezlikdə yatsın. Qoy gəlsin görək kimin hünəri var mənim aşpazım bişirən plovu bişirsin?!
Qonaqlar genə gülüşdülər.
Kərbəlayı Qasım şişmiş gözlərini bərəldib, girdi içəri. Ağası genə əlini xəncərin dəstəsinə aparıb dedi:
– Kəblə Qasım, mən səni öldürərəm!
Qonaqlar genə gülüşdülər.
Kərbəlayı Qasım əllərini döşünə qoyub, alçaq səslə dedi:
– Niyə, başına dönüm, ağa?
Bəy hirsli və uca səslə:
– Hələ soruşursan da niyə? Gəl gör bu ağalar nə deyirlər. Mən ha deyirəm ki, bizim Əli bişirən plovu heç kəs bişirə bilməz, bunlar inanmırlar.
Kərbəlayı Qasım alçaq səslə cavab verdi:
– Bəli, ağa, Əli yaxşı plov bişirir.
Qurbanəli bəy üzünü qonaqlara tutub sevincək və ucadan dedi:
– Di, gördünüz? Di, gördünüz? İndi sözünüz nədi?
Qonaqların çoxusu cavab verdi:
– Doğrudu, doğrudu, inanırıq.
Kərbəlayı Qasım çıxdı eşiyə.
Yarım saatdan sonra qonaqlar başladılar dağılmağa. Qurbanəli bəy atını və Kərbəlayı Qasım yabısını minib düşdülər yola. Bəy başını saldı aşağı və başladı mürgüləməyə. Hərdən bir yuxudan ayılıb atı saxlayırdı, üzünü çöndərirdi Kərbəlayı Qasıma və deyirdi:
– Bu xəncəli soxaram sənin qarnına!
Çox vaxt Kərbəlayı Qasım cavab vermirdi və gah vaxt deyirdi:
– Niyə, başına dönüm, ağa?
– Bəy gah vaxt Kərbəlayı Qasıma cavab vermirdi, amma gah vaxt deyirdi:
– Kimin hünəri var Əli bişirən plovu bişirsin?!
İki saatdan sonra ağa və nökər yetişdilər kəndə. Kəndin içindən üç-dörd köpək hürə-hürə hücum çəkdilər Qurbanəli bəyin üstünə. At hürküb özünü verdi bir tərəfə, az qaldı bəyi salsın yerə. Qurbanəli bəyin börkü düşdü yerə və Kərbəlayı Qasım özünü atdan salıb ağasının börkünü qalxızıb verdi bəyə. Qurbanəli bəy xəncərini sıyırıb, atını sürdü itlərin üstünə. İtlər başladılar qaçışmağa.

Yekə imarətin darvazasının qabağında atlar dayandılar. Kərbəlayı Qasım yerdən bir daş götürüb başladı qapını döyməyə. Yekəpapaq bir kişi qapını açdı və Qurbanəli bəyin yanına qaçıb yapışdı atın cilovundan. Qurbanəli bəy hələ atdan yenməyib, xəncərin tiyəsini qalxızdı kişinin üstünə və dedi:

– Əli, bu xəncəli soxaram qarnına!

Nökəri cavab verdi:

– İxtiyar sənindi, ağa!

Sonra bəy atdan yenib girdi həyətə və pilləkəni qalxıb girdi otağa. Bəyin qaravaşı bir qoca arvad çıxdı ağasının qabağına və dedi:

– Ay ağa, nə gec gəldin? Xanım səndən ötrü çox niyaran oldu.

Bəy xəncərin tiyəsini arvada göstərib dedi:

– Gülpəri, bu xəncəli soxaram sənin qarnına!

Arvad dinmədi və çəkildi kənara. Bəy o biri otağa girib, gördü ki, arvadı paltarlarını soyunmamış dayanıb yastığa və yuxlayıb. Əvvəl gedib durdu arvadının yanında. O, xəncərin tiyəsini arvadının üstünə qalxızıb dedi:

– Bu xəncəli soxaram sənin qarnına!

Arvad ayılmadı. Qurbanəli bəy dəxi dinmədi və xəncəri atdı yerə. Sonra börkünü çıxarıb atdı bir səmtə və başladı soyunmağa. Paltarlarını və çəkmələrini çıxarıb hirslə hərəsini atdı bir yana, bir az su içdi və uzandı yerinə.

Bəyi yuxu tutdu.

Qurbanəli bəyin arvadı sübh vaxtı ayılıb gördü ki, əri gəlib yatıb; yavaşca paltarını geyib çıxdı eşiyə. Qaravaş süpürgə ilə həyəti süpürürdü. Kərbəlayı Qasım əlində xəlbir tövlənin qabağında durub, arpa təmizləyirdi ki, aparıb versin atlara.

Aşpaz Əli aşpazxananın qapısının yanında əlində xəkəndaz samavara kömür salırdı. Həyətin bir tərəfində toyuq-cücələr dən yeyirdilər və sərçələr hərdənbir dəstə ilə toyuq-cücələrin yanına yenib başlayırdlar dənlərdən yeməyə; amma bir səs eşitcək genə dəstə ilə qalxırdılar tut ağacına.

Qaravaş xanımı görcək əlində süpürgə getdi xanımın yanına, salam verdi. Xanım gözlərini ova-ova soruşdu ki, bəy nə vaxt gəlib yatdı? Qaravaş cavab verdi ki, gecədən çox keçmişdi ki, gəldi. Xanım Kərbəlayı Qasımı çağırdı. Kərbəlayı Qasım tövlədən çıxıb tez gəldi və baş yendirib durdu xanımın qabağında. Xanım Kərbəlayı Qasımdan soruşdu ki:



– Niyə belə gec gəldiniz? – Kərbəlayı Qasım cavab verdi:

– Qonaqlıq çox uzun çəkdi, onun üçün gec gəldik. – Xanım genə soruşdu:

– Pristavın qonağı çox idimi? – Kərbəlayı cavab verdi:

– Bəli, xanım, çox idi. – Xanım soruşdu:

– Kim idilər qonaqlar? – Kərbəlayı Qasım cavab verdi:

– Ay xanım, nə bilim, bir çoxlu böyük adamlar idi. Çoxlu xanım idi. Naçalnik özü də orada idi. Çox adam vardı. – Xanım genə soruşdu:

– Kəblə Qasım, xanımlar da elə kişilərnən bir yerdə oturmuşdular, ya ayrı oturmuşdular? – Kərbəlayı Qasım cavab verdi:

– Yox, elə hamısı qarışmışdı bir-birinə.

Qaravaş bu sözləri eşitcək öz-özünə dedi:

– Bıy, aman Allah!

Xanım oturdu pilləkənin pilləsinin üstündə, Kərbəlayı Qasımı bir az yavığa çağırdı və dedi:

– Sən Allah, Kəblə Qasım, nağıl elə görək qonaqlıq necə keçdi, qonaqlara nə verdilər, ağan nə qayırırdı, kimnən danışdı, nə danışdı? Sən Allah, Kəblə Qasım hamısını nağıl elə.

Kərbəlayı çuxasının ətəyini qalxızıb ağzının və burnunun suyunu sildi. Tövlədən atlar başladılar bir-birinin üstünə çığırışmağa və Kərbəlayı Qasım üzünü tövləyə tutub çığırdı:

– Buna bax ha! – Xanım genə Kərbəlayı Qasıma dedi:

– Sən Allah, Kəblə Qasım, nağıl elə, görək.

Kərbəlayı Qasım cavab verdi:

– A xanım, dəxi nə deyim? Çox qonaq vardı. Nəçəlnik də orda idi.

Xanım genə Kərbəlayı Qasımdan soruşdu:

– Kəblə Qasım, urus arvadları bə kişilərnən nə danışırdılar? – Kərbəlayı Qasım cavab verdi:

– Xanım mən nə bilim ki, nə danışırdılar? Mən onların axı dilini bilmirəm ki?

Xanım genə soruşdu:

– Kəblə Qasım, doğrusunu de görək, ağan da urus arvadlarıynan danışdımı?

Kərbəlayı Qasım genə üzünü tövləyə tutub, çığırdı atların üstünə və xanıma cavab verdi:

– Ağam urus arvadlarıynan az danışdı; amma nəçəlniknən çox danışdı.

Aşpaz Əli samavarı gətirdi və çıxarıb qoydu pilləkənin üstə. Qaravaş süpürgəni dayadı divara, qalxdı pilləkənin üstünə və samavarı qalxızıb apardı evə. Aşpaz Əli yenib durdu xanımın qabağında və soruşdu:

– Xanım, bu gün nə pişirim?

Xanım qaravaşı çağırıb dedi:

– Bə Qurbanəli bəy gecə demədi ki, nə pişirək?

Qaravaş əlində çay qabı xanımın yanına gəlib cavab verdi:

– Gecə ağa elə hirsli idi ki, hələ məni istəyirdi öldürsün. – Xanım təəccüb elədi və dedi:

– Yaxşı, yaxşı, elə danışma! Dəli olmamısan ki!

– Vallah, a xanım, ağam evə girən kimi xəncəlini çıxartdı və mənə dedi: "Xəncəlnən səni öldürərəm!".

Xanım bir qədər dinmədi və üzünü tutdu Kərbəlayı Qasıma:

– Kəblə Qasım, ağan niyə hirslənmişdi?

Kərbəlayı Qasım cavab verdi:

– Ağam heç zada hirslənməmişdi. Ancaq kəndə yetişəndə köpək oğlunun itləri töküldülər üstümüzə və atlarımızı hürkütdülər.

Xanım durdu ayağa və dedi:

– Kəblə Qasım, yəqin ağan genə keflənmişdi. – Kərbəlayı Qasım cavab verdi:

– Xeyr keflənməmişdi.

Xanım girdi içəri və yavaşca Qurbanəli bəyin yanına yavıqlaşıb gördü ki, bərk yuxudadır. Sonra çıxdı eşiyə və aşpaz Əliyə on altı qəpik verib dedi:

– Əli, get, iki girvənkə ət al gətir, bozbaş pişir!

Əli pulları aldı və dedi:

– Baş üstə.

Kərbəlayı Qasım və Əli üz qoydular aşpazxanaya tərəf getməyə.

* * *

Gün qalxdı, günorta oldu. Kərbəlayı Qasım həyətdə oturmuşdu tut ağacının dibində və hərdənbir daş götürüb atırdı ağacın başına və tut quşlarını qovurdu və hərdənbir yerə tökülən yetişmiş tutlardan götürüb yeyirdi. Qaravaş da gəldi Kərbəlayı Qasımın yanına və başladı tutları seçib yeməyə. Bir az keçdi xanım da gəldi bunların yanına və başını qalxızıb, bir qədər yetişmiş tutlara baxdı və Kərbəlayı



Qasıma dedi ki, çıxsın ağaca, bir az tut silkələyib töksün. Qaravaş evdən bir çarşov gətirdi. Aşpaz Əli də bunların yanına gəldi və dedi:

– Siz çarşovu tutun, mən çıxım silkələyim.

Əli çıxdı ağaca. Xanım, qaravaş və Kərbəlayı Qasım çarşovu tutdular və Əli ağacın budağının birini tərpətdi və yekə-yekə yetişmiş ağ tutlar töküldü çarşova. Budağa bir iki təpik vurandan sonra Əli qalxdı bir az da yuxarı. Ağacın başından kəndin ətrafı əl içi kimi görünürdü. Bir tərəfdə düzülmüşdülər "Sapıç" dağları, dağların ətəyində "Sapıç" kəndi aşikar görünürdü. Kəndin aşağısında "Əhmədxan gölü" ağarırdı. Gölün yanında Hacı Heydərin dəyirmanı və meşəsi daha da aşkar görsənirdi. Dəyirmandan "Qapazlı" kəndinə kimi düzülmüşdülər taxta-taxta yaşıl zəmilər, yoncalıqlar və qara şum yerləri. Bax, görürsən, gah burada, gah orada kotanlar və cütlər şum yerləri sürürlər.

Həmin tamaşagaha bir qədər nəzər salandan sonra Əlinin gözünə bir belə şey də sataşdı: Hacı Heydər dəyirmanının yanında kəndə sarı bir dəstə atlı gəlirdi. Əli əvvəl buna qulaq asmadı və başladı budağın birini silkələməyə. Amma sonra genə diqqət saldı və gördü ki, atlılar kənd əhlinə oxşamırlar. Bunu görüb, Əli üzünü tutdu aşağı və dedi:

– Kəblə Qasım, kəndə çoxlu atlı gəlir; amma kəndliyə oxşamırlar.

Kəblə Qasım, xanım və qaravaş bir qədər baxdılar bir-birinin üzünə. Xanım dilləndi:

Kəblə Qasım, çıx aşpazxana damına, gör neçə atlıdılar?

Kərbəlayı Qasım gedib qalxdı alçaq divara, oradan qalxdı aşpazxana damının üstünə və sağ əlini gözünün üstünə qoyub başladı diqqətlə yola baxmağa.

Kəndin yavığında Kərbəlayı Qasımın gözünə əvvəl iki atlı göründü. Bunlar atlarını bərk çapırdılar. Dəxi bunlardan savayı yolda bir şey görünmürdü. Amma bir qədər keçdi, "Mərəzə"nin yanında söyüd ağaclarının dalından bir dəstə atlı çıxdı. Bunların içində naçalnik və pristavların düymələri və xanımların şlyapaları aşkar bilinirdi. Kərbəlayı Qasım tez yendi aşağı, qaçıb gəldi xanımın yanına və tövşüyə-tövşüyə dedi:

– Xanım, bu gələnlər deyəsən elə dünənki qonaqlardı. – Xanım çarşovun ucunu saldı yerə, gəldi Kərbəlayı Qasıma yavıq və dedi:

– Dünənki qonaqların burda nə işləri var?

Kərbəlayı Qasım əllərini qoydu bir-birinin üstünə və cavab verdi:

– Mən nə bilim, a xanım?

Bu heyndə küçədə mərəkə qopdu. İtlərin hürüşməsi, adamların qaçışması, at tappıltısı. Və bir az keçdi, küçə qapısı döyüldü.

Xanım qaçdı içəri və pəncərədən küçəyə baxıb gördü ki, küçə doludur atlılarla; hamısı rus qulluqçuları və rus xanımları. Kərbəlayı Qasım qapıya çıxıb gördü ki, dünən pristavın evindəki qonaqların hamısı gəlib dayanıb qapıya.

Xanım tez qaçdı eşiyə və Əlini çağırıb dedi:

– Get, de ki, ağa evdə deyil.

Əli qaçdı küçə qapısına və xanım qaçdı evə, Qurbanəli bəyi oyatdı. Bəy "a... a..." eləyib çöndü o biri səmtə, arvadı dedi:

– A kişi, dur, dünənki qonaqlar gəliblər bizə.

Qurbanəli bəy genə "a... a... " eləyib gözlərini açdı və arvadına dedi:

– Cəhənnəm ol! – və genə gözlərini yumdu.

Arvadı genə dedi. Qurbanəli bəy gözlərini açıb, qalxdı oturdu və soruşdu:

– Nə deyirsən?

Arvadı sözünü bir də dedi. Bəy dik qalxdı ayağa, bir şey fikir elədi, qaçdı otağın o tərəfinə-bu tərəfinə, arvadına dedi:

– Qoy desinlər ağa evdə deyil.

Arvadı genə çıxdı eşiyə və bəy mələfəni götürüb çarşav kimi saldı başına, çıxdı həyətə, qaçıb soxuldu tövləyə və girdi atın axuruna.

Nökərlər qonaqlara dedilər:

– Ağa evdə deyil.

Naçalnik bu cavabı eşidib təəccüb elədi; habelə qeyri qonaqlar mat qaldılar. Kəndlilər başladılar qonaqların atlarını dolandırmağa. Naçalnik çıxardıb papirosunu yandırdı və nökərlərdən soruşdu:

– Bəy hara gedib ki, evdə deyil? – Nökərlər cavab verdilər:

– Bilmirik.

Naçalnik bir qədər dinməyib genə soruşdu:

– Bəs o ki özgə yerə gedəcəkdi, bizi niyə qonaq çağırdı?

Nökərlər cavab verdilər ki:

– Bilmirik.

Xanımların biri bir stəkan su istədi. Kərbəlayı Qasım qaçdı evdən kasada su gətirdi. Qonaqlar bir qədər bir-birinin üzünə baxıb dedilər ki:

– Dəxi niyə dururuq, qayıdaq gedək.



Naçalnik də buna razı oldu; amma Kərbəlayı Qasıma üzünü tutub soruşdu:

– Bəyin atları tövlədədir?

Kərbəlayı Qasım dedi:

– Bəli.

Bu heyndə tövlədə atların biri başladı kişnəməyə. Naçalnik yoldaşlarına belə təklif elədi:

– Çox əcəb. Biz bu qədər yolu zəhmətlə gəlmişik; barı heç olmasa bəyin atlarına baxaq, sonra qayıdaq.

Yoldaşları razı oldular. Naçalnik genə Kərbəlayı Qasımdan tövləyə getməyə izin istədi. Kərbəlayı Qasım dedi:

– Buyurun!

Naçalnik, iki pristav, mal həkimi, xanımların ikisi və kazak əfsəri girdilər həyətə və üz qoydular tövləyə tərəf. Qurbanəli bəyin arvadı həyətdə qonaqları görüb, qaçdı soxuldu otağa və qonaqlar girdilər tövləyə. Naçalnik qabaqdakı atı görüb dedi:

– Bu elə bəyin dünənki atıdır.

Sonra qonaqlar yeridilər içəri və bir kəhər atın yanında dayandılar. Naçalnik atın qabağına keçib Kərbəlayı Qasımdan soruşdu:

– Budurmu bəyin tərifli atı?

Kərbəlayı Qasım dedi:

– Bəli.

Qonaqlar başladılar atın o tərəfinə bu tərəfinə dolanmağa. Naçalnik axura tərəf hərəkət eləyib istədi atın ağzına baxsın. Axura yavıqlaşan kimi naçalnik dik atıldı və çığırdı:

– Ax, çort vozmi!

Axurun içində guya kəfənə bürünmüş bir şey naçalnikin gözünə sataşdı. Naçalnik yanındakı pristavın əlindən yapışıb yavaşca yeridi axurun yanına və diqqət eləyib gördü ki, axurdakı Qurbanəli bəy özüdü. Bunu görcək naçalnik çəpik çalıb, qəh-qəh çəkib güldü və dedi:

– A... a... a... rəfiq, sən burda imişsən!!.

Qonaqlar da bir-bir gəlib bəyə diqqət ilə baxdılar və çəkilib durdular kənarda.

Qurbanəli bəy yerindən heç tərpəşmədi.

Qonaqlar çıxdılar küçəyə, atları mindilər və üz qoydular getməyə.

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

(1870–1933)

*XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev Şuşada doğulmuşdur. Üç yaşında olarkən atasını itirən Əbdürrəhim bəy əvvəlcə əmisinin (daha doğrusu, atasının əmisi Əbdülkərim bəyin), sonra isə anasının və atalığının himayəsində böyüyür. Təxminən 10 yaşı olanda mollaxanada oxuyur, sonra Şuşa real məktəbində təhsil alır. Tiflisdə real məktəbi qurtarıb ali təhsil almaq üçün Peterburqa gedir. Orada Yol Mühəndisləri İnstitutuna qəbul olunur, eyni zamanda azad dinləyici kimi Peterburq universitetinin şərq fakültəsində dil və ədəbiyyata dair mühazirələrə qulaq asır, müsəlman tarixi və mədəniyyəti ilə maraqlanır.*

*1899-cu ildə Azərbaycana qayıdan Haqverdiyev bir müddət Bakıda yaşayır. O, bir tərəfdən müəllimliklə məşğul olur, məktəblərdə dərs deyir, digər tərəfdən teatrlarda verilən tamaşalara rejissorluq edir. 1906-cı ildə Gəncə quberniyasından Rusiya Dövlət Dumasına nümayəndə seçilən Ə.Haqverdiyev bir müddət Peterburqda yaşayır, sonra İrana səyahət edir. Yenidən Bakıya qayıdaraq, "Nicat" maarif cəmiyyətində, Kür-Xəzər gəmiçilik idarəsində çalışır. 1911-ci ildə onu işdən azad edirlər. Ədib Ağdama köçür və 1916-cı ilə qədər orada yaşayır. Həmin il Tiflisdə rus dilində çıxan "Şəhərlər İttifaqının Qafqaz Şöbəsinin Xəbərləri" adlı məcmuənin müdiri təyin olunur. Bir qədər sonra o, Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilir. Həmin ilin mart ayında Borçalı qəzasına müvəkkil təyin edilir. 1919-cu ildə Bakıya qayıdır və ömrünün axırına qədər burada yaşayıb, müxtəlif işlərdə çalışır. Ədib dekabrın 11-də Bakıda vəfat etmiş və orada dəfn olunmuşdur.*

*Bədii yaradıcılığa XIX əsrin sonlarında başlayan Ə.Haqverdiyev nəsr əsərlərini XX əsrdə yazmışdır. "Ata və oğul", "Şeyx Şəban" və "Mirzə Səfər" onun nasirlik istedadını əks etdirən klassik hekayələrdir. İlk dəfə XX əsrin əvvəllərində müxtəlif mətbuat orqanlarında çap olunan bu əsərlər sonralar Bakıda dəfələrlə nəşr edilmiş, dərsliklərə, müntəxəbatlara salınmışdır. Hekayələrin bu kitabda verilən mətni yazıçının ikicildlik "Seçilmiş əsərləri"nin ikinci cildindən (Bakı, 1971) götürülmüşdür.*



## ATA VƏ OĞUL

### I

Hacı Xəlil, müsinn[1] şəxs, həştad beş il dünyada ömür edəndən sonra, xudavəndi-aləmin əmrini yerinə yetirməkdə idi. Bir böyük otağın ortasında Hacını üzü qibləyə uzadıb, başının üstündə molla tilavəti-Quran[2] etməyə məşğul idi. Sağ tərəfdən Hacının övrəti əyləşib, əlində dəsmal, həzin-həzin Hacı ilə keçirdiyi günləri yada salıb ağlayırdı. Sol tərəfdən Hacının cavan oğlu kürsü üstündə oturub bikef gözlərini bir nöqtəyə dikmişdi və tək-tək ahi-sərd ürəyindən çəkirdi. Hacının qədim nökəri Kərbəlayı Qulaməli iranlı, qapının ağzında ayaq üstündə durub gözlərinin yaşını abi-nisan kimi ağ saqqalından axıdırdı. Heç kəs bir söz danışmırdı, hamının gözü Hacının üzündə idi.

Hacı Xəlili böht[3] aparmışdı və bu böhtün içində onun keçən günləri bir-bir gəlib gözünün qabağından ötürdü. Budur, balaca Xəlil səkkiz yaşındadır. Atası qovurmaçı Səlim öz övrətinə deyir: "Övrət, bu uşağın məktəbə getmək vaxtıdır, mənim sənətim də bir elə sənət deyil ki, aparım bu yazığa da öyrədim. Meydanın ortasında baharın yağışı, qışın qarı başıma yağa-yağa, yayın istisi bir yandan və ocağın istisi o biri tərəfdən məni yandıra-yandıra mən çörək qazanıram. Bunlar hamısı mənim bisavadlığımdandır. Heç olmasa bu uşağı oxudaq, bəlkə savadı cəhətinə asan çörək qazanıb bizə rəhmət oxuya".

Xəlilin anası ərinin sözlərini bəyənib, durub bir qazan su qızdırıb Xəlilin başını yudu, birçəklərini daradı, çiyninə heybə salıb içinə para çörək qoydu, atasına qoşub "oğul, Allah özü sənə yar olsun" deyib məktəbə yola saldı.

Hacının mollası və məktəb yoldaşları bir-bir onun gözünün qabağından keçirdilər. Budur, Mirzə Nəsib iranlı qoca kişi yuxarı başdan əyləşib, qabağında bir dəstə çubuq, gözlərində eynək, uşaqlara məşq başı yazmağa məşğuldur və uşaqlar divarın dibində cərgə ilə düzülüb oturublar. Kimisi dərs oxuyur, kimisi falaqqadan təzə

[1] Müsinn – qocalmış
[2] Tilavəti-Quran – Quranı avazla oxumaq
[3] Böht – burada: xəyal, huş

çıxmış ayaqlarını ovuşdurub ağlayır və kimisi yoldaşlarının papaqlarından yun qopardıb manqala salır ki, bəlkə gün çıxa. Amma Xəlil özü bir küncdə əyləşib, əlində çərəkəsi, diqqəti tamamilə dərsini əzbərləməkdədir. Ələlxüsus yadına gəlir Quran çıxdığı gün ki, atası ona bir dəst təzə libas tikdirib dedi: "Bala, Allahdan arzu edirdim sənin qazancından bir çörək yeyib ondan sonra öləydim". Atasının bu sözləri Xəlilin ürəyində bir nisgil olub, ölənədək qalmışdı: çünki atası onun qazancını görməyib, onu bir balaca bacı ilə ana əlində yetim qoyub Allahın rəhmətinə getdi.

Biçarə Xəlil on beş yaşında yetim qalıb, bir xırda savadla məktəbi tərk edib anasına və bacısına çörək qazanmaq fikrinə düşdü.

Xəlilin atasından bir balaca, iki otaqdan ibarət ev və iyirmi iki manat kağız pul qalmışdı. Bir neçə gün binəva uşaq çalışıb-vuruşdu, amma heç yerdə özünə qulluq tapa bilmədi, axır anası görüb ki, kişidən qalan pulun çox yarısı xərclənib və halət bu günə keçsə, pulun qalanı da qurtarsa, elə acından ölosidir. Bir gün, cümə günü bir cüt mərdanə corab bazardan alıb, oğlunu yanına salıb getdi Mirzə Nəsibin evinə. Yazıq övrət Mirzə Nəsibin övrətinin yanına gəlib bu sözləri dedi: "Xanım, bu uşaq axundun dəstpərvərdəsidir[1]. Necə il buna dərs verib, savad sahibi eləyib, indi də axundun özünə məlumdur ki, bunun atası ölüb, heç bir şey də özündən sonra qoymayıb. Bir külfət gözünü dikib bir balaca yetimə. Bu bir cüt corabı qoy axundun qabağına, mənim dilimcə ona yalvar, degilən Allah xatirinə indiyədək bu uşağa ata olub, indi buna rəhm edib bunu bir yerə nökərçiliyə də olsa versin ki, bəlkə ayda beş-altı manat məvacib alıb onunla özünü və yetim bacısını saxlasın".

Anasının bu sözləri heç Hacı Xəlilin yadından çıxmazdı, tez-tez bu sözləri övrətinə və aşnalarına deyərdi və həmişə də Mirzə Nəsibə rəhmət oxuyardı və deyərdi ki: "Mənim bir parça çörəyimin səbəbi o mərhum olub".

Mirzə Nəsib, Xəlilin anasının danışığını o biri otaqdan eşidirdi, qoca mirzəyə övrətin sözləri o qədər təsir etdi ki, gözündən biixtiyar yaş cari oldu. Hövlnak yerindən qalxıb övrətin otağına keçdi. Xəlilin anası üzünü örtüb küncə girdi və Xəlil də əlini döşünə qoyub, mollasına təzim edib ədəblə durdu. Mirzə Nəsib corabı qəbul etmə-

[1] Dəstpərvərdə – yetirmə



yib, Xəlilin anasını xatircəm edib yola saldı və Xəlili özü ilə götürüb öz dostu Ağa Hüseyn xüşkbarfüruşun[1] yanına apardı.

Ağa Hüseyn bir dövlətmənd şəxs idi. İranla böyük xüşkbər alış-verişi edirdi. Amma bisavad olmağına görə həmişə bir yazı bilən adama möhtac idi. Mirzə Nəsib o qədri ki bacarırdı Xəlili Ağa Hüseynə tərif edib təvəqqe etdi ki, onu öz yanında saxlasın. Ağa Hüseyn öz dostunun təvəqqesini qəbul edib ayda altı manat məvacibə Xəlili dükanda qulluq etməyə qəbul etdi. Hətta ona çörək və ildə də bir dəst libas verməyi həm boynuna götürdü.

Xəlil şadlığından bilmədi ki, nə tövr gəldi evə çıxdı. İndi balaca uşaq özünü kişi və külfət sahibi hiss edirdi və bu hiss onun üçün bir mayeyi-iftixar olmuşdu. Altı manat o vədə böyük pul idi: ətin beş girvənkəsi bir abbasıya, yağın pudunu üç manata verirdilər və Hacı Xəlilin yadındadır ki, altı manatla onun anası və bacısı mürəffəhülhal[2] dolanırdılar.

Xəlil başladı Ağa Hüseynə qulluq etməyə və əvvəl gündən ixlas, çapıqlıq və doğruluq göstərdi və bunun bu sifətləri Ağa Hüseynin məhəbbətini gün-gündən ona artırdı. Hər bir vaxt Mirzə Nəsibi görəndə Ağa Hüseyn rizaməndlik edib deyirdi ki: mən əlli ildir alış-veriş edirəm, bu cür qoçaq oğlan görməmişəm.

Bir il qulluq edəndən sonra Ağa Hüseyn Xəlilin məvacibini on manat etdi. Xəlil ağasının qulluğa qədr və qiymət qoymağını görüb, bir az da ixlas və iradətini ona artırdı.

Dörd il bu növlə Xəlil Ağa Hüseynə qulluq etdi və bu dörd ilin müddətində məvacibi otuz manata yetişmişdi. Bu məvacibə Xəlil nəinki ağayana dolanırdı, hətta bir-iki yüz manatadək də pul cəm edib Ağa Hüseynə tapşırığa vermişdi və Ağa Hüseyn hər mal alanda Xəlilin puluna əlahiddə mal alıb satıb mənfəətini onun pulunun üstünə qoyurdu.

Bir gün Xəlil anasına xəbər gətirdi ki, bəs Ağa Hüseyn istəyir bunu özü ilə İran səfərinə aparsın və iki gündən sonra yola düşəsidilər. Bu xəbər anasına və bacısına nə tövr təsir elədi, heç Hacı Xəlilin yadından çıxmaz idi. İki gün balasını gözündən qoymayan ana və qardaşından ayrılmaq istəməyən bacı xəlvətdə ağlayırdılar, amma Xəlilin yanında toxtaqlıq göstərib ona tədarük görürdülər.

[1] Xüşkbarfüruş – quru meyvə satan

[2] Mürəffəhülhal – gen-bolluqla, ehtiyacsız

Səfər günü Xəlil əmisi kəlləpəz İmanı gətirib evlərində həyan qoyub anası və bacısı ilə ağlaya-ağlaya vida etdi. Biçarə övrət Quran götürüb əziz oğlunu Quranın altından keçirib dalınca bir qab su atıb ağlaya-ağlaya mənzilə qayıtdı.

Xəlil Ağa Hüseynlə bahəm varid oldular İran torpağına. Ağa Hüseyn cəmi xüşbərə mərkəzlərini və alış-veriş yollarını ona göstərdi və axırda üzün ona tutub dedi:

– Bala, mən səni buraya özüm üçün kömək gətirməmişəm. Mən, budur, neçə ildir İrana səfər edirəm. Heç bir səfərdə köməyə ehtiyacım olmayıb, ancaq çünki sən həmişə qulluqçuluq etməyib axırda özün üçün bir alış-veriş etmək fikrinə düşəcəksən, ona görə mən istəyirəm ki, ticarətin hər bir yolunu və qaidəsini sənə öyrədim.

Xəlil, Ağa Hüseynin bu sözlərinə bilmədi nə tövr rizaməndlik etsin. İrana əvvəl viruddan Xəlilin zəkavəti, çapıqlığı, ayıqlığı Ağa Hüseyni təəccübə gətirdi. Ağa Hüseyn öz dəstpərvərdəsinin bu qabiliyyətini görüb, artıq xoşhal olub fəxr edirdi.

Lazım olan qədər xüşkbər alıb ulaqlara yükləyib yola saldılar. Xəlil Ağa Hüseyndən soruşdu ki, nə üçün ulaqları kirayəsinə tutursan?

Ağa Hüseyn soruşdu ki, bəs necə olsun?

Dedi:

– Yaxşı olar ki, ulaqları da pulla alaq, tainki vətəndə həm xüşkbəri, həm də ulaqları qazancına sataq.

Ağa Hüseyn Xəlilin bu sözlərini eşidib, bir az böhtə gedib dedi:

– Bala, bu maddə ki səndə var, inşallah gələcəkdə çox böyük sövdəgər olarsan. Gələn il dəxi mən gəlməyib səni İrana tək alış-verişə göndərəcəyəm.

O il Ağa Hüseyn çox böyük nəf elədi və bu nəfi də Xəlilin ayağının sayəsindən hesab edirdi.

İkinci il Ağa Hüseyn Xəlilin əlinə böyük məbləğ verib, tək İrana göndərdi və bu səfərdə Xəlil yenə artıq diqqət və qabiliyyət göstərib, güclü mal alıb qayıtdı və o il Ağa Hüseynin nəfi keçən ildən artıq oldu. Xəlilin bu zəhmətinə görə Ağa Hüseyn o ilin mənfəətinin yarısını ona bağışladı. Bu ildən də sonra yenə Xəlil üç dəfə İran səfərinə gedib, hər dəfə baqaidə xeyir edib qayıtdı.

Bir gün Ağa Hüseyn Xəlili çağırıb dedi:

– Oğul, budur, neçə ildir mənim yanımda qulluq edirsən və mən də bu müddətdə sənin mənə aybaay verdiyin pullarla sənin üçün alış-veriş etmişəm. Bu gecə hesaba baxıb görürəm ki, sənin məndə səkkiz min manata qədər pulun var. Bu pulla sən özün üçün məxsus



bir alış-veriş aça bilərsən. Özün də qabil oğlansan; demək olar ki, anadan dünyaya tacir gəlibsən. Mənim borcumdur sənə təklif edim, istəsən mənim yanımda qalarsan, ya ayrı iş başlamaq xahiş edərsən.

Xəlil cavab verdi ki: əmi (axır vaxtlar Xəlil Ağa Hüseynin öz xahişinə görə ona əmi deyirdi), o yaxşılıq ki indiyə qədər mənim haqqımda edibsən, məni sənə həmişəlik qul edib və mən səndən ayrıla bilməyəcəyəm. Amma təvəqqe edirəm ki, məni özünə öz puluma görə şərik edəsən, ta yenə bir yerdə ticarət edək.

Ağa Hüseyn Xəlilin üzündən öpüb dedi:

– Oğlum, sən ki belə istiqamətli oğlansan, Allah sənin başından tökəcək. Başqa adam səkkiz min adı eşitsə idi o saat azıb yolundan çıxardı.

Haman il Xəlil bacısını ərə verib, özü də evlənmək fikrinə düşdü. Fikrini anasına izhar etdi və anası gedib Mirzə Nəsibin nəvəsini ona istəyib aldı (haman o qızı ki, bu saat Hacı Xəlilin yanında oturub ağlayır).

Mirzə Nəsib vəfat etmişdi və külfəti həmişə Ağa Hüseyndən və Xəlildən ianə alıb dolanırdı. Xəlilin toy xərcini Ağa Hüseyn öz öhdəsinə götürüb əlavə yaxşı peşkəşlər özünə və övrətinə verdi.

Bundan sonra yeddi il Xəlil və Ağa Hüseyn bir yerdə alış-veriş etdilər. Səkkizinci il Ağa Hüseyn vəfat etdi və onun var-yoxu keçdi qardaşının əlinə, çünki Ağa Hüseynin özünün zürriyyəti yox idi.

Ağa Hüseynin vəfatından sonra Xəlil ayrılmaq istədi, hesab çəkdilər. Xəlilin payına yetmiş iki min manat pul düşdü.

Bu gündən Xəlil həm ev və həm alış-veriş sahibi olub, özü üçün məxsus bir dükan açıb başladı İranla ticarəti. Bir neçə ildən sonra Xə lilin alış-verişi böyüdü və Xəlil İrandan başqa Buxara və İstanbulla əlaqə bağladı. Əlli yaşına yetişəndə Məkkeyi-mükərrəməni ziyarət edib Hacı ləqəbi ilə müləqqəb oldu. Hacı Xəlil öz qabiliyyətinin, bacarığının və kəmalının səbəbinə şəhərdə, tacirlər arasında əvvəlinci şəxs hesab olurdu. Axirüləmr öləndə iki böyük evi və milyondan ziyada pulu var idi.

Hacının zikr olan günləri necə ki, ərz olundu, bir-bir gözünün qabağından keçirdi. Zəmani ki, Hacı öldüyünü hiss etdi, yerindən hövlnak gözün açıb, yastıqdan başını qovzayıb üzünü tutdu oğluna, dedi:

– Bala, Əkbər, yaxınıma gəl.

Əkbər kürsünün üstündən düşüb atasının yanında əyləşdi. Hacı Xəlil Əkbərin əlin əlinə alıb bir basdı ürəyinə, dedi:

– Oğul, mənim ömrümdə Allah mənə neçə oğul və qız verib, yenə məsləhət bilib əlimdən alıb. Mənim və bu yazıq ananın ümidi və gözünün axır dikəcəyi dünyada sən olubsan. Yüz zəhmətlə səni mən bu boya yetirmişəm, lazım olan tərbiyəti sənə vermişəm. Hərçənd işqoladan yarımçıq çıxıbsan, amma yenə heç olmasa sənin savadın və qabiliyyətin işqola qurtarmış adamların savadından və qabiliyyətindən az deyil idi. Bala, mənim ömrüm qurtarıb, ölürəm. Ona görə istəyirəm sənə bir neçə vəsiyyət eləyim. Mənim vəsiyyətim qoca, dünya görmüş və səni iki gözündən artıq istəyən ata vəsiyyətidir. Əgər əməl eləyəsən ziyan çəkməzsən.

Əvvəl, bala, bu qoca anan ki, burada oturub, sənin çox zəhmətini çəkib, sənə süd verib, gündüzlər və gecələr gözlərini sənin gözlərinə dikib nə rahat olmuyub, nə yatmayıb, səni dizlərinin üstə bəsləyib, sənin barəndə cəmi analıq haqqını yerinə yetirib. İndi də ömrü keçib, əldən düşüb, sən də onu axır günündə gözdən qoymuyasan, həm mənim ruhum səndən razı olar, həm Allah. İkinci vəsiyyətim sənə budur: əgər yenə istəyəsən mənim ruhum səndən razı olsun, bu qoca Kərbəlayı Qulaməlidən muğayat ol. Çünki onun ömrü bu qapıda nökərçilikdə keçib. Bu kərbəlayı yaxşı kişidir, Allah bəndəsi, doğru, dürüst adamdır. Hörmətəlayiq kişidir. Necə ki mən onu indiyə qədər saxlamışam, sən də onu elə saxla, Allah səndən razı olar.

Kərbəlayı Qulaməli Hacının bu sözlərini eşidəndə uca sövt ilə hönkürüb bihal dizi üstə çökdü: "Ağa, Allah məni səndən sonra dünyada qoymasın" – deyib qışqırtı ilə ağladı. Hacı əli ilə ona işarə edib guya sakit ol, dedi və sonra yenə üzünü çöndərdi oğluna tərəf və söylədi: "Bala, mən həştad beş il dünyada ömür etmişəm. Bu tul ömrümdə çox vilayətlər gəzib cürbəcür adamlara rast gəlmişəm: deyirlər çox oxuyan çox bilməz, çox gəzən çox bilər. Ona görə bir neçə nəsihət də sənə eləyəcəyəm. Amma dürüst qulaq açıb, dürüst də qulağında saxlayasan. Əvvələ, bala, bu gündən ömrünün axırınadək sən bunu heç xəyalından çıxartma ki, müsəlmansan. Quranın və peyğəmbərin şəriətinin hökmlərinə həmişə itaət elə və bilgilən ki, bu itaətin axirət ruyi-səfidliyindən səvay, dünya xoşbəxtliyi də səninlə olar və Allahın əli və kölgəsi heç vaxt sənin üstündən kəm olmaz. Oğul, cavansan, cavanlığın səhv və xatası olar, çalış xəta etmə. Əgər, xudanəkərdə, səndən bir səhv baş versə, tövbə elə, həmişə səy elə heç kəsə sənin nə dilindən, nə əlindən və nə əməlindən ziyan dəyməsin. Bacar dünyada hamıya yaxşılıq elə, kömək istəyən və sənin pənahına



qaçanı heç naümid qaytarma, çünki acizə, mərizə, yoxsula kömək eləmək yaxşı sifətlərin biridir.

Oğul! Mən sənə çox dövlət və mülk qoyub gedirəm və bu dövlətin binası mənim savadım olub. Ona görə, bala, övladın olsa bitərbiyə qoyma və elm axtaran fəqir uşaqlarına həmişə kömək elə. Çünki onlar oxuyub adam olsalar, sən onlara baxdıqca həmişə şad olub və bu şadlıqdan bir ayrı cür ləzzət aparacaqsan.

Yaman yoldaşdan, oğul, həmişə uzaq qaç. Çünki yaman yoldaş səbəbinə insan min bəlayə düçar olar, abrusu əlindən gedər, xalq arasında bədnam olar. Yenə deyirəm, aman yaman yoldaş əlindən!

Hacı Xəlilin səsi gəldikcə zəifləşirdi, axırda nəfəsi bilmərrə qət olub yavaş-yavaş dodaqları tərpənirdi. Yəqin nəsihəti qurtarmamışdı, hərçənd səsi gəlmirdi, axır qalan nəfəsi ilə ürəyini boşaldırdı. Axirüləmr nefti qurtarmış çıraq tək Hacı Xəlil söndü, əli boşalıb Əkbərin əli xilas oldu.

Hacının evindən nalə bülənd olub, məhəllə əhlinə onun vəfatını bildirdi.

Hacı Xəlil vəfat etdi. Yəni dünyadan bir şəxs rehlət etdi ki, neçə füqəra əlini tutmuşdu, ac qarınlar doydurmuşdu. Çılpağa libas vermişdi. Ona görə bu şəxs nəinki öz xiş və əqvamının, bəlkə cəmi şəhər əhlinin əlindən getdi.

Xoş o şəxsin halına ki, öləndən sonra onun adı dillərdə diri qala və ehtiram və rəhmətlə yad ola:

> Dövləti-cavid yaft hər ki, nigunam zist,
> Kəz əqəbəş zikri-xeyr zində künəd namra[1].

## II

Əhli-şəhr Hacı Xəlilin vəfatından müxbir olub, cəm oldular onun evinə. Aparıb nəşini dəfn etdilər və el adəti ilə üç gün baqaidət təziyə saxlayıb, üçüncü gün Əkbəri gətirib, atasının dükanını açıb əyləşdirdilər və xeyir-dua verib, "Allah səni atayın yurdunda qayim və qədim eləsin" deyib hər kəs öz evinə getdi. Bu gündən Əkbər hər bir ixtiyaratı əlinə alıb Hacı Xəlil mərhumun məsnədində[1] əyləşdi.

[1] Sədinin "Gülüstan" əsərindən bir beytdir. Məzmunu: yaxşı ad qazanan daimi bir zənginlik tapmışdır. Çünki dalınca xeyir danışılan adamın adı ölməz.

Əkbər dükanda əyləşib başladı alış-verişi. Bir neçə aydan sonra bir gün Əkbər dükanda ikən gördü onun qədim şkola yoldaşı Rüstəm dükana girdi. Əkbər yoldaşının gəlməyinə çox şad olub, nökəri göndərdi çayçı dükanından çay gətirsin, əyləşdilər söhbətə.

Əkbər Rüstəmi neçə il idi görməmişdi, ona görə gözün onun üzündən kəsməyib danışığına qulaq asırdı. Amma Rüstəmin sifətində heç cavanlıq nişanəsi görünmürdü, hərçənd onun sinni Əkbərdən artıq deyildisə də, yenə ondan on beş yaş böyük görünürdü. Gözlərinin altının göyərtisi onun yuxusuz gecələr keçirməyinə şəhadət edirdi.

Əkbər, yoldaşının bu neçə ildə harada olduğunu sual elədi.

Rüstəm papağı götürüb yerə qoydu və cibindən bir gümüş papiros qutusu çıxardıb Əkbərə təklif elədi və Əkbərin papiros çəkməməyini bilib, özü birini yandırıb bir-iki qullab alıb dedi:

– Qardaşım Əkbər! Bu neçə ildə başıma o qədər qəzavü qədər gəlib ki, nə deməklə və nə yazmaqla qurtarmaz. Vallah, bilmirəm haradan sənə söyləyim – Parisdənmi, Berlindənmi, Vyanadanmı və yaxud bizim Peterburqdanmı?! Sən bilirsən ki, mən burada oxumaq istəməyib, atama dedim ki, gərək məni hökmən Parisə göndərəsən. Yazıq kişi də nə anlayır ki, dördüncü klasdan qaçmış heyvanı Parisin heç bir tövləsinə qoymazlar. Kişidən min manat pul vurub "ağanı Allah saxlasın"... birbaş Parisə. Paris nə Paris! Yer üzünün behişti desəm yenə xəta eləməmişəm! Nə küçələr, nə bazarlar, nə mehmanxanalar, nə teatrlar və kafeşantanlar!.. Görsən bilmərrə əqlini itirib dəli olarsan. O xanımları ki mən Parisin kafeşantanlarında görmüşəm, sən görəsən Məcnunə dönüb biyabanə düşərsən. Necə xanımlar: şəhbaz baxışlı, ahu gözlü, şirin hərəkətli, şəhd sözlü! Sən də deyirsən dünya görürəm? Ərik, kişmişin şirəsinə bulana-bulana gün keçirirsən, deyirsən ki, elə dünyanın zindəganı budur.

Bu yerdə Əkbər Rüstəmin sözünü kəsib dedi:

– Rüstəm, bağışla, sən dünya görmüş adamsan, amma mən avamam, bəs bir-iki dəfə kafeşantan sözü dedin, o nə deməkdir?

– Kafeşantan, yəni xurma çuvalı... xa-xa-xa!.. Kafeşantan, yəni behiştin bir guşəsi! O yerdir ki, orada həm ruhun ləzzət aparır, həm bədənin! O yerdir ki, orada cəmi dünyanın qeydi yadından çıxır, yəni

[1] Məsnəd – vəzifə, yer



gözəllər məclisi, yəqin Sədidə oxuyubsan: "Bə məcmən ki, dər ayənd şahidani dü aləm!"[1] Kafeşantanda cəm olurlar Parisin gözəlləri. Həm sənin üçün teatr gətirirlər, həm oynuyurlar, həm oxuyurlar və xahiş etsən səninlə şam edib sübhədək sənə mehman olurlar. Xülasə, nə deyim, görməmisən bilməzsən. "Şənidən key büvəd manəndi didən"[2]. Dəxi nə ərz eləyim, üç aydan sonra baxdım gördüm min manatdan ancaq iki yüz frank ki, eləsin bizim pul yetmiş beş manat, cibimdə pul qalıb. Atama tel vurub min manat da istədim və daldan da bir kağız yazdım ki, hər ay mənə üç yüz manat pul göndərməsən özümü öldürəcəyəm. Atam min manatı göndərib, sonra da bir kağız yazmışdı ki, "bala, mənim gözümün ağı-qarası sənsən. Dövlətim hamısı sənə qalasıdır. Mən sənə ayda beş yüz manat da göndərim, ancaq sən oxu, adam ol və korluq çəkmə". Binəva kişi belə fikir edirdi ki, bəli, mənim oğlum oxuyub böyük yaranal olub gələcək. Mən də ona baxıb fəxr edəcəyəm, dəxi demirdi ki, oğlu pulu ondan ötrü istəyir ki, onun vasitəsi ilə dünyadan kam alsın. Bir də sənə deyim ki, mənim atamdan axmaq kişi dünyada az tapılar. Belə güman edir ki, dünya ondan ötrü yaranıb ki, bazara gedib, evə gəlib çörək yeyib, namaz qılıb yatasan. Neyləyim, bircə gecə kafeşantanda əyləşə, onda görər ki, dünya nədən ötrüdür və insan nə üçün yaranıb. Yazıq kişi, əvam kişi!

İndi, Əkbər, bircə mənə de görüm, sən nəyə lazımsan oturubsan bu fındığın, şabalıdın içində, özünü də çəkibsən, elə bilirsən adamsan? Adam deyilsən, heç zad deyilsən! Amma mənim sənə yazığım gəlir, gərək sənə dünyanın ləzzətin göstərəm. Sən bir fikir elə gör, bu növ alış-veriş sənin özünə, dövlətinə yaraşarmı? Atan kişmiş, xurmaya uşaqlıqdan adət etmişdi, ona görə ayrı alış-verişə həvəsi yox idi. Amma keçmiş zaman bir ayrı, bu zaman bir ayrı! Sən mənim məsləhətimə bax: bu dükanı bağla, bir ayrı bəzzaziyə mağazası aç, get Moskvadan, Peterburqdan, Parisdən mal gətir. Həm alış-veriş elə, həm də dünyadan ləzzət apar. Əgər xahiş etsən, əvvəl səfərdə mən özüm də sənə yoldaş ola bilərəm. Sən belə güman etmə mən işrət mədənlərindən savayı heç bir yerə bələd deyiləm. And olsun sənin canına, elə alış-veriş elərəm ki, bir tacir bacarmıya.

[1] Bir məclis ki, hər iki dünyanın şahidləri oraya gəlirlər.

[2] Eşitmək hara, görmək hara!

Xülasə... Rüstəm öz sərgüzəştindən bu növ nəql edib Əkbərin halətini digərgun etdi. Axır ayağa qalxıb Əkbərdən üç günün müddətinə yüz manat qərz[1] alıb yola düşdü.

Rüstəm getdi, Əkbər isə dükanda qərarı gəlməyib axşama bir-iki saat qalmış dükanı bağlayıb evə getdi. Anası sual etdi ki, "bala, nə üçün belə tez qayıtdın?". Cavab verdi: "Ana, başım bərk ağrıyırdı, otura bilməyib gəldim yatağa".

Bu, əvvəlinci yalan idi ki, Əkbər anasına dedi. Əkbərin anası qalxıb istəkli oğlu üçün rəxti-xab hazır elədi və onu yatırtdı və Kərbəlayı Qulaməli də başının üstündə oturub onun alnını ovmağa məşğul oldu.

O gecə sübhədək Əkbər yata bilmədi. Çünki onun xəyalatı gah Parisin "Bolon meşəsini" və kafeşantanlarını, gah Peterburqun Nevski prospektini, gah Berlinin "Cökə xiyabanını" gözünün qabağından keçirirdi. Sübh Əkbər bir şiddətli baş ağrısı ilə oyandı və o günü naxoş olub dükana gedə bilmədi. O biri gün dəftəri qoltuğuna vurub gəldi dükana. Günorta vaxtı Rüstəm gəlib soruşdu ki, qardaş, nə üçün dünən dükanda yox idin. Cavab verdi ki, başım ağrıyırdı, naxoş idim. Çünki səndən ayrılandan sonra gedib bədxab olub, sübhədək yata bilməmişəm. Rüstəm dedi ki, bu gecə də mən səni qoymayacağam yatasan; mən səni bir qəribə yerə aparacağam ki, indiyədək elə yer görməyibsən və məndən də soruşma ki, səni hara aparacağam. Gedərsən, görərsən. Get evə, faxir libasını gey, azandan bir saat keçmiş mən özüm sənin dalınca gələcəyəm.

Əkbər cavab verdi ki, bəlkə anam razı olmadı. Bu cavaba Rüstəm qarnından yapışıb, yarım saat gülüb dedi: "Ay yazıq uşaq, hələ sən ana ixtiyarından çıxmayıbsan? Rəhmətlik oğlu, sən böyük kişisən, ana nədir, səni qurd yeməyəcək, pişik yeməyəcək! Amma indi ki belədir, deyərsən: "Rüstəm məni evlərinə qonaq çağırıb və deyibdir ki, gəlməsən inciyərəm" və söz də verərsən ki, tez qayıdarsan".

Bir az da Rüstəm keçmiş günlərindən laf vurub getdi.

Axşam Əkbər evə gəlib anasından izn istədi və vədə də verdi ki, tez qayıtsın. İzn alıb təzə libas geyib Rüstəmə müntəzir oldu. Bir az vaxtdan sonra eşitdi ki, qapını dəqqilbab edirlər, bildi ki, Rüstəmdir. Çıxdı küçəyə, gördü Rüstəm bir faytonla qapıda durub. Rüstəm Əkbəri yanına alıb faytonçuya buyurdu: "Sür!" Faytonçu tiri-şəhab tək sürüb bir mehmanxananın qabağında dayandı. Əkbər sual elədi ki,

[1] Qərz – borc



Rüstəm, bu nə yerdir məni gətirdin? Mən indiyədək bir mehmanxanaya girməmişəm.

Rüstəm dedi:

– Heç danışma, sənin borcun itaətdir.

Faytonçunu yola salıb, Əkbərlə qol-qola verib pilləkəndən yuxarı çıxdı. Yuxarıda qulluqçu otağın qapısını açıb, özü iki əlini yanına qoyub, soldat misal durub onları içəri saldı. Əkbər otağa girəndə gördü ki, ortalıqda ağ süfrə ilə örtülmüş mizin ətrafında iki nəfər cavan rus oğlanları və iki rus xanımları əyləşib söhbət edirlər. Əkbər belə güman etdi ki, səhvən özgə otağa giriblər, çox xəcalət çəkdi, amma Rüstəm onun çiyninə vurub dedi:

– Qardaş, bu məclisi mən qabaqca burada hazırlayıb, sənin dalınca gəlmişəm. İrəli gəl, səni aşna eləyim.

Əkbərin qolundan tutub əyləşənlərə tərəf çəkdi və oğlanlar ayağa qalxıb onların qabaqlarına gəldilər. Rüstəm əvvəl Əkbəri onlarla tanış elədi və sonra xanımlara tərəf Əkbəri aparıb dedi:

– Xanımlar, təvəqqe edirəm bu balaca ana uşağı ilə tanış olasınız, hələ bunun dodağından ana südü qurumayıb, özü də çox yaxşı uşaqdır və anasından nəhayət dərəcədə qorxur.

Xanımlar təbəssümlə ona əl uzatdılar. Əkbər burnunun ucunadək qızarıb bir tövr öz familiyasını dedi. Dərhal çay və həlviyat mizin üstündə hazır oldu. Əkbər bir stəkan çay götürüb başladı içməyə, ancaq binəva özünü belə itirmişdi ki, bilmirdi çayı qulağınamı, ya burnunamı içsin. Amma Rüstəm, iki nəfər rus və xanımlarla otağı bir sərçəli samanlığa döndərmişdilər. Orada olan danışıqlar, şivələr, hərəkətlər hamısı Əkbər üçün bir təzə şey idi. İkinci dəfə çay gələndə, Əkbər stəkanı götürüb, çəkilib kənarda bir divan üstündə oturdu. Rüstəm isə xanımların birinə göz elədi və xanım gedib Əkbərin yanında əyləşib başladı onunla şivə ilə söhbət etməyə. Biçarə Əkbər xəcalətdən bir hala düşmüşdü ki, əgər bir hazır qəbr yerdə tapsa idi, əlbəttə, təvəqqe elərdi ki, onun orada dəfn etsinlər.

Gah tərləyirdi, gah qızarırdı, gah saralırdı. Bilmirdi nə desin, nə cavab versin. Hər şeydən ağır Əkbərə yoldaşlarının xəlvət gülməyi gəlirdi. Nökər daxil olub, mizin üstünü təmizləyib başladı onun dörd ətrafına rəngbərəng şamlar düzməyə. Əkbər təəccüblə buna baxanda xanım soruşdu ki, yəqin bəs bunlardan bir şey başa düşməyirsən, görünür, sən həqiqətən balaca uşaqsan: qoy mən səni başa salım. Bu büsat şampanski büsatıdır.

Şamları yandırandan sonra nökər gedib bir neçə şüşə şampan şərabı gətirdi, şüşənin ağzı tapança kimi açılanda Əkbər səksəndi və buna da xanımlar artıq güldülər. Əkbərin yanında əyləşən xanım qalxıb iki piyalə şərab töküb birini özü alıb, o birisini Əkbərə uzatdı, dedi:

– Təvəqqe edirəm bu piyaləni mənim sağlığıma içəsən!

Əkbər dayandı. Bilmədi nə eləsin. Məclis hamısı töküldü binəva Əkbərin üstünə ki, əgər bu şərabı içməsən, əvvəl öz avamlığını sübut edirsən və ikincisi bu xanımı özündən artıq incidirsən. Rüstəm, əlində piyalə, qalxıb üzün Əkbərə tutub dedi:

– Qardaş, xahi nəşəvi risva, həmrəngi cəmaət şov![1] Heç danışıq yeri deyil və dayanmağın da mənası yoxdur, labüd gərək içəsən, "begir in cami-təlx əz dəsti-şirin"[2].

Əkbər bilmərrə özün itirib, bixud şərabı xanımın əlindən alıb başına çəkdi.

Məlumdur ki, hər bir günaha əvvəl qədəm qoymaq çətindir.

Əkbər şərabı içəndən sonra o biri xanım ayağa durub xahiş etdi ki, onun sağlığına da içsin. Binəva Əkbər labüd qalıb ikinci piyaləni həm boşaltdı. Sonra Rüstəm, əlində piyalə, ayağa qalxıb dedi:

– Camaat, bizim bu gecəmiz çox əziz gecələrdən oldu. Çünki bu gecə bir dünyadan bixəbər ana uşağını səvaba daxil etdik və mən bu məlum gecədə sizə söz verirəm ki, bir azdan sonra Əkbər kimi şürbi cəmi şəhərlərdə tapılmasın, ona görə təvəqqe edirəm ki, şeytan kargahının bu təzə fəhləsinin sağlığına içək. Əkbər qardaş, sağ ol!

Qonaqlar hamısı piyalələrini Əkbərin sağlığına boşaltdılar. Rüstəm Əkbəri başa saldı ki, gərək o yığıncağın sağlığına içsin. Çünki qayda belədir. Əkbər naəlac qalıb yenə şərabı içdi. Üçüncü piyalədən sonra Əkbərin dili açılıb başladı bilafasilə danışmağa və piyalələri boşaltmağa. Axır keflənib divanın üstə yuxulayıb yatdı. Bir vədə eşitdi ki, bağırırlar. Oyanıb gördü ki, sübh açılıb, amma yoldaşlar içirlər. Rüstəm dedi:

– Əkbər, bu dəfə sənə kifayət elər. Belə-belə öyrənərsən! Ayaq bir-bir qoyarlar nərdivana.

Camaat ayağa qalxıb nökəri çağırıb buyurdular hesab gətirsin. Əkbər istədi pul versin, qoymadılar. Amma dedilər ki, gələn bu gün haman bu mənzildə sənə qonaq ola bilərik. Əkbər çox şadlıqla onları qonaq çağırdı.

[1] Biabır olmaq istəməyirsənsə, camaatla həmrəng ol.

[2] Bu acı piyaləni şirin əldən al.



Əkbər çıxıb faytona minib yola düşdü və yolda fikir edirdi ki, anasına nə cavab versin. Evə gəlib gördü anası yatmayıb və gecə yarısı Kərbəlayı Qulaməli də iki dəfə Rüstəmin evinə gedib, hər dəfə deyiblər ki, Əkbər orada yoxdur.

Əkbər anasının sualına başladı növbənöv hədərən-pədərən cavab verməyə: gah dedi, Rüstəmgildə, gecə keçməyinə görə yatmışdım; onun üçün elə deyiblər. Gah dedi, xoş gecə olmağına görə Rüstəmlə şəhər kənarına səyahətə çıxmışdıq. Axır, elə gördü anası onun yalanının anlayıb dedi:

– Ay rəhmətliyin qızı, az çürüyünə çəksənə, nə çox çövürüb soruşursan! Nə vaxtadək məni uşaq kimi güdəcəksən!

Əkbərin anasına bu növ cavabı nə tövr təsir etdisə, binəva övrət o gün axşamadək ağladı və bir-iki dəfə Kərbəlayı Qulaməliyə dedi ki, kərbəlayı, deyəsən Hacı Xəlilin yurdunda bayquş uluyacaq! Amma kərbəlayı cavab verdi ki, uşaqdır, beyni qandır, mən ona nəsihət elərəm, inşallah, düzələr.

Əkbər anasının məğlubə olmağından əvvəl dilgir olub və sonra öz-özünə dedi ki: bu yaxşıdır, bundan sonra yoldaşlar mənim adımı "ana uşağı" qoyub tənə etməzlər.

Gələn həftə Əkbər Rüstəmə xəbər verdi ki, axşam məclisi tərtib eləsin və axşam anasından biizn evdən çıxıb mehmanxanaya, haman otağa gəlib gördü Rüstəm bir böyük övrət və kişi məclisi tərtib eləyib. Əyləşdilər kefə. Amma Əkbər içən deyildi. Rüstəm yeyirdi, içirdi, söhbət edirdi və hamı da, ələlxüsus xanımlar ona afərin deyirdilər. Sübhədək kef edib Əkbər min manatdan artıq pul verib evə gəldi.

Evdə anası oğlunun nə yerdə olduğunu nə qədər soruşsa da, Əkbər cavab verməyib axır qəzəbnak: "Bir yol, sənin borcun deyil!" – deyib, gedib yatdı.

Binəva övrət xiffətindən naxoşluğa düşüb, bir neçə gün yatıb tanrı rəhmətinə getdi.

Bir-iki ay anasının vəfatından sonra Əkbər dükanı bağlayıb, evi kərbəlayı Qulaməliyə tapşırıb Rüstəmlə bir yerdə yola düşdü Moskva şəhərinə, bəzzaziyyə malı gətirib təzə mağaza qoymağa. Moskvadan yolları düşdü Peterburqa, oradan Berlinə, Berlindən Parisə. Bir ay sərasər Rüstəm Əkbəri Parisin işrətxanalarında gəzdirib öz gününə saldı və bu səyahət Əkbərə yüz min manatdan artığa durdu. Axır Parisdə bir gözəl (madam San Fua adlı) xanıma bənd olub, ildə iyirmi

dörd min manata danışıb və qabaqca neçə min manatlıq libas və cavahirat alıb, özü ilə vətənə gətirib mehmanxanada mənzil verdi. Və başladı evin övzaını dəyişməyə. Otaqları Yevropa qaydasına salıb, baha qiymətlərə miz və sandallarla müzəyyən edib və madam San Fua üçün bir gözəl otaq hazırlayıb köçürtdü evinə və qoca Kərbəlayı Qulaməliyə yüz manat verib rədd etdi və əvəzinə bir aşpaz, bir lakey və madam üçün bir qız qulluqçusu baha qiymətə tutdu və sonra bir fayton, bir kareta və dörd rəs Orlovski at böyük məbləğə alıb madama peşkəş elədi.

Madam San Fua Əkbərin canına bir yaman zəli olub başladı müdam onun qanını sormağa. Bir gün Əkbər evə peşkəşsiz gələndə axşamadək madam onu dindirmirdi. Hər gecə Əkbərin evində qumar məclisi qurulub, otuz minlərlə pullar uduzulurdu və hər gecə də Rüstəm öz yoldaşları ilə Əkbərin evində qonaq idi. Əkbər ticarəti əldən buraxmışdı və işi ancaq eyş-işrət və qumar idi.

Bir gün Əkbər ayılıb gördü ki, atasından qalan evlərin ikisi də girov qoyulub və cibində də pul qalmayıb. Hacı Xəlildən qalan dövlətin hamısı Yevropa səyahətinə, içkiyə, qumara, madamın məvacibinə və peşkəşlərinə gedib.

Axır bir gün madam San Fua Əkbərə məlum etdi ki, daha onunla ola bilməyəcək, çünki budur iki aydır ona pul çatmır və peşkəş gəlmir. Xülasə, Əkbər dövləti itirib, ona sahiblik etməyə qabil deyildir.

Əkbər nə qədər ağladı, yalvardı, kar görmədi. Madam öz şeylərini yığıb mehmanxanaya köçdü. Əkbər hirsdən və xiffətdən naxoş oldu.

Rüstəm bir-iki dəfə onun yanına gəlib sonra tərəddüdü kəsdi. Axır Əkbər ona yazıb təvəqqe etdi ki, bir yanına gəlsin. Cavab gəlmədi. Bir gün Əkbərə xəbər gətirdilər ki, Rüstəm madam San Fua ilə yaxınlaşıb və madamın xərci ilə, onunla mehmanxanada olur. Bu xəbər Əkbəri lap mütəğəyyir etdi.

Əkbər bir aydan ziyadə naxoş yatıb durdu ayağa. Bir gün küçə ilə gedərkən gördü bir gözəl faytonda Rüstəmlə madam San Fua çox mehriban əyləşib ona tərəf gəlirlər. Əkbər əl elədi, faytonu saxladılar. Yaxına gəlib bir güllə madama, birini də Rüstəmə vurub hər ikisini öldürdü və oradan gedib özünü divana təslim etdi.

İki ildən sonra movqiflərin birinə varid olub gördüm qoca Kərbəlayı Qulaməli movqifin qabağında dalını divara söykəmiş əyləşib. Soruşdum:



– Kərbəlayı, sən hara, bu yerlər hara?

Dedi:

– Qurbanın olum, əlacım nədir. Qırx il atasının çörəyini yemişəm, əgər onun yaman günündə gözdən qoysam, o çörək mənim gözlərimə durar.

Dedim:

– Kərbəlayı, başa düşə bilmirəm: yaman gün nədir, çörək nədir?

Bu sözün cavabının əvəzinə, bir ahi-sərd çəkib kənarda durmuş bir dəstə soldata əli ilə işarə etdi. Soldatlara tərəf gedib, gördüm ortalarında neçə nəfər dustaq; kimi ayağı zəncirli və kimi zəncirsiz, yerdə əyləşiblər və bir nəfər cavan oğlan baş və bığı ağarmış, bir çuvala başın söykəyib yatıb. Diqqətlə baxanda Əkbəri tanıdım, halətim dəyişdi. Üz döndərib Kərbəlayı Qulaməliyə tərəf qayıtdım. Kərbəlayı soruşdu:

– Gördün?

Dedim:

– Gördüm, Kərbəlayı, bunu haraya aparırlar?

Dedi:

– Kəsiblər İrqut quberniyasına getsin. Mənim də əlacım yoxdur, qarabaqara dalınca sürünürəm.

Dedim:

– Kərbəlayı, sən qoca adam bir belə yolu gedəmi bilərsən?

Dedi:

– Qurbanın olum, özüm də bilirəm ki, mən heç yana gedib çıxa bilməyəcəyəm, yolda bir yerdə ölüb qalanam, amma getməsəm qorxuram qiyamət günündə Hacı Xəlilin yanına üzüqara gələm.

Bir azdan sonra dəmiryol qatarı gəlib movqifin qabağında dayandı. Dustaqları bir dəmir pəncərəli vaqona doldurdular və Kərbəlayı Qulaməli dal vaqona minib dedi:

– Qurbanın olum, salamat qal, Allah səni pənahında saxlasın.

Qatar yola düşdü və mən də məhbut onun, gözdən itənədək, dalınca baxdım və bu böhtün içində Sədi mərhumun bir fərdi yadıma düşdü:

"Ba bədan yar gəşt həmsəri-Lut
Xanədani-nübüvvətəş güm şüd"[1].

*1906*

---

[1] Tərcüməsi: Lutun arvadı pis adamlarla yoldaş oldu, peyğəmbərlik xanədanı itdi.

– Şeyx Şəbanı siz tanıyırdınızmı?

– Xeyr!

– Heyf, sədd heyf. Mən haman o Şeyx Şəbanı deyirəm ki, yolun qırağındakı məhəllə məscidinin qabağında əyləşib pinəçilik edirdi. Yağış yağanda sel gətirən köhnə başmaqları, çustları, çəkmələri, çarıqları yığıb, qalıba vurub, yamayıb ucuz qiymətlə: cütünü bir abbasıdan, altı şahıdan satardı. Fəqir-füqəranın ayaqqabıları hamısı ancaq Şeyx Şəban əməli olardı.

Deyəsən yavaş-yavaş yadınıza düşür? Bir toy, bir ehsan Şeyx Şəbansız keçməzdi. Meyit qabağında Şeyx Şəban "la hövlə və la qüvvətə" deyəndə səsi şəhərin o biri qapısında eşidilirdi. Hər sabah tezdən durub, enib, sübh namazını məsciddə qılıb, sonra çıxıb, öz yerində əyləşib peşəsinə məşğul olardı. Günorta və axşam azanını da verməyi özünə fərz hesab edərdi. Güman etməyin ki, Şeyx Şəban azan verməyinə muzd alırdı. Xeyr, əstəğfürullah! Azan verməyi məhz savab əməl hesab edərdi və əcrini qiyamətdə Allahdan gözləyirdi.

Şeyx Şəban gödək boylu, uzun saqqallı bir kişi idi. Baharda, yayda aba bürünərdi və qış fəslində çiyninə bir Xorasan kürkü salardı. Bir nəfər deyə bilməzdi ki, mən Şeyx Şəbanın saqqalının dibini zərrəcə ağarmış görmüşəm. Heç Şeyx Şəban elə adam deyil idi. Otuz il bir abada gəzməyi, qırx il bir kürkə bürünməyi qəbul edərdi, amma saqqalına rəng və hənadan korluq verməzdi.

Rəng və hənanı da həmişə əttar Kərbəlayı Məqsuddan alardı. Hər adamın satdığı hənanı bəyənməzdi. Düşəndə də deyirdi ki, Kərbəlayı Məqsudun hənası cəmi İranda tapılmaz! Gör nədir ki, qazı ağa özü də onun hənasını işlədir və dəlilinin də ki, müqabilində heç bir irad ola bilməz. Yemək tərəfindən, həmçinin, Şeyx Şəban özünə korluq verməzdi. İlin çox hissəsini toylarda, ehsanlarda plov yeyərdi. Fəqət plov olmayan günü də hökmən gərək bir abbasılıq ət alıb göndərəydi evə, ta arvad axşam abiguşt bişirsin. Əti də Şeyx Şəban qəssabdan almazdı. Qəssabbaşı İmaməli ilə müştəri idi. Nisyə ət alıb əlinə pul keçdikcə hesablaşardı. Ondan əlavə, düşəndə axşamlar yemişdən, üzümdən, qarpızdan alıb özü abanın altında evə gətirərdi.

Şeyx Şəban belə Şeyx Şəban idi.



Şeyx Şəbanın arvadı Gülsüm xala da məhəllədə məşhur idi; çünki yaxşı ruf tutardı, çöp ötürərdi, noxud falı açardı və hecəmət qoyardı; boğaz basardı, nəinki şəhərdən, hətta ətraf kəndlərdən də boğazlarında çöp qalan uşaqları birbaş Gülsüm xalanın yanına gətirərdilər. Gülsüm xala uşağın ağzını əli ilə örtüb, üzündən üflərdi; sonra barmağını uşağın ağzına salıb, əzgil çəyirdəyindən, gavalı çəyirdəyindən, kömür qırığından çıxarardı.

Bir dəfə Şeyx Şəbanın çəpərinin yanından ötürdüm, gördüm həyətdə bir nəfər kişini uzadıb yerə, boğazına bir ip bağlayıb, ipin bir ucunu da ağaca bağlayıbdır. Uzananın yanında neçə nəfər şəxs və Gülsüm xala da, üzü örtülü, durubdur. Bir də gördüm kişilərdən ikisi uzananın ayaqlarından yapışıb gücləri gəldikcə dartırlar; bunun boynu belə şaqqıldadı, guya bir böyük ağac şaxı sındı. O saat ipi boğazından açdılar. Durdu ayağa, əlini cibinə salıb, sonra cibindən çıxardıb Gülsüm xalaya tərəf uzatdı. Bildim ki, pul verdi. Kişilər həyətdən çıxanda birinə yaxınlaşıb dedim:

– Bu nə keyfiyyətdir?

Dedi:

– Bu şəxsin boynuna qıyıq girmişdi. Allah imanını kamil eləsin, Gülsüm xala sağaltdı.

Gülsüm xala da belə Gülsüm xala idi.

Şeyx Şəbanın yaşı altmışdan addamışdı. Gülsüm xalanın sinni əlli beşinə yaxınlaşırdı. Bu iki ər-arvadın bir-birinə olan məhəbbəti dillərdə deyilirdi. Hər sübh Gülsüm xala Şeyx Şəbandan tez oyanıb, yerindən qalxıb, samavar hazır edərdi. Samavar qaynayan tək otağın ortasına çəhrayı rəng, hər iki tərəfinə – "məclis arast" yazılı çitdən bir süfrə salıb, pendirdən, çörəkdən süfrəyə düzüb ərini oyadardı.

– A kişi, daha durginən, azanın vaxtı keçir.

– Bu saat durram, çay hazırdırmı?

– Əlbəttə hazırdır. Məgər özün bilmirsən ki, mən çay dəmləməmiş səni oyatmaram?

Şeyx Şəban arvadının adətini bilə-bilə yenə hər sübh ona bu sualı verərdi. Çünki arvadının cavabı ona ləzzət verirdi və ürəyində də fəxr edirdi ki, onun belə qeydinə qalan arvadı var. Şeyx Şəban cəld durub dəstəmaz alıb, iki stəkan çay içib qalxırdı ayağa. Arvadı isə tez durub ərinin başmaqlarını cütləyib abasını, ya kürkünü çiyninə salıb darvazayadək ötürüb qayıdardı otağa. Hər cümə axşamı şeyxin

saqqalına həna qoyub, qoz yarpağı yapışdırıb və atası evindən gətirdiyi cehiz hənabəndi ilə bağlardı və gecə yarısı onu hamama göndərərdi. O idi ki, Şeyx Şəbanın saqqalı həmişə şəvə tək olardı. Özü də cavan oğlana bənzərdi.

Şeyx Şəbanın atası başmaqçı idi. Özü də bir neçə müddət atasının dükanında başmaqçılıq edib axırda peşəsini unudub bir neçə avara yoldaş tapıb qurşandı cahıllığa: toylarda, hamıdan yaxşı oynayan kim idi? – Başmaqçı oğlu Şəban. Qumarbazlar arasında ürəkli aşıq atan kimi idi? – Başmaqçı oğlu Şəban. Şəhər cavanları arasında hamıdan iyid sayılan kim idi? – Başmaqçı oğlu Şəban. Hər il məhərrəm ayında məhəllə dəstəsinin başını kim çəkərdi? – Başmaqçı oğlu Şəban. Bağışlayın, mən sizin gözlərinizdə sual nişanəsi görürəm, guya siz sual edirsiniz: aya, bu cavan ki, avara idi, bəs bu haradan pul qazanırdı ki, toylarda, qumarda, səyahətlərdə xərc edirdi? Mən də sizdən sual edirəm: – "Bəs Xoca Sərkizin ki, evi yarıldı, yüz pud ipəyi getdi, o ipəyin pulu necə oldu? Hacı Qafarın dükanı yarıldı, on beş min manatlıq malı getdi, o malın pulu kimin cibinə doldu? Baron Arakelin dükanından gedən on min manatlıq cavahirat necə oldu?.."

Xülasə, nə ərz edim, mədaxil yolu bir deyil idi, beş deyil idi; bu evləri, dükanları yaranların hamısının başçısı başmaqçı oğlu Şəban idi. Şeyx Şəban cavanlığında məhəllə oğlanlarının arasında çox gözəl sayılırdı. Özü nağıl edərdi ki, məhərrəm ayında başıaçıq dəstə başında durub bazarla gedəndə "Heydər!" – deyib başımı silkələyəndə birçəklərim ki, üzümə tökülürdü, cəmi damlardan tamaşa edən arvadların, gəlinlərin, qızların ağılları başlarından çıxardı. Bu əhvalatı ona qonşusu ağıçı Mələk nənə gəlib nağıl edərdi.

Bir gün Şəban evdə əyləşmişdi. Mələk nənə daxil oldu.

– Salaməleyk!

– Əleykəssalam! Mələk nənə, əyləş görək.

Mələk nənə əyilib, əvvəl əllərini yerə dayayıb, sonra "ax, ay vay" edib yanını yerə qoydu. Bir az nəfəsini dərib üzünü Şəbana çevirdi:

– Qadan alım, məni neyləyirdin?

– Dincini al, danışarıq, deyəsən uzaqdan gəlirsən ki, belə yorulmusan?

– Bəli, qadan alım! Zeynal bəyin evində yasda idim. Evə gələndə nəvəm dedi ki, Şəban əmim səni çağırır. Dincimi almamış buraya gəlmişəm, nə var, xeyir ola?



– Doğrudur, ağıçını şərə çağırarlar, amma mən səni həqiqət xeyir işə çağırmışam. Səni bir yerə göndərəcəyəm! Gərək gedib Məşədi Məmmədvəlinin qızını mənə istəyəsən.

– Gedərəm, ayağın altında ölüm, bəlkə vermədi?

– Ağzı nədir, verməyə? Kimin nə həddi var, mənə qız verməsin? Bilmir ki, bazarın içində atasına od vuraram?

Şəban burada dayanıb bir qədər fikir edib dedi:

– Heç sən qızın atasına söz demə, canı çıxsın. Danışarsan, o da artıq-əskik söylər, mən də, bilirsən ki, dilimin, ağzımın sahibi deyiləm. Axırda görərsən, bir biabırçılıq çıxdı. Sən qızın özü ilə danış. Elə ki razı oldu, gəl mənə xəbər gətir. Daha sənin işin yoxdur... Xərclik də istəyirsənmi?

Mələk nənə bir üçlük alıb cibinə qoyub dedi:

– Qızın nə sözü olacaqdır? Şəhərdə qız yoxdur ki, sənə bənd olmaya. Hələ çox sevinsin ki, sənin kimi oğlan onu istəyir, qızın heç sözü olmaz.

– İndi ki sözü olmaz, iş də düzələr. Sən dayanma, get.

Mələk nənə əvvəl diz üstə çöküb, sonra ayağa dayanıb əziyyətlə qalxıb yola düşdü.

* * *

Baharın axır ayının gözəl gecələrinin biri idi. Şərqdən əsən nəsim, güllərin, çiçəklərin və ağacların yarpaqlarının arasında aşiq və məşuqlar ürəklərini cuşa gətirən bir məqamət bərpa etmiş idi. Göyün ulduzları da guya bir-biri ilə məhəbbətdən dəm vururdular. Bədirlənmiş Ay bunların arasında ahəstə-ahəstə məbhut gəzib dünyaya tamaşa edirdi. Bülbüllər yanıqlı nəğmələr ilə ürək dərdlərini güllərə söyləyirdilər. Şəhər yatmışdı. Tək bir şəhər pasbanlığı edən xoruzlar bir-birlərinə oyaq olduqlarını xəbər verirdilər.

Bu gecə iki nəfərin yuxusu gəlmirdi. Bunların biri başmaqçı Məşədi Məmmədvəlinin cavan qızı Gülsüm idi. O birisinin də kim olduğunu mən deməsəm də qarelər anlarlar. Gündüzdən Şəban ona xəbər göndərmişdi ki, gecə hazır olsun ki, gəlib onu aparacağam. Ona görə Gülsümün rəxtixabına guya od dolmuşdu. İlan vurmuş tək qıvrılır-açılırdı və vədə olunmuş fitə müntəzir idi.

Qarelər soruşarlar ki: – Axır Gülsümü Şəban harada görmüşdü ki, ona belə təəşşüt etmişdi?

Yuxarıda söhbət olundu ki, Şəbanın atası başmaqçı idi. Gülsümün atası ilə şərik olduğundan, oğlu Şəban uşaqlıqda tez-tez Məşədi Məmmədvəlinin evinə gedərdi. Gülsüm də uşaq olmağına binaən qaçmazdı. Məşədi Məmmədvəli həmişə Şəbana deyərdi:

– Yaxşı başmaqçı ol, mən də qızımı sənə verim!

Şəban qızarıb başını aşağı dikib, bir söz deməzdi. Uşaqlıqdan bir məhəbbət toxumu bunların qəlbinə düşüb, gəldikcə kök atıb göyərməkdə idi. Gülsüm on yaşına çatandan sonra atası ona Şəban ilə görüşməyi qadağan etdi. O gündən Şəban onu görmürdü; amma bir an – gecə, gündüz yadından çıxarda bilmirdi. Gülsümün atasının onu Şəbana vermək fikri var idi; amma o gündən ki, Şəban başmaqçılığı unudub oğurluğa, qumara və sair bəd əməllərə qurşandı, Məşədi Məmmədvəli fikrini dəyişib deyirdi: – "Qızımı parça-parça edib itlərə ataram, amma Şəbana verməram".

Gülsümə atasının bu qərarı belə təsir etmişdi ki, yazıq qız gündən-günə mum kimi əriməkdə idi. Məşədi Məmmədvəli də qızının naxoşluğunu səhl bilib ona əlindən gələn müalicəni edirdi. Şəban, ağıçı Mələk nənəni Gülsümün yanına göndərəndən qabaq özünə söz vermişdi ki, əgər Gülsüm bunun evində arvad olsa, o da bəd əməldən əl çəkib, ticarətə yapışacaq.

Gecə yarıdan addamışdı. Vədə olunmuş fit səsi Gülsümün qulağına gəldi. Gülsüm cəld başını yastıqdan qalxızıb durdu ayağa. Bir atası yatan tərəfə qulaq verdi, ondan gəldi anasına qulaq verdi, gördü hər ikisi dərin yuxuya qərqdirlər. Gülsüm anasının üstündən ahəstə yorğanı qalxızıb onun sinəsindən öpdü. Gülsümün gözlərindən iki qətrə yaş anasının sinəsinə düşdüsə də, oyanmadı. Yenə anasının üstünü örtüb çarşabını götürdü (libasını axşamdan soyunmamışdı). Qapıya tərəf getdi. Qapını ahəstə açıb çıxdı həyətə və sinəsini sərin hava ilə doldurub boşaltdı. Dörd ətrafına göz gəzdirib əvvəl bir ayrıldığı evlərinə baxdı. Sonra gözlərini həyətə döndərib öz əli ilə əkib-becərdiyi qızılgüllərə qəlbən vida etdi. Şüküftələnmiş güllər nəsimin dəyməsindən enib-qalxdıqca Gülsümün vidasına cavabən "get, Allah səni xoşbəxt eləsin!" – deyirdilər. Gülsüm darvazanı açıb, darvazanın dalında durmuş Şəbanla qucaqlaşıb, uzun öpüşdən sonra aşiq və məşuq əl-ələ verib yola düşdülər.



Sabahdan Mehdi bəyin evində böyük izdiham var idi. Çünki Şəban Gülsümü onun evinə gətirmişdi. Qonşulardan neçə adam bir yanda əyləşmişdilər. Məşədi Məmmədvəli, əlində bir yekə ağac, qapıda durub deyirdi: "Gərək bu saat məni binamus edən qızı parçalayam". İki nəfər şəxs onu güclə saxlayırdılar. Gülsüm bir küncdə üzü örtülü, başında çarşab əyləşmişdi. Onunla üz-üzə qazı və polis naziri əyləşib sual verirdilər. Qazı deyirdi:

– Qızım, sən heç kəsdən ehtiyat etmə. Heç kəsin cürəti yoxdur sənə bir çırtma vursun. Əgər Şəban səni güclə gətirib, deginən, ta ona divan lazımınca tənbeh eləsin və səni də bu saat verək atan aparsın evinə!

Polis naziri həmçinin qazının sözünü təsdiq edib deyirdi:

– Həqiqət belədir. Zorla qız aparmağın zakona görə böyük cəzası var.

Gülsümü nə qədər danışdırmaq istəyirdilərsə də cavab verməyə həya edib dinmirdi. Axırda polis naziri dedi:

– Görünür, bu qız atası ilə getmək istəyir və güclə gətirilməyini iqrar etməyə qorxur.

Gülsüm bu sözü eşidən tək səsini çıxardıb dedi:

– Heç kəs məni güclə gətirməyib. Mən özüm öz xahişimlə gəlmişəm.

Bu sözü üç dəfə Gülsüm təkrar edəndən sonra qazının və polis nazirinin çıxıb getməkdən sivay bir çarələri qalmadı. Məşədi Məmmədvəlini də güclə öz evinə apardılar. Haman gün kəbin kəsib, Gülsümü aparıb Şəbanın evində qoydular. Şəban necə ki, özünə söz vermişdi, Gülsüm onun evinə gələndən sonra hər bir bəd əməldən əl çəkib bir dükan açıb, başmaq dərisi alış-verişinə başladı və bir-iki aydan sonra qayınatası ilə barışmaq fikrinə düşdü. Çünki Gülsümün də könlü anasını çox istəyirdi. Amma görüşmək mümkün olmurdu. Şəban gedib qazıdan təvəqqe etdi ki, onu bir növ Məşədi Məmmədvəli ilə barışdırsın. Qazı isə cümə axşamına söz verdi. Çaharşənbə günü qazı qəsdən Məşədi Məmmədvəlinin dükanına gedib qabaqca özü üçün bir cüt başmaq tapşırdı və əsnayi-söhbətdə dedi:

– Sabah, axşam azanına iki saat qalmış gələcəyəm. Amma özümlə də bir neçə qonaq gətirəcəyəm.

– Cəmi şəhəri gətirsən, cənab qazı, gözüm üstə yer elərəm.

Söz yox ki, Məşədi Məmmədvəli qazının xahişini anladı və artıq da fəxr etdi ki, qazı tək vücud Şəbanı onun ayağına gətirəcək. Öz ürəyində deyirdi: əlbəttə, beş gün tez, beş gün gec iş olacaq idi. Bir qız bir oğlana qismətdir. Nə düşübdür qazı tək şəxsi özümdən rəncidəxatir edim?

Qazı məşədi ilə xudahafiz edib dedi:

– Məşədi, lumu (limon), mürəbbə, əlbəttə, yadından çıxmasın. Gərək sabah çay hər barədə şirin olsun.

– Gözüm üstə, canım üstündə, istəyirsən xanəndə də gətirim.

Qazı bu sözə gülüb dedi:

– Bəd olmaz! Xanəndə məhz qazılar üçün yaranıb. Xülasə, sabah axşam sənə qonağıq, xudahafiz!

– Müşərrəf, göz üstə gəldin.

Cümə axşamı, müəyyən vaxtda Məşədi Məmmədvəli samavarı ağacın altında dəmləyib, göy ot üstündə sərilmiş süfrədə mürəbbə və doğranmış lumu hazır edib, özü də samavarın yanında dizi üstündə əyləşib stəkanları təmizləməyə məşğul idi.

Bu əsnada qazı, iki nəfər molla və neçə nəfər ağsaqqal təşrif gətirdilər. Gələn qonaqların arasında Şəban da görünürdü. Qonaqlar bir-bir salam verib əyləşdilər. Amma Şəban hamıdan dalda başını aşağı salmış dayandı. Qazı üzünü Məşədi Məmmədvəliyə tutub bir növ nitq söylədi:

– Məşədi, müsəlman taifəsinin gözəl bir adəti var. Bir şəxs görürsən gedib bir ayrı şəxsi öldürür. Sonra haman qatil gəlib məqtulun evinə girəndə, onun təqsirindən keçirlər. Sən belə güman et ki, bu oğlan sənə çox əziz olan bir vücudun qatilidir. İndi biz onu sənin qulluğuna gətirmişik. Gərək bizim xatirimizi mülahizə edib bunun təqsirindən keçəsən. Doğrudur, bu çox qəbih əməl tutub. Sənin namına toxunub, amma sən özün də cavan olubsan və yaxşı bilirsən ki, cavan naqisül-əql olar; bundan əlavə gərək bunun cavanlığını mülahizə edib təqsirindən keçəsən. Ta bu, bu gündən sənə oğul olsun. Sənin qızın da bunun evindədir. Sənin və anasının həmişə korluğunu çəkir. Gərək ona da rəhm eləyəsən; məsəldir: "İnsan, övladının ətini yesə də sümüklərini çölə atmaz".

Qalan qonaqlar da həmçinin Məşədi Məmmədvəlini səsə, küyə basıb Şəbanı çəkdilər ortaya. Şəban isə irəli gəlib qayınatasının əlindən öpdü, qonaqlar da Məşədi Məmmədvəlini Şəbanın üzündən öpməyə vadar etdilər.



Barışdırmaq rəsmini tamam edəndən sonra qonaqlar şüru etdilər çay içməyə. Çay üstündə qazı həmçinin vəz edib böyüyün kiçiyə məhəbbəti, kiçiyin böyüyə itaəti barəsində uzun bir söhbət elədi. Azan deyiləndə qonaqlar qalxıb bir-bir Məşədi Məmmədvəliyə əl verib, Allah sizin qohumluğunuzu başadək eləsin, deyib getdilər.

O biri cümə axşamı Məşədi Məmmədvəlinin evində böyük ziyafət idi. Məşədi öz qızını və kürəkənini bir cəmi-kəsir ilə axşam çörəyinə ayaq açmağa çağırmışdı. Şəban, kişilər məclisinə daxil olub, salam verib qapı ağzında əyləşdi. Gülsüm arvadlar otağına keçib qapıda anası ilə uzun öpüşdü. Həm ana, həm bala şadlıqlarından ağladılar. Cavan qızlar Gülsümün ətrafını alıb hər biri bir növ suallar verirdilər. Binəva bilmirdi hansının sualına cavab versin. Axşamdan neçə saat keçincə bir padnosda bir dənə qızıl saat gətirib Şəbanın qabağına qoydular. Qonaqlar durub dağıldılar. Neçə gündən sonra rəsmə görə bir qonaqlıq da Şəban edib qayınatasını və qayınanasını qonaq çağırıb əlli manatadək xərc etdi.

Bu gündən qohumlar bila-məmaniət bir-birinin evinə gedib-gəlməyə başladılar. Şəbanın alış-verişi yaxşı getməkdə idi. Onun keçmişdə iyid sayılmağına görə başmaqçılar hamısı gönü ondan alırdılar. Bu səbəbdən də sair gön satanların bazarı kasad düşmüşdü. Şəbanın ticarətinin tərəqqisi hamıdan artıq gön satan Səlmana təsir edirdi. Gecə-gündüz Səlmanın fikri Şəbanı yıxmaq idi. Amma qorxudan bir iş görə bilmirdi. Axır davam edə bilməyib camaat bazardan evinə çəkiləndən sonra dükanı bağlayıb, birbaş polis nazirinin evinə getdi. Polis naziri bir neçə qonağı ilə əyləşib, qumara məşğul idi. Nökər daxil olub xəbər verdi ki, bir nəfər qapıda durub deyir: gərək bu saat naziri görüm, vacib ərzim var. Elə bil nazirin başından bir qab qaynar su tökdülər.

– Məgər bu nainsaflar bir dəqiqə adama rahatlıq verməzlər. Məgər polis qulluqçusu da insan tək dincələ bilməz? Hər kimdir, çağır gəlsin içəri!

Nökər çıxdı, bir dəqiqədən sonra qapı açılıb uzun boylu, qarasaqqal, başının ortası qırxılmış bir adam qapıda peyda oldu. Nazir yerindən durmayıb üzünü Səlmana tutub hirslə soruşdu:

– Nə var, nə istəyirsən?

– Ağa, ərzim tək sizə məxsusdur. Təvəqqe edirəm ki, məni xəlvət danışdırasınız.

Nazir bir ayrı otağa keçib Səlmanı da oraya çağırdı:

– De görüm, nə var?

– İstəyirsinizmi, ağa, baron Arakelin dükanından gedən malı bu gecə tutasınız?

– Bu nə sözdür? Məgər Arakelin dükanını yaran sənə məlumdur?

– Bəli, məlumdur; təvəqqe edirəm ki, bu gecə gedib başmaqçı oğlu Şəbanın evini axtarasınız. Əgər Arakelin şeylərindən onun evində tapılmasa, cavabdehində mənəm. İstəyirsiniz siz qayıdınca mən buradan getməyim; əgər ərzim yalan çıxsa, mənim özümü dustaqxanaya göndərə bilərsiniz.

Şəban yatmışdı. Gecənin yarısı darvazanın döyülmək səsi onu oyatdı. Durub çiyninə bir yapıncı salıb qapıya çıxdı.

– Darvaza döyən, kimsən?

– Pristavdır, gəl aç qapını!

Şəban qapını açdı. Neçə nəfər polis əmələsi və qazaqlar daxil oldular. Qazaqlar Şəbanı əhatə etdilər. Pristav məlum etdi ki, gərək onun evi axtarıla.

Gülsüm qorxusundan nanə yarpağı tək əsirdi. Bir növ özünə cürət verdi. Gedib pristavın ətəyindən yapışdı, istədi ondan ərinin buraxılmasını təvəqqe etsin. Şəban onun üstünə qışqırdı:

– Get yerində otur! Sənin işin yoxdur, qoy nə bilirlər, eləsinlər!

Şəbanın evini alt-üst etdilər. Həqiqət Arakelin dükanından getmiş şeylərdən iki dəst gümüş çəngəl-bıçaq, neçə gümüş qəndqabı və sair şeylər tapıldı.

Pristav Şəbana məlum etdi ki, gərək onunla getsin polis idarəsinə. Şəban itaət edib paltarını geyib pristav ilə bir yerdə getdi. Gülsüm ərə gedəndən bəri, əvvəlinci dəfə idi ki, tək qaldı. Bu təklik ona əl verib o qədər ağladı ki, axırda bihal olub ürəyi getdi, yıxıldı.

Sabah Şəbanın tutulmaq xəbəri cəmi şəhərə yayıldı.

"Yıxılan ağaca balta çalan çox olar". Şikayət şikayət dalınca divanın üstünə töküldü. Şəbanın var-yoxunu, evinin müxəlləfatının hamasını satıb xərc etdilər, heç bir əlac olmadı. Üç il həbsxanada saxlayandan sonra işə baxıb qət etdilər ki, on iki il getsin Sibirə. Və qətnamədən sonra yenə sair məhkəmələrə də şikayət olundu isə də, heç bir nəticə bağışlamadı. Axır Şəbanın getmək günü müəyyən oldu.



Şəban gedən günü Məşədi Məmmədvəli, arvadı Gülsüm, neçə nəfər dost-aşna gedib yığıldılar dustaqxananın qapısına. Şəbanın getməyini eşidib sair bikar tamaşaçılar da kənardan yığılmışdılar. Şəbanın üç yaşında bir balaca oğlu da Gülsümün qucağında idi. Sabahdan camaat günortayadək dustaqxananın qabağında müntəzir oldu.

Axır dustaqxananın zəncir səsi camaatın qulağına gəldi. Hamı bir adam tək yerlərindən qalxıb gözlərini qapıya dikdilər. Qapı açıldı; qabaqca üç nəfər əlitüfəngli soldat çıxdı. Onların dalınca altı nəfər dustaq, kimisi zəncirsiz, soldatlarla əhatə olunmuş çıxdılar. Dustaqların biri Şəban idi.

Cavanlıqda şəhərin qızlarının ürəyini cəlb edən Şəbanı indi tanımaq olmurdu. Rəngi saralmış, başının tükləri ağarmış Şəban altmış yaşında nəzərə gəlirdi. Şaban arvadını, uşağını görən tək qollarını açıb istədi balasını bağrına bassın, amma soldat mane olub daldan bir tüfəng dürtməsi vurdu, yoldaşların gözünün qabağında döyülmək Şəbana o payədə təsir etdi ki, özünü saxlaya bilməyib neçə qətrə yaş gözündən axıtdı. Əlacı kəsilib gendən dost-aşnaya vida edib yola düşdü.

Dustaqlar gözdən qeyb olanacan, camaat dallarınca baxırdı. Gülsüm ağlamaqdan bir payədə bitab olmuşdu ki, yolu gedə bilmirdi. Axırda qoltuğuna girib bir tövr evə gətirdilər. Şəban dustaq olan gündən Gülsüm gedib atasının evində olurdu.

Gülsümün yükü və dərdi-qəmi gün-gündən artmaqda idi. Şəban gedəndən iki il sonra beş yaşında oğlu çiçəkdən öldü. Atası da o qədər qocaldı ki, daha gözləri qüvvətdən düşüb, başmaq tikməyə qadir olmayıb xanənişin oldu. Qışda Gülsümün anası vəfat etdi. Bu gündən Gülsüm başladı əli ilə işləyib həm özünü, həm də qoca atasını saxlamağa. On iki il bu minval ilə keçdi və bu müddətdə bir yandan qəm-qüssə, bir yandan istəkli ərin fərağı, bir yandan gecə-gündüz işləyib, atasından xəlvətə çəkilib ağlamaq Gülsümü bir halətə salmışdı ki, uşaqlar adına Gülsüm nənə deyirdilər.

Şəbanın vədəsi tamam oldu. Amma qayıtmağı üçün gərək şəhər əhlindən rizaməndlik alına idi. Qoca Məşədi Məmmədvəli qapı-qapı düşüb bəylərə, mollalara, hacılara, sövdəgərlərə yalvarıb bir neçə günün müddətində haman kağızı düzəltdi. Bir il də bundan sonra Şəbandan kağız gəldi. Qurtarıb yola düşdü. Biçarə Gülsüm nə növ ərinin yolunu gözləyirdi, onu qələm yazmaqdan acizdir. On üç il

istəkli ərindən ayrı düşmüş xanımlar onun halını nəzərə gətirə bilər. Amma əfsus!.. Sədd əfsus! Bu macəranı çox xanımlar oxumaqdan məhrum qalacaqlar.

Cavan vaxtından cavan ərindən ayrılmış, ərinin fərağından saçı ağarmış, məşğuliyyəti olan balasını itirmiş Gülsüm, gecələr sübhədək vaqiədə ərinin səsini eşidib hövlnak ayılıb sübhədək ağlayırdı.

Axır bir gün məlum oldu ki, bu axşam Şəban şəhərə varid olacaq. Haman bir gün, Gülsüm üçün keçmiş on ildən uzun görünürdü. Sübh Məşədi Məmmədvəli ağacını götürüb getdi bazara. Bir az düyüdən, yağdan, ətdən alıb gətirib verdi Gülsümə ki, axşama plov bişirsin. Axşam azanına plov hazır idi. Yatağa təmiz fərş salıb Şəbanı gözləyirdilər. Gülsüm də bir dəst çit libas geyib ərinin gəlməyinə müntəzir idi. Gah pəncərədən baxırdı, gah tez-tez darvazaya gedib qayıdırdı. Bir də gördü qonşusunun oğlu qaranəfəs gəlir:

– Gülsüm xala, muştuluğumu ver! Şəban əmi gəldi!

Gülsüm, olan yarım manat pulunu çıxarıb uşağa verib getdi darvazaya. Gülsüm belə güman edirdi ki, Şəban bu on üç ilin müddətində əsla dəyişməyib. Yarım saatdan sonra neçə nəfər köhnə rəfiqlərlə Şəban daxil oldu; bilmərrə qocalmış; baş, saqqal qar tək ağarmışdı. Gülsümün və Məşədi Məmmədvəlinin şadlıqlarının intəhası yox idi. Şəban gəlib əyləşən tək qonşularından bir neçə adam gözaydınlığı verib, bir az da söhbət edib getdilər.

Xalq çəkiləndən sonra plovu ortalığa qoyub Məşədi Məmmədvəli, Şəban və Gülsüm bir qabda yeyib "əlhəmdülillah" – deyib çəkildilər. Şəbanla Gülsüm o gecə sübhədək yatmayıb qabaq-qabağa söhbət etdilər.

Bir neçə gün Şəbanın yanına dost və aşna gəldi; axırda Şəban arvadını da götürüb öz evinə köçməyə qərar qoydu.

Məşədi Məmmədvəli dedi:

– Bala, Şəban, mənim sinnim yetmişdən addayıb. Gözlərim çoxdan xarab olub. İş görə bilmirəm. Məni sən bu halda qoyub hara gedirsən? Mən bilirəm, sənin əlində mayan yoxdur. Yaxşı olar ki, hamımız bir evə yığılaq. Bu evi də sataq, əlində maya qayır, dolandır.

Belə də elədilər. Şəban köçdü öz evinə və bir neçə gündən sonra Məşədi Məmmədvəlinin evini səkkiz yüz manata satdılar. Şəban yenə bir dükan açıb başladı gön alış-verişinə. Amma bu dəfə Şəbanın işi tərəqqi edə bilmirdi. Əvvələn, qocalmışdı, əlavə, ticarətdən



on altı ilin müddətində yadırğamışdı və yeməyi, geyməyi, qonaqlığı çox dost tutduğundan, gündə iki manat qazananda üç manat xərc edirdi. Bu da ticarət qaydası deyildir:

"Mərd bebayəd girist,
Ki hicdəh mədaxil bəvəd, xərc bist"[1].

İki, üç il sonra maya əldən çıxdı. Məşədi Məmmədvəli də davam etməyib naxoşlayıb vəfat etdi. Şəbanın mayası əldən getdi. Əgər arvadı olmasa idi, başına yəqin hava gələrdi. Arvad işləməklə, fala baxmaqla, çöpçülüklə qazanırdı. Şəban da həmişəki qaydada yeyib, içib, təravət ilə dolanırdı.

Sübh yerindən qalxan tək Şəban gedərdi məscidə, otarardı qazının hücrəsində, günortayadək qazı ilə və qazının yanına gələnlər ilə söhbət edərdi. Günorta gələrdi evə, naharını yeyib gedərdi məscidə. Günü axşamadək məsciddə keçərdi. O səbəbdən də adını "Şeyx Şəban" qoymuşdular. Bu növ axırda əmələyi-mövta cərgəsinə daxil olub, qazının qulluğuna hər bir yerə gedərdi. Toylar, ehsanlar Şeyx Şəbanı mollalardan ayırmayıb dəvət edərdilər. Axırda da bikarçılıqdan təngə gəlib başladı məscidin qabağında pinəçilik etməyə.

Bir sübh şəhər əhli Şeyx Şəbanın azanını eşitmədi. Hamı təəccüb etdi. Dedilər "yəqin ona bir hadisə üz verib". O günü Şeyx Şəban heç məscid qabağında görünmədi. Üç gündən sonra eşitdilər ki, Gülsüm xala Allahın rəhmətinə gedib.

Şeyx Şəban tək qaldı. Bazarda müqəvva tək gəzirdi. İşləyə bilmirdi. Həmişə təravətli saxlanmış saqqal yavaş-yavaş başladı ağarmağa. Axırda hənа bilmərrə gedib, saqqal təmiz ağardı. Hətta səsi də dəyişilib dəxi keçmiş məlahətini itirmişdi. Axırda ayaqları da zəifləşib minarəyə çıxa bilmədiyindən azan verməyi də tərk etdi.

Hər axşam Şəban evə gələndə xəyal edirdi ki, Gülsüm həmişəki tək onun qabağına çıxıb əlinə su tökəcək. Öz əli ilə qəbrə qoyduğu Gülsümün öldüyünə inanmayırdı.

Evə gəlib qapıda asılmış qıfılı görəndə əvvəl özündən sual edirdi ki, bu qapını kim bağlayıb? Sonra yadına düşürdü ki, qapını özü bağlayıb. Açar da cibindədir. Qapını açıb daxil olurdu boş otağa. Özü

[1] O kişi gərək ağlasın ki, on səkkiz mədaxili ola, amma iyirmi xərci

çırağına neft töküb yandırırdı, manqala kömür qoyub qızardıb, su qaynadıb özünə çay qayırırdı.

Gülsüm xalanın vəfatından il yarım keçmişdi. Bir gün Şeyx Şəban qəbiristandan qayıdarkən bir şiddətli yağışa düşüb sümüklərinədək islandı.

Evə gəlib başında, bədənində və gözlərini çanağında bərk ağrı hiss etdisə də, etina etməyib yatdı.

Sübh hərçi çalışdı, başını yasdıqdan qovzaya bilmədi. Naxoşluq getdikcə şiddət etdi. Axırda Şəban sərsəm halətinə gəldi. Sərsəmləyən vaxtda dilindən Gülsüm adı bilmərrə düşmürdü.

Şeyx Şəbanın bu halətindən heç kəs ona mütəvəcceh olmurdu. Şeyx tək otaqda, Gülsümdən yadigar qalan bir pişiyin müsahibəti ilə, təbibsiz, dərmansız ömrünün axır saatını gözlüyürdü.

Bir gecə azarın intəhasız şəddətindən şeyx gördü ki, qapı açıldı və Gülsüm daxil olub qapının arasında dayandı. Şeyx nə qədər səslədisə də Gülsümdən bir səs zahir olmadı. Axırda hövlnak qalxıb özünü qapıya tərəf atıb tufan qoparmış ağac tək yıxıldı yerə!

Sübh qonşular Şeyx Şəbanın meyitini tapdılar.

*1915*

## MİRZƏ SƏFƏR

Ağ çuxalı, ağ arxalıqlı, ikiüzlü Buxara dərisindən papaqlı, şişman göbəyi üzərində gümüş kəmərli Mirzə Səfəri hamı tanıyırdı. Hər görən ona salam verirdi. Hər bir ziyafətdə Mirzə Səfər isbati-vücud edərdi. Mirzə Səfərin söhbətlərinə hamı aşıqdı. Gözəl danışardı. Çox şairlərin əşarı onun sinə dəftərində səbt olunmuşdu. Şeirlər oxuyardı və oxuyandan sonra da onları əyrü-üyrü rus dilinə tərcümə edərdi. Deyərdilər ki, cavanlıqda Mirzə Səfər özü şairlik fikrinə düşüb, şeir demək üçün çox çalışmışdı, fəqət bir nəticə hasil olmamışdı.

Mirzə Səfər eşitmişdi ki, şeir yazmaq üçün iki vasitə lazımdır: xəlvət otaq və bir şüşə şərab. Şərab içdikdən sonra təb açılıb, şeir



öz-özünə su kimi axacaqdır. Qafiyə tapmaqda çətinliyə uğradıqda iki dəfə qeyzlə təpiyini yerə çırparsan, o saat qafiyə öz-özünə tapılar.

Mirzə Səfər bir şüşə qırmızı şərab alıb gəldi evə. Mirzəyə demişdilər ki, şərab, əlbəttə, gərək qırmızı olsun ki, yarın dodaqlarına oxşasın. Şərabı masanın üstünə qoyub, papağı bir tərəfə, çuxanı o biri tərəfə atıb, yaxasını açıb, başının tüklərini pırtlaşdırıb, özünə bir laübali sifət verib aynaya baxdı və dedi:

– Afərin, Səfər, indi xalis şairsən!

Şərabdan bir stəkan töküb içəndən sonra gördü gözləri də qızarıb, daha şairliyinə şəkk ola bilməzdi.

Stulda əyləşib, qarşısına bir vərəq kağız qoyub qələm götürdü, dörd, beş dəfə qələmi mürəkkəbə batırdıqdan sonra durub otaqda bir-iki baş gəzindi. Hərçi fikir etdisə, şeri başlamaq mümkün olmadı. Bir stəkan da içdi. Beyni bir qədər də qızışdı. Əyləşib qələmi alıb gözəl xətlə yazdı:

Darvazamızı fələk vurubdu!

Mirzə Səfər hərçi çalışdısa, ikinci misra gəlmədi. Neçə dəfə təpiyini yerə çırpdı, şərabın hamısını içdi, misra gəlmədi ki, gəlmədi.

Mirzənin atasının evində saat birdə nahar yeyilirdi. Bu dəfə saat bir oldu, ikidən addadı, Mirzə nahara gəlmədi. Atası təşvişə düşüb otaqdan çıxdı. Oğlunun pəncərəsinin yanından ötərkən nə gördü: oğlunun sifəti nar tək qızarmış, gözləri böyümüş, başı, libası pəjmürdə, tər alnından sel kimi axır, otaqda o baş-bu başa dayanmadan yüyürür, hərdənbir otağın ortasında dayanıb, ayaqlarını hirslə yerə çırpıb deyir: "Darvazamızı fələk vurubdu, darvazamızı fələk vurubdu, darvazamızı fələk vurubdu!"

Atası qapını açıb otağa daxil oldu:

– Ay oğul, bu nə halətdi səndə?

Mirzə Səfər atasının sözlərini əsla eşitməyib qışqırdı: "Darvazamızı fələk vurubdu!"

Yazıq kişi yəqin etdi ki, oğlunun başına hava gəlib. Stola tərəf yavuqlaşıb, kağızda yazı görüb oxudu:

"Darvazamızı fələk vurubdu!"

Burada atası anladı ki, oğlu şairlik fikrinə düşüb, divanəlik haləti yoxdu. İrəliləyib, oğlunun boynundan yapışıb dedi:

Darvazamızı fələk vurubdur!
Sən tək bişüuru mənə veribdi.

– Gəl, axmaq balası, naharını zəhrimarlan. Nə qədər məndən şair oldu, bir elə səndən olar.

Oğlunu otaqdan çıxarıb apardı nahara.

Bir neçə il ondan sonra Mirzə qonşunun qızına eşq yetirib anasını elçi göndərdi. Qızın anası Mirzənin anasını çox hörmətlə qəbul etdi. Ancaq cavab verdi ki: qızın ixtiyarı atasının əlindədir, atası gələr, söylərəm. Mənim qızım Səfərdən yaxşı oğlana getməyəcək ki, oğru deyil, dələduz deyil, bir kəsin toyuğuna daş atmaz. Bir pislikdə adı çəkilməz, axşam kişi ilə danışıb cavab göndərərəm.

Mirzənin anası xatircəm evə qayıtdı.

Qız qapının dalında durub danışığa qulaq açırmış. Anası qonağı yola salıb qayıdanda, qızını gözü yaşlı görüb, xəbər aldı:

– Ay qızım, nə olub sənə, niyə ağlayırsan?

Qız cavab verdi:

– Ana can, danışdığınızın hamısını eşitmişəm, məni atamın başına çevir, qurban kəs, məni tikə-tikə doğra, itlərə ver, amma məni bədbəxt eləmə.

– Ay qız, Səfər necə oğlandı, niyə xoşuna gəlmir?

– İstəmirəm, ana can, qurbanın olum.

– Hələ bir şey yoxdur, o almadı, biz də vermədik, bəlkə heç atan razı olmayacaq.

Səfər, doğrudan da, qızların xoşuna gələnlərdən deyildi. Fəqir, başıaşağı bir oğlandı, vurub-yıxan deyildi, belinə tapança bağlayıb, əlini belinə, papağını gözünün üstünə qoyub gəzməzdi. Birçəklərini qotaz daramazdı, papiros çəkməzdi, aşurada başını yarmazdı, qaməti də movzun deyildi. Belə adamları qızlar sevməzdilər.

Axşam qızın atası bazardan gəldi. Arvad əhvalatı nağıl etdi. Kişi bir az fikir edib dedi:

– Arvad, Səfər pis oğlan deyil, atası da bir abırlı kişidir. Ancaq biz ona qız versək, gərək iki ev saxlayaq; qızımızı bir elə yerə verək ki, bir parça çörək yeyib bizə möhtac olmasın...



– Axır onlar bizdən cavab gözləyəcəklər?

– Bir gün gözləsinlər, eyb eləməz, sabah bir dükan qonşum Hacı Əbdüləzimə də məsləhət eləyim, o, bir ağıllı, dünya görmüş kişidir.

Səhər qızın atası Hacı Əbdüləzimin dükanına keçib keyfiyyəti söylədi. Hacı Əbdüləzim dürüst qulaq verəndən sonra dedi:

– Kişi, məgər sən öz qızının düşmənisən? Mənim bir kor pişiyim olsa, onu da Səfərə vermərəm, oruc tutmaz, namaz tanımaz, bir dəfə məscidə getməz, hətta deyirlər, axşamadək erməni bazarında şirəxanada oturub çaxır içir, gecə də evə piyan gəlir. Əgər mənim yanıma məsləhətə gəlibsən, mən məsləhət görmürəm.

İki gündən sonra Səfərin anasına sifariş göndərdilər ki, böyük qız ərə getməyincə, kiçik qızı atası heç kəsə verməyəcək.

Keyfiyyət Səfərə təsir edib, onu naxoşluğa salır.

Atası oğlunun halətini görüb dedi:

– Ay bala, niyə xiffət eləyirsən, özün bilirsən ki, biz kasıbıq, qom-əqrəbamız və möhkəm arxamız yox, bizə qızmı verərlər? Oğul, burada qalsan, halın daha da xarablaşacaq. Yaxşısı budur get piyadə Qurbanlıda bir neçə gün dayının evində qal, havanı dəyiş, bəlkə bu sövda da başından çıxa.

Mirzə atasının sözünə baxıb getdi kəndə. Orada bir neçə gün qalmışdı, bir də gördü haradansa, adına bir başıbağlı məktub gəlib, məktubu açıb gördü şeirdir. Bir nəfər naməlum şair belə yazmışdır:

Fəzayi-eşqdə Məcnunə nisbət,
Nə düşübsən biyabana, ay Səfər!
Hansı Leyli salıb dami-zülfünə
Gətiribdir səni cana, ay Səfər!

Mahtab tələtli, kim vermiş firib,
Dərdinin dərmanın tapmamış təbib.
Yar ilə aranı vuran səg rəqib,
Pərvanə tək oda yana, ay Səfər!

Yarın çox gözəldir, nə pünhanı var,
Dövlətinin nə ədədi, sanı var.
Deyirlər ki, ancaq bir nöqsanı var...
Məhəl qoymaz sən tək cana, ay Səfər!

Mirzə bu məktubdan çox dilgir oldusa da, onu özündə saxladı. Axır vaxtlarda bu şeri özü çox həvəslə oxuyardı.

Mirzə Səfər kənddə ikən qızı Hacı Əbdüləzimin oğluna verdilər.

* * *

Yuxarıda zikr etdiyimiz keyfiyyəti Mirzə özü nağıl edirdi.

Mirzə Səfərlə biz tanış olanda, onun yaşı qırx beşlə əllinin arasında idi, özü də qəza dəftərxanasına qulluq edərdi. Rusca savadı az olduğundan, ancaq işi mübəyyizlik idi. İyirmi beş manat da maaşı vardı. Mirzəyə hər yerdə ehtiram göstərərdilər. Bununla belə, onun bircə nəfər həqiqi dostu var idi – saatsaz usta Zeynal. Mirzə hər gün nahardan sonra gedib, usta Zeynalın dükanında əyləşib onunla söhbət edərdi və söhbət əsnasında cibindən qozdan, fındıqdan, kişmişdən çıxarıb ortalığa tökərdi. Mirzənin cibləri çərəzdən boş olmazdı. Görürdünüz, yolla gedərkən dayanıb, cibindən bir qoz çıxarıb divarın daşına dayayıb, ağacının başı ilə sındırdı və yeyə-yeyə getdi.

Usta Zeynalın dükanında Mirzə qəzəllər oxuyub, sonra da oxuduğu qəzəlləri rus dilinə tərcümə edərdi. Rus dilini bilmədiyindən, tərcümələri də çox tuhaf çıxırdı. Başlardı:

– Usta Zeynal, gör şair nə gözəl deyib:

> Xoş əst badeyi-gülgün ba kəbabi-şikari,
> Zidəst saqiyi-gülçöhrə dər kənari-buxari.
> Nə əz bəhri-niguyi-gül bə pişət dəstə avürdəm,
> Zixubi-laf mizəd gül giriftə bəstə avürdəm.

– Afərin şairə! – deyib qozun ləpəsindən birin ağzına qoyardı.

Usta Zeynal, həmçinin, bir arif kişi idi. O da gözəl şeirlər oxuyardı. O idi ki, Mirzə Səfərin onunla həmişə söhbəti tutardı.

Dəftərxanada Mirzənin hörmətini gözlərdilər. Çünki sair mirzələr bir abbası, altı şahı hər işə gələndən rüşvət alardı, amma Mirzə öz maaşına kifayət edib bir qəpik də olsun rüşvət almazdı və deyərdi: "Rüşvət almaq adamı qorxaq və gözükölgəli edər, rüşvət aldığın adamların hansını görsən, gərək ikiqat baş əyəsən... Nə lazım? Qulluğumda təmiz olaram, maaşıma qənaət edərəm, bir kəsə ehtiyacım olmaz, həmişə də başıuca gəzərəm, iyirmi beş manat məva-



cibim var, ayda bir on manat da evə gəlib ərizə yazdıranlardan qazanıram, bu da mənim başımdan girib, ayağımdan çıxar".

Mirzənin zamanında bazarda ucuzluq idi, yaxşı qoyun ətinin girvənkəsi dörd qəpik, çörəyin girvənkəsi iki qəpik, yağın pudu dörd manat idi. Mirzə qazandığı para ilə dolanıb oğlanlarına da tərbiyə verərdi. Dünyada təməllüq, yaltaqlıq nə olduğunu Mirzə bilməzdi. Bir bəyə, bir xana etina eləməzdi və deyərdi: "Nə vaxt qapılarına çörəyə getsəm – verməsinlər".

Bir dəfə bir nəfər şəxs dəftərxanaya gəlib, katibdən öz kağızından dolayı məlumat istəyir, katib cavab verir ki, kağızın Mirzə Səfərdədir, üzünü ağardar, apararsan. Şəxs Mirzəyə tərəf gəlir:

– Mirzə, mənim kağızımı, mümkün isə, yaz aparım.

– Dayan, bu saat yazaram, əlimdə özgə iş var.

– Bilirsiniz, mən Həsən ağanın qohumuyam?

Mirzə qələmi əlindən buraxıb kişinin gözlərinin içinə baxdı.

– Doğrudan Həsən ağanın qohumusan?

– Doğrudan.

– Sən allah, Həsən ağanın qohumusan?

– Vallah, doğru deyirəm.

– Sən Həzrət Abbas, Həsən ağanın qohumusan?

– Həzrət Abbas haqqı Həsən ağanın qohumuyam.

– Deyinən sən öl, Həsən ağanın adamıyam.

– Sən öl, Həsən ağanın adamıyam.

– Bəs elə isə gəl min mənim boynuma. Neynəyim Həsən ağanın qohumusan, gözlə, vaxtında kağızın hazır olar, apararsan.

İş üçün gələn kəndlilərlə Mirzə həmişə şirin dillə zarafat eləyərək söhbət edərdi. Keçmiş vaxtlarda dəftərxanalarda qulluqçuların gündə biri, idarə bağlandıqdan sonra qalıb təcili məktubları, teleqrammaları qəbul edərdi.

Bir gün növbət Mirzəyə gəlmişdi. Dəftərxananın səkisi üstündə əyləşib özünü havaya verirdi.

Bir neçə nəfər də kənddən gəlmiş adamlar küçənin ortasında oturub öz aralarında danışırdılar.

Mirzə bunların birisinə əl elədi:

– A kişi, bura gəl, bura gəl.

Kişi durub gəldi.

– Nə buyurursan, Mirzə?

– Bir dil ki qəm düçarı ola, ağlar, ağlamaz?
– Mən nə bilim, ay Mirzə.
– Ənduhi-qüssə yarı ola, ağlar, ağlamaz?
– Başına dönüm, ay Mirzə, mənim belə şeylərdən başım çıxmaz. Avam adamam.
– Doğrudur, avamsan, bunlar gözəl sözlərdir, get oğlunu oxut. Belə-belə şeirlərdən ləzzət aparsın.
Bir dəfə nə üstə isə naçalnikin buna qəzəbi tutub dedi:
– Səfər! Papağını götür, buradan get!
Mirzə Səfər qalxıb şax naçalnikin sifətinə baxdı.
– Cənab naçalnik, siz yəqin edin ki, mən buradan gedəsi olduqda, papağımı qoyub getməyəcəyəm.

"Külahın satgilən xərc et, tüfeyli olma namərdə,
Cahanda kəllə sağ olsun, külah əskik deyil mərdə!"

Şeri oxuyub, bir növ rusca tərcümə etdi.
Yoldaşları hamısı bir dillə naçalnikdən xahiş etdilər ki, onun taqsırından keçsin. Mirzə Səfər özü isə bir vəziyyətdə durub, sifətində yalvarmaq nişanəsi olmayaraq baxırdı.
Mirzənin təmiz qulluqçu olmağına qiymət qoyurdular və yoldaşları da onu çox istəyirdilər. Ona görə Mirzəni vəzifəsində saxladılar.
Mirzə Səfərin iki oğlu edadiyyə məktəbinin beşinci sinfində oxuyurdular.
Mirzənin məişəti ağır olduğundan, məktəb nəzdində olan cəmiyyəti-xeyriyyə onun uşaqlarını dərs pulundan azad etmişdi.
Bir gün uşaqlar məktəbdən gəlib Mirzəyə xəbər verdilər ki, daha bu ildən onları məktəb pulundan azad etməyəcək, pul verməsələr, hər ikisini məktəbdən xaric edəcəklər.
Sabahı gün Mirzə naçalnikdən izn alıb məktəb müdirinin yanına getdi. Müdir dedi:
– Mən kənardan gəlmiş bir adamam, başım ancaq məktəbin işlərinə məşğuldur. Uşaqların atalarının vəziyyətləri mənə məlum deyil, məlum olsa da, mənim əlimdən bir iş gəlməz, sizin oğlanlarınız hər ikisi yaxşı oxuyurlar. Onların məktəbdən çıxarılmalarına



mən çox əfsus edirəm. Mən sizə məsləhət görürəm, gedib cəmiyyətin sədri Həsən ağa ilə görüşəsiniz. İş onun əlindədir.
Məlum oldu ki, Mirzə Səfərin Həsən ağanın qohumu ilə rəftarı ağanın qulağına çatıb, o da qeyzlənib cəmiyyəti-xeyriyyə iclasında deyibdir ki, Mirzə Səfərin vəziyyəti mənə aydın məlumdur və uşaqlarını öz xərci ilə oxutmağa onda imkan var. İclasdan çıxanda üzvlərdən biri Həsən ağadan xəbər aldı:
– Ağa, Mirzə Səfər yazıq deyilmi, biz hamımız onun vəziyyətinə bələdik, bu zülmü onun haqqında gərək siz etməyəydiniz.
Ağa cavab verdi:
– Məgər siz onun nə qədər azğın olduğunu görmürsünüz?! Nə adama etina edir, nə də salam verir, guya bu adamların hamısı onun nökəridirlər. Yəqin yağlıdır ki, belə dolanır. Yağlı olmasa, o da qalan çinovniklər kimi adamın yerini bilər.
Mirzə Səfər məyus evə qayıtdı.
Arvad ərinin halətinin pozğunluğunu xəbər aldıqda, Mirzə dedi:
– Nə eləyim, ay arvad, bu gün-sabah uşaqları məktəbdən xaric edəcəklər. Ondan sonra mən onların üzlərinə nə gözlə baxacağam? Həsən ağanın evi yıxılsın, mənim evimi o yıxdı.
– Qəm eləmə, kişi, sən ki özün şkola görməyibsən, yenə bir parça çörəyin var. Uşaqlar ki, az-çox oxuyublar, çörəksiz qalmazlar.
– Mən yediyim məgər çörəkdir? Zəhrimar o çörəkdən yaxşıdır. Sabah qulluqdan çıxarsalar, acından ölməyə məcbur olacağam. Həsən ağa kimi zalımın biri getdi naçalnikdən xahiş elədi, bir də görəcəksən papağımı qoltuğuma verib saldılar eşiyə. Oğlanlarımı mən avara görsəm, yəqin özümü öldürərəm.
Mirzə iştahsız nahar yeyib yatmaq istədi, hərçi çalışdı yuxusu gəlmədi. Durub libasını geyinib getdi usta Zeynalın dükanına.
Həmişə sifətindən şad, dili şeirli daxil olan Mirzə Səfər bu dəfə məyus girib, salam verib əyləşdi. Usta Zeynal xəbər aldı:
– A Mirzə, gözümə bikef dəyirsən, nə olub, xeyir ola?
– Xeyir olmamış nə var. Elə bir qədər bu gün ovqatım təlx olub.
– Söylə görək.
– Nə söyləyim? Həsən ağanın evi başına uçsun, gedib məktəbdə deyib ki, filankəsin pulu aşıb-daşır, uşaqlarını öz xərci ilə oxuda bilər. İndi uşaqları göndəriblər üstümə və xəbər veriblər ki, ayın on beşinədək qırx manat verməsəm ikisini də məktəbdən xaric edəcək-

lər. Mənim mədaxilimi bilirsən. Çox çətinliklə onların kitablarını, libaslarını düzəldirəm. Hər yarım ildə qırx manat, ildə həştad manat eləyir. Mən bunu haradan düzəldim? Uşaqlar məktəbdən çıxarılsa, mən vərəmləyib öləcəyəm.

Usta Zeynal Mirzə Səfərə Həsən ağanın yanına getməyi məsləhət gördü.

Mirzə Səfər neçə dəqiqə usta Zeynalın üzünə baxıb birdən ayağa qalxıb dedi:

– Usta Zeynal, bu nə təklifdir mənə edirsən? Mən Mirzə Səfər gedim Həsən ağanın ayağına yıxılım? Mən acından ölməyə razı olaram, oğlanlarımın ikisinin də başını kəsərəm, amma gedib Həsən ağa kimi adama yalvarmaram. Qoy uşaqları qovsunlar.

Usta Zeynal bunu eşitdikdə dəzgahın dalından qalxıb gəlib Mirzənin boynunu qucaqlayıb üzündən öpdü.

– Mirzə, mən səni sınayırdım. İndi səndə olan istiqaməti-məzaci aydın görürəm. İndi görürəm ki, sən ağır günündə də gedib heç kəsin ayağına yıxılmazsan. Afərin sənə, Mirzə Səfər! Bu gündən sonra mən malımı, canımı sənin kimi dostun yolunda qoyaram. İndi gəl biz bir iş görək. Sənin məişətin ağır keçir, indi bir az da ağırlaşacaq. Mən də ki, saatsazlığımla səndən çox qazanmıram. Gəl sənin uşaqlarının oxumasına şərik olaq. Oğlunun birinin xərcini sən çək, o birisininkini də mən çəkim. İldə həştad manat sənin üçün ağır yükdür. Amma qırx manat döy-sındır düzəldərsən. Mənim də gücüm çatar.

Mirzə Səfər usta Zeynalın boynunu qucaqlayıb, başladı üzündən öpməyə. Bir də usta Zeynal baxıb gördü ki, Mirzə Səfərin gözlərindən yaş axır.

– Ağlamaq lazım deyil, Mirzə, sən indiyədək heç kəsdən minnət götürməyibsən. Amma mən səninlə iyirmi ildən artıqdır ki, dostam, bu mənim qardaşlıq töhfəmdir. Əmi qardaşı oğluna töhfə verəndə nə olar?

Usta Zeynal qarşısındakı çayçını səslədi. Çayçı iki stəkan çay gətirib, qoyub getdi.

– Mirzə, çay iç, ürəyin toxtasın. Dünyadır, belə də getməz.

Mirzə çay içib, bir qədər də usta Zeynalla söhbət edib gəldi evə.

Ayın on beşində Mirzənin oğlanları qırx manat aparıb məktəb haqqı verdilər.



* * *

Mirzə Səfərin oğlanları ikisi də bir ildə məktəbi tamam etdilər. Bu münasibətlə Mirzə bir plov verdi. Məlum ki, qonaqlarının əzizi usta Zeynal idi.

Uşaqlar bir neçə gün dincəldikdən sonra bir axşam Mirzə usta Zeynalı şama dəvət etdi. Çörək yedikdən sonra Mirzə üzünü usta Zeynala tutub:

– Usta Zeynal, bu uşaqlar qurtarıblar, bunları belə qoymaq olmaz, yarımçılıqdan fayda olmaz. Mənim bunları ali məktəbdə oxutmağa qüvvəm çatmaz. Sən də indiyədək mənə bəqədri məqdur kömək edibsən. İndi bir tədbir lazımdır.

Usta Zeynal fikrə getdi. Bu halda Mirzənin kiçik oğlu atasına üzünü tutub dedi:

– Ata, ayda on beş manat qardaşıma göndərə bilərsən?

– Yox, oğul, gücüm çatmaz. On manat bəlkə... Bəs sən?

– Mən bir belə fikir eləmişəm, qardaşım getsin oxumağa. Mən də burada başlayım dövlətlilərin uşaqlarına dərs verməyə. Qazandığım pulu göndərim qardaşıma. O qurtarıb gələndən sonra da mən gedərəm, o mənə pul göndərər. Bəlkə mən dərs verməkdən o qədər pul qazandım ki, heç sənin on manatına ehtiyac olmadı.

Bu məsləhəti hamı xoşladı.

Bir gün Mirzə Səfər Rastabazardan ötərkən qulağına səs gəldi:

– Mirzə Səfər, Mirzə Səfər!

Dönüb gördü ki, o səsləyən Həsən ağadır, tacir Hacı Qulunun dükanında oturub oradan əl edir.

Mirzə, Həsən ağaya tərəf getdi.

– Ağa, nə buyurursan? Hacı Qulu, salaməleyküm!

Həsən ağa dedi:

– Mən səni gözaydınlığı verməyə çağırdım, eşitdim uşaqların məktəbi qurtarıblar, gözün aydın!

– Sağ ol, ağa!

– Şükürlər olsun, gəldikcə ziyalılarımızın sayı artır, onları bir göndər yanıma gəlsinlər, bir söhbət edək.

– Nə üçün gəlsinlər, ağa?

– Necə nə üçün? Məktəb qurtarıblar, ağsaqqala gərəkdirmi bir vizit versinlər. Baxım görüm nəyə ləyaqətləri var, bir əməlli qulluğa qoyum işləsinlər, sən də bir qədər istirahət elə.

– Ağa, qulluğa qoymaq fikrim yoxdur. İstəyirəm uşaqlarımı ali təhsil almış görüb, gözlərimi yumum.

– A kişi, sən bir kasıb adamsan, ali təhsil görmüş uşaqları sən neyləyirsən? Ali təhsilin ildə min manatdan çox xərci var. Mən oğluma ayda yüz manat göndərirəm, yenə "gördüm" demir. Sənə varlılarla tarazıya girmək nə yaraşar? Yorğanına bax, ayaqlarını uzat!

– Ağa, məsləhətiniz çox gözəldir, ömrünüz uzun olsun, siz həmişə mənim uşaqlarımın qeydinə qalıbsınız. Onlar ancaq sizin kölgənizdə oxuyub dərsi tamam ediblər. Çox razıyam sizdən. Üç il bundan qabaq uşaqlar haqqında etdiyiniz yaxşılıq indi də mənim yadımdan çıxmır.

Həsən ağanın rəngi dəyişdi:

– Nə demək istəyirsən, bu eyhamların mənası nədir?

– Bir məna yoxdur, ağa! Ovqatınız təlx olmasın. Ancaq uşaqlarımın gələcəyinin fikrini də mənim özümə vagüzar ediniz. Nə vaxtda sizin qapınıza gəlib çörək istəsəm, nökərlərə buyurun məni qovsunlar. Bağışlayın, başağrısı verdim. Xidmətinizdən mürəxxəs olaq. Xudahafiz, Hacı Qulu.

Mirzə Səfər getdi. Həsən ağa Hacı Quluya:

– Görürsən, hacı, xalq nə payədə qudurub?! Hər qorqoduq özünü adam cərgəsinə qoşur. Buna deyən gərək: "Ay qoturun biri, sən neyləyirsən ali təhsil görmüş oğulu? İki oğlun məktəbi tamam ediblər, çox gözəl, hərəsini bir işə qoy, səni dolandırsınlar". Camaat gəldikcə qudurur. Verdiyi cavaba bax!

Həsən ağa ovqatı təlx qalxıb getdi evinə.

İki aydan sonra Mirzə Səfərin böyük oğluna tədarük görüb Rusiyaya yola saldılar. Usta Zeynal Mirzə Səfərin oğluna xeyir-dua verib, yaxşı yol və müvəffəqiyyət diləyib bir qızıl saat da peşkəş verdi.

Mirzə Səfərin kiçik oğlu başladı dövlətli balalarına dərs verməyə. Müəllimlikdə böyük qabiliyyət göstərdiyinə, işləri gün-gündən tərəqqi etməkdə idi, qardaşına nəinki artığınca pul göndərirdi, hətta aybaay bir qədər də öz gələcəyi üçün kənara qoyurdu.

Bahar fəslinin axırında Mirzə Səfərin oğlu darülfünun tələbəsi formasında evlərinə görüşməyə gəldi.

Bir-iki gündən sonra Həsən ağa Mirzəni bazardan keçən görüb çağırdı:

– Mirzə Səfər, bir buraya zəhmət çək.

Mirzə gələndə onun əlini bərk sıxdı:



– Dünən oğlunu gördüm, maşallah, yaxşı oğlana oxşayır, ona deginən bir mənim yanıma gəlsin, deginən əmin xahiş edirdi ki, sabah axşama çaya qonaq gələsən.

Mirzə təəccüblə ağanın üzünə baxdı:

– Bilirsiniz, ağa, mənim oğlum bu saat məndən ağıllıdır. Mən ona heç bir məsləhət görə bilmərəm, öz təklifini özü yaxşı bilir.

– Sən ona deginən, oğlun Yevropa adətlərinə, yəqin, bələddir, özü bilir ki, ağsaqqallara vizit vermək lazımdır.

– Baş üstə, deyərəm. Xudahafiz.

Həsən ağa dübarə Mirzəyə əl verdi.

* * *

Mirzə Səfər ölüm bəstərində idi. Böyük oğlu təbib bir yanında əyləşib tez-tez atasının sinəsinə yaş məhrəba çalırdı, lazım olduqca atasına dərman içirdirdi. Kiçik oğlu mühəndis böyük qardaşının əmrlərinə itaət edirdi. Əczaxanaya getmək, həkim yanına yüyürmək, kətan islatmaq və sairə. Usta Zeynal da bir tərəfdə məyus əyləşib dostunun üzünə baxırdı.

Mirzə gözlərini açdı.

– Balalarım, yavuğa gəlin, əlinizi mənə verin.

Oğlanlarının əllərini aldı əllərinə.

– Balalarım, dünyada mən çox ömür etmişəm. Sizin yolunuzda nə qədər çalışıb məramıma çatmışam və xatircəm, qeydsiz dünyadan gedirəm. Cəmi ömrümü işimdə təmiz olmuşam. Bir adama təməllüq, yaltaqlıq eləməmişəm, sizə mənim vəsiyyətim: ac qalsanız da Həsən ağa kimi adamlara gedib yalvarmayın. Onun tək adamlardan uzaq qaçın. Siz təmiz, namuslu dolanırsınızsa, həmişə müvəffəqiyyət sizi tapar. Mən gedirəm. İkinci sizə vəsiyyətim: bu usta Zeynalı həmişə ata gözündə görərsiniz. Mən dünyada ancaq onda etibar gördüm.

Mirzə Səfər bu sözləri deyib həmişəlik gözlərini yumdu.

Mirzənin ölməyinin xəbəri şəhərə yayıldı. Oğlanlarının xatirəsi üçün tamam şəhərin tüccarı, əyanı onun dəfnində iştirak edirdilər. Hətta Həsən ağa da təşrif gətirmişdi.

Mirzənin dəfnindən sonra neçə gün xalq oğlanlarının yanına sərsəlamətliyə gəlib-getdilər. Bu gəlib-getməklik rəsmiyyət idi. Ancaq bir nəfəri Mirzənin vəfatı yandırırdı.

O adam usta Zeynal idi.

*1918*

# ABBAS SƏHHƏT

(1874-1918)

*Azərbaycan ədəbiyyatı tarixində görkəmli romantik şair kimi tanınan Abbas Səhhət eyni zamanda bəzi nəsr əsərlərinin müəllifidir. Onun "Bədbəxt ailə", "Qaragünlü Həlimə" və məşhur rus yazıçısı A.P.Çexovun "Xirurgiya" əsərinə nəzirə kimi yazdığı "Cərrahlıq" hekayələri böyük maraqla oxunan və oxucunu təsirləndirən əsərlərdir. Bu hekayələr ilk dəfə müəllifin öz sağlığında Bakıda çıxan qəzet və jurnallarda dərc olunmuş, sonralar şairin kitablarına daxil edilmişdir. Burada verilən mətnlər şairin ikicildlik "Əsərləri"nin birinci cildindən (Bakı, 1975) götürülmüş, ətək yazılarında çətin başa düşülən sözlərin izahı verilmişdir.*

## CƏRRAHLIQ

*A.P.Çexova nəzirə*

Dəllək dükanıdır. Dükanın içərisindəki sağ tərəfdə olan şirəli səkinin üstünə salınmış yırtıq həsirin üzərində başıaçıq oturan müştərinin üstünə qırmızı, çirkli fitə salınmış; qabağında başı keçəl balaca şagird ovuc ilə tasdan su götürüb müştərinin təpəsindən tökür və boynuna, boğazına calanırkən onun başını isladır.

Sol tərəfdəki səkinin üstündə palçıq manqalın kənarında qoyulmuş iki balaca tasda isti su buğlanır.

Dəllək şagirdi hərdən burnunu ətəyinə silib başını qaşıyarkən, müştərinin başını ovmaqda idi. Ustası dəllək Məşədi Əsgər bir örü aşağa, bir örü yuxarı geydiyi qara qədək arxalığının döşü və ətəkləri çirkdən qara meşin kimi işıldayır, sürtülüb yırtılmış ciblərinin ağzı sadır bağlamış; belindəki kisəbəndinin yarısı yeyilmiş qayışının üzərinə hərdən ülgücü savlayıb sürtür və ağzındakı demi çubuğunun tüstüsünü dodağının küncündən püskürərək havada dumanladır. Bu halda motalpapaq, şal çuxalı, uzun boylu, çalsaqqal bir kişi qapıdan içəri girib salam verir. Sonra çirkli, qara səpkili ağ dəsmal ilə bağladığı sağ gözünün üstünə əlini qoyub, sol gözü ilə o yan-bu yana baxıb:



– Usta buradadırmı? – deyə soruşur.

Usta Əsgər demi çubuğunu əlinə alıb əsnəyəndən sonra:

– Aha, xoş gördük, a Molla Eyvaz dayı, nə əcəb səndən? Nə qulluğun var?

– Şükr olsun, ay usta.

Ömrünə duaçı varam.

Əlindəki xurcunu səkinin üstünə qoyub ayaq üstündə durduğu halda:

– Ancaq canına sağlıq, bir neçə gündür ki, dişim ağrıyır. Nə çay içə bilirəm, nə çörək yeyə bilirəm, nüzlə duası da yazdırdım, yenə toxtamadı. Bilmirəm bu necə dərddir? Ox... ox... Belə sızıldayır ki, elə bil qulağımın içinə mıx çaxılır. Lap beynimin içi də lükküldəyir. Az qalır başım partlasın. İnan ki, namusuma qısılıb ağlamıram. A kişi, bu çayı bina qoyanın Allah evini yıxsın. Bundan irəli yüz yaşında kişilərin ağzındakı dişləri sədəf kimi idi. Bu çay zəhrimar bədənimizin axırına çıxdı.

Usta Əsgər:

– Gözünə nə olub, a kişi, bağlamışsan?

– A kişi, bu dişim zəhrimar sancdığına görə bağlamışam. Yoxsa gözüm ağrımır.

Usta Əsgər:

– Dəsmalı aç, bir baxım görüm.

Molla Eyvaz:

– Vah, vah, dişim elə sancır, elə sancır ki, ürəyimin başı zoqquldayır. Ağzımı aça bilmirəm, danışa bilmirəm. Üz-gözüm də şişib, gecələr səhərəcən yata bilmirəm.

Usta:

– Zərəri yoxdu, otur, aç ağzını görüm.

Molla Eyvaz oturub dəsmalı açandan sonra ağzını aralayır. Usta Əsgər də başını əyib onun ağzına baxır. İllərdən bəri tənbəki tüstüsündən saralmış dişlərin arasında palasa bağlamış çirkli bir çürük diş görünür.

Molla Eyvaz:

– Nə qədər ağzıma sumaq tutmuşam, nə qədər təzək tüstüsü vermişəm, dincəlməmişəm. Üzdən iraq, erməni Melkumdan da diş dərmanı alıb qoydum, heç bir köməklik eləmədi. Bilmirəm bu necə dərddir məni tapdı? Allaha pənah, orucluq da gəldi çatdı. Daha heç dava-dərman eləmək olmaz.

Usta Əsgər (bir qədər dayanandan sonra):

– Molla dayı, gərək dişin çəkilsin!

– Sən yaxşı bilirsən, nə ərz edim, hər nə eləməlisən elə, ancaq bircə dincəlim... Allah ömür versin, Allah səni əskik eləməsin. Mən gecə-gündüz sənə duaçı varam.

Usta Əsgər:

– O nəmənədir? Mənim əlimdə su içməkdən də asandır, – deyib köhnə bir fitəyə bükülmüş karastıların içindən bir kəlbətin çıxardır. – Cərrah deyəndə çətin bir şey deyil, ancaq adət lazımdır. Əl gərək əsməsin, vəssalam!.. Odur, srağagün Marağalı oğlu Hacı Bəydəmirin də dişi ağrıyırdı. Kişi İran sövdəgəri, çiynində kabili kürk, ayağında sağrı başmaq. Bir dəqiqədə dişini çəkdim, qurtardı getdi. A kişi, zarafat deyil, sümük sındırmışam, bunları öyrənincə qat-qat qabıq qoymuşam. Mənim əlimdən hər şey gəlir. Qol qanı almaq, məlazə çərtmək, dilaltı qanı almaq... Bunlar sənə zarafat gəlməsin; gərək biləsən ki, qeyfal qanı hansıdır, oseylim hansıdır, əkhəl hansıdır. Qaldı diş çəkmək, diş çəkmək mənim əlimdə su içməkdən də asandır. Bu saat çəkərəm. Yoxsa hər dana-doluq, cana-cuna adamın işi deyil. Elə diş var kəlbətin ilə çəkərlər, eləsi var maşın ilə çəkilir, eləsi də var ki, qarmaq ilə çəkilir. Onların yerini bilmək lazımdır.

Usta Əsgər kəlbətini ətəyinin ucuna siləndən sonra istifham halətilə ona baxıb yerə qoyur, sonra maşını götürür:

– Hə, aç ağzını, çox arala! – deyib Molla Eyvaza tərəf yönəlir. – Bu saat çəkərəm qurtarar gedər. Bu üç püskəli dişdir, gərək bıçağın ucu ilə azacıq ətini aralayım, vəssalam, qurtardı getdi.

Dişin ətini kəsir.

– Hə çətini bu idi.

Molla Eyvaz:

– Nə deyim, Allah sənə kömək olsun. Nə əcəb, kişi, sən varsanmış. Yoxsa bu camaat batıb qırılardı. Allah sənə ömür versin.

Usta Əsgər:

– Bax, tərpənmə, ancaq ağzını yaxşı arala.

Kəlbətini götürüb ağzına aparır:

– Dayan, dayan, tərpənmə, bir azacıq davam elə, bu saat qurtarım. – Zor ilə dişi çəkir. – Ancaq söz burasındadır ki, azı dişdir. Özü də üç püskəli.



Gərək kötüyü sınıb içəridə qalmasın. – Çəkir.

Molla Eyvaz:

– Vay dədəm vay! Ox, ox, ox...

Usta Əsgər:

– Dayan, dayan, bu saat qurtarım, əlimə yapışma, əlimi burax. Çəkir.

Molla Eyvaz:

– Vay, nənə vay! Vay, baba vay! A kişi çək çıxsın, daha nə uzadırsan.

Usta Əsgər:

– Sənə zarafatmı gəlir, bu cərrahlıqdır a!.. Birdən olmaz. Budur, budur az qalıb.

Molla Eyvaz ayaqlarını dizlərinə qədər qalxızıb titrədiyi halda surəti boğumtul, qara-qırmızı rəng alır, tər üzündən damcılayır, tövşüyə-tövşüyə nəfəs alır.

Usta Əsgər isə var gücü ilə qollarını tərpədib çəkməyə çalışır... Qayət əziyyətli bir dəqiqə keçəndən sonra kəlbətin şaqqıltı ilə dişi sındırıb Molla Eyvazın ağzından bayıra atılır. Molla Eyvaz dişi çəkilib qurtarmış zənn edərkən, barmağını ağzına aparır. Lakin dişinin sınmış olduğunu hiss etdikdə:

– Çəkdin? Bu sənin gördüyün iş!.. Canına dəysin.

Ağlar və istehzakaranə bir səslə:

– Allah yaman gündən saxlamasın. Elə qabiliyyətin bu imiş? Canım, bir işi bacarmırsan, daha nə üçün boynuna çəkirsən? A kişi, sən məni öldürdün ki. ...Gözümün qabağı qaranlıq gətirir.

Usta Əsgər:

– Sən nə üçün əlimi tutursan? – Acıqlı bir halda: – Mən çəkirəm, sən mənim dirsəyimin altından vurursan, nə bilim nə oyun çıxardırsan. Qoydun məgər bir görüm mən nə qayırıram.

Molla Eyvaz:

– Sən salmısan zırpılığına, daha ona mən nə qayırım. Bir qələti eləyə bilmirsən, daha nə boş danışırsan.

Usta Əsgər acıqlı bir halda:

– Qələt də elə, daha uzun danışma, aç ağzını görüm. Öyrənmisiniz havayı yeməyə. Bu ölü halvası deyil ki, damağını şaqqıldada-şaqqıldada yeyəsən. – Molla Eyvazı yamsılayaraq – "başarmırsan,

başarmırsan". Buyurun, indi bu mənə öyrədəcək; başından böyük danışmağına bax. Marağalı Bəydəmirin sənin ağırda əskinası var, dişini çəkdim, heç uf da demədi... Min dəfə üst-başı səninkindən təmizdir. Heç əlimə də yapışmadı. Otur, ağzını aç görüm, məni məəttəl eləmə.

Molla Eyvaz:

– A kişi, başım gicəlir, qoy bir nəfəsimi dərim a... – Oturur. – Uzun dartma, bir dəfə çək çıxsın, müxtəsər elə.

Usta Əsgər:

– İndi bu mənə öyrədəcək. Allahın lənətinə gələsən, kor şeytan ha. Aç ağzını! – Kəlbətini salır. – Bu cərrahlıqdır a... Sənə zarafat gəlirmi yoxsa? – Qollarını tərpədib çəkir. – Tərpənmə, az qalıb çıxsın, kötüyü lap dərindədir. – Çəkir. – Başını tərpətmə. Hə, belə, belə. Bir azacıq dayan, ha. – Xırçıltı səsi eşidilir. – Daha indi qurtarar.

Molla Eyvaz ölü kimi hərəkətsiz oturub, gözləri bərəlib dükanın səqfinə dikilmiş, rəngi-ruyu ağarıb, üzündən tər axır.

Usta Əsgər:

– Ax, kiçik kəlbətin burada olsaydı, nə yaxşı olardı.

Bu halda kəlbətin dişi buraxıb Molla Eyvazın ağzından bayıra atılır. Molla Eyvaz nəfəsini alandan sonra tez barmağını ağzına soxub ağrıyan dişinin əvəzində başqa bir dişinin çəkilib laxlamağını görərkən:

– Tfu! Boynunu Allah sındırsın! Canım, sən meşədən tutulmamışsan, ayı deyilsən ki... Ağrıyan dişi qoyub başqasını nə üçün çəkib laxladırsan? Allah kəssin qabiliyyətini!

Usta Əsgər:

– Ağzıbaşına danışma, yekəbaş! Bunun sir-sifətinə bax, başından böyük danışmağına bax! Marağalı oğlu Hacı Bəydəmir böyük tacir, neçə illər İranda olmuş, ağıllı adam, hacı kişi, kabili kürkü yüz manata dəyər, o bir kəlmə artıq-əskik danışmadı... Amma bu məni gör necə danlayır.

Molla Eyvaz səkinin üstünə qoyduğu xurcunu götürüb, əlini üzünə qoyduğu halda mırıldaya-mırıldaya qapıdan çıxıb getdi.

*1915*



## BƏDBƏXT AİLƏ

Kars və Ərdəhandan qaçıb qurtarmış bir dəstə ac-yalavac, çılçılpaq arvad-uşaqlar Tiflisdə müsəlmanlar məhəlləsinin küçələrində səfil-sərgərdan qalmışdılar. O cümlədən beli bükülmüş ağsaqqal Həmid adlı bir kişi, qoca bir arvad ilə küçənin bir tərəfində, quru torpaq üstündə oturub on beş yaşında xəstə bir oğlan uşağının başını dizi üstünə almışdı. Qoca arvad daima xəstə çocuğun üzünə baxarkən gözlərindən axan qanlı, odlu yaşı başındakı yırtıq köhnə şal ilə silirdi.

Xəstə çocuq bənizi saralmış, qızdırmadan ləhləyirdi. Tez-tez kəsik-kəsik nəfəs alırkən çox-çox öskürürdü. Dodaqları quruyub, üzünün qənələri incəlmişdi. Bihuşluq halında düşmüş xəstə titrək, zəif səslə:

– Ay nənə, bir az su – deyə bulanıq, solğun gözlərini açıb yenə də qapadı. Qoca kişi dərindən bir ah çəkib sakitanə ağlarkən ayağa durdu, yaxındakı qapını açıb su istədi. Dərhal Müslümbəy adlı uzunboylu, xoş simalı bir cavan su gətirib o kişiyə verdi. Qoca kişi suyu alıb xeyir-dua edərkən nəvəsinin yanına gəldi.

– Bala, su gətirmişəm, al iç, – deyə uşağın başını əlilə qaldırdı.

Xəstə çocuq titrək, arıq əlini uzadıb su qabına yapışdı və bihiss bir halda sudan bir neçə udum içdisə də, peydərpey öskürək onu lap dildən saldı. Müslümbəy bu heyndə qapının ağzında dayanıb onların bu fəlakətli halına baxırdı. Qoca kişiyə xitabən:

– Əmi, bu uşaq sənin nəyindir, oğlundurmu? – deyə sual etdi.

Həmid kişi yenə bir ah çəkib:

– Qardaş, bu uşaq mənim nəvəmdir, oğlanlarımı öldürdülər, qızlarımı, gəlinlərimi əsir apardılar. Mən başıbəlalı ancaq bu uşaqcığı bir noilə götürüb qaçmışam. O da yolda bu noilə xəstələndi... Şükür Allahın kəràminə! – deyib də ağlamaq boğazını tutub sakit oldu.

Müslümbəy nəhayətdə bu sözdən qəmləndi. Daha bir söz deməyib evinə qayıtdı. Bir qədərdən sonra küçəyə çıxıb:

– A kişi, əmi! Uşağı evə gətiriniz! – dedi.

Müslümbəyin bu məhəbbətindən fəlakətzədə ailənin üzündə şadlıq asarı göründü. Müslümbəyə xeyir-dualar edərək, xəstəni içəri apardılar.

Müslümbəy onlara mənzil verib rahat elədikdən sonra:

– Mən gedib uşaq üçün həkim gətirim, – deyə onlara təsəlli verdi.

Bir o qədər keçməmişdi ki, xəz paltolu, qara şlyapalı, çalsaqqal bir doktor Müslümbəy ilə bərabər içəriyə daxil oldu. Xəstəni müayinə edib nüsxə yazdıqdan sonra, dışarı çıxıb getmək istədi. Həmid kişi doktorun əqəbincə gəlib onun ayaqlarına yıxıldı. Onun ölü rəngində olan uçuq bənzində qorxu əlaməti müşahidə olunarkən:

– Cənab doktor, səhhət ümidi varmı? – deyə müntəzirənə halətlə sual etdi.

Doktor:

– Xeyr, onun işi müalicədən keçib, – deyə çiyinlərini oynatdı. Sonra başını aşağı dikib mütəkəbbiranə bir halətlə faytona tərəf yollandı.

Qoca kişi:

– Doktor əfəndim! Allah xatirinə, əgər mümkünsə müzayiqə etmə. Bir böyük külfətdən bircə buna göz dikmişəm, – deyə qorxulu bir ədа ilə doktorun önünə keçdi.

Doktor dayanıb fikrə getdikdən sonra:

– Hələ bu dərmanı veriniz, baxalım necə olur? Fəqət... – deyə sözünün axırını söyləməyib mütəəssifanə bir ədа ilə əlini tərpətdi, sonra Müslümbəylə xudahafiz edib faytona əyləşdi.

Sevgili nişanəsinin həyatından ümidi kəsilmiş qoca kişi ayaq üstə quruyub qaldı. Var əzası titrərkən hönkürtmə çalıb ağlamağa başladı. Müslümbəy mehribanlıqla o yazığa təsəlli verib evə qayıtdı. Qoca Həmid gözlərinin yaşını əlilə silərkən içəriyə girdi. Nəvəsi fərasətlə babasının pozğunluğunu dərk etdiyindən yataqda dikəlib:

– Baba, buraya gəl! – deyə onu çağırdı.

Həmid kişi nəvəsinə yaxınlaşıb:

– Bala, sözün nədir? – deyib əyləşdi.

Uşaqcıq dəfətən arıq, nazik qollarını qalxızıb babasının boynuna saldı, nənəsi də o sevgili balasını qucaqladı, hər üçü şiddətlə ağlaşdılar. Sonra xəstə çocuq:

– Baba, mən bilirəm doktor sənə nə söylədi – deyib yenə baba və nənəsini qucaqladı və başını babasının çiyninə qoyub töşküyə-töşküyə bir qədər sakit oldu. Bir az dincəldikdən sonra:

– Baba, atamdan-anamdan sonra mən daha ölməyimi istərəm. Ancaq sənə vəsiyyətim odur ki, səbr elə, çox ağlama. Nə etməli, qəzadan bizim üçün belə imiş...

Qoca kişi öz saqqalı uzunu axan göz yaşlarını silərkən:



– Bala, ölüm mənim üçündür. Allah sənin ölümünü mənə göstərməsin... Qorxma, bala, Allah qoysa sağalarsan... – deyə nəvəsinin üz-gözün tumarladı.

Xəstə çocuq:

– Baba, mən bilirəm, axır nəfəsimdir. Ancaq səndən təvəqqem odur ki, məni özün qəbrə qoyarsan və əgər bu şəhərdə qalmalı olsanız, tez-tez mənim qəbrimin üstə gələrsən, məni unutmayasan – deyərək nəfəsi kəsildi. Yenə də baba və nənəsini qucaqlayıb hər üçü ağlaşdılar. Müslümbəy onları ovudub təsəlli verdi. Sonra doktor yazdığı nüsxəni öz nökərinə verib dərman almağa göndərdi. Sonra Həmid kişiyə xitabən:

– Əmi, səsin nə üçün xırıldar? Məgər sən də xəstəmisən? – deyə soruşduqda qocanın əyalı:

– Ay başına dönüm, xəstə deyildir, lakin üç gündür ki, çöllərin buzu, qarı bu yazığın qidası, xörəyi olmuşdur, – deyə cavab verdi.

Müslümbəy:

– Vay, siz acsınızmış... bəs nə üçün, niyə söyləməyirsiniz? – deyə dərhal onlar üçün yemək tədarük etdi və bir qədər də süd gətirib xəstə çocuğa içirtdilər. Bir saatdan sonra nökər dərman gətirdi; ondan da xəstəyə verdilər. Müslüm sonra öz işinə getdi.

Lakin əsr zamanı[1] idi ki, xəstəyə ğişvə ariz oldu. On dəqiqədən sonra ayıldısa da, lakin bütün əhvalı xarablaşmağa üz qoydu. Əl-ayağı soyudu, alnında soyuq tər əlaməti göründü, verilən dava-dərman boğazından keçməyib hiyənglərindən bayıra töküldü. Gecənin yarısınacan bu hal üzrə qaldı. Sevgili balasını bəstəri-ehtizarda görən qoca arvad yumruqla öz sinəsinə vurarkən ərinə xitabən:

– A kişi, görməyirsənmi, heç olmasa yasin oxu, balam Quransız keçinməsin – deyə hayqırdı.

Bədbəxt qoca kişi çaşıb özünü itirdiyindən "Yasini-şərif" əvəzinə "Həmd" surəsi oxumağa başladı. Bir o qədər keçmədi ki, xəstə çocuğun üzünə ölüm rəngi qonub bir-iki dəfə çənə çaldıqdan sonra, nəfəsi qət oldu. Bu vaxt o bədbəxt qocaların başına sanki qiyamət qopdu. Gecənin yarısı özgənin evində, qərib ölkədə ev sahibi narahat olmasın deyə, ixtiyarsız ucalan fəryadlarını sinələrində boğarkən, o soyumuş bədəni qucaqlayıb sızıldadılar...

*1915*

[1] Əsr zamanı – günortadan sonra, ikindi çağı

## QARAGÜNLÜ HƏLİMƏ

Qış fəsli idi. Təqribən gecəyarısından dörd saat keçmişdi. Dağların, qayaların zirvələri zəif, sönük bir işıqla ağarmışdı. Günəş hənuz tülu etməmişdi. Hava qayətdə soyuq idi. Yalçın qayaların, yüksək dağların üzərində tərakim etmiş[1] qar komaları və buz parçaları əcəb qəribə surətlər təşkil etmişdi. Şiddətli əsən soyuq külək ağacların qurumuş budaqlarına, qayaların buzlu yarğanlarına çarpdıqca vahiməli səslər törədirdi. Neçə gündən bəri arasıkəsilmədən eşidilməkdə olan top gurultuları bir az yavaşımışdı. Get-gedə hava işıqlanıb günəş ziyasının müqəddimətilceyşi[2] ətrafdakı dağların zirvələrində nümayan[3] oldu. Bu heyndə Bayburt şəhərinin içərisinə bir hövlnak çaxnaşma düşdü. Bu vəhşət qalanın təslim ediləcəyi xəbərindən nəşət etmişdi. Əhali sərasimə[4] əlinə gələni götürüb qaçışırdılar. Bəşər balaları qoyun-quzu kimi mələşərkən çöllərə dağılmaqda idi. Qohum-qonşuları, heç kəs, heç kimsənin yadına düşmürdü. Hər kəs öz canının qeydində, hər kəs öz başının harayında idi. Anbarlara, tayalara od vurulmuşdu. Şiddətli küləyin zərbəsindən yanğın anbaan artmaqda idi. Bir neçə saat ara vermiş top atəşi yenidən fəaliyyətə başlamışdı. Peydərpey atılan top qumbaralarının düşüb partlamasından hər tərəfdə bir atəş tufanı vücuda gəlmişdi. Bir az fasilədə şəhər bom-boş boşaldı. Getməyə qüdrəti olanlar tamamən qaçıb dağıldılar. Yalnız bəstəri-ehtizarda[5] bulunan yetmiş yaşlı Hacı Nuru kişinin əyalı Həlimə kəsrəti-hüzn və kədərindən çıldırmaq dərəcəsinə gəlmiş ikən əzizliklə böyütdüyü balalarını xilas etməyi düşünürdü. Ancaq ağlına bir şey gəldi: belə ki, qorxudan titrəyib dili tutulmuş, çığırışan on yaşlı Zeynəb adı qızının və altı yaşlı Əhməd adlı oğlunun əlindən tutub evlərinin zirzəmisinə apardı. Sonra oranın döşəməsi üzrə təbiyə edilmiş bir taxta qapını qaldırıb titrək bir səda ilə: "Burası pək əski bir lağımdır, mədxəli bura isə, məxrəci məmləkətimizin içərisindədir. Allaha əmanət olasınız, balalarım, bu yol ilə gediniz, hər halda bir tərəfə səlamət çıxarsınız ümid edirəm" – deyə Həlimə geri döndü.

[1] Tərakim etmək – yığılmaq, toplanmaq
[2] Müqəddimətilceyş – qoşunun əvvəli; burada: günəşin ilk şüaları
[3] Nümayan olmaq – görünmək
[4] Sərasimə – çaşmış, hövlnak
[5] Bəstəri-ehtizar – ölüm yatağı, ağır xəstə



Zavallı çocuqlar qorxudan nə lağımın içərisinə girməyə, nə də analarının yanına qayıtmağa cürət edirdilər. Cansız bədən kimi hərəkətsiz qalmışdılar.

Göy gurultusundan daha dəhşətli olan top qumbaralarının tərəqələri getdikcə artmaqda idi. Həlimə isə ərinin balini-ehtizarından dizlərini qucub odlu göz yaşları tökməkdə idi. Ta ki, qalanın içərisində olan yanğın get-gedə artıb bunların da evlərinə yetişdi. Bir dəqiqədə atəş evin dörd tərəfini əhatə etdi. Ağlayıb, sızlayıb saçlarını yolmaqla gah bayıra yüyürüb, gah içəriyə qayıdırdı. Bu heyndə şeypur sədası eşidildi. Bununla pişdarların[1] qalaya yaxınlaşdığını anladı. Vəhşətdən bütün özünü itirmişdi. Acı, qara tüstü evin içərisinə dolub buruq-buruq pəncərələrdən xaricə çıxırdı. Qırmızı alov küləyin şiddətindən hər dəm zəbanə çəkib yan-yörəni gəmirirdi. Biçarə Həlimə ərinin yarı ölü cəsədini qucaqlayıb evdən kənara çıxarmaq istədisə də, yağmur danəsi kimi tökülən güllələrə məruz olmaq qorxusundan bu fikirdən daşındı. Lakin bir qədər çəkmədi ki, alışmaqda olan pal-paltarı onda bir halət törətdi ki, o, qoca xəstə ərini də unudub, o atəş dalğalarının arasından özünü həyətə-bərəyə atdı. Bir neçə dəqiqədən sonra o, alışan məqbərənin töküntüləri altında zirzəmidəki lağımın da mədxəli qapanıb, biçarə tifillər orada qalmağa məhkum oldular.

O fələkzədə çocuqlar qaranlıqda qorxuşub çığrışırdılar. Yekdigərini görmürdülərsə də, lakin əl-ələ yapışıb lağımın içərisinə doğru bir neçə addım irəlilədilər. Lağımın yeri rütubətli olduğundan tez-tez ayaqları sürüşüb yıxılmaq dərəcəsinə gəlirdi. Bir qədər getdikdən sonra Əhmədin ayağı bir şeyə toxunub üzüüstə yıxıldı. Alnı nəyə çarpdısa, yarılıb isti bir şey üzüaşağı cari oldu... Ağrının şiddətindən bihal olub tərpənmədi. Zeynəbin əli qardaşının əlindən üzüldü. Fəqət onun iniltisini eşidirdisə, necə olduğunu görmürdü. O bədbəxt qızcığaz öz itiyini aramaq qəsdilə əlini lağımın divarına sürtüb "Əhməd! Əhməd!" – deyə qardaşını çağırırdı. Qəzadan həmin yerdə bir neçə yolayrıcı vardı. O yetim qızcığaz qardaşını aramaq üçün əlini lağımın divarına sürtə-sürtə bir neçə addım getdikdən sonra dəlilər kimi mütəvəhhişanə bir halda dayandı. Zira ki, Əhmədin zığıltısı daha eşidilməmiş oldu. Naümidliyə qarışmış bir qorxu onun vücudunu sarsıb dizləri taqətdən düşdü. Ucadan ağlamasını şiddətləndirdisə də,

[1] Pisdar – orduda irəlidə gedən hissə

lakin lağımın divarında əksi-səda törədən öz səsindən başqa qeyri səs eşitmədi. Qüssədən bağrı çatlamaq dərəcəsinə gəldi. O yan-bu yana yüyürməkdən lağımın divarına əlləri, üzü toxunub yaralandı. Qanlı barmaqlarıyla, vəhşətli qəlbilə itirdiyini nə qədər aradısa, bir əsər, bir nişanə bulamadı. Bilaxirə məbhut bir halətdə dayanıb nə edəcəyini bilmirdi. Bu halda çox uzaqdan qayət zəif işıq kimi bir şey gözünə çarpdı. Ürəyi o qədər şiddətlə döyündü ki, çırpınmasını özü eşidirdi. Çox zəhmətlə sürünə-sürünə o, işıq gələn tərəfə yönəldi. Burası lağımın məxrəci idi. Vəqta ki, lağımdan kənara çıxdı, günəşin nuru onun alnına düşüb havanın soyuğu vücuduna təsir etdikdə ağlı başına gəlib yurdsuz-yuvasız bir biyabanda bulunduğunu dərk etdi. Abadanlıq aramaq xəyalı ilə o yan-bu yana diqqət etdikdən sonra çox uzaqda yıxılmış bir tabiyə gözünə sataşdı. İstədi ki, oraya girib qardaşı Əhmədi xilas etmək üçün yardım diləsin. Qədəm götürüb irəlilədikcə ayağının altında qan sıçrayıb üz-gözünə səpələndi. Yerə baxdıqda bir əsgər meyiti gördü. Sonra dönüb geriyə diqqət etdisə bir məhşəri-əmvat içərisində bulunduğunu müşahidə etdi. Vəhşəti fövqəladə artıb ağlaya-ağlaya o yan-bu yana qoşmağa başladı. Ayağı ayağına dolaşa-dolaşa çox getməmişdi ki, bir dərədən beş-on nəfər yaraqlı atlı çıxdığını gördü. Zavallı uşağın qorxudan dizləri titrəyib yerə çökdü. Bu atlılar əsgərlər idi. Onlar o bədbəxt qızcığaza yaxın gəlib əl ilə işarə edərək:

– Qorxma, qorxma – deyə özlərilə getməyə əmr etdilər. O, biçarə qardaşının yanında qalmaq lazım gələrkən xahi-nahaxi onların əmrinə itaət etdi. Bu minval ilə bir neçə ay Anadolu xərabələrində səfil-sərgərdan dolaşırdı. Bu müddətdə özü kimi bir neçə nəfər kiçik yaşlı uşaqlar da ona yoldaş olmuşdular. Əsgərlərin əllərindən töküləndləri, bayıra atdıqları şeyləri yeməklə ölümdən betər bir həyat keçirməkdə idi. Tainki bir gün havanın kəskin şiddətli boranı o zavallı çocuğu bir məxrubə evin daldasına sığınmağa məcbur elədi. İçəri girdikdə orada bir neçə nəfər aciz, əlil kişi-arvad gördü ki, libas deyilən şeydən ancaq sətri-övrətdən başqa əyinlərində bir şey yox idi. Ahü əninləri eşidib-görənin ürəyini kabab edər idi. Lakin onların arasında quru torpaq üzrə düşüb qalmış bir insan heykəli, bir arvad şəkli var idi... Belə bədvi-nəzərdə hər kəs onu görmüş olsaydı, onun insan olub-olmadığını yəqin edəməzdi. Zira ki, şəkli-şəmaili dönmüş idi. Üz-gözü tamamən yanmış və qırışmış idi. Kirpiksiz olan



qanlı göz qapaqlarını tez-tez qırpırdı. Bəlli idi ki, işıq onun gözlərinə əziyyət edirdi. Bədəninin görünən yerlərinin dərisi tamamilə yanıb qırmızı ət qalmışdı. O arvadın kim və nərəli olduğunu bilmədiyi halda Zeynəbin ona rəhmi gəlib pərəstarlıq etmək üçün ona yanaşdı. Lakin biz tanıyırız ki, bu arvad haman Həlimə və Zeynəbin anası idi. O, həsrətlə çıxan xırıltılı səs ilə:

– Allah xatirinə, bir içim su, – deyə zarıdı.

Zeynəb dərhal qayıdıb soyuqdan donmuş barmaqlarını havrıxa-havrıxa sınıq bir qab parçasında ona su gətirdi. O arvad suyu içdikdən sonra sanki Zeynəbin bu qədər mərhəmətini dərk etməyib böht və sükuta dalmışdı. Lakin qayət ahəstə səslə bir neçə sözlər təkrar edirdi. Zeynəbə o arvadın səsi aşina gəldisə də, tanımadı. Çünki o zavallı heykəl bir parça ət və sümükdən başqa bir şey deyildi. Zeynəb tərəhhümamiz bir qorxu ilə aşağı əyilib onun sözlərinə qulaq verdikdə: "Zeynəb, Əhməd!.. Zeynəb, Əhməd!.." – söylədiyini anladı. Bu kəlmələri eşitməkdən Zeynəbin ürəyi dalına dəyib bir söz söyləmək istədisə, lakin ağlaması danışmağına mane oldu. Dərhal o balaca əllərini ürəyinin üstünə qoyub guya bununla ürəyinin çırpıntısını azaltmaq istəyirdi. Daha artıq səbr edəməyib titrək bir səda ilə:

– Anacan, anacan!.. – deyərək balaca qollarını əlilə arvadın boynuna doladı.. Bu dəqiqədə sanki qaragünlü Həlimənin sönük müşairində bir işıq vücuda gəldi. Yetimə balasını tanıyıb quyu dibindən çıxan kimi bir səslə:

– Ox, yavrum Zeynəb, sənmisən? Bəs qardaşın Əhməd hanı? – deyə ana-balanın odlu göz yaşları bir-birinə qarışdı...

*1917*

## SÜLEYMAN SANİ AXUNDOV

(1875-1939)

*XX əsr Azərbaycan ədəbiyyatında nasir və dramaturq kimi mühüm yer tutan Süleyman Sani Axundov Şuşada doğulmuşdur. Qori Müəllimlər Seminariyası yanında ibtidai məktəbdə və həmin seminariyada təhsil almış, oranı bitirdikdən sonra Bakıda müəllimlik fəaliyyətinə başlamışdır. O, əvvəlcə sıravi müəllim, sonra məktəb direktoru, Şuşada maarif şöbəsinin müdiri vəzifələrində çalışmış, Bakıda vəfat etmişdir.*

*Süleyman Sani bədii yaradıcılığa XIX əsrin sonlarında başlasa da yazıçı kimi XX əsrdə tanınmışdır. Onu nasir kimi məşhurlaşdıran "Qorxulu nağıllar" adlandırdığı hekayələrdir. Uşaqların həyatından bəhs edən bu əsərlər ilk dəfə 1912-1914-cü illərdə "Məktəb" jurnalında dərc olunmuş, sonralar yazıçının müxtəlif kitablarına və antologiyalara daxil edilmişdir. Burada verilən hekayələr ədibin ikicildlik "Seçilmiş əsərləri"nin birinci cildindən (Bakı, 1968) götürülmüşdür.*

### ƏHMƏD VƏ MƏLEYKƏ

Qışın orta ayı idi. Soyuqdan hamı qaçıb evlərdə gizlənmişdi. Hacı Səmədin külfəti isti otaqda süfrənin başına cəm olub, yemək üçün onu gözləyirdi. O isə o biri otaqda öz işinə məşğul idi.

Hacı Səməd əlli yaşında, safürəkli, rəhmdil bir kişi idi. Hacı Səmədin külfəti qoca anasından, arvadından, doqquz yaşında bir oğlundan və bir də yeddi yaşında qızından ibarətdi.

Hacı Səməd oğlu Məmmədi ibtidai şəhər məktəbində oxudurdu və bu ildən də qızı Fatmanı şəhər qız məktəbinə vermişdi. Hacı Səməd başqa müsəlman atalara bərəks olaraq uşaqlarının dərslərinə, ədəb və tərbiyəsinə çox fikir verərdi.

Hacı Səməd işini qurtarıb yemək otağına gəldi. O, süfrənin başında əyləşdi, yeməyə başladılar. Şam qurtardı. Hacı Səmədin xörəyin üstündən çay içmək adəti idi. Bu vaxt külfətə ya kitab, ya



da gündəlik qəzetlərdən oxuyardı. Bu da olmasaydı, gəzib-gördüyü vilayətlərdən danışardı. Buna görə də gözlüyü gözünə taxıb, əlinə qəzeti götürəndə hamı sakit olub onun danışığını gözləyirdi.

Hacı Səməd isə səsini çıxartmayıb öz-özünə yavaşcadan oxumağa başladı.

Fatma bu sakitliyə davam etməyib qoca nənəsinə dedi:

– Nənə, mənə bir qorxulu nağıl söylə.

Fatmanın qardaşı Məmməd, bacısından bu sözü eşidib dedi:

– İndi ki, qorxulu nağıl istəyirsən, bəs niyə o günü nənəm Məlik Məmməd nağılını söyləyəndə, div adı gələn vaxt nənənin qucağına qısıldın?

– Yox, mən heç qorxmurdum, – deyə Fatma cavab verdi.

Bu halda Hacı Səməd qəzeti yerə qoyub dedi:

– Yaxşı, qızım, bu gecə nənənin əvəzinə mən sənə bir qorxulu nağıl söylərəm, bu şərtlə ki, qorxmayasan.

– Yox, ata, qorxmaram, söylə.

Hacı Səməd çaydan bir neçə qurtum içib başladı:

– Qızım, biri vardı, biri yoxdu, şimal-şərqdə, meşə içində, çay kənarında Tatarcıq adında bir kənd vardı. Bu kəndin əhli əkinçilik və çarvadarlıqla güzəran edərdi. Qızım, həmin bu nağıl olunan kənddə Nurəddin adında bir kişi vardı. Bu Nurəddinin on yaşında Əhməd adlı bir oğlu, altı yaşında Məleykə adlı bir qızı və Xədicə adında bir arvadı vardı.

Nurəddinin sənəti əkinçilik idi və mal-qaradan ancaq bir atı vardı. Nağıl olunan zaman bahar və yay çox quraqlıq keçməyə görə o vilayətdə taxıl susuzluqdan yanıb tələf oldu. Çox çəkmədi ki, ətraf və əknafda aclıq başlandı. Payızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə kirayəçiliyə getdi. Orada qazandığı pulu dörd gündən, beş gündən bir evinə göndərərdi. Külfəti də onunla güzəran edərdi.

Əhməd kənd məktəbində oxuyurdu. Atası tərəfindən gələn məktubları asanca oxuya bilirdi. Bir neçə gün bundan əqdəm Əhməd yazıb atasından özü üçün bir başlıq və bacısı üçün bir əlcək istəmişdi. Hər ikisi bu şeylərin tezcə alınmasını xahiş edirdi. Lakin beş gün keçdi, bir həftə keçdi, on gün keçdi, atalarından bir xəbər çıxmadı. Xədicə bərk qorxuya düşmüşdü. Evdə pul və çörək də tükənmişdi.

Bir dəfə, əziz balalarım, söz vaxtına çəkər, belə bir gecədə, qarlı çovğunun şiddətli vaxtında, Əhməd və Məleykə atalarının yolunu səbirsiz gözləyən zaman, kim isə qapını döydü. Uşaqlar cəld:

– Atam gəldi, – deyə qapıya tərəf yüyürüşdülər. Amma onun əvəzinə kürkə bürünmüş, əlləri əlcəkli, başı başlıqlı qonşuları Şəhabəddin içəri daxil oldu. O kişi Nurəddinlə bərabər arabaçılığa getmişdi. Bunu görcək Xədicənin ürəyini qorxu aldı.

Uşaqlar:

– Əmi, bəs atamız hanı? – deyə soruşduqları vaxt ondan cavab almadılar. Şəhabəddin Xədicəni bayıra çağırıb, ərinin atlı-arabalı dərəyə uçub ölməyini xəbər verdi və onun cibindən çıxan altı manatı verib cəld getdi.

Xədicə ruhu qaçmış, nitqi tutulmuş halda içəri girdi və uşaqlarını bağrına basıb zar-zar ağladı. Bunların ah-naləsi, boranın gurultulu səsi bir-birinə qarışmışdı. Bunlar axırda sakit oldular. Əhməd anasından soruşdu:

– Ana, bu aclıq ildə atasız biz necə dolanacağıq, acından öləcəyik.

– Qorxma, oğlum, bu saçlarımı satıb sizi ac qoymaram, – deyə Xədicə oğluna təsəlli verdi, sonra hər ikisini soyundurub yatağa uzandırdı. Bir azdan sonra uşaqlar yuxuya getdilər.

Amma o gecəni Xədicə sübhə kimi yata bilmədi. Fikir, xəyalət onu götürmüşdü. Sahibsiz arvad, yetim uşaqlar, aclıq ildə necə dolansın?

Bir neçə müddət keçdi. Xədicənin pulu lap qurtardı. Yavaş-yavaş ev şeylərini satmağa başladı. Xədicə bir də baxdı gördü ki, evdə heç bir şey qalmayıbdır. Uşaqlar da acdır. Çörək üçün hansı qonşuya getdisə, əliboş qayıtdı, çünki hamı bunların günündə idi. Acından zavallı uşaqlar taqət və gücdən düşmüşdülər. Yazıq Xədicə hər yerdən ümidi kəsilmiş, dizlərini qucaqlayıb bir küncdə mumiya kimi oturmuşdu. Gizlin ağlamaqdan gözlərinin yaşı da qurumuşdu.

Qızım, axşam oldu. Acından Məleykənin qırmızı yanaqları saralmışdı...

Birdən Fatma özünü atasının qucağına atıb dedi:

– Ata, demə, demə! Qorxuram.

Hacı Səməd qızının başını sığallayaraq dedi:

– Qorxma, qızım, dalı yaxşıdır. Qulaq as, harada qaldım? Hə, Xədicə Məleykəni soyundurub yerə qoydu ki, bəlkə yuxuya gedə.



Amma yazıq tifil rahat ola bilmirdi. Axırda Xədicə onu sakit etmək üçün dedi:

– Qızım, Məleykə, gözlərini yumub yat; onda gecə mələk bacamızdan sənə çörək salar.

Məleykə gözlərini yumdu. Bir azdan sonra yuxuya getdi. Amma Əhməd anası ilə oyaq qalmışdı. Gecədən xeyli keçmiş bacadan gumbultu ilə bir şey içəri düşdü. Ana və oğul diksinmiş ayağa qalxdılar ki, görsünlər o düşən nədir. Gördülər ki, ağzı bağlı bir torbadır. Xədicə əli əsə-əsə torbanın ağzını açdı. Gördülər ki, içi çörək, yemiş, cücə, yumurta və qeyri yeməli şeylərlə doludur. Bunu görcək Əhməd dedi:

– Ana, gördünmü, mələk bacamızdan bizə çörək saldı.

Xədicə heyrətdə qalıb cavab verə bilmədi. Bu halda torbanı boşaldanda içindən kağıza bükülmüş bir yumru şey çıxdı. Açanda gördülər ki, hamısı qızıl puldur. Bunu görən ana və oğul daha da artıq təəccüb etdilər. Bu halda Əhmədin gözünə pula bükülmüş kağızda yazı sataşdı:

– Ana, burada yazı var; qoy görək nədir? – deyə Əhməd kağızı oxudu.

"Qızım Məleykə, mən bir qoca səyyaham. Yolda evinizin yanında faytonumun çarxı oxdan çıxdı, onu salıncan mən istədim ki, sizdə bir az qızınıb, rahat olam. Qapıya gəldikdə anan dediyi sözləri eşitdim. Geri qayıdıb bu şeyləri və pulu sənin üçün hazır etdim və təzədən gəlib bacanızdan atdım. Yaşa, qızım, yaşa, mən qoca babanı da yaddan çıxartma. Xudahafiz.

*Səyyah Cəmaləddin*".

Bu halda Məleykə oyanıb dedi:

– Ana, mələk bacamızdan çörək saldımı?

– Bəli, qızım, ancaq mələk yox, baban Cəmaləddin, – deyə Xədicə Məleykənin qabağını yeməli şeylərlə doldurdu. O gecəsi iki bala, bir ana şadlıqlarından bilmirdilər ki, nə etsinlər. Axırda hamı şad-xürrəm yıxılıb yatdılar.

İndi siz də, əziz balalarım, durun yatın, səhər dərsə gedəcəksiniz.

Bu sözlərlə Hacı Səməd sözünü tamam etdi.

Məmməd və Fatma şamdan sonra sabahkı dərslərini hazırlayıb, yazılarını yazıb oturmuşdular. Tez-tez atalarının üzünə baxırdılar. Hacı Səməd uşaqlarının fikrini duyub dedi:

– Yenə nağıl istəyirsiniz?

– Bəli, ata, – deyə Məmməd cavab verdi.

Fatma dedi:

– Ata, bu gün müəlliməmiz bizə "Əlibaba və qırx quldur"un nağılını oxudu. Sən də bizə quldurdan söylə.

– Yaxşı, qızım, ancaq bunu bil ki, quldurlar elmsiz, tərbiyəsiz tayfadan çıxarlar. Heyvanın vəhşisi qurd, pələng və şir olan kimi, insanın da vəhşisi bunlardır. Ancaq təfavütləri odur ki, quldurlar onlardan neçə qat rəhmsiz, insafsız və zalımdırlar. Qulaq as, bu nağıldan özün bilərsən.

– Qızım, bahar fəslində Dan ulduzunun parlaq bir vaxtı idi. Qayadibi adlı kəndin əhli hələ yatmışdı. Bu kənd Zaqafqaziyanın cənub tərəfində, uca dağlarla əhatələnmiş bir çay qırağında, meşə kənarında salınmışdı.

Birdən azançının "Allahü əkbər" səsi ucaldı. Cütcülər bundan əvvəl oyanmışdılar, o zəhmətkeşlər zəmilərinə cüt əkməyə getdilər.

Getdikcə dan yerinin qızartısı artırdı. Dərələrdən və çaylardan duman qalxırdı. Günəş dağın dalından ahəstə-ahəstə çıxırdı. Hələ özü görünmürdü. Amma şəfəqi, qarşıdakı uca dağın başına düşmüşdü. Sonra yavaş-yavaş qalxıb dağın dalından görünürdü və ruh verən qızıl zərrələrini aləmə dağıdıb cümlə yatmışları oyatdı. Çəmənlərdə, seyrəngahlarda, çiçəklər qönçələrində gizlənmiş pərvanələri və arıları oyatdı. Quşların cəh-cəhi havaya ucaldı.

Bunların xoş avazları cütcünü şura gətirdi. O da ahəstə-ahəstə cütünü sürüb öz nəğməsini oxudu. Dağ döşündə sürüsünü otaran çoban da bayatı nəğməsini tütəyində ucaltdı.

Günəş yavaş-yavaş qalxırdı. Onun qızıl şəfəqi getdikcə gümüş rənginə dönürdü. Qayadibi kəndinin əhalisi durub hərə öz işinə getdi...



* * *

– Abbas, bax, gör mən nə qədər yığmışam.

– Afərin, bacım Zeynəb, indi otur, bunları dəstə tutaq, bazarda satıb sənə çoxlu kişmiş alacağam.

– Fındıq da.

– Yaxşı, fındıq da alaram.

Bacı və qardaş ətəklərinə yığdıqları qulançarı yerə töküb, bir təpənin üstündə oturdular və onları dəstə tutmağa başladılar.

Bu iki uşaq atadan yetim idi və bir quru daxmadan başqa, ataları bunlara bir şey qoymamışdı. Ancaq anaları Fatma cəhrəçilik edib bir növ gündəlik çörəyini qazanırdı. Uşaqlar kiçik olduqlarından analarına bir o qədər köməkləri çatmırdı. Abbasın on yaşı, Zeynəbin yeddi yaşı vardı. Abbas ancaq bu ildən hər gün meşəyə odun qırmağa gedirdi və qırdığı odunu şələləyib, bazarda dükançılara bir az pula satırdı. İki gün bundan qabaq Abbas odun ilə bərabər bir dəstə qulançar da yığıb bazara gətirmişdi və onu bir şahı pula satıb anasına vermişdi.

Bu gün Abbas meşəyə getməyə hazırlaşanda Zeynəb də qulançar yığmaq həvəsilə anasından rüsxət istədi. Amma Fatma heç birini qoymaq istəmirdi, çünki quldur Səfərdən qorxurdu. Dörd il bundan əqdəm Səfərin qardaşı el davasında Qayadibi əhli tərəfindən öldürülmüşdü. Amma qatili kim olduğu məlum deyildi. Ona görə Səfər qardaşının qanını bütün kənddən iddia edirdi.

Bir dəfə Qayadibi camaatı Səfərdən belə dəhşətli bir sifariş aldı: "Ey qayadibililər! And içirəm məni yaradan xaliqə. And içirəm, anamın, bacımın namusuna, ta sizin böyük-kiçiyinizi, arvad-uşağınızı qırıb o gözəl vətəninizi odlayıb tar-mar etməyincə dünyada yaşamayacağam; vaxtınıza hazır olun".

Bu xəbər hamını bərk qorxuya salmışdı, çünki Səfər dəliqanlı bir adam idi.

Bu sifarişdən çox keçməmişdi ki, Səfəri adam öldürmək üstündə Sibirə göndərdilər. Dörd il idi ki, ondan bir xəbər-ətər yox idi. Ancaq bu yaxın zamanda Səfərin Sibirdən qaçıb başına özü kimi dəliqanlıları cəm edərək quldurluq etməyi hər yerə yayılmışdı. Qayadibi əhli də bərk qorxuda idi.

Fatma bir neçə gün idi ki, işsiz idi. Ona görə istər-istəməz uşaqlara izin verdi. Onlar da sevinə-sevinə meşə tərəfə üz qoydular.

Fatma ağıllı, xoşrəftar bir arvad idi. Öz uşaqlarına da yaxşı rəftarı, bir-birilə mehriban dolanmağı tərbiyə vermişdi. Uşaqlar da analarının gözəl sifətlərini və tərbiyəsini götürmüşdülər. Çox analar bu iki tifilin tərbiyəsinə həsrət çəkirdilər.

Abbas uzunboylu, nazikbədən, ağbənizli, alagözlü, xoşsifət bir uşaq idi. Zeynəb qaraqaş, qaragöz, dolubədənli, uzunsaçlı, qırmızıyanaqlı bir qız idi. Abbas bacısını artıq dərəcədə sevirdi. Heç elə bir gün olmazdı ki, öz qazancından bacısına bir şey almayaydı. Abbas üzünü bacısına çevirib dedi:

– Zeynəb, bu yığdığımız qulançar azdır, buna heç bir şahı da verməzlər. Dur gedək, mən bir yaxşı qulançarlıq yer bilirəm. Orada qulançar yığaq və həm də mən odun doğrayıb şələ qayırım.

– Axı, qardaş, mən yorulmuşam.

– Yavaş-yavaş gedərik, orada sən yorğunluğunu alarsan, mən özüm tək yığaram, – deyə Abbas dəhrəsini və sicimini götürüb ayağa qalxdı və bacısının da əlindən tutub dağın döşündəki meşəliyə üz qoydu.

Bir qədər meşə ilə gedəndən sonra bir gözəl və səfalı seyrəngaha çıxdılar. Bu seyrəngah yaşıl, təzə və tər otla, gözəl, ətirli, rəngli çiçəklərlə zinətlənmişdi. Rəngbərəng pərvanələr və arılar bu çiçəkdən o çiçəyə uçub bahar günəşi ilə oynaşırdılar. Hər rəngə çalan cürbəcür cücülər otlara mərcan kimi sarılmışdı. Bir tərəfdən çiçəklərin qoxusu, bir tərəfdən quşların cəh-cəhi və bir tərəfdən də baharın xoş mehi insanı biruh edirdi. Seyrəngahın bir tərəfi qayaya dirənmişdi. Bu qayadan bir bulaq axıb şırıltı ilə aşağı tökülürdü. Suyun zərrələri havada, günəşin şəfəqindən almaz parçaları kimi parıldayırdı. Bu bulaq "Şırlanbulaq" adı ilə məşhur idi. Zeynəb bu gülüstanı, bu çarqat kimi sərilmiş lalələri və çiçəkləri görcək yorulmağını unudub – ah nə gözəl çiçəklər var, – deyə qışqırdı və qardaşının əlini buraxıb gül yığmağa qaçdı. Abbas da ipini və dəhrəsini yerə qoyub qulançar yığmağa məşğul oldu. Zeynəb gah çiçək yığırdı və gah da qışqıra-qışqıra pərvanələri qovurdu. Bir azdan sonra yorulub bir laləzarlıqda oturdu və lalələrdən gəlin qayırmağa başladı. O vaxt Abbas qulançar yığa-yığa çəməndən xeyli uzaqlaşıb bir kolluq dərəyə düşmüşdü.



Gün qalxıb günortaya yaxınlaşdı. Qəflətən dağların arasına bir gurultu düşdü. Abbas elə bildi ki, göy guruldayır, amma yuxarı baxdıqda bir bulud da görmədi. Bu gurultudan bir dəqiqə keçməmiş elə bir gurultu başladı ki, deyəsən bu saat göylər uçub yerə töküləcəkdir. Abbas başını yuxarı qaldırıb gördü ki, güllə dağların başından kəndlərinə və zəmilərdə yer əkən cütcülərin və qoyun otaran çobanların üstünə dolu kimi yağır. "Quldurlar!" – deyə Abbas qışqırdı. Bir əvvəl istədi ki, dərədə gizlənsin. Sonra yadına düşdü ki, Zeynəb açıq yerdə qalmışdır. Dərhal bacısına tərəf qaçdı ki, onu da götürüb Ayı kahasında gizlənsin.

Abbas özünü o vaxt yetirdi ki, Zeynəb çəməndə başıaçıq, saçları döşünə tökülmüş, ovçu oxundan qaçan ceyrantək "Abbas, qardaş" – deyə o tərəf-bu tərəfə qaçıb qışqırırdı və dağlardan da birəhm quldurların gülləleri onun üstünə dolu kimi yağırdı. Abbas ucadan səsləndi:

– Bacı, Zeynəb, qorxma, buradayam!

Zeynəb qardaşının səsini eşidib ona tərəf qaçdı. Lakin otuz qədəm getməmişdi ki, birdən "Ox!" deyib yerə yıxıldı. Abbas özünü bacısına yetirib gördü ki, Zeynəbin sinəsindən al-qan qətrə-qətrə tökülüb, otları və çiçəkləri lalə rənginə döndərmişdir.

– Abbas, mənə su ver!

– Dur, bacım, qaçaq Şırlanbulağa.

Zeynəb istədi ki, qalxsın, amma bacarmadı. Abbas onu çox çətinliklə qucağına götürüb, bulağa tərəf aparmağa üz qoydu. Lakin on qədəm getməmişdi ki, quldurlar bunları təzədən gülləyə tutdular. Abbas özünü və bacısını bir çuxur yerə saldı ki, oranı güllə tutmurdu. Zeynəbin lalə kimi olan üzü solub ağ zanbağa dönmüşdü.

– Abbas, yandım, mənə su ver! – deyə Zeynəb nalə edirdi.

Bacısının susuzluğu Abbasın ürəyini nəhayət dərəcədə yandırdı.

– Bacı, bu saat sənə su gətirəcəyəm, – deyə Abbas bulağa tərəf yüyürdü. Güllə müdam onun üstünə yağırdı.

Abbas özünü bulağa yetirdi. Araqçınını su ilə doldurub qayıtdı. Bu dəfə Abbas qaça bilmirdi: qorxurdu ki, suyu tökülsün. Abbas o qədər Zeynəbə yaxındlaşdı ki, onun "su" naləsini eşitdi. Birdən Abbas ufultu ilə yerə yıxıldı. Namərd güllə binəva uşağın sol böyründən dəyib dalından çıxmışdı. Abbas qalxıb yerimək istədi. Lakin üç qədəm getməmişdi ki, dübarə yıxıldı. Abbas sürünə-sürünə özünü

bacısının üstünə saldı, gördü ki, gözləri yumuludur. Amma dodaqları ayrıla qalmışdır. Elə bil ki, deyir: "Qardaş, Abbas, mənə su ver".

Abbas Zeynəbi qucaqlayıb öpə-öpə deyirdi:

– Bacı, Zeynəb, gözlərini aç, gəlmişəm.

Bu hadisədən altı saat keçdi. Dəxi tüfəngin gurultusu kəsilmişdi. Dağların arasını tüstü almışdı. Bu tüstü Qayadibi kəndinin yanmış evlərinin və bağlarının tüstüsü idi. Beş-altı saat bundan qabaq cənnət bağına bənzəyən Qayadibi kəndi, indi yanıb kül olmuşdu. Əhalisi isə bir parası qətlə yetişib, yerdə qalanı da qaçıb dağlarda, meşələrdə gizlənmişdi. Quldur Səfər qardaşının intiqamını belə aldı.

Gün batdı, ay çıxdı. Nağıl olunan yerlərdən bir səs çıxmırdı. Heyvanlar və quşlar insanların vəhşi hərəkətindən elə xofa düşmüşdülər ki, hələ cürət edib yuvalarından çıxa bilmirdilər. Ay yavaş-yavaş qalxıb qəmgin-qəmgin insanların tutduğu vəhşi əməllərə baxırdı.

Gecədən xeyli keçmiş bir arvad dağları, daşları, meşələri axtarırdı. Bu arvad Fatma və axtardığı da iki balası idi.

– Zeynəb, Abbas, gözəl balalarım, yetim balalarım, haradasınız, səs verin!.. – deyə Fatma nalə edirdi.

Lakin çəmən üstündə, lalələr arasında qucaq-qucağa verib qanlarına qəltan olmuş Zeynəb və Abbas – bu iki məsum, anaları Fatmanın naləsini eşitmirdilər.

## NURƏDDİN

Axşam çağı idi. Hacı Səmədin külfəti çay süfrəsində hazırdı. Məmməd yazısını qurtarıb diqqətlə öz-özünə oxuyurdu və qələtlərini də düzəldirdi. Fatma isə əlləri ilə başını tutub dərin fikrə getmişdi. Hacı Səməd üzünü qızına tərəf tutub soruşdu.

– Qızım, nə fikrə getmisən?

Fatma cavab verdi:

– Ata, müəllimimizin əmrinə görə, gərək sabaha bir elə nağıl düzəldim ki, ondan belə məna çıxsın: "Yaxşılıq elə, əvəzini görərsən". İndi qulaq as, söyləyim, gör yaxşıdırmı?

– Çox gözəl, qızım, söylə görüm.



Fatma söylədi; atası da bəyənib tərif etdi. Məmməd dedi:

– Ata, mənə də müəllimimiz atalar sözündən olan "Yaxsılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir" sözünə münasib bir hekayə düzəldib yazmağı əmr etmişdir. Hərgah izin versən, oxuyaram.

– Oxu, oğlum, görüm nə tövr yazmısan.

Məmməd oxudu. Hacı Səməd bunu da bəyəndi. Fatma soruşdu:

– Ata, hansımızınkı yaxşıdır?

– Qızım, qoy birisini də mən söyləyim, sonra baxaq görək kiminki əladır, – deyə Hacı Səməd cavab verdi.

– Söylə, ata, söylə, – dedilər.

Hacı Səməd başladı:

– Övladlarım, Qafqazda Hacı Nəsir adlı bir tacir sakin idi. Bu tacirin Həlimə adlı cavan arvadı vardı. Həlimə camalda gözəl olduğu kimi, xasiyyətdə ondan da gözəldi. Bu arvadın dünyada övladsızlıqdan başqa bir qəm-qüssəsi yox idi. Axırda bunların bir oğlu oldu. Hacı Nəsir o gün oğlunun təvəllüdünü şadlıq edib, şəhərin fəqir-füqərasına pul və xörək payladı. Oğlanın adını Nurəddin qoydular. Ata və ana, gecə və gündüz Nurəddinin başına dolanırdılar.

Hacı Nəsir hər il yarmarkaya mal xiridinə gedərdi və qayıdanda arvadı və oğlu üçün hər cür sovqat gətirərdi. Bir dəfə Hacı Nəsir oğlu üçün kibrit qutusu irilikdə bir "Gülüstan" kitabı gətirmişdi. Həlimə bu qəribə şeyi haradan aldığını soruşduqda Hacı Nəsir cavab verdi:

– Bir gün yarmarkada, bazardan mənzilimə qayıdarkən, bir nəfəri körpü üstündə başını aşağı sallayıb ağlayan gördüm. Mən dayanıb bunun səbəbini soruşdum.

Kişi dedi:

– Mən əhli-əyal sahibi bir kasıb adamam. Əslim iranlıdır. Əldə xırdavat satmaqla üç yüz manat pul düzəldib buraya gəldim ki, mal alıb aparam. Bir saat bundan qabaq pulumun hamısını cibimdən çıxartmışlar.

Bu kişinin halına ürəyim yandı. Cibimdən üç yüz manat çıxarıb dedim:

– Al, kişi, bu sənin üç yüz manatın, get mal al, kəsbindən qalma. Qazanıb, sonra pulumu qaytararsan. İndi isə balaca Nurəddinimə dua et.

Kişi əlimdən öpüb adımı və mənzilimi soruşdu və sevinə-sevinə çıxıb getdi. Axşam mənzilimdə çay içdiyim zaman həmin kişi içəri daxil olub:

– Hacı, sovqat üçün bundan əziz bir şeyim yoxdur, – deyə "Gülüstan" kitabını mənə uzatdı. – Qoy mən Rəhim tərəfdən sevgili övladınız Nurəddinə Sədinin bu "Gülüstan" kitabı yadigar olsun. Sonra dübarə razılıq edib getdi.

Həlimə kitabı ipək parçaya tikib Nurəddinin boynundan asdı və dedi:

– Oğlum böyüyəndə bu kitabı oxuyar.

Nurəddin böyüyüb səkkiz yaşına çatdı. Hacı Nəsir oğlunu məktəbə qoydu. Nurəddin oxumaqda birinci şagird idi.

Yoldaşları ilə çox mehriban rəftar edərdi. Ona görə də hamı onu sevər, xatirini istəyərdi.

Çox çəkmədi ki, Hacı Nəsirin ticarət işləri tənəzzülə başlayıb, yavaş-yavaş var-yoxu əlindən çıxmağa başladı. Vəfalı Həlimə ərinə ürək verib, çox qəm-qüssə çəkməyə qoymazdı.

Bir dəfə Həlimə hamamdan çıxanda özünü soyuğa verib yorğan-döşəyə yıxıldı. Hacı Nəsir istəkli arvadının üstünə müalicə üçün bir neçə məşhur həkim gətirdisə də, sətəlcəm azarından sağalda bilmədi. Həlimə doqquzuncu gecə, "Nurəddin" deyə-deyə vəfat etdi.

Həlimə oğlunu hər gecə soyundurub əzizləyə-əzizləyə yatırardı. O da anasının boynunu qucaqlayıb: – Ana, gecən xeyrə qalsın, – deyə onu öpərdi və şirin yuxuya gedərdi. O idi ki, həmin gecə qulluqçu onu rahat edəndə anası yadına düşüb təzədən ağlamağa başladı. Gecə yarıdan keçdi. Lakin Nurəddin yata bilmədi. Ağlamağını kəsib xəyala getmişdi.

– Ah, birdən anam dirilə... Bəlkə, anam heç ölməmişdir, bilmirlər?.. O günü müəllimimiz söylədi ki, bir elə yuxu var ki, ölümə oxşayır, bir neçə gün, hətta neçə ay azarlı ölü kimi qalıb, axırda yenə dirilir. Çox ittifaqlar düşür ki, elə azarlını ölmüş zənn edib dəfn edirlər. Ah, bəlkə anam da elə yuxuya getmişdir?.. Onu ölmüş bilib basdıracaqlar, – yox, yox, qoymaram. Səhər tezdən atama deyəcəyəm ki, hələ anamı basdırmasınlar, bəlkə ölməmişdir.

Belə fikir və xəyalatda ikən Nurəddin sübh vaxtı yuxuya getdi və günortaya kimi yatdı. Nurəddin yuxudan oyanınca Həliməni dəfn etdilər.



Hacı Nəsirin başı yas yerinə gələn adamlara qarışdığından oğlundan bixəbər idi. Nurəddin gözlərini açdı. O biri otaqda molla həzin bir səslə Quran oxuyurdu. Mollanın xoş avazı yuxudan ayılmış Nurəddinə layla kimi təsir edib, onu bir müddət yuxu ilə ayıqlıq halətində saxladı. Sonra "bu Quran nə üçün və kimin üçün oxunur" fikri Nurəddinin başına düşdü. Bu isə anasının ölməyini yadına saldı. Birdən gecəki fikri Nurəddinin başına ildırım kimi şığıyıb onu yerindən dik qaldırdı. Bu halda qulluqçu Bahar içəri daxil oldu. Nurəddin soruşdu:

– Bahar, de görüm, anamı basdırdılarmı?

Bahar gözlərinin yaşını silərək:

– Bəli, basdırdılar. Kaş onun əvəzinə mən öləydim, məni basdıraydılar, – deyə cavab verdi.

Anasının dirilməsindən zavallı Nurəddinin ümidi daha kəsildi, lakin onu ölüm yuxusunda ikən dəfn etmək şəkki hələ ürəyində idi. O idi ki, axşam başsağlığına gələn adamlar dağılandan sonra atası ilə görüşəndə bu fikrini açıb ona dedi, atası da onu şəkdən çıxarıb sakit etdi.

Anasının vəfatından sonra Nurəddində böyük təğyir görünürdü. Həmişə deyib-danışan, gülərüzlü və mehriban bir uşaq olduğu halda, indi qəmgin və məyus olub məktəb yoldaşlarından kənar dururdu. Həmfikri, həmsirri ancaq kitabları olmuşdu. Əvvəl vaxtlar yoldaşları onun bu halətini anasının vəfat etməyinə görə təbii bilib, bu xəyalda idilər ki, sonralar yenə həmişəki halına düşəcəkdir. Lakin bir ay keçdi, iki ay keçdi, bir il keçdi. Nurəddin əvvəlki halına düşmədi. Ancaq biliyi ilə müəllimlərini heyrətə gətirirdi. Çox vaxt onlara elə sual verirdi ki, cavabında aciz qalırdılar.

Hacı Nəsirin əli aşağı düşdüyünə görə Nurəddin dəxi əvvəlki kimi məktəbə öz faytonlarında getmirdi. Bu təğyirdən Nurəddin bir o qədər qəm çəkmirdi, çünki təbiətində təkəbbürlük, təşəxxüslük əsla qoyulmamışdı. Hacı Nəsir nə qədər oğlunun elm və ədəb kəsbində göstərdiyi səy və qeyrətdən fərəhlənirdisə, bir o qədər də onun pərişanlığından qəmgin olardı və bilməzdi ki, nə yolla onu şad etsin. Axırda Hacı Nəsir evlənmək fikrinə düşdü. "Bir kasıb kişinin qızını alıb evimə gətirməliyəm ki, Nurəddinə analıq edib onu qəm-qüssədən azad etsin", deyə Hacı Nəsir fikir etdi. Bir ittifaq bu xahişi tezliklə əmələ gətirməyə səbəb oldu.

Hacı Nəsir bir qeyri şəhərdə sakin olan şəriki ilə hesab çəkməyə getmişdi. Bu şəhərin iyirmi verstliyində olan kənddə Hacı Nəsirin İmamverdi adlı tanışı vardı. Neçə müddətdi ki, ondan bir xəbər-ətər yox idi.

– Bu uzun yolu gəlmişkən qoy bu dostuma da bir baş çəkim, – deyə Hacı Nəsir yola rəvan oldu. Kəndə çatdıqda ondan-bundan xəbər tutub axırda İmamverdini tapdı.

İmamverdi altmış yaşında bir qoca kişi idi. Kənddə özünə görə yaxşı evi-mülkü vardı. Amma indi onların hamısı satılıb borclarına verilmişdi. İmamverdi Hacı Nəsiri bir köhnə daxmaya dəvət edərkən dedi:

– Hacı Nəsir, sən görən dövlət əlimdən çıxdı. İndi mənə qalan, ancaq bu uçuq daxmadır. Övladdan da bir qızdan başqa bir kəsim qalmamışdır.

– Hərgah mənim işlərim əvvəlki kimi düzgün olsaydı, sənə əl tutardım.

– Bilirəm, bilirəm, – deyə İmamverdi cavab verdi. Sonra üzünü qızına tutub dedi:

– Gülpəri, tez ol, nahar tədarük et, Hacı Nəsir yol gəlib, acdır.

Gülpəri xörək hazırlamağa, İmamverdi və Hacı Nəsir söhbət etməyə məşğul oldular.

Gülpəri qısaboylu, doluəndamlı, qarabuğdayı, bədxasiyyət, iyirmi üç yaşında bir qız idi. Gülpərinin bədxasiyyəti onun indiyə kimi qız qalmasına səbəb olmuşdu. Kənddə heç kəs ona yaxınlaşıb elçi düşməyirdi. İmamverdi ilə Hacı Nəsirin uzun söhbətinin nəticəsi bu oldu ki, qəza, Hacı Nəsiri dolaşdırıb İmamverdi ilə qohum etdi.

İki gündən sonra Hacı Nəsir Gülpərini evinə arvad gətirdi və Nurəddini öpərək dedi:

– Oğlum, bu sənin təzə anandır. İrəli gəl, gedib əlindən öp. Evimizə xoş gəlmisən de!

Bu xəbərin təsirindən Nurəddinin rəngi-ruhu qaçıb bədəni titrəməyə başladı. O saat sevgili anasının surəti gözlərinin önündə durdu. Uca bir səslə:

– Ah, ata, nə tez anamı yaddan çıxartdın! – deyə Nurəddin ağladı və birinci dəfə olaraq atasının sözündən çıxıb, onun əmrini yerinə yetirmədi.

Oğlunun sözləri Hacı Nəsirin ürəyinə ox kimi sancılıb gözlərini yaşartdı. Gülpəri bu əhvalatdan qəzəbnak olub:



– Təzə gəlini beləmi qəbul edərlər? Sən məni buraya yasamı gətirmisən? – deyə qışqırdı.

– Gülpəri, acığın tutmasın, doğru deyirsən, gərək sənin pişvazına çıxılaydı, şadlıq olunaydı. Ancaq onu da qohum-əqrəba edər, halbuki mənim heç kəsim yoxdur. Bu gündən bu ev-eşiyin xanımı sənsən, ancaq səndən təvəqqe edirəm ki, bu oğluma həqiqi analıq edib ürəkdən sevəsən. Nurəddin ədəbli, tərbiyəli uşaqdır. İndi anası yadına düşüb ağlayır. Sonra həmişə sənin itaətində olacaqdır. Gəl gedək otaqlarını, şeylərini sənə göstərim. – Bunu deyib Hacı Nəsir Gülpərini o biri otağa apardı.

Gülpəri Hacı Nəsirin evinə qədəm qoyduğu saatdan zavallı Nurəddinin müsibəti başlandı. Gülpəri öz pis xasiyyətini tezliklə büruzə verdi. Səhərdən axşama kimi əllərini bir işə vurmayıb, nökər və qulluqçuların üstünə qışqırıb-söyməyi özünə peşə etmişdi. Ələlxüsus, yazıq Nurəddinin günü qara olmuşdu. Onu tez-tez söyərdi və heç zad üstündə döyərdi. Lakin qeyrətli uşaq əsla səsini çıxarmazdı. Hətta atasına şikayət etməyib özünü onun yanında şad saxlardı ki, atası qəm etməsin.

Get-gedə Gülpərinin zülmü artırdı. On ildən ziyadə Hacı Nəsirə xidmət edən bir nökər bu tövr rəftara daha davam edə bilməyib qulluqdan çıxdı. Nurəddin olmasaydı, Bahar da çoxdan çıxıb gedərdi. Lakin vəfalı qulluqçu mərhum xanımının yaxşılığını unutmayıb, Gülpərinin hər zülmünə davam edirdi; təki əli balaca Nurəddindən üzülməsin.

Hacı Nəsir bu işləri görüb ikinci dəfə evlənməyə çox peşman idi. Gülpərinin üzünü az görmək üçün səhər sübhdən bazara gedib, bir də axşam evə qayıdardı. Bir tərəfdən ticarət işlərinin getdikcə dolaşıb zərər gətirməsi, digər tərəfdən də evinin binizamlığı Hacı Nəsiri azara salıb mum kimi əridirdi.

Nurəddin də Gülpərinin bu hərəkətindən vaxtının çoxunu məktəbdə keçirərdi.

– Tələsmə, bu gün-sabah o köpəkləmiş atan ölüb gedər, ixtiyarın düşər mənim əlimə, onda səni bircə saat da məktəbində qoymaram, – deyə Gülpəri qışqırardı.

Bir ilə yaxın idi ki, Gülpərinin zülmü davam edirdi. Bir gün Nurəddin evə gec gəldikdə Gülpəri hirslənib onu döyməyə başladı. Bu halda qəflətən Hacı Nəsir qapıdan içəri girdi və Nurəddini Gülpərinin əlindən alıb qeyzlənmiş dedi:

– Ay nəməkbəharam, mən səni kimi bir kasıb qızını dilənçilikdən qurtarıb özümə arvad etdim ki, sən də o yaxşılığın əvəzində bu uşağa analıq edib qayğısını çəkəsən, yoxsa onun üçün cəllad olasan? And içirəm Həlimənin o pak olan ruhuna, bundan sonra səni bu evdə bir gün saxlamaram. Get şeylərini hazırla. Bu saat tələqini verib səni boşayacağam. – Bunu deyib, Hacı Nəsir cəld bazara tərəf getdi.

Bu ittifaqdan yarım saat keçməmişdi ki, Hacı Nəsirin dükanda ürəyi partlayıb vəfat etməsi xəbəri gəldi. Bir azdan sonra meyitini evə gətirdilər. Batində bu bəlaya şad olan Gülpərinin zahirdə başına döyüb, üzünü cırıb, özünü meyitin üstünə salması Nurəddinə atasının ölümündən yaman təsir etdi. Ona görə əvvəl istədi ki, Gülpərinin bu riyai-əməlini açıb adamlara söyləsin. Amma atasının həmişə ona verdiyi: – "Külfətin sirrini açıb özgələrə söyləmək qəbihdir" – nəsihəti yadına düşüb bu fikirdən daşındı və bir bucağa çəkilib mat və məbhut dayandı. Nurəddin özünü saxlayıb qəsdən ağlamırdı ki, Gülpəriyə oxşamasın. Lakin batindən bixəbər adamlar onun belə lal durmasını vəfasızlığa və Gülpərinin elə yalandan üzünü cırmasını vəfalılığa həml etdilər. Atasının dəfni və təziyəsi Nurəddinə yuxu kimi gəlirdi.

* * *

Hacı Nəsirin üçü çıxan kimi Gülpəri Nurəddinin üzündən öpə-öpə əlinə pul verib dedi:

– Oğlum, daha dərsindən qalma, dur məktəbə get, dərslərini qurtarandan sonra da yoldaşlarını götürüb gəzməyə get ki, kefin açılsın. Bu gün atanın borcluları gələcəklər. Mənim başım onlara qarışacaqdır. Daha dayanma, oğlum, get.

Bu əmrə Nurəddinin özü də şad oldu və dərhal heybəsini götürüb cəld getdi. Yol uzunu Nurəddin Gülpəri barədə fikir edirdi.

– Atam öləndən bəri Gülpəri mənimlə çox mehriban dolanır, hərgah əvvəldən belə olsaydı, heç atamın da bağrı çatlayıb ölməzdi. Görəsən Gülpərinin mənimlə belə rəftar etməsinə səbəb nə oldu? Bu hal onda mənə rəhmi gəldiyindənmi, yoxsa, atası İmamverdinin qorxusundanmı əmələ gəldi? İmamverdi yaxşı kişidir. O məni çox istəyir. Ah, görəsən, Gülpərinin bu halı çoxmu çəkəcəkdir? Qorxuram İmamverdi baba gedəndən sonra yenə məni döyməyə başlaya.



Onda kimim var ki, mənə kömək etsin. Hərgah Bahar kömək edərsə, o saat onu da qovar; çünki indi hamı ixtiyar onun əlindədir.

Bu fikir və xəyalatda ikən Nurəddin gəlib məktəbə çatdı. Gülpərinin belə dəyişməsinə səbəb, Nurəddinin zənn etdiklərinin heç biri deyildi. Gülpəri yaxşı bilirdi ki, özünün övladsız olmasına görə Hacı Nəsirin cəmi mal və dövləti tək Nurəddinə qalacaqdır və o da uşaq olduğundan hər ixtiyar qəyyum əlinə keçəcəkdir. İndi hiyləgər qadın bu qəyyumluğu axtarırdı və məramına da çatdı.

Gülpəri ərindən çox pul gözləyirdi, lakin Hacı Nəsirin var-yoxunu hesaba çəkib borclarını verəndən sonra məlum oldu ki, bir qədər nəqd pul, bir ev atasından və on iki min manatlıq cavahirat və ev şeyi də anasından Nurəddinə irs qalıb. Ona da Gülpərini qəyyum təyin etdilər.

Nurəddin evlərinə qayıtdıqda Bahar onu əhvalatdan xəbərdar etdi. Nurəddin Gülpərinin dəyişməsini indi başa düşdü. Bahar dedi:

– Qorxma, nə qədər ki, sən sağsan Gülpəri bir qəpiyə də əl vura bilməz və səni incidə bilməz, çünki onda onu qəyyumluqdan çıxardarlar.

Bu sözlərdən Nurəddin çox şad oldu. Baharın dediyi də düz oldu. Gülpəri Nurəddinə daha əziyyət verməyib onunla mehriban dolanmağa başladı.

Bahar, doğrudur, Nurəddini Gülpəri tərəfindən arxayın etdi, amma özü onun bu dəyişilməsinə əsla inanmırdı. Gülpərinin ürəyində bir gizli fikir bəsləməsinə şəkki yox idi. Ona görə gözləyirdi ki, Nurəddinə o tərəfdən bir zərər yetişməsin. Gülpəri də bunu duyub, Baharı bir yolla rədd etmək fikrində idi. Ancaq aşkar qovmaqdan çəkinirdi, çünki Bahar körpə vaxtından Hacı Nəsirin evində böyümüşdü. Hamı onun xatirini istəyirdi və ona qulluqçu nəzərilə baxmırdı.

İmamverdi ömrünün çoxunu kənddə keçirməyinə görə şəhər dolanacağına adət etməmişdi. Bu səbəbdən əziyyət çəkirdi. Axırda qızına dedi:

– Gülpəri, indi işlərin qayda ilə gedir, daha mənə ehtiyac yoxdur, şəhərin havasını götürmürəm, ona görə mən gedirəm. Siz də, inşallah, Nurəddin azad olub yaya buraxılan kimi yığışıb gəlin. Taki, üç ay yayı o gözəl ab-havada keçirib cana gələsiniz.

Gülpəri atasının əmrinə razı oldu. İmamverdi Nurəddindən ayrılanda onu öpərək dedi:

– Oğlum, dərslərinə səy et ki, imtahanını yaxşı verəsən. Allah qoysa, gəlib görərsən ki, bizim kənd nə gözəl yerdir. Sənə tilov qayıracağam, hər gün çayda balıq tutarsan; orada çimərsən, meşəyə gedib çiyələk, moruq, göbələk yığarsan.

İmamverdi xudahafizləşib yola düşdü.

Nurəddin İmamverdi babanın ayrılığına qəmgin oldusa da, onun verdiyi vədlərə çox şad idi, çünki anadan olandan öz şəhərlərindən başqa bir yeri görməmişdi. Çayı, meşəni, ancaq kitabda oxumuşdu. Bu səbəbə görə yay tətilini səbirsiz gözləyirdi. Gülpəri də bu işə şad idi. Ancaq onun şadlığına başqa səbəblər vardı. Bir il bundan əvvəl kəndlərində yoldaşlarının təzə çit libasına həsəd aparan Gülpəri, indi ipək paltarda, üst-başı qızıl və cavahirat ilə bəzənmiş kəndlərinə qayıdacaqdı. Qabaqlarda ona yaxın düşməyən elçilər indi qapısından əl çəkməyəcəklər. Amma bunların hamısından çox onu şad edən şey ürəyində bəslədiyi gizlin fikir idi. Yəni orada Nurəddinin dövlətini özünə mal etməyə bir çarə arayıb tapmaqdı.

Axırda Nurəddinin səbirsizliklə gözlədiyi gün gəlib çatdı. Üç gün idi ki, Gülpəri səfərə yığışırdı. Bu yığışmaq Baharı bərk təşvişə salmışdı, çünki Gülpəri evin cəmi şeylərini sandıqlara doldurub, özü ilə aparmaq fikrində idi.

– Xanım, üç aydan ötrü bir belə şeyi yük eləyib aparmağın nə mənası var? – deyə Bahar soruşduqda:

– Yox, Bahar, əziyyət olsa da ümid olub burada qoymaq olmaz, – deyə Gülpəri cavab verdi.

Bahar ümid edirdi ki, Gülpəri onu da kəndə aparacaqdır. Lakin hər bir şey hazır olandan sonra Gülpəri ona dedi:

– Bahar, sən şəhərdə qalasısan. Evi səndən başqa heç kəsə ümid olub qoya bilmərəm.

Bahar nə qədər yalvardısa da Gülpəri razı olmadı. Nurəddin də təvəqqe etdi, mümkün olmadı.

– Yox, yox! Evi Bahardan başqa heç kimə tapşıra bilmərəm, – deyə Gülpəri təvəqqeni rədd etdi. Həccə getmirik ki, üç aydan sonra yenə buradayıq.

– Bahar, xudahafiz, evdən yaxşı muğayat ol!

Bahar Nurəddini qucaqlayıb öpdü.



– Yaxşı yol. Allah səni bəladan hifz etsin. Ah, görəsən, bir də səninlə görüşəcəyəmmi?..

Baharı ağlamaq boğub, daha danışmağa qoymadı.

Köç yola düşdü. Nurəddin Bahardan ayrılmasına görə bir qədər bikef oldu. Amma sonra görmədiyi yerlərə, vaqondan baxdıqca, qəmi yadından çıxdı.

Vaqon çox sürətlə gedirdi. Nurəddin birdən altıya kimi sanayınca bir tel ağacı keçirdi. Mənzərələr tez-tez dəyişirdi; gah göy ot və çəmənlərlə bəzənmiş düzəngah, gah yaşıl təpələr və dağlar, gah qaranlıq meşələr və dərələr və gah da aydın çaylar və yollar görünürdü.

Nurəddin heyrətdə idi, çünki bunların heç birini görməmişdi. İndiyə kimi tozlu, tüstülü şəhərdən bir qeyri yerə çıxmamışdı.

Gülpəri bir neçə gün qabaq, kağız vasitəsi ilə yazıb hansı gün çıxmalarını atasına məlum etmişdi və əlavə fayton və araba tutub, onları kəndlərinin yaxınlığındakı şəhərdə gözləməyini rica etmişdi. Lakin səfərin ikinci günü gəlib oraya çatdıqda, vağzalda nə atasını və nə də bir tanış adam görmədi. Bu isə Gülpərini bərk təşvişə saldı. Cəld nökəri Cəfəri göndərib iki nəfər hambal çağırtdı, yanındakı və baqajdakı şeyləri daşıdıb ikinci klas salonuna yığdırdı.

Gülpəri Cəfəri götürmüşdü ki, onları buraya kimi ötürüb yenə geri qayıtsın. Vağzalda iki saata kimi gözlədilər, amma heç kəs gəlib çıxmadı. Gülpərinin təşvişi getdikcə artırdı, çünki yanındakı qiymətli şeylərin tələf olacağından qorxurdu. Hərçənd, bu şəhərdə tanışları vardı, amma onlara da ürəyi qızmırdı. Axırda Gülpərinin daha atasının gəlməsindən ümidi kəsilib, nökəri ilə yola düşməyə naçar qaldı.

Gülpəri Cəfəri göndərib iki fayton tutdurdu, faytonun birinə nökəri və şeyləri qoyub, o birinə də özü Nurəddinlə oturdu və qorxa-qorxa yola düşdü. Şəhərdən kəndə uzaq deyildi. Hamısı iyirmi verst idi. Lakin Gülpərini qorxuya salan dağlar arasından və meşələr içindən keçən yollardı ki, onlarda çox vaxtı soyğunçuluq ittifaq düşərdi. Gülpəri erkən gedib mənzilə çatmaq üçün faytonları qovdururdu və faytonçulara da iti sürmək əvəzində çay pulunu artıq verməyi vədə etmişdi. Gülpərinin qorxduğu başına gəldi. Belə ki, ağıryüklü fayton əyri-üyrü və eniş-yoxuş yollara çatdıqda, bir döngədə aşıb, oxu və çarxı sındı. Bu hadisə zühur edən vaxt günəş enib dağın dalında gizlənmişdi. Gülpəri artıq iztiraba düşüb söylənirdi.

– Allah, bu nə iş idi mənim başıma gəldi. İndi bu yol içində, bu qorxulu dağlar arasında necə olacağıq. Görəsən, atamın başına nə iş gəldi ki, bu vaxta kimi gəlib çıxmadı. Kaş şəhərdə qalıb ondan xəbər gözləyəydim.

Faytonçu:

– Xanım, onlardan keçmişdir. Gəl biz gedib kənddən kömək çağıraq.

Gülpəri buna razı olmadı.

– Yox, heç vaxtı şeylərimi burada qoyub getmərəm, ayrı çarə varsa arayıb tapın.

Faytonçular dedilər:

– Xanım, ayrı çarə yoxdur. Hərgah faytonun oxu sınmamış olsaydı, çarxı bir tövr sarıyardıq və yavaş-yavaş sürüb, özümüzü kəndə salardıq. İndi isə ümidimiz bir Allaha qalmışdır.

Bu sözlərdən sonra Gülpərinin iztirabı daha da artdı. Axşam oldu. Soyuq düşdü. Dərələrdən duman qalxmağa başladı. Heç kəs gəlib çıxmadı. Gecə orada qalmağın qorxusu çoxdu. Gülpəri üzünü faytonçulara tərəf tutub:

– Bu gecə bu yol üstündəmi qalacağıq? – deyə soruşduqda, faytonçular cavabında aciz qaldılar. Nurəddin bu ittifaq düşəndən bəri fikrə gedib çarə arayırdı. Nurəddin öz siniflərində ən fərasətli uşaq sayılırdı. Nurəddin üzünü onlara tutub dedi:

– Mən bir çarə tapdım, qulaq asınız söyləyim. Sınan faytonun dörd atı var. Şeyləri bu atlara yükləyib biz gedərik, fayton sahibi burada qalar. Sonra kənddən buna kömək göndərərik.

Bu təklif cümlənin xoşuna gəldi. Ələlxüsus Gülpəri şad idi ki, beləcə asan yolla Nurəddin onları çətinlikdən qurtardı. Vaxtı itirməyib atları yüklədilər və yola rəvan oldular. Səfərin qorxulu yeri qabaqda idi. Meşənin içilə səkkiz verst yol gedirdi. Köç meşəyə çatdıqda qaranlıq lap çökmüşdü. Cəfər yüklü atlarla qabaqda və fayton dalda gedirdi. Gülpəri bərk qorxurdu. Nurəddin qorxaq uşaq deyildisə də, meşənin vahiməsi onu da basmışdı. Elə sakitlik idi ki, nə bir zihəyatın səsi çıxırdı, nə də bir yarpaq tərpənirdi. Odur ki, bir yandan bu sakitliyin özü də insanı vahiməyə salırdı. Qəflətən bir qorxulu səs meşəni götürdü. Bu səsdən Nurəddin diksindi, Gülpəri qışqırdı. Faytonçu dedi:

– Qorxma, xanım, bayquşdur, ulayır.



– Vay, Allah səni yox etsin, gör nə murdar səsi var, – deyə Gülpəri qarğış elədi.

Meşənin qurtaracağına iki verst qalmış bir atlı-yaraqlı adam Cəfərin qabağını kəsdi.

– Dayan, tərpənmə, atdan düş, yoxsa odladım!

– Əmiraslan ağa, atma, mənəm.

– Cəfər, sənsən?

– Bəli, ağa, mənəm.

Atlı tüfəngini çiyninə salıb, Cəfərə sarı irəlilədi.

– Cəfər, bu köç kimindir?

– Ağa, Gülpəri xanımındır. Odur özü də daldan faytonla gəlir. Yolda faytonumuzun biri sındı, ona görə şeyləri atlara yükləmişik. Şəhərdə nə qədər İmamverdi babanı gözlədiksə də gəlib çıxmadı, axırda naçar qalıb özümüz yola düşdük.

– Cəfər, sən yavaş-yavaş sür get, mən də faytonla bərabər gəlirəm, – deyə Əmiraslan atını qamçıladı. Gülpəri atlını görcək qorxuya düşdü:

– Yaman yerdə qaranlıqladıq.

– Qorxma, xanım, yəqin sizin adamlardandır, qabağınıza gəlibdir, – deyə faytonçu Gülpəriyə ürək verdi.

Əmiraslan faytona yaxınlaşıb ucadan səsləndi:

– İndi necəsən, əmiqızı, sizi tutub var-yoxunuzu əlinizdən alımmı?

Gülpəri bu səsi eşitcək sevinib qışqırdı:

– Əmiraslan, əmioğlu, sənsən?! Nə yaxşı gəldin, bəs atam hanı? Gərək fayton tutub qabağımıza gələ idi. Bilmirəm kağızı gəlib çatmayıb, ya başına bir iş gəlib?

Əmiraslan dedi:

– Mənim, sizin gəlməyinizdən xəbərim olmamışdır. Özüm də evdən səhər çıxmışam. Yəqin əmimin indiyə kimi gəlib çıxmamağına səbəb körpünü sel aparması olmuşdur. Cəfərdən başınıza gələn hadisəni eşitdim. Əmiqızı, köçdən belə görünür ki, daha bir də geri qayıtmayacaqsan. Yaxşı da edərsən, adam gərək verdiyi sözün üstündə dursun.

Gülpəri söhbəti dəyişdirmək üçün dedi:

– Əmioğlu, deyəsən Nurəddini görmürsən?

Əmiraslan Nurəddini indicə gördü və Gülpərinin də işarəsini anladı:

– Nurəddin, sən çox xoş gəlmisən. De görüm, məndən qorxdunmu?

– Səndən niyə qorxuram, adam da adamdan qorxarmı? – deyə Nurəddin cavab verdi.

– Oxuyan uşaq qorxaq olar.

– Xeyr, səhv edirsiniz, oxumayan uşaq qorxaq olar. Oxuyan uşağın elmi olar, hər şeyin sirrini bilər, ona görə də qorxmaz.

– Yaxşı, indi ki, sən elə qoçaq oğlansan, gəl mənim atımı min, bir az da mən faytonda dincimi alım, – deyə Əmiraslan Gülpəriyə göz vurdu. Gülpəri Əmiraslanın işarəsini başa düşdüsə də yenə razı olmayıb dedi:

– Yox, yox, Nurəddini at yıxar.

– At çox dincdir. Adam yıxan deyil, yavaş-yavaş faytonun yanınca sürər. Ancaq atdan qorxan deyilsə...

– Mən qorxaq deyiləm, – dedim!

Axırda Gülpəri razı oldu. Əmiraslan atdan düşüb Nurəddini mindirdi. Nurəddin özünü atın üstündə görcək onu tərkimlədi. At sıçrayıb qaçdı. Gülpəri qorxdu. Amma Nurəddin atda bərk oturmuşdu. Əmiraslan dedi:

– Maşallah, qoçaq uşaqdır.

Sonra faytona minib Gülpərilə gizlin söhbətə başladı.

Əmiraslan, İmamverdinin kiçik qardaşı Tanrıqulunun oğlu idi. Bundan başqa Tanrıqulunun övladı olmamışdı. Ona görə valideyni Əmiraslanı əzizləyib, ərköyün böyütmüşdü. Balaca Əmiraslan üçün "yox" kəlməsi yox idi. Hər xahişi ata-anası tərəfindən fövri əmələ gəlirdi. Əmiraslan özgə uşaqda bir şey görsəydi, o saat gərək ona da alına idi, yoxsa sakit olmazdı. Belə tərbiyənin nəticəsi tezliklə ortaya çıxdı. Əmiraslan doqquz yaşına çatdıqda atası ona heybə və çərəkə aldı. Təzəcə paltar geydirib hədiyyə ilə onu mollanın yanına oxumağa apardı. Üç gündən sonra Əmiraslan çərəkəsini cırıb məktəbdən qaçdı. Ata-anası nə qədər yalvardısa da, bir şey çıxmadı. Atası çox təkid edəndə Əmiraslan dedi:

– Dədə, mən məktəbə getməyəcəyəm. Orada molla adamın ayağını falaqqaya salıb döyür. İstəyirsən məni şkolaya qoy gedim.



Tanrıqulu rusca oxumağın ziddinə gedənlərdən idi. Bu fikri onun başına salan və onu şkolaya düşmən edən kənd mollası axund Molla İman idi. O həmişə deyərdi:

– Tanrıqulu, məbadə oğlunu şkolaya qoyasan. Orada müsəlman uşaqları təmiz urus edirlər. Başlarına tük qoydurub şapka qoyurlar. Oxuduqları da Sədi, Hafiz əvəzinə başdan-ayağa tülkü, çaqqaldır.

Tanrıqulu axundun birinci dərəcə müridlərindən hesab olunurdu. Odur ki, oğlunun şkolaya girmək xahişi onu çaşdırdı. Nə axundun əmrindən çıxa bilirdi, nə də oğlunun oxuyub ədəbli, elmli olmasından əl çəkə bilirdi. Axırda məsləhət üçün Əli bəyin yanına getdi. Əli bəy elmli və qoca bir kişi idi. Tanrıqulu həmişə onun hörmətini saxlardı və hər bir məsləhəti olsaydı gedib onunla həll edərdi. Tanrıqulu Əli bəygilə gələndə orada Əli bəydən başqa bir şəxs də gördü. Buna görə Tanrıqulu əvvəlcə bu adamın yanında fikrini açıb Əli bəyə demək istəmədi. Amma elə ki, Əli bəy: – "Bu mənim yaxın dostum Mirzə Həsəndir, tanış olun" – dedi, fikrini dəyişdirib əhvalatı ona nağıl etdi. Əli bəy uşağı şkolaya qoymağı məsləhət görüb dedi:

– A kişi, heç kəsin sözünə qulaq asma. İstəyirsənsə oğlun adam olsun, şkolaya qoy. O ki qaldı axund Molla İman, onun fikri başdan-ayağa yanlış və xatadır. Burada heç bir uşağı rus etməmişlər. Əgər etmişlərsə, budur, onların müəllimi söyləsin.

Mirzə Həsən gülümsünüb dedi:

– Əgər islamlıq başa tük qoyub, şapka geymək ilə pis olursa, bəli; onda Molla İmanın dediyi düzdür. Ancaq onun bu sözü hansı kitabdan götürdüyünə mən də məəttəl qalmışam. Bu fikir Molla İmanın öz başından çıxma bir şeydir. – Qardaşım, oğlunu tezliklə göndər gəlsin. Peşman olmazsan.

Tanrıqulu bu iki adamın məsləhətinə görə oğlunu şkolaya qoydu.

Əmiraslan şkolada çox davam etmədi. Nadinc, söyüşkən, bu doqquz yaşında uşaq, cəmi müəllimləri təngə gətirmişdi. Heç bir gün olmazdı ki, Əmiraslan bir uşaqla savaşıb, döyüşməsin. Bunun bəd əxlaqını düzəltməkdə müəllimlər aciz qalmışdılar. Buna da bais ata-anası idi, çünki üç saat məktəbdə keçirdiyi vaxtdan başqa, günün yerdə qalanını Əmiraslan hər bir əmr və nəhydən azad idi. Hər nə könlü istəyirdi onu edərdi. Axırda yoldaşlarının birini bıçaqlayıb yaralamağının üstündə Əmiraslanı məktəbdən xaric etdilər. Tanrıqulu Əmiraslanı bir-iki il ora-bura atdısa da bir şey çıxmadı.

Əmiraslan, əmisi qızı Gülpəridən iki yaş böyük idi. Qardaşlar bu iki tifili bir-birinə körpə vaxtlarından ad etmişdilər. Amma İmamverdi Əmiraslanın oxumayıb belə bitərbiyə qalmasından artıq narazı idi və bu barədə də qardaşını müqəssir edirdi.

– Belə tərbiyə olmaz. Uşaq gərək izin olmayan şeyi tutmasın. Böyük-kiçik anlasın. Bunun axırı peşmançılıqdır, – deyə İmamverdi, qardaşını məzəmmət edərdi.

Əmiraslan on altı yaşına çatanda ata-anası dalbadal vəfat etdi və nənəsi Püstə qarıdan başqa evlərində bir kəs qalmadı. Atası öləndə Əmiraslana yaxşı mal-dövlət və pul qoymuşdu. Bir-iki ilin ərzində yaramaz oğul bunların hamısını kefə, qumara qoyub tələf etdi. İmamverdi nə qədər çalışdısa da qardaşı oğlunu pis yoldan qaytara bilmədi və axırda onunla bilmərrə əlaqəsini kəsib evinə qoymadı. Nə qədər əlində dövlət var idi, Əmiraslan Gülpəriyə yaxın düşmürdü. Amma elə ki, var-yoxunun hamısı eyşi-işrətə qoyulub puç oldu, Gülpərini almaq fikrinə düşdü. Lakin İmamverdi:

– Nə qədər mən sağam, bu iş baş tutmaz, – deyə onun təklifini rədd etdi.

Gülpərinin könlü əmisi oğlunda idi. Ona görə də qoşulub qaçmaq istəyirdi. Lakin Əmiraslan bu əmrə razı deyildi, çünki onun fikri Gülpərini almaq deyil, əmisinin dövlətini ələ almaq idi. Bu isə İmamverdinin razılığı ilə mümkün olardı. Axırda, Əmiraslan Gülpəridən əl çəkib bir dövlətli dul arvad aldı. Əmiraslan arvadın gətirdiyi dövləti tezliklə qumara və kefə qoyub özünü də boşadı. Pis yola öyrənmiş Əmiraslan üçün pul lazım idi. Ona görə yavaş-yavaş oğurluğa və yol kəsməyə şüru etdi. Bu yolda neçə dəfə həbsə düşüb çıxdı. O ətrafda bir yolkəsmə, bir oğurluq olmazdı ki, Əmiraslanın orada əli olmamış olaydı. İndi faytonda əyləşib Gülpərilə söhbət edən Əmiraslan belə hərifdi.

Əmiqızı və əmioğlu sözü bu yerdə qoydular ki, Əmiraslan Gülpəri üçün əmisinə elçi düşsün. Hərgah İmamverdi bu dəfə də razı olmasa, Gülpəri atasından izinsiz Əmiraslana getsin.

* * *

Nurəddin Cəfərə çatdıqda atın başını çəkdi. Lakin qızışmış köhlən at qüvvətsiz uşağa qulaq asmadı və qaraltıdan ürküb daha da bərk qaçmağa başladı. Nurəddin gördü ki, atı öz gücü ilə saxlaya bilməyəcəkdir. Yüyəni buraxıb iki əli ilə yəhərin qaşından möhkəm



yapışdı ki, atdan yıxılmasın. Cəfər Nurəddini bu halda gördükdə istədi atın qabağını kəssin, ancaq bacarmadı. Cəfər qabaqda Əmiraslana nökər idi. Ona görə onun atının xasiyyətini yaxşı bilirdi. Bu atın adı Ceyranbasan idi və özü də bir dinc at idi. Amma qızışıb qaçanda heç bir at dalından çata bilməzdi. Döngənin birində qəflətən bir fayton yolu kəsdi. Ceyranbasan yoldan meşəyə sapıb Nurəddini üstündən yerə atdı. Bu yerə dəyməyin zərbindən zavallı uşağın ürəyi getdi. Bunu görcək faytonçu faytonu saxladı. Onun içindən İmamverdi baba çıxıb Nurəddinə tərəf yönəldi. Yaxınlaşanda gördü ki, bir uşaq hərəkətsiz yerə sərilibdir. İmamverdi əyilib uşağa baxanda təəccüblə qışqırdı:

– Sübhanallah, bu ki Nurəddindir. Bu, at ilə nə üçün gəlsin?

İmamverdi cəld uşağın başını dizi üstə alıb sinəsini açdı.

– Oğlum, Nurəddin, mənəm, İmamverdi baba.

Nurəddin zəif səslə ufuldadı və sonra özünə gəlib İmamverdi babanı tanıdı.

İmamverdi Nurəddinin bədəninin o yan-bu yanına baxdı ki, görsün yaradan-ağrıdan nəyi var. Əlini sağ dizinə vuranda Nurəddin qışqırdı.

– Baba, ora dəymə, ağrıyır, qıçım sınıbdır.

– Yox, oğlum, qorxma, sınmamışdır, yəqin çıxıbdır, – bunu deyərək İmamverdi Nurəddini üsulluca qucağına aldı və faytona qoydu. Bu halda köç gəlib bunlara çatdı. İmamverdi baba elə ki, Əmiraslan və Gülpəridən əhvalatı bildi və onları bir faytonda oturmuş gördü, qəzəblənmiş qışqırdı:

– Sizin ağlınız harada idi? Bir tikə uşağı köhlən ata mindirib, gecə vaxtı meşəyə buraxmaq olarmı?

Əmiraslan təqsiri boynuna alıb əmisindən üzr istədi. Sonra faytondan düşüb atının dalınca getdi. Gülpəri çalışırdı ki, atasının acığını yatırtsın.

– Ata, acığın tutmasın, bunlar hamısı qəza işidir. Fayton yolda sındı. Sən gəlib çıxmadın...

– Mən nə edim, günortadan bəri çayın o tərəfində körpünün qayrılmasını gözləyirdim. Səhər sel gəlib aparmışdı, – deyə İmamverdi cavab verdi.

– Ata, o da qəzadan deyilmi? Amma şükür Allaha ki, axırı xeyirdir. Nurəddinin qıçını kənddə sınıqçı Qara Hüseynə saldırarsan, çıxar gedər.

Köç meşədən çıxdı. Bu vaxt Ay da çıxmışdı. Nurəddini, İmamverdi baba faytonun içində balışları düzüb, rahat etmişdi. Axşamdan iki saat keçmiş köç gəlib kəndə çatdı.

Köç gəlib Güllücə kəndinə çatanda bu kəndin əhalisi yatmışdı. Kənd əhli gün batanda yatıb, gün çıxanda da yuxudan durar. İmamverdi baba Güllücəni Nurəddinə tərif etməkdə səhv etmirmiş. Gözəl hava, saf su, dağ, bağ, meşə insana başqa bir ləzzət verir. Bu kənd dağın döşündə salınıb, gün çıxan tərəfində yaxşı meyvə bağları və meşə, cənub tərəfində gözəl zəmilər və şimal tərəfində gözəl çəmənlər var idi. Dağdan soyuq bulaqlar üzüaşağı kəndə sarı axırdı. Güllücənin dadlı meyvələri ətrafda məşhurdu. Bu kəndin hər evinin qabağında bağdan əlavə, gözəl bağça da vardı. Bu bağçalarda ev sahibləri ətirli güllər və çiçəklər əkmişdilər. Kənardan baxanda dağ döşündə salınmış bu kənd, bir gülüstan şəklində görünürdü. Buna görə də Güllücə adına sahib olmuşdu.

İmamverdi babanın evi kəndin üst tərəfində bir hündür yerdə idi. Buradan çox gözəl mənzərələr açılırdı. İmamverdi babanın həyətində iki tikilisi vardı. Biri köhnə daxma idi, o biri də iki otaq və mətbəxli, qabağı eyvanlı təzəcə ev idi. Evin qabağı gözəl bir bağça idi. Bu bağça yaxşı meyvə ağacları, ətirli gül və çiçəklərlə dolu idi. Bağçanın ortasında, bir soyuq bulaq torpaqdan çıxıb çarhovuza tökülürdü. Bu su ilə İmamverdi baba bağçasını və bostanını sulayırdı. İmamverdi baba bu təzə evin bir otağında Gülpəri və o birində Nurəddin üçün mənzil tədarük etmişdi.

İmamverdi baba bilirdi ki, çıxığı yerinə tez salmaq lazımdır. Hərgah tez salınmasa, yerinə ət gələr və sonra onu düzəltmək çətin olar. Buna görə külfət bir balaca rahat olan kimi, gecə olmasına baxmayıb, bağbanı Mehdi kişini göndərdi ki, sınıqçı Qara Hüseyni yatmış da olsa, durquzub gətirsin.

Bir azdan sonra Qara Hüseyn gəldi. Bu işi İmamverdi yaşında, qırx ildən artıq sınıqçılıq edən və ətrafda məşhur olmuş bir zat idi.

Qara Hüseyn Nurəddinin qıçını əlləşdirib dedi:

– Sağ ayağı diz qapağından çıxmışdır. – Sonra şaqqıltı ilə ayağı yerinə saldı və qıçın dörd ətrafına ağac düzüb bərk sarıdı. Nurəddin ağrıya davam edib əsla səs çıxartmırdı.

– Yaşasın belə qoçaq uşaq, – deyə Qara Hüseyn Nurəddini tərif etdi. Sonra da evdən tapşırdı ki, Nurəddinin qıçı üç gün belə qala-



sıdır. Heç tərpətməyin, sonra gəlib özüm açacağam. Bundan sonra üzünü Nurəddinə çevirib dedi:

– Ağıllı oğlum, ayağını heç tərpətmə, onda ağrıtmaz və sən də rahat olarsan.

Qara Hüseyn xudahafiz edib getdi.

Gecədən xeyli keçdi. Amma Nurəddin ayağının ağrısından yata bilmirdi. İmamverdi baba onun yanında oturub keşivini çəkirdi. Amma Gülpəri o biri otaqda xoruldayırdı. Axırda Nurəddin yuxuya getdi. Bir də gözünü açanda gördü ki, günəş pəncərədən içəri düşmüşdür. İmamverdi baba Nurəddinin yanına gəldi.

– Sabahın xeyir, oğlum, rahat yata bildinmi? Ayağın ağrıyırmı?

– Azacıq ağrıyır, baba.

– Darıxma, oğlum, Allah qoysa bir neçə günə sağalıb duracaqsan və səni gəzməyə aparacağam. Bir bax, gör babanın nə gözəl bağçası vardır. – Bu sözləri deyib İmamverdi pəncərəni açdı və özü də bayıra çıxdı.

Sübhün təmiz havası, güllərin və çiçəklərin qoxusu otağı ətirləndirdi. Quşlar gömgöy budaqlarda oturub oxuşurdular. Pəncərənin ağzında bir tut və bir gilas ağacı bitmişdi. Gilasın budaqları pəncərəyə o qədər yaxın idi ki, əl uzadanda çatırdı. Bu ağacın üstü qırmızı gilasla dolu idi. Quşların bəzisi gilas və bəzisi də tut ağacında oturub, gah oxuyurdular və gah da balaca dimdikləri ilə tutdan və gilasdan qopardıb yeyirdilər. Nurəddin bunlara çox həvəslə baxırdı. Bu quşlardan sərçədən başqa qeyrilərini tanımırdı. Nurəddin bir də gördü ki, bir ana sərçə ağzında bir göy cücü pəncərənin üstünə qondu və oradan cik-cik səsi gəldi. Nurəddin gözlərini dolandıranda gördü ki, bir yuvadan dörd dənə sərçə balası başlarını bayıra çıxardıb cividəyirlər. Anaları uçub yuvanın ağzına qondu. Balaları, sarı ağızlarını açıb civiltini bərkitdilər. Ana sərçə ağzını açıb cücünü birinin ağzına verib uçdu. Bir azdan sonra yenə ağzında cücü yuvasının yanında hazır oldu. Bu dəfə cücünü o biri balasına verdi. Gələn dəfə üçüncüsünə və sonra dördüncüsünə verdi. Bu qayda ilə ana sərçə balalarına dən daşıyırdı və bir dəfə də olsa növbəti pozmurdu.

Bu sərçə yuvası və onun içində olan balaların yaşamaları Nurəddinə bir məşğələ oldu. Bir dəfə balaca sərçələrdən biri yuvadan sürüşüb, uçaraq otağın içinə düşdü. Bu halda İmamverdi baba içəri daxil oldu.

– Baba, indicə yuvadan bir sərçə balası uçub içəri düşdü. Onu tut mənə ver.

İmamverdi sərçəni tutub Nurəddinə verdi:

– Oğlum, yaxşı öyrətməli vaxtıdır.

– Baba, sərçəni necə öyrədirlər? Mənə də öyrət.

– Yaxşı, oğlum, öyrədərəm.

İmamverdi sərçəni Nurəddindən alıb yerə qoydu və bir az kənara çəkilib muşqurmağa başladı. Sərçə muşquruğu eşidəndə cik-cik etməyə başladı, amma uçub çağırışa gəlmədi. İmamverdi baba dedi:

– İndi bu toxdur, ona görə mənə qulaq asmır. Qoy bir az ac qalsın, o vaxt muşquranda uçub gələcəkdir. İndi, oğlum, gəl sərçən üçün mənzil qayıraq.

İmamverdi baba bunu deyib rəfdən bir boş tütün qutusu və bir qədər pambıq götürdü və Nurəddinə verdi:

– Bu da sərçənin evciyi.

Nurəddin sevinib sərçəni qutuda rahat etdi.

– Baba, sərçəm acanda nə verim?

– Çörək çeynəyib ver, tut ver, amma bunlardan yaxşısı cücüdür. Mən bağçamızdan tutub gətirərəm.

Bu halda, Cəfər əlində podnos, içində çay-çörək, şora batırılmış təzə inək yağı içəri daxil oldu. Çayı Nurəddinin qabağına qoyub halını soruşdu və dedi:

– Ağa, bu gün mən evə qayıdıram, nə qulluğun varsa, buyur.

Nurəddin dedi:

– Məndən Bahara salam-dua yetir, amma ayağımın çıxmağını demə, ürəyi xarab olar və bir də mümkün olsa, mənim şəkil dəftərlərimi və rəng qutumu göndərərsiniz. Gələndə almışdım ki, burada şəkil çəkəm. Yadımdan çıxıb qalıbdır.

– Baş üstə, ağa, özüm adam tapıb göndərərəm, hələ ki, xudahafiz. Allah sənə tezliklə şəfa versin, – deyə Cəfər getdi.

Üçüncü günü Qara Hüseyn gəlib Nurəddinin ayağını açıb dedi:

– İndi, oğlum, ayağın yaxşıdır, daha sarımayacağam. Ancaq bir müddət gərək üsullu dolanasan. Atılıb-düşməyəsən. Bir-iki gün evdən çıxma. Yavaşca-yavaşca evdə gəz. Eyvanda otur, babanın bağçasına tamaşa eylə, sonra səni bağıma gəzməyə aparacağam.

Qara Hüseyn xudahafiz edəndə İmamverdi baba ona pul verdi. Amma o qəbul etməyib dedi:



– Mən heç vaxt pul qəbul etmərəm. Hələ səninlə dostluğum dursun, Nurəddinin atası mənə çox yaxşılıq edibdir. O yaxşılığın əvəzində mən ona heç bir şey etməmişəm. İndi borcumu verirəm, artıq bir şey etmirəm.

Qara Hüseyn gedəndən sonra İmamverdi baba Nurəddinin başını sığallayıb dedi:

– Görürsən, oğlum, yaxşılıq nə gözəl şeydir. Atanın yaxşılığının əvəzini övladına edirlər. Bax, oğlum, bu əyləşdiyin evi atanın köməkliyi ilə tikdirmişəm. İndi mən də bunu və qabağındakı bağçanı vəsiyyət etmişəm ki, sənə verilsin. Bunu bu kənddə hamı bilir. Mən öləndən sonra bunlar sənindir. Bunların Gülpəriyə dəxli yoxdur.

Gülpəri pəncərənin qabağından keçərkən bu sözləri eşidib dedi:

– Ata, o nə şeydir ki, mənə dəxli yoxdur?

– İçəri gəl deyim.

Gülpəri gəldi, İmamverdi baba dedi:

– İndi Nurəddinə vəsiyyət edirəm ki, bu oturduğu ev və qabağındakı bağça onundur, sənə dəxli yoxdur. Bu vəsiyyətimi sənə deyirəm, qızım, bunu əmələ gətirərsən. Özün də yaxşı bilirsən ki, bunlar onun atasının pulu ilə tikilmişdir.

Gülpəri dedi:

– Ata, əmrini yerinə yetirməyə hazıram. Ancaq mənim də səndən bir təvəqqem var.

– Söylə, qızım, görüm nədir?

– Mən söyləməyəcəyəm, Əmiraslan söyləyəcəkdir.

– Mənim Əmiraslanla heç bir işim ola bilməz. Bunu özün də bilirsən. Bir də siz bura gələndən bəri, o, Nurəddini yoxlamağı əldə bəhanə edib, bura tez-tez gəlməsin, yoxsa qovaram.

– Ata, elə iş etmə, bu gün o səndən bir şey təvəqqe edəcəkdir. Onun təvəqqesini qəbul et, çünki, mən də o təvəqqeyə şərikəm.

– Yenə deyirəm, Əmiraslanla mənim heç bir işim ola bilməz.

– Onda nə etməli, sənsiz olacaqdır, məni bağışla.

– Gülpəri, açıq danış, görüm nə istəyirsən?

– Bu gün Əmiraslan sənə mənim üçün elçi düşəcəkdir, sənin razılığını istəyirəm.

– Heç vaxt!

– Onda sənsiz olacaqdır!

– Nə qədər sağ varam, bu iş baş tutmaz.

– Baxarıq! İndi də mən balaca qız deyiləm ki, iyirmi beş yaşında, hər ixtiyarı öz əlində bir arvadam. Mən dedim ki, bu iş, ata izini ilə olsun, sən istəmirsən, daha təqsir məndən götürüldü. Təvəqqe edirəm ki, bir də mənim işimə qarışmayasan.

Bunu deyəndən sonra Gülpəri hirslə qapını vurub çıxdı. İmamverdi baba kürsüyə çöküb, başıaşağı xeyli fikrə getdi.

Bir azdan sonra Əmiraslan gəldi. İmamverdi baba o biri otağa keçdi, orada iş nə yerdə qaldığını Nurəddin bilmədi. Ancaq oradan İmamverdi babanın qışqırığı gəlirdi.

Bu ittifaqdan üç gün keçmiş, Gülpəri atasından izinsiz, kəbinini kəsdirib Əmiraslana gəlin köçdü.

Gülpəri gətirdiyi şeylərin hamısını özü ilə bərabər apardı.

Gülpəri Nurəddinin İmamverdi babanın yanında qalmağına mane olmadı. Nurəddin bu işə çox şad idi, çünki Gülpəri buraya gələn gündən onunla mehriban rəftar etməyi atıb, əvvəlki kimi pis dolanırdı. Qızının belə itaətsizliyi İmamverdiyə artıq dərəcədə təsir etmişdi.

Nurəddinin ayağı təmiz sağalmışdı. Hər gün İmamverdi baba ilə gah bağçada bal arısına tamaşa etməyə məşğul idi, gah da ipəkqurduna tut yarpağı daşıyırdı, gah da meyvə bağına gedib İmamverdi baba ilə meyvə dərirdi. Ya da çayda balıq tuturdu və burada çimirdi, gah da meşəyə gedib moruq, göbələk yığırdı. Haraya getsəydi, sərçəsini də özü ilə aparırdı. İmamverdi baba sərçəni qırmızı rəngə boyamışdı. Ona görə Nurəddin ona Qızılca adı qoymuşdu. İndi Qızılca elə öyrənmişdi ki, Nurəddin haraya getsəydi, sərçə də çağırılmamış, öz-özünə uçub onun dalınca gedərdi.

Hər həftə şənbə günləri Güllücə kəndində bazar olardı. Bu günləri ətraf və əknafda sakin olanlar tökülüb bazara gələrdilər. Kimi mal almağa, kimi mal satmağa gəlirdi. İmamverdi baba da hər şənbə Nurəddin ilə bazara çıxardı. Nurəddinin məktəb paltarı cümlənin nəzərini özünə cəlb edərdi, ələlxüsus kənd uşaqlarının...

Nurəddin İmamverdi babanın yanında çox gözəl vaxt keçirirdi və şükür edirdi ki, Gülpəri onu özü ilə aparmadı. Şəhərin natəmiz havasından saralıb heyvaya dönən Nurəddini bir ayın ərzində tanımaq olmurdu. Ətə-cana gəlib üzü lalə kimi qızarırdı. Əfsus ki, zavallı Nurəddin üçün bu xoşbəxtlik çox çəkmədi. Gülpəri ərə gedəndə öz razılığı və Nurəddinin razılığı ilə onu atasının yanında qoymuşdu.



Amma indi nədənsə fikrini dəyişdirib, Nurəddini öz yanına aparmaq istəyirdi. Lakin İmamverdi baba əsla razı olmurdu. Buna görə də hər gün ata və qız arasında bu barədə qovğa vardı. Bu isə Nurəddinə çox təsir edirdi. Axırda Nurəddin dedi:

– Baba, daha Gülpəri ilə dalaşma, mən razıyam. Onun yanında olanda nə olar? Qoy gedim, yenə hər gün sənin yanına gələrəm.

İmamverdi baba, istər-istəməz razı oldu. Nurəddin də Əmiraslanın evinə köçdü. Az bir müddətdə Əmiraslan Gülpərinin əlində olan nəqdi pulunu gah yalvarmaq və gah da qorxutmaq ilə alıb qumara, kefə tələf etdi. Əmiraslan elə bilirdi ki, Gülpəri Hacı Nəsirin dövlətindən lazımınca yükünü tutubdur. Amma onun əliboş olması tezliklə məlum oldu. Bu cəhətə Əmiraslan gündə Gülpəri ilə dava-qalmaqal etməyə başladı. Gülpəri işi bu halda gördükdə neçə müddətdən bəri ürəyində Nurəddinin dövləti barəsində bəslədiyi gizli fikri açıb Əmiraslana söylədi və ondan bu işə çarə istədi. Əmiraslan çox şad olub dedi:

– Hərgah indiyə kimi bunu məndən gizlətməsəydin, çoxdan çarə tapmışdım. Yenə də taparam. Sənin işin yoxdur.

* * *

Nurəddin elə bilirdi ki, hər vaxt istəsə, İmamverdi babanın yanına gedə bilər. Lakin bu fikrin yanlış olması ertəsi günü ona məlum oldu. Bu tərəfdən də Gülpəri və ələlxüsus, Püstə qarı yazıq uşağa göz verib, işıq vermirdi. Ancaq Əmiraslan öz fikri cəhətincə Nurəddinlə mehriban dolanıb onu yanından iraq qoymayırdı. Haraya gedirdi özü ilə aparırdı. Bir dəfə Əmiraslan Nurəddini götürüb bağına gəzməyə apardı. Orada onu gilas ağacına çıxartdı ki, gilas dərsin. Nurəddin gilas ilə ətəyini doldurub aşağı düşmək istədikdə Əmiraslan dedi:

– Nurəddin, o əlinlə tutduğun budağın başında gör nə çox gilas var, çıx o şaxı sındır. Eləcə evimizə aparaq.

Nurəddin dedi:

– Budaq nazikdir, qorxuram sına.

– Bəs sən deyirdin, mən qorxaq deyiləm. O budaq mən yekəlikdə adamı götürər.

Bu sözlərdən Nurəddin qeyrətə gəlib yuxarı dırmaşdı. Ağacın başına çatdıqda, budaq şaqqıltı ilə sınıb yerə düşdü. Amma Nurəddin

iki budaq arasında pərçim olub ölümdən xilas oldu. Nurəddin aşağı düşəndə Əmiraslan sınıq budağı çiyninə götürüb dedi:

– Gedək, Nurəddin, Allah bu səfər səni ölümdən qurtardı, – bunu deyib qəhqəhə ilə güldü.

Nurəddin Əmiraslanın "bu səfər" deməsinə və gülməsinə təəccüb etdisə də onun fikrini anlamadı.

O biri gün Əmiraslan Ceyranbasanı çullayıb dedi:

– Nurəddin, atımızı apar həm çayda sula və həm də bir az gəz.

Nurəddin razı olmayıb, dedi:

– Mən Ceyranbasandan qorxuram. Onu heç vaxt minməyəcəyəm.

– Axırı ki, qorxaqlığını boynuna aldın. – Bunu deyib Əmiraslan atın belinə sıçradı.

– Elə isə gəl tərkimə min, gedib çayda çimək.

Nurəddin çimməyi çox sevirdi. Ona görə də tez razı oldu.

Çayda Əmiraslan soyunub atı mindi və suyun dərin yerinə salıb bir neçə dəfə üzdürdü. Sonra üzünü Nurəddinə tərəf tutub dedi:

– Hərgah qorxmursan gəl səni də mindirim.

Nurəddin razı oldu. Əmiraslan Nurəddini ata mindirib, noxtanın ucundan yapışdı. Əmiraslan atı lap dərin yerə salıb bir neçə dəfə üzdürdü. Bir dəfə at dərin yerə düşəndə qəflətən ipi çəkdi, at burxulub Nurəddini üstündən saldı. O, suya batdı və bir neçə saniyədən sonra suyun üzünə çıxıb üzməyə başladı. Hərgah bu dəmdə Nurəddinin nəzəri Əmiraslana düşsəydi, onun gözlərindən parlayan odu və üzündə zühur edən acığı görərdi. Nurəddin üzüb kənara çıxanda Əmiraslan soruşdu:

– Bu üzməyi haradan öyrənmisən?

– İmamverdi baba öyrətmişdir. Sizə gəlməmişdən əvvəl hər gün çayda çimirdik. İndi İmamverdi baba azarlamışdır.

– Onu haradan bilirsən, yoxsa qaçıb getmisən?

– Xeyr, dünən bağbanından eşitdim.

– Yenə deyirəm ki, sənin onun ilə əsla işin olmasın. Tez ol geyin, gedək.

Nurəddin Əmiraslanı acıqlı görüb dinməz-söyləməz tezcə geyindi. Yol uzunu Əmiraslan fikirdə olub bir kəlmə söz demədi. Əmiraslan bu ittifaqdan sonra yenə öz pis fikrindən əl götürməyib, Nurəddini tələf etməyə təzə hiylə axtarmağa başladı. Nurəddin isə başına gələn xataları qəza işi bilib, Əmiraslandan şəklənməyirdi. Ancaq bir ittifaq onu şəkkə saldı. Bir dəfə Əmiraslan onunla bazardan evə qayıdanda



yolda çəpər üstündə bir gürzəni qıvrılıb yatmış gördülər. Əmiraslan dedi:

– Nurəddin, gör nə gözəl koramal balasıdır. Tut, aparıb kirpimizə verək yesin. Qorxma, koramalın zəhəri yoxdur, adamı vurmaz.

– Mən də bilirəm zəhəri yoxdur. Ancaq o koramal deyil, gürzədir.

– Yox, sən tanımırsan, koramaldır.

– Koramalın başı sarımtıl olur, elə qara rəngli olmur.

– Onu sənə kim deyibdir?

– İmamverdi baba, neçə dəfə bağçada koramalı mənə göstəribdir.

Əmiraslan qəhqəhə ilə gülüb dedi:

– Koramaldan qorxursan, ona görə də ilanı bəhanə gətirirsən.

Nurəddin bir söz deməyib, əlindəki ağacla tez ilanın başından vurub öldürdü.

– İndi bax, gör ilandır, ya koramaldır.

Bu halda yol ilə gedən iki adam buna baxıb dedi:

– Əlbəttə, ilandır, özü də gürzədir.

Adamlar gedəndən sonra Əmiraslan ilanın o yan-bu yanına baxıb dedi:

– Düzdür, mən səhv edirəm, bu koramal deyil. İlan koramala çox oxşayır, ona görə səhv etmək olar.

Nurəddin ona cavab verməyib, ancaq fikrindən bunu keçirdi:

– Sənə qulaq assaydım, indi meyitim bu yol üstündə qalmışdı.

Bu ittifaqdan sonra Nurəddin Əmiraslandan şəklənib, sərvaxt dolanmağa başladı.

Bir dəfə Nurəddin sərçəsini götürüb bağçada oynamaq bəhanəsi ilə qaçıb İmamverdi babanı yoxlamağa getdi. İmamverdi baba döşəkdə yatırdı, azardan çox zəif düşmüşdü. Yazıq kişi Nurəddini qucaqlayıb, sevindiyindən ağladı. Nurəddin də başına gələn hadisələri nağıl etdikdə, İmamverdi babanın üzündə təşviş artırdı. Nurəddin axırıncı ilan fəqərəsini[1] nağıl etdikdə, İmamverdi baba daha səbir edə bilməyib, zəif səsi ilə belə qışqırdı:

– Yox, daha səni orada qoymaq olmaz. Mən azarlıyam, durmağa taqətim yoxdur, səni o iki şeytanın şərindən mühafizə etməyi bacarmıram. Oğlum, gərək tezliklə şəhərə Baharın yanına qayıdasan. Yoxsa tələf olarsan. İndi get, mən də görüm nə çarə tapıram. Ancaq sərvaxt ol, Əmiraslanın sözünə əsla inanma.

[1] Əhvalatını

İmamverdi baba Nurəddini qucaqlayıb öpdü. Zavallı kişinin gözlərindən yaş dolu kimi yağıb, ağ saqqalını islatdı.

Nurəddin çox qəmgin evə qayıdırdı. Yol uzunu başına gələn qəza-qədərdən fikir edirdi:

– İndi anlayıram ki, Əmiraslan nə məqsəd ilə məni gah uca nazik budağa çıxardırmış, gah dərin suya salırmış və gah da ilanı koramal adına əlimlə tutdururmuş. Bəli, mənim ölməyimi istəyirmiş. Ancaq burasını anlamıram ki, mən ona nə etmişəm ki, mənim ölümümü istəsin və bundan ona nə mənfəət ola bilər. – Bu barədə fikirdə ikən Baharın bu sözü yadına düşdü: "Qorxma, ağam, nə qədər sən sağsan, Gülpəri sənin bir qəpiyinə də əl vura bilməz". – Deməli ki, mən ölsəm, malım Gülpəriyə düşəsidir. Əlbəttə, belədir, bu sadə fikri mən indiyə kimi niyə anlamamışam?!

Nurəddin evə qayıdanda, həyətdə Əmiraslana rast gəldi.

– Haradan gəlirsən?

– Bağçadan gəlirəm, – deyə Nurəddin cavab verdi və qızarıb başını aşağı saldı, çünki Nurəddin ömründə əvvəlinci dəfə idi ki, yalan deyirdi. Bunun halətindən yalan deməyini duyub Əmiraslan acıqlı yenə soruşdu:

– Düzünü de görüm, harada idin?

– İmamverdi babanı yoxlamağa getmişdim.

– Sən nə cürət edib mənim əmrimdən çıxırsan? – Əmiraslan bunu deyib qışqırdı və Nurəddini çomaq ilə döyüb, anbara saldı və ağzını kilidləyib getdi.

Bu İttifaqdan iki gün sonra İmamverdi babanın iflic azarından dili tutulmaq xəbəri gəldi. Gülpəri və Əmiraslan cəld geyinib getdilər, amma Nurəddini aparmadılar. İlan fəqərəsindən bəri Əmiraslan Nurəddinlə mehriban dolanmağı bilmərrə buraxıb, hər bir cüzi şeyi bəhanə edərək, onu tez-tez döyüb anbarda dustaq edirdi.

Gecə Əmiraslan ilə Gülpərinin söhbətindən Nurəddin anladı ki, İmamverdi babanın dili tutulubsa da hələ ölüm haləti yoxdur. Bu xəbərdən Nurəddin şad olub öz-özünə dedi:

– Yox, Əmiraslan məni öldürsə də səhər sübhdən qaçıb babamı yoxlamağa gedəcəyəm.

Bu fikir ilə Nurəddin yatdı. Nurəddin Püstə nənə ilə bir otaqda yatırdı. Səhər gözlərini açanda gördü ki, Püstə nənə otaqda yoxdur. Bundan şad olub cəld geyinməyə başladı. Sonra sərçəsini götürüb



bağçaya girdi ki, gizlincə bağ arası İmamverdi babagilə getsin. Nurəddin nar koluna çatdıqda, qəflətən onun dalından Əmiraslan ilə Gülpərinin səsini eşitdi. Cəld və üsulluca kolun içinə girib gizləndi. Əmiraslan Gülpəriyə deyirdi:

– Sənə yenə deyirəm ki, zəhər verməkdən başqa çarə yoxdur.

– Yazıq baba, bu zalımlar sənə zəhər vermək istəyirlər. Yox, qoymaram, nə yaxşı oldu ki, bunların fikrini bildim.

Nurəddin bu fikirdə ikən Əmiraslan başladı:

– İndi yaxşı fürsətdir. Əmimin dili tutulub, xəstəlikdə yatır. Bahar da ki, uzaqdadır. Kimə nə gərəkdir ki, Nurəddin nə azardan öldü.

Bu sözləri eşidəndə Nurəddinin rəngi qaçıb tükləri biz-biz oldu. Yazıq uşaq qorxusundan nəfəsini içinə elə çəkmişdi ki, deyəsən biruh idi.

Gülpəri dedi:

– Yox, Əmiraslan, bunu bacarmayacağam. Mən deyirəm ki, bu işdə öldürmək olmasın.

– Elə isə heç çarəsi yoxdur. Nə şəriət ilə, nə zakon ilə Nurəddin sağ ikən onun malını sənə vermək olmaz. İndi ki, sən bacarmırsan, mən bacararam. Qulaq as, gör bu fikir necədir?

– Nurəddini göndərəcəyəm ki, həyətdə quyudan su çəksin. Özün də bilirsən ki, quyunun dərinliyi qırx arşından artıqdır. Nurəddin su çəkdiyi halda daldan itələyib quyuya salacağam. Hamıya deyərik ki, quyudan su çəkdiyi yerdə özü düşüb boğulmuşdur. Hərgah razısansa de, bu axşam əmələ gətirim.

Gülpəri bir dəqiqəyə kimi dayanıb cavab vermədi. Bu bir dəqiqə Nurəddinə bir il göründü və ürəyindən keçirtdi ki, hərgah Gülpəri bu əmrə razı olmasa, bütün mənə etdiyi zülmü yaddan çıxarıb ömrümün axırına kimi onu öz anam kimi sevməyə söz verirəm.

– Razıyam, – deyə Gülpəri cavab verdi.

Əmiraslan dedi:

– Onda gedək. Mən səni əmimin yanında qoyub axşam evə qayıdaram. Sən də gecə orada qalarsan. Daha heç kəsin sənə gümanı gəlməz.

Əmiraslan və Gülpəri getdilər. Bir azdan sonra Nurəddin koldan çıxdı. O yan-bu yana baxıb qorxa-qorxa yola düşdü.

– İndi daha mən İmamverdi babanın yanına niyə gedim. O özü ölüm halında ikən məni bu zalımların əlindən necə xilas edə bilər?

Yox, yox, qaçıb özümü Bahara çatdırmaqdan başqa bir çarə yoxdur. – Bunu deyib Nurəddin sürətlə meşəyə tərəf üz qoydu. Ancaq meşəyə girib gözdən itəndə bir az ürəyi sakit oldu.

– Hərgah yolu azmasam, axşama kimi gedib şəhərə çataram.

Nurəddin meşə ilə iki saata qədər gedəndən sonra bir çaya rast gəldi. Gecə güclü yağış yağdığına görə çayda su çox idi. Nurəddin dayaz bir yer axtarırkən gəlib bir yerə çatdı ki, orada bir uzun ağac sınıb körpü kimi çayın üstünə düşmüşdü. Nurəddin bu ağacın üstü ilə keçdiyi zaman ayağı sürüşüb çaya düşdü. Bu yerdə çay xeyli dərin və kənarları da hündür idi. Nurəddin qol atdı ki, üzsün. Gördü ki, paltarlı üzmək çox çətindir. Bir neçə dəfə batıb çıxandan sonra bir sallanmış şax əlinə keçdi. Bu şaxdan tutub, bulanlıq su ilə islanmış halda, papağını itirmiş kənara çıxdı və bihuş bir halda xeyli uzanıb qaldı. Bir az rahat olandan sonra Nurəddin paltarını çıxarıb suyunu sıxdı və günün qabağında sərdi ki, qurusun. Paltarı quruyandan sonra geyinib çayaşağı xeyli getdi ki, bəlkə papağını tapsın, lakin nə ondan, nə də sərçəsindən ki, suya düşəndə çiynində oturmuşdu, bir əsər tapmadı. Bunlardan əl çəkib yenə şəhərə getməyə başladı. Ancaq bu səfər yolu azıb meşədən çıxa bilmədi. İki saat, üç saat dolanıb yenə həmin yerə çıxırdı. Bununla belə cürətli uşaq, yolu tapıb meşədən çıxmaqdan ümidini kəsmirdi. Axırda gün batan zaman, Nurəddin yolu tapdı və bir qədər gedəndən sonra yoldan bir az kənar bir şaxlı-budaqlı ağac tapıb üstünə çıxdı ki, orada gecə yatsın. Yaxın budaqları əyib yarpaqların arasında Nurəddin özünə yer qayırdı və çox yorğun olduğuna görə ac və susuzluğa baxmayıb, tez yuxuya getdi. Gecənin bir vaxtı heybətli bir səsdən Nurəddin diksinib qalxdı və az qaldı ki, ağacdan yıxılsın. Zavallı uşağın ürəyi elə atlanırdı ki, deyəsən bu saat partlayıb çıxacaqdır. Bir azdan sonra yenə səs təkrar oldu. Ancaq bu səfər Nurəddin qorxmayıb dedi:

– Bayquşdur, ulayır. O vaxt kəndə gedəndə də bizi qorxutdu.

Bu ittifaqdan sonra daha Nurəddin yata bilmədi. Bütün bədəni ağrıyırdı. Gecənin qaranlığı, meşənin vahiməsi yalnız uşağa deyil, hətta böyük adama da qorxu hissi gətirirdi. Amma Nurəddin bu halətə şükür edirdi:

– Hərgah Əmiraslan ilə Gülpərinin danışığını eşitməsəydi, indi meyitim qırx arşın quyunun dibində idi. Ah, bircə özümü Bahara çatdırsaydım, ürəyim sakit olardı.



Nurəddin fikrə getdi. Bütün keçmişi gözünün qabağından bir-bir gəlib keçdi. Budur, balaca uşaqdır. Ata-anası ona hər gün bir şey bağışlayırlar ki, onu şad etsinlər. Budur, əvvəlinci dəfə məktəb formasını geyib məktəbə gedir, anası onu qucaqlayıb şirin-şirin öpür və sevindiyindən ağlayır... Ah, o gözəl günlər nə tez keçdi... Qara günlər başlandı. Anası öldü, Gülpəri gəldi. Atası öldü, İmamverdi gəldi. Sonra Bahar... Köç... Əmiraslan... Yenə İmamverdi... Yenə Əmiraslan... Gülpəri... Püstə qarı. Qəm və qüssə, zavallı yetimin ürəyini elə aldı ki, daha səbir eləməyib hönkürtü ilə ağlamağa başladı. Bu ağlamaq Nurəddinin ürəyini boşaldıb sakit etdi. Bir azdan sonra Nurəddin yenə yuxuya getdi. İkinci dəfə Nurəddini qarğalar yuxudan oyatdı.

Demə Nurəddin yatan ağacın başında bir qarğa yuvası varmış. Sübh vaxtı ana qarğa balaları üçün yem dalınca uçanda qəflətən ağacda bir qaraltı gördü. Qarğa əvvəl səssiz, budaq-budaq atılıb diqqət yetirdi ki, görsün bu qaraltı nədir. Elə ki, düşməni olan insan olduğunu yəqin etdi, bir elə qarıltı saldı ki, bir-iki dəqiqənin ərzində meşənin qarğalarını yuvasının başına cəm etdi. Köməyə gələn qarğalar bunun səsinə səs verib elə qarıltı saldılar ki, deyəsən bu saat meşəni dağıdacaqlar.

Nurəddin əvvəl gözlərini açanda harada olduğunu bilmədi. Sonra huşu özünə gəlib ağacda yatdığı yadına düşdü. Nurəddinin tərpənməsi qarğaların qarıltısını artırdı. Ələlxüsus ata və ana qarğa Nurəddinin başı üstünü alıb elə həşir saldılar ki, deyəsən bu saat onu dimdikləyib yerə salacaqdılar. Nurəddin işi belə görəndə ağacdan enməyə başladı. Qarğaların səsinə yol ilə gedən bir qoca dilənçi oraya gəldi. Nurəddin bunu görüb, ağacdan düşmək istəmədi. Yolçu dedi:

– Oğlum, quşun yuvasını dağıtmaq günahdır.

– Mən yuva dağıtmıram əmi, – deyə Nurəddin cavab verdi.

– Bəs bu səhər ertəsi orada nə qayırırsan?

– Mən bu gecə burada yatmışdım.

– Nə üçün ağacda yatmışdın, oğlum?

– Gündüz yolu azıb meşədə qaldım, onun üçün burada yatmışdım.

– Ağacdan düş, oğlum, mən səni evinizə apararam.

Nurəddin bu təklifdən qorxub titrəyə-titrəyə belə cavab verdi:

– Mənim evim yoxdur, əmi. Mən atasız-anasız bir yetiməm.

Diləncı Nurəddinin titrəməsini görüb dedi:

– Məndən qorxma, oğlum, mən də elsiz-obasız bir qoca yolçuyam. Kəndlərdə dilənirəm. İndi şəhərə gedirəm.

Dilənçinin açıq üzündən və mehriban danışığından Nurəddin ürəklənib düşdü.

– İndi söylə görüm, oğlum, sən kimsən və haraya gedirsən?

– Əmi, acından ölürəm, qabaqca bir şeyin varsa ver yeyim, sonra əhvalatımı sənə nağıl edərəm.

Dilənçi dağarcığından bir qədər quru çörək və soğan çıxardıb Nurəddinə verdi. Nurəddin alıb şirin-şirin yeməyə başladı. Nurəddinə ömründə heç bir xörək belə ləzzət verməmişdi.

Aclığını bir qədər rəf edəndən sonra Nurəddin bəlalı başına gələn hadisələri tamamilə dilənçiyə nağıl etdi.

– Əmi, məni evimizə çatdırsan, Bahar sənə hər nə istəsən verər, – deyə Nurəddin dilənçiyə yalvardı.

– Qorxma, oğlum, səni aparıb evinizə verərəm. Ancaq gərək səbir edəsən. Sizin şəhər buradan xeyli uzaqdır, pul da yoxdur ki, vaqon ilə gedək. Buranın iki yüz verstliyində bir böyük şəhər var. Orada mənim bir qohumum var. Onun yanına gedərik, bəlkə ondan pul tapdıq. İndi gedək.

Bu halda dilənçinin nəzəri Nurəddinin paltarına düşdü:

– Yox, belə yaramaz gərək üstünü dilənçi üstünə oxşadaq, – bunu deyən yolçu, qoltuğundakı köhnə paltarı ki, ona Allah payı vermişdilər, Nurəddinə geyindirdi və bir cındır yaylıq ilə başını örtdü.

– Hə, indi hazırsan, gedək.

Hər ikisi yola düşdü. Dilənçi paltarı Nurəddini elə dəyişdirmişdi ki, onu tanımaq mümkün deyildi. Yol ilə bir saata qədər getmişdilər ki, daldan çaparaq bir atlı göründü. Nurəddin dönüb baxanda canına titrəmə düşdü.

– Əmi, bu gələn Əmiraslandır. Məni axtarır. Durma qaçaq.

Nurəddin qaçmaq istədikdə, dilənçi onun əlindən tutub qoymadı.

– Ağılsız, nə etmək istəyirsən? Elə yaramaz. Qorxma, o səni bu paltarda tanıya bilməz.

Əmiraslan bunlara çatıb qocadan soruşdu:

– Kişi, bir on yaşında, o yanındakı boyda; başında nişanlı papaq, əynində boz mahuddan paltar, boynu yaşıl məxmər paltolu uşaq gördünmü?



– Yox, ağa, görmədim. Budur nəvəm ilə səhər ertədən bu yol ilə gedirik, amma elə uşağa rast gəlməmişik.

Əmiraslan bir az fikirli dayanıb atın başını geri döndərdi və qamçılayıb gözdən itdi. Nurəddinin ancaq indi ürəyi sakit oldu.

– Əmi, nə yaxşı ki, paltarımı dəyişdin, yoxsa Əmiraslan məni öldürüb, bu meşəyə atacaqdı.

Dilənçi dedi:

– Oğlum, indi gərək adını da dəyişdirəsən, çünki Əmiraslan sənin itməyini yəqin divana məlum edəcəkdir. Hərgah səndən sual etsələr ki, kimsən, adın nədir, de ki, Əlaəddindir və özüm də dilənçiyəm, anladınmı?

– Bəli, baba, anladım, – deyə Nurəddin cavab verdi.

Günortaya bir saat qalmış, meşənin qurtaracağında, Cənnətəli ilə Nurəddin ocaq qalayıb, meşədən yığdıqları göbələyi bişirib, dadlı moruq ilə yeməyə başladılar. Nahardan sonra uzanıb bir qədər rahat oldular. Axşama bir saat qalmış yolçular gəlib şəhərə çıxdılar və gecə orada qalıb, səhər yola rəvan oldular. Kəndbəkənd dilənədilənə, on iki gündən sonra yolçular gəlib Cənnətəli deyən böyük şəhərə çatdılar.

Bədəninin və üst başının çirkindən və pasından, indi o gözəl və zərif Nurəddini tanımaq olmazdı. Zavallı uşaq, qızdırma azarından yeni qalxmış adam kimi ayaq üstündə dayana bilmirdi.

Cənnətəli Nurəddin ilə bərabər beş gün qohumunu axtardı, amma gördüm deyən olmadı. Axırda bir adam, iki ay bundan əqdəm öldüyünü və heç bir şeyi olmadığına görə camaat pulu ilə basdırıldığını onlara xəbər verdi. Bundan ümidləri kəsildi.

Bir dəfə Cənnətəli xəstə olduğuna görə küçənin bir tinində oturub Nurəddini dilənməyə göndərdi. Nurəddin indiyə kimi heç vaxt əl açıb dilənməmişdi, çünki qoca həmişə özü dilənib yığardı. Bir-iki küçə dolandısa da Nurəddin həya edib bir kəsə əl uzada bilmədi. Bu tərəfdən də əliboş qayıtmağa qocadan xəcalət çəkirdi. Axırda Nurəddin bir geniş küçəni keçərkən, ayağı büdrəyib yıxıldı. Bu halda daldan fayton içində bir adam iti gəlirdi. Faytonçu atları saxlaya bilməyib Nurəddini basdırdı. Bunu görcək adamlar qışqırıb yüyürüşdülər. Nurəddini hərəkətsiz və qan içində gördükdə birisi dedi:

– Yazıq dilənçi öldü.

O birisi dedi:

– Hərgah zəfərli yerindən basılmayıbsa heç zad olmaz. Bu halda adamlar geri çəkilib Rəhimə təzim etdilər.

– Boş-boş danışmaqdansa, bu yazıq uşağa kömək vermək yaxşı deyilmi, cəld götürüb bunu faytona qoyun.

Bir neçə adam Nurəddini götürdülər və Rəhimin faytonuna qoydular. O da minib dedi:

– Tez sür evə!

Evə çatan kimi Rəhim şəhərin məşhur cərrahını çağırtdı. Həkim Nurəddini soyundurub hər yerinə baxdı. Sonra yaralanan yerlərini yuyub sarıdı və dedi:

– Qorxulu yarası yoxdur. Beş-on günə kimi sağalıb durar. Ancaq uşağın özü çox zəif və bədəni də çox çirklidir. Bunlara əlac etməlidir. Hələliyə nə hamama göndərmək və nə də vannaya salmaq olmaz. Ancaq yerinin içində bulud[1] və sabun ilə bədənini təmizləmək lazımdır.

Həkim gedəndən sonra Rəhim, arvadı Rəhiməni çağırıb dedi:

– Arvad, evə qayıdarkən bu uşağı basdırıb ölüm halına salmışam.

Bu halda Nurəddin gözlərini açıb təəccüb ilə ətrafına baxırdı və harada olduğunu anlamırdı. Rəhimə onun başını sığallayıb dedi:

– Oğlum, adın nədir?

Rəhim dedi:

– Arvad, hələ o lazım deyil, uşaq çox zəifdir, danışdırma. Tez ol isti su, sabun və bulud hazır et. Uşağın bədənini yumaq lazımdır. Həkim belə əmr edibdir.

Qulluqçu bunları hazır etdi. Uşağı soyundurub yumağa məşğul oldular. Rəhimə Nurəddinin boynundan parçaya tikilmiş bir dua çıxartdı. Bu duanın parçası həm çirkli və həm də köhnə olduğundan bunu təzə parçaya tikmək məqsədilə cırdı. İçindən bir balaca kitab çıxdı.

– Kişi, gör bu nədir, – deyə Rəhimə kitabı Rəhimə uzatdı. Rəhim ona baxıb dedi:

– Şükür olsun, axırda tapdım. – Sonra üzünü uşağa tərəf tutub dedi:

– Sənin adın Nurəddindirmi, oğlum?

– Bəli, – deyə Nurəddin zəif səslə cavab verdi.

---

[1] **Bulud** – yuyunmaq üçün düzəldilmiş lif



Bunu eşidən Rəhimə soruşdu:

– Kişi, sən bunun adını haradan bildin?

– Rəhimə, bu uşaq axtardığımız, Hacı Nəsirin oğlu Nurəddindir. Bu əlimdəki də sənə nağıl etdiyim "Gülüstandır".

– Bunu Allah bizə övlad göndərmişdir.

– Afərin Rəhimə, yaxşı anlamısan, – deyə Rəhim Rəhimənin sözünü təsdiq etdi. Rəhim və Rəhimə Nurəddini yuyub qurtardılar. Nurəddin rahat olub yuxuya getdi.

* * *

Rəhim, Nurəddinin atası mərhum Hacı Nəsirdən aldığı puldan maya tutub ildən-ilə alış-verişinin dairəsini artırmışdı. Sonralar dəri alış-verişinə girişmişdi. İşinin xatiri üçün Buxaraya köçmüşdü. Orada da dəri alış-verişindən əlavə ipək işinə də girişmişdi. Üç-dörd ilin ərzində Rəhimin işi tutub yaxşı qazanmışdı, ancaq övladları qırılıb vərəsəsiz qalmağına görə özünü xoşbəxt hesab etmirdi. Axırda arvadının təkidi və təklifinə görə, altı ay idi ki, almalısını alıb, satmalısını satmışdı; Rəhimənin vətəni olan bu şəhərə köçmüşdü. Burada işi rast gətirib, tərəqqiyə başlamışdı.

Həkim təyin etdiyi vaxtdan da irəli Nurəddin sağalıb ayağa durdu. Rəhim və Rəhimə Nurəddindən bu dilənçilik halına düşməyinin səbəbini ancaq indi soruşdular. Nurəddin başına gələni tamamilə nağıl etməyə başladı. O, nağıl etdikcə rəhimdil qocalar ah çəkirdilər. Nurəddin nağılını tamam edib Rəhimdən təvəqqe elədi ki, onu evlərinə, Baharın yanına göndərsin. Rəhimə Nurəddini öpüb dedi:

– Oğlum, Nurəddin, budur bir həftədir sən bizdəsən, mən o qədər şadam ki, özümü göydə hiss edirəm. Oğlum, hər nə istəyirsən verək, ancaq bizi atıb getmə. Kim bilir, yenə başına nə gələcəkdir.

Rəhimə sözünü qurtarmamışdı ki, Rəhim Nurəddinin kitabını əlinə götürüb dedi:

– Oğlum, bu kitabın əhvalatını bilirsənmi?

– Bəli, atam söyləyibdir, – deyə Nurəddin cavab verdi.

– İndi al, onun cildində yazılan yazını oxu.

Nurəddin alıb oxudu.

"Yaxşılıq elə, balığı at dəryaya, balıq bilməsə xaliq bilər". İmza: *Rəhim*".

– Oğlum, o Rəhim mənəm. O zaman üç yüz manat itirib körpünün üstündə ağlayan Rəhiməm. Sənin atan Hacı Nəsir mənə bir yaxşılıq etmişdi, indi onun borcunu qaytarıb sən oğluna verirəm, – dedi. – Bizim övladımız yoxdur. Hərgah səni indi evinizə göndərsəm, Gülpəri qəyyum olduğuna görə səni yenə yanına aparacaqdır. Bahar səni mühafizə edə bilməz; çünki o bir qulluqçu adamdır. İndi sən razı olsan Bahara da yazaram gələr.

Nurəddin çox şadlıq ilə bu təklifi qəbul etdi. Bu gündən Nurəddin üçün yeni bir məişət başlandı. Rəhim Nurəddini edadi məktəbinə qoydu. Nurəddin bu gündən atasının sağlığında olduğu kimi, hər gün dərsə getməyə başladı. Bir dəfə dərsdən qayıdarkən Nurəddin küçədə Cənnətəlini gördü. Çox sevindi, onunla görüşdü. Ondan ayrılandan sonra başına gələni yol uzunu nağıl etdi.

– Baba, sən mənə yaxşılıq etdin, indi də mən sənə yaxşılıq edəcəyəm.

Rəhim Nurəddinin bu hərəkətindən şad olub dedi:

– Həmişə belə et, oğlum. Fəqir-füqəranı yaddan çıxartma.

Cənnətəliyə təzə libas geyindirib bağçaya bağban etdilər.

Rəhim Nurəddinə verdiyi sözə əməl edib, Baharın dalınca adam göndərmişdi. Bir axşam Nurəddin, Rəhim və Rəhimə ilə çay içdiyi zaman, Bahar qapıdan içəri girdi və Nurəddinə təəccüblə və çaşmış bir halda baxıb dayandı. Nurəddin cəld qalxıb dedi:

– Bahar, məni tanımırsan? – Bu sözü deyib özünü onun üstünə atdı. Bahar ancaq indi ayılıb dedi:

– Vay, Nurəddin sağ imiş. – Bunu deyib Nurəddini bərk qucaqladı. Bunların bu qayda ilə görüşmələri iki qocanın gözlərini yaşartdı. Bahar bir az rahat olandan sonra dedi:

– Nurəddin, bilirsənmi ki, səni hamı, hətta divan da ölmüş bilir. Sən itəndən üç gün sonra kəndçilər papağını çaydan tapıb Əmiraslana vermişlər. O da divana məlum edib, sənin ölməyini təsdiq etdirmişdir. Bir azdan sonra bir də gördüm ki, Əmiraslanla Gülpəri budur gəldilər, evin yerdə qalan şeylərini yığışdırıb kəndə göndərdilər və mənə də dedilər:

– Bahar, indi sən bizə lazım deyilsən. Haraya istəyirsən gedə bilərsən. Bu vaxt mən bir ilin ərzində ürəyimə yığılanın hamısını ağlaya-ağlaya və qışqıra-qışqıra boşaltdım. Qonşular səsimə cəm olmuşdular.



– Camaat, Nurəddinin ölümünə bais bu iki şəxsdir! – deyə qışqırdım. Axırda Əmiraslan qaradavoy çağırıb məni qovdurdu. İndi gərək sağ olmağını divana məlum edib, onlardan hesab alasan.

Rəhim buna razı olmayıb dedi:

– Yox, Bahar, hələ bunlar lazım deyildir. Öz vaxtında bunlar olacaqdır. İndi mənim var-yoxum Nurəddinindir. Onun pula, dövlətə ehtiyacı yoxdur.

Çaydan sonra ər və arvad Bahar ilə Nurəddini söhbət edən qoyub o biri otağa keçdilər. Nurəddindən cəmi əhvalatı biləndən sonra Gülpəri ilə Əmiraslandan intiqam almaq qəsdi Baharın ürəyində daha da möhkəmləndi. Baharın xasiyyətini, ləyaqətini və evdarlığını Rəhimə bəyənib evin cəmi ixtiyarını ona verdi.

* * *

Bu nağıl etdiyimiz zamandan on il keçdi. Baharın axırı idi. Rəhimin evində səhər tezdən böyük qonaqlıq tədarükü görülürdü. Bu qonaqlıq, Nurəddinin edadi məktəbini birinci dərəcədə təhsil edib qurtarması münasibətilə yoldaşlarına verdiyi ziyafət idi. Bahar, Rəhimə və Rəhim süfrənin zinətinə məşğul idilər. Hətta Cənnətəli də bağçadan öz əlinin zəhməti ilə bitirdiyi güllərdən dərib süfrəni bəzəməkdə onlara kömək edirdi. Bu qonaqlığın baisi olan Nurəddin isə o biri otaqda təzə tələbə libasını geyib güzgünün qabağında özünə zinət verirdi. Bir azdan sonra Nurəddin təzə paltarını göstərmək qəsdilə yemək otağına girdi. Rəhim, Rəhimə, Bahar hər üçü heyrətə gəlib Nurəddinin gözəlliyinə valeh və heyran qalmışdılar.

– Allah səni bədnəzərdən saxlasın, oğlum, – deyə Rəhimə Nurəddinin boynunu qucaqladı. O da onu əllərinə götürüb körpə uşaq kimi gəzdirdi.

Saat iki tamamda, otaq gənc qonaqlar ilə dolmuşdu. Bir azdan sonra Nurəddin qonaqlarını yemək otağına təklif etdi.

İndiyə kimi Rəhimin evi belə şad deyib-danışmaq, oxuyub-gülmək, cavan səsləri eşitməmişdi. Səsdən, gülməkdən nahar vaxtı çalınan tarın səsi eşidilmirdi. Axşama iki saat qalmış, qonaqlar dağılmağa başladılar. Nurəddin də özünü bir qədər havaya vermək üçün şəhər bağına gəzməyə getdi. Axşam vaxtı, külfət hamısı çay süfrəsində hazır olan vaxt Nurəddin içəri girib dedi:

– Ata, sizə bir qonaq gətirmişəm, təvəqqe edirəm qəbul edəsiniz.

– Sənin qonağın bizə həmişə əzizdir, oğlum, – deyə Rəhim cavab verdi.

– Bilirəm, ata, ancaq qonaq elə şəxsdir ki, qorxuram qəbul etməyəsiniz.

– Edərəm, oğlum, de içəri gəlsin. – Nurəddin çıxıb bir dilənçi arvadın əlindən tutub içəriyə saldı. Dedi:

– Ana, bilirsənmi bu dilənçi arvad kimdir?

– Gülpəridir, – deyə Bahar qışqırdı və gözlərində intiqam odu parladı.

– Bəli, Bahar, Gülpəridir, ancaq tamaşa et gör ondan intiqamımı necə alıram. – Bu sözü deyib Nurəddin Gülpəriyə tərəf döndü və dedi:

– Gülpəri, indiyə kimi mənə etdiyin zülm və cəfanın əvəzində mən sənin bütün təqsirindən keçib bağışlayıram. Mənim ürəyimdə indi sən bədbəxtə rəhmdən başqa qeyri şey yoxdur.

Bunu eşitcək Gülpəri ağlaya-ağlaya Nurəddinin ayağına yıxıldı və dedi:

– Nurəddin, rəhmli cavan, Allah-taala sənə etdiyim zülmün əvəzində məni bir elə bəlaya düçar etdi ki, yeməyə çörək tapmayıb küçələrə düşdüm.

Nurəddin Gülpərini qaldırıb oturtdu.

Gülpəri başladı:

– Doğrudur, sənin dövlətinə malik olmaq istəyirdim, ancaq ölümünü istəmirdim. Məni yoldan çıxardan o şeytan Əmiraslan oldu. Axırda Əmiraslan sözü bu yerdə qoydu ki, səni quyuya salıb öldürsün.

Bahar bunu eşidib dedi:

– Onun üçünmü məni min bəhanə ilə şəhərdə qoydun, ay zalım?

Nurəddin dedi:

– Bahar, sakit ol, qoy nağıl etsin.

Gülpəri dedi:

– Papağın sudan çıxandan sonra yəqin etdik ki, çayda boğulub ölmüşsən, yazıq atam bu xəbəri eşidən kimi vəfat etdi.

Nurəddin bunu eşidib ah çəkdi.

Gülpəri dedi:

– Sonra sənin malına sahib olduq...

– Amma yeyə bildinmi? – deyə Bahar sordu.



– Yox, bir-iki ilin ərzində Əmiraslan qumara uduzub qurtardı. Sonra əvvəl şəhərdəki və ondan sonra kənddəki evləri satıb tələf etdi. Hər şey əldən çıxandan sonra Əmiraslan məni qovub özü də qaçaq dəstəsinə qoşuldu. Bir neçə müddət quldurluq edəndən sonra divan tərəfindən tutulub asıldı.

Bahar dedi:

– Məşhur məsələdir deyərlər: "Su çanağı suda çatlar".

Gülpəri:

– Məni də bir kişi alıb bu şəhərə gətirdi və bir azdan sonra məni atıb yox oldu. İndi o gündən küçələrə düşüb dilənçilik edirəm. Bu yolda nələr çəkdiyimi bir Allah bilir...

Gülpəri başını aşağı salıb yenə ağlamağa başladı. Rəhim dedi:

– Gülpəri, ağlama, sən Hacı Nəsirin arvadı və Nurəddinin analığı olmuşsan. Bunların xatiri üçün və Nurəddinin özü sənin günahından keçdiyi üçün burada qalıb rahat olacaqsan. – Sonra üzünü Nurəddinə tərəf tutub dedi:

– Oğlum, indi rahat ola bilərəm, çünki sənə verdiyim tərbiyənin meyvəsini bu gün gördüm. Mən səni oğulluğa götürməklə böyük bir hünər etmədim, çünki mən ancaq yaxşılığa yaxşılıq etdim. Bu isə hər kişinin işidir. Amma sən yamanlığa yaxşılıq etdin. Bu isə ancaq sənin kimi ər kişinin işidir. – Bunu deyən Rəhim Nurəddini qucaqlayıb öpdü.

Hacı Səməd nağılı tamam edib soruşdu:

– İndi deyin görüm, övladlarım, kimin nağılı yaxşıdır?

– Əlbəttə, səninki, səninki, – deyə Məmməd və Fatma cavab verdilər.

# SULTANMƏCİD QƏNİZADƏ

(1866-1942)

*XX əsr Azərbaycan ədəbiyyatında maarifpərvər yazıçı kimi tanınan Sultanməcid Qənizadə Şamaxıda doğulmuşdur. İlk təhsilini Şamaxıda "Məclis" məktəbində almış, sonra üçüncüdərəcəli şəhər məktəbində oxumuşdur. 1882-ci ildə bu məktəbi "əla" qiymətlə bitirən Sultan Məcid Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutuna qəbul olunmuşdur. Ali təhsilini başa vurduqdan sonra Bakıya gələn gənc burada dostu Həbib bəy Mahmudbəyovla birlikdə "Rus-müsəlman" məktəbi açıb pedaqoji fəaliyyətə başlayır. 1905-ci ilin avqust ayına qədər Bakıda çalışan S.Qənizadə bundan sonra Zaqafqaziya Müəllimlər Seminariyasının Tatar şöbəsinin inspektoru, Bakı quberniyası – Dağıstan Vilayəti Xalq Məktəblərinin inspektoru, naziri, Azərbaycan Xalq Maarif Komissarlığında inspektor vəzifələrində işləyir və nəhayət, 1929-cu ildə Azərbaycan Sənaye İnstitutuna türk dili müəllimi təyin olunur. Ədib 1937-ci ildə həbs olunmuş və 1942-ci ildə vəfat etmişdir.*

*Bədii yaradıcılığa XIX əsrin sonlarında başlayan S.Qənizadə nasir kimi XX əsrdə məşhurlaşmışdır. Həmin əsrin başlanğıcında işıq üzü görən "Gəlinlər həmayili" romanından sonra "Dəbistan" və "Yeni irşad" kimi mətbuat orqanları, habelə "Məktəb" nəşriyyatı, Bakı Quberniya İdarəsinin mətbəəsi onun orijinal hekayə və povestləri ilə yanaşı təbdillərini də nəşr etməklə S.Qənizadəni geniş ictimaiyyətə daha yaxından tanıtmışdır. Yazıçının "Allah xofu" hekayəsi də ilk dəfə XX əsrin əvvəllərində – 1906-cı ildə "Dəbistan" jurnalında, on il sonra "Məktəb" nəşriyyatında çap olunmuş, sonralar müxtəlif antologiyalara, yazıçının "Seçilmiş əsərləri"nə və başqa kitablarına daxil edilmişdir. Povestin burada verilən mətni S.Qənizadənin "Gəlinlər həmaili" (Bakı, 1986) kitabından götürülmüşdür.*

## ALLAH XOFU

Qaranlıq payız gecəsi idi. Şimal yeli küçələrin toz-torpağın hirslə divarlara çırpırdı. Həmin boğanaq içrə fənərlərin işığı qaranlıq çöldə qurd gözü kibi gah batıb, gah işıldayırdı. Bu sovuq gecədə biçarə Məşədi Əsgər əli qoynunda küçələrdə sərgərdan hadırlayaraq balaları üçün ruzu axtarmaqda idi.



Qısa boylu, gen kürəkli, zorluca Məşədi Əsgər qırx yaşında bir kişi idi: zahir qiyafəsindən, əl-ayağının kobudluğundan və barmaqlarının qabarlarından fəhlə firqəsindən olduğu aşkara görünürdü. Əsildə dərbəndli yetimçə Əsgər on iki yaşında təsadüfən Bakıya gəlib, neft gəmilərinin birisində muzdurluğa başlamışdı...

Gəmi muzdurluğu filvaqe zəhmətli peşələrdən birisidir: yel ilə su qaynağında çalışan gəmiçilər balzərurə torpaqdan ayaq üzüb gecələr ayazda, gündüzlər gün altında məşəqqətli zəhmətlərə tablaşmaları təəccübdür! Zatən gəmiçilərin bədənləri davamlı, ruhları qüvvətli və məzacları müstəqim olmaq həmin sərkeş ünsürlərlə daim mübarizədə olmaqlığın nəticəsidir. Odur ki, muzdur Məşədi Əsgər iyirmi səkkiz ilin müddətində od ilə su arasında bişib, bərkiyib abnosa dönmüşdü, azar-bezar nə olduğunu əsla bilməzdi. Oturanda iki adamın xörəyini yeyib, qalxanda üçünün işin görməyə mahir idi. İyirmi səkkiz ilin ərzində bircə gün olsa da qulluqdan qalmadıqda ancaq ikicə ay xozeyindən möhlət, alıb, imam Rza ziyarətinə getmişdi.

Adətən hər işdə fəhlələrin muzdu az olursa, amma gəmi muzdurlarının muzdu zəhmətlərinə müqabil lap az olur; həmin zorluca Məşədi Əsgərin ayda iyirmicə manat məvacibi var idi!

Yavan çörəyə qənaət edən muzdur illər uzunu boğazından kəsdiyindən on ilin ərzində altı yüz manat nağd cəm edib, Qanlıtəpə adlanan məhəllədə özü üçün bir daxma tikmişdi və sonra yenə on il qənaətlə bir altı yüz manat da cəmləyib evlənmişdi. İndi səkkiz il idi ki, muzdur Məşədi Əsgər Qanlıtəpədə bir arvadı və üç baş uşağı ilə ayda iyirmi manata kifayət edərək dolanırdı.

* * *

Nə isə qəzadan var imiş: bir gün Məşədi Əsgər yelkən açdığı yerdə ayağının altından nərdivan qaçdı, kişi özün saxlaşdıramayıb şappıltı ilə sol qolunun üstündə yerə gəldi, qol biləyindən yuxarı sındı.

Qolu sınmış muzdur qanadı sınmış qağayı kibi quru taxta üstündə süst düşüb qalmışdı. Yoldaşları onun halından xəbər tutub gəldilər, qolun boynundan asıb sınıqçıya göndərdilər.

Yazıq muzdur qolu boynunda sınıqçıdan çıxıb, birbaşa gəmi sahibi Hacı Ağarəsul qulluğuna gəldi və başına gələn qəziyyəni

ah-zar ilə ərz etdi. Acıqlı xozeyin qaşqabaq ilə muzdura baxıb, işə yaramayacağın bilərkən onu məzəmmət edərək dedi:

– Axır, a bədbəxt oğlu bədbəxt, nə üçün iş görəndə ayağıvun altına yaxşı baxmayırsan ki, belə olur? Kor deyilsən, Allah sənə göz verib, ay heyvan!.. İndi qolunu boynundan asıb mənim üstümə gəlmisən, de görüm, tay qol ilə sən nə iş görəcəksən ki, mənim barjım ondan yarısın?..

Biçarə Məşədi Əsgər muzdurluq həqarətində daha xozeyinə cavab qaytarmayıb, müqəssirlər kibi başın aşağı saldı. Xozeyin bir neçə an sükutdan sonra əlindəki qəlyana hirslə bir-iki qullab vurub dedi:

– Daha nə durmusan gözümün önündə!.. Var get, bir-iki gün yat, görək necə olar.

Yazıq muzdur bir tərəfdən sınıq sızıltısı, bir tərəfdən ürək ağrısı ilə evinə yetişcək ah-zar ilə daxmanın ortasında özün yerə vurdu. Arvadı Şahsənəm və xırdaca uşaqları onun halın pozğun görcək, hamısı bir-birinə qoşulub ağlaşmağa başladılar...

O gündən bəri qolusınıq muzdur hər üç gündən bir sınıqçı Kərbəlayı Qurbanın yanına gedib qolun bağladırdı. On gün keçmişdi ki, sınıqçıdan qayıdanda yenə xozeynin qulluğuna gəldi. Xozeyin muzduru əli boynundan asılmış görcək kərahətlə soruşdu:

– Adə, daha haçağaca əli boynunda gəzəcəksən?

Muzdur cavab verdi ki, Kərbəlayı Qurban deyir ki, hələ üç həftə işə yapışmaq olmayacaqdır...

– Paho!.. Bəs yaxşı ki, üç ay deməyibdir...

Belə rişxəndanə söz ilə Hacı Ağarəsul çotkəni götürüb çaqqaçuq ilə hesab eləməyə başladı. İyirmi gün qulluğun muzdu ayda iyirmi manat hesabı ilə on üç manat otuz üç qəpik olduğun muzdura göstərib, on dörd manat ona verdi və verəndə üç abbası bir şahı iki qəpik artıq verdiyin həmin sınıqqol muzdurun gözünə dirədi.

Məşədi Əsgər dinməz-söyləməz haqqın alıban, qolu kibi ürəyi də sınıq halda Qanlıtəpə tərəfə üz qoydu. Xozeyindən aldığı puldan əvvəlcə səkkiz manat iki abbası qonşu dükançıdan nisyə götürdüyü xırda-xuruş borcun verdi. Yerdə qalan beş manat üç abbasıdan iki manat sınıqçı Kərbəlayı Qurban üçün zəmad pulu ayırıb, baqisin də xırda-xırda bir həftənin ərzində çörəyə, çay-qəndə sərf edib qurtardı.



İndi on gün idi ki, Məşədi Əsgərin bir qəpik pulu yox idi. Ancaq Şahsənəm dövlətlilər evində paltar yumaq, ev ağartmaq kibi işlərə yapışıb, axşamlar çarşabının ucunda bir yarım çörək, bişmiş boyat xörək, bir-iki yumru qənd, bir neçə çimdik çay gətirirdi və bu sayaq ilə uşaqlar yarıac, yarıtox keçinirlərdi.

Qucağı uşaqlı Şahsənəm ürəyi dərdlə dolu olduğundan həftənin axırında naçaqlayıb yıxıldı. Biçarə Məşədi Əsgər indi üç gün idi ki, ac-acına balalarının əhvalına alışırdı. Axır davam gətirməyib axşam vaxtı idi ki, evdən çıxmışdı.

* * *

...Şimal yeli küçələrin toz-torpağın hirs ilə divarlara çırpırdı. Həmin boğanaqlıq içrə fənərlərin işığı qaranlıq çöldə qurd gözü kimi gah batıb, gah işıllıyırdı. Belə payız gecəsində fələkzədə Məşədi Əsgər qolu boynunda küçələrdə sorgərdan hadırlayaraq balaları üçün ruzu axtarmaqda idi. Amma çörək qazanmaq yolun belə bilməyirdi.

Vaxt gecə yarısına yavuqlaşdı. Adamların ayağı küçə-bazardan çəkildi. Savuq, tozlu gecədə ancaq üstüörtülü faytonlar içində tək-tək miniklər görünürdü.

Məşədi Əsgərin ümidi hər yerdən kəsildi, evdə ac qoyduğu balaların halı yadına düşərkən biixtiyar yenə Qanlıtəpə tərəfə üz çöndərdi.

Qaranlıq gecədə dəlibaş xəzri yeli toz-torpaq hərbəsi ilə adamları qaçırıb, evlərə təpildiyində indi meydanı xali görüb, Qanlıtəpənin torpağın sınıqqol muzdurun təpəsinə qəhrlə sovururdu. Amma qanlı dəryalar keçmiş gəmiçi qaranlıq çox gecələrdə əjdaha zəhmli ləpələrdən qorxmadığında indiki xəzriyə də əsla etina verməyib, ancaq ürəyindəki qəm tufanında qərq olmada idi və bu tufan içrə qutələr udub, yorğun-yorğun qədəm qoyduqda axır öz evinə yetişdi və küçə qapısına arxasın söykəyib, şəhər tərəfə baxmağa başladı.

Şəhərdə qaranlıq idi, ancaq sol tərəfdə vağzalın çıraqları toz arasında gah tutqun, gah parlaq görünürdü. Birdən Məşədinin fikrinə gəldi ki, adə, vaqon gələn vaxtdır, gəl gedim bəlkə müsafirlərin birisinin şeylərinə yapışıb bir-iki şahı ala bilim...

Bu fikir ilə qolusınıq gəmi muzduru vağzal tərəfə üz qoyub getdi.

* * *

Vağzalın platformasında bir ənbuh adamlar görünürdü. Ələzzahir qatar gəlməsini gözləyirlərdi. Məşədi Əsgər platforma kənarında alçacıq barılardan birisinə söykənib dayandı.

Saat on iki tamamında buxar arabası acıqlı əjdaha kibi uzaqda gözlərin ağardıban nərə vurmağa başladı. Vağzaldakı adamlar guya qorxuşmuş qarışqa kibi, bir-birinə vurnuxurdular. Bir dəqiqə çəkmədi ki, qara əjdaha ləhləyə-ləhləyə özünü vağzala yetirib, bərkdən bir şihə çəkdi.

Sinələri medallı rus, erməni hammalları fövrən vaqonlar pilləkənlərinə dırmaşdılar. Qolusınıq muzdur onları hayla görüb, özünü yavaş-yavaş irəli verdi. Müsafirlərdən bəziləri öz tənbəlitlərin qoltuqlarına vurub, vaqonlardan dişrə çıxmağa başladıqda bəzilərinin tənbəlitin yaxası medallı hammallar aparırlardı.

Həmin medallı hammallardan birisi Məşədi Əsgəri görcək:

– A hay, Maşadi, cəhənnəm ol!.. – deyibən ona hayqırdı və onunla belə yenə bir neçə erməni hammalları onun üstünə çığırışdılar.

Məşədi Əsgər qorxaq kişi deyildi və özü də o qədər zorlu idi ki, haylə medallı hammalların üç-dördün büküb-bükmələyib əzişdirə bilərdi. İndi sol qolu sınıq ola-ola yenə onlardan söz saxlamayıb:

– Cəhənnəm siz olunuz! – deyibən hərbə ilə olara cavab verdi. Hammallar onu guya məsxərəyə qoymaq üçün:

– A huy, Maşadi, a huy, Maşadi, – deyib öz işlərinə getdilər. Yalqız qalmış Məşədi Əsgər vaqonların pəncərələrinə baxa-baxa vağzalın axır başınaca getdi, amma heç bir kəs ona bir şey tapşırmadı.

Vaqonlarda daha müsafir qalmamışdı, adamların ayağı vağzaldan çəkilmişdi. Məşədi Əsgər yenə kəsbdən naümid olub platformadan çıxmaq istərdi ki, birdən uca boylu əcnəbi bir müsafir əlində bir çamadan dal vaqondan aşağı düşüb qapıya tərəf üz qoydu. Məşədi Əsgər təcilən ona yan alıb çamadanı aparmaq üçün qələt-qələt rus dilicə iltica etdi. Müsafir bir an dayanıb, türk dilicə Məşədidən soruşdu:

– A kişi, sən şəhərə yaxşı bələdsənmi?

– Bələdəm, xozeyin, çox yaxşı bələdəm... Ver çamadanı aparım, sənə zəhmət olur...



Bu söz ilə Məşədi Əsgər əlin çamadana uzatdıqda əcnəbi onu rədd edib dedi:

– Çamadan yüngüldür mən özüm apara bilərəm. Sən ancaq bələdlik elə, mənə bir qəstinsə göstər, sənə bir manat pul verərəm.

– Baş üstə, xozeyin, göstərərəm, buyur gedək.

Məşədi Əsgər ömründə qəstinsə görməmişdi və Bakıda heç bir qəstinsə tanımayırdı, ancaq məqsədi bu idi ki, yolda soraq edib xam əcnəbini hansı olsa olsun, bir qəstinsəyə yetirsin ki, bir manat əldən çıxmasın. Bu məqsədlə çapükcə qabağa düşüb əcnəbini vağzal xiyabanından keçirtdi və yağlıca dil ilə: – "Buyur, buyur" – deyərək Telefon küçəsinə yetirdi. Gen və uzun Telefon küçəsində xəzri yeli daha şiddətlə çırpınırdı. Qəlbi divarlar arasında sərkeş ünsür kəməndən qaçmış xam qulan kibi kişnəyə-kişnəyə çapdıqda gah-gah fişəngə qalxıb yerin toz-torpağın teleqraf başında sovururdu. Xam müsafir Bakının məşəqqətli ruzigarına adət etmədiyində gözlərini qapayıb Məşədi Əsgərin əqəbincə ahəstə-ahəstə gedirdi. Məşədi Əsgər aciz qalmış müsafirin qeydinə qaldığında mehribançılıq göstərib, yenə çamadanı ondan istədi:

– Xozeyin, yaman tozanaqdır, çamadan sənə əziyyət verir, ver mən aparım.

Məşədinin bu təklifinə əcnəbi, yenə qətən rəddiyyə verib, çamadanı əlindən buraxmadı. Müsafirin belə rəddiyyəsi birdən Məşədinin ürəyinə saldı ki, yəqin çamadanın içində qiymətli şeylər vardır ki, sahib özgə dəstbərliyinə arxayın ola bilməyir... Bu mətləbi fikrində tutub öz-özünə deyirdi:

– Bəli, çamadanda qiymətli şeylər var... Çoxlu pul var ki, mənə verməyə qorxur... Haylə bilir ki, mən çamadanı götürüb qaçacağam. Ay yazıq!.. Daha deməyir ki, Məşədi Əsgər haylə adamlardan deyil... Mən halal süd əmmişəm... İndi qırx yaşım var, heç kimin bir qəpiyinə xəyanət eləməmişəm... Başımız üstə Allah var... Allah adama qəzəb edər...

* * *

Xəzri həmin şiddətlə əsirdi. Məşədi Əsgər qabaqca, müsafir dalca Telefon küçəsi ilə gedirlərdi. Məşədi Əsgər qərib müsafirin qeydinə qaldığında tez-tez geri baxıb onun turşumuş sifətin və əlindəki

çamadanı görürdü. Çamadan fikri getdikcə Məşədinin qəlbinə yerləşdikdə saniyəbəsaniyə təzə fikirlər silsiləsini cünbüşə gətirirdi. "Çamadanda pul var... adamda Allah xofu olmasa, bu saat onun əlindən qapıb qaçar, nə eyləyə bilər?.. Qaranlıq, toz, külək... nabələd adam... Əstəğfürullah, tövbə, lənət şeytana!.." Belə-belə fikir Məşədi Əsgərin başına gəldikcə: "Lənət şeytana", – deyib başından çıxarırdı.

Bu tövr ilə Telefon küçəsinin yarısınacan gəldilər. Birdən xəzri yeli dahaca bərk coşub vızıltı ilə qəliz tozu buların sifətinə çırpışdırdı. Çaşmış əcnəbi dodaqların quruldadıban "tfu" edərək gözlərin ovuşdurmağa başladı və bu işvə ilə bir əli gözündə, o biri əli cibindən dəsmalı çıxartmaq üçün çamadanı yerə qoydu. Məşədi Əsgər onun müqabilində dayanıb baxırdı. Çamadan daş döşəmə üstündə müsafirin ayaqlarına söykənib durmuşdu.

Tayqol muzdur çamadanı yerdə görcək daha əlahiddə fikir başına gətirməyib, ancaq onu bildi ki, götürüb qaçmaq üçün yaxşıca fürsətdir. Həmin qəsd ilə laənşüur əlin uzadıb çamadanın dəstgirəsinə yapışdı və yapışcaq qaçmağa üz qoydu.

Oğru Məşədi Əsgər bir neçə addım qaçandan sonra idi ki, çamadan sahibi çamadanın getməsindən xəbər tutdu: "Ay haray, çamadanımı apardılar!.. Ay tutunuz, ay qoymayınız!.." çığıra-çığıra Məşədi Əsgərin dalınca qovmağa başladı.

Çamadanı getmiş əcnəbinin əfqanlarına xəzri yeli ün verərək çovğuna düşmüş kibi bərkdən ulayıb haylə bir tozanaq qopartdı ki, beş addımda adam adamı görəmmədi. Nabələd əcnəbi hündür səkilər üstündə yüyürdüyü halda yol ayrıcında bir pillədən sürüşüb, kəlləmayallaq quru asfalt üstünə sərildi. Nabəkar xəzri üzüquylu düşmüş əcnəbinin arxasın tapdalayaraq, başından papağın alıb, alamançılar kibi soldat bazarı tərəfə qaçdı və qaçaraqda gözlərin də toz ilə doldurub bamtamam çırağın söndürdü.

* * *

Oğru Məşədi Əsgər çamadanı alıb qaçdığı halda, əvvəlcə öz vicdanından bixəbər idi, ancaq onu bilirdi ki, mümkün olduqca tez qaçıb uzaşmalıdır. Sonra əcnəbinin vaveylası onun canına qorxu saldıqda hövl götürüb quzu qapmış qurd kibi daha da bərk qaçmağa başladı. Axır, tin başına çatdıqda sağ əldəki küçəyə buruluban, çamadan sahibindən lap uzaşdı.



Daha səs-səmir yox idi. Məşədi Əsgər bir az yavaşıyıb özün bir qaranlıq yerə çatdırdı. Ətraf tamam xamuşanlıq idi. Ancaq quduz xəzri gah aram tutmayıb, gah damlar başında bayquş kibi ulayırdı.

Çamadan oğrusu özünü divar dibinə verib, bir daş üstündə oturdu və çamadanı qənşərinə qoyub fikrin başına yığdı. Ömründə oğurluq etməmiş muzdur bir az fikirdən sonra öz əməlinin qəbahətinə düşnüşməyə başladı. Qənşərindəki çamadan zəbani-hal ilə məşədiyə deyirdi: "Məşədi Əsgər... mən çamadanı oğurlayıbdır, Məşədi oğrudur! Oğru Məşədi Əsgərin yeri bu dünyada qazamatdır, o dünyada cəhənnəm! Allah Məşədi Əsgərə qənim olsun!"

Bu sözlərin cavabında oğru-muzdur ehtizarə gəlib öz-özünə məlamət edərək deyirdi: "Əstəğfürullah, tövbə... Allahın lənətinə gələsən şeytan, a kişi, bu nə iş idi sən elədin? Allah-taala sənin sol qolunu sındırdı... Günahın var imiş ki, sındırdı! Bəs indi sağ qolunu da sındırsa haqdir... Əstəğfürullah, tövbə, Allahın lənətinə gəlsin şeytan..."

Bu minval ilə günahkar muzdur özünün bəd əməlindən peşman olub, istiğfar edərək yerindən qalxdı, dübarə Telefon küçəsi tərəfə qayıdıb, çamadan sahibin axtarmağa şüru etdi, amma, çifayda, əcnəbidən səs-soraq yox idi. Naçar qalıb küçənin ortasında:

– Ay çamadan sahibi, gəl çamadanı apar! – deyib bir-iki ağız car çağırdı, amma səsinə səs verən olmadı. Məgər ki, bidin xəzri onun şivən etməsinə sağdan, soldan: "vay-vay" – çığırıb səs verirdi.

Biçarə Məşədi Əsgər qaranlıq küçə ortasında yerə-görə baxıb, Allah qorxusundan ağlamağa başladı:

– Xudavənda, bu nə qələt idi, mən elədim, bu nə zülm idi ki, məndən baş verdi!.. Mənim qolum sındı, əlbəttə, günahım var imiş ki, sındı, yoxsa nahaq yerə Allah adamın qolunu sındırmaz... İndi yenə mən bu günahı eləyirəm, Allah mənim qıçımı çolaq edər, gözümü kor edər... Ax, Allah, sən mənim təqsirimdən keç, çamadan sahibini mənə yetir ki, əmanətin qaytarıb halallıq alım, yoxsa, məlun şeytan məni aldadıb cəhənnəm oduna yandıracaqdır... Əstəğfürullah, tövbə, Allahın lənətinə gəlsin şeytan!

Məşədi Əsgər yerə-göyə baş endirib küçə içində tövbə etdiyi halda küçənin o biri başından polisə fıştılığı çalındı, ələzzahir polisə əhlindən birisi yavuqda idi. Oğru Məşədi Əsgər çamadanı küçənin ortasına tullayıb divar küncündə gizləndi. Bir neçə nəfəs çəkmədi

ki, bir nəfər qorodovoy küçənin ortası ilə tappatup gəlib, çamadanın yanından sovuşdu, amma çamadanı görmədi.

Qorodovoy sovuşandan sonra Məşədi Əsgər öz pusqusundan çıxıb, yenə çamadanın yanına gəldi və çamadana baxıb üzün göyə tutdu:

– Xudaya, bu nə qəzəb idi mənim boğazıma keçdi! Allah, mənim dadıma yetiş!..

Başıbəlalı muzdur naəlaclıqda çamadanın dəstgirəsinə yapışıb, Qanlıtəpə tərəfə üz qoydu.

Xəzri yeli guya yorulub bir az sayxaşmışdı. Qanlıtəpə əhli sakit və samit dərin-dərin yuxuda idi. Gecənin xamuşluğun heç bir səs pozmurdu, ancaq yavana hürən köpəklərin xır-xırı hürüşü kəsmə-kəsmə eşidilirdi.

* * *

Məşədi Əsgər öz həyətinə gəldi. Ahəstəcə qapını açıb içəri girdi. Şahsənəm çolpa cücələri qanadının altına alıb yatmışdı.

Oğru kişi çamadanı bir küncə qoyub, divar dibində uzandı və gözlərin qaranlıq səqfə dirəyib fikir edirdi ki, sabah nə yol ilə çamadanı öz sahibinə qaytarsın. Bu fikirdə çamadanı açmaq dəğdəğəsi ürəyinə doldu. Bir az qurcalanıb yerindən qalxdı, taxçadakı hisli lampanı işıqladıb çamadanı qənşərinə aldı və bıçaq burnu ilə qurdalayıb çamadanın qıfılın açdı.

Çamadanın içində ən əvvəlcə bir neçə dənə ağ dəsmal və bir-iki top ağ kömlək və zircamə var idi. Əli kirli muzdur təmizcə yuyulmuş dəyişəyi çıxarıb bir yana qoyduqda çamadanın dibində qaytan ilə sarınmış bir bağlama kağız gördü. Bağlamanı çıxardıb qaytanı açdı və kağız vərəqlərinin qatların qalxızıb arasına baxdı... Ax!.. Xudaya, alapələng yüzlüklər! Yüzlüklər qat-qat qatlanıb bir-birinin üstə yığılıb!

Muzdur Məşədi Əsgərin ömrü olanı əlinə yüzlük dəyməmişdi, ancaq uzaqdan-uzağa özgələrin əlində görüb, ala-bəzək rənginə həsrət çəkər idi. İndi yüzlüklər dəstəsin loqta ilə əlinə alıb qənşərinə qoydu.

Heyrət lərzişi oğru muzdurun canın almışdı, tamam bədəni tir-tir titrəyirdi. Görməmiş muzdur cığcığa yüzlüklərdən sərasimə



olduğunda daha özgə fikir eləməyib laənşüur sanamağa başladı: bir, iki, üç, dörd, beş, on, on beş, iyirmi, otuz, qırx, əlli, yüz, yüz əlli, iki yüz, üç yüz, dörd yüz, beş yüz, altı yüz, altı yüz doxsan... vay dədə, vay. Altı yüz doxsan dənə yüzlük! Görəsən, bunlar hamısı neçə manat eləyir?..

Ayda iyirmi manata xidmət edən muzdur əlindəki məbləğin qədərindən xəbəri olmadığında, hala yüzlüklərin çoxluğundan çaşmışdı. Sonra bir az özün toxtaşdırıb ağır-ağır nəfəs alaraq pulların hesabına getməyə başladı.

Muzdur ancaq onu bilirdi ki, on yüzlük min manat eylər. İndi yüzlükləri on-on bir-birinin üstünə dəstələyib evin ortasında cərgə düzdü, sonra minləri sanayıb gördü ki, altmış doqquz min manat puldur. Vay, vay, vay! Görəsən, altmış doqquz min manat neçə manat eləyir? Bu qədər də pul olarmı?.. Bu qədər pul heç xozeyin Hacı Ağarəsulun babasında tapılmayıb...

Altmış doqquz min manata malik olan ac muzdur pullara baxıb bir ah çəkdi. Zatən ah çəkməklik təbiət dövrəsində haylə bir hadisədir ki, onun əsərindən insanın havası özgə vəzə təbdil olduğunda özgə bir ruh əlaməti izharə yetirir.

Görməmiş muzdurun gözləri puldan doyduqdan sonra sınıq qoluna baxmağa başladı: "Bəli, qolumu Allah sındırdı, günahım var imiş ki, sındırdı. Görəsən, kimə nə zülm eləmişəmmiş ki, Allahın mənə qəzəbi keçdi!.. İndi kişinin altmış doqquz min manatın götür qaç... Bu zülmü Allah yerdə qoyarmı?.. Əstəğfürullah!.. Tövbə, Allahın lənətinə gəlsin şeytan!"

İmam Rza ziyarətinə getmiş Məşədi Əsgərin əqidəsi buna idi ki, zülm böyük olduqca Allahın qisası da böyük olur. Altmış min pulun vəbalı nə payədə ağır olacağı qiyasət gətirdikdə sınıqqol ac muzdur zar-zar ağlamağa başladı. Ağlamağın hikməti ürəkdə cuş edən həvəs hərarətinin yaşın axızmaqdır. Yaş axızmağın da hikməti ürək yüngülləşməkdir.

Məşədi Əsgər ağlayıb ürəyin boşaldandan sonra fikrin başına yığıb, ciddən and içdi ki, sabah açılan kibi hər nə cür olsa, çamadanı öz sahibinə qaytarsın. Əli əsə-əsə yüzlükləri bir-birinin üstünə kottalayıb çamadanın içinə qoymaq istərdi ki, dibində yenə bir əlahiddə bağlama gördü. Ağırca bağlamanı əlinə götürüb sanballadı, nə olduğun bilmək üçün düyünün açdı... Sübhanallah, sarı imperial... Bir,

iki, üç, dörd, beş... üç yüz!!! Görəsən, bu neçə manat eləyir? Hesab elədi, hesabına çata bilmədi. Axır onları da öz bağlamasına bürüyüb çamadanın küncünə buraxdı və onların üstündə o ağ dəyişəkləri öz səliqəsi ilə dəyişdirib, bıçaq burnu ilə çamadanın ağzın qıfılladı.

* * *

Payızın sübhü yeni açılmışdı ki, Məşədi Əsgər arvad-uşağın yuxuda qoyub çamadan əlində yenidən küçəyə çıxdı. Xəzri yeli bilmərrə usanmışdı.

Küçələrdə suçular taraq-turuqla o yan-bu yana çapırlardı. Böyük küçələrə yetişincə adamlar artdı. Faytonçular bir-bir görünürdü. Tayqol muzdur əcnəbinin çamadanın sağ əlində sallandıra-sallandıra Telefon küçəsinə yetişdi və ürəyi öz əməlindən xətərli olduğundan elə güman edirdi ki, guya yoldan keçənlər hamısı çamadana baxıb onun sözün danışırlar... Amma nə Məşədi özü və nə əlindəki çamadan heç kəsin gərəyinə deyildi.

Sınıqqol muzdurun niyyəti bu idi ki, hər nə cür olsa, çamadan sahibin tapıb halallıq diləsin ki, Allahın qəzəbi bir də onu tutmasın. Bu fikirlə Telefon küçəsinin başına çatıb ayrıcda dayandı, qəstinsə sorağın almaq üçün öz həndəvərinə baxdığında yoldan keçən bir erməniyə rast düşüb, iltica ilə ona yalvardı:

– Ay qonşu, ay qonşu, sən olasan həzrət İsa, zəhmət çək, qəstinsəni mənə göstər.

Erməni Məşədinin üzünə baxmayıb, ancaq yol gedə-gedə barmağı ilə bir böyük evə işarə edərək dedi:

– Odur ha... ha... küçənin o başında.

Məşədi daha dayanmayıb evə tərəf cumdu. Evin böyük şüşəbəndli qapısı bağlı idi. Muzdur bir az o yan-bu yana boyluyub şüşədən içəri marıtlamağa başladığından, birdən qapı şappıltı ilə açıldı... Haçasaqqal bir erməni qalın baftalı yaranal libasında şəstlə muzdurun önündə dayanıb:

– Kimi istəyirsən? – deyərək xitab etdi.

Məşədi Əsgər qorxudan ikiqat olub ona baş vurdu və əlindəki çamadanı ona göstərdi. Erməni işarə ilə məşədini içəri buraxıb tələsik pilləkən yuxarı getdi. Binəva məşədi günahkar qul kibi boynun burub, qapı ağzında divara söykənmişdi ki, nagahan gördü, köhnə uçastokun pristavı Məmməd Qulu bəy canq-cunqla pilləkəndən üzü-



aşağı düşür. Biçarə muzdurun damarları qurudu, qol-qıçı titrəməyə başladı. Haylə güman elədi ki, yaranalın buyurmağına görə Məmməd Qulu bəy bu saat onu tutub çasta aparacaqdı... Belə müsibətə rast gəlmiş məşədi öz-özünə nifrin edib ürəyində deyirdi: "Kaş ki, mənim qıçım sınaydı, vağzala getməyəydim, indi də bu zalım pristavın sifətin görməyəydim!"

Məmməd Qulu bəy hələ uzaqda olduğunda Məşədi Əsgər iki əlin döşünə qoyub ona salam verdi, amma bəy cənabları nə onun salamın aldı və nə də üzünə baxdı. Ancaq qapıya yavuqlaşanda dalın muzdura çevirib divardakı aynada qoşa bığları tumarlamağa başladı. Muzdurun gözləri heyran-heyran baxıb aynada bəyi gördüyündə, onun hər bir hərəkətinə bir dəfə baş vururdu...

Bəy bığların burub getmək istədikdə, birdən ayağı Məşədi Əsgərin çamadanına ilişdi... Az qalmışdı yıxılsın yenə yıxılmadı, amma çox natarazca acıqlandı. Ayağın yerə döyərək əvvəlcə rusca, sonra müsəlmanca yamanı söyləyib saralmış muzdurun üstünə çığırdı ki:

– Ay heyvan, bu çamadanı ayaq altına niyə qoyubsan?!

Yazıq Məşədi ağlamsılanmış səslə çənəsin əyib yalvardı:

– Ağrunu alım, bəy, qələt eləmişəm, bağışla.

Bəy Məşədini bağışladı, amma çamadana haylə bərk təpik vurdu ki, çamadan mayallaq vurub divara toqquşdu. Bu anda baftalı erməni aynanın qabağından şotkanı qapıb bəyin çəkməsin şotkalamağa başladı və şotkanı tullayıb qapının dəstgirəsinə yapışdı. Qapı açıldı, Məmməd Qulu bəy qapıdan çıxıb astanada dayandı və bir az o yan-bu yana baxıb, qapı ağzında müntəzir dayanmış haçasaqqal erməniyə dedi:

– Ambarsum, göz-qulaq ol, hərgah bir yerə güman olsa, o saat mənə xəbər ver... And içmişəm, hər nə cürə olsa pulu tapıb, pul aparanı tutacağam.

Ambarsum pristava təməllüq edərək irişib dedi:

– Albatda ki, tutacaqsan, sənin alundan hara qaçacaq, quş olub göyə uça, yenə tutacaqsan.

Məşədi Əsgər bu sözləri eşitcək, qorxusundan lap sustaldı, daha cınqırın çıxartmadı. Pristav gedəndən sonra Ambarsum şəst ilə saqqalın haçalayıb muzdurdan soruşdu:

– Nə var, ay Məşədi, nə qulluğun... Bu çamadan kiminkidir?

Məşədi əvvəlcə haylə bilirdi ki, bu haçasaqqal erməni rus böyüklərindəndir, çünki nüqreyi mahud çuxasının baftasından, şapkasının zağarasından lap yaranallara oxşayırdı, amma indi qapı açıb-bağlamağından anladı ki, nökərdir... Yaranal paltarın ancaq təşəxxüs üçün geyibdir. Məşədi cürətləndi, ələlxüsus ki, zalım pristavın şəri başından sovuşmuşdu... Ambarsumun sualına hələ cavab verməyib, başladı öz növbəsində soruşdu:

– Ay Ambarsum kirvə, sən burada nəçisən?

Ambarsum ikiəlli saqqalını haçalayıb başını yırğaladı:

– Ax, ağbat xayır, nəçi olacağam?.. Bizdən qəstinsəçi olmayacaq... bufetçi olmayacaq... Paltarıma baxıb görmürsən ki, şvetsaram?

– Şvetsar nə deyən sözdür, a kirvə?

– Şvetsar qapıçı deyən sözdür. Mən burada qapıçıyam. Çarə nədir? Atamızdan pul ğalmayıb, babamızdan pul ğalmayıb, ayda on manat donluq aluruğ, gəlib-gedəndən də altmış-yetmiş manat olur... Dolanuruğ. Əgəri sağ ğalluğ, bəlkə biz də bir az pul ğayırıb, bir balaca ğəstinsə açaruğ... Bizim xozeyin də ğabağlarda mənim kimi ğapıçı olub...

Ambarsum sözünü qurtarıb, yenə saqqalın haçaladı. Məşədi Əsgər bir ah çəkib dedi:

– Ağrını alım, a kirvə, bu çamadan əmanətdir, munun yiyəsi bu qəstinsədədir, zəhmət çək, onun mənzilin mənə göstər, öz əlinə tapşırım.

Ambarsum çamadan sahibinin adın, familiyasın soruşdu. Məşədi Əsgər onun cavabında dedi:

– Adın, vallah bilmirəm, amma familyası ucaboylu, qarabığlı, güşbərəpapaqlı bir adamdır... Özü urus cuhuduna oxşayır, amma müsəlmanca yaxşı danışır. Dünən gecə vaqondan düşüb qəstinsəyə gəlib.

Ambarsum ona cavab verdi ki, o nişanda adam bu qəstinsədə yoxdur və keçən gecə təzə müsafir gəlməyibdir, bəs yəqin ki, özgə qəstinsəyə düşübdür.

Məşədi Əsgər yenə bir ah çəkib, çamadana yapışıb getmək istədiyində, birdən Məmməd Qulu bəyin sözü yadına düşdü və Ambarsumdan soruşdu:

– A kirvə, pristav Məmməd Qulu bəy kimi tutmaq istəyir? Yoxsa adam öldürüblər?



Ambarsum dedi:

– Yox, adam öldürməyiblər, adam soyublar, pul aparıblar, indi oğrunu axtarırlar.

Bu sözləri eşitcək muzdurun ürəyi cingildədi, nitqi kəsildi ki, ay aman, olmaya ki, çamadan əhvalatıdır! Bir az özün toxtadıb dedi:

– Ay kirvə, sən həzrət İsa, danış görüm, necə əhvalatdır?

Ambarsum saqqalın haçalaya-haçalaya təhəyyür göstərib dedi:

– Pə, evin cırılmasın!.. Bəs sən Bakıda deyilsən?.. Srağagün Petrovskidən qubernatora teleqram gəlib ki, orada bir musurman kupetsinin sandığın sındırıb yetmiş iki min manat pul aparıblar. Altmış doqquz mini kağız pul, hamısı al-ğırmızı cığcığa yüzluğlar... Üç mini də ğıpğırmızı ğızıl imperial! Deyirlər, oğru qaçıb Bakıya gəlib, indi tamam polisə oğrunu axtarırlar.

Məşədi Əsgər bu sözləri eşitcək "ax" edib çamadanı əlindən buraxmadı, qıçlarının amanı kəsildikdən, divar dibində çömbəlmə yerə oturdu. Ambarsum Məşədinin halın görüb yetmiş iki min manat üçün olduğuna həml etdi və onun heyrətin daha da artırmaq üçün dedi:

– Eh, a karbalayı, dünyada belə-belə işlər var!.. Yetmiş iki min manat dildə deməğ olmur... Türk demiş ki, ğaz vur, ğazan doldur... Ğoçağ hər kimsə yaxşı vurub! İndi silistçi, prokuror, ğalabəyi... hamısı bir-birinə vurunurlar ki, oğrunu tapsınlar, ğalabəyi... hamısı bir-birinə vurunurlar ki, oğrunu tapsınlar, amma haradan tapacaqlar? İndi Allah bilsin, oğru haralardadır. Axmağ deyil ki, buraya gəlsin... Gedər Parijə, Londona... Orada özü üçün ğəstinsə açar, podrata girər, o ğadar iş var ki...

Ambarsum hələ danışırdı, Məşədi Əsgər bərkdən yenə ah çəkiban çamadanı əlinə aldı və: "salamat qal, kirvə", – deyibən qapıdan çıxdı.

* * *

Məşədi Əsgər dinməz-söyləməz oteldən çıxıb qapı ağzında dayandı. Ha tərəfə getmək lazım olduğun özü də bilmirdi. Əlindəki çamadanın qiyməti indi onun üçün yetmiş iki min manatdan artıq idi. Sadədil muzdur anladı ki, uzunboylu, qarabığlı, güşbərəbörk müsafir xozeyin deyilmiş, oğru imiş, bəli, oğru imiş... Odur ki, Allahın bəlasına gəlib, oğurladığı maldan mənfəət aparmayıb. Belə işlərə

Allah heç razı olarmı?.. Əlbəttə, olmaz!.. Əstəğfürullah, tövbə! Allahın lənətinə gəlsin kor şeytan!

Bu mətləb muzduru dahaca artıq ehtizarə gətirdi. Allah xofu var vücudun culğadı. Oğurluq peşəsi murdar iş olduğuna dahaca güclü etiqad bağladıqda əlindəki dövləti ədalət divanına yetirməyə niyyət qoydu.

* * *

Muzdur Məşədi Əsgər rusca danışmaq bilmirdi. Ömründə divandərə görməmişdi. Pristav adı gələndə haylə bilirdi ki, əzrail gəlib. Prokuror kim olduğun əsla anlamırdı. Silistçidən bağrı yarılırdı. İndi biçarə dəstmalçı[1] bəla toruna ilişdikdə ürəyi əsə-əsə bir az gedib, yol ayrıcında dayandı. Cavan bir müsəlman yol ilə gedirdi. Fövrən ona tərəf yönəlib dedi:

– Ağrını alım, a bəy, de görüm Bakıda müsəlman miravoy varmı?

– Yoxdur.

– Silistçi necə? Pirkulul necə?

– Silistçi yoxdur, silistçi yeri dolandıran var.

– Bəs qadavı allam, onun yerin mənə göstər, ona ərzim var.

Cavan barmağı ilə göstərərək dedi:

– Bax, a kişi! Həmin bu küçə ilə gedərsən, qabağına bir bağça gələr, orada soruşarsan, silistçi harada olur, sənə göstərərlər.

Muzdur, cavana dua eləyə-eləyə həmin küçə ilə getdi, silistçinin kamerasın tapdı. Silistçinin qapıçısı Səfərəli Məşədi Əsgərdən hal-əhval sorduqda, o isə yalandan dedi ki, silistçi ağanın əmanəti vardır, öz əlinə tapşırılacaqdır. Səfərəli kamera (hücrəyə) girib Məşədi Əsgərin sözlərin xəbər verdi.

Silistçi Sədrəddin bəy nəcib adamlardan birisi idi, həmişə millətdaşların halına yanıb, divanxanalarda onlara kömək edərdi. İndi Məşədi Əsgəri qapıda çox ləngitməyib içəri çağırdı. Məşədi Əsgər içəri gircək ikiqat olub Sədrəddin bəyə baş vurdu və ağlaya-ağlaya ərzi-hal edib dedi:

– Sənə atam qurban, a bəy... Mənim boynum, sənin qılıncın. İstərsən öldür, istərsən bağışla... Bir qələtdir eləmişəm, Allahın əmrindən qaçmışam, peyğəmbərin şəriətindən çıxmışam... İndi ixti-

[1] Dəstmalçı – gəmidə işləyən muzdur



yar sənindir, al bu çamadanı, hər nə cür lazım isə, haylə elə. Məni istərsən göndər Sibirə, istərsən dolandır uşaqların başına, bağışla.

Sədrəddin bəy gözündəki parlaq qızıl eynək dalısından muzdura baxdıqda əhvalatın nə olduğun qanmayıb dedi:

– A kişi, mətləb nə isə aşkara de görüm, yoxsa mənim vaxtım yoxdur ki, sənin ağlamağına qulaq asım.

Məşədi Əsgər gözünün yaşını silibən dedi:

– Başına dönüm bəy! Ömrüm olanı mən oğurluq eləməmişdim, bir kəsin bir qəpiyinə göz dikməmişdim, amma keçən gecə məlun şeytan mənim qəlbimə girib, məni yoldan çıxartdı, tanımadığım uzunboylu, qarabığlı, güşbərəpapaqlı bir adamın çamadanın götürüb qaçdım... Budur, qulluğuna gətirmişəm... Çamadanın içində altmış doqquz min manat kağız pul və bilmirəm nə qədərsə, üç yüz də imperial vardır.

Məşədi Əsgərin ağzından pulun qədərin eşitcək silistçi təhəyyür ilə ayağa qalxdı və əlindəki qələmin ucun alnına qoyub dedi:

– Aha... Bu pul Petrovskidə Hacı Məhəmmədhüseynin sandığından oğurlanan pul olacaqdır.

O saat kağız götürüb Məşədi Əsgəri silist etməyə başladı və əhvalatı kəənnəhu yazıb mizin üstündəki zəngi vurdu. Biçarə muzdur yəqin etmişdi ki, silistçi onu tutduracaqdır, ağlamağa başladı və ağlaya-ağlaya:

– Bu iş şeytan işidir, – deyib istiğfar edirdi.

Sədrəddin bəy ona təsəlli verib dedi:

– Kişi, bu iş şeytan işi deyil, bəlkə Allah işidir ki, çamadanı sən götürüb qaçmısan. Pul oğurluq puldur. Mən, Allah rizasına, sənə kömək edərəm, sənə heç nə olmaz.

Bu halda Səfərəli hücrəyə girdi. Sədrəddin bəy ona buyurdu ki, fayton çağırsın. Fayton hazır olcaq, silistçi çamadanı öz əli ilə faytona qoyub, Məşədi Əsgəri də öz yanında əyləşdirdi və faytonu birbaşa prokurorun yanına sürdürdü.

* * *

Sədrəddin bəy prokurorun hücrəsində bir saat çağlı qalıb əhvalatı bəyan edirdi. Məşədi Əsgər dəhlizdə əli qoynunda dayanıb nə olacağı gözləyirdi. Axır, qapı aralandı. Sədrəddin bəy Məşədi Əsgəri

içəri çağırdı. Prokuror muzdurun tərkibinə və üst-başına baxıban təbəssüm edərək, mizin üstündə cəmlənmiş yetmiş iki min manatı ona göstərib, rus dili ilə bir-iki söz dedi. Muzdur rusun dilin başa düşməyib dedi:

– Sənə qurban olum, pirkulul ağa, məni padşahın başına çevir, təqsirimdən keç, and olsun getdiyim ağanın qızıl günbəzinə ki, ömrüm olduqca daha oğurluq eləmərəm.

Prokuror Sədrəddin bəylə sual-cavab başlayıb Məşədi Əsgərin qoluna nə olduğunu soruşdu. Məşədi Əsgər başına gələn qəziyyəni, qolu sınıb yazıq olduğunu söylədi. Sədrəddin bəy onun halına yanıb, öz cibindən on manat ona verdi və dedi:

– Al, bu on manatı hələliyə xərclə, inşallah, mən sənə yenə kömək edərəm. Amma bu əhvalatı məbada ki, bir adama deyəsən. Sən get, evində gözlə, lazım olan vaxt səni çağırtdıraram.

Dəstmalçı şadlığından sağ əlin yuxarı qaldırıb Sədrəddin bəyə və prokurora dua elədi. Sədrəddin bəy onu mürəxxəs edəndə adresin bu tövrlə yazdı: "Bakı, Qanlıtəpə küçəsi, 333-cü nömrəli xüsusi evində, Dərbənd nahiyəsi sakini Məşədi Əsgər Zərbəli oğlu".

* * *

Sədrəddin bəydən aralanandan sonra indi üçümcü gün idi ki, sınıqqol dəstmalçı öz arvad-uşağı ilə rahatlanırdı. Şahsənəm əhvalatdan bixəbər, kişinin cibində pul cınqıltısını eşidib, fərəhlənirdi və doyunca şorba yeyib hala gəlmişdi. Uşaqlar da aclıqdan çıxıb evdə çörək tapıldığına şadlanırdı. Həmin üçümcü gündə ki, oktyabrın iyirminci günü, şəhər qəzetində rusca belə bir elan oxundu:

### Elan

"Şimal" qəstinsəsinin sahibi-imtiyazı tərəfindən Bakı əhalisinə və Bakıya gələn müsəlfirlərə elan ola ki, srağagün bir nəfər müsəlman muzdur gecəyarısı saat birdə mənim qəstinsəmə gəlib, mənim yanımda beş manata bir çamadan girov qoyubdur ki, mənim pulumu gətirib çamadanı aparsın, amma indiyəcə gəlib çıxmayıbdır. Çamadan hələ mənim yanımda əmanətdir və ağzı qıfıllıdır. Mən belə güman edirəm ki, həmin çamadan oğurluqdur. Muzdur dalısınca



gəlməyir. Ona binaən bu elanı yazıb çamadan sahibin xəbərdar edirəm ki, əgər filvaqe çamadanın sahibi varsa, bu gün saat dördə mənim qəstinsəmə təşrif gətirsin və beş manatımı verib malına sahib olsun, yoxsa çamadanın ağzın açıb içindəki var-yoxu özümə mal edəcəyəm.

*Bəndəniz N.N... ov.*

Bu elan Sədrəddin bəyin təhriki ilə yazılmışdı ki, Petrovskidə tacir Hacı Məhəmmədhüseynin pulun aparan oğrunu tuta bilsin. Sədrəddin bəy bu elanı qəzetdə buraxıb "Şimal" qəstinsəsinin sahibi-imtiyazı ilə şərtləşmişdi ki, çamadan sahibi hər kəs isə elanı oxuyub çamadandan ötrü qəstinsəyə gələcəkdir və gələndə onu söylədib çamadan onunku olduğun sabit etdirsin.

Həmin gün Sədrəddin bəy tərəfdən yasavul gəlib Məşədi Əsgəri çağırdı. Günortadan sonra saat 3-də Sədrəddin bəy Məşədi Əsgəri götürüb "Şimal" otelinə getdi. Otelin 16-cı nömrəsində çamadan miz üstündə qoyulmuşdu. Nömrənin qonşuluğunda vaqe olan 17-ci nömrədə Sədrəddin bəy muzdurla gizlənmişlərdi və onlar ilə belə bir nəfər jandarm və iki nəfər qazaq var idi. 16-cı və 17-ci nömrələrin arasında olan taxta qapı mətqəb ilə iki yerdən deşilib gizlincə baxmaq üçün göz yerləri qayrılmışdı ki, oradan baxdıqda 16-cı nömrənin içi aşkar görünürdü. Sədrəddin bəy Məşədi Əsgərlə bərabər 17-ci nömrədə müntəzir dayanıb, saat dörd tamamın gözləyirdi və gah-gah deşiklərdən 16-cı nömrəyə baxırlardı.

Saat dörd tamamında 16-cı nömrənin qapısı açıldı. Otel sahibi və onun dalısınca bir əcnəbi nömrəyə girdilər. Məşədi Əsgər əcnəbini görcək çamadan sahibi olduğun Sədrəddin bəyə pıçıltı ilə xəbər verdi. Otel sahibi öz növbəsində Sədrəddin bəy verdiyi dəstürüləməl ilə əcnəbiyə xitab edib soruşdu:

– Ərbab, bu çamadan sizindirmi?

Əcnəbi fövrən:

– Bəli, mənimdir, – deyib iqrar etdi və çamadanın üstündəki bürünc lövhə üstündə həkk olunmuş rusi "F." və "B." hərflərinə işarə edib dedi:

– Həmin hərflər ki, görürsünüz, mənim adımın və familiyamın baş hərfləridir ki, çamadanın içindəki kömlək və zircamələr üstündə həm qırmızı sapla tikilibdir.

Bununla belə, bədbəxt əcnəbi çamadanda olan şeyləri tərtib ilə sanalayıb, hamısının nişanlarını söylədi. Bunun söylədiyi sözləri silistçi Sədrəddin bəy kəənnəhu yazırdı. Axırda otel sahibinin təklifinə görə, öz cibindən bir balaca açar çıxarıb öz əli ilə çamadanı açdı. Filhəqiqə necə ki, demişdi, həmin nişanlar hamısı doğru idi. Çamadanın içində kətandan tikilmiş yarım düjün ağ dəyişək, yarım düjün ipək dəstmal və uzunqunc corab, hamısının qıraqları al sap ilə "B." "F." hərfləri tikilmişdi. Bu şeylər çamadandan çıxarılıb miz üstünə qoyulandan sonra, çamadanın dibində iki bağlama kağız və qeyri xırda şeylər nəzərə gəldi. Otel sahibi bağlamalar açılmasına təkid elədi, amma əcnəbi hirslə ona rəddiyyə verib dedi:

– Gördüyünüz nişanlar isbat edir ki, çamadan mənimkidir. Bu qədər sizə kifayətdir. İltimas edirəm, beş manat girov pulunu prosenti ilə qəbul edib, əmanətimi mənə qaytarasınız.

Otel sahibinin təkrar təkidinə çamadan sahibi dahaca şiddətli rəddiyyə verib dedi:

– Bağlamalarda mənim gizli kağızlarım, dokumentlərimdir. Onlara baxmağa sizdə həqq yoxdur.

Bu anda Sədrəddin bəy qonşu otaqdan ara qapını açıb, yanında Məşədi Əsgər və iki nəfər qazaq və jandarm ilə nömrəyə girdilər. Sədrəddin bəy əcnəbiyə xitab edərək dedi:

– Ərbab, gizlin bağlamaları açmağa otel sahibinin həqqi yox isə, zakon gücü ilə onları açmağa mənim həqqim və ixtiyarım vardır.

Bədbəxt əcnəbi iş nə yerdə olduğun o saat anladı...

Qaranlıq, çovğunlu gecədə çamadanı qapıb qaçan tayqol dəstmalçı indi onunla rubəru dayanıb, gözünün içinə baxdığında guya zəbani-hal ilə deyirdi:

– Xozeyin, ver çamadanı mən aparım, sənə zəhmət olar...

Zirək oğlu tələyə düşdüyün görüb çar-naçar uca səslə dedi:

– Cənab silistçi, mən tələyə düşmüş qurdam... Başım üstündə durmuş ovçulardan qaçmayacağam. Al qələmi əlinə, yaz... Mən özüm öz dilim ilə iqrar edirəm ki, Petrovskidə tacir Hacı Məhəmmədhüseynin yetmiş iki min manat nəqdin aparan oğru mənəm. Həmin nəqd bilkülliyə çamadanın içindədir, altmış doqquz mini kağız, baqi üç mini qızıl puldur... İndi mənim növbəm keçdi, növbə sizindir, hər nə bilirsiniz ediniz...



Bu sözlərin müqabilində Sədrəddin bəy dedi:

– Bəli, indi növbə mənimdir və mən də öz növbəmdə qazaqlara buyururam ki, sənin qolunu bağlayıb həbsə aparsınlar.

* * *

Sədrəddin bəyin buyruğuna görə, qazaqlar oğru əcnəbinin qolun bağlayıb qazamata apardılar. Olar gedəndən sonra Sədrəddin bəy çamadanı əlinə alıb, Məşədi Əsgərə dedi:

– Görürsənmi, Məşədi qardaş, Allah-taalanın belə-belə sirləri vardır: Allah-taala o padşahdır ki, sınıqqol muzdurun əli ilə hünərli oğrunu tutdurub, qollarını arxasına bağladır. Padşahlar padşahı hesab olunan Allah-taala özünün zakon kitabında, yəni Qurani-məciddə buyurubdur: "Əssarüqü vəssariqə fəqətü əydihuma", – yəni oğru kişi və ya oğru övrət hansı olsa olsun, əlin kəsməlidir.

Bu ayənin məzmunundan aşkara anlanır ki, burada əsil mətləb əl kəsmək deyil, bəlkə oğurluğun kötüyün kəsməkdir. Oğurluq o payədə yaman qəbahətdir ki, əl kəsilsə ondan yaxşıdır ki, daha bu qəbahət təkrar olmasın və ya ki, təkrarı çətin olsun.

Əl kəsməkdən ibarə, əlbəttə, o deyil ki, əli balta altına qoyub qələm edəsən... Əl kəsməkdən ibarə odur ki, haylə intibahlı tədbirlər çəkməlidir ki, heç kəs əlin oğurluğa uzada bilməsin və yaxud uzadmasın, yəni oğurluq haman iş olduğun anlasın. Oğurluğun qəbahətin yaxşıca anlamaqdan ötrü qanacaq lazımdır ki, şəriətin intişarına bağlıdır.

Əgər insanlar Allah qoyduğu şəriətlə zindəganlıq etsələr, əlbəttə ki, dünyada hərgiz oğurluq ola bilməz, çünki heç kəs oğurluqda olan murdar qəbahəti boynuna götürməz... Amma çifayda! Elm və şəriət hala o dərəcədə intişar tapmayıbdır ki, hamı insanlar insanlıq şərəfin anlayıb, vicdan ismətin saxlaya bilsinlər.

Kamil insan öz əlin oda soxmaz, amma nadan tifil çıraqda işıq və ya manqalda alov görcək hər iki əli ilə onu qapmaq istər! Şəkk yoxdur ki, tifil əqlə dolandan sonra daha əli ilə od qapmayacaqdır. Amma böyüklər o vaxtı gözləməyib, tifilin nadanlığı əyyamda mühafizətinə tədbir çəkmək borclarıdır, yəni tifili bəladan saxlamaq üçün yandırıcı odu onun ətrafından rəf etməlidirlər və əgər bu tədbir

mümkün deyilsə, onda naçarlıqdan tifilin qollarını müvəqqətən kəsməlidir ki, bu bağlamaqdan ibarətdir.

Oğurluq təmsilən bir oddur ki, ona əl uzadacaq bədvicdanların əlin piş əz vəqt kəsməlidir, yəni vicdan iddiası edən şəxslərə borcdur ki, hayla tədbirlər çəkələr ki, oğurluğa həvəs edən şəxslər dünya işində nə qədər zirək olsalar da, şəriət yolunda nabələd və elm yolunda əhvəldirlər, yəni vicdanda nadan uşaq kibidirlər.

Dünya dolanacağında sadir olan xatalı işlərin səbəbi hamısı cəhalətdir. Cəhalətin də səbəbi odur ki, bəzi nainsaf şəxslər xatalı səbəblərə görə, abır kəsb edib, özgələrin tərəqqi tapmağına xələl verirlər, yəni zor ilə əvamünnasın qabağın kəsib, elm və şəriət tərəfə yol vermirlər.

Şəkk yoxdur ki, zəmanə öz gücün göstərib, aciz məzlumları zorlu zalımların təsəllütündən qurtaracaqdır... Onda ürf işığında hər kəs pak ilə napak fərqini görüb, əlbəttə ki, murdar cəmdək üstünə qədəm qoymayacaqdır, yəni ürfdə göstərilmiş üsyan işlərdən ictinab edəcəkdir. İndicə qolların bağlayıb qazamata göndərdiyim əcnəbinin əlin mən öz əlimlə "kəsdim", çünki o əcnəbi əgərçi məişət yolunda hünərli əyyardırsa da, lakin vicdan dövrəsində azğın düşmüş bir zatdır. Mən onun əlin "kəsdim" ki, o daha oğurluğa qadir olmasın. Amma bir vaxt olar ki, maarif məşəlinin işığı aləmi basar; ölkələrdə, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə, obalarda məktəblər bina olunar, qiraətxanalar açılar, əsil ürf tiryəki insanların təbiətinə yerləşib vicdanlarına sirayət edər... Onda əl "kəsmək" məsələsi o mənada istemal olur ki, hər kəsin başı üstündə öz vicdanı qılınc olub dayandıqda əlləri hərgiz oğurluğa uzana bilməz...

Mütədəyyin dəstmalçı müsəlman silistçinin sözünə guş-huş ilə qulaq verdiyində anladı ki, şəriətdə oğurluq nəhayətcə böyük günah hesab olunur. Allah-taala buyurubdur ki, oğrunun əli kəsilməlidir ki, daha bir də oğurluq eləyə bilməsin... Bəs indi ki, belə imiş, onun əli lap oğurluqdan qabaq kəsilsə yaxşı olmazmı?

Bu mətləbdə Məşədinin öz qolu sınmaq yadına düşdü, fikri çaşdı, gözləri Sədrəddin bəyin üzünə baxdıqda, batini aləmində özgə bir şey axtarmaqda idi ki, Sədrəddin bəy ona xudahafiz edib mürəxxəs elədi.



* * *

Dəstmalçı Məşədinin batini aləmində özgə bir təcəlla nuru işıqlanırdı; evinə getdiyi yolda yavaş-yavaş qədəm götürüb, qol kəsmək məsələsin ciddən fikrinə doldurdu; bəli, oğrunun qolun kəsməlidir!.. Bəs o adam ki, oğurluq eləyəcəkmiş, onun qolu lap oğurluqdan qabaq kəsilsə yaxşı olmazmı?..

Burada dəstmalçı bir az dayandı. Gözün çöndərib öz sınıq qoluna baxdı. Qocaman filosoflar kibi vüqar ilə başın silkələyib öz-özünə cavab verdi: "Yox, belə deyil! Budur mən özüm... Nə qədər ki, mənim qolum sınmamışdı, ömrümdə oğurluq eləməmişdim, heç eləməzdim də, lap boğazımdan dar ağacına çəksəydilər də... Amma qolum sındı, Allahın gözündən düşdüm, güşbərəpapağın çamadanın qapıb qaçdım... Bu ki lap aşkarbaz oğurluqdur! Bəs necə olsun? Sədrəddin bəy buyurur ki, bir vaxt olacaq heç kəs şəriətdən çıxmayacaq... Bu yaxşı sözdür. Adam gərək şəriətin bilsin. Sədrəddin bəy kimi adamların sözünə gərək qulaq assın".

Birdən Məşədi Əsgərin fikrinə düşdü ki, a gədə... Sədrəddin bəy axund deyil, əfəndi deyil... urusu oxumuş, başısaçlı, güşbərəpapağın birisidir... Şəriəti axundlar bilər, müctəhidlər bilər... Çıxarlar minbərə moizə deyərlər, mərsiyə oxuyarlar, xalq da ağlar...

Burada Məşədinin fikir riştəsi qırıldı, Məşədi öz-özünə dedi: "Yox, sən də nahaq danışdın, indi sənin qırx yaşın var, saqqalına dən düşüb, bəs nə üçün indiyəcə axundlar, mərsiyəxanlar Allahın şəriətini sənə öyrətməyiblər?.. Mən ki əlhəmdülillah, məscidə gedənəm, məhərrəmidə, orucluqda haçan ki, bizim gəmi bargahda bağlanıb, mən məsciddə mıx kibi mıxlanıb oturmuşam; axundların, mərsiyəxanların lap yaxşısına qulaq asmışam, amma heç belə sözlər eşitməmişəm ki, bu gün Sədrəddin bəy buyurdu... Allah lənət eləsin Şümürə! Elə Şümürdür, cəhənnəmin ilan-qurbağası!.. Amma söz Sədrəddin bəyin sözüdür, adamın ürəyinə yağ kimi yayılır... Nə yaxşı olardı ki, Sədrəddin bəy axund olaydı!.. Çıxardı minbərə moizə deyərdi, mərsiyə oxuyardı, adam ləzzət aparardı... Ax, kaş ki, Sədrəddin bəy mərsiyəxan olaydı!.."

* * *

Məşədi Əsgər axşam şam yeyib, namazın qıldı. Başın balışa qoyub yatanda bugünkü mənzərə xəyal aləmində gözünün qabağında idi. Sədrəddin bəyin rəftarı və danışdığı sözlər fikrində yenə təkrar olunurdu:

– Sədrəddin bəy çox ağıllı adamdır, çox da yaxşı adamdır. Ax, kaş ki, bu cür adam axund olaydı, mərsiyəxan olaydı, çıxardı minbərə, moizə deyərdi, mərsiyə oxuyardı, adam ləzzət aparardı...

* * *

Məşədi bu fikirlərdə yatdı. Mərsiyəxan xəyalatı Məşədinin fikrin məscidə, minbərə cumdurdu, həmişəki minbər, həmişəki palçıqlı başmaqlar!.. Sədrəddin bəyin heykəli gəldi, durdu minbərin başında, başladı mərsiyə oxumağa... Mərsiyəni kəsdi, başladı pul yığmağa:

– Veriniz... Hacı Eyvaz iyirmi beş manat, Allah ona bir də Kərbəla qismət eləsin!.. – Sonra üzün çöndərib Məşədi Əsgərə acıqlı səslə qışqırdı. – Ay Məşədi, nə üçün dayanmısan, sal əlini cibinə, çıxart on manat. Yoxsa bir nifrin edərəm, o biri qolun da sınar!..

Məşədi baxdı, gördü ki, başı əmmaməli bu mərsiyəxan haman güşbərəpapaqlı silistçidir ki, bir həftə bundan qabaq utana-utana əlin salıb öz cibinə on manat ona verdi ki, "al bu on manatı, hələliyə əyalına xərc elə, inşallah, yenə mən sənə kömək edərəm..."

Sədrəddin bəyin belə ədasından Məşədi Əsgər utanıb başın aşağı saldı. Sonra qorxaqca gözün qalxızıb gördü ki, Sədrəddin bəy əmmamə qoyandan sonra nəinki sifəti və bəlkə niyyəti də pozulub; dünənki Sədrəddin bəy ki hələ öz cibindən pul verəndə utandığından qızarırdı, indi təməh atəşi ilə gözlərin işıldadıb pul tələb edir:

– Veriniz! Gərək verəsiniz ki, biz də dolana bilax... Vilayətdən gəlmişux, əliboş gedə bilməyəciyux ki...

Dəstmalçının ürəyi başladı iztirabla döyünməyə. Silistçi dönüb mərsiyəxan olduğun görəndə ürəyi hiss elədi ki, sabah bu mərsiyəxan vilayətə gedəndən sonra daha bununla bərabər pirkulul yanına kim gedəcək? Bəs onda necə olar?.. Sədrəddin bəy olmasa pirkulul ayağın yerə döyüb dəstmalçını, əlbəttə, qazamata göndərəcək!..



Dərmandə dəstmalçı başladı ağlamağa:

– Sənə qurban olum, ay Sədrəddin bəy! Mənə yazığın gəlsin, getmə vilayətə... Sizin kibilər olmasa, bizim kibilər pamal olarıq... Allah xatirinə, peyğəmbər rizasına, düş minbərdən aşağı, at yerə əmmaməni... Qoy başına güşbərəpapağı... Al əlimi əlinə, divandan məni xilas elə... Mənə yazığın gəlsin. Balalarımı çöndər başına. Ö... ö... ö... hö... hö... hö... hö!

Bu anda Məşədi gördü ki, arvadı Şahsənəm onu oyadır ki, a kişi, ayıl, görüm sənə nə olub ki, belə bərkdən ağlayırsan? Məşədi gözün açdı, gördü ki, balaca uşaqları da atasının ağlamasın eşidib yuxudan ayılıblar, ağlaşırlar.

Dəstmalçı başın balışdan qalxızdı, gördüyü yuxunu gözünün qabağından keçirib anladı ki, xudanəkərdə, əgər Sədrəddin bəy mərsiyəxan olsaydı, bunun işi, Allah bilsin, nə tövr olacaqdı... Pul ver, vəssalam![1] Dəstmalçı fövrən əlini göyə qalxızıb arvad-uşağına dedi:

– Amin diyiniz!

– Amin!

– Xudaya, sən Sədrəddin bəyə uzun ömür ver!

– Amin!

– Allah, sən elə elə ki, o cürə silistçilərin sanı min olsun... Heç biri dönüb mərsiyəxan olmasın!

– Amin, amin!

– Allah, sən haylə elə ki, Sədrəddin bəy kibi min pirkulul olsun, min mirov olsun, qobumat olsun... Lap pristav olsun...

– Amin, amin, amin!

– Allah, sən haylə elə ki, bular hamısı Sədrəddin bəy kibi yaxşı adamlar olsun, rəhmli olsun, Məmməd Qulu bəy kibi zalım olmasın, tamahkar olmasın, rüşvətxor olmasın!

– Amin, amin, amin!

[1] Mərsiyəxan əksərən haylə bir vücuddur ki, pul dalınca Arazı piyada keçib, məsciddə adamları basa-basa minbərə çıxmağa həmişə mahirdir. Mərsiyəxan min dəfə minbərə çıxıb min bir dəfə minbərdən düşməsindən heç bir kəsə bir həbbə mənfəət görünmədikdə, bəlkə özgə naxunəklərdən maədə hər bir əvamın cibinə bir neçə tümən də zərərdir. Mərsiyəxan oxuduğu nağıllar hərgiz şəriət dərsi olmadıqlarından, nəinki yadda saxlamalı, bəlkə yaddan unudulmalı əfsanədir.

* * *

Səhər açıldı. Məşədi Əsgəri çağırmağa yasavul gəlib, Sədrəddin bəyin hüzuruna apardı. Bu qərar ilə tamam bir həftə dəstmalçı Məşədi Əsgəri hər gün çağırıb aparırlardı. Silistçi, mirovoy, prokuror, hərəsi növbənöv sual-cavab ilə dəstmalçını silist edib buraxırlardı.

Həftə başında Sədrəddin bəy Məşədi Əsgəri götürüb akrujnoya apardı. Akrujnoyda gəlib-gedən çox idi. Sudyalar işlərə baxıb gah gedib, gah gəlirlərdi. Axır Məşədi Əsgərin işinə baxmağa başladılar. Məşhur çamadan və çamadan içindəki yetmiş iki min manat nəqd və qeyri əcnas hamısı divanxana mizinin üstündə hazır idi. Sudyalar köhnə sual-cavabı yenə təkrar elədilər. Məşədi Əsgər sual-cavab altında lap təngə gəlmişdi ki, sudyalar qalxışıb yan otağa getdilər və sonra yenə qayıdıb işə baxmağa başladılar. Məşədi Əsgərin aşnası prokuror uzun-uzadı nitq söylədi. Dilmanc nitqi tərcümə elədi, amma dəstmalçı çəndan başa düşmədi. Sudyalar bir də qalxışıb yan otağa getdilər. Sonra yenə qayıdıb kitabları açdılar. Ən ortalıqda oturan bığıqırxıq sudya oxudu, oxudu, axırda dayandı. Dilmanc onun oxuduğun Məşədiyə tərcümə edib dedi:

– Gəmi dəstmalçısı Məşədi Əsgər Zərbəli oğluna məlum olsun ki, Petrovski şəhərində tacir Hacı Məhəmmədhüseyn ki, onun yetmiş iki min manat pulun aparmışdılar, özü öz həsbi-xahişi ilə vəd edibdir ki, hər kəs pulu tapsa və oğrunu tutdursa, pulun iyirmi prosenti, yəni manata bir abbasısı onun olsun. Yetmiş iki min manatın iyirmi prosenti eləyir on dörd min dörd yüz manat. İndi həmin məbləğ sən Məşədi Əsgər Zərbəli oğluna çatasıdır. Amma sən oğrunun çamadanın gecəyarısı Telefon küçəsində qapıb qaçmaqda müqəssir hesab olunursan, çünki prokurorun təsəvvürü budur ki, sən Məşədi Əsgər bu barədə oğruya zülm edibsən. Cənab prokurorun bu təsəvvürün mənzurə alıb sudyalar istəyirlər ki, sənə qazamat kəssinlər, amma sən öz-özündən peşman olub, Allah yoluna qayıtmağına görə, divan sənin təqsirini yüngülləşdirib iyirmi beş manat səni cərimə edibdir. İndi sənə vüsul olası on dörd min dörd yüz manatdan iyirmi beş manat cərimə çıxıb, baqi on dörd min üç yüz yetmiş beş manat nəqdi sənə verəcəkdir. Qol qoyub həqqinə yetişə bilərsən.

Məşədi Əsgər dilmancın sözlərinə hərçənd çox diqqətlə qulaq asırdısa da, amma yaxşı başa düşə bilməyirdi. İş kəsilib qurtarandan sonra Sədrəddin bəyə xitab edib soruşdu:



– Ağrını alım, bəy, axırı mən bilmədim ki, pirkulul ağa məni qazamata göndərir, yoxsa cərimə edir.

Sədrəddin bəy onun avamlığına gülüb dedi:

– Səni qazamat əvəzinə həccə göndərəcəyəm. Hala müstəte olmaq üçün kağıza qol çək, pullarına sahib ol.

Ömründə əlinə qələm almamış muzdur qol çəkməyin heç təhərin də bilmirdi. Mirzə Avanes adlı bir nəfər çalbaş erməni bir manat alıb Məşədi Əsgər Zərbəli oğlunun bisavad olub təvəqqəsinə görə qol qoydu.

Sədrəddin bəyin əli ilə on dörd min üç yüz yetmiş dörd manat əskinas pulu dəstmalçı Məşədi Əsgərin qoltuq cibinə qoydular. Dəstmalçı pulu alandan sonra təhəyyürdə qalıb soruşdu:

– Sənə qurban olum, a bəy, bircə de görüm, məni yenə də divanxanaya gətirəcəksiniz?

Sədrəddin bəy cavabında yenə dedi:

– Məşədi, hərgah peyğəmbərin şəriətinə inanıb, sidq könüldən oğurluğu tövbə edirsənsə, daha divan hüzuruna gəlməzsən.

Məşədi gözünün yaşın silib kərrat: "tövbə, tövbə", – deyərək Sədrəddin bəyə baş vurub evinə getdi.

* * *

Dövlətlənmiş dəstmalçı əvvəl macallarda cibindəki məbləğə çəndan qiymət qoymurdu. Pul yaxşı şey olduğunu hərçənd anlayırdısa da, amma çəndan hərisi deyildi. Amma qonum-qonşu ona hörmət və təməllüq etdiklərini görəndən sonra müayinə anladı ki, pul çox olduqca, adamın zoru və ehtiramı da çox olurmuş.

Gündə dörd abbasıya möhtac olan muzdur indi minlərə sahib olduğundan başına gəlmiş qəziyyəni Allah-taalanın iradəsi olduğun bilib, kəsbkarlığa qədəm qoydu.

* * *

Pul alandan bir-iki həftə sonra Məşədi Əsgərin qolu saf-sağaldı. Ən uşaqlığında zəhmətə adət etmiş Məşədi gəmiçilik işinə mahir olduğunda özü üçün barkaz alıb işlətməyə şüru etdi. Zəhmətkeş hünərli gəmiçi bir-iki ilin ərzində yaxşıca pul qazanıb əlavə yenə bir barkaz və iki xırda gəmi aldı. Özü öz işinə həm ağa, həm qul olduğunda günbəgün tərəqqi edib dövlətləndi.

* * *

Məşədi Əsgər dövlətlənəndən sonra özünün köhnə yoldaşlarından bir neçələrini başına yığıb, gəmiçilik şirkəti bina qoydu. Şəriklər bilkülliyyə zəhmətkeş, davamlı, kəsbkar kişilər olduğuna görə, beş ilin ərzində artıcaq dövlətləndilər.

Dövlətli Məşədi Əsgər özü üçün övza yaratmaqdan ötrü şəhər mərkəzlərinin birində yaxşı imarət tikdirib, Qanlıtəpədən dəniz kənarına köçdü və həccə gedib Məşədi əvəzinə Hacı ləqəbi kəsb etdi.

Hacı Əsgər tacirlər arasında ən insaflı, ən mötəbər xozeyinlərdən birisi hesab olunur. Hacı Əsgərin tavanası nəinki yetmiş iki min, bəlkə yeddi yüz yetmiş iki mindən ziyadədir. Hacı Əsgər öz malının zəkatın vaxtlı-vaxtında hümmət edib, fəqir-füqəraya və məktəb işlərinə biminnət bəzl edir.

Hacı Əsgərin iki oğlu – Ələkbər və Ələsgər Əsgərov familiyası ilə gimnaziyada oxuyurlar. Gimnaziyada ana dili qədərincə oxudulmamağa görə, axşamlar türk ədəbiyyatı oxuyub öyrənirlər.

Hacı Əsgər öz uşaqlarına baxıb fərəhlənir. Muzdurluqda keçirtdiyi çətin günləri yadına salıb, öz arvadı Şahsənəm xanıma həmişə tapşırır ki, evdəki qulluqçularla xoşrəftar olub, qapıya gələn fəqir arvadlara əl tutsun və onlara ənam verəndə üstlərinə minnət qoymasın.

Hacı Əsgər keçmişdəki fəqirliyin hərgiz unutmur. Sınıq qol ilə qaranlıq gecədə güşbərəbörk əcnəbinin çamadanın götürüb qaçmağını və səhəri günü çamadanı ədalət divanına qaytarmağını fürsət düşəndə uşaqlarına söyləyib vəsiyyət eləyir:

– Balalarım, mən dərs oxumamışam, avam qalmışam, çox mətləblərdən xəbərim yoxdur, amma şükür Allaha ki, ürəyimdə Allah xofu olduğuna görə, indi bir parça halal çörəyə malik olmuşam. Siz məndən xoşbəxtsiniz ki, dərs oxumağa nail olmusunuz... Allahdan istiğasə edirəm ki, siz hər ikiniz məktəbə davam edib, Sədrəddin bəy kimi abrazovannı olasınız, onun kibi səbriniz, qeyrətiniz olsun ki, ta bərk məqamlarda mənim kibi avam, aciz adamlara köməyiniz dəysin, inşallah abrazovannı olanda çox şeylər biləcəksiniz, amma mən bu avamlığımda bir-ikicə kəlmə vəsiyyətim var, sizə deyim, qulağınızda saxlayınız:

– Ürəyinizdə Allah xofu olsun.

Vəssalam!



# İBRAHİM BƏY MUSABƏYOV

(1881-1942)

*İbrahim bəy Musabəyov Şəki qəzasının Qutqaşen kəndində doğulmuşdur. Qori Müəllimlər Seminariyasını bitirmiş, Şəki, Qutqaşen, Göyçay və Bakıda müəllimlik etmişdir. O, 1921-1936-cı illərdə Krımda yaşamış, müxtəlif işlərdə çalışmışdır. 1937-ci ildə həbs olunmuş, 1942-ci ildə Karakanda şəhərində vəfat etmişdir.*

*Bədii yaradıcılığa XX əsrin əvvəllərində başlayan İ.Musabəyovun ilk hekayələri 1913-1914-cü illərdə "Məktəb" jurnalında dərc olunmuşdur. Onun bitkin və maraqlı əsərlərindən biri "Neft və milyonlar səltənətində" povestidir. Bu əsər Bakıda bir neçə dəfə nəşr olunmuş və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Burada verilən mətn "Dünya uşaq ədəbiyyatı kitabxanası" seriyasından buraxılan "Ata və oğul" (Bakı, 1990) kitabından götürülmüşdür.*

## NEFT VƏ MİLYONLAR SƏLTƏNƏTİNDƏ

Yaxşıya yaxşı, pisə pis hər kəs deyir, hər kəs söyləyir, lakin yaxşıya səy edib pisdən nifrət edirmi və ya edə bilirmi? Nə qədər gözəl əxlaqlı bir adamı götür, sal bir pis vəsətə, bədəxlaq adamların mühitinə, bir az vaxtdan sonra görərsən ki, onun əxlaqı çevrildi, bədəxlaq oldu, öz evini də yıxdı, qeyrilərinin də. Odur ki, hər kəsi bədəxlaq görüb də bilkülliyyə onun özünü müqəssir eləməyə bizim haqqımız yoxdur, çünki təqsir onun təqsiri deyil, ancaq vəsətin, mühitin və tərbiyənin təqsiridir. Belə adamlardan birisi də Cəlil ağa idi.

Cəlil "B" şəhərində bir fağır kişinin oğlu idi. Cəlilin altı yaşı tamam olanda onun atası mərhum olmuşdu. Onun anası Zəhra isə çopur və bir gözü də kor olduğu üçün heç kəs daha onu almadı. Odur ki, Zəhra öz şəhərlərində onun-bunun qapısında işləyib, bir güc ilə özünün və balasının çörəyini qazanardı. Bədbəxt Cəlil hər gün sabah tezdən durub, ayaqyalın, başıaçıq, anasının dalınca onun-bunun qapısına gedərdi. Bu minval ilə Cəlil doqquz yaşına çatdı. İndi o,

anasına iş tutmağa daha çox mane olduğu üçün anası Zəhra onu, qoy başımdan rədd olsun, – deyə aparıb məscid məktəbinə qoydu ki, orada oxusun. Cəlil hərçənd məktəbə gedib-gəlirdi, ancaq oxuduğu bir şey yox idi, çünki molla köhnə qayda ilə dərs verirdi. Bir il böylə keçdi. İkinci ildən Cəlil çox vaxtı məktəbə də gəlməyib, vaxtını yolda qeyri uşaqlarla keçirərdi. Molla neçə dəfələrlə bunu döyərdi ki, hər gün məktəbə gəlsin, dərs oxusun, ancaq Cəlilə belə şeylər təsir eləməzdi. İki il bu minval ilə keçdi, axırda bunun əlindən molla təngə gəlib onu məktəbdən kənar elədi.

Savaşardı və çox vaxtı da başı yarılmış, paltarı cırılmış anasının üstünə gələrdi. Axırda bunun nadincliyindən anası da bezar olub, onu bir dükançının yanına xidmətçi qoydu. İndi Cəlil hər gün sabah yerindən duran kimi dükana gəlib, qulluq edərdi və dükanın qabağını süpürüb sulayardı. Haman dükanda Cəlildən başqa Qurban adlı bir xidmətçi daha var idi. Qurban otuz səkkiz, ya qırx yaşında bir ağıllı, doğru və adil bir adam idi və neçə illərlə haman bu dükanda qulluq edərdi. Qurbanın Cəlilə rəhmi gəldiyindən həmişə ona nəsihət edib, dükan işlərini və alış-veriş yollarını ona öyrədərdi. Axşamlar isə dükan bağlananda Qurban Cəlili özü ilə bərabər aparıb anasına tapşırardı.

Dörd il Cəlil bu dükanda qulluq edəndən sonra bunun anası Zəhra mərhum oldu. Bu zaman Cəlilin on beş yaşı vardı. Anasının nə gunə dəfn olmağını başarmadığından, gəlib Qurbana xəbər verdi. Qurban bu xəbəri alan kimi pul götürüb, Cəlilin evinə getdi və onun anasını dəfn elətdi. Bu gündən sonra Qurban Cəlilə yoldaşlıq yox, bəlkə də atalıq edərdi. Həmişə onu özü ilə bərabər nahara əyləşdirərdi, nəsihət edərdi və axşamlar da özü ilə bahəm aparıb evinə ötürərdi.

Cəlilin Əhməd adlı bir qonşusu vardı. Əhməd qoca və fəqir adam idi. Neçə il idi ki, onun arvadı ölmüşdü. Əhmədin Şəfiqə adlı bir qızı var idi. Şəfiqənin anası öləndən sonra Əhməd bir daha evlənməyi özünə artıq bilib, daim onun tərbiyəsilə özü məşğul olardı. Axşamlar Cəlil evinə gələndə, ya Əhməd kişi onun yanına söhbətə gələrdi və yainki Cəlil bunlara gəlib, Əhməd ilə oturub bir az vaxtını keçirərdi. Hər halda Əhməd kişi də Qurban kimi Cəlilə nəsihət edərdi ki, o, yaxşı olsun və öz kamalı ilə özünə bir parça çörək qazansın.

Cəlil də bunların hər ikisinin xatirlərini çox sevərdi və həmişə bunlar deyən kimi dolanardı.



Cəlilin anası Balaxana kəndindən idi və o vaxtı ərə gələndə atası ona haman kənddə iki desyatin yer vermişdi. O yeri Zəhra satmayıb, balası Cəlilə saxlamışdı. Zəhra bu yeri bəlkə də satardı, ancaq o zaman bu yerə heç kəs bir qəpik pul verməzdi. Həmin yeri Cəlil özü də heç tanımazdı və xəyalına da gətirməzdi ki, bir zaman bu yer artıq pula gedər. Ancaq axır vaxtlarda haman yerin ətrafında neft mədənləri əmələ gəlmişdi. Odur ki, bu yer də yavaş-yavaş qiymətlənirdi. Bu zaman Cəlil istəyirdi ki, bu yeri satıb özü üçün bir dükan açsın və canını gədalıqdan qurtarsın, ancaq Əhməd kişi ilə Qurban bunu məsləhət görməmişdilər. Odur ki, haman yer hələ onun ixtiyarında idi.

Bir gün Cəlil öz evinin qabağında oturmuşdu, bir də gördü ki, aşağıdan bir fayton gəlir. Fayton bir az yuxarıya gələndə ondan bir adam yerə düşüb dedi: burada bir Cəlil adlı oğlan var, onun evi haradadır? Bu sualı Cəlil eşidən kimi cəld yerindən durub, haman adamın yanına getdi və dedi ki, axtardığı Cəlil özüdür. Cəlili tanıyandan sonra haman adam əlini onun çiyninə qoyub dedi:

– Oğlan, mən görürəm sən bir yaxşı və ağıllı cavansan, özün də kasıbsan. Sənin Balaxanı kəndində iki desyat yerin var, gəl sən onu mənə sat. Aldığın pullar ilə alış-veriş elə, çörək qazan.

Cəlil cavab verdi ki, heç vaxt yerini satmayacaqdır. Bu cavabı aldıqda haman adam dedi ki, qorxma sən qiymətini de, nə qədər istəyirsən mən sənə pul verərəm. Cəlil Əhməd kişi ilə Qurbanın sözlərini yadına salıb, cavab verdi ki, yerini satmayacaqdır, ancaq bir hissəsini ortaqlı neft üçün verə bilər. Bu sözləri Cəlildən eşidən kimi adam dedi ki, yaxşı, mən razıyam, sabah gəl filan notariusun kontoruna, orada bağlaşaq. Bu işə bunlar hər ikisi razı olub ayrıldılar.

Bu adam Lütfəli bəy idi. Bu, "B" şəhərində məşhur dövlətlilərdən hesab olunurdu. Lütfəli bəy uzunboylu, qurcaqsaçlı, şirindilli və natiq bir adam idi. Hər kəs bununla bir, ya iki dəfə həmməclis və həmsöhbət olsaydı, yəqin onu sevərdi. Hərçənd Lütfəli dövlət dağıdan adam deyil idi, ancaq yenə məqam düşəndə içkidən, qumardan dala durmazdı. Hər bir şey, hər bir əməl, yaxşı ya pis insanda getdikcə artdığı kimi, Lütfəlinin də içki içməyi və qumar oynamağı axır vaxtlarda artmaqda və kök salmaqda idi. Odur ki, Lütfəli bəy

indi daha içkisiz nahar edə bilməzdi və qumarsız da vaxt keçirə bilməzdi. Bunlardan başqa Lütfəli bəydə qeyri nöqsanlar da yenə vardı; Lütfəli bəy xain, zalım, bəxil və dürüğ bir adam idi. Xüsusi mənfəəti üçün nəinki dostunu, bəlkə də namusunu satardı.

Sabahı günü Lütfəli ilə Cəlil notarius ilə bağlaşdılar, bir az zamandan sonra Lütfəli haman yerdə buruq qoymağa başladı. Bu zaman Cəlilin bir yerə ümidi olmadığından, yenə haman dükanda xidmətçi idi və ayda otuz manat məvacib alırdı, çünki daha uşaq deyildi, bunun indi iyirmi bir sinni vardı. Axşamlar isə gah Qurban və gah da Əhməd kişi ilə oturub, çay içərdilər və söhbət edərdilər.

İki ay da belə keçdi. Bir gün Cəlil dükanın qabağında durmuşdu. Bir də gördü ki, Lütfəli bəyin nökəri bunun yanına gəlib dedi ki, ağa, muştuluğumu ver, sənin yerindən neft fəvvarə (fontan) edib. Əvvəl zavallı Cəlil bu sözlərə inanmadı və özü telefon ilə Lütfəli bəydən əhvalatı xəbər aldı. Xülasə, bu gündən xidmətçi Cəlil oldu Cəlil ağa. İndi bu, Avropa libasında qeyrilər kimi gah faytonda, gah da avtomobildə öz işlərinin üstünə gedib-gəlirdi. Bir az zamandan sonra Cəlil ağa özünə şəhərin ən gözəl yerində bir neçə evlər də almışdı. Cəlil ağa dövlətə nail olandan sonra özünü belə dolandırırdı ki, ümdə tacirlər ona maşallah deyib, başına and içərdilər. Bu nə içki içərdi və nə də qumar oynayardı və gecələr də vaxt keçirmək üçün ya özü tacirləri dəvət edərdi, ya da özü onların evinə gedib, vaxtını keçirərdi.

Bir azdan sonra Cəlil özü yerinin qeyri tərəfində buruq qoymuşdu və o yerdən də neft fontan edirdi. Bu zaman dövlət onun başından aşıb-daşırdı. Neft yerlərindən başqa, Cəlil ağa özünə paroxodlar da almışdı.

Cəlil ağa özü keçmişdə fəqir olduğundan çox rəhmli idi və harada bir ittifaq düşsəydi, fəqirlərə, əlsizlərə külli miqdarda kömək edərdi. Odur ki, Allah da onun dövlətini, cəlalını günü-gündən artıq edirdi. Cəlil dövlət sahibi olan kimi özü ilə bərabər dükanda qulluq edən Qurbanı da yanına çağırıb artıq hörmət və məvacib ilə saxlamışdı və hər vaxt bir iş tutanda ona məsləhət edərdi və xeyir də tapardı. Qurban isə Cəlilə artıq məhəbbət və sədaqət ilə qulluq edərdi. Cəlil ağanın indi 25 sinni vardı, ancaq hələ evli deyildi. Odur ki, Qurban hər axşam oturub söhbət edəndə, ona deyərdi ki, bircə de görüm



Allah qoysa, toy nə vaxt edəcəksən? Cəlil ağa isə cavab verərdi ki, Qurban əmi, qorxma, daha az qalıb, bu yavuq zamanlarda edəcəyəm.

Bir gün sübh vaxtı Cəlil ağa evdən iş üstə gedəcəkdi. Qurban gəlib buna xəbər verdi ki, ağa, bu gün bazarda mənə xəbər verdilər ki, sənin keçmiş qonşun Əhməd kişi neçə həftə bundan əvvəl vəfat edib. Bu xəbəri eşitcək, Cəlil ağa Qurbana dedi ki, Qurban, bəs onun qızı Şəfiqə necə olub, yəqin ki, o, çox çətinliklə dolanır. Bu saat gərək mən gedib onun əhvalından xəbərdar olam və kömək edəm. Xəbər elə avtomobil hazır olsun. Bir azdan sonra Cəlil ağanın avtomobili Əhməd kişinin evinin qapısının qabağında dayandı. Cəlil ağa düz evə üz tutdu. Cəlil ağa həyətə girəndə, Şəfiqə qapının qabağında oturub nə isə özgə üçün tikirdi. Bunu görcək, cəld yerindən durub evə girdi. Cəlil isə bunu gözəlcə görmüşdü. Şəfiqə indi daha uşaq deyildi, onun 18 sinni vardı. Onun bədirlənmiş ay kimi gözəl üzünü, arxası dolusu qara və uzun saçlarını, qələm ilə çəkilmiş kimi qaşlarını, uzun və sıx kirpiklərinin altında qara və parlaq gözlərini, mərmər kimi ağ üzündə olan çökəklərini gördükdə, Cəlil ağa məbhut qaldı və birdən-birə onu sevdi, aşiq oldu.

Cəlil ağa bir az irəliyə gedib dedi ki, Şəfiqə, məni tanıyırsanmı? Mən Cəliləm, eşitdim ki, sənin atan Əhməd kişi ölüb, gəldim ki, sənin əhvalından baxəbər olub, sənə kömək edim. Necə dolanırsan?

Şəfiqə cavab verdi ki, qeyrilər üçün paltar tikib dolanır. Bu sözləri Cəlil ağa eşidən kimi cibindən 500 manat pul çıxardıb daşın üstə qoydu və dedi:

– Şəfiqə, mən gedirəm, gəl bu pulları götür, mən sənə yenə pul verəcəyəm, qorxma, səni unutmaram. – Bu sözlərdən sonra Cəlil ağa həyətdən çıxdı. Şəfiqə isə yüyürüb Cəlili bir daha görmək istədi.

Cəlil ağa avtomobildə oturub evlərinə gələndə öz-özünə söz verdi ki, qız, səni nə gunə olsa, alacağam.

Cəlil ağa evə gəlib məxmər sandalyanın üstündə əyləşib, bir əli ilə alnını sığal edə-edə fikrə getdi. O, Şəfiqənin gözəlliyini fikir elədiyi kimi, özünün indiki calalını da yad elədi və dedi: əgər mən Şəfiqəni alsam, xalq mənə nə deyər? Qız bir fəqir kişinin qızı, ancaq mən belə milyonçu, mənə eyib edəcəklər, halbuki bunda heç bir eyib yoxdur, bunlar hamısı boş-boş sözlərdir, arvad kişinin adı ilə adlanır, kişi özü dövlətli, varlı olsun, arvadın dövlətindən nə olacaq? Bu

sözlərdən sonra Cəlil ağa özünə bir daha söz verdi ki, bu barədə xalqın sözünə qulaq asmayıb, nə gunə olsa Şəfiqəni alacağam.

Bu əhvalatdan bir ay keçdi. Cəlil ağa Şəfiqəni öz evinə gətirdi və Şəfiqənin heç kəsi olmadığından, öz evində toy edib, onu özünə nikah elədi.

İndi Cəlil ağa qapısını hər vaxt və hər kəsə açardı və onun süfrəsində özündən başqa daim qeyrilər də nahar edərdilər.

Bunun evinə hər kəs gəldiyi kimi, şəriki (ortağı) Lütfəli bəy də gəlib-gedərdi. Və Lütfəlinin də xatirini Cəlil ağa çox istərdi.

Son vaxtlar da Lütfəli bəylə Cəlil ağa belə yavuq, belə mehriban dost olmuşdular ki, Cəlil ağa Şəfiqəni də ondan gizlətməzdi və Lütfəli daim bunların xüsusi süfrələrində oturub nahar edərdi və dost yox, qardaş hesab olunardı.

Şəfiqəni əvvəlinci dəfə görəndə Lütfəli bəy ona aşiq olmuşdu. Onun məhəbbəti gecə və gündüz onu narahat edərdi və o həmişə öz-özünə deyərdi ki, əgər mən evlənsəm, Şəfiqədən başqa dünyada heç kimsəni almayacağam. Çox gecələri sübhə kimi Lütfəli bəy yuxusuz keçirirdi və əgər yuxu onu həlak edib aparırdısa, dərhal Şəfiqənin əksini o, yuxuda görüb, dəli kimi yerindən qalxardı. Şəfiqəni görüncə Cəlil ağaya dost deyən və az-çox sədaqət ilə dolanan Lütfəli bəy indi ona düşmən gözü ilə baxardı. Ancaq şikar pələng caynağında olduğundan, tülkü kimi həmişə hiylə qurardı ki, şikarı oğurlansın, yainki şikardan bir pay alsın. Həmişə Lütfəli öz-özünə deyərdi ki, nə edim? İçki içməz, qumar oynamaz, şantana getməz, bəs mən nə gunə bunun evini yıxım ki, dövləti də mənə qalsın, arvadı da. Odur ki, Lütfəli bəy həmişə Cəlil ağaya içkini tərif edirdi və yalvarırdı ki, onunla içsin, lakin arzusuna nail olmazdı. Bir gün Cəlil ağa nədənsə bərk qeyzlənib evə gəlmişdi və arvadının və uşaqlarının yanına gedib görüşməmiş kabinetində oturub fikrə getmişdi. Qurban bu xəbəri gəlib xanımına əyan elədi. Şəfiqə isə durub cəld bunun yanına gedib istədi ki, onun üz və gözlərini sığal edib könlünü açsın. Cəlil ağa isə bu iki ildə əvvəlinci dəfə olaraq Şəfiqənin üzünə baxmayıb dedi:

– Məndən xilas ol, get nahar et, məni gözləmə.

Biçarə Şəfiqə ölü kimi dala qayıdıb buyurdu ki, naharı versinlər və uşaqlarını başına yığıb əvvəlinci dəfə olaraq Cəlilsiz nahara



əyləşdi. Şəfiqə Cəlilin yanından çıxan kimi Lütfəli bəy salam verib, qapıdan içəri girdi.

Cəlil ağa bunu görcək ağuşunu açıb, üstünə getdi və onu ağuşuna alıb dedi:

– Ah, Lütfəli, sən bilsən əgər, məni necə şad elədin, qəm-qüssə məni partladırdı.

– Bircə de görüm, bu nə haldır, nə olub sənə?

– Doğrusu, onu mən sənə söyləməyəcəyəm və sən də bir daha məndən sorma.

– Daha bundan nə çıxdı, bu dostluq olmadı ki?

– Lütfəli, bircə de görüm nahar edibsən, ya yox?

– Yox, bəs sən?

– Mən də yox, bu saat bərabər edərik, – deyib zəngi çaldı. Qurban daxil olub: – Ağa, nə buyurursan? – dedi.

– Xanıma de ki, Lütfəli bəy də buradadır, bu saat nahara gəlirik.

Qurban qapıdan çıxan kimi Lütfəli sordu ki, bircə mənə doğrusunu de görüm sənə nə olub? Mən səni heç belə görməmişəm.

– Ay kişi, qoy bunlar dursun, bircə mənə de görüm doğrudurmu ki, adam araq içəndə nə qədər qəmgin olur olsun kefi açılır?

– Bəs mən sənə yalan deyirəm? Əlbəttə doğrudur!

– Belə olanda, qardaş, mən də bu gün səninlə araq içəcəyəm.

Bu sözləri Lütfəli eşidən kimi neft tökülmüş lampa kimi şadlığından işıqlanıb güldü və dedi:

– Sən allah, doğrumu deyirsən? Səndənmi bu sözləri eşidirəm?

– Bəli, doğru deyirəm, bu saat sən özün görərsən.

Bu halda Qurban daxil olub, – ağa, nahar hazırdır, – dedi və dostlar qol-boyun olub, nahara getdilər. Yemək otağına daxil olanda Lütfəli Şəfiqə xanıma salam verib, uşaqları oxşayıb, dostu Cəlilin yanında əyləşdi və rumkanı bir görüb dedi:

– Bəs hanı sənin rumkan?

Cəlil:

– Şəfiqə, bu gün mən də bir az içəcəyəm. Bir rumka da mənə ver, – dedi.

Şəfiqə durub özü bir rumka da gətirdi və bunlar başladılar içməyə. Cəlil qabaqca arağı içib, üzünü turşaltdı, çünki öyrənmədiyindən, araq onun ağzını və boğazını yandırmışdı. Lütfəli isə buna baxıb öz-özünə

deyirdi ki, əcəb oldu, quş özü gəlib tora düşdü, indi daha arzularıma yetişməyimə şübhəm yoxdur və bundan sonra sağ ol Cəlilim, – deyib içdi və yemək yedi.

– Bəs sən deyirdin araq çox yaxşı içkidir, bu nə acı imiş, az qaldı gözlərim çıxsın?

– Qorxma, bu saat görərsən səni necə yaxşı edəcək və haman bəyənmədiyin acılıq sənə gələcəkdə necə ləzzət verəcək. İndi, əzizim, bir də içək, – deyib rumkaları bir daha doldurdu. Xülasə, bunlar iki-üç rumka içəndən sonra Cəlil ağanın kefi açılıb, başladı söhbət və zarafat etməyə.

Bir azdan sonra Lütfəli özü üçün bir rumka da araq süzüb: – Sağ ol, dostum, – deyə içdi və sonra dedi ki, bağışla mən sənə təklif eləmədim, çünki sən hələ öyrənməmisən.

Araq öz işini görmüşdü, şikarını dəhşətli caynaqlarına almışdı, ona görə də Cəlil ağa da: – Zərər yox, indi bir daha mənimlə gərək içəsən, – dedi və bərkdən güldü.

Lütfəli isə: – Yaxşı, mən razıyam, – deyib, rumkaları bir də doldurdu və onları toqquşdurub içdilər.

Zavallı Şəfiqə Cəlilin belə açıldığını görüb çox şad oldu və bunun baisi Lütfəli olduğundan ürəyində ona xeyir-dua elədi.

Bədbəxt Şəfiqə daha burasını düşünməyirdi ki, gözəl güllər arasında zəhərli ilanlar yatıb. Daha burasını düşünməyirdi ki, bu şadlıqda, bu gülüşdə göz yaşı, acılıq, ayrılıq görünür. Daha burasını fikir eləməyirdi ki, bu şadlığın baisi olan araq onun özünü, özündən artıq sevdiyi kişisini və iki gözü hesab olan balaları Suğranı və Əlini məmat ağuşuna atır. Daha burasını anlamayırdı ki, öz ürəyində xeyir-dua elədiyi adamın, yəni Lütfəlinin ürəyində nə günə dəni və alçaq fikirlər və arzular dövr edirdi.

Nahar qurtarandan sonra Lütfəli razılıq edib öz evinə getdi. Cəlil ağa isə Şəfiqəni və uşaqlarını busə edib, rahat olmağa getdi.

Haman gün axşam saat yeddi idi, Lütfəli bəy yerindən qalxıb öz-özünə dedi ki, dayanmaq olmaz, gərək mən nə günə olsa, Cəlil ilə görüşəm. Bu fikir ilə libasını geyməmiş telefona gedib Cəlil ağanın nömrəsini tələb elədi. Bu zaman Cəlil ağa yerindən qalxıb gördü ki, başı çox ağrıyır. Əllərini və üzünü yudu ki, sakit olsun, lakin bundan bir xeyir olmadı. Balkona çıxdı ki, bir az hava alsın. Bu halda



telefonun zəngini eşidib, cavab verməyə içəriyə girdi. Danışan adam Lütfəli idi.

– Salamünəleyküm, axşamın xeyir olsun, halın necədir?

– Lütfəli, başım çox ağrıyır.

– Zərər yoxdur. Allah kömək olsun, araqdandır, onun əlacı məndə, durma gəl bizə, mən bu saat ona əlac edim.

– Dostum, deyəsən heç gələ bilməyəcəyəm, çünki başım çox bərk ağrıyır.

– Yox, gərək gələsən, mən ölüm durma gəl, səni gözləyirəm.

– Mən ölüm deyirsən, gələrəm. Ancaq halım çox pərişandır.

Yarım saatdan sonra Cəlil ağa Lütfəlinin qapısının ağzında faytondan düşdü və Lütfəli isə qapını özü açıb onunla qol-boyun söhbət edə-edə onu düz yemək otağına gətirdi. Stolun üstə araq və zakuskalar hazır idi.

Cəlil içəriyə girən kimi Lütfəli rumkaları doldurub dedi:

– Dost, sənin başının ağrısının dərmanı budur ki, sənə verirəm, buyur içək.

Cəlil əhvalatdan xəbəri olmadığından dedi ki, heç vaxtı bir daha içməz.

Lütfəli isə: – Olmaz, sən eləsən, sən bilməyirsən, indi bir imtahan et, sonra nə günə istəyirsən özün bil, – dedi.

Xülasə, Cəlil ağa arağı içdi və gördü ki, doğrudan da, başının ağrısı bir az kəsdi. Ona görə bir də, iki də içdilər və Cəlil ağanın başının ağrısı lap yaxşı oldu və özü də buna təəccüb elədi və dedi:

– Ay kişi, dünyada və insanda nə qəribə hallar var imiş?!

Bir qədər burada oturub söhbət edəndən sonra Lütfəli Cəlil ilə gəzməyə getdilər və bir qədər hava alandan sonra bunlar həmişə bir yerdə nahar və axşam yeməyi yeyərdilər və günü-gündən araq Cəlilə artıq ləzzət verərdi, çünki araq da onun vücuduna təsir etmişdi.

Bunlar iki il belə vaxt keçirdilər. Cəlil ağanın içki içdiyi hər kəsə daha məlum idi, çünki daha kluba da gedərdi və klubda da yeyib-içərdi. Odur ki, Lütfəli indi çalışırdı ki, ona qumarı da öyrətsin və öyrədirdi. Çünki bilirdi ki, Cəlil ağanın dövlətini yalnız bir içki dağıda bilməz və özü də mətləbə çatmaz. Bir gün Lütfəli Cəlilə dedi ki, dostum, daha gərək bu gün oynayasan. Burada bir çətin iş yoxdur, pul qoy, pul götür, daha nə var?

Haman gecə Cəlil ağa da qeyriləri kimi klubda oynayırdı və oyun qurtaranda 50 min manat uduzmuşdu. Amma Lütfəli isə 60 min manat aparmış idi. Oyundan sonra bunlar durub yeməyə əyləşdilər.

Cəlil ağa bu gecə həmişəkindən də bir az artıq içdiyinə görə keflənmişdi. Odur ki, dostu Lütfəli də fürsəti fota verməyib dedi ki, dur gedək kazinoya qəhvə içək. Sən kazinonu hələ görməmisən. Həmişə yox deyən Cəlil, indi özü çox şadlıqla bu işə razı oldu və bunlar buradan durub kazinoya getdilər. Kazinoda bunlar bir kabinetdə əyləşib iki dənə qız da qonaq təklif etdilər və təzədən kefə, içməyə məşğul oldular.

Bir qədər kabinetdə yeyib-içəndən sonra Lütfəlidən sordu ki, fikrin nədir? Lütfəli cavab verdi ki, fikrim nə olacaq, buradan durub nömrəyə gedəcəyik.

Cəlil ağa burada kefdə olduğu halda zavallı Şəfiqə duz axtaran maral kimi o evdən bu evə, bu evdən o biri evə gedib-gəlirdi və bir fayton, ya avtomobil səsi eşidəndə pəncərələrin qabağına yüyürüb baxırdı.

Biçarə Şəfiqə sübhə kimi Cəlilin yolunu gözləyə-gözləyə qaldı. Axırda yuxu buna qalib gəldi, bihuş halda onu balası Suğranın balışının üstünə yıxdı. Şəfiqə yuxudan oyananda gördü ki, saat səkkizdir, ancaq hələ Cəlil evə gəlməmişdir. Bu, əvvəlinci gecə idi ki, Şəfiqə Cəlilsiz gecəni sabah eləmişdi.

Sabahı günü Cəlil ağa gözlərini açanda özünü qeyri aləmdə, bir qeyri mühitdə gördü. Bunun yanında bir rus qızı yatmışdı. Onun saçları pərişan bir halda süd kimi ağ qollarına, mərmər kimi ağ sinə və döşlərinə, qələm ilə çəkilmiş kimi üzünə, gözlərinə və qaşlarına tökülmüşdü.

Bunu belə yanında görcək Cəlil ağa fikirləşməyə başladı. Dünənki gün və keçirdiyi vaxt onun yadına duman kimi gəlirdi. Bir azdan sonra onun yadına Şəfiqə və balaları düşdü. Bu halda, o cəld yerindən qalxıb öz-özünə dedi ki, Allah, indi mən Şəfiqəyə nə cavab verəcəyəm? Yarəb, bu nə işdir mən tutdum? Ömründə bir dəfə də olsa yalan danışmayan və danışan adamı da sevməyən Cəlil ağa indi məcbur idi ki, yalan danışsın. Odur ki, onu vicdanı çox ağrıtdı. Cəlil ağa libasını əyninə geyə-geyə öz-özünə deyirdi ki, Allah, mən bu murdar dodaqlarım ilə Şəfiqənin pak, müqəddəs ləblərini və üzünü bir daha necə busə edəcəyəm, onu bu murdar ağuşuma necə alaca-



ğam? Bu fikirləri edə-edə Cəlil ağa özünü birdən güzgüdə gördü və öz-özündən qayət utanıb, başını aşağı saldı və bir daha güzgüyə baxmadı. Bu halda qız gözlərini açıb Cəlilə dedi ki, Cəlilçik, nə üçün belə tez durubsan? İndi ancaq aşpazlar yerindən durar, gəl yataq, hələ tezdir. Cəlil isə bundan xəbər aldı ki, hanı mənim yoldaşım? Qız cavab verdi ki, qorxma o da buradadır, qeyri bir qızla yatıb, sonra gələcəklər, ancaq indi tezdir.

Xülasə, qız nə qədər çalışdısa, Cəlil bir daha yatmadı və bunu da təvəqqə ilə ayağa durğuzub, Lütfəlini yanına çağırtdı. Bir qədərdən sonra Lütfəli bəy də öz yoldaşı ilə bu nömrəyə daxil olub, soruşdu ki, ay kişi, nə var, nə olub, niyə belə tez durubsan? Hələ saat on bir də deyil. Cəlil ağa isə bunun suallarına cavab verməyib bundan soruşdu ki, mən indi Şəfiqəyə nə cavab verim? Mən necə indi onun yanına gedim?

– Ay kişi, sən kefini çək, onun cavabı məndə. Müsəlman arvadını aldatmağa nə var!..

– Yox, vallah, bu saat gərək deyəsən, yoxsa mən ölürəm.

– Ay kişi, deyərsən ki, klubda bir böyük adamı şəhər əhli qonaq edib, yola salırdılar, məndən də təvəqqə elədilər, mən də onlarla oturdum və sonra da vaqon ilə neçə stansiya bərabər getdim. İndi də qayıtmışam, bir az da üz-gözünə sığal et, qurtarıb getsin.

– Axı bu olmayıb, mən bunu necə söyləyim?

– Bax, əzizim, ya onu söylə və ya bunu, özün bil.

Bu əvvəlinci yalan idi ki, Cəlil ağa onu gərək deyəydi. Xülasə, bu sözlərdən bir az sakit olub, Cəlil ağa dedi ki, indi dur gedək evimizə. Vaqon da gələn vaxtıdır, bəlkə Şəfiqə bu sözlərə inana.

– Belə məlum ki, hələ vaqon bir dəfə gəlir, sabah vaqonu olmasın, axşam vaqonu olsun!

– Lap yaxşı deyirsən.

Bu da əvvəlinci yalan idi ki, Cəlil ağa onu tərif eləyirdi.

– Bəs indi fikrin nədir?

– Əzizim, mənim başım ağrıyır, zənn edirəm ki, gərək sənin də başın ağrısın. Ona görə yerimdən duran kimi bir az zakuska-filan zakaz etdim ki, başım ağrımasın, bu saat xəbər verərlər, gedərik bir az yeyib-içərik, sonra ya Allah, düz evə, yaxşı deməyirəmmi?

– Yaxşı deyirsən və yaxşı da eləmisən.

Qapı bu halda dəqqülbab oldu. Gəl! – əmrindən sonra xidmətçi daxil olub, ərz elədi ki, ağa, buyurduğunuz zakuskalar hazırdır, buyurunuz!

Haman gün saat 4 idi. Cəlil ağanı gözləyirdilər. Bir də qapıda bir avtomobil dayandı. Şəfiqə əvvəl elə hesab elədi ki, yenə gələn Lütfəlidir, sonra gördü ki, avtomobildən düşən öz əridir. Dedi:

– Suğra, Suğra, atan gəldi, yüyür! – Və özü də onun əlindən tutub, Cəlil ağanın qabağına çıxdılar, yarı yolda Cəlil ağa özünü bunlara yetirib, Suğranı ağuşuna aldı və Şəfiqənin əhvalını sordu.

Cəlil qapıya çatanda dayə Əlini də qucağına alıb onu gözləyirdi.

Cəlil ağa balaları ilə və məsum Şəfiqə ilə görüşəndən sonra Şəfiqə bundan soruşdu ki, harada idi və nə üçün gecə gəlmədi? Cəlil ağa bir az sükutdan sonra öz-özündən utana-utana əzbərlədiyi yalanları bircə-bircə söyləməyə başladı və sonra dedi:

– Şəfiqəm, məni bağışla, mən nahar eləməyəcəyəm, çox yuxusuzam, bir az gərək rahat olam.

Bu sözləri deyəndən sonra Cəlil durub yataq otağına getdi. Şəfiqə isə bunu rahat eləməyə gedib dedi ki, əzizim, səni inan ki, sübhə kimi gözlədim, gəlib çıxmadın.

– Şəfiqə, məni bağışla, sənə böyük əziyyət vermişəm.

Bu sözlərdən sonra Şəfiqə bunu busə edib dedi yat, əzizim, yuxun şirin olsun və sonra yemək otağına gedib nahara əyləşdi.

Cəlil ağa nə qədər çalışdısa da, yuxulaya bilmədi. Çünki ona vicdanı ağlasığışmayan dərəcədə əziyyət verirdi. Cəlil ağa deyirdi:

– Bax, 24 saat bundan əvvəl mən nə idim və indi nə oldum? Qeyri arvad ilə vaxt keçirdim, yalan dedim, hələ bir günah da bu oldu ki, müqəddəs Şəfiqə o pak ləbləri ilə mənim bu murdar alnımı, üzümü busə edəndə məcbur oldum razı olum. Yarəb, bu nə bəla idi mən düçar oldum, bu nə günah idi mən etdim? Kaş bircə parça çörəyim olaydı, amma bayaqkı kimi də pak və bigünah olaydım!

Bu sözlərdən sonra Cəlil ağa öz-özünə söz verdi ki, bir daha belə günahları etməyəcək və bundan sonra axşamlar evdən çıxmayacaq və əgər çıxsa Şəfiqə ilə bərabər gedəcək.

Doğrudan da, Cəlil ağa iki aydan artıq axşamlar öz evindən bir yana çıxmayırdı və əgər bir yana gedərdisə, ancaq Şəfiqə ilə bərabər gedərdi. Bununla belə, Cəlil ağa araq da içməyirdi, lakin xain dost və damarlara təsir etmiş araq (alkoqol) ona rahatlıq vermirdilər.



Lütfəli bəy isə gecə-gündüz bu qəmi çəkirdi ki, Allah, nə pis yerdə gün axşam oldu. Zalım oğlu zalım birdən-birə içkini və qumarı yerə qoydu və bununla belə mənim cəmi ümidlərimi bərbad etdi.

Lütfəli bəy qəssab dükanının qabağını kəsib duran it kimi daim onun ətrafında dolanıb, həmişə eyş-işrətə dair söhbətlər ilə onun fikrində, həyatında olan gözəl-gözəl mənzərələri tərif etmək ilə onu yenə bayaqkı kimi yaşamağa təhrik və təşviq edirdi. Odur ki, bir yandan xain dost, digər tərəfdən isə alkoqol Cəlil ağaya qalib oldular. Lütfəli isə bundan şad olub öz-özünə daim deyərdi ki, arzularıma çatmağa yenə ümidim var və gərək də çatam.

Bu dəfə Cəlil ağa içkini və qumarı bayaqkından da artıq içib oynayırdı və çox gecələri evə gəlməyirdi. Axır vaxtlarda Cəlil ağa bir dəfə də olsa nə iş üstə və nə də kontoruna gəlməyirdi.

Bədbəxt Şəfiqə gecə və gündüz gözlərinin yaşını sinəsinə tökməkdə idi.

Qurban ağasını belə görəndə ürəyi qan ağlayıb öz-özünə deyirdi ki, Allah xain dostun evini yıxsın, bunun evini dostu Lütfəli bəy yıxdı və həmişə Lütfəli bəyi görəndə elə bil ki, bir ilan görürdü. Qurban yəqin bilirdi ki, belə ömür, belə həyat insanı yıxar, bərbad edər, bu gunə qumarın və içkinin müqabilində nəinki milyonlar, dənizlərin suyu da davam etməz. Odur ki, o həmişə fürsət tapanda ağasına deyərdi ki, ağacan, qurban olum, belə işləri eləmə, özün öz əlinlə özünü, arvadını və balalarını aclıq və məmat ağuşuna atma. Cəlil ağa isə buna həmişə cavab verərdi ki, Qurban, sən mənim işlərimə qarışma! Belə cavabları dünyada ən sevdiyi adamdan eşidəndə, Qurban öz-özünə deyərdi ki, doğru deyiblər ki, Allah adamın əvvəl ağlını alar, sonra dövlətini. Haqq sözlər imiş.

Bir gün Cəlil ağa 300 min manat pul uduzub və özü də bərk kefli evlərinə gəlmişdi. Odur ki, balaları Suğranı və Əlini yanına çağırıb onlar ilə zarafat edib, onları güldürürdü. Bir az bunlar ilə zarafat və söhbət etdikdən sonra Cəlil ağa Qurbanı çağırıb ona dedi ki, Qurban, əmr elə avtomobil hazır olsun, uşaqlar gəzməyə gedəcəklər. Özün də bunlar ilə gedərsən.

Uşaqlar bir azdan sonra gəzməyə getdilər. Cəlil ağa Şəfiqəni yanına çağırıb çox mehribanənə söhbətə başladı. Söhbət arasında Cəlil ağa Şəfiqənin saçlarını sığal edə-edə dedi ki, ah, Şəfiqəciyim, nə gözəl saçların var. Əgər bu saçları bazarda satası olsalar, ona çox

böyük pullar verərlər. Şəfiqə isə bu sözlərdən məyus olub dedi ki, əzizim, nə üçün belə sözləri danışırsan, onlar sənindir, onlara milyonlar versələr, mən onları satmaram və nə üçün də satım. Bu sözlərdən sonra Şəfiqə başını onun döşünün üstə qoyub dedi ki, ah, Cəlilim, nə olaydı sən qumarla içkini tərk edəydin! Bunlar, qorxuram axırda bizi fənaya verə. Cəlil cavab verdi ki, Şəfiqə, sən allah belə söhbətlər ilə mənim kefimi xarab etmə, nə var, Allaha şükür, bir dərədə yeddi yetim ilə ac və susuz qalmamışıq ki. Bizim dövlətimiz dağılan və qurtaran dövlət deyil. Axır mən sənə bircə söz deyim, əgər sən mənə belə-belə sözləri söyləyib kefimi xarab etməsən, mən səni daha da çox sevərdim.

– Əzizim, özün deyirsən ki, bu ay altı yüz min manat pul uduzmusan, özün deyirsən ki, qulluqçuların sənə xəyanət edirlər, dövlət də belə dağılır. Bir az qumarda gedər, bir az içkidə, bir az oğurlayarlar, axırda görərsən ki, ortada heç şey qalmadı.

– Şəfiqə, mən uşaq deyiləm, sən mənə belə nəsihətlər edirsən, odur ki, sənin yanına az gəlirəm, qeyrilər mənə nə belə sözlər və nəsihətlər edir və nə də kefimi xarab edir.

– Sənə məndən başqa canı yanan kimdir? Hər kəs istəyir ki, sən ac olasan, amma mən...

Bu sözləri deyib, Şəfiqə hönkür-hönkür ağladı və yenə dedi:

– Allah xatiri üçün belə etmə, bunlardan nifrət et.

Şəfiqə axır sözlərini qurtaranda Cəlil ağa qapını bərk örtüb evdən çıxdı, Şəfiqə isə evdə tək qalıb, ürəyi boşalana kimi ağladı.

Bir zamandan sonra uşaqlar gəzməkdən gəldilər. Suğra anasının yanına yüyürüb dedi ki, anacan, o qədər gəzdik ki!.. Əli isə anasının ağuşuna atılıb dedi, anacan, hələ vağzalı da gedib gəzdik. Şəfiqə balalarını bir az oxşayıb dedi ki, balalar, di durun gedək indi çay içək. Və bunlar durub çay içməyə getdilər. Bu halda Qurban içəri girib, salam verdi və soruşdu ki, xanım, bəs ağa necə oldu? Şəfiqə cavab verdi ki, məndən rəncidə olub getdi və sonra yenə dedi ki, Qurban, bu gün ağan yenə üç yüz min manat pul baxtalıyıb. Qurban başını yelləyib bir söz demədi və qayıdıb öz otağına girib çox məyus oldu.

Cəlil ağa təzədən içkiyə başlayandan sonra Lütfəli bəy onunla daha mehriban dolanardı və bununla belə qeyrilər ilə əlbir olub, daha da onun pullarını çox çəkirdi.



Bu gün Lütfəli yenə Cəlil ağanın evində nahar edirdi. Bu dəfə Cəlil Şəfiqənin təvəqqəsinə görə içməmişdi, çünki bərk vacib işi vardı. Bunu belə görcək Lütfəli bəy özünü bir az saxladı, yəni az içdi, çünki gərək hər növ olsaydı, bu gün Şəfiqəyə ürək sözünü deyəydi.

Nahar qurtaran kimi Cəlil ağa durub uşaqları ilə öz otağına getdi və Lütfəli bəy də gərək durub gedəydi. Yemək otağında indi bununla Şəfiqədən başqa heç kəs yox idi. Şəfiqə ayağa durub istədi ki, zəngi vursun ki, xidmətçilər gəlib süfrəni yığışdırsınlar. Bu halda Lütfəli bəy ayağa durub istədi ki, onun əlindən yapışsın, zəngi vurmağa qoymasın. Şəfiqə isə ilandan qorxan kimi əlini çəkib dedi:

– Nacins və alçaq adam! Sən nə edirsən?

Lütfəli isə cavab verdi:

– Gözəl Şəfiqə, səni sevirəm, məni xoşbəxt elə.

Bu sözlərə cavab Şəfiqə dedi:

– Mən səni özümə qardaş bilirdim. Sən xain adamsan, çıx burdan.

Lütfəli bəy isə dedi:

– Şəfiqə, bunu yadında saxla, sən görərsən mən sənə nə edərəm!..

Bu sözlərdən sonra Lütfəli Cəlil ağanın yanına getdi. Cəlil ağa isə bu halda uşaqları ilə çox mehribanə söhbət və zarafat edirdi. Lütfəli pozğun bir halda otaqda o yan-bu yana gəzişib dedi:

– Xoşbəxt adam, balaları ilə gör necə oynayır.

Və sonra saata baxıb dedi:

– Cəlil, mən gedirəm, mənim işim var.

– Nə üçün belə, dayan qəhvə içək.

– Yox, sağ ol, dayana bilmərəm, gərək gedəm, xudahafiz.

Bu halda Şəfiqə qapıdan içəriyə girib dayandı və fikrə getdi. Şəfiqə istəyirdi ki, əhvalatı kişisinə desin, ona görə pərişan bir halda onun yanına gəlib, əlini onun çiyninə qoydu və dedi:

– Cəlil...

Cəlil dalı çevrilib Şəfiqəni çox pərişan gördüyündən dedi:

– Nə deyirsən, nə olub?

Şəfiqə sözünü deməyib, cavab verdi ki, heç, əzizim, bir şey olmayıb, elə-belə yanına gəlmişəm və Cəlili busə elədi. Cəlil isə busə ilə cavab verib dedi ki, əzizim, mənim bir az imiş var, mane

olma, yazım qurtarım. Şəfiqə bu sözləri eşidib, alnına sığal edə-edə durub öz otağına getdi.

Lütfəli isə öz evinə gəlib bərk-bərk gəzişə-gəzişə öz-özünə deyirdi, dayan, Şəfiqə, gör mən səni, balalarını nə hala salaram!..

"B" şəhərinə təzə sirk gəlmişdi. Bu sirkdə Olya adlı bir qız var idi. Olya nəinki öz yoldaşları arasında gözəl hesab olunurdu, bəlkə də tamam şəhərdə bundan artıq nə gözəl bir qız, nə bir arvad yox idi. Olya hündürboylu, uzunsaçlı, ağüzlü, xumargözlü və dolubədənli bir qız idi. Bununla belə, Olya çox nazlı, duzlu və hiyləgər idi, hər kəs olsa, onunla bir az söhbət edəndən sonra ona məhəbbət edərdi. Olyanın göz və qaşlarını oynatmağı, çiyinlərini tərpətməyi, duruşu-oturuşu və gəzişi hər kəsin ürəyini titrədirdi.

Xülasə, şəhərə təzə sirk gəldiyi və haman gün əvvəlinci dəfə olaraq onun tamaşası qəzetlər vasitəsilə elan olmuşdu.

Lütfəli bəy yuxudan durub öz kabinetində oturub qəzet oxuduğu yerdə haman elanı da oxudu və bir az fikrə gedib dedi ki, gərək axşam nə gunə olur olsun Cəlil ağa ilə bərabər haman sirkə getsinlər. Ona görə telefon edib Cəlil ağanın telefonunun nömrəsini tələb etdi.

Haman gün Cəlil ağa yenə nədənsə çox pərişan bir halda kabinetində oturub öz-özünə sual edirdi ki, haraya getsin və nə gunə vaxtını xoş keçirtsin?

Bu halda telefon zəng elədi. Danışan Lütfəli idi.

– Salaməleyküm, halın necədir?

– Çox pərişandır.

– Səbəbini bilməz olmazmı?

– Bir səbəb yoxdur, elə-belə, pərişandır.

– Cəlil, mənim də kefim o qədər yaxşı deyil, bilməyirəm nə edim, ancaq bu gecə sirk tamaşası var. Bu saat qəzetdə oxudum, gəl bu gecə sirkə gedək, bəlkə vaxtımızı xoş keçirdə bilək. Əvvəl tamaşa, sonra da qız, filan, özün bilirsən, daha mən nə deyim.

– Yaxşı, istəyirəm, gedək, amma...

– Daha bunun amması yoxdur ki, xa-xa-xa.

– Yaxşı, indi de görüm sən gəlirsən, ya mən sənin yanına gəlim?

– Zəhmət çəkmə, mən gələrəm, xudahafiz!

Lütfəli trubkanı yerə qoyub, bir az fikir elədi və dedi: "Allah sən elə et ki, o, bir qıza aşiq olsun, mən də bəlkə arzuma çatım".



Və sonra zəngi çalıb, nökərinə dedi ki, onun paltarını hazır eləsin və özü isə çay içməyə getdi.

Cəlil ağa isə başladı yenə gəzişməyə və sonra əmr elədi ki, avtomobil hazır olsun. Bu sözləri eşidəndə Şəfiqə onun yanına gəlib dedi ki, yenə hara gedirsən?

Cəlil cavab verdi ki, bu saat Lütfəli gələcək, bərabər iş üstə gedəcəklər.

Lütfəlinin adını eşitcək, Şəfiqə başını aşağı salıb dedi:

– Mən bilirəm, Lütfəli ilə yenə ya içməyə, ya oynamağa gedirsən, mənə daha nə üçün yalan söyləyirsən?

Cəlil ağa heç danışmadı, çünki danışmağa haqqı da yox idi. Ona görə də cəld-cəld paltarlarını əyninə geyinirdi ki, evdən çıxsın. Libasını geyinib, Cəlil ağa kabinetə getdi ki, özü ilə pul götürsün. Cəlil ağa pul şkafını açıb pulları ciblərinə dolduranda Şəfiqə onun yanına gəlib, boynundan qucaqlayıb dedi ki, Cəlilim, getmə, aparma bu pulları, qorx Allahdan, vallah, bir gün sən bizi ac qoyacaqsan.

Cəlil Şəfiqəyə dedi ki, Şəfiqəm, bizim dövlət dağılan və ya qurtaran dövlət deyil, sən qorxma. Şəfiqə isə cavab verdi ki, necə dağılan dövlət deyil, hanı filan və filan ağanın dövləti, indi nə gündədirlər?

– Ay, Şəfiqə, sən nə deyirsən, onlar hara, mən hara və başladı ki, yola düzəlsin. Şəfiqə onun qabağını kəsib istədi ki, qoymasın, Cəlil onu döşündən itələyib, qapıdan çıxdı.

Cəlil aşağı qapıya çatanda Lütfəli gəlib faytondan düşdü və görüşəndən sonra bunlar Cəlil ağanın avtomobilinə minib, sirkə getdilər. Qurban bunların dalınca baxıb dedi: belə həyat baqi olmaz!

Lütfəli bəy ilə Cəlil ağa sirkə gələn qızlar ilə tanış oldular və sonra Olya ilə Lara adlı qızları özləri ilə götürüb bufetə gəldilər ki, bunları qonaq eləsinlər. Burada da şərt elədilər ki, tamaşa qurtarandan sonra bərabər kefə getsinlər. Bir az qızları qonaq edəndən sonra Lütfəli ilə Cəlil gedib öz lojalarında əyləşdilər. Bir neçə dəqiqədən sonra Lütfəli Olyanın yanına gedib dedi ki, o, Cəlilin çox xoşuna gəlib və bununla bərabər onu xəbərdar elədi ki, Cəlil ağa şəhərdə əvvəlinci milyonçu hesab olunur və əgər qız onun xoşuna gəlsə, nəinki pul, hətta canını da ona qurban edən adamdır.

Olya əhvalatdan xəbərdar olandan sonra ürəyində dedi ki, yaxşı oldu, indi iş görməli, can almalı və pul qazanmalıdır.

Tamaşa başlandı. Olya bir qara atın üstündə, əynində rəngbərəng şəfəq verən paltar, sirki dolanıb, camaatı öz oyunları və gözəlliyi ilə məbhut edirdi və hər dəfə üzü Cəlil ağaya tərəf düşəndə ona qaş və gözlərini oynatmaq ilə onun canını alırdı.

Cəlil ağa buna baxdıqca onun vüsalına darıxdığı kimi Olya da nə vaxt onun yüzlüklərini alıb cibişdana qoyacağına darıxırdı.

Olya öz oyununu qurtarıb, camaatın gözündən itən kimi Lütfəli ilə Cəlil ağa daha tamaşaya baxmayıb, onun yanına getdilər və onu təbrik edəndən sonra yenə bufetə gətirib növbənöv içki və şirniyyata qonaq elədilər. Lara da öz oyununu qurtarıb gələndən sonra bunlar hamısı avtomobilə əyləşib kazinoya kefə getdilər. Kazinoya gəlib bunlar özləri üçün bir kabinet açdırıb, işrətlə məşğul oldular.

Bu zaman bədbəxt Şəfiqə öz balalarının yanına gedib onları mışhamış yuxulayan görüb, əllərilə onlara busə göndərib, öz yataq otağına getdi və bir az fikirdən sonra yuxu üçün olan libasını əyninə geyib, göy rəngli elektrik lampasını yandırıb, öz roxtxabında uzandı.

Şəfiqənin fikrində, xəyalında əgər bir adam var idisə, o da əzizi Cəlil ağa idi. Bu zaman Şəfiqə istəkli Cəlilini öz pak, müqəddəs ağuşuna gözləyirdi. Amma o?..

Cəlil ağa?.. Bu zaman Cəlil nəinki Şəfiqəni, hətta insanlığını, vicdanını, namusunu unudub, Olyanın ağuşunda vaxtını keçirməkdə idi. Şəfiqə onun dərdini çəkib, ürəyi qəm odunda yandığı zaman Cəlil Olyaya növbənöv bəxşişlər vəd edib, onun könlünü və qəlbini şad edirdi.

İnsan özü özündən utanmazsa, heç kəsdən də utanmaz və qorxmaz! Cəlil indi nəinki tutduğu işlərdən utanmayırdı, hətta bunları ədəbdən, insanlıqdan kənar iş də hesab etməyirdi. İndi Cəlil ağa, hər kəs nə deyir, qoy desin, mən özüm istədiyimi edəcəyəm, deyən adamlardan olmuşdu.

Əvvəl dəfə əğyarla yatıb duranda, Allah, bu nə işdir mən tutdum, Allah, mən Şəfiqəyə nə deyəcəyəm deyən Cəlil ağa bu sabah Olyanın ağuşundan çıxanda heç fikrinə də gətirmirdi. Sabah vaxtı Şəfiqə, Allah, Cəlilim necə oldu, gəlib çıxmadı fikrini edib hönkür-hönkür ağlayıb gözlərinin yaşını sinəsinə tökəndə, Cəlil ağa Olya ilə şərti-şurut bağlayırdı ki, o, sirkdən çıxsın və həmişə ona yar olsun, yoldaş olsun...



Cəlil ağa Olyanın adına yüz min manat qoyub və dəftərini götürüb ona verəndən sonra Olya sirkdən çıxdı və "Cəlilçik" ilə olmağı qəbul elədi.

Cəlil ağa isə Olya üçün "B" şəhərində olan mehmanxanaların on birincisində iki nömrə kirayə edib, Olyanı orada saxlayırdı.

Cəlil Olyanın adına banka qoyduğu puldan başqa onun üçün gündə bir xələt, gündə bir qiymətli bəxşişlər alıb gətirməkdə idi. Cəlil ağa gündüzlər onunla vaxt keçirdiyi kimi, gecələr də onunla bahəm gah teatroya, gah şantanlara gedib, kef edirdi. İndi Cəlil ağa nəinki Şəfiqəni, evini, işlərini, hətta iki gözləri hesabında olan balalarını da unudub, onları özünə əğyar və düşmən hesab edirdi. Həmişə evə gələndə balaları üçün pay gətirən Cəlil ağa indi nəinki onlara pay gətirmirdi və hətta onlar, – atacan, – deyib, onun üstünə gələndə onları döyüb, özündən nifrətləndirirdi.

Cəlil ağa Olyanın vücudundan ləzzət çəkdiyi kimi, Olya da onun dövlətini çəkirdi. Olya hər bayramlarda Cəlil ağadan nahaq yerə küsüb və sonra atasına, anasına, qardaşına min-min manat bayramlıq göndərdikdən sonra dübarə onunla barışardı. Bundan əlavə, Cəlil ağa hər dəfə ondan ayrılıb, evinə, ya bir yana gedəndə özü üçün otuz-qırx manat da konfet pulu alardı. Bu işlərin də hamısını Olyaya elətdirən və öyrədən Lütfəli bəy idi.

Cəlil ağa evinə, ya qeyri bir yana gedən kimi Olya Lütfəli bəyə telefon ilə xəbər edərdi və haman saat Lütfəli də hazır olub, Cəlil ağanın sağlığına burada kef çəkərdilər və növbənöv tədbirlər tökərdilər ki, qoy Cəlil ağa tez ac olsun. Cəlil ağaya bu qədər pul xərc etdirməkdən onlar kifayətlənməyib, hələ bufetçi və lakeylər ilə də əlbir olub, bir manatı üç manat yazdırardılar və hər ayın başında gedib hesab çəkib öz paylarını alardılar.

Xülasə, Olya bir ildə Cəlil ağadan beş yüz min manat pul və bundan əlavə bəxşişlər cəmləmişdi. Bunlar hamısı bəs olmayıb, Olya başlamışdı ki, məni Avropaya səyahətə apar. Cəlil ağa bunun sözlərinə qulaq asmadığından, Lütfəli bəy Olyaya öyrətdi ki, Olya Cəlilə desin ki, əgər səyahətə aparmasan, mən ayrılacağam və öz vətənimə gedəcəyəm. Olya ona belə demişdi. Ona görə də Cəlil ağa məcbur olub, Olyaya söz vermişdi.

May ayına bir neçə gün qalmışdı. Cəlil ağa Avropaya gedəndə onun dövlətinin və işlərinin üstündə gərək ya bir baxıcı adam və ya

bir icarədar olaydı. Ona görə Cəlil ağa Lütfəli bəyi yanına çağırıb dedi ki, bu işlər necə olsun. Lütfəli ancaq bunu gözləyirdi, ona görə dedi ki, icarəyə o özü can və baş ilə götürər. Cəlil ağa da dostanə, yəni çox az qiymətə var-yoxunu Lütfəli bəyə icarəyə verib və pullarının yarısını da alıb, Olya ilə Avropaya səyahətə getdi.

Cəlil ağa Olya ilə Avropanı qarış-qarış gəzib kef çəkməkdə, pul xərcləməkdə idilər. Cəlil ağanın Olya ilə Avropa səyahətinə getmələri şəhərdə hər kəsə məlum olduğu kimi, Şəfiqəyə və Qurbana da məlum idi.

Cəlil ağa evindən çıxdığı və balalarından ayrıldığı iki aydan artıq idi. Bu qədər vaxta Cəlil ağa bir dəfə də olsa balalarını yadına salmamışdı və bir dənə də olsa onlara məktub yazıb, əhvallarını soruşmamışdı.

Bədbəxt Şəfiqə gecə və gündüz ağlayırdı. Məsum balaları onu həmişə ağlayan görüb deyirdilər ki, anacan, nə üçün sən həmişə ağlayırsan? Anası isə balalarından bu sualı eşitcək gözlərinin yaşını leysan kimi tökürdü. Axır vaxtlarda balaca Əli anasını o qədər ağlayan görmüşdü ki, hər səhər yerindən duranda anasından soruşardı: anacan, yenə bu gün ağlayacaqsanmı?

Qurban isə həmişə xanımını ağlayan görüb deyərdi ki, ay xanım, başına dönüm, nə üçün ağlayırsan, daha ağlamaqdan keçib, gərək Allah-təala özü xeyir eləsin. Amma tək olanda Qurban deyərdi ki, Allah xain dostun evini yıxsın!..

Əvvəl vaxtlarda Qurban Cəlil ağanı belə ağıllı dolanan görüb deyərdi ki, oğul, Allah səni xoşbəxt eləsin. İndi isə deyərdi ki, atalar doğru deyiblər ki dövlət adamı azdırar. Əlli ildir dünyada yaşadım, çalışdım, vuruşdum ki, dövlətli olum və hər kəsə bunu söylədimsə, mənə cavab bu oldu ki, kişi, axtar-tapma, çünki dövlət bir şey deyil, səni yoldan çıxardar, rəhmsiz edər, namussuz edər. Mən inanmayırdım, indi görürəm ki, bu sözlər hamısı doğru imiş, adam yoldan çıxarmış, evini, işini, arvadını, övladını və bəlkə də namusunu və Allahını da unudarmış.

İlanın ağ, nazik və gözəl dişlərindən insanın xoşu gəldiyi halda, bu dişlərdə adamı öldürücü ağı (zəhər) olmağı yadına düşəndə nə qədər onlardan nifrət edərsə, indi Qurban da Cəlili içki içən, qumar oynayan görəndə ondan nifrət edirdi. Bununla bərabər, Qurban yenə



bu evdən əl çəkib gedə bilməyirdi. Çünki Şəfiqə xanıma və onun balalarına artıq dərəcədə məhəbbəti olub da rəhmi gəlirdi.

Axır vaxtlarda Qurban ağasına çox nəsihətlər edirdi, ancaq Cəlil ağa heç bunun sözlərinə qulaq asmayıb öz işinə, yəni öz bildiyinə gedirdi, çünki iş işdən keçmişdi. İlanın başı bir dəliyə girəndən sonra onu dartıb geriyə çıxartmaq mümkün olsaydı, Cəlil ağanın da damarlarına təsir etmiş arağın zəhərini və qəlbində kök salmış qəbih adətləri ona tərk etdirmək mümkün olardı.

Olya ilə Cəlil ağa Avropanı gəzə-gəzə gəlib axırda Monte Karlo şəhərinə çıxdılar. Monte Karlo şəhərinin məşhur dövlətlilər və qumarbazlar yığıncağı olmağını hər kəs bilir.

Cəlil ağa Monte Karlo şəhərinə gəlib çatanda onun pulları sanki qurtarmışdı. Odur ki, buraya gəlib çatan kimi Cəlil ağa Lütfəli bəyə təcili teleqram göndərib pul istədi. Lütfəli isə bu teleqramı alan kimi çox şad oldu və dedi: gözlərinə dönüm, Olya, gör necə mənim xahişlərimi əmələ gətirir. Bura Cəlilin ölən və mənim dirilən yerimizdir. İndi mən ona həmişə istədiyindən də artıq pul göndərəcəyəm ki, qoy çoxlu uduzsun. Bu sözlərdən sonra durub banka getdi və Cəlil ağa istədiyi pulun əvəzində iki yüz min də artıq, yəni yarım milyon pul perevod elədi və sonra da sağa-sola bu əhvalatı söyləməyə başladı.

Aradan beş gün keçəndən sonra Cəlil ağadan bir də teleqram gəldi, bu teleqramda Cəlil yazırdı: "Paroxodlarımı sat, vəkalətnamə göndərim. Pulunu təcili göndər. Cəlil".

Bu teleqramı vurmağa səbəb bu idi ki, Cəlil ağa haman əvvəlki beş yüz min manatı bircə gecədə uduzub parasız qalmışdı və Olya isə Lütfəlinin düzümünə görə əvvəl paroxodları satmağı məsləhət görmüşdü.

Lütfəli pulları özündən göndərdi və vəkalətnaməni alan kimi paroxodları bir ayrı adama satıb üç-dörd gündən sonra da haman adamdan özü qaytarıb aldı, çünki haman adama da bu şərtlə satmışdı.

Cəlil paroxodların pulunu alan kimi yenə getdi qumara əyləşdi ki, baxtaladığı pulları qaytarsın. Amma qaytara bilməyib, yenə dörd yüz min manatı da uduzdu.

Haman günlərdə Cəlil ağanın qızı Suğra bərk naxoş idi. Təbiblər gündə neçə dəfələrlə Suğranın yanına gəlib onu müalicə edirdilər. Nəhayət, bunu sağaltmağa ümidləri kəsilib bədbəxt anasına əhvalatı bəyan etdilər. Bədbəxt Şəfiqə bir yandan bala dərdi çəkməkdən, digər tərəfdən də Cəlilin tutduğu işlərə fikir eləməkdən ayaq üstə ölüb qurtarmışdı. Onun bədirlənmiş ay kimi üzü indi heyva kimi saralmışdı. Bayaq onun qəm və qüssə bilməyən və həmişə Cəlilin məhəbbətilə dirəxşan olan könlü və ürəyi indi qan ağlayırdı.

Sabahdan axşama kimi və axşamdan sabaha kimi ölüm ağuşunda olan Suğranın başının üstündə oturub yuxulamamaqdan, onun ulduz kimi parlaq gözləri ağlamaqdan, yuxusuzluqdan sübhə qalmış şam işığına bənzəyirdi.

İki gün də belə keçdikdən sonra məsum Suğra bədbəxt anasının ağuşunda canını Allaha tapşırdı. Suğranın öldüyünü bədbəxt Şəfiqə hiss edən kimi: balacığım vay! – deyib qəşş edib yerə yıxıldı. Uşaqların dayəsi və qulluqçular yığışıb Şəfiqəni yerinə qoydular və telefonla təbibə xəbər verdilər ki, gəlsin. Təbib gələndən bir qədər sonra zavallı Şəfiqə özünə gəldi və Qurbanı yanına çağırıb dedi ki, gedib atasına teleqram göndərsin.

Lütfəli haman gün Cəlil ağanın adresini bazarda Qurbana yazıb vermişdi. Ona görə Qurban dayanmayıb özünü teleqramxanaya çatdırdı və ağasına belə bir teleqram vurdu: "Suğra öldü, durma gəl! Qurban".

Bədbəxt Şəfiqənin ciyərləri parə-parə olduğu zaman Cəlil Monte Karlonun klubunda "ruletka" oynayıb pullarını uduzurdu və oyun qurtarandan sonra durub Olya ilə yeyib-içib öz nömrəsində onunla eyş-işrətdə vaxtını keçirirdi. Əziz balası Suğra məmat ağuşunda yatdığı zaman, bihəya, biar Cəlil ağa Olyanın ağuşunda ləzzət çəkirdi.

Sabah saat on bir idi. Cəlil ağa ilə Olya çaylarını içib, şəhərə gəzməyə hazırlaşırdılar. Bu halda lakey daxil olub gümüş podnosda teleqramı Cəlil ağaya verdi. Olya isə bunun üstünə yüyürüb teleqramı onun əlindən dartıb aldı və cəld açıb oxudu: "Suğra öldü, durma gəl! Qurban". Olya elə hesab elədi ki, teleqram pul teleqramıdır, ona görə yüyürüb qapmışdı. Gördü ki, o deyil, bir söz deməyib ağzını və qaş-qabağını turşalda-turşalda teleqramı Cəlil ağaya verdi. Cəlil ağa teleqramı oxuyub bir söz danışmağa qadir olmadı və gözlərini bir



nöqtəyə düzəldib bir zaman məbhut qaldı. Olya libasını geymişdi, ona görə gəlib Cəlilin qabağında zontikinə söykənib dedi:

– Hə, nə var, nə olub, bir balaca qız ölüb. Dur gedək gəzməyə, çox lazımdır, ölüb, mən ki ölməmişəm.

Cəlil buna bir cavab vermədi. Onda Olya ona "durak", yəni axmaq, – deyib, özü yalqız gəzməyə getdi.

Dünyada olan insanlar üç qismə bölünür: bir qismi hər şeyi öz-özündən qanar, anlar, digəri isə o qüvvəyə malik deyilsə, qeyrilər deyəndə anlar, üçüncü firqə isə deyəndə də anlamaz və ayılmaz. Cəlil ağanın haman gün demək olar ki, ən bədbəxt günü hesab ola bilərdi. Onun bu günündə Olya onun bədbəxtliyində nəinki iştirak etmədi, hətta ona bir "axmaq" da deyib öz kefinə getdi, bununla belə Cəlil ağa yenə bir şey anlamadı və bir saat belə qalandan sonra durub evinə yığışmayıb, Olyanın dalınca getdi.

İki gün aradan keçmədi, Cəlil ağa balasını elə unutdu, bir teleqram da olsa yazmadı. Ancaq dörd gündən sonra Lütfəli bəyə bir teleqram da göndərdi ki, onun mülklərini də satıb pullarını göndərsin. Lütfəli də yenə bayaqkı kimi bir Şəfiqə oturan mülkdən başqa, hamısını bir qeyrisinə satıb, sonra yenə özü aldı. Cəlil ağa bu pulları xərcləyib qurtarmaqda idi ki, onun neft mədənləri yandı.

Bu əhvalatı Lütfəli bəy dərhal Cəlil ağaya teleqram ilə xəbər verdi. Teleqram Cəlil ağaya çatanda Olya evdə yox idi. Cəlil teleqramı açıb oxudu: "Mədənlərin yanır. Lütfəli". Ürəyi qəşş edib, yerə yıxıldı.

Olya evə gələndə Cəlil ağa hələ ayılmamışdı. Bunu bu halda görüb, Olya təəccüb elədi və sonra bunun yanında teleqram görüb cəld onu aldı və oxudu, sonra teleqramı yerə atıb Cəlili ayağı ilə və sonra zontiki ilə dümsüklədi. Cəlil ağa ayılıb cəld ayağa durdu və sonra: – Olya, mədənlərim yanır, – deyib istədi ki, onu qucaqlayıb ağlasın. Olya isə onu özündən rədd edib, bir daha gəzməyə getdi.

İndi Olya Cəlil ağaya deyirdi ki, əzizim, paroxodları və evləri satdın, uduzdun, mədənlər də yandı, daha ondan nə əmələ gələcək. Yaxşısı budur ki, indi mədənləri də satasan, oynayasan, bəlkə baxtaladığını qaytarasan. Cəlil ağa isə buna dedi ki, lap yaxşı deyirsən, gəl teleqram vurum, onları da satsın. Pullarını göndərsin burada kef çəkək. Dünya beş gündür, beşi də qara gündür. Bəli, teleqram yazıb göndərdilər.

Haman teleqram gəlməzdən əvvəl Cəlil ağanın mədənləri satılacaq sözü şəhərdə danışılırdı və Şəfiqəyə də bu xəbər çatmışdı. Bədbəxt Şəfiqə hər gün teleqram teleqram üstündən vururdu ki, Cəlil ağa gəlsin. Heyhat! Teleqramlar oxunub ancaq yerə atılırdı və bir daha yada düşməyirdi.

Sabah saat on idi. Lütfəli yerindən təzəcə durmuşdu ki, Cəlil ağanın teleqramı gəlib çatdı. Lütfəli teleqramı oxuyub, bərk gülə-gülə dedi: "Mədənləri sat. Cəlil". Ay heyvan, sənin bu gününü də əlhəmdüllah, gördüm. Sağ ol, Olya, sağ ol.

Lütfəli şad və xürrəm cəld paltarını geyib, Cəlil ağanın mədənlərini satmağa getdi və satdı. Lütfəli pulu yola salandan iki-üç gün sonra Şəfiqənin yanına getdi.

Lütfəli zalda oturub Şəfiqənin yolunu gözləyirdi. Şəfiqə xanım Lütfəlinin yanına gəlib girən kimi, Qurban o biri otaqdan çıxıb zalın qapısına gəlib qulaq asırdı ki, görə Lütfəli bəy nə üçün gəlib.

Lütfəli Şəfiqəni görcək yerindən durub əvvəl salam verdi. Sonra Lütfəli bəy dedi ki, ay Şəfiqə, gəl sən özünü və bircə dənə balan Əlini bədbəxt eləmə.

Şəfiqə bundan soruşdu ki, qardaş, nə demək istəyirsən, sözünü de?!

Lütfəli isə buna dedi ki:

– Mənə qardaş demə, mən səni sevirəm, heç bilirsənmi nə qədər sevirəm?

Bu sözləri qardaş dediyi adamdan dübarə eşidəndə Şəfiqə az qaldı ki, qəşş edib yıxılsın və sonra bir az özünü toxdadıb, divara söykəndi. Lütfəli isə elə hesab elədi ki, daha Şəfiqə yumşalıb, dedi:

– Cəlil ağadan sənə kişi olmaz, gəl səni mən alım, sən də xoşbəxt ol, mən də.

Bu sözləri Qurban eşidəndə istədi ki, içəriyə girsin və bu nacinsi qovlasın, sonra dedi ki, qoy bir görüm Şəfiqə xanım nə gunə arvaddır, sonra qovalaram.

Lütfəli isə sözlərinə cavab almadıqda belə hesab elədi ki, dediyi sözlər Şəfiqənin xoşuna gəlib, onun üçün qabağa yeriyib, istədi ki, Şəfiqəni qucaqlasın, bu halda Şəfiqə dala çəkilib dedi:

– Nacins və alçaq adam, nə fikrə gedibsən, nə qayırmaq istəyirsən? – Bu sözləri deyib Şəfiqə mizin üstündəki şamdanı alıb elə atdı ki, əgər o, Lütfəli bəyə dəysəydi, yəqin o, murdar olardı.



Bu halda Qurban qapıdan içəri girib Lütfəli bəyə dedi:

– Dur buradan çəkil, yoxsa bu saat qarnını cıraram!

Lütfəli məsciddən qovulmuş it kimi durub, buradan getdi.

Qurban üzünü Şəfiqəyə çevirib dedi:

– Sağ ol, xanım, yaşasın sənin kimi arvadlar!

Lütfəli bəy evinə gəlib qeyzli-qeyzli gəzişib, öz-özünə deyirdi: arvad, dayan gör mən sənə nə qayıraram, səni nə günə salaram, sən özün şadlıqla mənə gəlməyi qəbul eləməsən, başımdakı papaq sənin yaylığın olsun.

Aradan bir neçə gün keçmişdi. Cəlil ağadan daha xəbər yox idi. Lütfəli isə gündən-günə teleqram gözləyirdi ki, bu gün-sabah teleqram çıxacaq ki, axırıncı evimi də sat, pulunu göndər. Belə də oldu. Mədənlərin pulları Cəlil ağada ancaq on gün davam etdi. Sonra bunlar da qurtardı.

İndi daha Olya da bundan ayrılmaq istəyirdi. Çünki əvvəla sezon, yəni Monte Karlonun vaxtı keçmişdi və sonra özü çox yaxşı bilirdi ki, daha Cəlil ağada bir şey qalmamışdır. Onun üçün Olya daha onunla xoş da danışmayırdı.

Nəhayət, bir gün Olya Cəlil ağaya dedi ki, daha, əzizim, sən mənə gərək deyilsən. Çünki səndə özünü saxlamağa qüvvə qalmayıb. İndi get sən başına çarə qıl. Mən də özümə bir qeyri adam tapım.

Bu sözləri eşitcək Cəlil ağa Olyaya çox yalvardı, bir şey çıxmadı, axırda Olya ona dedi ki, bir dənə evin qalıb, əgər teleqram vursan ki, onu satıb pulunu buraya göndərsin, onda bilərəm ki, doğrudan da sən məni sevirsən və mən də səninlə qalaram. Cəlil can və baş ilə əlinə qələm götürüb, Lütfəli bəyə bir teleqram yazdı: "Mənim axırıncı evimi də sat, pulunu mənə göndər. Cəlil".

Teleqram yazılıb göndəriləndən sonra Olya Cəlil ilə yenə üzgörə barışdı. Aradan bir neçə gün keçdi. Cəlil ağaya axırıncı evin yüz min manatı gəldi.

Lütfəli bir gündən sonra öz-özünə dedi ki, daha bu gün gərək gedib Şəfiqəyə desin ki, bu evlər əşyaları ilə bərabər mənimdir, bəlkə o bilməyir. Onda görək nə deyəcək. Bu fikirlə Lütfəli bəy evdən çıxdı və düz Şəfiqənin yanına gəldi. Lütfəli qapıdan içəri girəndə Qurban ona rast oldu və bunlar hər ikisi nifrətlə bir-birinə baxdılar. Sonra Lütfəli istədi ki, yuxarı getsin, Qurban onu saxlayıb dedi:

– Mən səni evə qoymaram, xanım mənə buyurub.

Lütfəli bu sözləri eşidəndə tənə ilə güldü və dedi:

– Qəribə axmaq olubsan, necə ki, sən məni öz evimə qoymazsan, sənin xəbərin yoxdur, indi bu mülk mənimdir?!

Qurban bu sözləri eşidəndə başını aşağı salıb alnını əli ilə sığal etdi və bir söz daha demədi.

Lütfəli bəy isə sözlərini deyib, yuxarıya gedib zəngi vurdu. O zaman dayə, Əli ilə bərabər gəzməyə getmək istəyirdi və Lütfəli zəngi vuranda bunlar da qapını açıb çıxmaq istəyirdilər. Lütfəli bəy dayəyə dedi ki, Şəfiqəyə xəbər ver ki, mən gəlmişəm, onu görmək istəyirəm və özü də həmişə çörək yediyi yemək otağına izinsiz gedib əyləşdi. Dayə isə Şəfiqə xanıma xəbərə getdi. Bu halda Qurban da otağa girib qapıda dayandı.

Şəfiqə Lütfəli adı eşidən kimi acığından əvvəl ağarıb, sonra bulud kimi qaraldı və sonra dayəyə dedi:

– Get de ki, xanım naxoşdur, gələ bilməyir. Sözünü desin, – və yenə fikrini dəyişib özü dayə ilə bərabər Lütfəlinin qabağına çıxdı. Lütfəli salam verib dedi:

– Şəfiqə xanım, mən sənə demədimmi ki, Cəlil ağadan sənə kişi olmaz, budur bir evi qalmışdı, onu da satdı və mən də aldım, indi bu mülk mənimdir və gəlmişəm ki, görək indi mənə nə deyirsən? Əgər bu evlərdə oturacaqsansa, mənə kirayəni gərək verəsən və əgər kirayəsini verməyi başarmayırsan, onda gərək evləri boşaldasan.

– Əgər bu ev sənin isə mən nəinki burada kirayə ilə oturmaram, hətta bu evi sən mənə bağışlasan, yenə qəbul etmərəm. Mən əşyalarımı götürüb buradan çıxaram.

– Bağışla, mən evi əşyaları ilə almışam, sən ancaq öz paltarlarını götürüb çıxa bilərsən.

– Əşyalar da sənin olsun, Allahın lənəti də. Mən elə-belə çıxaram, qorxma, sənə də bu dövlət qalmaz, xəyanət və göz yaşı ilə qazanılan dövlətdən xeyir görmək olmaz. Bunu yəqin bil!

Bu sözlərdən sonra Şəfiqə xanım o biri otağa girdi. Lütfəli bəy isə ürəyində dedi: mən elə hesab edirdim ki, indi daha bu, ağlayacaq və yalvaracaq. Bu yenə tərslik eləyir. Və sonra dedi: yəni bu mənim xoşuma gəlir, çünki bu gün-sabah bu mənim arvadım olacaq. Elə mənə də belə damarlı, namuslu arvad gərəkdir.

Bu sözlərdən sonra Lütfəli bəy durub evdən çıxdı və Qurbana tapşırdı ki, üç günə kimi ev gərək boşalsın.



Lütfəli bəy evdən çıxan kimi Qurban ağlaya-ağlaya Şəfiqənin yanına getdi və dedi: xanımcan, indi sən nə edəcəksən? Şəfiqə isə cavab verdi ki, Qurban, iş ağlamaqdan keçib, indi fikir etməli. Bu cavabı alaraq Qurban özünü toxtadıb dedi: mehriban xanım və əziz anam və bacım. Əgər mənə izin versən, bir təvəqqe edərəm!

Şəfiqə dedi:

– Qurban dayı, izin lazım deyil, nə demək istəyirsən, sözünü de.

– Xanımcan, bağışla, sənə ağır gəlməsin, bu, dünyadır, elə də olar, belə də. İnsan gərək səbir eləsin, gəl köçək mənim evimə, orada oturaq, heç olmazsa kirayə verməzsən. Özünüz bilirsiniz ki, mənim heç bir kəsim yoxdur, sən olarsan mənə ana və bacı və mən də sənə qardaş və nökər, bir növ ömrümüzü tamam edərik.

– Əcəb deyirsən, Qurban dayı, mən sənin təklifini can və başla qəbul edirəm.

Bir neçə gündən sonra Şəfiqə öz balası ilə Qurbanın evinə köçdü.

Şəfiqə Qurbanın evinə köçəndə onun nə pulu və nə də imarəti var idi. Çünki Cəlil ağa pul göndərmədiyindən və Lütfəlidən də özü pul almaq istəmədiyindən özünə təəllüq qiymətli şeylərin hamısını lombarda zaloq qoyub, pul almışdı. Evdən köçəndə əlində bir az pulu vardı, onları da qulluqçulara vermişdi, çünki axır vaxtlarda onlara məvacib verməmişdi.

Qurban qocalmışdı, işləyə bilmirdi, çünki qocalıqdan başqa da onun ayaqlarında yel naxoşluğu vardı. Odur ki, Şəfiqə xanım yavaş-yavaş var-yoxundan satıb xərcləyirdi.

Xülasə, bayaq xoşbəxtlikdə birdən-birə tərəqqi edən Şəfiqə indi günü-gündən tənəzzül edirdi. Axırda iş o yerə gəlib çatmışdı ki, Şəfiqə yenə özgələr üçün paltar tikib, pul alardı və bununla başını saxlayardı.

Axır vaxtlarda Şəfiqəyə iş də verən olmadı. İndi onun özünün satılacaq bir şeyi olmadığı üçün Qurban özünə təəllüq əşyalardan satıb, bunları dolandırırdı. Şəfiqə isə gecə və gündüz, Allah, sənə şükür, nə bədbəxt günlərə düşdüm, deyə-deyə gözlərinin yaşını sel kimi axıdırdı:

– Yarəb, nə günah etmişdim ki, məni bu günə saldın, pərvərdigara, rəhm et.

Cəlil ağa gəzməkdən otelə, yəni mehmanxanaya gələndə lakey yüz min manatın perevod kağızını aparıb qapıda ona verdi. Cəlil ağa

isə cəld bunu oxuyub cibinə qoydu və nömrəsinə getdi. Bu zaman Olya nömrədə oturub kitab oxuyurdu. Cəlil ağa şad-xürrəm onun yanına gəlib dedi ki, indi mənə gözaydınlığı ver, pul gəldi. Olya isə bu xəbəri eşidəndə şikar görmüş pələng kimi kitabı yerə atıb, ilan kimi Cəlilin boynuna sarmaşdı və onu dalbadal busə edə-edə dedi ki, dünyada səndən çox sevdiyim adam yoxdur və sonra dedi, onu mənə ver. Cəlil ağa isə cavab verdi ki, dayan hələ, bu ki pul deyil, hələ bir alım, sonra. Bu sözlərlə, Olya kifayətlənməyib, onu döşündən çəkə-çəkə məxmər divanın üstünə aparıb oturtdu və burada onu busə edib, üzünü və gözünü sığal edə-edə bir daha soruşdu:

– İndi daha almaq olarmı?

Cəlil isə dedi: olar, al, canım da sənə qurbandır.

Bu sözləri eşidəndən sonra Olya onun dodaqlarını busə edə-edə cibindən pul kağızını çıxardıb döşünə qoydu. Xülasə, bir az burada vaxt keçirəndən sonra bunlar hər ikisi durub şəhərə gəzməyə və alverə getdilər. Neçə gün idi ki, bunlar belə vaxt keçirirdilər. Olya isə Cəlili daha qumar oynamağa qoymayırdı, çünki fikri ayrı idi. Ancaq puldan bəlkə yarısı xərclənmişdi.

Bir axşam Olya Cəlil evdə olmayan vaxt yola yığışdı və sonra oturub Cəlili gözlədi. Bir azdan sonra Cəlil ağa gəldi. Olya ona dedi ki, əzizim, ürəyim darıxır, özüm də içmək istəyirəm. Gəl bu gün bir ayrı restorana gedib, orada kef edək. Cəlil ağa ona cavab olaraq ancaq Olyanı busə etdi.

Bir azdan sonra bunlar qeyri bir restoranda əyləşib, kef edirdilər. Olya özü çox içməyib Cəlili çox içirtdi. Cəlil ağa o qədər içdi ki, lap kefləndi. Olyaya da bu lazım idi. Hesabı verib bunlar ayağa durdular və avtomobilə minib nömrələrinə getdilər.

Gecə saat üç idi. Bir saatdan sonra bu şəhərdən Berlinə qatar gedəcəkdi. Bu qatar ilə də gərək Olya gedəydi.

Nömrəyə gələn kimi Olya Cəlil ağanı yatırtdı və bir az özü də bunun yanında yatıb sonra yavaşca ayağa durdu. Olya paltarını geyinib, əl çamadanını götürüb stolun üstünə qoydu və sonra ələ gələn nə var isə hamısını buraya yığdı. Axırda, Cəlil ağanın başının altından bumajnikini də çıxarıb içində olan pulların hamısını götürdü və sonra yavaş-yavaş evdən çıxıb getdi.

Sabahı günü saat onda Cəlil ağa yuxudan ayıldı. Cəlil ağa Olyanı yanında görmədi. Bir elə fikir elədi ki, Olya durub gəzməyə gedib,



ona görə özü də durub cəld libasını geydi və yuyundu. Olya gəlib çıxmadı. Cəlil ağa zəngi vurub, lakeydən soruşdu ki, xanım necə oldu? Lakey isə cavab verdi: xanım saat dörd qatarı ilə getdi...

Bu sözləri eşidən kimi Cəlil ağanı guya ildırım vurdu.

Lakeyi yola salıb Cəlil ağa otağa göz gəzdirdi və gördü heç bir şey qalmayıb. Ancaq döşbağının qutusu durur. Cəld gedib ona baxdı, gördü ki, içi boşdur. Yadına bumajniki düşdü. Cəld başının altından bumajniki tapıb açdı, gördü ki, bir qəpik də qalmayıb. Cəlil ağa iki əli ilə başını tutub bihuş halda sandalyanın üstünə yıxıldı.

Cəlil ağa var-yoxunu satıb yavaş-yavaş gah işləyirdi, içirdi, gah da vətənə doğru yol gəlirdi. Bunun vətənə gəlməkdə mətləbi bu idi ki, Lütfəlidən kömək tələb eləsin və bir növ dolanıb, başını saxlasın. Heyhat!

İki ildən sonra Cəlil gəlib Dərbənd şəhərinə çıxdı. Çox ac olduğundan aşpazxanaya girib istədi ki, nahar eləsin. Cəlil özünə yemək deyib oturmuşdu. Ətrafda bir neçə adam oturub, "B" şəhərli Cəlil ağanın əhvalatından söhbət edirdilər. Bu adamlardan biri haman "B" şəhərinin ətraf kəndindən idi. Buraya alış-verişə gəlmişdi. Söhbəti oradan edirdi ki, indi onun arvadı öz nökərləri Qurbanın evində olur və onun-bunun qapısında işləyib özünü və balasını dolandırır. Dostu Lütfəli bəy isə bunlara nəinki kömək eləmədi, hətta mülkü alandan sonra onları haman evdən çıxardıb qovladı. İndi şəhərdə belə söyləyirlər ki, Lütfəli bəy çoxdan onun arvadı Şəfiqə xanımı sevirmiş və axır vaxtlarda neçə dəfə ona təklif edibmiş ki, gedib qazı əli ilə boşansın, sonra onun özünə gəlsin, arvad olsun. Və bununla belə söyləyirlər ki, arvad onu qovlayıb rüsvay edib. Bayaq Olya qaçanda, Olya nə üçün onunla olurmuş, anlayan kimi, Cəlil ağa indi Lütfəli nə üçün bununla dostluq elədiyini anladı. Fəqət, gec anladı. İndi Cəlil belə söhbətləri eşidən kimi iştahı tutuldu. Naharın pulunu verib, piyada yola düşdü ki, gəlib özünü vətənə və balasına yetirsin.

Lütfəli bəyin var-yox bir qoca anası vardı ki, indi o da vəfat eləmişdi. Odur ki, Lütfəli indi lap yalqızdı və evindən çıxanda bir adam yox idi ona ev işlərini tapşıraydı.

Qulluqçular ümidinə qalmış evinə gələndə Lütfəli həmişə özözünə deyərdi ki, Allah, nə vaxt mən bir rahat olacağam? Lütfəli,

məlumdur ki, Şəfiqədən başqa dünyada heç kəsi sevməmişdi və indi də sevməyirdi. Hər kəs sevdiyi adamın xoş gününə çalışır. Lütfəli üçün bu da mümkün deyildi, çünki onun sevdiyi Şəfiqə Lütfəlini gözü ilə də görmək istəmirdi, odur ki, Lütfəli həmişə iki odda yanırdı: birisi bu idi ki, Şəfiqə çox pis gündə və halda yaşayırdı, digəri isə bu idi ki, o bunu sevmədiyi halda, bu onu artıq dərəcədə sevirdi. Odur ki, ona nə gecə, nə də gündüz rahatlıq var idi.

Axşam çoxdan olmuşdu. Şəfiqə əziz balası Əlini bir növ tovlayıb yatırtmışdı, çünki o, ac olduğundan yatmaq istəməyirdi. İndi o öz-özünə deyirdi ki, Allah sabah bu məsum bala yuxudan duranda nə yeyəcək? Yarəb, mən nə edim?

"Qapı-qapı gəzib özümə iş axtarıram, mənə iş də verən yoxdur. Pərvərdigara, əgər mənə rəhm eləmək istəmirsənsə, bu məsum balama rəhmin gəlsin". Belə-belə fikirləri edəndə bir də onun yadına düşdü ki, bir zaman Cəlil ağa onun saçlarını sığal edə-edə demişdi ki, əgər o, saçlarını kəsib bazarda satası olsa, ona yaxşı pul verərlər. Bu onun yadına düşən kimi cəld yerindən durub dedi: bu saat saçlarımı aparıb satacağam. Qayçı olmadığından, Şəfiqə durub qonşuya getdi və bir qayçı alıb evə qayıtdı. Bədbəxt Şəfiqə saçlarını tutub dibindən qayçı ilə kəsdi və bir yaylığa bağlayıb, şalını götürdü və düz bazara – dəllək dükanına getdi. Dükana çatıb, zavallı Şəfiqə qapını tıqqıldatdı. Dəllək şagirdi qapını açanda, Şəfiqə saçlarını ona verib dedi:

– Bunları satıram.

Şagird hörükləri ustanın yanına apardı və bir azdan sonra beş manat pul gətirib, Şəfiqəyə verdi.

Çoxdan bəri pul görməyən Şəfiqə indi beş manatı görəndə elə hesab elədi ki, dünya bunundur və Allah, sənə şükür, – deyə-deyə evinə gəldi.

Şəfiqə evə gələndə balası və Qurban yatmışdılar. Şəfiqə əlində beş manat evə girən kimi dedi ki, əziz balam, indi sənin sabah yeməyə çörək pulun var, qorxma, rahat yat, bəlkə, bu gecə mən də bir az da olsa yuxulaya bilim.

Şəfiqə oturub halını fikir eləyirdi və öz-özünə deyirdi ki, bir zaman boynuma dolanan saçlarımı... növbənöv müşklərlə qoxuyan saçlarımı... gözəlliyim üçün, Cəlilim üçün ətirlədiyim və bəslədiyim hörüklərimi... balamın çörəyi üçün satdım... Ah, pərvərdigara!



Satılmayan... satılmayan bircə namusum qaldı. Allah, sən namusuma xəyanət etdirmə!

Bu sözlərdən sonra bədbəxt Şəfiqə, xainlər fədaisi Şəfiqə bihuş bir halda balasının yanına yıxıldı və oradaca sabaha kimi qaldı.

Sabahı günü hamıdan tez Şəfiqə ayağa qalxdı. Şəfiqə ocaq qalayıb qara çaydanı ocağın üstünə qoydu ki, qaynasın. Bu halda Qurban da oyanıb o biri evdən çıxdı. Qurbanı görcək Şəfiqə dedi ki, Qurban dayı, ala bu pulu, get bir az qənd, çay al gətir və bir az da çörək. Neçə gündür çay içməmişik, bir balaca çay içək.

Qurban beş manatı görən kimi Şəfiqədən sordu ki, bu pul haradan olub. Şəfiqə dedi ki, Qurban, onu daha soruşma.

Qurban soruşduğuna da peşman oldu, çünki onun ürəyinə belə gəldi ki, Şəfiqə bu pulu binamusluqla qazanıb, onun üçün də çox pərişan oldu və sonra fikirləşib dedi ki, əgər Şəfiqə mən tanıyan Şəfiqədir, dünyada belə şey olmaz və əgər həyat onu da belə rəzalətə salıb, onda daha dünyada nə Allah və heç bir şey yox imiş. Bunlar hamısı boş-boş sözlər imiş. Qurbanı bu qədər fikrə gedən görüb, Şəfiqə dedi:

– Qurban dayı, mən bilirəm sən nə üçün fikrə getdin, ancaq sən məni necə tanımısan, elə də bil. Səni arxayın etmək üçün sənə sözün doğrusunu deyim. Heç bir şeyə ümidim gəlmədiyindən... hörüklərimi kəsib satdım. Bu pul onun puludur, təmiz puldur.

Bu sözləri eşidib, qoca Qurban acı həqiqəti anladı və iki əli ilə üzünü tutub hönkür-hönkür ağladı və dedi:

– Allah, şahid ol bu zülmə! Allah, sən rəhm qıl!

Daha sonra Şəfiqəyə dedi ki, Şəfiqə xanım, sən də məni bağışla, mən günahlıyam.

Haman gün axşam oldu. Qurban dayı ilə Şəfiqə oturub keçmişdən və gələcəkdən söhbət edirdilər. Balaca Əli isə bayaqdan yatmışdı. Bir qədər söhbətdən sonra Şəfiqə durub, bir az soğan ilə çörək gətirdi və bunlar yedilər, sonra Allaha şükür, deyib ayrıldılar. Qoca Qurban öz otağına getdi. Şəfiqə isə qapını bağlayıb balasının yanında uzandı və yuxuladı. Cəlil ağa haman gecə gəlib "B" şəhərinə çatdı. Bərk külək idi. Cəlil ağa istədi ki, düz Qurbanın evinə getsin, arvadı və oğlu ilə görüşsün, sonra fikrini dəyişdi və dedi, yaxşısı budur ki, onların rahatlığını indi pozmayım, sabah, Allah qoysa, gedərəm.

Haman gecəni Cəlil ağa bir çörəkçi dükanında keçirdi. Çünki sabaha yaxın olduğundan çörəkçilər durmuşdular və çörək bişirirdilər. Şəhərdə Cəlil ağaya rast olan adamlardan heç biri bunu tanımadı və tanımaq da olmazdı. Çünki əvvəl o, qiyafəsini dəyişmişdi və sonra da gecə və gündüz piyada yol gəlməkdən rəngi qapqara qaralmışdı. Çörəkçilərdən birisi bundan soruşdu ki, sən kimsən? Cəlil ağa cavab verdi ki, çovdardır, şəhərə mal gətirib, sabahı gözləyir ki, malını satıb evinə getsin. Bunlar da bu sözə inandılar. Burada Cəlil bunlardan soruşdu ki, bu şəhərdə bir Cəlil ağa adlı böyük bir milyonçu var idi, o dururmu? Çörəkçilər cavab verdilər ki, Allah ona lənət eləsin, bir qızın ardınca düşüb o qədər dövləti dağıtdı, baxtaladı, arvadını, övladını ac qoydu, indi onlar qapı-qapı dilənirlər və özü də hələ gəlib çıxmayıb və yeri də məlum deyil. Ağıllı adam onun dostu Lütfəli bəy kimi olar. Cəlil ağanı axmaq görüb onun da dövlətini yığdı altına, indi kef çəkir. Deyirlər ki, özü də Cəlil ağanın arvadına aşiq olub, onu almaq istəyir, ancaq arvad getməyir. Çörəkçinin o biri yoldaşı dedi ki, qorxma, gedər, hələ bir fəqirliyin zəhərini görsün, sonra özü yalvaracaq.

Sabah açıldı. Cəlil bu sözlərdən çox pozuldu. O istədi ki, gedib Lütfəlini öldürsün və sonra arvadını və balasını görüb girsin dustaqxanaya, sonra dedi, yox, əvvəl görüşüm, sonra gedib onu öldürərəm. Cəlil ağa dükandan çıxıb, düz Qurbanın evinə getdi.

Cəlil ağa gəlib Qurbanın həyətinə girəndə gördü ki, həyətdə ayaqyalın, başıaçıq bir uşaq oynayır. Cəlil ağa bunu görcək çox diqqətlə ona baxdı, ancaq tanımadı, ona görə onun yanına gedib soruşdu ki, bala, sənin adın nədir? Cəlil ağa uşaqdan "adım Əlidir" cavabını aldıqda istədi ki, onu qucaqlasın, bu halda yerə yıxılıb ürəyi partladı. Uşaq evə yüyürüb, anasına əhvalatı söylədi. Şəfiqə isə cəld durub həyətə çıxdı və Cəlili tanıyıb istədi ki, onu qalxızsın, gördü ki ölüb. Qəşş edib onun üstünə yıxıldı. Bu halda Qurban da gəlib çatmışdı və bunları belə görüb bilmədi ki, nə eləsin, axırda qışqırıb qonşularını başına çağırdı. Qonşular yüyürüb gəldilər və Şəfiqənin qollarını boğub özünə gətirdilər və sonra Cəlil ağanı evə aparıb, polisə məlum etdilər. Bir az zamandan sonra polislər təbib gətirdilər. Təbiblər baxıb dedilər ki, Cəlil ağanın ürəyi partlayıb ölüb və izin verdilər ki, onu dəfn eləsinlər.



Şəfiqənin hörükləri satdığı pulundan dörd manat qalmışdı. Cəlil ağanın isə cibindən bir abbası pul çıxmışdı. Xülasə, bu pullarla Cəlil ağanı dəfn elədilər.

Sabahı günü qəzetlərdə haman əhvalat belə xəbər verilmişdi: "Qabaqda məşhur milyonçu Cəlil ağa indi gəlib buraya çıxıbdır, dünən səhər arvadının və uşağının yanına gedəndə həyətdə oğlunu görüb, istəyibdir ki, onu qucaqlasın, bu halda yerə yıxılıb, ürəyi partlayıb ölüb".

Lütfəli bəy təzə yerindən durmuşdu və öz kabinetində oturub, qabağında çay, haman əhvalatı qəzetədə oxudu və qəzetəni yerə atıb pərişan bir hala düşdü.

Bir az fikrə gedib Lütfəli bəy dedi:

– Bu gecə gördüyüm pis yuxu bu imiş.

Lütfəli uzun müddət evdən çıxmadı və otaqda gəzişə-gəzişə fikir eləyirdi ki, indi nə qayırsın. Axırda belə qət etdi ki, Qurbanı yanına çağırıb, Şəfiqəyə pul göndərsin və yenə bayaqkı dəni təklif eləsin, ona görə nökərini çağırıb dedi:

– Ay gədə, gedərsən Qurbanın yanına, bilirsən harada olur?

– Bəli, ağa, bilirəm.

– Ona deyərsən ki, ağam səni çağırır və özünlə bərabər götürüb, buraya gələrsən, gözləyirəm, al bu da fayton pulu, – deyib, gədəsinə bir manat pul verdi.

Lütfəli bəyin nökəri gəlib Qurbana əhvalatı söylədi və dedi səni gözləyir, əyləş faytona, bərabər gedək. Qurban cavab verdi ki, gərək bir gedib Şəfiqə xanıma əhvalatı desin və əgər o izin versə, gedər. Qurban gəlib əhvalatı Şəfiqəyə söylədi:

– Xanım, buyur görüm, gedim, ya getməyim?

Şəfiqə cavab verdi ki, getmə, bizim onunla bir işimiz yoxdur və hər nə demək istəyir, qoy ürəyində qalsın.

Qurban gəlib Lütfəli bəyin nökərinə dedi ki, Şəfiqə xanım izin verməyir, ona görə də o gedə bilməz. Nökər gəlib faytondan düşəndə Lütfəli bəy balkonda gəzirdi və bunu tək gələn görüb otağa getdi və öz-özünə dedi ki, yəqin Şəfiqə qoymayıb ki, qoy sözü var, özü gəlsin. Belədi ki var və adın nədir Daşdəmir, yumşalarsan, yumşalar, deyib gəldi. İndi daha ağıllanıbdır.

Nökər gəlib əhvalatı söyləyəndə Lütfəli dedi ki, söyləmə, nə deyəcəksən bilirəm, get şoferə de avtomobili hazırlasın. Özü isə yığışmağa başladı.

Yarım saatdan sonra Lütfəli bəy Şəfiqənin yanında idi.

Deyərlər ki, ilanın başı ağrıyanda yol üstə çıxar. Lütfəli bəyin də indi Şəfiqənin yanına getməsi lap eləcə oldu.

Lütfəli Şəfiqənin yanına gəlib əvvəl salam verdi və dedi:

– Şəfiqə xanım, məni bağışla, burada deyildim, qeyri şəhərə getmişdim, yoxsa mən sənin yanına gələrdim.

– Bunlar boş sözlərdir, indi de görüm nə üçün gəlmisən?

– Gəlmişəm ki, sənə kömək edəm.

– Mən səni çağırmamışam və kömək də tələb etməyirəm.

– Şəfiqə, gəl sən tərslik eləmə, bircə dənə balana rəhmin gəlsin, sən gəl...

Bu sözləri Lütfəli başlayanda Şəfiqə bildi ki, dalı nə olacaq və nə deyəcək. Mizin üstündəki bıçağa baxdı.

– Sən gəl daşı ətəyindən tök, mən deyən sözü qəbul elə, özün də xoşbəxt ol, məni də xoşbəxt elə...

Bu sözləri Lütfəli deyib qurtarmışdı ki, Şəfiqə bıçağı qapıb şikar üstə atılan pələng kimi Lütfəlinin üstünə yüyürdü və bıçağı onun ürəyinə sancıb öldürdü və dedi:

– Alçaq adama it ölümü yaraşır.

Polislər əhvalatı bilən kimi gəlib Şəfiqəni tutdular və işin istintaqını başladılar. Şahid lazım olmadı, çünki Şəfiqə özü boynuna götürdü. Polis protokol yazıb, Şəfiqə ilə bərabər müstəntiqə göndərdi. Şəfiqə burada da iş nə gunə olubsa söylədi və Lütfəlini öldürdüyünü boynuna götürdü. Əhvalat qəzetlərdə yazılmışdı və hər kəs oxuyub, "yaşasın Şəfiqə" deyirdi. Şəhərdə olan vəkillərdən Cavad bəy əhvalatı bilən kimi gedib min manata Şəfiqəni zaminə götürdü. Şahid lazım olmadığından, bu işə tez vədə təyin etdi və Cavad bəy də bu işi pulsuz öz boynuna almışdı. Divan günü idi, şəhər əhli yığılmışdı ki, görək Şəfiqənin işi necə olacaq, hər kəs öz ürəyində onun qurtarmağına dua edirdi.

Divan quruldu. Şəfiqə qəhrəmananə ətrafa baxırdı. Sudyalar Şəfiqədən soruşdular ki, özünü müqəssir bilirsənmi? Şəfiqə cavab verdi ki, xeyr, müqəssir deyiləm.



Prokuror sözünü deyib qurtarandan sonra Cavad bəy belə bir nitq söylədi:

– Cənab sudyalar!

Müqabilimizdə oturan arvad ağıllı və dövlətli bir şəxsin halalıdır. Bunun və hətta kişisinin bu qədər bədbəxtliyinə səbəb ancaq onun gözəlliyi olubdur. Bunu gərək biz müqəssir edək ki, nə üçün o belə gözəl yaranıb, qeyri surətdə, gərək bunu biz xilas edək, bunun kişisi, necə ki, hər kəsə məlumdur, çox gözəl əxlaqlı bir adam olub və öz ürəyinin təmizliyindən hər kəsi də özünə dost sanıb, çörək verib. Haman adamlardan biri də bu ölən adamdır ki, ona Cəlil ağanın artıq sədaqəti və məhəbbəti var idi. Müsəlman aləmində bir adam ki bir adama övrətini göstərir, demək olur ki, o adam haman adamı özünə dost yox, bəlkə qardaş və ata kimi hesab edir. Cəlil ağa Lütfəli bəyi özünə eləcə bilib, Şəfiqəni ondan gizlətməyirdi. Halbuki, Lütfəli bəy bu sədaqətin, bu məhəbbətin müqabilində elə bir dostun övrətinə təəşşüq edir və arzusuna çata bilmədiyindən var qüvvəsilə çalışır ki, onu yıxsın, arvadını əlindən alsın. Lütfəli bəy haman arvadı almaq üçün onun özünü də gətirib bu hala, bu zillətə salır. Baxınız, cənab sudyalar! Bu qadın başının saçlarını satıb, balasına çörək alıb, zalım Lütfəli bunu bu həyatında rahat qoymayıb, daim onun damarlarını, sinirlərini, beynini öz dəni təklifləri ilə qeyzləndirməkdə idi. Əlbəttə, bu da insandır, bunun da ağlı başından çıxa bilər və çıxıb, odur ki, bu özünü bilmədiyi bir hala gəlib, bu qədər onun bədbəxtliyinə səbəb olan adamı öldürməyə məcbur olub və öldürüb. Cənab sudyalar! Mən təvəqqə edirəm ki, Şəfiqəyə rəhm edib onu xilas edəsiniz, çünki əgər ona rəhm olunmazsa, onda onun bir dənə balasına baxan, ya rəhm edən necə ki, görürsünüz olmayıb və olmayacaq.

Bir saatdan sonra sudyalar zala girib, "Şəfiqə bu işdən xilasdır" qətnaməsini oxudular. Zalda olan camaat isə "yaşasın haqq, qanun" dedi.

Cavad bəy haman gün bir qonaqlıq edib, şəhərin dövlətlilərini çağırıb Şəfiqəyə beş min manat da pul yığdı və sabahı günü özü aparıb ona verdi.

# ABDULLA ŞAİQ

(1881-1959)

*XX əsr Azərbaycan ədəbiyyatı tarixində görkəmli yazıçı kimi tanınan Abdulla Şaiq Talıbzadə Tiflisdə ruhani ailəsində doğulmuşdur. İlk təhsilini Tiflisdə almış, sonra Xorasanda oxumuşdur. XX əsrin əvvəllərində Bakıya köçən Şaiq ömrünün axırına qədər burada yaşayıb, ədəbi-ictimai və pedaqoji işlə məşğul olmuşdur. Ədib Bakıda dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn edilmişdir.*

*A.Şaiqin bədii irsinin mühüm qismini onun hekayələri təşkil edir. İlk dəfə XX əsrin əvvəllərində dövri mətbuat səhifələrində çıxan bu əsərlər sonralar da dəfələrlə nəşr edilmiş və geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Yazıçının bu kitabda verilən hekayələri onun üçcildlik "Seçilmiş əsərləri"nin birinci cildindən (Bakı, 2004) götürülmüşdür.*

## MƏKTUB YETİŞMƏDİ

### I

Qışın dondurucu bir günü idi. Soyuq qılınc kimi kəsirdi. Göylər matəmlilər kimi, qara çarşaba bürünmüş, dağlar, çöllər ağ kəfənlə örtülmüşdü. Küçələrdə koma-koma duran qarlar üzərində qarğalar qorxaq baxışlarla gəzinirdi. Qalın palto, isti paltar geyinmiş adamlar bəzəkli və isti mənzillərindən çıxıb piyada, ya arabalar içində rahat-rahat küçələrdən keçirdilər. Bu dondurucu qış, bu sərt soyuq onlar üçün əyləncədən başqa bir şey deyildi.

Dünyada bütün səfalət və fəlakət yalnız insanlığın yoxsul qisminə nəsib imiş!

Qurban Şeytanbazar ucunda məktub yazan həmşəhərlisi Molla Fərzəlinin yanında oturmuş, soyuqdan əlləri, üzü bozarmış, bir əli ilə köhnə və yırtıq paltarının açıq yaxasını tutaraq, o biri əli ilə də ayaqlarına buz kimi yapışan yırtıq çustunun palçığını təmizləyə-təmizləyə:



– Molla, mənə bir məktub yaz! Bilirsən ki, hər il sənə nə qədər xeyir verirəm. Vətəndən gəldiyim bir il olmaz, ancaq bununla sənə beş məktub yazdırıram, – dedi.

Molla Fərzəli soyuqdan donmuş əllərini ovuşdurdu. Əsnəyə-əsnəyə bir kağız parçasını dizi üstünə alaraq:

– Həmşəri, nə yazılacaq? – dedi.

Qurban Molla Fərzəliyə bir az da yaxınlaşdı. Gizli bir söz söyləyirmiş kimi fısıldayaraq:

– Molla, əvvəlcə məndən uşaqların anasına salam yaz, – dedi, – yaz ki, Anaxanımın, Məmişin gözlərindən mənim əvəzimdən öpsün, onlardan göz-qulaq olsun. Sonra yaz ki, mən də, şükür Allaha, sağ və salamatam, Qulamrza ilə sizə on beş manat göndərdim. Bayramqabağı yenə göndərəcəyəm; uşaqlar korluq çəkməsinlər, özüm də yazın axır ayında gələcəyəm.

Molla Fərzəli qələmi mürəkkəbə batırıb yazmaq istədi. Mürəkkəb qatı olduğundan yazmadı. Molla ağzının suyundan bir damla mürəkkəbə damızdırıb qarışdırdıqdan sonra yazmağa başladı.

Qurban döşüaçıq arxalığının və köynəyinin arasından görünən, soyuğun təsirindən dik-dik durmuş qıllarını arxalığının yaxalığı ilə örtüb, sümüklərinə qədər nüfuz edən soyuqdan yumaq kimi büzüşərək dedi:

– Molla əmi, yaman adamın quyusunda işləyirəm, quyu indi otuz sajından aşağı enib, nə qədər yalvarırıq: "Ay ağa, haqqımızı bir az artır, aşağı getmək çox çətindir, neftin, qazın iyindən nəfəs tutulur", zalım oğlu razı olmur. "Əvvəlki şərtimizlə qazacaqsınız, yoxsa haqqınızı verməyəcəyəm" deyir. Molla, burada pul qazanmaq çox çətindir. Sənin peşən yaxşıdır. Gündə beş-on kağız, dörd-beş dua yazsan, bəsindir. Allah bərəkət versin. Daha nə istəyirsən?

Molla Fərzəli qələmi qələmdana qoydu, divarın deşiyindən iki barmağı arasında bir qədər torpaq alıb, məktubun üstünə tökərək quruda-quruda cavab verdi:

– Həmşəri, uzaqdan döyüş adama asan gəlir. Mənim sənətim bildiyin qədər də yüngül deyil. Qış-yaz küçə başında müştəri yolu gözləməkdən adamın gözlərinə qaranlıq çökür. Elə gün olur ki, bir nəfər də müştəri gəlmir. Qarnını ovuşdura-ovuşdura qalırsan.

Molla əbasına bərk sarındıqdan sonra məktubu Qurbana oxudu. Qurban mollanın ağzından çıxan kəlmələri yeyəcəkmiş kimi ağzını

açmış, diqqətlə onu dinləyirdi. Sonra üzündə, gözlərində sevinc qığılcımları uçuşaraq:

– Molla, Qulamhüseynə də salam yaz, – dedi, – yaz ki, mən gəlincə uşaqlardan göz-qulaq olsun, yazsın görüm bizim qızıl inək dururmu? Kor yabını satıb, ya yox? Bir də yaz ki, gələndə Anaxanıma güllü-güllü dəsmal, Məmişə də qırmızı köynək gətirəcəyəm.

Molla Fərzəli məktubu yazıb bitirdikdən sonra büküb zərfə qoydu və üzünü Qurbana tutub:

– Həmşəri, zərfin üzü kimin adına olacaq? – deyə soruşdu.

Qurban əli ilə boynunu ovuşdura-ovuşdura:

– Hə, molla, yaz ki, Qurbanın uşaqlarının anasına yetişəcək.

Molla zərfin üzünü yazıb Qurbana uzatdı.

Qurban məktubu alıb sevincək iki əli arasında diqqətlə baxdıqdan sonra qoynuna qoymaq istədi. Məktub əlindən yerə düşdü. Məktubu tez götürdü. O yan-bu yanını təmizləyib yenidən qoynuna qoydu. Kisəsini çıxarıb, iki şahı mollanın ovcuna sıxaraq: "Al, həmşəri! Bayramqabağı genə məktub yazdıracağam, məndən sənə çox xeyir çatacaq", – deyib qalxdı.

Qurban əli ilə qoynundakı məktubu bərk tutaraq yeriyirdi. O indi həmşəhərlisi Qulamrzanın mənzilinə gedib, həm məktubu ona vermək, həm də dilcavabı bir-iki söz sifariş etmək istəyirdi. Yolda yeriyərkən düşünürdü: "Əcəb bəxtəvər adamdır, indi gedib balalarını görəcək, külfətinə, elinə, obasına qovuşacaqdır. Ox... bir-iki ay sonra oralar nə gözəl olacaq. Çöllər, dağlar yamyaşıl olacaq, çiçəklər açacaq, ağaclar yarpaqlanacaq, ilk baharın elçiləri olan qaranquş, sığırçın və leylək sürü-sürü dönüb, yuvalarını tikəcək, səhər və axşam şirin-şirin nəğmələrlə ruhları, ürəkləri oxşayacaqlar. Hər yerdə əkin və bostan işləri başlanacaq, balıqçılar çaylardan və göllərdən balıq ovlayacaq. Ah məni bu gözəlliklərə, ev-eşiyimə, uşaqlarıma həsrət qoyan kasıblıq!". Bu kədərli düşüncə Qurbanın vücudunun hər sahəsinə sürətlə yayılaraq, bütün bədənini titrətdi. Daxilində əzici bir sızıltı duydu. Qəlbi sanki bir an dayandı. Artıq dizlərində taqət, vücudunda qüvvət qalmamışdı. O, ayaqları altında xışıldayan qarın üzərinə birdən-birə üzüqoylu düşdü; ölgün və üzgün halda başını qaldırdı. Qabağında izdihamı yarıb keçən arabaları, isti paltarlı, şən sifətli insanları, o qaynar həyat sahəsini qəzəbli nəzərlərlə süzdü, biixtiyar soyuq dodaqlarından bütün iztirab və kədərlərinə tərcüman olan "of" uçdu, özünü doğruldaraq düşdüyü yerdən qalxdı. Tez əlini qoynuna



soxdu və məktubu yanıq ürəyi üzərinə sıxaraq yeridi. Bir az sonra Qulamrzanın mənzilinə yetişdi. Qapı bağlı idi, məyus və dalğın halda geri döndü, qarışqa kimi qaynaşan işçilər içində sərsəri kimi dolaşarkən, həmşəhərlisi Səftəri gördü. Ona yaxınlaşaraq əhval soruşdu. Məlum oldu ki, Qulamrza şəhərə getmişdir. Qurban Səftərə yalvardı ki: "Qulamrza qayıdanda mənim gəldiyimi ona de, tapşır ki, məni görməmiş getməsin, amanatım da, dilcavabı sifarişim də var".

Bunu deyib Qurban mənzilinə qayıtdı.

## II

– Namərdlər, alçaqlar, nə qədər ki, quyu dərinləşməmişdi, mən baş idim, onlar quyruq. Hər tərəfə dönsəm, onlar da o səmtə sürünürdülər. İndi ki, quyu dərinləşib, mənə baş olmaq istəyirlər. "Quyu dərinləşib, ölüm ayağı var. Daha nə bilim nə... nə" – deyə hər gün təzə şərt qoyurlar. Tfu sizin kimi namərd adamlara! Sizə qırmanc lazımdır, qırmanc!

Tanrıverdi və Səfər çəkdikləri torpağı boşaldıb yenidən quyuya buraxdıqdan sonra Tanrıverdi:

– Ay ağa, – dedi, – bilirsən ki, quyunun indi çətin vaxtıdır, əjdaha kimi ağzını açıb qurban istəyir. İnsaf da yaxşı şeydir. Axı...

Səfər Tanrıverdinin sözünü kəsdi, göz işlədikcə sıra ilə düzülən neft buruqlarına əli ilə işarə eləyərək əlavə etdi:

– Bax, bu yerlərin hər guşəsinə ayaq bassan, hər ovuc torpağına qazma vursan, işçi sümüyü görərsən, işçi fəryadı eşidərsən. Bu uca evlərdə, isti ocaqlarda naz-nemət içində yaşayan...

Hacı Qulu Səfərin sözünü kəsib, ayaqlarını yerə çırparaq, bağıra-bağıra:

– Canınız çıxsın, – dedi, – pul qazanmaq asandır? Siz canınızdan keçirsiniz, biz də ətək-ətək pulumuzdan.

– Səfər! Səfər! Qurban ipi tərpədir.

Səfər və Tanrıverdi tez quyunun ağzına yüyürdülər, başlarını aşağı dikərək baxırkən, quyu içində partlayan qazın gurultusundan diksinib çəkildilər. Hər ikisi həyəcanlı bir səslə:

– Allah özü bağışlasın. Qurban da belə getdi, – deyə fəryad qopardılar.

Hacı Qulu bir şey eşitməmiş kimi, qorxa-qorxa quyunun ağzına gəldi və ehtiyatla quyunun yanına uzanıb diqqətlə baxdı. Birdən-

birə gözlərində, üzündə daşqın bir sevinc qığılcımları, dodaqlarında məmnuniyyəti andıran bir təbəssüm olduğu halda uca səslə:

– Çeşmənin başı açıldı, yavaş-yavaş neft qaynayır – dedi.

Tanrıverdi soyuq və laqeyd bir tövrlə:

– Hacı, Qurbanın meyiti quyuda qalacaq? – deyə soruşdu.

Bu sözdən Hacı Qulu şirin yuxudan oyanmış kimi oldu. Göz qapaqları iri-iri açıldı. Kisəsindən iki iyirmi beşlik çıxarıb:

– Kim bu işi görsə, bu əlli manat onundur – dedi.

Tanrıverdi quyuya yaxınlaşdı və neftin qaynayıb qalxdığını görüncə:

– Yazıq Qurban, sən qəbrini öz əlinlə qazdın – dedi.

Hacı əlli manatı onlara verib dedi:

– Əlli manat sizin olsun, bölüşün, ancaq bu işi ağzınızdan qaçırmayın.

Səfər soruşdu:

– Ağa, bəs paltarı nə olacaq?

Hacı əlini onun çiyninə qoyaraq, yağlı bir dil ilə:

– Onu da buralarda bir yer qazıb basdırın – dedi.

Səfərlə Tanrıverdi Qurbanın paltarını yığışdırıb götürərkən, arasından yerə bir məktub düşdü. Məktubun üzərində: "Bu məktub Qurbanın uşaqlarının anasına yetişəcək" cümləsi yazılmışdı.

Səfərlə Tanrıverdi bir müddət məktubu acı nəzərlə süzərək: "Yazıq Qurban, məktub yetişmədi" – deyə inlədilər.

*1908*

## GÖBƏLƏK

Tiflisdə olduğum günlərin ən bəxtiyar saatlarını "Gəncə bağında" keçirirdim. Qaynaşan gurultulu həyatdan özünü bir dağ yamacına çəkmiş və hər tərəfi uca, qalın divarlarla qucaqlaşmış bu bağın iri dəmir qapısından içəri girincə hər şeyi unudur, qarşımda başqa dünya, başqa aləm açılırdı. Təbiətcə ən gözəl bir lövhəyə təqlid edilərək düzəldilmiş bu bağın çox təbii görünən pərişan gözəllikləri, dolaşıq eniş-yoxuş yolları, başlarını bir-birinə əymiş uca və sıx ağacları vardı. Hər gün kəsə cığırlarla aşağıya, dərəyə qədər enər və orada bir daş üstündə oturub, saatlarla fikrə gedər, düşünərdim.



Payızın dumanlı bir günü idi. Adətim üzrə, "Gəncə bağını" gəzdikdən sonra qısa addımlarla evə qayıdırdım. Birdən-birə arxadan eşidilən bir səsdən geri döndüm. Üst-başı təmiz, səliqəli geyinmiş bir gənc əli ilə "dur!" işarəsini verdi. Durdum. Yaxınlaşdı. Görüşdük.

Onunla keçən il Bakıda, dostlarımdan birinin evində görüşmüş, tanış olmuşdum. Dostum məni ona təqdim etdiyi zaman Qulubəy yerindən qalxaraq, əlimi sıxdıqdan sonra:

– Sizinlə tanış olduğumdan özümü çox xoşbəxt sanıram. Bundan sonra tez-tez görüşər, həyata yeni ayaq basdığım üçün bilmədiyim bir çox şeyləri sizdən öyrənərəm. Şübhəsiz, bunu məndən əsirgəməyəcəksiniz, deyilmi? – dedi.

İlk dəfə gördüyüm və yaxından tanımadığım bu gəncin nəzakəti qarşısında sıxılaraq, sakit bir halda:

– Birinci görüşdə haqqımda bu qədər hörmət göstərmənizə qarşı təşəkkür edirəm. Sizə öyrətmək deyil, sizdən öyrənmək və söhbətinizdən istifadə etmək üçün ən dəyərli saatlarımı fəda etməyə hazıram, – dedim.

O mənim bu sözlərimdən cəsarətə gələrək, kürsünü stola yaxın çəkib oturdu, sonra süfrədə qarşımızda buğlanan iki fincan çayı, hündür vazlara qoyulmuş konfetləri istehzalı nəzərləri ilə süzüb, əli ilə kənara itələdi, ev sahibinə amiranə bir səslə dedi:

– Bu nədir? Kişinin başını şirni ilə aldadırsan? Qalx ayağa, süfrəyə araq, ağzımızı duzlamağa da bir az yemək gətir!

– Dostum içki sevmir.

– Sən gətir! Mən onu içirdərəm!

Mən də sözə qarışdım. Biz nə qədər mane olmaq istədik, mümkün olmadı, o, fikrində inad etdi. Dostum qalxıb, içki almağa getdi.

Qulubəy üzünü mənə çevirərək, süni bir tərzdə gülümsündükdən sonra sözə başladı:

– Mənim əqidəm budur ki, insan gərək günlərini bir-birindən xoş keçirsin. Odur ki, mən Avropa varlılarının adət-ənənələrini ürəkdən sevirəm. Onlar yaşamağın qaydasını çox gözəl bilirlər. Ömürlərini kefdə, damaqda keçirirlər. Beş günlük dünyadır, gününü elə keçir ki, qəm görməyəsən.

Qulubəy öz dediklərindən şad halda ayağa qalxdı, iki-üç addım geri çəkilərək, birinci dəfə görürmüş kimi öz üst-başını, lak tuflilərini diqqətlə nəzərdən keçirtdi:

– Bax, bunların hamısı son moda ilə tikilmişdir. Özü də Parij jurnallarından götürülmüşdür. Öz geyimlərimizdən lap zəhləm gedir. Doğrusu, başıpapaqlı, üst-başından kəndçilik tökülən adamları görməyə heç gözüm yoxdur.

Mən təzə dostumun sözlərinə etiraz etdim. Həyatda hamının boynuna düşən vəzifələrdən, zəhmət və əməyin vacibliyindən danışdım. Sözlərim Qulubəyə əsla təsir etmədi. O öz fikirlərini bir qədər də dərinləşdirərək, əslində özünü daha da ifşa edərək dedi:

– Yox, siz həyata çox üzdən baxırsınız. Bərk ayaqda mən heç atamı da tanımıram. Atam dedim, yadıma düşdü. İndi atamın bir az var-yoxu var deyə yaxınlıq edirəm. Yoxsa, heç yanıma gəlməyə də qoymuram. Başına köhnə müsəlman papaqlarından qoyub küçəyə çıxanda ona heç salam da vermirəm.

– Niyə, papaq ki, bizim milli geyimimizdir. Kişilərimizin çoxu indi də papaq qoyur.

– Siz yazıçı olmağınıza baxmayaraq, lap elə mənim atam kimi düşünürsünüz. Papaq yaxşı olsaydı, Avropanın ziyalıları da ondan qoyardılar. Bu motal papaqlar, büzməli çuxalar lap zəhləmi tökübdür. Atamın ölməyini gözləyirəm. Ölən kimi var-yoxunu götürüb birbaş Parijə, o gözəllər və ballar şəhərinə gedəcəyəm. Bəlkə heç qayıtmadım da. Adamın vətəni olanda da elə olsun.

Təzə dostum çox çərən-pərən etməyə başladı. Bunlara oxşayan daha bir neçə söz dedi. Onunla ağız-ağıza verməyi lazım görməyib, bir söz demədim. Ürəyimdə belə bir adamla tanış olmağıma acıyır, səbirsizliklə dostumun yolunu gözləyirdim. Çox çəkmədi ki, dostum əlində bir şüşə araq, kağıza bükülmüş bir neçə şey içəri girdi, onları stolun üstünə qoyub, səssiz oturdu. Məsələnin qəlizləşəcəyini görüb, ayağa durdum, vacib iş üçün getməli olduğumu bildirdim. Nə qədər etdilərsə də, mümkün olmadı. Ancaq qapıdan çıxanda Qulubəyin məzəmmətedici sözlərini eşitdim:

– Elə bir şüşə? Dəvəni çömçə ilə suvarırsan?

* * *

Ona görə də onunla bugünkü görüşümüzdən heç razı deyildim. Yaxınlaşdı, salamlaşdı, üzündə, gözündə uşaqlara məxsus bir sevinclə əlimi sıxaraq:



– Nə gözəl təsadüf!.. Könlüm sizi çox görmək istəyirdi. Yaxşı ki, ağır-ağır yeriyirsiniz, arxanızdan yetişə bildim. Əgər mən irəlidə olsaydım...

– Mən sizə çata bilməzdim, siz addımlarınızı çox iri atırsınız – dedim.

– Başqa cür olmaz, tərəqqi və təkamül əsrində yaşayırıq. Oba köçdü, biz qaldıq. Qısa addımlarla onlara yetişmərik.

Hələ sözlərini bitirməmişdi ki, birdən-birə əllərini qısa paltosunun ciblərindən çıxartdı. Yanımızdan sallana-sallana keçən şıq bir xanımın önündə şapkasını bir neçə dəfə oynadaraq: "Zdravstvuyte, madam, hara gedirsiniz?" – dedi. Qadın cavab olaraq gülümsədi. O isə özündən razı bir halda:

– Bu xanımı tanıyırsınızmı? – deyə soruşdu.

– Xeyr, tanımıram, – dedim.

– Əsgər bəyin xanımıdır. Bakıda bunları tanımayan yoxdur. Necə olub ki, bu vaxta qədər tanış olmağa müvəffəq olmamışsınız?

– Onu taleyimdən soruşun!.. Hamı sizin kimi bəxtiyar olmaz ki... – dedim.

Qulubəy üzümə mənalı bir nəzərlə baxaraq, gülə-gülə "çox doğru!" – dedi. Sonra, üzü qızıl yazılarla dolu gümüş siqar qutusundan bir siqar alıb yandırdı. Birini də mənə təklif etdi. Siqarı iki dodağına qısıb havada bir-iki dairəvi duman buraxdıqdan sonra sözünə davam etdi:

– Bu xanımla Bakıda bu il tanış oldum. Xristianların yeni ilini qarşılamaq üçün Səfibəylə birlikdə onlara getmişdik. Bizdən başqa hamı orada imiş. Evləri, eşikləri nə qədər səliqəli, nə qədər təmiz idi. Ən çox mənim nəzərimi cəlb edən xanımın kiçik bacısı Şura idi. Salona bitişik olan uşaq otağında o, uşaqlara yolka bəzəyirdi. Təsvirəgəlməz bir maraqla yeni ilin daxil olacağı dəqiqəni gözləyirdik. Artıq gözlədiyimiz zaman yetişmiş, qədəhlər bir-biri ilə görüşməyə, öpüşməyə başlamışdı ki, birdən-birə qapı açıldı. Uşaqların hamısı "urra" deyə bağırdı. Şura xanım məğrur bir tövrlə irəliləyərək: "Cənablar, qapını açıb, bu şənlikdə iştirak etməyi bizə də müsaidə edərsinizmi?" deyincə içərimizdən birisi: "Hay... hay... Şura xanım! Canla-başla qəbul edirik" deyə bağırdı. Salonun müxtəlif tərəflərində içki və qumar üçün qoyulmuş stolların ətrafında oturan qonaqlar uşaqların qəşəng bəzənmiş yolkasına, daha doğrusu, Şura xanımın məharət və sənətinə tamaşa etməyə getdilər. Ox, bilsəniz nə qədər

şux, nə qədər dilbər qız idi! Yerişində, duruşunda, bütün hərəkətində bir naz duyulurdu. O gecə gözəl piano çaldı, romanslar oxudu. Sonra rəqs başlandı. Dan yeri sökülüncəyə qədər yedik, içdik, çaldıq, oynadıq; azğın təqlidlər, gülünc meymunluqlar etdik.

– Çox doğru, bu ki, Darvin nəzəriyyəsini isbat etmək üçün çox əsaslı dəlillərdir – dedim.

Biz söhbət edə-edə bir qapı ağzına yetişdik.

Axın-axın şərqə doğru gedən qara buludların zəhərli və acı təsiri sinirlərimə işlədikcə, bütün vücudumda hiss etdiyim bir sızıltıdan titrəyərək, ixtiyarsız halda:

– Qulubəy, haraya gedirik? Bu yol ki, bizi qəbiristana aparır, – dedim.

Qulubəy kəsik bir nəzərlə üzümə baxaraq gülə-gülə:

– Bəli, – dedi, – heç bilmədən sizi buraya qədər gətirdiyim üçün üzr istəyirəm. Atama məzar daşı sifariş etmişəm. Hazır olduğunu bilmək üçün gedirəm.

Bir qədər sükutdan sonra:

– Canım, bu köhnə adamlar bir bəladır. Onlarla keçinmək, hər istəklərini yerinə yetirmək üçün insanın əsəbləri dəmirdən olmalıdır. Ax, onun əlindən nələr çəkmədim? Geniş dünya başıma dar, işıqlı dünya gözlərimdə qaranlıq görünürdü. Dava etmədiyimiz bir gün yox idi. Mən onun hər hərəkətindən nifrət etdiyim kimi, o da mənim hər işimə qarışır, hər bir hərəkətimi şiddətlə tənqid edirdi. "Belə etmə, elə oturub-durma!" – deyə, acı tənqidlərlə məni lap haldan çıxarırdı. Hələ yoldaşlarım, ya da gözəl bir madmazellə küçədə dolaşdığım zaman qarşıma çıxarkən hirslənirdim. O mənim kimi oxumuş oğlu olduğuna qürurlandığından köksünü qabardaraq, Həştərxan xoruzu kimi üstümə gəlir, məni söylətmək üçün min vasitə düşünürdü. Mən də köhnə fikirli, köhnə geyimli bu adamla danışmaq istəməyərək, ondan qaçmağa çalışırdım. Hətta tanımayanlara "bizim xidmətçidir" deyirdim.

Nə deyirsiniz, mənim bu hərəkətim ona hər şeydən pis təsir edirdi, yazıq qocanı yaralayırdı. Arabir evdə: "Səndən nəyim əskikdir, paltarım köhnə, yamaqlıdır, ya özüm səndən çirkinəm? Zəhmət çəkdim, ətək-ətək pul sərf etdim, səni böyütdüm, oxutdum, indi məni bəyənmirsən? Nankor!.." – deyə hiddətlənirdi. Mən heç əhəmiyyət verməzdim. Nəhayət, mən onu dinləməkdən yoruldum,



o söyləməkdən, hər ikimiz bir-birimizə uyuşmadığımızı hiss etdik. Bu hiss bizi bir-birimizdən uzaqlaşmağa məcbur etdi. Bu çarpışma uzun müddət davam etdi. Nəhayət, mən qalib çıxdım. Axır ki, qocanı məzara basdırdım, həm də bir daha soyuq məzəmmətlərini eşitməmək üçün köhnə, çürük fəlsəfə və mühakimələri ilə bərabər.

Qulubəy sözünü bitirmiş, söylədiklərindən razı bir vəziyyət almışdı.

– Elə isə altından çıxmamaq üçün üstündən bir məzar daşı qoymağa da tələsiniz – dedim.

Qulubəy mənalı bir ahənglə:

– Elə tələsməyim də onun üçündür – dedi.

Hər ikimiz düşüncəli bir sükutun ağırlığı altında əzilirdik. Birdənbirə əlində salladığı yaylığını göstərərək:

– Baxın, bağın cənub tərəfində, uçurum üzərində ucalan bürcü görürsünüzmü? Köhnə zamanlar xainləri oradan uçuruma atarlarmış. Bax, bu göbələkləri də o bürcün ətəklərindən toplamışam, çox yaxşı və təzə göbələklərdir, rica edirəm götürünüz – dedi.

Çox təkidlə göbələyi ovcuma sıxışdırdı. Sonra, yaxındakı qapıdan qəbiristanlığa getdi.

Mən bir az sonra bağdan çıxıb, kiçik bir cığırla evə dönürdüm. Ayağımın altında, çox aşağıda qaynayan dirilər ölkəsini seyr edirdim. Ovcumdakı göbələklərin yurdu olan bürcə yetişmişdim. Ovcumu açdım. Göbələkləri iki barmağım arasına alaraq baxırdım. Birinin yanından barmağımla bir parça qoparırkən, qara başlı kiçik bir qurd başını çıxarıb ətrafı qorxunc baxışlarla süzdükdən sonra yenə də başını sürətlə göbələyin içində gizlətdi. Bu qurdlu göbələklərə indi daha böyük bir maraq və qəlbimdə coşub-daşan bütün acı təəssüratımla baxırdım. Nə qədər baxdığımı, nələr düşündüyümü bilmədim!.. Göbələkləri bütün qüvvətimlə aşağıya, o xainlər, qatillər məzarlığı olan uçuruma ataraq, arxama baxmadan yoluma davam etdim.

Payıza məxsus şiddətli külək getdikcə qüvvətlənərək, başlarını dik tutan cavan və sağlam ağacları o yan-bu yana əyir, yarpaqları həzin bir xışıltı ilə qoparıb çuxurlara, yollara döşəyirdi. Şərqə doğru ağır-ağır uçuşan koma-koma buludlar birləşir, şəhəri get-gedə qorxunc bir qaranlıq almağa başlayırdı. Yeridikcə ayaqlarım altında xəzəllər həzin bir səslə xışıldayırdı. O tozlu hava ciyərlərimə çökdükcə, sümüklərimə, əsəblərimə işlədikcə, bütün vücudumu bürüyən

bir ağrının acısı ilə eniş, daşlıq bir cığırla aşağı enir, evə tez yetişməyə can atır, öz-özümə:

– Bu müdhiş ruzigar qorxunc bir tufan qopara bilər, – deyə düşünürdüm.

Qapı ağzına yetişdiyim zaman yağış iri-iri damcılarla yağmağa başladı.

*1912*

## PİRİN KƏRAMƏTİ

İyun ayının isti bir səhəri idi. Dar bir cığırla sıx ağacların altından kiçik bir təpəyə dırmanırdıq. Dostum Ağabəy: "Burada sənə göstərəcək maraqlı bir yer vardır" – deyib, daha sürətlə irəliləməyə başladı.

Yoxuşu çıxdıq. Təpənin lətif otlarla döşənmiş seyrək ağaclı döşü ilə yeriyir və dostumun mənə göstərəcəyi maraqlı yerin nə olduğunu görmək üçün tələsirdim. Fəqət bu təpədəki incə, pərişan gözəllik məni o qədər məşğul etmişdi ki, hər şeyi unutmuşdum. Ətrafımızdakı fındıq, zoğal ağaclarına sarılmış yabanı üzüm və böyürtkən kollarının iri yarpaqları buranı sərin və yaşıl kölgəliyə çevirmişdi. Otların, çiçəklərin gözəl qoxusu yaxındakı yeni biçilmiş tarlaların ətrinə qarışdığından insan ətrafı bürüyən rayihədən doymurdu. Arabir müxtəlif ağacların budaqları arasına sığınmış quşların cikkiltisi, kəsik-kəsik fəryadı eşidilirdi.

Dostum bu yerləri birinci dəfə görürmüş kimi əllərini heyrətlə bir-birinə çırpdı:

– Bura ki, quşlar məskənidir... Gör nə qədər quş var! Bax, yarpaqların arasına sığınmış sarı çiçəyə bənzəyən o quşcuğazı görürsənmi? Nə qədər şux, nə qədər gözəldir! Bütün lətafət və incəlikləri özündə toplamış olan gözəllik tanrısını xatırladır. Diqqət et, təbiətin ən nəşəli bir zamanında yaranmış olan bu kiçik məxluqda nələr yoxdur?! O həm şair, həm də gözəl bir bəstəkardır. Kaş ki, biz də bu quşlar qədər məsud olaydıq, qanadlanaraq, qarşıdakı uca dağların başındakı buludlara qarışaydıq!

– Yox, dostum, mənim üçün bura daha xoşdur, çünki o rütubətli buludlar içində bu rəng və lətafəti, zövq və səadəti tapmazsan! – dedim.

O, səmimi gülümsəyərək, ətrafı bir daha heyrətlə süzdü:



– Doğrudan, başqa aləmdir – dedi. Sonra əlimdən çəkərək:

– Gəl, gəl... dediyim yerə çatırıq – deyə məni özü ilə bərabər aparmağa başladı. Qocaman bir iydə ağacının altında dayandıq. Dostum iydə ağacının nazik və uzun budaqları altında olan köhnə bir qəbri əli ilə göstərərək, heç bir söz demədi. Ağacın budaqlarına bir çox əlvan iplər, müxtəlif rəngli parçalar, xırda daş, kəsək bağlanmış və bir neçə beşik asılmışdı. İydə ağacı çox qəribə, əsrarəngiz bir görkəm almışdı.

– Bunlar nədir? – deyə soruşdum.

– Bu iplər nəzir sahibləri tərəfindən bağlanmış, beşiklər isə doğmayan qadınlar tərəfindən asılmışdır – dedi.

Hər ikimiz bir an susaraq, o ağacı və köhnə qəbri nəzərdən keçirtdik. Xəyalımız ibtidai dövrlərdə yaşayan babalarımızın köhnə adət və etiqadlarını gözümüz önündə canlandırdı. İxtiyarsız olaraq: "Əcəba, biz hansı dövrdə yaşayırıq?" – deyə heyrət içində dostumun üzünə baxdım. O da eyni tövrlə:

– Daş dövründə! – deyə cavab verdi.

Bu zaman qəbrin baş tərəfində qoyulmuş yuvarlaq və şaquli şəkilli bir neçə daş gördüm, xoşuma gəldiyindən bir-ikisini götürdüm. Dostum əlimi tutaraq:

– Nə edirsən? Bunları götürmək olmaz! – deyə səsləndi.

– Nə üçün?

– Pir qəzəb elər, xəstələnərsən.

– Səndəmi bu xurafata inanırsan?

O gülümsəyərək:

– Yox canım, sən məni nə zənn etdin? Ancaq cahil adamlar daşlardan birini əlimizdə görsələr, qiyamət qopararlar – dedi.

Mən daşları yerinə qoydum. Bir qədər iydə ağacının altında dayanıb, mövhumatın şüuru necə zəhərlədiyini düşündüm. Qəzəbdən danışa bilmirdim.

Dinməzcə yolumuza davam etdik.

Meşədəki dərin sükutu quşların civiltisi, bir də bizim ayaq səslərimiz pozurdu. Dostum əlini çiynimə qoydu. O, iri ala gözlərini üzümə dikərək:

– Sənə uzun, həm də çox qəmli bir əhvalat söyləyəcəyəm – dedi.

Beş-on addım getdikdən sonra yeni bir qəbir daşı yanında oturdu. Onun qaşları çatılmış, üzü dumanlanmış, gözlərindəki parlaqlıq sönmüşdü. Bir dəqiqə qəbri həzin baxışlarla süzdükdən sonra:

– Mənim ən yaxın, ən səmimi dostum Əhmədin qəbridir, – dedi. – Olduqca həssas, namuslu bir gənc idi. Təhsili az olsa da, çox istedadlı bir cavan idi. Rustov kəndində pristavın bütün dəftərxana işləri onun əlindən gəlib-keçirdi. Hər gün axşamlar görüşüb, günümüzü xoş keçirərdik. Bu gözəl insanın ancaq böyük bir qüsuru vardır, bir fikir və iradə sahibi deyildi. Görüşdüyü adamların təsirinə tez qapılar, onların fikir və mühakimələrini dərhal mənimsərdi. Axırda da bu iradəsizliyinin qurbanı oldu. Dostumu qısaca xarakterizə etdikdən sonra onun başından keçən faciəni sənə nəql edim:

– Mühüm bir iş üçün on gün müddətinə Qubaya getmişdim. Oradan da Bakıya getməli idim. Səfərim zənn etdiyimdən çox uzun sürdü. Yaşadığımız Rustov kəndinə döndüyüm zaman dostumu görmək üçün evinə getdim, heç kəsi görmədim. Qapılar, pəncərələr bağlı idi. Oradan birbaş işlədiyi idarəyə getdim. Məmurlardan birisi Əhmədin sətəlcəm olduğunu və müalicə üçün haraya isə getdiyini söylədi. Bu xəbər məni çox peşman etdi. Pərişan halda evə qayıtdım. Axtarıb tapmaq istədim, lakin harada olduğunu qəti surətdə öyrənə bilmədim. Hərə bir söz deyirdi. Birisi Xaçmaz xəstəxanasında yatdığını, bəziləri də şəfa üçün pirə getmiş olduğunu söyləyirdi. Üç gün sonra dostumun ağır səfərdən qayıtdığını eşitdim. Dərhal yanına getdim. Mən içəri girəndə o, yataqda idi. Görüncə heyrət etdim.

Söhbətin bu yerinə çatanda Ağabəy əziz dostunun qəmli taleyini xatırlayaraq, dərin bir kədər hissi keçirirdi. O danışdıqca səsi də yavaşıyır və qəmli bir ahəng alırdı. Ağabəy sözünə davam edərək dedi:

– O sağlam vücudlu adam az zaman içərisində əriyərək o qədər dəyişmiş, o qədər kiçilmişdi ki, tanıya bilmədim. Simasındakı o rəng, təravət, gözlərindəki o nur sönmüş, yanaq sümükləri çıxmış, gözlərinin hədəqələri çuxurlaşmış və ətrafını dərin, qara bir dairə sarmışdı. Elə tutulmuşdum ki, dörd-beş dəqiqə danışmağa iqtidarım olmadı. Çaşqın-çaşqın üzünə baxırdım. Nəhayət, bir az özümü toplayaraq dedim:

– Sənə nə oldu? Gedirkən sapsağlam qoyub getmişdim.

O zəif bir səslə:

– Soruşma, qardaşım, soruşma, dərdim böyükdür, – dedi.

– Xəstəliyin nədir?

– Əvvəlcə sətəlcəm.

– Sonra?

– Sonra da axmaqlıq...



– Bakıda həkimlərə özünü göstərdinmi? Onlar nə deyir? O acı-acı gülümsəyərək, başını yastıqdan bir az qaldırdı. Çuxur və qaramtıl bir dairə içində sönük-sönük parıldayan gözlərini üzümə dikərək heyrətlə:

– Bakıya!.. İnsan oraya müalicə üçün gedər? Mənim orada nə işim!

– Bəs sən haraya getmişdin?

Zavallı cavan qəlbinin içindən vurulmuş kimi inlədi. Bəlğəmdən boğazını təmizlədikdən sonra həzin bir səslə:

– Mən ata-baba qaydası ilə "Pirhəsən"dən şəfa istəməyə getmişdim, – dedi.

Əhməd mənalı gözlərini üzümə dikdi. Əti getmiş və ancaq dəri ilə sümük qalmış əlləri ilə yorğanı üstündən qaldırdı, mum kimi ərimiş vücudunu başdan-ayağa süzdükdən sonra:

– Bax, pirin şəfa və kəraməti belə oldu. Sağ getdim, ölü qayıtdım – deyə yenə yorğana sarındı.

– Bəs indi necəsən, tamam sağalmısanmı?

Amansız öskürək dostumu söz söyləməyə qoymurdu. O, bir az sakit olduqdan sonra başına gələnləri qısaca mənə nəql elədi.

– Səni görəndən üç gün sonra soyuqdan bərk xəstələndim. Düz on beş gün yatdım. Sağaldıqdan sonra yenə işə gedirdim. Amma xəstəlik məni lap üzmüşdü. Özümü çox yorğun, halsız hiss edirdim. Nəşəm qaçmış, yeməkdən qalmışdım. Mənim bu halım anama pis təsir edirdi. Bir gün dedi: "Oğul, sən nə vaxtacan belə qalacaqsan? Gəl sözümü eşit, səni "Pirhəsən"ə aparaq. Orada qurbanımızı kəsək, şəfamızı istəyək, sən o pirin kəramətini bir gör. Bu naxoşluğu elə orada qoyub gələcəksən". Mən qəti surətdə rədd etdim. Bu zaman xalam da gəldi. O da sözə qarışıb, iki bacı məni danlamağa və pirin kəramətinə inandırmağa çalışdılar. Mənim iradəsizliyimi bilirsən. Qısası, zor-güc məni razı elədilər. Mən: "Bir şey qazanmasam da, bir şey itirməyəcəyəm, heç olmasa kiçik bir səyahət edərəm" deyə, ertəsi gün yola çıxdıq. O gün "Pirhəsən"ə çatıb qurbanımızı kəsdik, ziyarət etdik, şəfamızı dilədik, o gecə orada qalmalı olduq. Həmin gün ətrafdan əlli nəfərə qədər zəvvar[1] gəlmişdi. Qadın və uşaqdan ibarət olan bu dəstə içərisində yalnız beş kişi var idi ki, o bədbəxtlərdən biri də mən idim. Gecəni arabanın içində yatdım.

[1] Zəvvar – ziyarət edən

"Qurban ətidir" deyə kabab çox yemişdim, daha doğrusu "şəfadır", deyə yedirtmişdilər. Səhərə qədər gözlərimi yummadım. Çox narahat idim. Yalnız səhərə yaxın bir saat yata bildim. Gözlərimi açdığım zaman gördüm ki, mücavir[1] zəvvarları başına yığıb "Pirhəsən"in kəramətindən uzun-uzadı söyləyir, onlar da heyrətlə mücaviri dinləyirlər. Mücavir "Pirhəsən"in kəramətlərini söyləyib bitirdikdən sonra: "Bunun böyük oğlu da mürşüd və kəramət sahibi bir şəxs olmuşdur – dedi, – məzarı da, bax, bu yaxındadır. İndi ki, gəlmisiniz, onu görməmiş getməyin, sizdən narazı qalar".

Camaat istər-istəməz haman pirə doğru hərəkət elədi. Mücavir də onlarla gedə-gedə haman pirin möcüzələrindən nağıl etməyə başladı. Təxminən əlli nəfər bir cığırla gedirdik. Mücavir durdu. Əli ilə göstərərək:

– Bax, bu cığırla gedin. Haman pirin mücavirləri qarşınıza çıxar və nə edəcəyinizi sizə deyər. Amma gedərkən gözünüzə meşədə əcaib şeylər görünəcək, qəribə səslər eşidəcəksiniz. Əsla qorxmayın. Mənim bundan irəli getməyə haqqım yoxdur – deyə geri döndü.

Biz meşənin içinə yayılıb, yavaş-yavaş irəliləyirdik. Başımız üzərində qocaman, yüksək ağaclar iri-iri budaqlarını sallayaraq, bizimlə əylənirmiş kimi dururdu. Hər kəsdə bir qorxu və dəhşət vardı. Hava durğun və dumanlı idi. Ağacların ən yüksək budaqlarında bir yarpaq belə qımıldanmırdı. Hər tərəf səssiz idi. Bu səssizliyi yalnız bizim ayaq səslərimiz, cırcıramaların cırıltısı və yaxın gölməçələrdəki qurbağaların qurultusu pozurdu.

Gözlərimizi meşənin qalın çalı və kollarına dikərək gedir və dəli kimi səksənirdik. İrəlidə bir səs qopdu. Qalın bir kol dibindən bilmirəm tülkümü, ya dovşanmı qaçdı. Bu aralıq birdən-birə zəvvar qafiləsinin dönərək, həyəcanla bağıra-bağıra bizə tərəf yüyürdüyünü gördüm. Arvad, uşaq bir-birinə qarışaraq, bir-birinə sarılaraq elə bağırırdılar ki, sanki bir dəstə quldur üzərlərinə güllə yağdırırdı. Dəhşətdən vücudumu isti bir tər basdı. Ayaqlarım titrəməyə başladı. İçlərində kişi az olduğundan müdhiş bağırtı ilə hamısı bizə doğru gəlirdi. Tüklərim ürpərdi, gözlərim qaraldı. Ayaqlarım artıq hərəkətdən qaldı, başım dumanlandı. Hər kol, hər daş, hər yarpaq gözümüzə bir vəhşi kimi görünür, qulaqlarımızda getdikcə əcaib səslər və gurultular artırdı. Özümüzü toplayacaq, düşünəcək bir halda deyil-

[1] Mücavir – məbəd yanında yaşayan



dik. Bağıra-bağıra mən də geriyə doğru qaçdığımı xatırlayıram. Sonra nələr olduğunu bilmirəm. Ayıldığım zaman özümü meşədə deyil, Xaçmaz xəstəxanasında gördüm. Bir şəfqət bacısı başım üstündə durub, qaşıqla ağzıma dərman töküdü. Mən vəhşi kimi durub qaçmaq istədim. Hər şey gözümə qəribə görünürdü. Tam bir həftə əsəbi hal keçirtdim. Özümü bir qədər yaxşı hiss etdikdən sonra məni xəstəxanadan çıxartdılar. Gəlirkən həkim sonuncu dəfə olaraq məni müayinə etdi. Sonra diqqətli baxışlarla məni süzərək: "Xəstə, sən bərk qorxmusan, səndə vərəm xəstəliyi sürətlənir. Onun qarşısını almaq lazımdır. Ye, iç, istirahət elə!" – dedi.

Dostum Ağabəy sözünü burada kəsərək, qəmgin-qəmgin düşünməyə və əli ilə məzar daşını oxşamağa başladı.

– Bəs sonra nə oldu? Dostun Əhməd nədən vəfat etdi? – deyə soruşdum.

O, başını qaldırdı və qızarmış gözlərini üzümə dikərək, cavab verdi:

– Əsil fəlakət sonra üz verdi. Gündən-günə soldu, mum kimi əriməyə başladı. Mən çox çalışdım, onu Bakıya apardım, ən məşhur doktorlara göstərdim. Öz pulu ilə xəstəxanaya yerləşdirdim. Kəndə dönərkən:

– Qardaşım, – dedi, – sən çox zəhmət çəkdin. Doğma qardaşın etmədiyi yaxşılığı sən mənə etdin. Ancaq bu yaxşılıqlarının əvəzini verəcəyimə ümidim yoxdur, zira ki, bu xəstəliyin pəncəsindən qurtulmayacağam.

Ona çox təsəlli verdim.

Dostum yenə söhbətini kəsdi, gözlərini qəbrə dikərək qaldı.

– Sonra nə oldu? Oradamı vəfat etdi?

– Yox, bir ay sonra xəstəxanadan: "Xəstəniz ümidsizdir, gəlin aparın!" – deyə teleqram aldım. Getdim, gətirdim. O, artıq skeletə dönmüşdü. Çox zəhmətlə gətirdim. İki həftə sonra vəfat etdi.

Dostum sözünü bitirdikdən sonra yaşlı gözlərini bir müddət qəbrə dikərək qaldı. Sonra qəbrə işarə edərək, titrək bir səslə: "Nə qədər gözəl insan, nə qədər yaxşı dost idi! Onu məndən "Pirhəsən" ayırdı" – deyə mənalı-mənalı mənə baxdı. Sonra əlini şiddətlə məzar daşına çırparaq:

– Bax, budur pirin kəraməti! – deyə qəzəblə bağırdı.

*1912*

# ƏLABBAS MÜZNİB

## (1883-1938)

*XX əsr Azərbaycan ədəbiyyatı tarixində görkəmli şair, nasir, tərcüməçi, jurnalist, ədəbiyyat tədqiqatçısı kimi tanınan Əlabbas Müznib (Əlabbas Mütəllib oğlu Əhmədov) Bakıda daşyonan ailəsində doğulmuşdur. İlk təhsilini alayarımçıq olaraq mollaxanada almış, kiçik yaşlarından əmək fəaliyyətinə başlamışdır. Əvvəllər baqqal dükanında, sonralar xarrat, arababağlayan, dəmirçi yanında şagirdlik edən Ə.Müznib 1905-ci ildən sonra jurnalistika aləminə atılmış. XX əsrin əvvəllərində çap olunan "Şihabi-saqib", "Zənbur", "Dirilik", "Övraqi-nəfisə", "Babayi-əmir" jurnallarının və "Hilal" qəzetinin redaktoru olmuşdur.*

*1912-ci ildə o, siyasi fəaliyyətinə görə mühakimə olunaraq, ömürlük Sibirə sürgün edilir. 1913-cü ilin ortalarına qədər Sibirdə sürgündə qalan Müznib həmin dövrdə azad olunub, doğma vətənə qayıdır və yenidən ədəbi-ictimai fəaliyyətini davam etdirir. Ömrü boyu doğma xalqının siyasi-mənəvi azadlığı uğrunda mübarizə aparan Ə.Müznib 1936-cı ilin sonlarında həbs olunur. Onu panislamist ideyalar təbliğ etməsinə görə günahlandırıb, 8 il həbs cəzasına məhkum edir və Uzaq Şərqə – Vladivostoka göndərirlər. Ədib 1938-ci ildə orada, xüsusi məntəqədə vəfat edir.*

*"Yusif və Züleyxa" romanı 1914-cü ildə Bakıda çap olunsa da XX əsrdə, xüsusilə sovet dönəmində oxucuların istifadəsindən kənarda qalmışdır. Əsər ikinci dəfə filologiya elmləri doktoru İslam Ağayevin "Əlabbas Müznib: həyatı, yaradıcılığı, əsərlərindən seçmələr" (Bakı, 2003) kitabında dərc olunmuşdur. Buradakı mətn və yazıçı haqqında məlumat həmin kitabdan götürülmüşdür. Əsər çapa hazırlanarkən əvvəlki nəşrdə buraxılmış imla xətaları aradan qaldırılmışdır.*



# YUSİF VƏ ZÜLEYXA

Mündəricat: Həzrəti-Yusifin yuxu görməsi və qardaşlarının həsəd edib atalarını aldatmaları, Yusifi quyuya salmaları. Bir tacirə qul satılıb Misirə aparılması və Misirdə satılması, Misirin hökmdarı Əzizin onu alması və Züleyxanın ona aşiq olması və on axırda Misirə hakim olub qardaşları ilə görüşməsi və atası Yəqub əleyhissəlamla mülaqat etməsi.

## BİRİNCİ FƏSİL

Yəqub əleyhissəlam ərzi-Kənanə gəldi. Özünə yer və yurd bina edib sakin oldu. Müşarileyhin iki arvadı var idi. Birinin adı Rəhilə, o birinin isə Ləya idi. Ləyadən on, Rəhilədən isə iki övladı olmuşdur.

Ərzi-Kənan bu gün Beyrut vilayətinə tabe Nablis sancağıdır, yeri dənizdən çox hündürdədir, havası lətif və mötədil, bağlıq, bağçalıq və məmur bir yer olduğuna görə cənab Yəqub orda vətən tutub, qalmağı çox münasib bildi.

Yusif əleyhissəlam o zaman iki yaşında idi. Kiçik qardaşı Benyamin isə hənuz qundaqda idi. Anaları da vəfat etmişdi. Həzrəti-Yusif fövqəladə gözəl və nəhayət dərəcədə zəkavətli bir uşaq olduğu cəhətilə atası hamı övladlarından onu çox sevərdi. Heç bir vaxt yanından ayırmazdı. Müşarileyh dörd-beş yaşlarında olduğu halda böyük adamlar kimi ağıl və bacarıq əsərləri göstərirdi. Və ziyadəsilə atasının məhəbbət və məvəddətini qazanmağa müvəffəq olurdu.

Bir gün Həzrəti-Yusif əleyhissəlam səhər yuxudan durunca atasının yanına gəlib dedi: "Ata! Bu gecə çox qəribə bir yuxu görmüşəm. Gördüm ki, mən bir kürsü üstündə oturmuşam. Göydən on bir ulduz ilə ay və günəş yerə enib yanıma gəldilər və bərabərimdə səcdə edib yerə yıxıldılar".

Yəqub əleyhissəlam oğlunun bu yuxusuna böyük əhəmiyyət verib təqdir etdi. Dərhal cənab Yusifi qucaqlayıb dedi: "Oğlum, saqın bu yuxunu bir kəsə və qardaşlarına söyləmə. Qorxuram ki, paxıllıq edib səni tələf etməyə çalışarlar, çünki şeytan insanların düşmənidir. Onların qəlbinə bir ədavət, bir həsəd yerləşdirərsə, sənin biehtiram olmağına səbəb olarlar. Gördüyün yuxunun isə təbiri belədir: Cənab Həqq səni qardaşlarının hamısından ali edəcək və onlar sənin hüzurunda baş əyəcəklərdir".

Yusif atasının bu əmr və tövsiyəsinə görə yuxusunu heç bir kəsə söyləmədisə də, atasına söylədiyi zamanda qardaşlarından biri eşidib Yusifin yuxusunu, atasının tövsiyəsini tamam-kamal qardaşlarına xəbər verdi. Onlar onsuz da atalarının Yusifi onlardan çox sevdiyini bilirdilərsə də, bu iş həsədlərini daha da artırırdı. Ona görə Yusifin haqqında cürbəcürə tədbirlər etməyə başladılar. Axırda bu məsələni müzakirə etdilər. O halda onlardan biri dedi:

– Bizim hər birimiz bir güclü igid və pəhləvan deyiləcək dərəcədə qüvvətli, kəsbi-kar sahibi və son dərəcədə iş görən olduğumuz halda atamız Yusif kimi kiçik və heç bir işə yaramayan bir uşağı bizdən çox sevir, hər vaxt da bizdən artıq tutub yanından əsla ayırmayır. Bu isə şübhəsiz atamızda böyük səhv etmək əsəridir. Buna görə Yusif nə qədər qalırsa, atamızın əsla bizə məhəbbəti olmayacaqdır, olsa da layiq olduğumuz vəchlə rəğbət etməsi mümkün deyildir. Buna bir çarə tapmaq lazımdır.

Bundan sonra o birisi:

– Onu ortadan götürmək lazımdır. Yusifi öldürməliyik.

Üçüncüsü:

– Xeyr, öldürməyək, onu götürüb yalqız bir yerə atmalıyıq. Belə edərsək, canımız ondan xilas olar. O olmadıqda atamız bizə meyil və məhəbbət edər, sonra cümləmiz tövbə edib, asudəliklə ömür edərik. Atamızın hər bir əmrinə itaət edib onu özümüzdən xoşnud etməyə çalışarıq.

Bunun bir təklifindən sonra böyük qardaşları və ziyadə ağıllı, bacarıqlı olan Yəhuda söz alıb dedi:

– Yusifi öldürmək heç yaxşı deyildir, çünki qətli-nəfs böyük günahdır. Ancaq onu götürüb yolun kənarında bir quyuya salmaq, bəlkə oradan keçən karvanlardan biri tapar, alıb özü ilə bərabər aparar. Bu surətlə onun qanı üstümüzdən və bəlası başımızdan rəf olub gedər.

Bu təklifə hamısı razı oldular. Fəqət bu işi əmələ gətirmək lazım idi. Bu isə çox müşkül idi. Çünki cənab Yusifi atasının yanından ayırmaq mümkün olmayan kimi idi. Ələlxüsus, Yəqub əleyhissəlam cənab Yusifi gördüyü yuxudan sonra bir dəqiqə yanından kənara buraxmırdı. Həmişə kamali-ehtiyatilə yanında saxlayırdı.

Artıq məsləhət və məşvərətdən sonra qərar verdilər ki, atalarının yanına gedib Yusifin onlarla bərabər səhraya getməsi üçün izn istəsinlər. Yəhuda onların qabağına düşüb atalarının yanına getdilər. Aralarında verdikləri qərar mövcibincə Yəhuda Həzrəti-Yəquba söylədi:



– Sevgili atamız, biz qəsəbə kənarına gəzməyə gedirik. Orada bir qədər oynayıb, təzə hava alacağıq. Belə halda sevgili qardaşımız Yusif belə seyri-səfadan bütün-bütünə məhrum qalır, ona olan məhəbbətinin çoxluğu cəhətindən həmişə həbs edirsən. O da insandır, yazıqdır. Nə üçün onu bizimlə bərabər gəzməkdən, dolanmaqdan, oynamaqdan mən edirsən. Biz o biçarənin uşaq olduğu halda, hər şeydən məhrum olmasına artıq təəssüf edirik. İzn verin, onu da özümüzlə bərabər səhraya aparaq, o dəxi göylükdə, çəmənlikdə gəzib oynasın. Saf havalarda səhralarda dolanıb bir az yubansın.

Həzrət Yəqub əleyhissəlam oğlanlarının bu ricalarını eşidincə dedi:

– Bəli, övladlarım, haqqınız vardır. Yusif hər cürə uşaq oyunlarından məhrum olur. Ancaq onu sizinlə göndərməyə qorxuram. Çünki siz oyuna məşğul olarsınız, biri-birinizi qovub keçməyə çalışdıqda o yalqız qalar, kiçik uşaq olduğu cəhətilə özünü mühafizə və müdafiə edə bilməz. Qurd isə gəlib onu tələf edər.

Atalarının bu dediklərinə cavabən dedilər:

– Baba! Bizim hər birimiz qüvvətli bir igidik, biz olan yerdə qurdun həddi nədir ona zərər yetirə bilsin? On nəfər adam bir nəfər uşağı saxlaya bilməzlərsə, daha nəyə lazımdırlar. Siz xatircəm olunuz, biz Yusifi artıq dərəcədə mühafizə edərik, yanımızdan bir dəqiqə də olsa ayırmarıq. Halbuki, qardaşımızı mühafizə etmək ən birinci vəzifəmizdir. Siz böylə boş əndişələrlə biçarə uşağı gəzib oynamaqdan məhrum etməyiniz; bizim kimi güclü, qüvvətli qardaşları olduğu halda onun evdə məhbus kimi qalması caiz deyildir.

Bu kimi çox sözlər söyləyib atasını razı etməyə çalışırdılar. Cənab Yusif uşaq olduğuna görə qardaşlarının bu ricasından şad olurdu. Çünki o dəxi həmişə evdə qalmaqdan həddən artıq incimişdi. Gəzmək və dolanmaq arzu edirdi.

Yəqub əleyhissəlam oğlanlarının bu sözlərindən və Yusifin məsumanə baxışından mütəəssir olub, sabahı günü qardaşlarilə səhrayə gəzməyə getməyə riza verdi:

Gəlsə hamıya bəla qəzadan,
Yəquba gəlib bəla rizadan.
Giryanlığına bina qoyuldu,

Səbrin evi qəhr ilə soyuldu,
Cəlladi-qəza boğub vəfani,
Hakim eylədi ona cəfani.

Hamısı bu müvəffəqiyyətdən şad oldular, qardaşları üçün qurduqları hiylənin qüvvət tapmağından məmnun və məsrur oldular. O gecə rahatlıq ilə yatdılar. Cənab Yusif dəxi gəzməyə getməyini nəzərdə tutub o cəhətlə özünü bəxtiyar hesab edirdi. Sabah olunca Həzrəti-Yəqubun övladları atalarının hüzuruna gəldilər. Yusifi özlərilə səhraya aparmaqlarını bildirdilər. Cənab Yəqub, nəhayət, təhəssürlə sevgili oğlu Yusifin gözlərindən öpüb:

– Oğlum! Səni Allaha əmanət tapşırdım, – dedikdən sonra o biri oğlanlarına dəxi Yusifi mühafizə etməyi tövsiyə eylədi.

Cənab Yusif qardaşlarilə birgə məmnun və məsrur qəriyənin kənarına çıxdılar. Gülə-gülə, oynaya-oynaya Qüdsi-şərif yolu ilə bir saat getdilər. Orada qayət dərin və çox sulu bir quyu var idi. O quyunun yanına gəldilər. Yusif əleyhissəlamın köynəyini çıxardıb çılçılpaq etdilər. Sonra belinə ip bağlayıb haman quyuya saldılar:

Camali-Yusifi gülçöhrə ol cahi-qəmə girdi,
Ki, guya şəmsi-taban məğribə yetdi, qürub etdi.

Yusif qardaşlarının bu rəftarından nəhayət dərəcədə sıxıldı. Onların bu bəd müamilələrindən ağlamağa başlayıb yalvardı:

– Qardaşlarım, heç olmazsa mənim köynəyimi mənə verin, mənim üçün quyu içində çılpaq qalmaq həddən artıq çətin olar. Bu, insaf deyildir.

O vəqtdə Yusifin bu yalvarmağına ən böyük qardaşı Yəhuda istehza ilə bu cavabı verdi:

– Qorxma! Səni öldürməyəcəyik. Ancaq bu quyuya salacağıq. Burada yuxuda gördüyün ulduzlar ilə ay və gün gəlib sənə yemək verərlər. Onlar səni burada yalnız qoymazlar.

Cənab Yusif gördü ki, qardaşlarının həsəd və ədavəti həddən artıq aşıb, inadlarından gözləri qaralmışdır. Heç bir vəch ilə yalvarmaq onlara əsər etməyəcək və razi-niyazına qulaq asmayacaqlardır. O cəhətlə yalvarmağı tərk edib, səmimi qəlb ilə cənab Həqqə dua etməyə başladı:



Zavalsız, həzrəti-Həqqin kəmalına pənah etmək,
Gözəldir min nəbiyə ərzi-istimdad etməkdən.

Quyuya düşdükdə gördü suyun ortasında hündür bir daş vardır. Haman daşın üstündə oturub cənab Həqqin lütfi-inayətinə müntəzir oldu:

Bir aləm mərhəmət heç bir həbibi eyləməz məmnun,
Fəqət məmnun edər ani gözəl məhbubinin lütfi.

O halda Allah-təala həzrətləri tərəfindən cənab Yusifə vəhy nazil oldu. O vəhyin nüzuli ilə Yusifə təsəlli verdi. Qorxu və əndişəsini büsbütün zayil etdi. Çünki nazil olan o vəhy Yusifin qorxmamasını və tez bir zamanda xilas olacağını və axırda ali bir şan və şərəfə nail olacağını və qardaşlarının ona möhtac olacağını buyururdu.

Qardaşları Yusifi bu surətdə quyuya atdıqdan sonra sürüdən bir qoyun tutub kəsdilər. Yusifin əynindən çıxartdıqları köynəyi qoyunun qanına bulaşdırdılar. Bu köynəyi qana bulaşdırmaqda məqsədləri atalarını aldatmaq idi. Bu tədbirdə olduqları halda köynəyi qana bulaşdırdılarsa da, yırtmağı unutdular. Parçalamaq əsla xəyallarına gəlmədi. Haman qanlı köynəyi gətirib evlərinə gəldilər, hamısı bir riyayi-tövrlə məhzun və mükəddər idilər. Guya doğrudan-doğruya Yusif tələf olmuş, əziz qardaşları əllərindən getmişdir. Yalnız bu iş özlərinin hiyləsilə əmələ gəlməmişdir.

Yəqub əleyhissəlam oğlu Yusifi qardaşlarilə görmədikdə qayət çaşqın və hövllənmiş bir hal ilə onlardan:

– Yusif harda qaldı? – deyə soruşduqda, hamısı birdən ağlaşıb dedilər:

– Mehriban atamız, səhraya getdik, bir az oturduqdan sonra soyunduq, yüyürüşüb keçişməyə başladıq. Yusifi paltarlarımıza qarovul qoyduq. Oradan uzaqlaşıb, çox uzaq bir məhləyə qədər getdik, oradan qayıtdıqda gördük qardaşımızı bir qurd gəlib yemişdir. Vaqiən böyük bir əskik iş gördük. Amma Yusif getdi. İndi əlimizdən nə gəlir. Onu orada yalnız qoyub getməyimizə peşman olsaq da, indi peşmançılıq nə fayda verər. Və bu vaqiənin də sizə ən həqiqətini söyləyirik. Lakin biz elə xəyal etdik ki, bəlkə inanmadınız, o cəhətlə biçarə qardaşımızın köynəyini gətirdik.

Bu sözləri deyincə qoyun qanına bulaşan köynəyi atalarına təqdim etdilər. Həzrəti-Yəqub qanlı köynəyi əlinə alıb baxdı, köynəyin heç bir tərəfində yırtıq və cırıq görmədi. Halbuki Yusifi qurd parçalamış olsa idi, köynəyi yırtılmış və parçalanmış olardı. Bunların hamısının yalan söylədiklərini və hiylə qurduqlarını anlayıb dedi:

– Yusifi qurd yeməmiş, canavar parçalamamışdır. Onu sizin həsədiniz, paxıllığınız fəlakətə düçar etmişdir. Hamınız yalan deyirsiniz.

Onlar atalarından bu sözü eşidincə hamısı birdən ağlayıb dedilər:

– Əmin olunuz, biz yalan demirik, qurd qardaşımızı yediyini gözümüz ilə gördük.

Yəqub:

– Xeyr! Dediklərinizin əsli yoxdur. Əgər dediyiniz kimi qurd yemiş olsa idi, hökmən bu köynəkdə bir yırtıq əlaməti görünərdi. Halbuki bu köynəkdə heç elə əsər yoxdur. Qurd dəxi insan deyil ki, əvvəlcə köynəyini çıxardıb, sonra tələf etsin. Kaş ki, Yusifi sizinlə göndərməyəydim. Lakin nə çarə, şeytan sizi böyük günaha mürtəkib etdi. İndi olan oldu, mənim üçün səbr etməkdən başqa bir çarə yolu qalmamışdır.

Bu sözü dedikdən sonra yalnız bir məhəllə çəkilib öz-özünə:

– Vay, Yusifim, vay! – deyib həzin-həzin ağlamağa məşğul oldu.

## İKİNCİ FƏSİL

Cənab Yusif qardaşlarının bu müamiləsindən çox sıxıldı və onu həlak etmək məqsədilə quyuya atmaqlarından nəhayət dərəcədə mütəəssir oldu. Və quyu içində yalnız qalmasından qorxuya düşüb ağladı. Lakin sonra cənab Həqdən vəhy və ilham olduğu cəhətilə sakit oldu. Qorxu ondan rəf olub; o, qaya parçasının üstündə oturdu. Və onu xilas edəcək bir qüvvənin vürudinə müntəzir oldu.

Məzkur quyu Şamdan Qüdsi-Şərifə gedən yolun üstündə idi. O cəhətlə bütün karvanlar oradan keçirdilər. Və o quyudan su çəkib özlərinə və heyvanlarına sərf edirdilər.

Həzrəti-Yusifin quyuya atıldığının üçüncü günü oraya böyük bir qafilə gəldi. O quyunun yaxınlığında düşdü. Bu karvan Misir tacirindən Malik adlı bir zatın idi. Şamdan Qüds, Qəzzə və Ariş yolu ilə Misirə gedirdi. Müşarileyhin qulamları haman quyudan su çəkməyə getdilər. Yetişib çəlləyi quyuya saldılar. Cənab Yusif filfövr ipdən



tutdu. Qulamlar çəlləyi çəkdikdə gördülər çox ağırdır. Artıq dərəcədə heyrətə düşdülər. Axırda qafilədən bir-iki adam çağırıb onların köməkliyilə çəlləyi çəkdilər. Lakin quyudan su yerinə bir uşağın ipdən tutub çıxmasını görüncə təəccüb etdilər. Dərhal qayıdıb qafilə böyüyünə ərz etdilər:

– Quyudan su çəkməyə getmişdik. Çəlləyi quyuya salıb yuxarıya çıxartdıqda gördük ipə bir uşaq sarılıb çıxdı. Uşaq isə gözəl bir uşaqdır. Zati-alinizə müjdə veririk.

Bu sözü dedikdən sonra gedib Yusifi müşarileyhin yanına gətirdilər. Malik dərhal bir köynək çıxardıb Yusifə geydirdi. Və fikrə düşdü ki, özü ilə bərabər Misirə aparıb orada qul kimi satsın. Çünki o vəqtdə vəcahət sahibi artıq qiymətə gedirdi. Və Yusifdən böyük mənfəət etmək ümidində idi.

Yusifin qardaşları Yəqubun yalnız bir məhəllə çəkilib, ağlamağa başladığından son dərəcədə mütəəssir oldular. Tutduqları işdən peşman oldular və öz aralarında qərar verdilər ki, gedib quyuya baxsınlar. Əgər Yusif o vaxta qədər diri isə diriliyindən xəbər bilsinlər, ya bir karvan çıxarmış isə ondan da müttəle olsunlar.

Məzkur vaqiənin üçüncü günü, yəni qafilənin quyu başına yetişən günü hamısı Yusifdən xəbər bilməyə getdilər. Oraya yetişəndə gördülər böyük bir qafilə gəlib orada düşmüşdür. Yusifi dəxi quyudan çıxarmışlar, qafilə rəisinin yanında dayanmışdır.

Cənab Yusif qardaşlarının əziyyət etməsindən qorxub əsla danışmadı. Özünü tanımamazlığa vurdu. Guya əsla onları tanımır.

Qardaşları Malikin yanına gedib görüşdülər və ona dedilər:

– Bu uşaq bizim qulamımızdır. Üç gün bundan irəli qaçmışdır. Biz onu axtarırdıq və indi tapdıq. Götürüb aparmalıyıq.

Qafilə rəisi Yusifi çox bəyənmiş idi. Və Misirdə fövqəladə qiymətə satmaq ümidində idi. Ona görə qaytarmaq istəmirdi. Binaileyh qardaşlarilə danışmağa girişib dedi:

– Sizin dediklərinizdən belə anlaşılır ki, bu uşaq irəlidə qulamınız olmuşdur. Nə bais olmuşsa qaçmışdır. Lakin indi onu tapıb aparmaq istəyirsiniz. Elə isə bu uşağı indi götürüb aparacaqsınız, yenə qaçacaqdır. Çünki o, qaçmaqlığı adət eylədi. Daha bundan sonra onu saxlayaya bilməzsiniz. Sizə fayda verməz. Amma mən bunun kimi qulama möhtacam, bunu mənə satınız. Qiyməti nə qədərsə verim, mənə təslim ediniz.

Bəzən olur ki, yaman bir adət,
İnsanlara bəxş edir, səadət.

Həzrəti-Yəqubun oğulları satmaq təklifini eşitdikdə bir qədər fikrə getdilər. Nə etsinlər, satsınlarmı? Yoxmu? Əgər satmazsalar alıb evlərinə apararsalar, atalarına söylədikləri sözlər yalana çıxar. Axirüləmr satıb, bədəlini almağı münasib gördülər. Qəlblərindəki vəsvasi-şeytaniyyə dəxi onları təhrik edib alverə məşğul oldular. Və ucuz, dəyərsiz bir qiymətə satdılar. Pulunu alıb qayıtdılar. Malik Yusif əleyhissəlamı aldı və qafilə əhlinə tapşırdı ki, ona yaxşı baxsınlar. Yollarda hər şey istəsə, onun üçün hazır etsinlər, müşarileyhə əsla zəhmət verməsinlər.

Olur gülçöhrədən hər bir kəsin min-min təmənnası,
Odur hər yerdə gün tək olmur hər gün təcəllası.

Qafilə Qüdsi-Şərifə yetişdi. Orada iki gün istirahət etdilər. Sonra yola düşüb Misirə yetişdilər. Yolda yorulduqlarına görə bir neçə gün yorğunluqlarını almağa qərar verdilər. Çünki yolda çəkdikləri zəhmətdən Həzrəti-Yusifin çöhrəsində böyük bir solğunluq müşahidə olunurdu, o səbəblə o solğunluğu zail etmək üçün bir müddət dincəldikdən sonra cənab Yusifi əsirlər bazarına apardı.

O zaman Misirdə Firon hökm sürürdü. O gün onun vəziri və xəzinədarı bazarda qulam almağa gəlmişdi. Yusif əleyhissəlamı görüncə camalı-cazibədarı onun nəzər-diqqətini cəlb edib, valeh və heyran oldu. Dərhal qiymətini soruşub yüz qızıla aldı. Filfövr pullarını saydı. Yusif kimi fövqəlxəyal gözəl olan bir uşağı elə ucuz qiymətə aldıqda çox şad oldu. Yusifi gətirib öz evinə gəldi və sevinə-sevinə arvadına göstərib dedi:

– Bu gün bu uşağı bazardan satın aldım. Bunu yaxşı saxlayıb mühafizə etməliyik. Özümüzə övlad qərar verərik. Bəlkə böyüdükdə bizə bir mənfəət vermiş olar.

Müşarileyhin bu dediklərinə görə Züleyxa Yusifi qayda ilə övlad kimi bəsləməyə başladı.

Əzizi-Misir, yəni irəlidə zikr olunan vəzir və xəzinədarın arvadı Züleyxa Misir iqlimində misli olmayan gözəllərdən idi. Ancaq əri



qüsurlu olduğuna görə övladı olmayırdı. Övladdan məhrum olduğu cəhətdən Yusifə hüsntəvəccöh ilə baxırdı. Bu növlə neçə illər keçdi. Yusif əleyhissəlam böyüyüb cavan həddinə yetişdi. Və camalda son dərəcə vəcih və fövqəladə gözəl və misli tapılmayan bir vəcahətə malik olmuşdu. Züleyxanın dəxi get-gedə ürəyindəki məhəbbəti dönüb eşq oldu. Demək ehtiram və izzət ilə bəslənib hər yerdə təmiz bir ad ilə zikr olunan Züleyxa eşq sevdasına düşməklə özü üçün bir rüsvayçılıq binası qoymağa başladı.

Əri hökumət idarəsinə gedib Yusif ilə evdə yalnız qalmaqda müşarileyhə lətifələr (atma sözlər) deyərdi. Və həzrətin o misilsiz hüsni-camalını vəsf edib deyirdi:

– Hər arvad sənin bu hüsni-camalını görsə, şübhəsiz, məftun olacaqdır.

Bu kimi sözlər deməklə cənab Yusifdə bir müaşiqə hissi oyandırmağa çalışırdısa da, lakin həzrət əsla onun sözlərinə əhəmiyyət verməyirdi. Və özünü bilməməzliyə qoyurdu. Binaileyh Züleyxa belə işarələrlə məqsədini Yusifə anlatmağa müvəffəq ola bilməyincə başqa bir çarə axtarmağa qərar verdi. Və cavan bir şəxsin əsla rədd etməsi mümkün olmayan bir fürsət tapmağa qəsd etdi.

Bir gün cənab Yusif bir otaqda yatmışdı. Züleyxa onu görüncə əsil fürsət hesab edib otağa gəldi. Qapısını bağladı. Və Yusif əleyhissəlamı oyadıb dedi:

– Mən səndən ötrü (yəni eşqində) yanıram. Bax gör nə dərəcədə gözələm. Hüsni-camal barəsində birinciliyi qazanıb şöhreyiafaq olmuşam. İndi sən mənimlə birləş. Mən dəxi hər arzunu əmələ gətirərəm.

Cənab Yusif bu təklifdən dilgir olub dedi:

– Allah göstərməsin, mən nəməkbəhramlıq edə bilmərəm. Çörəyini yeyib, lütfini gördüyüm və özünü ata bildiyim bir zatın namusuna təcavüz edə bilmərəm. Bu mümkün olan iş deyildir. Belə əmrə mən mürtəkib ola bilmərəm.

Həzrət-Yusif bu eşqin səmərəsi olan rüsvayçılığı və əql və kamalın ziddi olan bu qəbih işi tamamilə rədd etdikcə Züleyxa təkrar və təkid elədi.

Cənab Yusif o vaxt iyirmi yaşında idi. Züleyxa kimi misilsiz və gözəl bir arvadla bir otaqda olduğu halda əsla ona yaxınlıq etməyə tənəzzül etmədi, bir tərəfdən Züleyxa özü yalvarırdı, o biri tərəfdən

də şeytanın belə işə köməklik edəcəyi şübhəsizdir. Gözəllikdən əlavə ağıl və kamal sahibi olan Həzrəti-Yusif cavan olsa da başdan çıxmadı. Ağlı sayəsində eşqə yol vermədi. O bu kimi qəbih əməldən ictinab etdi. Lakin Yusifi bu feldən saxlayan səbəblər haqqında böyük ixtilaf vardır. Bəziləri deyirlər ki, cənab Həqdən vəhy nazil olub onu mən elədi. Bəzisi də deyir ki, o halda Yusif görür ki, atası gözü qabağında dayanmış və heyrət barmağını ağzına tutub deyir: "Oğul, həzər et! Həzər et!"

Yusif əleyhissəlam bu bürhanları gördüyünə görə son dərəcədə mətanət göstərib Züleyxanın təklifini rədd elədi və dərhal onun əlindən qurtarmaq üçün otaqdan bayıra çıxmaq istədi. Qapıya tərəf yüyürdü. Züleyxa gördü ki, Yusif əsla ona yaxınlaşmır və təklifi qəbul etməyir.

Əgər Yusif asudəliklə buradan qurtararsa, fürsət əldən gedər, daha Yusifi heç bir vəch ilə özünə ram edə bilməz. O cəhətə nə olacaq olsun deyə Yusifi əldən buraxmayıb, xahişi məcburən əmələ gətirməyə qəsd eylədi. O məqsədlə Yusifin dalınca yüyürdü və daldan köynəyindən möhkəm tutdu.

Cənab Yusif qaçıb qurtarmaq istəyirdi. Züleyxasa əldən buraxmamaq və arzusuna yetişmək üçün ətəyindən bərk çəkdi. Həzrəti-Yusif isə qapını açmışdı. Var qüvvəsilə bayıra atıldıqda köynəyi başdan-başa parçaladı. Bir parçası Züleyxanın əlində qaldı. Həzrəti-Yusif qapıdan bayıra atıldıqda Züleyxa onu dübarə tutub içəri gətirmək məqsədilə bayırda çalışdıqda Əziz gəlib çıxdı.

Müşarileyh Yusifin elə təlaş ilə çıxdığını və onun dalınca arvadının yüyürməsini görüncə mat və məbhut qaldı. Və elə zənn etdi ki, evin içində qurğu və təlaşa səbəb olacaq bir qəza vüquə gəlmişdir. O zənn ilə bayıra yüyürmələrinin səbəbini soruşdu.

Yusif əleyhissəlam Əzizi-Misirin gəlməyini görüncə çox qorxdu. Çaşdığından başqa bir cavab verə bilmədi. Fəqət işin doğrusunu söyləməkdən qeyri bir çarəsi olmadı. O səbəbə dərhal əhvalatı nəql etməyə başladıqda, Züleyxa macal verməyib ərinə xitabən dedi:

– Arvadına xəyanət etməyə qəsd edən və namusuna təcavüz etməyə qalxışan adamın cəzası nədir?

Əzizi-Misir Züleyxanın bu sözlərindən mütəğəyyir oldu. Çünki onun zənnincə, Züleyxanın dedikləri səhihdir, daha həqiqəti-haldan xəbərdar deyil idi.



Binaileyh cənab Yusifi böyük bir günah etməyə iqdam edən zənn edib həzrətin üstünə yüyürdü. Züleyxa ərinin qəzəbli halda Yusifi qətl etməsindən qorxub dərhal sürətlə əri qabaqladı və dedi:

– Belə adamı həbsə atmalı, ya zərb kimi böyük bir əzaba salmalıdır.

Züleyxa bu sözləri deməklə əri üçün nə Yusifi qətl etməyə, nə də töhmət altından çıxmağa yol buraxdı.

Cənab Yusif Züleyxanın bu qəbahətli töhmətini özündən rədd etməyə borclu olduğundan kamali-mətanətlə danışmağa başlayıb dedi:

– Əmin olunuz, o mənə iftira edir, mən haşa elə bir iqdamatda, hətta o kimi qəbahətin fikrində də olmamışam. Mən otaqda yatmışdım, özü yanıma gəldi, məni oyatdı və min məhəbbətamiz hərəkətlə mənə izhari-təəşşüq və özü ilə yaxınlaşmağa dəvət etdi. Mən əlindən qaçıb qurtarmaq istədiyimə görə qapını açdım, o dəxi dalımca gəldi. Ətəyimdən tutub köynəyimi parçaladı. Üstümə atılan bu eşq çirkabına əsla mən müstəhəq deyiləm, bəlkə bu qəbahət onun özündəndir.

Cənab Yusif vüquə gələn əhvali lazımınca bəyan etdisə də, Züleyxa etmiş olduğu iftiranı təkrar və təkid edirdi. Bu vaqiənin əsil həqiqətini zühura çatdırmaq üçün bir şahid lazım idi. O haqda Əzizi-Misirin yanında olan bir zat bu müşkül məsələni həll etmək üçün münaziəyə qarışıb dedi:

– Baxınız, əgər Yusifin köynəyi qabaq tərəfdən cırılmışsa, Züleyxa doğru deyir, Yusif yalan deyir. Əgər arxa tərəfdən cırılmışsa, Yusif doğru deyir, Züleyxa yalan deyir. Çünki Yusif ona müsəllət olmuş olsa, köynəyi qabaqdan cırılar. Biləks, Züleyxa onu qovub tutmuşsa, arxadan parçalanar.

O vəqt Əzizi-Misir Yusifin köynəyinə baxdı, gördü arxa tərəfdən yırtılmışdır. Arvadının iftira etdiyini anlayıb Züleyxaya dedi:

– Mən bu məsələdə sənin qəbahətli olduğunu anladım. Bu qəbahət kifayət etməyirmiş, bir də iftira etməyə çalışırsan? Get tövbə və istiğfar et, bir daha belə işə iqdam etmə!

Ondan sonra bu məsələnin aşikar olmasını istəmədiyinə görə Yusifdən rica etdi:

– Ey Yusif, rica edirəm, sən dəxi bunun qəbahətini əfv et. Bunu şeytan aldatmışdır. Bundan sonra bir də belə iş görməz, amandır, bu

qəbahəti bir kimsə bilməsin. Məmləkət içində mənim namus və şərəfim payimal olar.

Çünki cənab Yusifdə əsla təqsir olmadığı müşarileyhə sübut oldu. Vaqiən yox idi də!

Dünyada heç bir sirr gizli qalmamışdır və mümkün deyildir. O cəhətlə bu keyfiyyət bir neçə günün içində Misirin hər bir tərəfinə yayıldı. Hər kəs bildi və bu vaqiədən xəbərdar oldu. Ələlxüsus arvadlar arasında bu məsələ böyük qilü-qala səbəb oldu. O cümlədən Misirin kübar ailələrinə mənsub olan kübar xanımlarda belə bir danışıq əmələ gəlmişdi:

– Əzizin arvadı quluna aşiq olmuş və təəşşüqünü izhar edib, qulunu yatağına dəvət etməyə qədər cəsarət etmişdir. Bir qula aşiq olmaq və onu vüsala çağırmaq nə qədər özünü itirmək, nə qədər eyib, nə qədər böyük ardır. Züleyxanın nə dərəcədə rüsvayçılığa qədəm qoymasına təəssüf edirik.

Əlhasil bu işə görə bütün Misirdəki arvadlar Züleyxaya tənə edirdilər. Bu arvadlardan Züleyxanı ən artıq məzəmmət və biabır edənlər beş nəfər məmləkət böyüklərinin arvadları idi. Züleyxa onların bu vaqiə haqqında söylədiklərini tamamilə eşitmişdi. Cənab Yusifə olan eşqində haqlı olduğunu sübuta yetirmək üçün onları məxsusi bir evə dəvət etdi. Onlar gəlmədən irəli cənab Yusifi gözəlcə geyindirib bir otaqda oturtdu və dedi:

– Sən burada otur, əsla başqa bir tərəfə getmə, nə vaxt gəlməyə əmr edər isəm, o vaxt qapını açıb içəri girərsən və kəmali-ədəblə müqabilimizdə durarsan.

Bir saatdan sonra dəvət edilən xanımlar gəlib otaqda oturdular. Züleyxa onların hal və əhvalını soruşduqdan sonra bu yandan, o yandan söhbət etməyə başladı. Guya Misirdə gün kimi aşikar olmuş bu vaqiədən əsla xəbəri yoxdur. O halda verdiyi əmr mövcibincə təam və şərab ilə cürbəcür yemişlər hazır edildi. Yeyib-içdilər. Növbət yemiş yeməyə yetişəndə hər birinə bir bıçaq, bir də bir alma verdi. Bunlar almanı soymağa başladıqda əmr etdi, o biri otaqda gözləməkdə olan cənab Yusif bu otağa girdi. Müşarileyh otağın qapısını açıb içəri girincə dəvət olunmuş xanımlar onun fövqəladə olan hüsni-camalına heyran oldular. Elə çaşdılar ki, gözləri o simayi-pürnur və şəşəədən qamaşdı, hamısı biixtiyar:



– Aman Allah, bu insan deyil. Belə insan olmaz. Bu zat mütləq böyük və kərim bir məlәkdir, – deyib soymaqda olduqları almanı unudub əvəzində əllərini kəsdilər.

Barmaqlarından qan axırdı. Onlar əsla bilmirdilər, hətta heyrətlərinin çoxluğundan əllərinin sızıltısını da duymayırdılar. Züleyxa kəmali-vüqar ilə oturmuşdu. Bunların halına gülə-gülə tamaşa edirdi. Müşarileyh o xanımların bu hala düşdüklərini görüncə dedi:

– Mənim üçün deyirdiniz ki, Züleyxa bir qula aşiq olmuşdur. Cürbəcür mənə tənələr edirdiz. İndi qul dediyiniz zatı necə görürsünüz? Mən haqlıyammı?

Xanımlar bu sözü eşidincə hamısı birdən dedilər:

– Bəli, aşiq olmağa haqqınız var. Sizi eyibsiz və haqlı görürük. Çünki dünyada belə mükəmməl hüsni-camal sahibi bir vücud nə görünüb, nə də eşidilmişdir.

Cənab Züleyxa xanımların təsdiqini görüb və haqlı olduğunu etiraf etdiklərini biləndən sonra daha da ürəklənib onlara dedi:

– Mən bu qulu sevdim və onun eşqi məni dəli-divanə etdi. Hər bir hali-şövqimi, şərəfi-heysiyyətimi unudub onu vüsala dəvət etdim. O isə təklifimi qəbul etməyib rədd etdi. O rədd etsə də mən arzumdan dönməyəcəyəm. Və dönə də bilməyəcəyəm. Çünki qəlbimi dolduran eşqi nə qədər şədid, nə dərəcədə böyük olduğunu ancaq mən özüm bilirəm. Nə tövr olsa da özümə tabe etdirməyə çalışacağam. Əmrimə itaət edərsə xilas, biləks inad eylər isə onu qaranlıq zindanlara atdırıb xar və zəlil edəcəyəm.

Oradakı xanımlar dəxi cənab Yusifə inad etməməyi, Züleyxanın əmri-arzusuna tabe olmağı tövsiyə eylədilər. Və zindanlarda qalıb böyük əziyyətlər ilə ölməkdən isə Züleyxa kimi misilsiz bir xanımın vüsalına yetməyi əqlə mütabiq bir tədbir hesab edib ziyadə nəsihətlər etdilər. Lakin cənab Yusif üzünü həzrəti-Həqqin dərgahına tutub ərz eylədi:

– İlahi, bu xanımların təklif etdikləri günaha mürtəkib olmaqdansa mənim üçün zindanda çürüyüb ölmək əfzəldir. İlahi, əgər sən məni bu arvadların şər və məkrindən mühafizə buyurmaz isən, təşviq etdikləri nalayiq əmrdən qurtarmaz isən, mən öz tədbirimlə bunların hiyləsindən xilas ola bilmərəm. O vaxt məhv olub gedərəm.

Bu sözləri dedikdən sonra haman xanımlara dedi:

– Mən Züleyxanın arzusunu qətiyyən əmələ gətirməyəcəyəm.

Qonaqlar getdilər. Züleyxa elə dolanırdı ki, guya heç Yusifi ərzi-vüsal etməmiş, müşarileyh dəxi ikinci dəfə bunun təklifini rədd eləmişdir. Züleyxa yenə Yusifi fürsət düşdükdə xoş sözlər və yumşaq dil ilə özünə ram etmək istəyirdi. Bu haldan çox zaman keçdi, nə Züleyxa arzusundan əl çəkirdi, nə də Yusif ona meyli-aşiqanə göstərirdi. Axirüləmr Züleyxa Yusifi bu surətlə yumşaldıb arzusuna ram etməməkdən məyus oldu. Qəti-ümid etdi. O cəhətlə onu bir müddət həbsə saldırmağa qərar verdi ki, bəlkə həbsin əziyyəti sayəsində arzusuna əməl etsin. Binaileyh bir gün ərinə dedi:

– Mötəbər yerlərdən aldığım xəbərlərə görə bu qul hər yerdə mənim şərəfü namusuma toxunan sözlər söyləyir: "Əzizin arvadı məni vəslinə dəvət edib yatağına çağırdı. Fəqət, mən qəbul etmədim" kimi sözlər danışır. Bunun bu dediklərindən mən xalq arasında biabır olmuşam. Heç bir yerdə adam arasına çıxa bilmirəm. Hər halda bu fənalığın qabağını almaq lazımdır.

Əzizi-Misir bu sözləri eşidincə cavabən dedi:

– Mən qulun belə mənasız iş görməyinə əsla inanmaram. Ancaq keçən vaqiə xalq arasında yayılıb, hər bir tərəfdə danışılır. Böyükdən kiçiyə qədər bilən bir məsələnin qabağını necə almaq olar?

Züleyxa əsil münasib vaxtın ələ düşdüyünü görüncə kəmali-cəsarətlə dedi:

– Sən onu bir müddət zindana salsan, hər kəs bu məsələdə onun təqsirli olduğuna hökm edər. Mən dillərindən qurtararam.

Əziz bu rəyi bəyənib cənab Yusifi zindana saldı. Amma Yusif bu zindana düşməyini özü üçün böyük bir nemət hesab eylədi. Çünki bu zindana düşməklə Züleyxanın bəlayi-təəşşüqündən, təkid və təkrarından xilas olurdu. Zindanda isə vaxtını gah ibadət və dua ilə keçirirdi, gah məhbuslara vəzü-nəsihət edib təsəlli verirdi. Hər bir xəstənin başı üstdə hazır olurdu. Müşarileyhin baxmağı ya hifzü-səhhəyyə dair göstərdiyi qaidələr ilə sağalırdılar. Məhbuslardan hər kəs bir yuxu görmüş olsa idi, dərhal yüyürüb Həzrəti-Yusifə bəyan və təbir etdirərdilər.

Yuxunu təbir etmək elmini cənab Həqq ona kamalınca ehsan buyurmuş idi. Hər yuxunu necə təbir etsə idi, eylə də olardı. Əsla bir hərf bu yan-o yan olmazdı. Bu xüsusda o qədər şöhrət etdi ki, yalnız Misir məmləkətində yox, hətta xaricdən belə müşarileyhə müraciət edirdilər...



Yusif əleyhissəlam zindana düşmədən bir az əvvəl Misir hökmdarı eşitmişdi ki, xidmətçilərindən biri ona zəhər verəcəkdir. Və təhqiq edəndən sonra bu sui-qəsdin ya şərabçı və ya süfrəçi tərəfindən icra edildiyini anlamış isə də, lakin hansı edəcəyini qəti surətdə bilməmişdi. O cəhətlə Firon hər ikisini zindana saldırmışdı. Və zəhər vermək xüsusunda isə təhqiqat davam edirdi.

Cənab Yusifin yuxu təbirində olan məharətini məzkur şərabçı ilə süfrəçi təcrübə etmək fikrinə düşdülər. Öz aralarında yalandan bir yuxu düzəldib cənab Yusifə müraciət etdilər. Və yuxu gördüklərini bildirib müşarileyhdən təbirini istida etdilər.

Cənab Yusif onlardan, gördükləri yuxunu soruşdu.

Onlardan ən əvvəl şərabçı dedi:

– Mən yuxuda gördüm, Firona şərab hazırlamaq üçün üzüm sıxıram.

Sonra süfrəçi dedi:

– Mən də gördüm ki, başımda bir tabaq dolmuş çörək aparıram. Quşlar gəlib o çörəyi yeyirlər.

Yusif əleyhissəlam gördü ki, bunlardan birisinin yuxusu yaxşı yuxu deyildir. Təbiri çox yaman olacaqdır. Onları qəmnak etməmək üçün onlara Allahın birliyinə və sair xüsusə dair söhbət açıb vəz və nəsihət etməyə başladı. Ancaq hər ikisi yuxularının təbirini cənab Yusifdən təkid ilə tələb etdiklərinə görə müşarileyh dəxi yuxularını təbirə məcbur olub şərabçıya dedi:

– Sən yenə Fironun şərabçısı olacaqsan, əvvəlki qulluğuna yetişib ağana müqərrəb olacaqsan. O zaman məni unutma və Fironun yanında əhvalatımdan söylə.

Sonra süfrəçiyə dedi:

– Səni asacaqlar. Sən asılı olduğun halda quşlar gəlib başının ətini və beynini yeyəcəklər.

Bu iki məhbus cənab Yusifin yozusuna gülüşdülər və dedilər:

– Biz belə yuxu görməmişik. Öz aramızda düzəldib səni imtahan etmək üçün gəlib söylədik. Lakin bu yuxuların yalan olduğunu əsla anlamadın.

Bunların cavabında cənab Yusif dedi:

– Madam ki, siz özünüz dediniz ki, biz belə yuxu görmüşük və təbir etdirdiniz yuxunu öz nəfsinizə isnad etdiyiniz kimi, hökmünü də qəbul etdiniz. O vaxt dediklərim eynilə əmələ gələcəkdir. Haman təbir mövcibinə qəza hökmünü icra eylədi.

Məzkur cavanlar gülüb oradan getdilər. Lakin bir vaxt keçmədi ki, Firona zəhər vermək məsələsində süfrəçinin müqəssir olduğu sübut olunub onu edam etdilər. Şərabçı da əvvəlki məqamına təyin edilib, böyük əzar və ikrama nail oldu. Həzrəti-Yusifin buyurduqları nöqtəbənöqtə düz oldu.

Cənab Yusif "o vaxt məni unutma, hökmdarın yanında yada sal" demişdisə də, bəzi səbəblərə görə şərabçının yadından tərtəmiz çıxdı: o, izzət və hörmətlə naz-nemətə nail, Yusif isə unudulub zindan içində böyük əziyyətlərə məhkum oldu. Bu hal ilə yeddi il keçdi. Bu müddətin zərfində Züleyxa dəfəatla xəbər göndərdi. Onun arzusuna əməl etməyi təklif etdirdisə də, hər dəfəsində rədd cavabı aldı.

## ÜÇÜNCÜ FƏSİL

Bir gün Misir hökmdarı yatıb yuxuda gördü ki, Nil nəhrindən yeddi kök öküz çıxdı. Onların dalınca yeddi də arıq öküz çıxıb o kök öküzləri yedilər. Yenə yeddi yaşıl buğda başağı (sünbül) yeddi quru sünbülün arasında itib getdi. Onlardan əsla bir əsər qalmadı. Sabah olunca hökmdar bu yuxusunu vəzirlərinə və nədimlərinə söylədi. Onlardan təbirini tələb etdisə də heç bir kəs məna verə bilmədi. Hökmdarı bu yuxu fövqəladə maraqlandırırdı. Ona görə şəhərdə olan təbirçi və münəccimlərin hamısını, üləmanı dəxi bitəmam ehzar edib onlardan bu yuxunun təbirini istədi. Hazır yal başına yığışan üləma və münəccimlər neçə saat düşünüb fikirləşdilərsə də, öz aralarında müşavirə etdilərsə də, bu qəribə yuxunun mənasını və nə təbirdə olduğunu anlaya bilmədilər, axirüləmr dedilər:

– Bu yuxu boş xəyalatdır, mənasız və etibarsız xəyallardandır. Biz belə şeyi təbir edə bilmərik.

Hökmdar üləmanın bu cavabından çox sıxıldı, bu qəribə yuxunun qəti surətdə bir mənası olduğunu düşünürdü. Düşündükcə maraqlanıb əndişələnirdi. Get-gedə zövqü səfasını, yeyib və içməyini tərk edib xəstələşirdi. Yeddi il bundan irəli zindandan çıxmış olan şərabçı bu halı görüncə zindandakı Həzrəti-Yusifi yadına salıb hökmdarın hüzuruna gəldi və dedi:

– Həşəmətli padşahım! Bu əcibə yuxunu ancaq bir adam təbir edər, onu mən tanıyıram. Əmr buyursanız, gedib ondan soruşaram.



Padşah bu sözdən məmnun olub dedi:

– Tez ol, nə durmusan, yeyin get soruş, məni bu düşüncədən xilas et.

Şərabçı bu əmri padşahdan eşidincə bir dəqiqə dayanmayıb zindana getdi. Yusif əleyhissəlamın hüzuruna yetişib dedi:

– Ey sözü doğru olan zat! Hökmdarımız belə bir yuxu görmüşdür. Heç kəs onu təbir edə bilməyir. Təvəqqe edirəm, bunun mənasını mənə söyləyəsən, mən dəxi gedib padşaha söyləyim və onu düşünmək və əndişədən qurtarım.

Cənab Yusif bu ricadan xilas olmağının zamanı gəldiyini anlayıb dedi:

– Yeddi il əkdiyiniz əkinlər fövqəladə bərəkətli olacaqdır. Bu illərdə hasilə gələn buğdaların başaqlarını ayırmayınız. Ancaq xırmanda o qədər döyünüz ki, yeməyinizə kifayət etsin. Qalanını haman sapları ilə saxlayınız. Çünki başağın içində qalan buğda nə qədər qalırsa nə çürüyər, nə qurd salar. Bu feyz-bərəkətli illərdən sonra yeddi il aclıq olacaqdır. O yeddi illərdə yığdığınız buğdalar bu yeddi illərdə sərf olunacaqdır. Yeddi kök öküz, yeddi bərəkətli, yeddi arıq öküz, yeddi aclıq illərinə işarədir. Yeddi yaşıl başaq (sünbül) yeddi il bolluğa, yeddi quru başaq yeddi il yerdən heç bir şey bitməyəcəyini anladır. Bu on dörd ildən sonra bir il dəxi gələcəkdir ki, o il fövqəladə bərəkətli olacaq. Hər bir məhsulat və meyvələr həddən ziyadə əmələ gələcək. Hər kəsin üzü güləcəkdir, hökmdarın yuxusunun təbiri budur!

Şərabçı qayıdıb Yusifin sözlərini padşaha bəyan etdi. Hökmdar bu təbiri eşidincə hökm elədi. Bu yuxunu təbir edən şəxsi mənim hüzuruma gətiriniz. Şərabçı dərhal zindana getdi. Bu şad xəbəri cənab Yusifə verdi. Və müşarileyhi zindandan çıxardıb padşahın hüzuruna gətirdikdə həzrət qəbul etmədi. Ən əvvəl tutulub həbsə düşdüyü səbəbi təmizə çıxartmaq və padşahın yanında təqsirkar olmadığını isbat etmək istəyib dedi:

– Sən hökmdarın hüzuruna get və ondan rica et ki, almanı soyan xanımlar nə üçün əllərini kəsdilər? O məclisdəki əhvalat nə növlə keçmişdir? Məni nə üçün zindana saldılar? Əzizin arvadı o gün arvadlara nə söylədi? Bunların hamısını soruşun. Əhvalatın həqiqətindən xəbərdar olsun və mənim təqsirli olmadığım anlaşılsın. O vaxt mən oradan çıxıb padşahın hüzuruna gedərəm.

Şərabçı cənab Yusifin ricasını padşaha ərz elədi. Padşah dərhal qəbul edib Züleyxanı və alma yerinə əllərini kəsən beş xanımı hüzuruna izhar etdi və onlardan soruşdu:

– Sən Züleyxanın evində Yusifi məclisə çağırdıqda nə vüquə gəldi? Omu sizə əluzunluq etdi? Sizmi ona müqarinəti təklif etdiniz? Bu mətləbin əsil həqiqətini mənə bəyan ediniz.

Hamısı birdən cavab verdilər:

– Haşa, biz Yusifdə bir biehtiramlıq görmədik. Qəbahətin hamısı bizdədir. Züleyxa ona aşiq olmuş və onun hüsn-camalına məftun olduğundan təklifi-vüsal etmiş, fəqət cənab Yusif onun təklifini qəbul etməyib rədd eyləmişdir. Bu növlə surəti-vaqiəni Züleyxa özü bizə bəyan eylədi.

Tutsa bütün aləmi şərarət,
Sönməz yenə nəyyiri-həqiqət.
Bəyani hiylə edə əgər Züleyxa,
Bəyani min cəhrə aça o ruhi-rəna.
Cəm etsə də hədsiz müzəvvir,
Haşa edə Yusifi müqəssir.
Həqq əhlinə yardır ilahi,
İmdad eylər ona kəmahi.

Onlar şəhadət verəndən sonra Züleyxa dəxi öz cürminə etiraf edib dedi:

– İndi haqq zahir oldu. Bu xanımların dedikləri tamamilə doğrudur. Mən Yusifə naili-vüsal olmağı təklif etdim. O isə qəbul etmədi. Rədd elədi. Onda əsla təqsir yox idi. Mən ancaq özümü xəlqin dilindən qurtarmaq üçün onu zindana saldırdım. Həqsiz cəzaya düçar etdirdim.

Oldu cahanda nazlı gülüm xar eşqdən,
Yağdın riyazi-izzətimə nar eşqdən.
Kəsdim cəfayi-tiğilə həbləlmətini mən,
Oldum əsiri-türreyi-tərrar eşqdən.
Baxdım hilali-qaşlarına ol qəmər rüxun,
Yay tək büküldi sərv qəddim bari-eşqdən.
Məşhur idim zəmanədə əqlü kamal ilə,
Leylavəş oldum, indi cünunvar eşqdən.



Misirin Əzizi, maliki-mülkü vüqar idim,
Yusif yolunda oldum əcəb xar eşqdən.
Etdikcə yad çöhreyi-gülgüni-dilbəri,
Çeşmim olur üzarıma xunbar eşqdən.
Dari-fənadə vermə könül eşqə Müzniba,
Olmuş cənab Həqq özü bizar eşqdən.

Bu etiraflar cəhətilə cənab Yusifin təqsirli olmamağı sübut oldu. Gərək padşah yanında, gərək xəlqin nəzərində günahsızlığı zühura çıxdı.

Hökmdar dərhal hökm eylədi ki, Yusifi zindandan çıxardıb onun yanına gətirsinlər və orada Yusifi öz xidmətinə qəbul edəcəyini dəxi söylədi.

Haman saat bir neçə nəfər əşxas zindana getdilər. Yusif əleyhissəlamı zindandan çıxardıb padşahın hüzuruna gətirdikdə cənab Yusif oradakı məhbusların hamısı ilə vidalaşdı. Hamısına xeyir-dua oxudu. Və onlar ilə yeddi il etmiş olduğu yoldaşlığı unutmayacağını dəxi bəyan etdi. Yazıq məhbuslar müşarileyhin ayrılığından fövqəladə məhzun olub ağlaşdılar. Həzrəti-Yusif padşahın hüzuruna yetişdi. Hökmdar ona çox iltifat edib, nəvaziş eylədi. Və onunla bir qədər danışdı və nə dərəcədə əql, kamal və fəzl sahibi olduğunu biləndən sonra dedi:

– Bundan sonra sən mənim yanımda olacaqsan, səni özümə əmin, nədim və naseh qərar vermişəm. Mənə hər nə söyləyib rəy verər isən onu əmələ gətirəcəyəm.

Bunları dedikdən sonra cənab Yusifi Əzizi-Misirdən satın aldı və qət etdikləri qiyməti verib rədd elədi. Bundan sonra müşarileyhi azad edib özünə müqərrəb eylədi:

Eşqin həmişə bəhrəsi rüsvayi-namdır,
Əqlin nəticəsi bəşərə ehtiramdır.
Eşq, adamı zəlil, zəbun, xar dun edər,
Əql, aləmi-məharətə bir ehtişamdır.
Eşq-afət həyat nəbiə məmatdır,
Əql-səlim hər kəsə əqsi-məramdır.
Hər yerdə eşq olsa da binizam olar,
Əqli-iqtidar xilqətə möhkəm nizamdır.
Eşqin əsiri vadiyi-qəmdə səfildir,

Əqlin həbibi müvəccidi-üluvvi-məqamdır.
Aşiq müdam dünə açar dəsti-iltica,
Aqil müdam məhzəri-lütfi-ənamdır.
Dana əlində əql silahi-salahdır,
Nadan başında eşq dəmir bir licamdır.
Aşiq müdam məhvi-səfalətdi, Müzniba,
Aqil həmişə dürri-gövhər tək binamdır.

Misir hökmdarı Yusif əleyhissəlamı öz müqərrəbi edəndən sonra müşarileyhdən soruşdu:

– Ey Yusif, bu gördüyüm yuxunun yaman nəticə verəcəyi məlum oldu. İndi bu nəticənin qabağını almaq üçün lazım olan tədbirləri söylə. Mən dəxi əmr edim o çarələri əmələ gətirsinlər ki, qəhət və bəla zühur etdikdə bəlasından məhfuz qalaq.

Cənab Yusif dedi:

– Ey şəhriyar! Əmr ediniz bu bərəkətli illərdə çoxlu danə əksinlər və tamam məhsulatı sapı və başaqları (sünbül) ilə anbara yığsınlar. Ancaq o məhsullardan lazım olan qədər də xırmana töksünlər. Çünki yeddi il qəhətlik olduqda bu yığılan məhsulat həm Misir xəlqinin məişətinə kifayət edər, həm xaricdən istəyənlərə satılıb çoxlu əmval hasil olar.

Padşah:

– Çox gözəl, sənin bu tədbirin böyük bir bilik sahibinin bacarığına bağlıdır. Bilmirəm bu işi kimə verim, bu xüsusda çox fikirləşirəm.

Cənab Yusif:

– Bu işə məni məmur et, necə ki lazımdır, eyləcə də əmələ gətirərəm. Məni yerdən hasil olan məhsulata və bütün anbarların üstünə nazir et. Mən dəxi beovni-Allah o məhsulatı tələf və israf etməməklə gələcəkdəki qəhətlik illərində sərf etmək üçün saxlaram.

Padşah dəxi bu fikirdə olduğuna görə Həzrəti-Yusif əleyhissəlamı həmin əmrə məmur eylədi. Cənab Yusif dərhal Misir xittəsinin hər tərəfinə adamlar və məmur göndərib hökumətə aid olan yerlərin hamısını əkdirdi. Və əhaliyə tapşırdı ki, çox tum əksinlər. Hasili, Misirdə bir qarış əkilməmiş yer qoymadı. Bu növ ilə yeddi il davam edəcək qəhətliyin çarəsinə lazım olan tədbirləri əmələ gətirdi. O il yuxunun edilən təbiri kimi əkinə çaq-çuq yaxşı oldu. Elə ki, o ilə qədər heç bir ildə elə hasilat görünməmişdi. Çox feyz və bərəkətli idi. Cənab Yusif xalqın hasilatından kifayət edəcək qədər xırmanda döydürdü. Qalanını sapları və başaqları ilə anbarlara yığdırıb ağzını möhürlədi.



Yusif əleyhissəlam ikinci il idi ki, zindandan çıxmışdı. O il Züleyxanın əri Əzizi-Misir vəfat etdi. Züleyxa dul qaldı. Müşarileyh padşahın hüzuruna gəlib onu nə növ ilə olsa da həzrət-Yusifə təzvic etməyə kömək etməsini təmənna elədi. O səbəblə padşah bir gün cənab Yusifə dedi:

– Sənin zindana düşməyinə Züleyxanın sənə olan şiddəti-eşqi səbəb idi. İndiyə qədər yeddi-səkkiz il keçmiş isə də haman eşq və sevdanın odu sönməmiş, bəlkə daha da artmışdır. Bununla bərabər Əzizi-Misir dəxi vəfat etmişdir. Səninlə Züleyxanın arasında heç bir mümaniət qalmamışdır. Züleyxa isə Misir xittəsində misli olmayan, qayət gözəl bir xanımdır. Onu təzvic etməyi hər kəs canü dildən arzu edər. Mənim zənnimcə sən dəxi onu istəməz deyilsən. Binaileyh mən dəxi Züleyxanı sənə almaq və bu surətlə hər ikinizin xoşbəxt və rahat olmağınızı təmin etmək arzusunda olanlardanam. Ümidvaram ki, bu rəyimi rədd etməyib qəbul edərsiniz.

Zatən cənab Yusif onu sevirdi. Ancaq evində olub, çörəyini yediyinə və xacəsinin kəbinində olduğuna görə ona yavuq düşməyirdi. Çünki o əmrə mürtəkib olmaq xəyanət olduğundan əlavə, din cəhətilə də haram idi. Lakin Əzizi-Misirin vəfat etdiyinə görə o dəxi Züleyxanı almaq arzusuna düşmüşdü.

Cənab Yusif bu təklifi qəbul eylədi. Züleyxanın nikahı əqd edildi. Padşah öz xərci ilə yeddi gün, yeddi gecə toy eylədi. Bütün Misir xəlqinə böyük bir ziyafət verdi. Bir çox hədiyyə və ehsanlar əta buyurdu. Padşahın əmri ilə toy və ziyafət olandan sonra zifaf zamanı yetişdi. Züleyxa sultan sarayından göndərilən xanım və xidmətkarların köməkliyilə elə bəzənmişdi ki, zatən bimisl olan gözəlliyi tamam gözləri qamaşdırırdı. Bütün tamaşaçıları valeh, heyran etmişdi.

Cənab Yusif hicləgaha girib adətcə cənab Həqqə dua və niyaz eylədi. Sonra Züleyxanın əlini tutmaq istədikdə Züleyxa əlini çəkdi. Hətta bir-iki addım da geri çəkilib dedi:

– İzn veriniz sizə ən əvvəl bir şey ərz edim.

Cənab Yusif:

– İstədiyini söylə, məzunsan.

Züleyxa:

– Bundan səkkiz-doqquz il qabaq sənin eşqinə düçardım. Zülfünə giriftar oldum. Səbrim zimami-ixtiyarım əlimdən getmişdi. Və ərimə

xəyanət etməyi qəbul edib sənə ərzi-vüsal etmişdim. Ehtimal mənim o halımdan sən şübhəyə düşdün. Guya sən elə bildin ki, mən namus və şərəfin nə olduğunu bilməyirəm. Və hər gördüyüm kişidən vüsalimi müzayiqə etməyirəm. Və bəlkə məni o vaxtdan bəri bir çox kişilər ilə görüşmüş zənn edirsən? Yox elə deyil, əmin ol ki, mən cəmi ömrümdə səndən qeyriyə ərzi-vüsal etməmişəm və yavıqlaşmağı təklif eləməmişəm. Sənə göstərdiyim zəiflik eşqin şiddətindən idi. Zatən eşqin ali xanimanlar dağıtmağını, hətta vətən və məmləkəti düşmən əlinə verməyini eşitmişdimsə də, gözümlə görməmişdim. İndi onu da gördüm. Mən nəinki mülk, dövlət və vətənimi, hətta şərəf və heysiyyətimi, namus və izzətimi bu eşqə fəda etdim. Bu cəhətlə eşq bəşəriyyət cəmalının silinməyən bir ləkəsidir. Yoxsa mən hər kişiyə könül verən arvadlardan deyiləm. Bundan əlavə, mərhum ərim kişilik qüvvəsindən məhrum olduğuna görə mən anadan olduğum kimi bakirə qız qalmışam. Hicləgahda sizə nəfsimi təslim etmədən əvvəl ərz etmək istədiyim əhval bu idi. Əgər mənim haqqımda xatirinizə bir şəkk-şübhə gəlirsə, onu zail ediniz. İnanız ki, mənim əvvəlinci ərim sizsiniz.

Cənab Yusif bu sözdən böht və heyrətə düşdü. Çünki Züleyxanın bu sözləri eyni həqiqət idi. Gərək Yusif və gərək Züleyxa üçün illərlə çəkdikləri məşəqqət və möhnətlərin, bir çox bəlalara etdikləri səbrü təhəmmülün mükafatı bu oldu ki, ömürlərinin axırında bəxtiyar olub birgə ömür elədilər. Cənab Həqq onlara iki oğlan əta buyurdu. Birinin adı Əfrayim, o birinin adı Minşa idi. Toydan bir müddət sonra Yusif padşahın vəziri-əzəmi və adətən vəkili-xasi oldu. Bütün Misir xittəsini istədiyi kimi idarə etdi. Heç bir kimsənin ondan hesab istəməyə ixtiyarı yox idi.

Bir rəvayətə görə, Yusif zindanda olanda Əzizi-Misir vəfat etdi. Züleyxa Yusifin eşqi ilə nalan və giryan o şədidi-atəşin təsirilə suzan idi. Gecə və gündüz ağlamaqdan gözünün nuri zail oldu. Dünyada heç bir şeyi görmürdü. Özünün sərvət və samanını, ərindən qalan mal və dövlətinin hamısını füqəraya təsəddüq verdi. Özü son dərəcədə fəqirliyə düşdü. Eşq bəlasının və ehtiyac zərurətinin ağır yükü altında beli bükülmüş, gül camalı solmuş, saçları ağarmış qarı bir arvad halına düşmüşdü. Hər gün Misir kənarına çıxardı. Orada yalqız oturub qanlı göz yaşları tökər idi.



Cənab Yusif zindandan çıxıb padşahın müqərrəbi olandan sonra hər gün hökumət işlərini qurtarıb məmləkətə nəzər yetirmək üçün atlanıb şəhəri dolanırdı və hər şeyə bizzat özü diqqət edirdi.

Bir gün bu vəchlə atlanıb Misiri dolandığı halda Züleyxa bir guşədə oturub ağlayırdı. Yanında olanlar isə Yusif əleyhissəlamın gəlməyin ona söylədi. Züleyxa Yusif adını eşidincə dedi:

– Rica edirəm, məni onun yolu üstünə aparın. Bəlkə səsini eşidib təsəlli tapım.

Onlar dəxi Züleyxanın ricasını qəbul edib müşarileyhi cənab Yusifin yolu üstünə gətirdilər.

Yusif əleyhissəlam oradan keçdikdə gördü yolu üstündə bir əlil oturub, ona dua edir. Dərhal atının cilovunu çəkib dayandı. Əmr eylədi Züleyxanı onun yanına gətirdilər. Cənab Yusif onu tanıya bilmədi. Çünki tanımalısı qalmamışdı. Kəmali-mülayimətlə ondan soruşdu:

– Ey arvad, sən kimsən? Mənim yolumun üstündə durub dua etməkdən məqsədin nədir?

Züleyxa:

– Mən sənə vaxtilə ərzi-vüsal etmiş olan Züleyxayam!

Cənab Yusif bu haldan son dərəcə mütəhəyyir olub dedi:

– Belə nə üçün olmusan? Əgər özünü nişan verməsəydin, əsla səni tanımayacaq idim.

Bunu deyincə atdan düşdü. Züleyxaya nəvaziş edib dedi:

– Ey Züleyxa, harda qaldı o gözəlliyin ki, bir dəqiqədə hər kəsi məftun edirdin. Nə oldu ki, gözlərinin nurundan məhrum oldun?

Züleyxa yanıqlı bir ah çəkib dedi:

– Ey Yusif, o gözlər sənin fərağın ilə qan-yaş tökməkdən bu hala düşdü.

Cənab Yusif:

– Belin nə üçün bükülmüşdür?

Züleyxa:

– Sənin eşqin və fərağının ağır yükü mənim belimi bükmüşdür.

Cənab Yusif:

– Nə səbəbdən belə fəqir və pərişan oldun?

Züleyxa:

– Sənə nahaq yerə iftira edib, zindana saldırdığımdan hasil olan günahımın əfvi bütün var-yoxumu təsəddüq verdim!

Ondan sonra cənab Yusif onu öz evinə apartdırıb qulluğuna xidmətçi təyin eylədi. O əsnada cənab Həqq Züleyxaya irəliki gözəlliyini əta buyurdu. Guya o təəssüfli əhvali əsla görməmişdir. Ondan sonra cənab Yusiflə əqdi-izdivac etdilər. Lakin burası ixtilaflıdır. Əsil vaqiə irəlidə bəyan etdiyimiz olsa gərəkdir.

## DÖRDÜNCÜ FƏSİL

Yusif əleyhissəlamın təbir elədiyi yuxu eynilə zühura çıxdı. Yeddi il həddən artıq feyz və bərəkət olduqdan sonra aclıq illəri gəlib yetişdi. Hər kəs yemək tədarükü etməyə başladı. Qəhətlik hər yerdə hökm sürürdü. Əkinə səpilənlərdən əsla məhsul hasil olmurdu. O vaxt cənab Yusif yeddi ildən bəri yığıb saxladığı buğda, arpa və bu kimi sair şeyləri qaidəsilə payladığına görə hər tərəfdən Misirə qafilələr gəlirdi və o saxlanılan məhsulatdan alıb aparırdılar. Axırda baş vəzir (Yusif) əhalini fəqirliyə düçar etməmək üçün əmr etdi ki, hər adama bir yükdən artıq buğda verilməsin. Və hər buğda alan adamdan sonralar da pulunu vermək üçün möhür və imzası ilə kağız alınsın. Bu üsul ilə heç bir kəsin fəqir olmasına yol verməyirdi.

Doğrudan-doğruya yoxsul olanlara kifayət edəcək qədər də buğda verirdi. Bu aclıq bütün Misir ölkəsini və ərzi-Fələstini və Şamı tamam-kamal əhatə eyləmişdi.

Yağış yağmırdı. Tarlalarda heç bir şey bitməyirdi. Bütün əhali qorxuya düşmüşdü.

Böyük bir müşkülat qabağında idilər. Hər gün Misirə yüzlərlə qafilə gəlirdi və hökumət anbarlarından taxıl alıb Şama qədər aparırdılar. Pul və mal çox-çox idi. Fəqət taxıl yox idi. Yusif əleyhissəlamın tədbiri sayəsində bu müşkülat bir dərəcə yüngülləşirdi.

Bu qıtlıq hər yerdə olduğu kimi cənab Yəqubun vətəni olan Nablis şəhərində və ətrafında dəxi hökmfərma idi.

Yusif əleyhissəlamın qardaşları dəxi taxıl almaq üçün Misirə getməyə qərar verdilər.

Cənab Yusifin yox olduğu zamandan bəri Yəqub əleyhissəlam bir guşəyə çəkilib özünə matəmxana etmişdi. Heç bir yerə getməzdi, heç kəslə söhbət etməzdi. Fəqət gecə və gündüz "Yusifim vay!" – deyib ağlardı. Həddən ziyadə ağladığına görə gözlərinin nuru tökülüb



gözləri görməyirdi. Bədəni tab və taqətdən düşüb artıq dərəcədə zəif olmuşdu. Saçı və saqqalı ağappaq ağarmışdı.

Misirə gəlib buğda almağa qərar vermiş olan övladları Yəqub əleyhissəlamın matəmxanəsinə gəlib əhvalatı ona söylədilər. Getməyə izn aldılar.

Misirə yetişib taxıl almaq üçün izn hasil etməyə cənab Yusifin hüzuruna gəldikləri vaxtda müşarileyh onları görüncə tanıdı. Gördü öz qardaşlarıdır. Fəqət onlar Yusifi tanıya bilmədilər. Baş vəzirə lazım olan ehtiramı əmələ gətirdikdən sonra böyük qardaşı Yəhuda ərz elədi:

– Ey böyük olan əmir, biz ərzi-Fələstinin Kənan eli deyilən yerindən buraya gəldik. Qədim bir xanədana mənsub olub gəlib-gedənimiz və qonaqlarımız az deyildir. Allahın hikmətilə neçə aydan bəri davam edən quraqlıq üzündən tarlalarımızda bir şey bitmir. Nəhayət dərəcədə əziyyətə düşdük və eşitdik ki, siz gələnlərə haqq ilə taxıl verirsiniz. Təvəqqe edirik bizə də bir qədər taxıl verəsiz. Sizin bu qıtlıqda haqqı ilə satmaq olduğunuz taxıl ehsan kimi olar.

Həzrəti-Yusif buyurdu:

– Madam ki, Kənan ərzinin qədim bir xanədanına məxsus olduğunuzu söylədiniz, bəlkə xanədanınızın adını mən eşitmiş olum, sizə nə deyərlər?

Yəhuda cavabında:

– Ey kəramətli əmir! Bizə "İsrail" deyərlər. Cəddimiz İbrahim əleyhissəlam olub, azarlı qoca atamızın adı Yəqubdur.

Yusif əleyhissəlam soruşdu:

– Çox yaxşı, atanızdan başqa bir kəsiniz yoxdurmu? Siz neçə qardaşsınız?

Yəhuda:

– Biz on iki qardaş idik. Bundan neçə il əvvəl birimizi qurd yedi. O biçarənin adı Yusif idi. Atamız onu çox sevdiyindən bu günə qədər təsəlli tapmamışdır. Gecə-gündüz ağlamaqdan gözlərinə korluq toru gəlib dünyanın görüntüsündən məhrum olmuşdur. On qardaş hüzurundan gəldik. O biri qardaşımız isə atamızın yanında qalmışdır. Ən kiçik qardaşımızdır. Atamız onu Yusifin yox olmasından sonra hamımızdan artıq sevdiyi üçün yanından əsla ayırmaz. Qulluğuna dəxi o baxır.

Cənab Yusif bildi ki, doğma qardaşı olan Benyamin sağdır. Fəqət qardaşları onu görməmişdilər. Atası dəxi onu unutmayıb, ağlamaqdan gözlərinə qara su gəlməyini eşitdikdə ürəyi çox yandı, lakin bu halı bildirmədi. Bir az fikirdən sonra dedi:

– Çox gözəl, sizə taxıl verilər. Ancaq verdiyiniz qərar mövcibincə hər nəfərə bir yük veriləcəyinə görə sizə on yük veriləcəkdir. Çünki on nəfərsiniz.

Yəhuda:

– Fəqət, ya əmir! Ərz etmiş olduğum kimi azarlı-azarlı və qoca atamla qardaşım üçün dəxi iki yük artıq verilməsini əmr buyursanız bizi ehsanınıza qərq etmiş olursunuz.

Həzrəti-Yusif onların bu xahişlərini qəbul etməyib onlara belə cavab verdi:

– Adətimizə görə buraya gəlməyən adama taxıl verə bilmərik. Sizin xatiriniz üçün adətimizi pozmaq mümkün deyildir. Ancaq sizə özgə cürə kömək edə bilərəm. İndi taxılınızı alıb vətəninizə qayıtdıqdan sonra yenə gəlib təkrar taxıl alarsınız. Fəqət bu dəfə gələndə o kiçik qardaşınızı da birgə gətirərsiniz. Sizi gördüyüm kimi onu görmək istəyirəm. Çünki atanızın onu sizdən artıq sevməyinin səbəblərini bilmək istəyirəm.

Sonra Həzrəti-Yusif müqərrəblərinə əmr etdi ki, haman Yəqub övladlarına on dəvə yükü buğda versinlər. Yəqub əleyhissəlamın oğlanları cənab Yusifin ehsanına təşəkkür etdilər. Sabahı günü yola düşmək istəyirdilər. O gün çuvallarını doldurmaq üçün anbar olan məhəlləyə getdilər. Aldıqları taxılın pulunu məxsusi pul almağa təyin olunan məmura verdilər. Yüklərini hazırladıqdan sonra mənzillərinə qayıtdılar. Cənab Yusif qardaşları gedincə anbar məmurlarını hüzuruna çağırdı. Və əmr elədi, taxıl üçün aldığı pulları qardaşlarının çuvalları içinə elə qoysun ki, əsla onlar xəbər tutmasınlar. Sabahı günü Yəhuda qardaşları ilə dəvələrini yükləyib Misirdən çıxdılar. Taməlsə, yəni vətənlərinə yetişdilər. Buğdaları anbara qoymağa daşıdıqda gördülər verdikləri pul taxılın içindən çıxdı. Hamısı heyrətə düşüb təəccüb etdilər. Dərhal gedib əhvalatı atalarına ərz etdilər.

Cənab Yəqub Misir əmirinin bu müamiləsini öz xanədanı haqqında bir hörməti-məxsusə hesab etdi. Və pulu bu surətlə qaytarmağı oğlanlarının izzəti-nəfsinə toxunmayan bir nəzakətli müamilə zənn edib qəlbən çox məmnun oldu.



Yəhuda ilə qardaşları bir neçə gün dincəldikdən sonra yenə taxıl almaq üçün getmək tədbiri gördülər. Və kiçik qardaşları Benyamini dəxi aparmaq üçün gəlib atalarından izn istədilər.

Cənab Yəqub rıza vermək istəməyib dedi:

– Yusifi aparıb tələf etdiniz. Qorxuram Benyamini də aparıb Yusif kimi tələf edərsiniz. Mən daha sənə inana bilmərəm. Özünüz gediniz, qardaşınızı qoyun burada qalsın.

Onlar dedilər:

– Mehriban ata! Sən indi də Yusifin həlak olmağını bizdən bilirsən. Halbuki o vaxt söylədik, Yusifi qurd gəlib yemişdi. Orada onu yalqız qoyub getmək üçün təqsirkarıq. Benyamin üçün daha belə xətaya düşmək mümkün deyildir. Ələlxüsus hamımız qardaşımızla birgə Misirə gedib, birgə qayıdacağıq. Ancaq bir yetim də olsa, bir yük taxıl artıq alarıq.

Yəqub əleyhissəlam yenə razı olmamaq tövrilə dedi:

– Sizin almaq istədiyiniz taxılın böyük əskik olmağı eyb etməz. Lakin mənim qoca və əlil olduğum halda yalnız qalmağım münasib deyildir. Bu iş hər kəsin təəssüfünə səbəb olar. Allah eşqinə bizi xəlqin dilinə salmayınız.

O halda Yəhuda:

– Düzdür, biz bir yük taxıl əskik gətirsək, bir şey olmaz. Və səni də yalqız qoymaq istəmirik. Fəqət söz burasındadır ki, Misir hökmdarı bizə demişdir ki, əgər qardaşınızı özünüzlə bərabər gətirməsəniz, sizə taxıl verməyərəm. Hər halda müşarileyhin hüsn və müamiləsi və taxıl üçün aldığı pulu qaytarmağı kimi lütf və mərhəməti hənuz göz qabağındadır. Əgər onun tövsiyəsini əmələ gətirməz isək bir böyük xəta etmiş olarıq. Əgər Benyaminin getməyinə izn vermək istəməsəniz, biz dəxi taxıl almağa getməkdən əl çəkərik. Çünki boş əl ilə qayıdıb gələcəyik.

Cənab Yəqub gördü övladları taxıl almağa getməyəcəklər və bir çox fəqir ailə, gəlib-gedən yolçu və qonaqlar ac qalacaqdır. O cəhətlə çarəsiz qalıb Benyaminin Misirə getməsinə razı oldu. Cənab Yəqubun oğlanları getməyə hazırlandılar. Yola gəlib atalarilə xudahafiz etmək istədilər. O halda Yəqub əleyhissəlam oğlanlarına dedi:

– Oğlanlarım, Benyamini sizə, sizi Allaha tapşırdım. Onu gözəlcə mühafizə ediniz. Sağ apardığınız kimi, salamat gətiriniz. Misirə yetişdikdə hamınız bir qapıdan daxil olmayınız. Çünki on bir qardaşı birgə görənlər həsəd edər. Mən dəxi bədnəzərdən qorxuram.

Bu tövsiyələri etdikdən sonra Benyamini qucaqlayıb hər iki üzündən öpdü: "Oğul, səni Allaha tapşırıram".

Bir neçə gündən sonra on bir qardaşdan düzəlmiş qafilə Misirə yetişdi. Birbaş əmir cənab Yusifin yanına getdilər. Və qoca atalarından salam söylədilər.

Yusif əleyhissəlam bu dəfə qardaşlarına həddən artıq ehtiram eylədi. Hamısını öz yanında saxladı. Və hər iki qardaşa bir otaq verdi ki, on birinci qardaşları Benyaminə təkbaşına bir otaq düşsün.

Çünki bu növ ilə ayrılığı görüşməyə döndərmək istəyirdi.

Binaileyh gecə hamısı yatandan sonra qalxıb qardaşı Benyaminin yanına gəldi. Və bir çox mülayimanə söhbətlərdən sonra:

– Mən sənin qardaşın Yusifəm, – deyib özünü tanıtdı. Və tamam əhvalatını ibtidaidən intəhaya qədər bəyan eylədi. Sonra dedi:

– Qardaşım, mən səni burada yanımda saxlamaq istəyirəm və bacardığım qədər çalışacam. Sən nə deyirsən?

Benyamin:

– Çox yaxşı, mən məmnun qalaram. Lakin qoca və əlil atamız vardır. Bəs o necə olsun? Neçə ildir sənin ayrılığında ağlamaqdan gözlərinin nurunu yox etdi. Dünyanın hər bir görünüşündən məhrum oldu. İndi əgər mən burada yanında qalar isəm, yəqinən təhəmmül edə bilməyib vəfat edər.

Cənab Yusif:

– Mən atamızı da buraya gətirəcəyəm. Bu ayrılıq daha kifayət edər. Bundan sonra hamımız birgə ömür sürəcəyik. Ancaq sən mənim kim olduğumu qardaşlarıma söyləmə. Mənim əmələ gətirdiyim tədbirləri gözlə.

Bu sözləri dedikdən sonra qalxıb öz otağına getdi. Yəqubun oğlanları üç gün cənab Yusifə qonaq qaldılar. Sonra vətənlərinə getmək xəyalına düşdülər. Cənab Yusif əmr eylədi on bir çuval buğda hazırladılar. Ancaq qardaşı Benyamini saxlamaq üçün lazım olan tədbirləri eyləmişdi.

O zamanda İbrahim əleyhissəlamın şəriəti belə idi: əgər biri birinin malını oğurlasaydı, mal sahibi oğrunu tutanda oğru onun qulu olardı. Və onu qul kimi yanında saxlaya bilərdi. Cənab Yusif bu əmri bildiyinə görə qardaşı Benyaminin çuvalı içinə bir gümüş cam qoydurdu.

Yüklər dolduruldu. Dəvələr çatılıb yola düşdükdə bir münadi nida eylədi:



– Ey karvan əhli! Sizin aranızda oğru vardır. Baş vəzirin gümüş camı oğurlanmışdır.

Bundan hər kəs heyrətə düşdü. Və özünü itirən Yəqubun oğlanları bu əhvalı görüncə hamısı mütəhəyyiranə dedilər:

– Biz buraya oğurluq etmək, fəsad törətmək üçün gəlməmişik. Həmd olsun Allaha, biz hələ gümüş cama möhtac deyilik. Lazımınca sərvət və samanımız vardır. Xanədanımız çox şərəfli və namusludur. Oğurluq etməyə tənəzzül və irsi böyüklüyünü alçaltmağa yol verməz.

Cənab Yusifin xidmətçiləri isə dedilər:

– Biz demirik hökmən siz oğurlarsınız. Ancaq burada bir oğurluq əmələ gəlmişdir. Əlbəttə, bu oğrunu tapmaq lazımdır. Ona görə hamınızı əmirin yanına aparıb axtarmalıyıq.

Dərhal onları Yusifin hüzuruna gətirdilər. Müşarileyh bu işin əmələ gəlməsinə çox təəssüf eylədi. Və xatircamlıq olmaq üçün yükləri axtarmağını söylədi və dedi:

– Əmin olunuz, əgər dediyiniz kimi yüklərinizdə olmasa bidunimənaniət vətənizə qayıdacaqsınız, biləks oğurlanan cam yükünüzün arasından çıxarsa, oğrunun tənbehini sizə həvalə edirəm.

Yəhuda dərhal dilləndi:

– Bizim dinimizdə oğru mal sahibinin qulu olur. Biz dəxi dinimizin hökmünə razıyıq.

Həmin saat cənab Yusifin əmri ilə yüklər və çuvallar bir-bir axtarıldı. Oğurlanan cam isə Benyaminin çuvalından çıxdı. Yusif əleyhissəlam tərəfindən məzkur cam zəbt, Benyamin isə tövqif edildi.

Onların hamısı bu işdən təlaşa düşdülər. Son dərəcə utandılar. Yəhuda cənab Yusifə yalvarıb dedi:

– Əzəmətli əmirimiz, oğrunu tutmaq və cəzaya düçar etmək borcunuzdur. Bunun o biri qardaşı da bunun kimi yaramazdı. Hətta arabir oğurluq dəxi edərdi. Onu da qurd yedi. Madam ki, bu da belə iş əmələ gətirməyə cürət etmişdir, qoy cəzasını çəksin. Ancaq irəlidə söyləmişəm. Qoca və əlil bir atamız var. Bunu çox sevir. Hətta özümüzlə buraya gətirməyə ondan izn istədikdə salamat qaytarıb aparmağı öhdəmizə almışıq. İndi yalnız gedərsək, ona nə cavab verəcəyik? O qoca atasına rəhm edib, bunu əfv et. Onun əvəzində bizim birimizi saxla. Özünə qul qərar ver.

O biri qardaşları dəxi bu ricaya iştirak etdilərsə də, cənab Yusif qəbul etməyib dedi:

– Haşa! Biz birinizin əvəzinə o birinə cəza verə bilmərik. O təqsirlidir. Siz təqsirsiz. Heç bir vəchlə onun yerinə sizlərdən ala bilmərik. Malımızı kimdən tapdıqsa, onu da tutub saxlayırıq.

Onlar rica və niyazlarının fayda verməyəcəyini anlayıb Benyamini orada qoydular, vətənlərinə qayıtdılar. Ancaq Yəhuda getmədi və qardaşlarına dedi:

– Mən buradan getmirəm. Zira öhdəmə almışam ki, Benyamini özümlə bərabər gətirəm. İndi nə üzlə gedim. Siz gediniz. Oğlunun oğurluq etdiyini ona söyləyiniz. Nə vaxt mənim qayıtmağıma izn verərsə qayıdaram. Yoxsa burada ölənə qədər qalacağam.

Onlar dəxi çarəsiz qalıb yola düşdülər. Kənana yetişincə vaqiəni atalarına söylədilər. Cənab Yəqub bir ahi-cangüzar çəkib dedi:

– Siz Yusifə eylədiyinizi qardaşına da eylədiniz. Şeytan sizi tovlayıb günaha mürtəkib etdi. Əlhal durmayıb gediniz Yusifi və Benyamini axtarıb tapınız. Və onlardan mənə bir xəbər gətirin.

Yəqub əleyhissəlam ikinci müsibətdən fövqəladə sıxıldı. Haman vaxt beytüləhzanında oturub "Vay Yusif, vay Benyaminim!" deyib şiddətlə ağladı. O qədər qanlı göz yaşları tökdü ki, gözləri işıqdan düşüb ağappaq ağardı.

## BEŞİNCİ FƏSİL

Cənab Yəqubun oğlanları Misirdən qayıtdıqdan sonra atalarının yanına gələ bilmirdilər. Və atalarının sözünü eşitmək istəmirdilər. Xüsusilə əmr vermişdi ki, Misirə gedib Yusifi və Benyamini axtarsınlar. Əsla bu əmrini əmələ gətirməmişdilər. Binaileyh müşarileyhin yanına getməyə üzləri yox idi.

Misirdən alıb gətirdikləri taxıl az bir müddətdə qurtardı. Misirə də təkrar getməyə cürət edə bilmirdilər. Yəni bəzi dəyərsiz və yüngül şeylərini götürüb getdilər. Misirə yetişib cənab Yusif əleyhissəlamın hüzuruna gəlib ərz eylədilər:

– Biz nəhayət dərəcədə möhtaclığa düşdük, heç bir şeyə gümanımız gəlmədiyinə görə bir az şeylərimiz vardı, onları gətirib hüzura gəldik. Lütfi-inayətinizdən rica edirik ki, bizə taxıl verəsiniz. Və bizə verdiyiniz şeyi ehsan buyurmaqda təsəddüq hesab edəsiniz.

Bu cürə sözlər ilə həddən artıq yalvardılar.



Cənab Yusif qardaşlarının bu halını görüncə bildi ki, həqiqətən çox yoxsul olmuşlar. Daha səbr və təhəmmül edə bilməyib acıqlı bir tövr ilə dedi:

– Yusifin və qardaşının başına gətirdiyiniz müsibətləri bilmirsınızmı?

Onlar cənab Yusifin bu sözlərindən şübhələnib dedilər:

– Yoxsa siz Yusifsiniz?

Cənab Yusif:

– Bəli, mən Yusifəm, bu da qardaşım Benyamindir.

Bu sözdən hamısı qorxuya düşdülər ki, məbada Həzrəti-Yusif bunlardan intiqam almaq qəsdində ola. O xəyal ilə qorxudan dedilər:

– Ey Yusif, cənabi-Həqq səni bizə qalib edib intiqamını aldı. Biz səndən lütfü mərhəmətdən başqa bir şey ümid etməyirik. Zatən cəzamızı artıqlamasilə çəkdik.

Cənab Yusif qardaşlarının yalvarmağını görüncə dedi:

– Sizin mənə elədiyiniz yamanlıqları mən sizə bağışladım. Ümidvaram cənabi-Həqq dəxi əfv edər. Bundan sonra hamımız bir yerdə, birgə dolanarıq. İndi gedib atamı, bütün ailəni buraya gətirin.

Qardaşları dedilər:

– Atamız cənab Yəqub göz nurundan məhrum olduğu kimi, özü dəxi nəhayət dərəcədə qocalmışdır. Yolun zəhmətinə davam edə bilməz.

Cənab Yusif bu sözü eşidincə köynəyini onlara verib dedi:

– Bu köynəyi aparıb atamın gözlərinə sürtərsiniz. Gözü yenə işıqlı olar. Ondan sonra büsbütün onları yığıb gətirərsiniz.

Hamısı bu əmrdən məmnun oldular. Haman gün Misirdən hərəkət etdilər. Bu şad xəbəri aparıb muştuluq almaq üçün bir nəfəri özlərindən qabaq göndərdilər.

Cənab Yəqub karvan Misirdən çıxan gündə yanındakılara deyirmiş:

– Burnuma Yusifin iyi gəlir.

Yanındakılar ona istehza ilə deyirdilər:

– Qırx il bundan irəli ölmüş, indi sümükləri də qalmamış olan "Yusifin iyini duyuram" deməyiniz çox təəccüblüdür, şübhəsiz, köhnə halınız vardır. Adətən sizdə dəlilik asari görürük.

Cənab Yəqub bunların cavabında dedi:

– Mən səhv etmirəm. Yusifin iyini duyuram, həm də iyi get-gedə çoxalır. Rica edirəm, çıxıb ətrafı gəziniz, mənə bir xəbər gətiriniz.

Onlar axirüləmr o qocanın könlünü ələ almaq üçün ev qapısının ağzına bir adam çıxartdılar. O halda həmin muştuluqçu gəlib bu şad xəbəri gətirdi. Yəqub əleyhissəlam dəxi ziyadə məmnun olub dedi:

– Mən sizə demədimmi burnuma Yusifin iyi gəlir?

İki gündən sonra karvan gəlib Yusif əleyhissəlamın köynəyini gətirdi və cənab Yəqub gözlərinə sürtüncə gözləri sağalıb işıqlandı və bir cavan gözü kimi qüvvətli göz oldu. Hər kəs şad və məmnun idi. Dərhal səfər tədarükü gördülər, üç gündən sonra yetmiş nəfərlik ailə tamam-kamal Misirə əzimət etdilər. Misirin sərhədinə yetişincə bir adam göndərdilər ki, cənab Yəqubun gəlməyini Yusif əleyhissəlama xəbər versin.

Cənab Yusif bu xəbəri eşitdikdə, bir cəmm-qəfur ilə şəhərin kənarına çıxıb atasını istiqbal eylədi. Fövqəladə bir təntənə ilə umarat dairəsinə daxil eylədilər. Oraya daxil olunca atasını və onun anasını səndəlidə oturtdu. Özü dəxi məxsusi yerində oturdu. O zaman on bir qardaşı gəlib bərabərində əyilib səcdə etdilər. O zamanda bir kəsə fövqəladə ehtiram etmək istədikdə elə edirdilər.

Yusif əleyhissəlam atasına xitabən dedi:

– Mehriban atamız! Baxınız! Uşaqlıqda gördüyüm yuxunun təbiri budur. Allahım onu haqq və həqiqətlə aşikar buyurdu. Mənə lütfi-inayətindən, elm və hikmət, mal və sərvət ehsan buyurdu! Bunların əvəzində həmd və şükür etməkdən acizəm.

Cənab Yusifin quyuya salındığı zamandan qırx il keçmişdi. O müddətdə atası ilə görüşə bilməmişdi. Ərzi-Kənandan gəlmiş Yəqub övladı Misirdə yerləşib sakin oldular. Axırda Misirdən Həzrəti-Musa ilə ərzi-Fələstinə gedən bəni-İsrail bunların nəvə-nəticələrindən idi.

Yəqub əleyhissəlam cənab Yusifi gördükdən sonra yeddi il daha ömür eylədi. Tamam övladı və ailəsi ətrafında rahat yaşadıqdan sonra vəfat eylədi. Vəsiyyətə görə nəşini Fələstinə aparıb babası İbrahim və atası İshaq əleyhissəlamın qəbirləri yanında dəfn etdilər.

Cənab Yusif atasından sonra çox illər ömür eylədi. Misirdə kəmali-ədalətlə hökumət sürürdü. Bəni-İsrail hər il çoxalırdı.

Züleyxa Yusifdən iki il irəli vəfat eylədi. Və Yusif əleyhissəlamın vəfat etdikdə vəsiyyəti mövcibincə mübarək nəşini mərmərdən qayrılmış bir tabuta qoyub dəfn etmişlərdir.



# ABDULLA BƏY DİVANBƏYOĞLU

(1883-1936)

*XX əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən olan Abdulla bəy Divanbəyoğlu (Sübhanverdixanov) Qazax qəzasının Hüseynbəyli kəndində qulluqçu ailəsində doğulmuşdur. Kiçik yaşlarında ata-anasını itirən Abdulla bəy yaxın qohumlarının himayəsində böyümüşdür. O, ilk təhsilini Qazax ibtidai məktəbində almış, sonra Qori Müəllimlər Seminariyasında oxumuşdur.*

*1903-cü ildə seminariyanı bitirən gənc Abdulla bəy bir il Acarıstanda və Batum vilayətində müəllimlik etmiş, 1904-cü ildə Bakıya gəlmişdir. Burada əvvəlcə "Rus-tatar", sonra isə ikincidərəcəli şəhər məktəbində müəllim işləmişdir. Azərbaycanda Aprel çevrilişindən sonra ali təhsil alan A.Divanbəyoğlu bir sıra məsul vəzifələrdə çalışmış, 1936-cı il yanvar ayının 6-da Bakıda vəfat etmişdir.*

*Bədii yaradıcılığa Qori Müəllimlər Seminariyasında təhsil alarkən başlayan A.Divanbəyoğlu "Köçərilərin həyatı", "Əbdül və Şahzadə" adlı ilk əsərlərini tələbə ikən yazmışdır. Onun "Can yanğısı" (1904) əsəri XX əsrin əvvəllərində yazılmış ilk romanlardan biridir. Bu əsər Bakıda dəfələrlə çap olunmuş, həm oxucular, həm də tədqiqatçılar tərəfindən maraqla qarşılanmışdır. Əsərin burada verilən mətni yazıçının "Can yanğısı" (Bakı, 1981) kitabından götürülmüşdür.*

## CAN YANĞISI

### I

Danüzü idi. Hələ dan ulduzu batmayıb ərşi-fələkdə öz dövrünü edirdi. Mən də meşə cığırı ilə boyumdan uca otların arasından şehə bulana-bulana adət etdiyim sabah gəzməyimdən evə hərəkət edirdim. Gözümə görünən çiçəkləri toplaya-toplaya bir caddə yola çıxdım. Ayaqlarım yalın olduğuna görə yolun quru kəsəkləri məni incitdi və mən də üst tərəfdə tapdanmamış bir cığıra düşdüm. Quşlar

öz keflərində idilər və cəh-cəh ilə min cürə nəğmələr oxuyub, meşəni sədaları ilə doldurmuşdular. Meşənin hələ çoxu oyanmamışdı, quşların bir paraları oxumaqda, o biri paraları uçub özləri üçün yem gəzməkdə və kəpənəklər çiçəklərin başına qona-qona idarə qayğısında idilər. Amma cücülərdən bir çoxu sübh açılmasından bixəbər idilər. Meşənin çıxacağında təzə tülu etmiş gün, yuxudan oyanmış dilbər kimi üzümə güldü. Onu hər tərəfə sürət ilə cərəyan şüaatından qamaşan gözlərimin önündə dürlü-dürlü rəngli dairəvi şeylər hasilə gəlib, dairələrini gah genişləyə-genişləyə və gah da daralda-daralda və gah da uzada-uzada bir-birini basıb çəkərək oynamağa başladılar. Köçərgi balalarına bu çox ləzzət verir!

Bunlar ilə özümü uyuda-uyuda cərgə ilə qurulmuş dəyələrimizin üstündə yastı təpənin belindəki istirahət evimə gəldim. Bura mənim sevimli yerlərimdən biri idi. Həmişə çox gəzib yorulanda burada dincimi alırdım. Böyük daşlardan düzüb, özümə bir meysərə, səndələ oxşar bir yer qayırmışdım. Çox vaxt uşaqları başıma yığıb, bunlara nağıl söyləyib və söylədib, mahnılar oxudub, məşğul olurdum. Və yaxud sübh tezdən gəlib xəyalət atına minib, ağıl kəsər-kəsməz və fikrə sığar-sığmaz yerlərdə cövlan edirdim. Amma çox vaxt qərardan usanıb ətrafımdakı gözəl və hissiyyatımı tərpədib ruhumu cuşə gətirən mənzərələrə doyunca aşiqanə tamaşa edib, qəzanın belinə minib, rişxənd oxlarını gözlərinə çaxıb Çətin dağın daş köksünə çalıb, dərə və təpələrdə sürüyüb Göy dağdan o tərəfə Kür çayı kənarına tullayırdım.

Səhər saat altı idi. Bir qədər də oturub yenə pəhləvan kimi döşümü gərib sağ tərəfimdə duran Çətin dağa və onun qiblə tərəfindən yapışan Quzu dağına və günbatandan gündoğana cərgələşən xırdaca dağlara tamaşa etməyi qəsd etdimsə, bacarmadım. Aclıq möhkəm bədənimi tutub halımı dəyişdirdi. Təpənin dibindəki bulağın üstünə endim, əl və üzümü yuyub qaznağın qırağında oturdum. Ayaqlarımı soyuq suya salıb oynatmağa başladım.

Şappıltıdan damcılar günün qabağında almaz kimi parıldayırlar. Bulağın yeri çuxur olduğuna, geridən gələnlər burada olan adamı görməzlər idi. Qulağıma bir mahnı oxuyan səs dəydi. Oxuyan arvad idi. Səs gecə ötən qumru kimi oxuyurdu. Bu gözəl hər kəs idisə, qəzasından narazı olduğu nəğməsindən aşkar görünürdü. Canı sızıldayır və ağladığı səsinin titrəməsindən anlaşılırdı. Yumru təpənin



dalından Mələk gün kimi tülu etdi: məni görüncə boğanaq kimi döyüb, yaşamağı ağzına çəkib, qönçə dəhanını gizlətdi. Lalə kimi rəng verib, rəng ala-ala bulağa endi, sənəyi bulağa söykədi, su gurhagur sənəyə doldu. Bulağın qırağından bir çəngə ot yolub sənəyin ağzına basdı, hücumla çiyninə atdı, yel kimi təpənin dalına aşdı.

Mələyin qəzadan şikayət etməyə böyük haqqı var idi; sevimli nişanlısını toy üstə[1] gecə oğurluqda öldürmüşdülər. Qoçaq və işgüzar qızlardan olduğuna görə qayınatası Mələkdən əl çəkməyib on uç yaşında kiçik oğluna nikah etdi. Mələyin könlü balaca ərinə yox idi. Sonra məlum oldu, aran köçü ikinci düşərgədə[2] gecə Mələk itdi (qayıb oldu). Bir aydan sonra əmisi oğluna qoşulub qaçması xalq arasında söyləndi. Və bir az keçməmiş yəqin oldu. Bu tərəf o oğlanı tanıdı, düşmən oldular...

## II

Aclıq mənə lap kar etmişdi, durdum ki, evimizə gedib bu arsızı doydurum. "Salam-əleyküm" səsi məni əylədi. Dönüb salama salam verəndə iki qədəm özümdən aralı bir dərviş gördüm. Dağda dərviş gəzdiyini ömründə xəbər verən yox idi. Mən bundan şübhələndim. Bunu Sibiryadan qaçan hesab etdim. Mənim şəkkə düşməmi anladı. Yoxsa rusca bildiyimi bilib biletinin vaxtını bilmək istəyirdi. Onu başa düşmədim, amma əlini cibinə salıb, topuğunda yavuq oradan bir bilet çıxarıb dinməz və söyləməz mənə uzatdı. Oxuyub yenə bileti özünə qaytardım.

Üzümə baxmayaraq sordu:

– Vədə tamamına iki aydan on gün əskiyi var, öylədirmi?

– Öylədir, – cavabını məndən aldı.

Biletini bir əskiyə büküb yenə cibinə tulladı. Bu dərviş ucaboylu, arğaz, uzunsaçlı və saqqallıydı. Gözlərindən və üzündən bunun yuxu və məşəqqət və işıqlı dünyada cəhənnəm oduna düçar olduğu görünürdü. Aylar ilə işlənmiş mahud külahı dala tərəf sürüşmüşdü. Saçları oyum-oyum olub dərvişin alnına tökülmüşdü. Başını yuxarı qaldırıb sönmüş gözlərini üzümə dirədi və bir azdan sonra dedi:

– Mən acam!..

[1] Toy etməkdən ötrü oğurluğa getdiyi üçün

[2] Aran köçü ikinci düşərgədə olanda

– Buyur, ağa dərviş, bizə, Allah verəndən nəyimiz var isə yeyərsən. – Dərvişi öz dəyəmə gətirdim. Binəvanın üzündə və gözlərində əziyyət nişanələri oynaşıb çox zəlalətlərə düçar olduğuna işarə verirdi. Dinməz və söyləməz oturmağımız məni diltəng etdiyinə bununla söhbətə başlamaq qəsdi ilə sordum:

– Gərək ki, dərvişlər evlənmirlər?

Sözümü tamam etməmiş gördüm ki, dərvişin əlləri yarpaq kimi əsdi. Çörək qisməti siniyə düşdü. Keçmiş kösöyü zor ilə yerə vuranda qığılcım saçalanan kimi gözləri məşəlləndi. Başımı aşağı dikib durduğum halda əlimdəki çörək qismətini yumruğumda sıxmağa başladım; bu halda tab etməyib dəyə qapısında duran itə acıqlanıb qovladım. Dərviş cavab verməyib çörək yeməyə yenə dəxi məşğul oldu. Bir-iki stəkan çay içəndən sonra mənim sualıma cavab verdi. Guya ki, sualı buna mən bu saat vermişdim. Səsi bir balaca titrədi:

– Onlara heç evlənmək lazım deyil.

– Deyirlər ki, evli olmağın, uşaq babası olub, külfət arasında ömür sürməyin özgə bir ləzzəti var.

Binəva dərvişi bu sözlər pərişan edib halını dəyişdi: bərk köksünü ötürüb bir az müddətdən sonra çox bir hiddət ilə məndən sordu:

– Bu sözlərdən mətləb nədir?.. Mənə nə qəsdi-qərəzin var? Əgər mənim başıma gələndən xəbərin varsa, niyə məni söylətmək istəyirsən... Ciyər yaralarımı təzələməkdən, ürəyimi şan-şan etməkdən sənə fayda varmı?..

Bu suallar məni xeyli təəccübləndirdi. Dərvişdən belə cavab gözləmirdim. "Dərvişlər bu dünyadan əl çəkib, o dünya üçün çalışırlar" – demək istəyirdim.

– Ağa dərviş, mənim sözlərimin bu dərəcədə səni pərt edəcəyini bilsəydim, əlbəttə, onları ağzıma almazdım. Söz dediyin bir quş kimi şeydir, ağızdan çıxdı, tutmaq və yaxud geri qaytarmaq olmaz, ancaq "əfv buyur" deyə bilərəm.

Dərviş başını döşünə salıb qaşqabağını qara bulud kimi tökdü, bir xeyli zamandan sonra yuxudan oyanmış şir kimi saçlarını silkələyib başını yuxarı çəkib başladı:

– Ey cavan, otuz ildir, mən dünyadan əl çəkib, gözümü axirət qapısına dikmişdim. Nə qədər tez üzümə açılsa, o qədər özümü Allahın sadiq qullarından sanar idim. Bu gün-sabah dünya məni məhv etdiyini duydum. Mən adamam, ağıldan və fərasətdən fəyyazi-



qüdrət bizi dur etməmişdi. Əzrayıl hərdənbir qanadı ilə məni çaldığını anlayıram.

Neçə il bundan əqdəm törəmiş əhvalatı unudub, özüm ilə bərabər dari-bəqayə[1] aparmağa qəsd etmişdim. Dünyamı tufan, bədənimi viran edib macəranı sən bir cüft sual ilə mənim gözümün önündən keçirib yaralarımı təzələdin. Böylə sualı məndən soran olmamışdır, olsa idi, səbəbsiz, dərdimi bir kəsə söyləməzdim. Məsəldir: "Qəlb süfrə deyil ki, hər ötən-keçənə acasan..." Dərdim ürəyimdə qalıb paslanmışdı... İndi qulaq ver, gör başıma nə gəlmişdir və insan nələr çəkməyə qadirdir və nələrdən bu şahizəviyyul-həyat[2] acizdir?

Qulaq ver:

– Ürəyimdə bu dərdi uzun müddətlər saxladım. Fəqət indi saxlaya bilmirəm. Çünki yerdə su durmayıb fışqırdığı kimi, mənim dərdim də daha qəlbimdə durmayır. Qulaq ver, könlümdə viranələr arasında bəslədiyim, başıma gələn qəzavü qədərlər cuşa gəlmişdir.

Dərviş başını aşağı salıb yenə fikrə getdi. Könül evində keçmişi qarmaqarışıq idi. Haldan düşmüş ixtiyarsız bir qarı kələfin ucunu axtarıb tapa bilmədiyi kimi, bu da rəvayətini haradan və nədən başladığını bilmirdi...

Birdən dedi:

– Hə, qulaq as: qəzadan şikayət və başqaları kimi nifrət etməyi özümə rəva görmürəm. Ömrümün əvvəlində mən çox gözəl şeylər görmüş idim. Cavanlıq bağçamda bir pərizad zinət vermiş idi... Baxıb, həvəs edib, ləzzət qanırdım, birdən... deməyə dilim titrəyir, nəfəsim boğulur, gözlərimə zülmət çökür... (yavaş) birdən... (duruxur), şiddət ilə birdən gülümü üzdüm, tacımı daşa vurdum... sındırdım, ömrümə külüng çaldım, qırdım, gülüstanımı yaxıb-yandırdım, külünü ərşə sovurdum... qaldım viranələr arasında. Gözümün qarası, ciyərimin parası, taxtım, bəxtim, səltənətim, tacisərim, qönçə gülüm, bülbülüm Ruqiyyə idi! Ruqiyyə!..

Ömrümə rövnəq verən, minnətsiz minnət çəkən, ağrıma dözən Ruqiyyə idi, Ruqiyyə... Qəlbimdə bazari-məhəbbət açan, başıma dolanan, dərdi-sərimi dağıdan, viran könlümü gülüstan edən Ruqiyyə idi! Ruqiyyə!..

[1] O dünyaya

[2] Burada "insan" mənasındadır.

Bəşərsən, zəhmətkeşsən, halını qan, ömrünü yan, olma biiman, xabi-qəflətdən oyan, – dəmbədəm deyən Ruqiyyə idi, Ruqiyyə!..

Ruqiyyə məhv oldu, fövt oldu...

Yanım birdən-birə boşaldı, dünya gözümdən düşdü, qəza məni səhraya saldı, mənə nə qaldı?

Bilirsənmi nə qaldı? Əvvəlki halım, əvvəlki biyaban, əvvəl nə idim, kim idim, indi də o oldum! Niyə? Fikrimi ağlıma, ağlımı xəyalıma satdım. Özüm çaşdım, bəxtim oyanmışdı, duymadım. Ruqiyyənin qədrini bilmədim.

Böylə vurdu qəza, halım oldu fəna...

Doğrudur, vücudum dolanır, amma bu dünyadan çoxdan ruhum əvdət edibdir[1] (dayanır). Bu da təbii bir şeydir.

Arvad kişiyə və kişi arvada biri-birinə cismən, ruhən bağlıdır. Arvad düçar olan zillətdən kişi, kişi düçar olan zillətdən arvad boyun qaçırmağa qadir deyil... fəyyazi-qüdrət bu iki vücudu bir-birinə tən yaratmış, bir tərəfdən nə törəsə, o biri tərəf ondan xali ola bilməz.

## III

Neçə il bundan əqdəm osmanlı şəhərlərindən birində qan töküb, hökumət əlindən dağlara qaçdım. Dağlarda fələk ilə əlləşə-əlləşə dolaşırdım. Gündüzlər meşələrdə, gecələr ağac başında və yaxud qayalar qoynunda... göy ot döşəyim, qara daş yastığım, enli yarpaqlar yorğanım idi... Göy guruldayırdı, şimşək oynayırdı, maral hayqırırdı – səsimə səs verirdilər. Gündüz gün, gecə ay ilə ulduzlar həmdəmim idi.

Yağmur başımdan, sel suları ayağımdan vururdu, meşə mənə, mən meşəyə səs verirdim. Ormanlar çadırım, talalar gəzmək yerim idi. Gül gülü çağırırdı, bülbül cəh-cəh ilə oxuyurdu. Göyün qübbəsi tavanım, qara torpaq arxam idi. Fikrim xəyalıma, xəyalım fikrimə dolaşıq, dünyadan bixəbər, halımdan məlul və pərişan, keçən keçdi, gələcəkdə nə olacağını bilmirdim. Könlüm yaralı maral kimi inildəyirdi. İns və cinsdən ayrı düşüb, heyvanlara qarışmaqdan qayət usanmışdım. Heyvanlar da tək-təkinə dolanmayıb arkadaşlı gəzdikləri halda, mən öz həmcinsimdən cida düşüb[2], ormanlarda, səhralarda

[1] Köçüb gedibdir.
[2] Ayrı düşüb.



qalmışdım. Heyvanlara səs verməyi özümə adət etmişdim. Zira ağıl dolanırdı, özünə iş axtarırdı və məkanından yatan fikrimi oynadıb uçururdu. Fikir izhar olmaq istəyirdi. Yanımdakı cin və canlı heyvanlar olmağına, heyvan kimi də danışmaq istəyirdi.

Axır kəlam, təklikdə davam edə bilməyib "öldürsə də, qoy məni öz həmcinsim öldürsün", – deyə meşəni tərk etdim. Şənlik olan tərəfə rəvan oldum, bir dağın döşündə, yolun qırağında bir bölük köç gördüm, çörək bişirirdilər. Çox zamanlardan bəri tərk etdiyim çörəyin qoxusundan ürəyim yarpaq kimi titrədi.

Gəldim salam verdim. Salamımı bir qoca ağsaqqal kişi aldı. Çörək bişirən arvad da qoca idi. Bunlar heyran-heyran mənə tamaşa etdilər. Başımı aşağı salıb gördüm: alaçığın çətəni[1] şaqqıldadı, gözümün quyruğu ilə o tərəfə baxdım. Ox dəymiş şir kimi saçlarımı silkələyib, başımı yuxarı qaldırıb məhbut[2] bir halda qaldım. İki gecənin arasından bədirlənmiş ay parası kimi bir hurizadın liqasını[3] gördüm...

– Ey cavan!.. Yoxsa karsan, yoxsa bizim dilimizi bilmirsən, niyə cavab vermirsən?

Qulağım qocanın sözünü aldı.

Qoca dedi:

– Əyləş Allah qonağısan, Allah verənimizdən yeyərsən.

Mən əyləşdim... bağlandım qaldım...

– Sonra?

– Qulaq as.

## IV

Dərviş sözünə davam etdi.

Qoca alaçığa tərəf baxıb səslədi:

– Ruqiyyə!..

Hürkmüş ahu kimi alaçıqdan 16-17 yaşlı, ucaboylu, gözəl qamətli bir qız sıçrayıb çıxdı: qolunda, boğazında, belində, ətəklərində olan gümüş bəzəklərini cınqıldada-cınqıldada, qırmızı və sarı qanovuzdan paltarını xışıldada-xışıldada boğanaq kimi babasına tərəf gəldi. İki dəfə mənə tərəf baxdı...

[1] Alaçığın aşağı hissəsini əhatə edən nazik qarğıdan toxunmuş çəpər
[2] Təəccüblü
[3] Üzünü

Gözlərinə dan ulduzu desəm, böyük bir xəta edərəm. Ulduz bir qərar və bir hal üzrə durur və parlamaqdadır, amma bu gözlər! Mənim üzərimdə atəş zərrələri saçan, canıma qayğı salan gözlər min növ hal ilə parıldayırdı. Qəlbi nə desə, könlündən nə keçsə, fikir xəyaldan və xəyal fikirdən nə sorsa, gözlərində o dəxi zahir olurdu.

Qara kirpiklər sayə saldığına gözlərinin işığı dəxi də artırdı. Barmaqları dolu üzük idi. Hər biləyində bir cift bilərzik, başında rəngbərəng iki ipək dəsmal var idi. Babası dedi:

– Qızım! Qonağımıza çörək qoy, yol adamıdır, ac olar!

Qız dabanı üstündə dönüb bir-iki dəqiqənin içində çörək, pendir və təzə yağ gətirib qabağıma qoydu. Bizim gözlərimiz bir-birinə rast gəldi. Ruqiyyə lalə kimi qızardı...

Qoca kişi məndən sordu:

– Oğlum, hərçənd qonaqdan sormazlar haralıdır və haraya gedəcəkdir. Allah özü bilir ki, qonağa istər şah, istər gəda olsun, mən daralmamışam və mənim səndən soruşmağımı Allah günah dəftərinə yazmaz... İndi söylə mənə, oğlum, sən haralısan? Haradan gəlib, haraya gedirsən?

Dedim:

– Səhradan dağlara, meşələrə gəlmişdim. İndi də dağlardan və meşələrdən səhralara gedirəm.

Qoca kişi əvvəlkindən indi diqqət ilə mənə baxıb məndən xoflanan kimi oldu, dedi:

– Oğlum, sən pərdəli danışdın, sözlərini anlamadım, nə demək istəyirsən?

Dedim:

– Pərdəli demədim, dayı... Öylə isə deyim: haradan gəlib hara getməm məlum deyil, əvvəl mənə rast gələn yol haraya aparsa, mən də oraya gedirəm, səmt və soraq gözləmirəm, dağ gəldi dağa, aran gəldi arana gedirəm...

– Bir yerdə qərar tuta bilmirsənmi?

– Tutaram, amma... qoymurlar... Yer ilə göy arasındakı dünyaya gəlməmişəm! Vətənim var idi, nə etməli, didərgin saldılar, mən də onu unutdum... Məni nahaq yerə dolaşdırdılar, durmadım, itkin düşdüm...

Baxdım gördüm, qoca kişi məndən ehtiyatlanıbdır.

Dedim:



– Dayı, səni and verirəm bizi yoxdan var edənə! Məndən qısqanma, mən çörəyi dizi üstə olan nəməkbəharam adamlardan deyiləm, xəta məni çöllərə və qapılara salıbdır, məndən qorxub hürkməyəsən.

Dedi:

– Oğlum, mən də qoca adamam, dünya görüb təcrübə qazanmışam. Halına baxarsan, fəna adama bənzəyirsən, amma sir-sifətindən adamlıq nişanı yağır və adamın da meyli uçub sənə qonur. Belə saya kimi dolanmaqdan usanmadınmı?

– Usanmışam, dayı! Nə etməli?

– Bir yerdə qal, işlə məşğul ol, dünya var olmasını qanarsan...

– Ver iş, əylə məni dayı... Mən görürəm sənə adam lazımdır, adam da mən, qorxma! Axırda görərsən oğuldan da sənə artıq olaram...

– Oğlum, xasiyyətinə bələd olmadığıma təklifini qəbul edə bilmirəm. Qəlbim bir yandan sənə meyil edirsə, o biri tərəfdən səksənir.

İndiyə qədər dinməz oturmuş qoca qarı birdən dindi:

– Yox, balam! Biz səni saxlaya bilmərik. Kişi qoca, mən qoca. Öylə yetişmiş oğlumuz yox, gedək səni hansı kənddə, hansı şəhərdə gəzək?

Dedim:

– Ana, mən sənə nə deyim? Ürəyim boğça deyil ki, açıb içində nə var isə – yaxşı və yaxud yaman göstərim! Burada məni tanıyan yox, sizin də mənə inanmamağa ixtiyarınız var. Mən nə deyim?

Bu səfər qoca səsləndi:

– Yox, arvad, sən səhv söyləmə, bu adam haram adama bənzəməyir. Məndən olsa qalsın, bizə bir adam lazımdır. Yaxşı olar, həmişə qalar, pis olar, öz bəxtindən küsər.

Bəxtim oyandı, razı oldular, mən də qaldım. Kim ilə qaldım?

Ruqiyyə məndən qaçaraq dururdu, amma qəlbdən qəlbə yol var. Nədənsə yaxın-uzaq Ruqiyyə mənə vasil olmasını könlüm mənə anlatmışdı, qəlbim duymuşdu, könlüm duyan olacağını mən özüm guya bilirdim. Qaldım... Gecələr, bu dilrübanın keşikçisi, gündüzlər qulu oldum. – Qumru kimi səsini, bülbül kimi mahnısını, tifil kimi gülüşünü, nərgiz kimi baxışını, maral yerişini, yürüşünü görmək, eşitmək, pünhanı fikrini duymaq, əmələ gətirmək, sayə kimi dalınca dolaşmaq mən bədbəxtə qismət oldu.

## V

Qərəz, qoca kişi arvadına dedi:

– Arvad, sabah mənim paltarımdan buna ver geyinsin. İndi oğlum, yorulmuş olarsan, yıxıl yat. Ruqiyyə! Ruqiyyə! A qızım, hardasan? Arvad, dur palazdan-pulazdan nəyin varsa, ver... Oğlum, ismin nədir?

– Əhməddir, – dedim.

– Əhməd yatsın, görürəm yatmaq istəyir.

Qoca arvad bir kilim, bir keybənd gətirdi.

Bəli, qaldım, amma axırda peşman oldum.

Keybəndi qoydum başımın altıma, kilimi də çəkdim üstümə. Qoca kişi ilə arvad da alaçığa getdilər. Qəlbimdə ağır-ağır dərdlərim, başımda dolaşıq fikirlərim, xəyalım hərc-mərc, gözlərim ulduzlarda, bir müddət yata bilmədim, xatirim qayət sınıq və pərişan idi. Göydə ulduzlar sayrışırdılar. Ulduzlar ilə söhbət edib, dağdan əsən yellərə dərdlərimi verib başımdan, qəlbimdən sovurmaq istəyirdim. Ağac yarpaqlarının xışıldamasına, meşənin küncündə cəh-cəh ilə oxuyan bülbüllərə qulaq verirdim... Ocağın alovu sönüb tamam olurdu. Qıraqlardakı atəşləri kül yavaş-yavaş cavanlığı qocalıq bürüyən kimi bürüyürdü. Malların gövşəyi, atların nəriltisi, gah-gah da itlərin mırıltısı qulağıma gəlirdi.

Paltar xışıltısını eşidərək ürəyim qopdu. Ruqiyyə gəlib bir az ocağın qırağında oturub könlünü yəqin, öz məşuqəsinə verdi. Ürəyim qəfəsdəki quş kimi çapaladı. Ruqiyyə başındakı dəsmalların uclarını açıb gərdəninə atdı.

Burada dərvişin səsi titrədi, boğuldu. Guya, artıq danışmağa taqəti olmadı. Dayandı, başını buladı, köksünü ötürdü. Gözləri qupquru idi. Əsla yaşarmamışdı... Böylə quru gözlərdən yaş qırağa vurmaz. Su yerin təkinə axıb, sonra buxara dönüb, gurultu ilə yeri dağıdıb asimana çıxan kimi, böylə quru gözlərdən yaş könülə axıb, adamın dumanını odsuz və ocaqsız ərşə bülənd edir. Dışarı çıxan axar yaş dərdi, qəmi, qüssəni də özü ilə bərabər candan çıxarır. İnsanı zəhmətdən bir müddət xilas edir, təsəlli olur. Amma ürəyə axan yaş cana atəş salıb, yaxıb-yandırır.

Dərviş bir az sakit olub, yenə başladı:

– Ruqiyyə yaralı ahu kimi birdən yerindən sıçradı, ayaq üstə durdu.



Ürəyim tutulmuş quş kimi vururdu... Ruqiyyə alaçığa getdi... Canıma atəş düşdü, ürəyim köksümü dəlib çıxmağa hazır idi, başı kəsik toyuq kimi yerimdə part-part partladım... Gecə yarıdan keçdi, gözlərimə yuxu gəlmədi, kilimi üstümdən atdım... Bilmirdim, axırda necə yatdım.

Bir vaxt qoca kişinin səsini eşitdim, gözlərimi açdım: quşlar oyanıb oxuyurdular, dan yeri Ruqiyyənin yanağı kimi şəfəqlənmişdi. Mən də oyandım, ocağı çatdım, göyə qığılcım ata-ata ocaq gümrah yanmağa başladı. Sonra arxacdan malları yemlədim. Dana və buzovları mıxlarından açıb o biri tərəfə otlamağa yellədim. Gün çırtıb çıxdı: Ruqiyyə də çırpınıb alaçıqdan çıxdı və bulağa suya getdi. Əl və üzünü yumuş qızılgül kimi təzə və tər su güyümü çiynində gəldi. Qoca kişi məndən sordu:

– Oğlum, mal, qoyun sağmaq əlindən gəlirmi?

– Çox yaxşı bacarıram, dayı!

– Öylə isə, Ruqiyyə də sənə kömək etsin, tək mal sağmaq çətindir.

Nə qədər şad oldum! Ruqiyyənin mənə yar olması ağlıma sığmazdı! Nə isə, könül dediyin bağsız bir quşdur, kefi haraya istər qonar. İstər qızılgül, istər isə qaramıx budağı olsun...

## VI

Ruqiyyə inəkləri eydirirdi, mən də sağırdım. Ruqiyyə mənə:

– Sən nə tez sağırsan, Əhməd! Mən eydirməmiş sən sağıb qurtarırsan.

Ruqiyyə adımı çəkdi, səsini eşitdim, qanım oda dönüb axdı, başımdan alov qalxdığını duydum. Cavab verdim:

– Nabələd deyiləm, Ruqiyyə!

Mən də bunun adını ürəyimdə yox, dilimdə zikr etdim. "Ruqiyyə" deməm bir ayrı səs ilə olduğunu, əhval-pünhanım Ruqiyyənin məhəbbət tellərinə toxunduğunu qandım, dedim:

– Sən oynamaqdan gələnə qədər yata bilmədim.

– Əlbət, çox yorğun imişsən...

Nə isə südü sağıb ocağın qırağına apardım. Tez sağıb gəlməyimdən qoca arvad xoflandı və dedi:

– Ruqiyyə, bu tezliklə sağılan mal yarı süd verər. Əlüstü bulaqdan su dolduran kimi oldu.

Ruqiyyə cavab verənə kimi qarı qazana baxıb tez mənim üzümə baxdı.

Qoca qarı başını bulayıb dinməz alaçığa getdi. Ruqiyyə üzümə baxıb qımışdı; üzərimə sabah günəşi doğan kimi oldu. Gül qönçəsində şəbnəm işıldayan kimi, dodaqları arasında dişləri almaz kimi parıldadı. Bu halda qoca kişi gülə-gülə:

– "Mən sənə demədimmi ki, Əhməd qoçaq oğlana bənzəyir". Doğrudan da, arvadın saçı uzun, ağlı gödək olur, – deyərək alaçıqdan çıxıb ocağın qırağına gəldi.

– Əhməd, mənim qarım deyir ki, Əhməd bir saatın içində bir bölük inəkləri sağıbdır. Mən də yarım-yarımçıq sağıbdır sandım və darıldım, baxanda mənim özümdən çox sağdığını gördüm, öz-özümə peşman oldum.

– Allah peşman etməsin, atam! – dedim.

İndi söylə görüm, tüfəng atmaq bacarırsanmı?

– Fəmən-yəmən əlimdən gəlir, – cavab verdim.

– And olsun ikimizi yaradana, sən boş adam deyilsən. Ruqiyyə!.. Arvad!.. Bunlar haradadırlar, huy vermirlər?

Qoca kişi özü cilvəli oğlan kimi tərpənib alaçıqdan tüfəngi gətirdi və dedi:

– Al, at, görək necə fəmən-yəmən bilirsən. – Qoca martini (aynalı tüfəng) aldım əlimə, dabanını aşağı basdım, ağzını əjdaha kimi açdı və patronu uddu. Qoca baltanı götürüb uzaqda duran palıd ağaclarının birinin böyründən əl böyüklüyü qədər ağartdı, gəldi, tüfəngi üzümə qaldırdım, ağartı qaravula minər-minməz şeytana əl atdım, səs saldı... tüstü dağıldı. Ağartının ortasında bir qara gördüm, qoca kişi yüyürdü, oradan bağırdı:

– Lap ortasına!..

Qonşulardan da neçə adamlar gəldilər, qoca kişi qayıtdı:

– Lap ortasına! Belə tuşqul atıcı mən görməmişəm, qarovullamağı da çox uzaq çəkmədi, amma yenə düz vurdu, çox hesab ilə vurdu!

Arın yanımda arvad səsi gəldi. Qulaq verdim. Ruqiyyə idi. Qızlar ilə söhbət edirdi. Qonşulardan bir qoca kişi dedi:

– Gülləsi dəyən yerə bir daha başqa güllə yapışdırsa, vurucu olduğunu sübut edər.



Qoca kişi mənə ümid bağlamışdı, dedi:

– Mərcə girərsənmi?

Qonşu cavabında:

– Girərəm, – dedi.

– Bir at! Qoyma, oğlum, at sənindir.

Ruqiyyə dal tərəfimdə mələk-ül-hifz[1] kimi durub vücudu ilə mənə ürək verirdi. Baxdım, üzümə qımışdı. Qoca martin yenə meşəyə gurultu saldı, tüstü dağıldı, gözümüzü oraya zillədik...

"Afərin, afərin!" səsi ağızlardan birdən qopdu. Nöqtə yenə bir idi.

Mən dedim:

– Baxınız, bəlkə, güllə yan ötübdür.

– Doğrudur, – dedilər.

Qoca baltanı götürüb qonşu ilə getdi. Ruqiyyə lap şadlığından az qalırdı ki, ağlasın. Mənim belə deməyim bir az kefini pozdu...

Qoca kişi səsləndi:

– Bir deşikdə, ikisi də bir deşikdə!

Ruqiyyə yenə də gül kimi açılıb güldü.

Mənim adım düşdü dillərə. Oğlanlar, qızlar, gəlinlər və qocalar məni gördükdə "gülləni gülləyə yamayan bu hərifdir", – deyib biri-birinə göstərirdilər.

Qoca qarı da isinişdi, məni şirin buyurub sayırdı.

## VII

Qoca kişi ilə arvad axşamlar tez yatırdılar. Ruqiyyə ilə mən ocağı qalayıb gecənin bir müddətinə qədər söhbət edirdik. Mənim nə halda olduğum Ruqiyyəyə məlum deyildi və aləmi-məhəbbətdən buna bir kəlmə də deməzdim. Belə məsum cənnətdəki huri kimi bir zatə məhəbbətdən söz deyib könlünü bulandırmağa cürət etmirdim. Başım bəlalı idi. Bəlalı başıma gələndən söyləyirdim, diqqətlə qulaq asırdı və can yaxan yerində özünü saxlaya bilməyib ağlayırdı.

Ruqiyyə ağlayırdı... Bəli, Ruqiyyə ağlayırdı.

Zalımlar əlində sıxıntımı, namus və qeyrətimin ləkələndiyini, qan ilə onu təmizlədiyimi eşitdikdə, bir neçə dəfə dedi: "Yazıq Əhməd, yazığım necə gəlməsin... axırda ürəyim yandı..."

[1] Burada "insanı qoruyan mələk" mənasında işlənmişdir.

Zindana düşüb ölim, ayaqlarım zəncirdə, qaranlıq, rütubət bir küncdə ac və susuz işlədiyimi eşitdikdə dedi:

– Ciyərim başı yandı, az qaldı ki, ağlayım...

Bu zindandan o biri zindana keçən vaxt yolda gecə vapordan[1] suya düşüb, üzüb çayın kənarına çıxana qədər dalımcan tüfənglər atıb, məni fəna halda yaraladıqlarını, sonra üç gün, üç gecə səhralarda qalıb, ölüm ilə əlləşdiyimi biləndə tab eləməyib "füqəra, zavallı oğlan, məni ağlatdın", – deyib ahəstədən ağlamağa başladı...

– Bizim aramızda belə zülmü özünə iş-peşə edən adam yoxdur, – dedi.

– Ruqiyyə, elə fikir etmə ki, başqa yerdə adamlar zülm, zillətdən qeyri özgə bir şey bilirlər... Siz burada Allahın qoltuğunda, dağların başında hər kəs özünə şad kimi dolandığı halda, orada "varlılıq, yoxsulluq" bir-birinə dolaşaraq əhalinin bir hissəsini edib soltan, o biri hissəsini qul, möhtac... bundan da zülm törəyir. Bu səbəbə adam adamı canavara dönüb yeyir, – dedim.

Ruqiyyə cavab verdi:

– Onu-bunu mən bilmirəm, sizin əhalidən bizim əhali təmiz görünür...

Bir necə gün bundan sonra Ruqiyyə ilə ocağın qırağında söhbətə məşğul idik, birdən Ruqiyyə məndən sordu:

– Əhməd, sən öz vətəninə gedəcəkmisən?

Sözümü deməyə, ürəyimdəkini açmağa yaxşı məqam düşdü, dedim:

– Sənə bağlıdır...

Ruqiyyə təəccüblə dedi:

– Necə mənə bağlıdır? Kef sənindir.

– Xeyr, əzizim, Ruqiyyə, mən sənə bağlıyam. Bu bağı kəssən, gedərəm. Yox daha məni bərk bənd etsən, qalaram.

– Mən anlamayıram nə deyirsən, Əhməd...

– Mən səni çox-çox istəyirəm...

– Mən də səni çox istəyirəm. Nə olsun?

– Mənə yar ol, Ruqiyyə...

Ruqiyyə mətləbi anladı, ətrafa baxdı, bir kəs yox idi. Dan şəfəqi kimi qızardı.

[1] Gəmi



– Böylə sözü qızamı deyərlər? – deyib durdu ki, getsin, mən əlindən tutub əylədim.

– Ruqiyyə, mən deməyirəm ki, ana və babansız mənə yar ol... Bir söylə, gözəlim, baban izn versə, mənə gələrsənmi?

Ruqiyyə gözlərini yerə dikib xeyli müddət cavab vermədi, axırda iki gül dodaqlarının arasından bu kəlmə çıxdı:

– Babam verirsə, mən...

Ruqiyyənin yarpaq kimi titrək əlindən mənim əlimə bir ataş və yaxud göydə oynar şümşada bənzər bir şey keçib varımı yandıra-yandıra ürəyimdə yanan alova qarışdı. Ruqiyyə əlini əlimdən üzüb alaçığa qaçdı. Gözüyaşlı, ciyəri atəşli ocağın qırağında qaldım. Bir azdan kişinin gülüşünü eşitdim. Qulaq verdim. Qoca kişi: "Allah belə yazıbsa, mən nə deyim", – dedi.

Görünür, Ruqiyyə əhvalatı atasına deyibdir, şadlığımdan az qaldı ürəyim partlasın. Qoca kişi çıxdı:

– Oğlum! Ruqiyyəyə "mənə gəl" demisən, onun da sənə meyli var. Mənim də sözüm yoxdur. Təəccüb qalmadınmı? Sizlərdə qərib bir adama qız verməzdilər. Amma bizlərdə görürsən, verirlər. Bizim üçün şah və gəda təfavütü yoxdur. Bunların mənası nə olduğunu bizlərdə tək-tək bilən var, o da bu axır zaman şəhər ilə bizim aramızda əlaqə düşəndən bəri bizim də aralığımızda adamdan adama təfavüt qoymaq hasil olur... Ruqiyyə sənə gedir, həmişə qalarsan, Ruqiyyə arvadın olar, gedərsən, kağızını verərsən. Biz sənə ixtiyar işlədə bilmərik.

Şadlığımdan gözlərim yaşarıb bir kəlmə söz deməyə qüdrətim çatmadı. Qocanın əlindən öpüb kənarda dayandım. Ömrümün çırağı, canımın dayağı, könlümün sorağı, baxtımın gülüstanı Ruqiyyə idi, Ruqiyyə!..

Məhəbbət coşdu, məni bürüdü, "Ruqiyyə! Ruqiyyə!" dedirtdi. Ömrümün şişəsi Ruqiyyə idi. Ruqiyyə... sınar isə xakistər olaram, fikrimdə idi. Bəli!.. Ömrümün şişəsi sındı. Amma mən...

Qəzanın işi, çərxi-fələk peşəsi! Dünyamız dərə-təpəli, dərin-dərin quyulardır: qanxor, rəhmsiz, ikibaşlı əjdahadır, – deyib bağırırıq. Bağırmağa haqqımız varmı? Mən özüm-özümə etdim, buna qəza nə etsin?

## VIII

Qulaq as, gör, özüm-özümə nə etdim.

Dərviş dayandı, könlü təlatümə gəlmiş dərya kimi daşıb nitqi bağlandı, boğazı boğuldu, nəfəs nəfəsə macal vermirdi, kəsilə-kəsilə zor ilə qəlbindən çıxırdı.

Nökərçəmiz bir cam buğlana-buğlana bişmiş süd gətirdi, başladım qaşıq ilə içməyə. Dərviş handan-hana özünə gəldi, bir udum çay aldı, boğazını yaşladı, yenə də danışmağa başladı:

– Bilirsən canımda nə yanğın var? Ruqiyyə məni, mən Ruqiyyəni gündən-günə artıq bir-birimizi sevirdik. Məhəbbət gülü könül bağında dərin kök atdı, nə mən, nə də Ruqiyyə buna mane olmadıq. Zəhmətimiz əfvayi getmədi. Dilədiyimiz arzuya nail olduq. Bir gün Ruqiyyə mənə birdən-birə dedi:

– Babam sənə söylədi razıdır, məni al, mən sənə gedirəm.

Mən mat-məbhut qaldım. Bilmədim röyamda bunu görürəm, yaxud zahirdə qulağım səsə düşdü? Ətrafa boylandım. Dünyanın üzərinə südrəngli ağ pərdə çəkilmişdi. Aya baxdım. Ay gülümsünürdü. Ulduzlara baxdım, yerlərində oynaşırdılar. Ocağa baxdım, qəhqəhəli gülürdü, alovumu oynadırdı. Meşə, gecə. Sirləri örtən, günah işi basdırıb dəfn edən gecə birdən-birə qulağıma pıçıldadı: "Durma, hərif, məhəbbət bazarı açılıbdır, bəxtin yuxudan oyanıbdır, tez xiridar ol."

Ruqiyyənin üzünə baxdım. Yanaqları rəng verib rəng alırdı. Köksü yuxarı qalxıb aşağı enirdi, bədəni əsim-əsim əsirdi.

"Səni aldım, yarın oldum" – qışqıraraq ağuşumu açdım. Ruqiyyə ilan kimi qolumun arasından züyüldəyib çıxdı və ilan kimi ayaq üstə durdusa da, ləngərləyib qucağıma yıxıldı. Lakin tez ayağa sıçrayıb durdu və çıxıb getdi.

Özümü itirdim, nə etməliyəm bilmədim, əhvalım təğyirləşdi, huşum və bədənim ləmsləşdi, pozğunlaşdı, özümü duymaz oldum. "Ruqiyyə!" deyib bağırdım. Şikarını itirmiş səyyad kimi boynuburuq məlul və miskin, ocağın qırağında qaldım...

Ay qara buludun dalına girdi, yenə qara pərdə çəkildi, ocağın alovu söndü, meşədə xışıltı artdı, quşlar sakit oldular.

Bir zaman eşitdim:

– Əhməd, balam, üstüaçıq niyə yatıbsan, soyuq dəyər!



Bu, qoca kişi idi, durdum. Dan yerinə şəfəq düşmüşdü, malları yellədim, gün çıxar-çıxmaz evə gəldim. Qoca kişi ilə qoca arvad ocağın qırağında oturmuşdular. Kefləri yox idi, nə var idisə, ürəyimə qan damdı, qoca arvad mənə dedi:

– Balam, Ruqiyyə naxoşlamış, güyümü apar bulaqdan su gətir!

Ruqiyyə günortaya yaxın durdu, amma kefi yox idi.

Üzünə baxdım, üzümə baxmayırdı. Üç gün kefsiz dolandı. Gecələr oynamağa gedirdi. Amma oynamazdı, gülməzdi, köksünü ötürürdü. Yoldaşı Ayişənin "Ruqiyyə, niyə kefin yoxdur?" – sualına "Sonra sənə söylərəm", – cavab verirdi. Ruqiyyənin belə süst halı qarını qorxudurdu. Ruqiyyəyə cin dəymiş hesab edirdi. Evdə davam edən belə bir hala tab eləməyib, bir sabahı mal arxacının qulağında fikrimə nə gəldisə, birdən-birə qoca kişiyə dedim:

– Dayı, mənə rüsxət ver, mən gedim, – və özüm də təəccüb etdim. Amma söz ağzımdan çıxmışdı. Fəqir kişi lap mat qaldı:

– Necə, oğlum? Burda məgər... Mən anlamayıram.

– Yox, dayı, sizdən mən çox razıyam. Atadan, anadan görmədiyim hörməti, məhəbbəti mən sizdən gördüm.

– Özgə nə səbəb var isə söylə!

– Səbəbi özünüzə məlumdur.

– Məndən aşan iş isə, oğlum, qət-ümid olub, bizi atıb getmə.

– Bəxtimə ümidim yoxdur, dayı. Bəxt dediyin kəsilməmiş, zahiri gözəl bir almadır, birdən çürük çıxdı. Onda sən nə edəsən, mən nə edim?

– Burdan getmək sənə bəxt açarı isə mən nə deyə bilərəm, oğlum, ixtiyarın var.

Evə gəldik. Ruqiyyə də evdə idi. Qoca kişi arvadına dedi:

– Əhməd gedir.

– Hara gedir?

– Vətəninə gedir.

– Hara gedir?

– Bilmirəm. Bizi qoyub gedir. Hara gedir, özü bilir, Allah yaxşı yol versin!

Ruqiyyə dəli kimi üzümə baxdı. Nərgiz gözləri yaş ilə dolub bəlgələndi, rəngi-ruhu qaçdı. Canımda bir uçunma peyda oldu, dişlərim şaqqıldadı. Az qaldı canıma yanğı düşsün.

Qoca arvad dedi:

– Qoyma getsin, üzümüz-gözümüz öyrənibdir. Oğul gözündə görmüşük, biz ki ona bir yamanlıq etməmişik, niyə gedir?

– Kefi elə istəyir, mən nə eləyim?

Mən istədim ki, "salamat qalasınız" deyim, yaş məni boğdu, deyə bilmədim, ağladım. Qoca kişi də, qarı da ağladılar. Ruqiyyə durub alaçığa qaçdı, orada şarpadan yıxıldı. Qoca kişi də, qarı da oraya yüyürdülər. Mən də özümü oraya saldım... Ruqiyyə yaralı ahu kimi özündən getmişdi.

Ruqiyyə özündən getdi...

Qoca qarı özünü yola-yola mənim qabağımda dayanıb dirənmiş, lap gözümün içinə baxdı və sonra dedi:

– Səs ver, səs ver, cana gəlsin...

Özümə gəldim, toxtaqlanıb özümü Ruqiyyənin üstünə saldım, əlimi aynalıya uzadıb dedim:

– Dayı, dur məni öldür, dur məni buna qurban elə, mənim qanım, canım Ruqiyyənin yolunda qurbandır!

Qoca kişi geriyə sərpilib əqli başından sıçramış, təngildəyə-təngildəyə dala duraraq əlini belindəki əyri xəncərə uzatdı.

– Əlini saxlama dayı, öldür məni...

– Yavaş! Yavaş! Ya yuxudayam, ya divanəyəm. Yavaş! Yavaş!

– Ya öldür məni, yaxud Ruqiyyəni mənə ver. Bu ikisindən biri olmasa, dünya mənə haramdır!

Qoca kişi qeyzə gəldi:

– Nəməkbəhəram, şeytan, dala çəkil!

Xəncəri çıxardı.

– Ruqiyyə mənə qismət deyil, öldür...

Başımı Ruqiyyənin döşünə qoyub ölümümü gözümün altına gətirdim, qoca xəncəri endirən zaman qarı qolundan yapışdı:

– Qoca kafir, saqqalını qana bulamaqda nə var?

Ruqiyyənin bəxtinə çıxıbdır, ver getsin.

– Qoca şeytan, dala dur, səni öldürərəm!

– Öldür, amma özün fikir elə, bir həftə bundan qabaq Ruqiyyəni Əhmədə verək deyən sən deyildinmi? Əhməd qızını intihasız, hədsiz-hesabsız sevibdir. Sidqi dildən gələn məhəbbət ağaclar dibində, kol dalında burma qaranlığından izah olmayıb, igid oğlu kimi meydana çıxdı. Əhməd Ruqiyyənin kişisidir.



Qoca kişi əllərini saldı, xəncər əlindən yerə düşdü. Ruqiyyəni özünə gətirdikdən sonra bizi qucuyub "Allah sizə yar olsun, Allah sizə pənah olsun", – deyib bizimlə bərabər ağladı... Ruqiyyə ağladı... Mən ağladım... Dördümüz də ağladıq. Bu ağlamaq ayrı ağlamaq idi... Belə ağladıqca yenə ağlamaq istəyirsən, yaşın hər bir qətrəsi sənə təsəlli verir. Yağış nə qədər gurultulu yağsa, sonra hava o qədər xoş və aydın olur...

## IX

Dərviş bir stəkan da çay istədi və söyləməyə davam etdi. Dünyanın yolları çırpılı, işdəkləri çəlpə[1] şəkillidir. Düz yol ilə getdiyin yerdə dünya ağzını yoxuşa salsa yaxşıdır. İnsanın peşəsi dünyanın yoxuşlarını dırmanmaqdır. Böylə zəhmətə dayanmaq mümkündür. Yox, adamı gətirib qayaya dirəyir. Burada nə etməli? Nə çarə var? Gərək qayaya da dırmaşasan, daş altında yatmaq ölülərə yaraşar. "Bir canım var, ruhum var, sahibi ixtiyaram", deyən kəs daş dibində oturub, daş başına gözünü dirəməz. Ağıl azır, göz kor olur, daş qopub başımıza düşür. "Qəzadandır, olacağa çarə yoxdur" və yaxud "Çıxan qan damarda durmaz", deyib özümüzü təskin edirik. Mən də öz əlim ilə daşı öz başıma salıb, "qəzanın təqdiri imiş", xalqlar kimi deyib, uzun-uzun müddət özümü təskin edirdim. Sonra ağlım tarazüləndikcə ağlın çaşması qəza imiş. Mənim də ağlım çaşdı, olmazmı olar, oları olmaz tanıdım, gözümə dəyən tərsinə göründü. Arzusunu çəkdiyim zad məni doldurdu, könlüm usandı, özgə bir ərməğan axtarmaq xəyalından nə xilas və nə də doya bildim.

Vətən... Əvvəl dünyanı gördüyüm yer, əvvəl canım, ruhum və bədənim gün-gündən açılıb, düzəlib, doğrulub, var-yoxu, dünyanın dadını və ləzzətini duyduğum, növbənöv duyğuları və rəngbərəng sifətləri hifz edib, zehnim aləmimdə və işıqlı dünyada kara mindirdiyim məkan, Ruqiyyənin mahi-liqasına, günün şəfəqinə boyanmış al-qırmızı içərimə çəkdi. Ruqiyyə əvəzində duman arasında sayə gördüm... Məni qınamağa ixtiyarın var... Hərçənd batini axtarsan, insanın hissiyyat tərəfinə nəzər atsan, məni qınamağı özünə bilmərrə haqq-hesab eləməzsən... Nə deməkdir, vətənim yadıma düşübdür... Çox da vətənim mənə zillət verdi; zəhmət çəkdirdi, axırda didərgin

[1] Çarpaz

saldı, çöllərə buraxdı, qürbət qapısını üzərimə açıb məni qərib etdi! Nə etməli? Balası yolunda canını oda yaxsa, "uf" deməz ana, acığı tutanda, canı-ciyəri, ruhu olan, qanından olan, cismindən hasil olan, fərzəndini döyür, yenə sonra ağuşuna çəkir... Vətənim anamdır, incitdisə, indi ağuşunu açıb "gəl" deyir. Mən getməzdim, amma qan çəkirdi, qan aparırdı, ruh parübal açmışdı, könül cuşa gəlmişdi, qəlbim "vətən, vətən" vururdu.

...Getdikcə qəm qəlbimə uğradı. Ruqiyyədən gizlədim, istədim vətən məhəbbətini Ruqiyyə məhəbbətində qərq edim, bacarmadım. Vətən məhəbbətini Ruqiyyə eşqi-atəşində yandırmaq istədim, qəsdim yerimədi, Ruqiyyənin zülfləri ilə dolaşmadı, tora düşmədi.

Hər növ xilas olmaq fikrinə düşmüşsə, daha da artacaq. Daha da hirslə vətən məni özünə tərəf çəkirdi... Fikrim-zikrim Ruqiyyədən vətənə getdi... Mən də məğlub oldum. Vətən məhəbbəti aşıb-coşub ləpəsi məni arxasına aldı. Qəm və qüssə canıma düşdü, Ruqiyyə agah oldu.

## X

Bir dəfə dedi:

– Nədir dərdin, Əhməd? Dərdinə məni də şərik et.

Əvvəl bir istədim deyəm ki, bir dərdim yoxdur, amma aldatmağı rəva görmədim və dedim:

– Dərdim böyükdür, sən çəkə bilməzsən.

Cavabında:

– Səninlə bərabər birə on da olsa, taqətim var, – dedi.

– Böylə dərd üçün yaranmayıbsan, əzizim, sən dərd bilməz idin, mən səni dərd bilən etdim. Bu özü böyük xətadır, – dedim.

– Yox, özgə bir dərdin olsa idi, deyərdin... Sən məni dəxi sevmirsən, – deyib əlləri ilə üzünü tutub ağladı. Barmaqlarının arasından mərmər arasından su tökülən kimi yaş axdı. Ürək verib, Ruqiyyəni kiritdim...

– Ruqiyyə, mənim vətənim yadıma düşübdür, divanə olmuşam, amma sən məni zəncir ilə bağlanmış kimi bağlayıbsan, – dedim.

– Vətən... orada kimin var?

– Heç kəsim, Ruqiyyə! Bunların hamısının əvəzində Allah səni yetirdi və mən də "bəsti" deyib, ona həmdü səna dedim...

– Bəs belə olanda səni oraya nə çəkir? – deyə sordu.



– Havası, suyu, dağları, daşları... torpağı... ömrümün ibtidası, nə bilim səbəbi nədir, anlamıram... Mən gedəcəyəm, Ruqiyyə, – dedim.

– Bəs mən nə qayırım?

– Sən də gedək!

– Mən də gedim? Necə ola bilər?

– Gördün, Ruqiyyə? Vətənindən, bu dağlardan, bu daşlardan ayrı düşmək fikri necə səni yaman xofa saldı...

– Atam, anam var, – dedi.

– Sən elə xəyal edirsən ki, mən buranı qətiyyən tərk edirəm? Nahaq! Buranı mən tərk edə bilərəmmi? Özün fikir elə!

– Burada nəyin var? Var-yoxun bir mənəm, məndən də usanıbsan, məhəbbət atəşi sönübdür, – dedi.

– Ruqiyyə! Ruqiyyə! Böylə demə, demə. Burada, Ruqiyyə, canımın yarısı var! Canımın bir hissəsi vətənimdə hasil olubsa, o biri ləzzətli, dadlı hissəsi bu dağların aralarında mey verib, kök atıbdır! Bunu bil ki, yarı hissəm buraya, yarı hissəm oraya bağlıdır. – Ciyərimdən bağlıyam, qoparmaq istərsəm, ömrüm bitər, həyatım uçar, viran olar. Bir tərəfdə vətən isə, o biri tərəfdə mənim dayanacağım: ömrümün dirəyi, həyatımın işığı, günəşi sənsən, Ruqiyyə... Gedək, üç, dörd aya səni buraya gətirərəm. Gəlməz isəm də, bu yerlər, bu dağlar məni çəkib gətirəcəkdir. Çünki səni mən burada tapmışam. Mən sənə bağlı, sən də bura bağlı. Sən mənə bağlı, mən də oraya bağlı.

Vətən məni çəkəndə, sən gedəsən, səni çəkəndə, mən gedəm. Sən olan tərəzi ağırdır... Mənimlə gedərsənmi, gözəl yarım?

Dodaqları açılar-açılmaz sabah yeli dəymiş gül yarpağı kimi tərpəndi.

– Gedərəm, – dedi.

– Qalma, yarım, qalma, qalsan, bivəfa yar deyərəm, – deyə ürək verdim.

– Qala bilmərəm, qala bilmərəm, qalsam səndən ayrı olaram, – deyib Ruqiyyə gülümsündü, sonra boynumdan qucaqlayıb zar-zar ağladı.

O yaşlar indi də o yan-bu yana axıb ürəyimi yandırır!

Yaşın içərisində hıçqıra-hıçqıra dedi:

– Apar, haraya aparırsan apar! Amma məni özündən cida salma, ayrılıq oduna dözə bilmərəm.

– Həvva anamız bilsəydi ki, nəvəsi mənim əlimdə zəlil və miskin, ixtiyarıma bağlı, əmrimə müti, hökmüm yanında müqəddəs olacaqdır, yəqin ki, babamız Adəmin başına elə bir qəziyyələr gətirərdi ki, arvadlar həmişə bizim üstümüzdə sahibi-ixtiyar olardılar...

Ruqiyyə məlul və məhzun evə getdi. Bunun pərişan halını anası görüb, xəbər aldısa, bir şey duya bilmədi. Mən də məqam axtarırdım ki, fikrimdə olanı bir yol ilə qoca kişiyə deyəm... Bir neçə məqamı mən özüm qəsd ilə ötürdüm. Bu binəvaların övlad sarıdan tək bir qızları var idi... Bunu da mən əllərindən alıb, aparsam, bunlar dərdü qəmdən və qüssədən təklikdən məhv olarlar deyirdim. Ömrümü Ruqiyyənin ömrünə bağlayaraq dünyanın var-yoxunu duyduğum yurddan daşınıb, meşənin başındakı yurdda dəyələri düzmüşdük.

Vətənin "gəl, gəl" sədası qulaqlarımda zəng kimi çalınırdı, "gedimmi, getməyimmi?" sualından daşınıb "gedirəm" qət etmişdim.

İşin gedişi qoca kişi ilə arvadına qəsdimi söyləmək ili... Bu da çox çəkmədi.

Sabah idi, gün çıxıb xeyli qalxmışdı, mallar yavaş-yavaş sağına gəlirdilər. Ruqiyyə ilə mən də gələn inəkləri sağırdıq. Ruqiyyə özünün inəklərindən Qaragöz adlı inəyi eydirdi. Buzovu onun qabaq ayaqlarına bağladı, özü də inəyin sağrısına dirsəkləndi, mən domuşub sağmağa başladım.

– Bu inəyi çox artıq həvəslə sağıram, – dedim.

– Niyə? Mənimdirmi, deyin?

– Həm sənindir və həm də yadındadırmı, bu inəyi sağarkən bir-birimizin adını çəkdik?

– Yadımdadır!

Ruqiyyənin gözləri süzüldü, özü də xəfif köksünü ötürdü. Badya doldu. Köpüyü aşıb yerə tökülə-tökülə südü qazana tökdüm. İnəyi sağarkən dedim:

– Ruqiyyə, səndə eşq, məhəbbət, inəyində süd həddən ziyadədir. Sənin kimi arvadı, Qaragöz inəyi kimi inəyi olana bəxtəvər demək həmişə yaraşar.

Ruqiyyə cavabında bunu söylədi:

– Bir aşıq bizim yurdumuza gəlib çıxmışdı. Kişilər getməyə qoymadılar. Gecə qaldı, mərəkə yığıldı, bu da aşıq Qəribdən, Koroğludan, Kərəm ilə Əslidən danışıb türkü söylədi. Hərdənbir aşıq söyləyirdi: "Məhəbbətin toru var, düşən çıxmaz". O zaman mən balaca



idim, məhəbbətdən, yardan, yoldaşdan xəbərim yox idi. Bu sözlərin məzmununu qanmadım, amma nə isə, bu ana qədər fikrimdə davam edir. Səni sevdikdə məhəbbət nə imiş qandım və toru olduğuna da inandım. Amma bu axır zaman məhəbbətin toru yox imiş. Var isə davamsızdır...

Artıq deyə bilmədi. Səsi boğuldu, amma ağlamağını mənə bildirməmək istədi. Ruqiyyənin nə demək istədiyini qandım.

– Ruqiyyə, and olsun o günün şöləsinə! Bu malın bərəkətinə! And olsun o gözlərindən axan yaşlara!.. Ruqiyyə, Ruqiyyə, məni yandırma... canımdan əl çəkərəm, səndən əl çəkmərəm. Sən mənim ruhumsan! Kim ruhuna qəsd eylər? Səninlə gedib, səninlə gələcəyəm.

– Onda barı tez gedək ki, tez də gələk, – dedi.

– Bu gün qoca dayıma deyərəm, – dedim.

Buna Ruqiyyə cavab vermədi. Atasından, anasından ayrılmaq Ruqiyyəyə ölümə bərabər idi. Məndən ötrü böylə bir artıq zillətə Ruqiyyə razı oldu.

İnəkləri sağıb üç qulplu qazanı doldurduq, hərəmiz bir qulpundan yapışıb, qazanları ocağın qırağına gətirdik. Qoca arvad ilə qoca kişi bizə baxıb fərəhlənirdilər.

– Qoçaq qızım, ərindən cansız deyilsən!

Həqiqətdə Ruqiyyədə bir pəhləvan qüvvəti var idi. Bir dəfə meşədən bir maral vurmuşdum, yekə buğa kimi bir şey idi. Ortasından şaqqaladım, yarısını Ruqiyyə, yarısını da mən dalımıza alıb evə gətirdik. Söyləyirdilər ki, Ruqiyyə toyda özü yaşında canlı dayısı oğlunu yıxmış. Bir dəfə xam at tuturduq, at Ruqiyyənin yanından keçən zaman Ruqiyyənin əlindən kəmənd çıxdı. Düyün atın boğazında irəlidən hazır idi. At nə ki gücü var idi dartındı. Ruqiyyə ayaqlarını yerə dirədi, atı geri çəkdi, at dal ayaqları üstündə göyə qalxdı, ona qədər özümü yetirib atı tutdum. Ruqiyyə belə Ruqiyyə idi.

Qərəz, qoca arvad qızının üzünə baxdı, tez halı pərişan oldu. Ruqiyyənin kefsiz olduğunu ana gözü seçdi. Sordu və dedi:

– Ruqiyyə, qızım, səndə nə var, kefin yoxdur?

Onun əvəzində qoca kişi:

– Nə var, əlbət, əri ilə dalaşıbdır, – dedi.

– Yox, əri ilə dalaşana oxşamır.

– Bir şey yoxdur, ana can, – dedi.

– Allah elə eləsin, balacığım!..

Ruqiyyə alaçığa getdi, ocağı qalayıb süd qazanlarını qoca kişi ilə ocağa asdıq, üçümüz də əyləşdik. Qoca arvad yenə dedi:

– Əhməd də kefsizdir, üzünə baxanda ürəyimə qan damdı. Bunlarda nə var isə, xeyir işə, xeyir xəbərə bənzəmir.

Mən dedim:

– Hə var, anam? Mən bir vətəni yoxlamaq istəyirəm.

– Bu azından bir ay çəkər, belə uzun ayrılığa necə dözək!

Qoca kişi pozuldu, tükləri qabarıb biz-biz oldu, qaşları sürçüb az qaldı gözlərini örtsün. Arvad heyran-heyran baxırdı, bir xeyli müddətdən sonra dedi:

– Axırı belə olduğunu mən özüm yaxşı bilirdim...

Qoca dillənmədi. Ürəyim vurunurdu, gözlərim qocanın ağzında idi, axırda dedi:

– Get, biz səni güc-bəla ilə saxlaya bilmərik...

– Dayı, mən tək gedə bilmərəm.

– Yoxsa, Ruqiyyəni də aparmaq istəyirsən?

– Bəli!

Kişi qəti surətdə:

– Ola bilməz, baxıb-baxacağımız bir qızdır. Onu da sən apar qürbətə tulla... Yox, oğul, dilim quruyar, buna "hə" deyə bilməz, – dedi.

– Bir aya qədər ikimiz də qayıdıb gələrik.

– Yox, qızımı bir gün də desən gözümdən o yana buraxa bilmərəm. Bizim həyatımız ona bağlıdır, dartıb üzməyə bizdə nə ixtiyar var, nə də güc var!

Qoca qarı tab eləməyib ağladı. Kişi dedi:

– Ağlama, ağlama, Əzrayılın özü Ruqiyyənin canını almağa gəlsə, onun özünü də yaxın qoymaram.

Bu əsnada Ruqiyyə kirpiklərini aşağı salmış, yavaş-yavaş qədəmini ata-ata gəlib dayanaraq:

– Baba, məni öldür, amma Əhməddən cida salma, ayrılığına dözə bilmərəm, – deyib çəkildi.

Qoca arvad kişi ilə acılı ilan kimi dik qalxdılar, qoca arvad bağırmış dedi:

– Allah amandır! Ruqiyyə, belə söz!

Qoca kişi acıqdan əsdi, bir söz deməyə nə qədər qəsd etdisə, nitqi bağlandı. Xeyli vaxtdan sonra özünü yığıb bir dəfə "Ruqiyyə adlı balam yoxdur", – dedi.



Ruqiyyə bunu alaçıqdan eşitdi.

– Allah, hay dur!

Səsi bizim qulağımıza gəldi, qoca qarı balasının imdadına çatmaq qəsdi ilə timsindi. Amma qoca kişi əli ilə işarə etdi, arvad yerində qaldı. Qulağımıza xırıltı gəldi, qoca qarı "biinsaf, balam ölür, mən necə baxmayım", – deyə alaçığa yüyürdü.

Alaçıqda sürüntü bərkidi. Bir də qarı özünü eşiyə saldı.

– Ruqiyyə boğulur! – deyərək bağırdı.

Məndən qabaq qoca kişi özünü yetirdi. Nə var, nə yox bilmədim, ancaq onu gördüm ki, qoca kişi xəncəri çəkdi, qaldırdı ki, endirsin, dal tərəfdən xəncərin tiyəsindən yapışdım, iki-üç dəfə dartındı, tiyəni əlimdən buraxmadım və bağırmış dedim:

– Qoca, nə qayırırsan, əvvəl məni öldür!

– Oğlan, burax, balam ölür! – dedi.

Birdən gördüm Ruqiyyə alaçığın sənəcəsindən çatı ilə asılıbdır. Qoca xəncəri endirdi. Ruqiyyə qucağıma yıxıldı. Bir neçə gün Ruqiyyə özünə gəlmədi. Düşəndə sayıqlayırdı. Can yanğısından atım-atım atılırdı, ovçu əlindən qurtaran maral kimi döyünüb töysünürdü. Gecələr çalım-çalım çalxalanırdı. Qoca arvad lap özünü itirmişdi. Qoca kişinin də özündən xəbəri yox idi. Qulağının dibində top atılsa idi, əsla qırpınmazdı. Mən özüm yuxuda idim, süst idim. Gözlərimiz qupquru qurumuşdu. Can evimiz elə bir mərama düşmüşdü ki, ətrafımızı qaplayan kainatdan bir əsər duymayırdıq. Bu törəmə, hətta qonşuların da hallarını pozub xarab elədi.

Bizə baxaraq heç kəs bir şey deməzdi, hamı məndən üz döndərirdi. Qız və gəlinlər rast gələndə, qorxa-qorxa mənə baxıb tez keçirdilər.

Hamının məndən zənd ilə zəhləsi getmişdi... Deyirdilər, bu hərifdən sakın dolanmaq lazımdır, bundan xəta əskik deyil!

Ruqiyyənin yaxın bacılıqlarından biri olan Ayişə rast gələndə məni dindirmirdi. Bir dəfə mən onu danışdırmaq istədim, olmadı. Bir qoca qarı öz gəlini ilə bulaqda mənə rast gəldi. Gəlin mən tərəfə baxmadı, baxmağı o yana dursun, hələ bədəni irpə getdi, deyəsən, sinəsinə xəncər çaxdılar. Qoca arvad nuru sönmüş gözlərini örtər-örtməz mənə sarı oynadıb dedi:

– Bu adam gələn yollara niyə daşlar döşənmədi?

Mən də eşitdim.

Ruqiyyədən çəkinməsəydilər, dəliqanlı oğlanlar məni tikə-tikə edərdilər. Onlar deyirdilər: "Nə qədər olsa, yenə Ruqiyyənin əridir..." Bundan çox əziyyət çəkirdim, canım qayət sıxılırdı və gah-gah da gözlərimə zinrik çökürdü, başım gicəlib hərlənirdi...

Bu dəliqanlılar məni dərimin üstündə doğrayıb itlərə atsaydılar, baxtımdan çox xoşnud olardım... Hərdənbir elə bir fəna hala uğrayırdım ki, az qalırdı deyim: "Allahını sevən, məndən bir qırıq qurğuşunu əsirgəmə..."

Ruqiyyənin yanında məlul, miskin başına pərvanə kimi dolanırdım...

"Ruqiyyəmi, vətənimi?" sualı ürəyimin tellərindən bir cürə səda ilə qopurdu. "Əlbəttə, vətən" cavabı şiddətlə cismi-canım evində dövran edirdi. Amma "Ruqiyyə" cavabı viranəyə dönmüş könlümün uzaq bir guşəsində zar-zar zarıldayırdı...

Yavaş-yavaş Ruqiyyə özünə gəldi, gözlərini açdı, məni gördü, gözlərini yenə yumdu. Gül kimi solmuş dodaqları tərpəndi, amma söz deməyə qüdrəti olmadı. Bunun sabahkı günü Ruqiyyə yenə gözlərini açdı, məni görcək gözlərindən gülümsündü və zəif səs ilə dedi:

– Mənim arzum ölmək idi, bu da başa gəlmədi. Mən Əzrayıla qismət deyilmişəm.

– Yox, Ruqiyyə, sən tək mənə qismətsən.

– Öylə imiş, yoxsa mən fikir edən kimi olardım.

Çox qismətlərimi qəza mənim əlimdən alıbdır. Və çox gözümü dikdiyim qismətlərdən, murazlardan məni binəsib ediblər. Daha bəsdir, nə xəbərdir? Zillətlər ilə mən muraz bəsləyəcəyəm, arzu gözləyəcəyəm, o da ümidim evini bərbad edəcəkdir? Mənim ömrüm mübarizə meydanıdır. Qəzanın işi-peşəsi mənim ömrümdə cövlan edib, mənim ilə cəng və cidalə çıxıb pişik siçan oynadan kimi oynatmaqdır. Bəsdir, artıq dözməyə məndə nə səbir var, nə də qərar. Durmuşam fələyin qabağında, səni mənə rast gətirdi, istədi sənə göstərib, mənə bir gözəl ümid bağçası bağışlayıb, yenə onu od vurub yandırsın, mənə can ağrısı versin, məni can yanğısına salsın... Fələyin böylə fikri başa gəlmədi, çünki mən də cana doymuşam.

– Səni qəzanın əlindən dartıb aldım, sən oldun mənim. İndi başıma bir ayrı fənd qurur, ayrı dolamalı yollara salır. Mənim bir tərəfimdə vətən, o biri tərəfimdə sən... Ruqiyyə, vətən könlümü... yox cəmi varımı tutubdur... Vətən coşur, daşır, Ruqiyyə! Coşur, yandırır, vətən qanıma vurub, Ruqiyyə, vurub ürəyimə!



Ruqiyyə gözüyumulu idi, nəfəsi tez-tez işləyirdi, sözlərim bir az onu pərişan elədi. Dayandım, gözlədim, Ruqiyyə gözlərini açmadı.

Axşam düşdü, yerə qaranlıq çökdü, qoca kişi ilə qoca qarı namaz qılmağa məşğul olanda, alaçığa girdim. Ruqiyyə sordu:

– Əhməd, sənsənmi?

– Mənəm, – cavab verdim.

– Bu sabah dediyin sözlər məni pərişan elədi. Fəna bir halda olduğunu anladım... Zərər yoxdur, nə etməli? Arvad deyən bitməyibdir, nə deyəsən, razıyam, nə dərəcədə zəhmətlərə buyursan, düçar olmağa hazıram. Bu gündən sonra Ruqiyyə sənə pərvanədir, yandır, yax, qovur, hər nə bəlalar olsa, hər nə xətalar olsa, hər nə əziyyətlər olsa, boynuma alıb, sənin uğrunda durmuşam.

Dərvişin dili dolaşdı, əlilə gözlərini örtdü, əlini gözlərindən çəkməyib dedi:

– Görən ins və cins arasından arvaddan yazıq, hər dürlü dərdlərə, azarlara qarşı bir zəvəyyül həyat varmı?.. Əşhədü billah, əgər var isə... Tez dişarəyə baxdım. Qoca kişi ilə arvad hələ namazdan fariq olmamışdılar.

– Haraya gedirsən?

Qayıtdım. Ruqiyyə oturmuşdu, qara şəvə kimi zülfləri ətrafına tökülmüşdü, yanında əyləşdim.

Dedi:

– Haraya istəyirsən, məni özünlə apar, səndən cida düşməyə məndə hərəkət görmədim, özümü həlak etmək qəsdinə düşdüm, amma bu sabahdan bəridir ki, nə burada qalmaq ilə və nə də özümü vurub öldürmək ilə səndən ayrı düşmək mümkün deyil, anlamışam... Gərək mən sənin yanında olam, hicran atəşinə dözəcək hal məndə yoxdur, apar öldür... Sən öldür.

Ruqiyyə başını çiynimə söykədi... Bir-iki günə özünü lap düzəltdi, durdu. Qoca arvad bir az açıldı, üstünə gün düşmüş kimi oldu. Amma qoca kişi kefsiz idi, qaşqabağı yer ilə gedirdi, rəng-rəmzindən zəhər damırdı.

## XI

Ruqiyyə əvvəl babasına yaxın düşmək bilmədi. Amma sonra yavaş-yavaş onun qulluğunda bulunmaqda oldu. Getdikcə axşamlar hamı ocağın qırağında əyləşib söhbətə məşğul olduq. Doğrudur, əvvəl qoca kişi lap kələcindən qaçaraq dururdu. Ruqiyyənin kefi

açılmağı, keçmişdəki təki gülüşü, oynaqlığı onun üzərinə çəkilmiş qara çadırı rəf etdi, amma arası mən ilə sazlanmadı, bu da məni incidirdi...

Bir gün yenə ocağın qırağında yığılıb oturmuşduq. Nə tövr oldusa, söhbətin bir ucu Ruqiyyənin qərarına gəlib keçdi. Ruqiyyə lap arxayın dedi:

– Babam, Əhmədi tutub sizdən ayrılsam, sizdən keçməyib Əhməddən ayrılsam, necə dözüm, necə dayanım? Özümü həlak etmək istədim, amma əcəl gəlməyibmiş, mən də salamat qaldım.

Qoca kişi gözünün altından qızına diqqət ilə baxırdı. Deyəsən, təzəcə görmüşdü. Amma Ruqiyyə babasının üzünə baxmamağa səy edirdi. Qoca kişi "him", – dedi, Ruqiyyə başladı:

– İndi fikir edib anladım ki, özümü öldürsəm, Əhməddən ayrı düşərəm, qiyamət ayrısı olaram. Özümü həlak etməkdən bilmərrə daşınmışam. Əhməd hayana gedərsə, o yana gedəcəyəm fikrində bərk qərar tutmuşam...

Qoca kişi başını qaldırıb:

– Ruqiyyə! Səni mən tanımaz olmuşam və yaxud sən əvvəlki Ruqiyyə deyilsən! – deyib bağırdı.

Ruqiyyə cavabında:

– Babam, səbəbi nə olduğunu bilmirəm, amma onu yəqin bilirəm ki, Əhməddən ayrılsam, ölümə vasil olacağam.

Qoca kişi bağırmış dedi:

– Öl, ölüm bundan yaxşıdır.

– Baba...

– Kəs! Sən mənim balam deyilsən! Sən bəlasan, bala deyilsən!

– Baba, rəhm et!

– Kimə? Atadan, anadan keçib yol ilə gedənə qoşulub gedən qızamı?

Ruqiyyənin yaş ilə dolu, kövrəlmiş gözləri anasına tərəf baxdı. Bu gözlərin "ana, durma hayıma çat" dediyini qoca qarı anladı.

– Ey, qoca kafir, saqqalın ağarıbdır, amma ağlına heç dən də düşməyibdir. Ruqiyyəni evdə qatıq iyməsinə tay tutmayacaqsan ki... Dəliqanlılardan biri tərlan göyərçini çalan kimi çalıb götürəcəkdir. Ruqiyyə sənin alt çənəni kəsib oturmayacaqdı. Bu zavallı qızın bəxtinə bu zavallı oğlan çıxıbdır. Ver, hər yana istəyir, aparsın. Nə qara tikan olub, bu ikisi bir-birinə meyil salıb sarmaşmaq istəyən güllərin arasında bitibsən?



Qoca kişi dərin fikrə getdi, sonra özünə zor verib dedi:

– Qoy sabah getsinlər.

Qoca kişi durub təngildəyə-təngildəyə alaçığa getdi. Ruqiyyə ağlayırdı, qoca qarı da ağlayırdı. Amma mən... yox. Sabah açıldı, inəklər sağılıb sürüldü, qoca kişi bizim hamımızı alaçığa çağırıb yığdı və məndən sordu:

– Gedirsənmi?

Mən dinənməyib başım ilə işarə elədim. Xeyli müddət heç kəsdən bir səs çıxmadı, atasından anasına, anasından atasına heyran-heyran Ruqiyyə gözlərini dolandırırdı. Anasına baxanda Ruqiyyə aman istəyirdi, amma atasına baxdıqda onun üzündə, gözlərində dəhşət vaqe olduğuna vahimə duyurdu.

Qoca kişi barmağını mənə tərəf uzadıb Ruqiyyəyə dedi:

– Bu hərif ilə gedəcəksənmi?

– Bəli, baba, istəyirəm...

Cavabını Ruqiyyə öylə qəti bir surətdə verdi ki, qoca kişinin əlləri yanına düşdü. Bir dəqiqə keçmədi, bayaqkı aslan kimi tüklərini biz-biz edib məhabətli duran qoca, indi quzuya döndü... Fəqir, miskin, məzlum, can yandıran can yanğısından qoyşurula-qoyşurula gah mənim, gah Ruqiyyənin və gah da qoca arvadın üzünə boylanırdı.

Dinmədim. Gözlərimi yerə dikdim... Qoca kişi öz-özünə yuxuda sayıqlayan kimi deyirdi:

– Tək qaldıq, tək qaldıq. Qaldıq tək... Qəzadan imiş, qismət imiş, belə olacaqmış. Bilsəydim ki, bu tövr olacaqdır, Ruqiyyəyə bunu göstərərdimmi? Qarı, olmaya bu şeytandır, iblisdir! Ruqiyyə belə deyildi, yaxşı qız idi. Qızı olanlar bizə küsənirdilər... Yox, yox böylə olmaz idi. Bu, iblis özüdür. Ruqiyyə Allahın yaxşı bəndəsidir, gəldi, aldatdı... Yox... yox, bu hərif iblisdir, iblisdir, iblisdir!

Qoca qarı qorxmuş mənə tərəf baxdı. Dodaqları dualar zikr edirdi. Qoca əsdi, Ruqiyyə ilə qoca qarı onu tutdular. Özümü qocanın ayağına saldım. Ayaqlarından öpməyə başladım.

## XII

Hamımız, qoca kişi ilə bir yerdə kənddən əlvida edib şəhərimizə varid olduq. Çoxdan tərk etdiyim vətənin havasını ürəyimə çəkib doldurdum, amma vətəndaşlarım mənim gəlməmə açıqqabaq göstərmədilər. Şad olmaqları və məmnuniyyətləri o yana dursun,

bəziləri hətta mənim gəlməyimə təəccüb edirdilər. Bundan mən çox incidim. Öz ürəyimdə dedim: "Gəlmişəm bir, gedərəm iki". Atamdan qalan yarısı uçuq damı tapıb sakit olduq.

İkinci gün Ruqiyyə şəhər dolamasından usandı. Amma məndən gizlədirdi. On gün keçməmiş qoca kişi dedi:

– Böylə yerdə partlaram, mən gedəcəyəm.

Mən dedim:

– Dayı, bir az da qal, şəhər məişətinə isinişərsən.

– Yox, balam, yox, mənə təsəlli vermə. Qara meşə qabağımda, göy dağ başımın üstündə olmasa, qara naxırın, ağ sürünün mələrtisini, göyün şaqqıltısını, gurultusunu eşitməsəm, mən dolana bilmərəm. Bunlarsız dolanma mənə haram olar... Burada mən yata bilmərəm. Niyə? O yanda malın göyşəməsi, ilxının oxrantısı, qulağıma gəlmir, burada qalım? Necə qalım? Başım üstündə yarpaq-yarpaq ilə danışırmı? Yox, yox, mən qala bilmərəm. Bir az da qalsam, yəqin, çatdayıb ölərəm. Qızım, sevgili balam...

Ruqiyyəyə tərəf baxdıqda gördüm ki, Ruqiyyənin gözlərindən yaş sel kimi axır.

– Ruqiyyə, sən də darıxmayırsanmı? Ahu kimi seyr etdiyin otlaqlar, dırmaşdığın qayalar heç yadına düşməyirmi?

Ruqiyyə cavab verməyib məlul-məlul, miskin-miskin, gözüyaşlı, dodaqları və yanaqları titrər mənim soyuq, buz kimi soyuq üzümə baxdı, nə baxdı... O baxış məni o zaman hirsləndirdisə, qəlbimi cəhənnəmə döndərdisə, amma indi o baxış yadıma gələndə, vücuduma bir yanma düşür ki... yanıb partlayıram, dudi-dumanım ərşə dirək olur... Dayan, yenə yanğı canıma düşdü, qoy özümə gəlim... ah, ah, ah!

Dərviş iki əli ilə başına vurub yumruqlarını gözlərinin qabağına dayadı, özü də o yana, bu yana bir necə dəfə ləngərlədi, sonra dedi:

– Nə olaydı, bu baxışı sənə göstərə biləydim. O zaman o nə əsər, nə yanğı olduğunu cavan qəlbin anlardı. O baxış elə bir baxış idi ki, cəllad görsə idi, xəncərini yerə atardı. Hərami görsəydi, əl ayağı bağlanardı... Bu baxış nə deyirdi? O baxış deyirdi: "Öldürmə, əfv et! Öldürürsən, qanım halal!.." O baxışı onda mən qapmadım... Ruqiyyə ağlayırdı. Qoca kişi dedi:

– Görürsən? Çallı-çəmənli, gur bulaq, göy dağlar, sarı qayalar yadına düşübdür, ağlayır.



Mən cavabında dedim:

– Çox fikir etmə, dayı. Arvad yaşı, bahar yağışı, yağar-yağar gün işıldayan kimi quruyar.

– Yox, yox, sən deyən kimi deyil. O yaş quruyan yaşlardan deyil, gözlərindən yaş soğulsa, qan axar, qan soğulsa, qan ağlar. Ruqiyyə, qızım, qızlar oğlanlara, oğlanlar da qızlara qismətdirlər. Sən də bunu sevdin, öz canına bədəl bildin. Bizi, vətəni tərk etdin. Qəzadan bu iş böylə törəyəcəkmiş, törədi. Təğdirə təğyir yoxdur... Əhməd səni sevir, istəyir, yandım-yandım deyir. Əhməd sənə nə qədər yarım desə, qərarım desə, balü pərim desə, yenə qoca atanı unutma. İşdir, xudanəkərdə dara düşsən, cana yetsən, yarın əğyar olsa, "qoca babam, hardasan, durma, harayıma çat", – de. Yerlər qulaqlıdır, deyərlər. Dadın qulağıma çatar.

Ruqiyyə işqıra-işqıra ağlamağa başladı.

– Ruqiyyə, sən lap dəli imişsən! Ərə gedən atadan, anadan keçməzsə, necə olar? – Qoca Ruqiyyəni barmağı ilə göstərərək, – böylə olar!

Burada mən istədim ki, söhbəti zarafata salam, dedim:

– Qız anasından olanda bacalarına baxıb deyir, bu baca bizim baca deyil. İndi sənin bacan budur.

Əlim ilə pəncərəni göstərdim, amma zarafatımdan da bir şey çıxmadı. Qoca kişi bir azdan sonra dedi:

– İndi gedəsi oldum. Sağlıq ilə qalasan, qızım.

Ruqiyyə özünü atasının üstünə salıb, ata-qız qol-boyun olub ağlaşdılar. Amma mən yox. Ağlamadım. Hələ həyasızlığım o dərəcəyə çatmışdı ki, acığım da tuturdu. Deyəsən, ata və bala vidalaşmağa haqları yox idi. Qoca kişi o günü axşam yola düşdü, bu tezliklə gəlməyini vədə verdi.

Ruqiyyə bir necə gün bihuş, sayə kimi dolandı, işi ağlamaq idi, evin bir tərəfində oturub, gözlərini uzaqda görünən qarlı dağlara zilləyib gömüldənirdi və pünhan ağlayırdı. Məni görcək göz yaşını silib üzümə gülümsəyirdi. Görürsənmi, bizə xoş gəlməkdən, bizə yaranmaqdan ötrü binəva arvadlar özlərinə nə zor verirdilər? Böylə şey, özünə zor vermək, adama qayət çətindir. Amma mən... Ona da mənim acığım tuturdu. Gizli ağlamağa da ixtiyar vermirdim...

Ruqiyyə gün-gündən gül kimi solmaqda idi. Ürəyi darıxdığı, mənə aşkar idi. Bir dəfə dedim:

– Ruqiyyə, çoxmu darıxırsan?

Kefim açıq olduğunu bilib gülə-gülə dedi:

– Şəhər-şəhər deyib söyləyirdilər, mən də cənnət kimi bir yer olduğunu hesab edirdim. Şəhəriniz cənnət deyilmiş, cəhənnəm imiş. Burada Tanrının havası da yoxdur ki, nəfəs alasan... Sən yanımda olmasa idin, indiyə qədər ölmüşdüm. Mənə can verən bir sənsən...

Bu dağ çiçəyi bir əldən solmaqda idi. Evə girmək istəməzdi. Sabahdan axşama qədər qapımızda olan söyüd ağacının altında oturub qarlı dağlara baxırdı. Hərdənbir soruşurdum:

– Ruqiyyə, niyə eşikdə oturubsan? Evdə otursan yaxşı olmazdımı?..

– Evdə xəfə var, qaranlıqdır, otura bilmirəm. Eşikdə oturmaq şəhərdə eyibdirmi? Eyib isə, bundan sonra çıxmaram. Amma bu ağacın altında oturmaq mənə qayətdə xoş gəlir. Yarpaqlar xışıldayır, ürəyim tel-tel olur. Vətənim...

Ruqiyyənin könlü vətənini döyürdü. Gurultu yağmur yağanda pəncərənin qabağında oturub tamaşa edirdi. Bir dəfə belə yağmurda tab edəmməyib, evdən dışarıya çıxıb, yağış altında dolanmağa başladı. Yerə çəkçərmə çökəndə Ruqiyyə eşikdən evə gəlmək istəmirdi. Qapımıza bir buzov gəlmişdi. Ruqiyyə onu tutub iki qucağında sevdi...

Ruqiyyə bir tərəfdən solurdu, saralırdı. Əvvəlki Ruqiyyədən bir səs qalmışdı, bir də saçları idi...

Ruqiyyə əlimdən gedirdi.

– Əhməd, mən təngnəfəs oldum, nəfəs almağa burda hava da yoxdur, mən darıxıram.

Ruqiyyənin sözlərinə belə cavab verdim.

– Allahı sevirsən, başımdan əkil! Xəlqə yarayan hava buna yaramaz oldu. Səndən ötrü burda bir ayrı havamı lazımdır? Get, harda ölürsən, öl. Mənim başımı, beynimi aparma...

Axır sözləri dəxi acıqlı dedim.

Ruqiyyə bir söz deməyib gözlərini aşağı dikdi... Oxa dönmüş qara kirpikləri gözlərinin üstünə kölgə saldı. Bir dəqiqə keçməmişdi ki, yaş Ruqiyyənin burnunun ucu ilə şoralanıb töküldüyünü gördüm... Bu isə mənə xoş gəlməyib də dedim:

– De! Yenə başladı. Ağlaya-ağlaya məni öldürüb ağlar qalarsan.

Ruqiyyə yaşlı gözlərini qaldırıb mənə ötərgi baxdı və işqıra-işqıra mənə cavab verdi:

– Səndə insaf əli yoxmuş...



Bundan artıq bir söz deməyə qadir olmadı, Ruqiyyə eşiyə çıxdı. Bəli, məndən insaf əli xırpadan kəsilmişdi. Bundan özümdə əsər görmürdüm. Ruqiyyə o saat yanımda ölüb dəfn olsa idi, bir zərrə qədər də qulağıma girməzdi. Hələ, bəlkə, ürəkdən bir az şad olardım.

Nə isə, Ruqiyyədən doymuşdum, usanmışdım. Hətta ayrı bir arvad almağı hərdənbir könlümdən keçirirdim. Öz-özümə deyirdim:

– Bu nə idi alıb gətirdim? Tanrının heyvanı məndən başqa bir zad bilmir. Get bilmir, gəl bilmir. Arrı yox, bəri yox. Başıma bəla gətirdim. Mən buna rast gələn günü niyə dünya viran olmadı?

## XIII

Böylə-böylə fikir və xəyaldan sonra məhəlləmizdə və qeyri məhəllələrdə olan qızları və dul arvadları bir-bir fikrimdən keçirirdim. Görürsənmi... necə vəfalı idim? Ruqiyyə kimi arvadın üstünə qeyri bir arvad almaq istəyirdim.

Bir mən böylə deyiləm ki, bizim çoxumuz, bəlkə də, hamımız böyləyik. Bugünkü arvad sabah üçün yaramaz, gərək ayrısı olsun. İşim tərəqqiyə minmişdi, əlimdə pul görünürdü. Pul da adam azdıran olur, məni də azdırdı. Əvvəl azmağım arvad gəzməyim oldu. Ruqiyyəni bir tövr başımdan rədd etmək xəyalına düşdüm. Bir dəfə ona dedim:

– Gəl səni evinizə göndərim.

Ruqiyyə soruşdu:

– Özün getmək istəmirsənmi?

Mən cavab verdim:

– Gedərdim, amma burada işimiz-gücümüz var. Bunları kimin üstünə töküm gedim?

Doluxsunmuş dedi:

– Mən də sənsiz öldürsən də, getmərəm. Səndən ayrı dözüb dura bilmərəm.

Özünü saxlaya bilməyib yenə ağladı. Mənim lap acığım tutdu:

– Sənin ağlamağın məni lap təngə gətirdi. Bu nədir? Səni dindirmək də olmur!

Amma Ruqiyyə darıxırdı, sıxılırdı. Evdə tutulmuş ahu kimi vurnuxurdu. Divarlar onu basıb əzirdi. Gahdan qıraq bağlara gedirdi, bunda gül kimi açılırdı. Rəngi-rəmzi düzəlirdi. Amma qeyri zaman solurdu. Ceyran kimi çölləri, maral kimi kolları, keçi kimi qayaları,

quş kimi ağacları, yağış və yağmur altında gəzən Ruqiyyəni dörd divarın arasına salmışdım...

Şəhərdən qıraq böyük bir ağaclıq meşə var idi. Bu da bizim evin pəncərəsindən görünürdü. Evimiz ucda idi. Bura Ruqiyyənin tamaşa yeri idi...

Əlimdə qaçaq mal tutulmuşdum. Qurtarsam, Ruqiyyə ilə yaxşı rəftar etməyi özümə əhd etdim. Cərimə cəhətdən xilas oldum. Lap kefi kök evə gəldim. Ruqiyyə də açıldı. Meşəyə aparmağımı söz verdim. Ruqiyyə uşaq kimi danışıb-gülməyə və gülüb-danışmağa başladı. Bir az qaldı ki, sevindiyindən durub oynasın.

Bir neçə gün böylə Ruqiyyə üçün xoş keçdi. Sınan şey bitməz, nə idisə mənim qəlbim Ruqiyyədən sınmışdı. Gör bu Ruqiyyəyə nə zülm etdim?

Yoldaşım ilə pozulmuşduq. Kefi xarab, qaşqabaqlı evə gəldim. Ruqiyyə xəbərsiz idi. Qabağıma çıxıb, qollarını boynuma salıb məni sevmək istədi. Amma mən... nə etdim? Ruqiyyənin yarasını təzələdim, sinəsinə çal-çarpaz dağlar çəkdim... Nə etdim? Məhəbbət şüşəsini vurub sındırdım, qəlb evini yıxdım. Ruqiyyəni güc ilə itələyib bir şillə üzünə vurdum. Nə tövr şillə? Qapının ağzında yıxıldı.

Dərviş ara verib kəsdi. Ürək coşmuşdu, danışmağa onda ixtiyar qalmamışdı.

Mənim nəzərimi qurutu gözləyən uşaq cəlb etdi. Bu balaca qurut qoruqçusu oturub, əlindəki uzun çubuq ilə yerə vura-vura ağlına gələni mahnı qaydasında düzüb oxuyurdu.

Şikəstə havasını bayatı havasına, bayatı sözlərini segah havasına, segah sözlərini şikəstə havasına qoşub, halyanı çalyana, çalyanı halyana qatıb hərc-mərc bir şey edərək özünün gününü keçirirdi. Bu vaxt qoruqçunun dal tərəfində eşşək saymazyana otlayaraq başını eşidilər-eşidilməz qırpıda-qırpıda, addım-addım sevdiyi qurutlara yaxınlaşırdı.

Qabaqdakı dəyədən bir səs uşağı xəbər etdisə, uşaq öz küy-kələyindən bir şey eşitmədi. Eşşək öz qoduğu ilə yaxınlaşdı, tələsik ağzını uzadıb bir neçə qurut götürdü. Bunları ağzının dal tərəfinə itələyən kimi bir dəxi ağzını uzatdı. Bu halda haman qabaqdakı dəyədən qızın səsi arvadın səsinə, arvadın səsi qızın səsinə qarışaraq bir hay qopdu: "Ay gədə... ay gədə, qoyma! Toş-toş! Qoyma qurutu eşşək yedi..." Bu səslərə qonşu arvadların səsləri qarışdı: "Qoyma eşşək, ay gədə, toş-toş" sözləri və itlərə "qıs, qıs" səsi və itlərin səsi bir-birinə qarışdı, bir hay oldu.



Sayıq qoruqçu dönüb geri baxdı, oğrunu görcək başdan-ayağa qeyz ilə doldu.

– Ay sənə çər dəysin, – deyib qoyununa canavar düşmüş çoban kimi yerindən sıçrayıb durdu. Eşşək düşmənin ayıq olduğunu bilib, qulaqlarını qırpıdıb başı aşağı dala qınc ata-ata dərə aşağı qopdu. Uşaq bunun dalınca düşdü. Harada var, harada yox, qurut sərgisinin yanında iki başqa uzunqulaq hazır oldu. Bunu görcək arvad-uşaq, it bağıra-bağıra quruta tərəf qaçışdılar. Yenə "toş-toş", "qıs-qıs" səsi biri-birinə qarışdı. Əvvəl itlər çatıb eşşəklərin dalından dəydilər. Uşağın anası bağırdı: "Bıy səni Allah öldürsün, Qasım... Bıy!.. Bıy!.. Görürsənmi, qurutun bir tərəfini çər dəymişlər köçürüblər... Allah sizin yiyənizin evini yıxsın. Mazarat oğlunun eşşəkləri kimin imiş? Gördünmü başımıza gətirdiklərini, ay camaat!.. Ah, Qasım da... bir var ki, yaxan əlimə keçməyə..."

Qasım yaxınlaşdı. Arvad başını qaldırıb bunu gördü, durdu. Qasım səfeh deyildi. Eşşəklər qaçıb canını qurtaran dərə ilə bu da bayaq qaçdı. Arvadın əlindən yamanca çıxdı. Dərə başı aşağı yel və quş kimi getdi.

Bu törəyən əhvalatdan dərvişin xəbəri olmadı. Özünün ürəyindəki qalmaqal həddən ziyadə idi. O qalmaqalın hay-huyundan ətrafda olan qalmaqalı dərviş eşidə bilmədi.

## XIV

Sondan-sona başladı:

– Ruqiyyə daha da soldu, yandı, qaraldı. Gül kimi solan Ruqiyyə qara kömürə döndü, gah xəstə, gah canı zarı yıxıla-yıxıla evdə sayə kimi dolanırdı, yeməkdən-içməkdən kəsilmişdi. Hərdənbir öskürürdü, mən də... mən biinsaf bundan qulluq tələb edirdim. Qulluq etməyə taqəti yox idi, amma nə durmağa və nə oturmağa qoymurdum. Özündən gedirdi. Gözləyirdim özünə gələndə daha artıq, ağır qulluğa buyururdum. Bihuş olurdu, gözləyirdim huşu gəlirdi, bir ayrı iş buyururdum. Axırda durmağa taqəti kəsildi, yerindən dura bilmədi. Bir qız bələdləmişdim, elçi göndərdim, aldım. Üç gün toy edib evimə gətirdim. Ruqiyyənin yerini aldı. Ruqiyyə bir söz demədi, öz canının hayında idi, gecə sabaha qədər zar-zar ağlayırdı. Can ağrısından, can yanğısından dəxi betər yata bilmirdi. Ah çəkirdi, qan, yəqin... lap gerçəkli qan tüpürürdü.

Bu, təzə arvadımın xoşuna gəlmirdi, yenə nə qədər olsa arvad idi, zarıltı onu pərişan edirdi. O ki qaldı mənə, deyəsən, bu zarıldayan sevdiyim, can verib can aldığım və yaxud can verib can alan, uğrumda bu tövr zəhmətlərə düşən Ruqiyyə deyildi. Ruqiyyədən gələn ah-zar, ufultu bir çibin qədər də qulağımda vızıldamayırdı.

Bir də gələndə gördüm ki, təzə arvadım atamdan qalan köhnə toyuq damını təmizləyir. Mən sordum:

– Nə qayırırsan?

– Buranı təmizləyirəm ki, Ruqiyyəni buraya qoyaq, yoxsa orada lap zənn ilə zəhləmi apardı.

Bu mənə əsla əsər etmədi, dedim:

– Yaxşı sözdür, qoy burada yatsın, heç atası-babası da belə təmiz yerdə yatmayıbdır. Keçə altında yatan bir köçəri qızıdır, bu ona lap padşah evi kimi olacaqdır.

Arvadımın xoşuna gəldi, güldü.

Ruqiyyə bir köhnə keçə üstündə, bir köhnə cırıq kilimdə yatırdı.

Mən baş tərəfdən, təzə arvadım ayaq tərəfdən götürüb Ruqiyyəni toyuq damına gəldik. Bizim qəsdimizdən xəbərdar olan Ruqiyyə başını döndərib bir müddət mənim üzümə baxdı, gözləri yaş ilə doldu, dodaqlarını tərpətdi. Nə demək istəyirdisə də, deyə bilmədi, dodaqlarını yenə acmaq istədi. Nə idisə də deyəcəkdi, yaxud ahını çəkəcəkdi, bilmirəm... ah da çəkə bilmədi. Ruqiyyənin nə baxışına, nə də löbüddi hərəkətlərinə tab edəmmədim. Harada isə də, nədən isə də könlümə... qara küfr ilə dolu könlümə bir az mürüvvət şöləsi düşüb, məni canı yanan, mürüvvətli etmək qəsdinə düşdü, haradan isə rəhmdən bir qığılcım qəlbimə düşmüşdü...

Ruqiyyənin başı üstə doğru durdum. Ruqiyyə o yana, bu yana susuz ilan kimi taqətsiz yalmandı. Axır öz-özünə güc verib başını yenə mənə sarı döndərib gözlərini gözümə dikdi...

Bu baxışda, həm məzəmmət, həm məhəbbət və həm də rişxənd var idi. Bundan böyük nə qədər zəhmətlər mənə versəydi, haqqı var idi. Amma belə haqqı bilən kimdir, bildirən kimdir? Güc ilə zor haqqı məqamındadır. "Haqqın var" desən, zor azar, "zorun var" desən, haqq batar. Zor ilə haqqı bir yerdə görmək çətin bir işdir. Zorum var idi, haqqı, gün kimi parlaq haqqı zorun qara çirməsində gizlətdim. Bunu bulmağa Ruqiyyədə nə taqət və nə qüvvət var idi.

Binəvanı zor əzdi, dünyadan rədd etdi... qabaq-qabağa Ruqiyyə ilə durmağa işarə elədi. Amma gözünün evində gizləndim. Ruqiyyə



əlini yuxarı qaldırıb şarpadan yanına saldı, dizinə vuracaqdı, bacarmadı. Əli qalxdığı kimi yanına düşdü. Biçarə başını yastıqda o yana, bu yana buladı, gözlərini yumdu. Mən elə bildim ki, canını tapşırdı, amma döşü zəif-zəif qalxıb düşürdü. Arvadım toyuq damında nə lazım isə düzəldib dışarı çıxıb dedi:

– Az qalmışdı ki, iydən boğulam.

Ruqiyyə gözlərini acdı, günüsünün üzünə dirənmiş baxdı, gözlərini dolandırdı mənə baxsın, amma mən daldalandım. Ruqiyyə gözlərini yenə yumdu. Mən baş tərəfdən, təzə arvadım ayaq tərəfdən yapışdıq ki, Ruqiyyəni toyuq damına qoyaq. Bu halda cansız-cəsədsiz Ruqiyyədən dəhşətli bir səs çıxdı ki, mənim qollarım boşaldı, Ruqiyyəni götürməyə taqət qalmadı. Arvadım üzümə pis-pis baxdı, dodaqaltı söyləndi, mən cavab vermədim.

Ruqiyyə iki dəfə o yana, bu yana çapaladı, bir dəfə xırıldadı, süst düşdü. Döşünün qalxması artdı, can boğaza toplanırdı.

– Molla, molla!

Birdən-birə yuxudan sərsəm oyanmış kimi bərk-bərk bağırdım, arvadım səksəndi.

– Tez molla! Mollasız tamam olur...

Bunun cavabında arvadım "Yasini-şərif"i başladı. Hələ başdakı "türcəun"a gəlmişdi, Ruqiyyə ruhunu tapşırdı. Quru bədən od kimi yanıb, qığılcımı ilə xalqı yandıran bədən, indi buzlar kimi qabağımda uzanmışdı.

Gül kimi rəng verib, rəng alan sifət saralıb-solmuşdu.

Məhəbbət bağçasında bülbüllər kimi cəh-cəh edən dil lal oldu...

Ruqiyyədən nə qaldı? Heç zad!

Gözlərimə qaranlıq endi, başım hərləndi, az qaldı yıxılım, əyləşdim, durdum, yenə başım hərləndi, yenə əyləşdim, başım döşümə düşdü... Keçmişlər Ruqiyyə ilə bərabər gözümün qabağında dolandı...

Bəli!.. Ruqiyyə yenə yadıma düşdü.

## XV

Dərviş başını əllərinə söykədi. Bu qərar üzrə bir neçə dəqiqə qaldı. Bəlkə, dəxi artıq qalaydı, amma bu halda dağın dalında göy guruldadı, dərviş başını qaldırıb qulaq verdi, təhqiq etmək qəsdi ilə məndən sordu:

– Deyəsən, göy guruldadı?

Başım ilə işarə etdim. Bu əsnada bir daha güclü guruldadı. Dərviş irpə getdi, gözləri o yana döndü, gövdəsində vahimə var idi. Göy guruldayıb cənuba tərəf aşdı və Dəlidağın başında uzaq top kimi partlayıb, göyə səs sala-sala dağların dalında kəsdi.

Dərviş bir dua zikr etdi və sonra dedi:

– Böylə bir gurultu onda, Ruqiyyə can verəndə də oldu. O gurultu mənim canıma elə bir fəna qorxu salıbdır ki, əvvəl gurultu canıma vahimə salır, amma sonra bərkişəndə qorxu çıxır... Ruqiyyə məni belə gündə qoydu, canını xilas etdi. Canımda yanğı, qəlbimdə yanğı, könlümdə yanğı, gözlərimdə yaş qoyub getdi... Ruqiyyə öldü, köhnə eşq, köhnə məhəbbət oyandı...

Göy bir də daha bərk guruldadı. İndi gurultu məğribdən məşriqə keçdi, bir karvan yel gəldi. Mələk bir uşaq ilə arxacdan körpə buzovları gətirməyə gedirdi, yel bunun donu ilə oynayıb zülflərini dağıdıb ötdü, ruzigar buludlaşdı. Çətin dağın dalında xırıltı başladı, bizim qarabaş qız sığırçımızı (malotaran) oyadırdı:

– Əli, a gədə, dur, dolu gəlir. Körpə buzovları gətir, dolu döyüb aparar, qayadan-qafqacdan salar...

Gör, gör ki, Əli durmaq istəmirdi, qız bunu qorxuya saldı:

– Dur, vallah, xanım gələr, gözlərini tökər...

Bir arvad qız ilə qurutu yığmaqda idilər, bir karvan da yel gəldi, güclü idi. Alaçıqların və dəyələrin ətəklərini oynatdı və yenə Mələyin donuna qanad çaldırıb keçdi, göy iki dəfə bərk-bərk bir-birinin dalınca şaqqıldadı. Çətin dağdan Sarı bulağa adladı, xırıltı bərkiməkdə idi. Yenə bərkişdi, bir neçə damcı yağış dəyədə tappıldadı, bir ağ noğul kimi şey dəyəmin qabağında yuxarı hoppanıb əvəliyin arasına düşdü. Bunun dalınca bir neçələri hoppanmışdılar və bu tərəfdə çətəni şaqqıldatdılar. Dəyədən baxdım, göy guruldayırdı və Çətin dağın döşündən dolu aşıb gəlirdi... Göy qoşa şaqqıldadı, dərviş qorxmuş, çətənə qısıldı. Bu ötməmişdi ki, bir də daha bərk çataqlı şaqqıldadı. Dərviş küncdən çıxdı, dizi üstə qalxdı, "yahu" – deyib zəncirini cınqıldatdı... Dolu gəlib çatdı, qoşa və yaxud tək gurultu bir-birinə macal vermirdi, yel qıjıldayırdı, dərə guruldayırdı, dolular şıqhaşırıq çətənə dəyirdilər...

Dərviş eşiyə çıxdı.

– Ağa dərviş, hara? – Mənim səsimi çataqlı gurultu basdı, dərviş nə münacat isə başladı, gurultudan və xırıltıdan sözlərini seçə



bilmədən, ancaq beytlərin axır kəlmələrini eşidirdim, o da iki gurultunun arasında xırıltı bir az ara verəndə qulağıma gəlirdi... "Mustafa haqqı... Kərbəla haqqı... Rza haqqı... dua haqqı. Rah bir çarə yarəb... duayə..." bu kimi sözlər də göy gurultusu ilə bərabər dəyəyə dolurdu.

Baranimi çiynimə atıb dərvişin dalınca çıxdım, amma yalın ayaqlarım doluya tab edəmmədiyindən yenə dəyəyə girdim, ayaqqabılarımı geyinib yenə çıxdım... dərviş yavaş-yavaş, dolu başından vura-vura enişdən enirdi.

– Ağa dərviş! Ağa dərviş!

Qoşa-qoşa gurultu səsimi çıxmağa qoymurdu, baranimi çiynimdə güc ilə saxlayırdım. Dolu quş yumurtası yekəliyində olardı. Əllərimə dəydikcə əllərim ağrayırdı, əynim qalın idi, mən də dərvişin dalınca endim, bir də dalda səs eşitdim:

– Ay ağa, xanım deyir haraya gedir?

– Get de, bir yana getmirəm, dərvişi qaytarmaq istəyirəm.

– Sən getmə, mən gedim qaytarım, – deyə Əli qopdu.

Dərviş dolunun arasından bir az görünürdü, Əli çatana qədər gözdən itdi. Amma münacat səsi yerdən ərşə, gurultuya qarşı gedirdi. Dal tərəfimdə bərk tappıltı eşitdim, baxdım, qoyunlar büküm-büküm olub dərə başı aşağı axıb gəlirlər. Mən bunun qabağında idim, yerim xatadan sakın deyildi. Qoyunlar məni basıb əzə bilərlər. Dağa qaçdım, çoban bağırırdı: "Ha, qoyun... hey..." Qoyun sözünə baxmayırdı, çoban dalınca yüyürürdü. Qoyun ötdü, şaqqıltı şiddətləndi. Amma dolu xırdalaşdı. Hərdənbir yel hücumu ilə məni bir neçə qədəm irəli atırdı... göy guruldayırdı, dərviş guruldayırdı, sel qıj-qıj qıjıldayırdı, sanki yer ilə göy bəhsə girmişdi. Əli gəldi, mən sordum:

– Dərviş hanı?

– Nə qədər elədim gəlmədi, yolu əlinə tutub getdi.

Xeyli durdum... göy guruldadı, yel guruldadı, sel qıjıldadı, amma dərvişin səsi, ha qulaq verdim, qulağıma gəlmədi. Bir az dayanıb yenə qulaq asdım... Göy qoşa-qoşa şaqqıldayırdı, dərələrdə sel qıjıldayırdı, vızıldayırdı, odlu şimşəklər qara buludları şaqqalayırdı, amma dərvişdən xəbər yox... adamdan səda yox idi. Adam ölmədi, yetmədi, məhv olmadı, insan kainata qarışdı. İnsanı kainat qucdu. İstirahəti yox, uyuya bilməz.

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

(1887-1943)

*XX əsr Azərbaycan nəsrinin müqtədir yaradıcılarından olan Yusif Vəzir Çəmənzəminli Şuşada doğulmuşdur. İlk təhsilini doğma şəhərində Molla Mehdinin məktəbində almış, sonra təhsilini Şuşa və Bakı real məktəblərində Daşkənd gimnaziyasında davam etdirmişdir. 1910-cu ildə Kiyev universitetinin hüquq fakültəsinə qəbul olunmuş, oranı bitirdikdən sonra Saratov, Rovno və Simferopol şəhərlərində hüquqşünas işləmişdir. Azərbaycan Demokratik Respublikası dövründə Türkiyədə səlahiyyətli səfir vəzifəsində fəaliyyət göstərən Yusif Vəzir Cümhuriyyətin süqutundan sonra bir müddət Fransada yaşamalı olmuş, 1926-cı ildə vətənə qayıtmışdır. O, 1938-ci ilə qədər Azərbaycan Sənaye İnstitutunda müəllim, Azərnəşrdə tərcüməçi, redaktor işləmiş, 1938-ci ildə Özbəkistana gedib Ürgənc şəhərindəki Xarəzm Pedaqoji İnstitutunda rus dilindən dərs demişdir. 1940-cı ilin yanvarında həbs edilmiş, Qorki vilayətindəki Suxobezvodnoye dustaqxanasına göndərilmişdir. Ədib 1943-cü ildə həbsxanada ölmüşdür.*

*Bədii yaradıcılığa XX əsrin əvvəllərində başlayan Yusif Vəzirin ilk hekayələri 1910-cu illərdə Bakıda çap olunmuş və ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir. Geniş oxucu kütləsinin böyük maraq və məhəbbətlə oxuduğu bu əsərlər sonralar da bir neçə dəfə çapdan çıxmış və dərhal yayılmışdır. Burada verilən nümunələr yazıçının "Seçilmiş əsərləri" (Bakı, 1976) kitabından götürülmüşdür.*

## CƏNNƏTİN QƏBZİ

### I

Başmaqçı usta Ağabala Veylabad şəhərində beş kişinin biri idi; saleh, salim, mömin, Allah bəndəsi bir şəxs idi. Bir adam yox idi ki, onun saqqalına həsəd aparmasın. Doğrudan da, usta Ağabalanın saqqalı gözəl saqqal idi: qara atlaz parçası kimi üzünün iki tərəfini tutub gicgahlarına getdikcə ucları nazilir, gözəl bir surətdə qulaqlarına yapışırdı. Heç kəs usta Ağabala kimi saqqal saxlaya bilməzdi: xalq həftədə bir dəfə həna yaxsa idi, usta iki-üç dəfə yaxardı; nə hikmət



vardısa da həmişə hənanın üstünə qoz yarpağı döşəyib, bir neçə saat yerindən tərpənməzdi.

Bikar olan vaxtı, görürdün, usta özünə bir neçə də yoldaş tapıb, şəhərdən çölə "başmaq seyrinə" gedir. Burada çubuqlar çəkilib, keçmişlər yada gətirilirdi. Birdən biri deyirdi:

– Yadındadırmı, usta Ağabala, bir dəfə bildirçin götürüb xanın yanına döyüşdürməyə getdik. Mənim bildirçinim buraxılan kimi xanınkını qovdu. Rəhmətlik xan qəzəblə bildirçinimi tutub, boğazını üzdü, dedi: "Dur buradan get, bir də buralara bildirçin-zad gətirsən, saqqalının tüklərini bir-bir yolduraram!" Xa-xa-xa!.. Usta Ağabala, ondan sonra mən bir də xanın üzünü görmədim.

Usta Ağabala bir az gülüb deyirdi:

– Eyyy! Elə xeyir-bərəkət də o vaxtlarda idi.

Bundan sonra bir ayrısı başlayırdı:

– Rəhmətlik xanın mənimlə arası çox kök idi (indi kök olmasın!). Zorxanada xan da bizimlə işlərdi. Paltarlarımızı tamam çıxardıb, adama bir fitə tutardıq, sonra on-on beş girvənkə gələn ağac milləri atıb-tutar, oynadardıq. Günümüz elə zorxanada keçərdi. A kişi, onda ucuzluq idi – bir hənəvatla iki gün güzəran edilirdi... Bir gün xan mənə baxıb dedi:

– Vallah, kərbəlayı, səninlə güləşəcəyəm!

Dedim:

– Xan, başına dönüm, mən nəkarəyəm ki, sənnən güləşəm?

Dedi, olmaz ki, olmaz! Xülasə, əlacım kəsildi, elə zorxanada tutuşduq. Çarpışa-çarpışa bir az fırlanmışdıq, vallah, xan geri çəkilib mənə elə bir yumruq ilişdirdi ki, divara yapışdım... Bir saat özümə gəlmədim...

Belə-belə "başmaq seyrləri" az olmazdı. Bəzən usta Ağabala şeyxilər mollası Ağa Əliəsgər ağanın dəstəsinə qoşularaq gəzməyə çıxardı. Həmişə də "başa qovurma" oyunu oynayardılar: usta oturar və mollalardan biri qurşağını açıb bir ucunu ona verərdi, o biri ucunu da özü tutub ustanı hücum edən mollalardan təpiklə müdafiə edərdi.

Bir hadisə heç usta Ağabalanın yadından çıxmazdı: bir dəfə yenə "başa qovurma" oyununda axund Əliəsgər ağa qazının qısıla-qısıla gələrək ustanın yanına girməsini görür (Əliəsgər ağa, maşallah, oyunda çox mahirdir; qazı min il "başa qovurma" oynasa, ağaya çatmaz). Xülasə, qazının qısılaraq gəlməsinə ağa zahirən məna verməyib, bir az da irəli gəlməyə imkan verir, sonra birdən dönüb bir

təpik vurur, qazı diyirlənib çuxura düşür. Bundan istifadə edib, bir ayrı molla hücuma qalxışır. Qoçaq Əliəsgər ağa bunun da hücumunu dəf edərək, cavab verdikdə, ayağı mollanın yaxasına keçir, biçarənin ləbbadəsi iki parça olub yerə düşür...

Əliəsgər ağanın bu rəşadəti usta Ağabalanın yadından heç çıxmazdı. Bunu usta nağıl etdikdən sonra fəxr ilə deyirdi: "Maşallah, ağa Əliəsgər ağa kimi molla ola bilməz: onun vüqarı, şücaəti, gücü vergi kimi bir şeydir!.."

Zənn edirəm, usta Ağabala axund Əliəsgər ağanı dünyada hamıdan çox istəyirdi; bir gün olmazdı ki, onu görüb əlindən öpməsin; özünü də görməsəydi, axundun evini uzaqdan da olsa görüb ziyarət etmək vacibatdan idi. Axund ustanın və balalarının qətlinə əmr etsəydi, usta Ağabala özünün və uşaqlarının qanını ağanın yolunda məmnuniyyətlə sirab edərdi.

Bir gün şəhərdə üsulilər ilə şeyxilər davası olacaq, – deyə şayiələr cərəyan edirdi. Usta bu xəbəri eşidər-eşitməz babadan qalma köhnə qılıncı taxtapuşdan endirdi, quyruq ilə pasını təmizləyib, günəşə qoydu. Usta and içirdi ki, "bir iş üz verən kimi" o, paslı qılıncla yüz üsuli başı yaracaq.

## II

Orucluqda şeyxilər məscidində (şəhərimizdə şeyxi, üsuli, kərimxani kimi neçə dini firqələr, hərəsinin də özünə məxsus məscidi var) Əliəsgər ağaya pul yığılanda əvvəlcə minbərə tərəf qırmızı dəsmala bükülü bir şey göndərilərdi. Minbərin alt pilləsində duran tələbə onu alıb, kəmali-mərifətlə açar, içindən bir parça cındıra bağlı pul və iki cüt əla başmaq çıxarıb yuxarı qaldırardı. Sonra uca səslə çığırardı: "Usta Ağabala kəfşduz bir imperial və iki cüt başmaq verdi. Başmağın bir cütü ağa üçün, bir cütü də külfəti üçündür. Allah-təbarəkü-təala onu dünyada yer-göy bəlasından hifz eləsin və axirətdə də cənnət hurilərindən məhrum qoymasın!"

"Amin!" səsi məscidlə bir olardı.

Ustanın neçə həftəyə başa gətirdiyi başmaqlar məsciddə əlbəəl gəzərdi. Əvvəl minbərin ətrafına toplanan molla və seyidlər başmaqlara tamaşa edərək, dabanlarında yazılan: "Əməli usta Ağabala mübarək başəd" sözlərinə əhsən deyərdilər. Mollalardan o yana oturmuş hacılar başmaqların hər tərəfinə mahirliklə tutulmuş güləbətini görüb, matu mütəhəyyir qalardılar. Başmaqlar məscidin aşağısına getməzdisə də, oradakı kərbəlayılar, məşədilər və qeyri aşağı sinfin adamları başmaqların göyçəkliyini təsdiq edib, ağızlarını marçıldadardılar. Səqfin yavıqlığındakı arvad yerlərində belə pərdələr qalxıb, hənalı əllər ustanı göstərərdi...



Usta bunları gördükdə şadlığından nə edəcəyini şaşırırdı: gah qalxıb özünü camaata göstərir, gah papağını çıxardıb araqçınını düzəldir, axırda öz-özünə gülümsünüb sakit olurdu.

Bu xoşbəxt zaman çox davam etməzdi; bir dəqiqədən sonra tələbə camaata bir ayrı adamın şey və ya pul verdiyini elan etdikdə məscid ustanı yaddan çıxarardı. Ağaya yüzlüklər bəxş edən, atlar, inəklər vəd edən, ipək əba, xəz cübbələr bağışlayan adamlar çıxardı... Bunları gördükdə ustada artıq şadlıq nişanəsi qalmazdı; ürəyindən soyuq qan axardı. O zaman fəqirlik ona əsər edib başı xəyalat ilə dolardı. Kişini fikir elə götürərdi ki, məsciddən belə xəbəri olmazdı. Xəyalat aləmində birdən pul tapır, evlər tikdirirdi; məsciddəki adamları oraya qonaq çağırıb, qızıl qablarda onlara xörək verdirirdi. Qonaqlıq qurtaran kimi, nökərlər qızıl məcməilərdə daş-qaş aparıb Əliəsgər ağanın qabağına qoyurdular. Sabah cəmi şəhər usta Ağabalanın fəzilətlərini danışırdı. Şəhərdə qonaqlıq olanda, ona həmişə yuxarı başda yer göstərirdilər, ağanın qulluğunda əyləşirdi. Burada birdən usta əlini cibinə salıb bir yüzlük çıxarır və xəlvətcə ağaya verib deyirdi: "Mən ölüm, bunu cibinə qoy!" Ağa pulu alıb gülümsəyirdi...

Usta Ağabalanın xəyalatdan ağzı bal dadır, şadlığından gözləri qıyılırdı. Yanındakı adamlar: "Ay usta, yadına ləbləbi düşdü, nədi? Ağzını niyə elə edirsən?" – deyə ustanı xəyalatdan oyadırdılar.

## III

Deyilənə görə, usta Ağabala ağa ilə siğə qardaş imiş, ağa ustanın xatirini belə istəyirmiş ki, onu özü ilə cənnətə aparmağı da vəd edibmiş.

Bir gün axşamçağı usta Ağabala evə gələndə arvadına dedi:

– Ə, bilirsən nə var? (Usta arvadını adı ilə çağırmağa utanır, arvad da ona "Ağabala deməkdən çəkinərdi, bir-birini "ə" deyə çağırardılar. Bir də görərdin, quzu mələşməsini andıran səs gəldi: onda usta ilə arvadının söhbət eləməsi bəlli olurdu).

Arvad cavabında:
– Ə, nə var?
– Ə, vallah, axır deməyə qorxuram.
– Yox, qorxma.
– Əşi, vallah qorxuram.
Arvad qorxa-qorxa:
– A başı daşlının oğlu yoxsa vay xəbəri gətirmisən?
– Yox, əşi, yox! Belə, xeyir işdir, amma, vallah...
Arvad kişinin sözlərini kəsərək:
– Ə, indi mən sənin əlindən almayacağam ki?!.. De görüm nə tapmısan?
Usta bu sözlərdən sonra ətrafı diqqətlə süzüb, başını arvada tərəf əydi və yavaş səslə:
– Ə, bax, heç kəsə demə ha!.. Ağa Əliəsgər ağa...
Kişi bir az duruxub, geri çəkildi:
– Ə, sən də elə çox çörək yeyirsən ki, səndən heç gözüm su içmir!
Arvad döyükmüş:
– A kişi, dəli olmamısan, çörək nədir? De görüm yoxsa qardaşlarımın başına bir iş gəlib?
– Ə, yox!
– Ə, bəs nə var, de görüm?
Usta bu dəfə başını arvada tərəf bir az cürətlə əyib, yenə cəld çəkilərək dedi:
– Vallah, sən də elə çox çörək yeyirsən ki, "mənə buğda, mənə buğda!" deyəcəksən, ikimizi də sürüyüb Adəm ilə Həvva kimi çölə salacaqlar.
Arvad yenə bir şey başa düşməyib, kişinin dəli olmasından şübhələndi:
– Əşi, cin-zad səni vurub ağlını-zadını şaşdırmayıb ki, hədərən-pədərən danışırsan; buğda nədir?
Usta bir az fikrə gedib, sonra acıqlı:
– Vallah, sən çörəyi çox yeyirsən, mən sənin oduna yana bilmərəm! – deyib evdən çıxdıqda arvad cəld yüyürüb onu tutdu:
– A kişi, dəli olmamısan, de görüm nə demək istəyirsən?
– Yox, vallah, deməyəcəyəm!
– Ə, sən allah!..
– Vallah, deməyəcəyəm!



– Yox, deyəcəksən!
– Hə, mən sənə deyəcəyəm, sən də arvadlığına salıb oraya gedəndə "Mənə buğda, mənə buğda!" deyəcəksən.
– A kişi, dəli olmusan, bircə de görüm nə olub?
Çox deyişdikdən sonra kişi arvadını işdən xəbərdar etdi.
Arvad əllərini bir-birinə çırpıb, həddən artıq şadlıqla:
– Boy, bunda nə var! Vallah, "çörək yemə" deyirlər – yemərəm. Deyirəm, görəsən nə deyəcək! Bir də orada yemək olmaz ki, orada hər bir şeyi iyləyib doyurlar.
Usta papağını alnına yeridib, gülə-gülə:
– Amma, arvad, kefimiz olacaq ha!..
– Deyirəm, ə, elə həmişə orada olacağıq dayna?
– Həmişə, həmişə! Belə kef var, kef!
Arvad kişini götürüb, pəncərənin qabağındakı döşəyin üstündə oturtdu:
– Ə, bircə burada otur; səndən bir-iki söz xəbər alacağam. Bircə de görüm, orada da cəhrə, yun-zad var, yoxsa...
– Yox, əşi, heç zad yoxdur! Yaxşı huri, qılman – belə şeylər var. Belə kef! Özü də ayrı adamları ora qoymazlar, biz ağanın səbəbinə gedəcəyik, ya özü aparacaq, ya qəbz verəcək... Bax, heç kəsə demə ha!
"Qəbz" sözündə arvad bir az fikrə getdi: "Behişt, indi, bir hamam kimi yerdir. Necə isti su hovuzunun qapısına camadar qoyurlar ki, arvadlar suyu dağıtmasın, indi orada da qapıya bir adam qoyacaqlar ki, içəri erməni, rus girməsin... Biz ki, ağanın qəbzini göstərəcəyik, onda qapını açıb bizi içəri buraxacaqlar..."
Burada arvad dadlı-dadlı gülümsənərək, üzünü usta Ağabalaya tutub sordu:
– Ə, orada, yəni deyirsən, qılman-zad da var, dayna?
Kişi acıqlı-acıqlı:
– Var! – dedi.
– Ə, sən atanın goru, acığın tutmasın, bircə de görüm onlar nə yeyir?
– Arvadın başı olmaz budur ha!.. Onlar neylir yeməyi? Onların özünü yeyərlər! Xa-xa-xa!
– A kişi, vallah, ağanın macalı olmaz; dalınca o qədər adam gedəcək ki, onda qıl körpüdən keçə bilmərik, hamımız (dilim-ağzım qurusun!) cəhənnəmə töküllük.

– Hımmm! Allahü əkbər, deyir, ağa Əliəsgər ağanın yanında biz cəhənnəmə düşəcəyik! Ə, salavat çevir, qoyarmı düşək? Vallah, yüz min adam olsa, düşmərik, elə əbasının bir ucu bizdə olsa, bəsimizdir!

– Vallah, a kişi, yaxşısı budur ki, elə bizə kağız versin. Bax, sənə vəd verib, vaxt ikən get al, sonra yadından çıxar.

Arvadın sözləri deyəsən usta Ağabalanın ağlına batdı; bir az saqqalını tumarlayıb dedi:

– Onda gərək qabaqca hamama gedim, yoxsa napak qəbz almaq olmaz!

Arvad cavabında:

– Yaxşı, nə edirsən et, amma bir az tez get!

## IV

Usta Ağabala hamama tərəf getmədə idi. Payız küləyi ağacların əlvan rəngli yarpaqlarını budaqdan-budağa salırdı. Göydən qara zəhmli buludlar sallanmışdı. Bunlar qiblə tərəfə getdikcə nazilir və dağlara yavıqlaşdıqda kənarları ağarıb gümüş kimi parıldayır. Usta getdikcə qabağından küçəyə tərəf pəncərəsiz evlər, sınıq-sökük divarlar, dar, eniş-yoxuş küçələr... bir-bir gəlib keçirdi. Usta fərəh dənizində dalğalanaraq, ayağı çuxura düşüb tez-tez başmağının çıxmağı, papağının tullanıb, alnına yeriməsi və ya qalxıb təkrar peysərinə düşməsi nəzərinə belə gəlmirdi.

Usta o qədər qeydə qalan idi ki, rast gəldiyi şeylər ona təsir etməmiş olmazdı. Birdən küçəyə düşmüş it, pişik və başqa heyvan meyitlərini gördükdə belə düşünürdü: "Hələ itlərə Allahın qəzəbi keçib, bunlara behişt yoxdur; görəsən, o yazıq pişiklərə kim cənnət qəbzi verəcək!"

Pişik meyitindən sonra toyuq meyiti çıxanda usta bir az da toyuğun qeydinə qalırdı: "Görəsən, toyuq da behiştə gedəcəkmi? Ona da qılman verəcəklərmi? Bəlkə, toyuqdur, bilmədi, buğdaya bir dimdik vurdu, görəsən, onda ona nə edərlər?.."

Özünə verdiyi bir sıra suallara cavab arayırkən, bir də usta döşünə bir cüt eşşək qulağı toxunduğunu duydu – yüklü ulağa rast gəlmişdi. Küçə dar olduğundan heyvan güc ilə keçirdi. Usta Ağabala məəttəl qaldı – ya geri dönməli, ya da ulağın altından və ya üstündən keçməli idi. Usta geri dönməyə tənbəllənib eşşəyin altından zorla keçib getdi.



Küçə bazara çıxırdı. Bura qaranlıq idi, hisli-paslı dükanlardakı tacirlər güc ilə görünürdülər; kimi hesab dəftərini yığıb evə hazırlaşır, kimi dükanı bağlayıb dua oxuyaraq qıfılı püfləyirdi. Yalnız baqqal çömçə ilə qazandan qatığı götürüb qaba səslə: "Qatığa gəl, qadan alım! Qatığa gəl!" – deyirdi. Başqası: "Qarpız qurtardı, qalmadı!" – deyə bağırırdı.

Usta bazarda dayanmadı – günəş batırdı. Orada duran hambalların arasından cəld keçib sol tərəfdə görünən məscidə tərəf getdi. Qoca müəzzin əlində bir arşın müştük, məscidin önündə durmuşdu. Məscidin alçaq qapısından hamballar motal və başqa baqqal malları çıxarırdılar: məscid sərin olduğundan buranı baqqallar icarəyə götürüb, içinə şey yığırdılar.

Usta Ağabala məsciddən o tərəfə bir neçə qədəm atıb hamama rast gəldi. Hamamın alçaq və uçuq divarları böyük günbəzlərə söykənərək yüz illərdən bəri bu hal ilə dayanırdı. Bu hamama çox xanlar gəlib-getmişdi. Çox mollalar sübh vaxtları burada istirahətdə bulunmuşdular; minlərcə kişilər saqqallarına hənə bağlayıb həyatının çox hissəsini burada yatmaqla keçirmişdilər... Hamısı da məhv olub getmiş, hamam isə həmişəki dəbdəbəsində yaşamaqda idi və minlərcə mömin kişiləri fani dünyadan haqq dünyaya yola salmağa hazır idi.

Hamamın qapısının üstündəki yazılar tamamilə silinib getmişdi. Yalnız iri xətlə yazılmış "Hamam xeyli xubəst" sözləri görünürdü. Bunlardan aşağıda bir pəhləvan çəkilib boğuşan şirlərə tamaşa edirdi. Şirlərdən birinin quyruğu yağmurdan silinib yox olmuşdu. Quyruqsuz şir də ustanı fikrə daldırdı: "Görəsən bu şirin quyruğu belə imiş, yoxsa o pəhləvan kəsib? Qiyamət olanda bəs pəhləvan şirin quyruğunu haradan alıb verəcək?" – deyib pillələrlə aşağı endi və rütubətdən göyərmiş qapını taqqıltı ilə açıb içəri girdi.

Ustanın ilk gözünə görünən su küpü oldu. Ondan o yana palçıqdan tikilmiş səkidəki ocağın qırağında qırmızısaqqal bir kişi oturub mürgü döyürdü.

– Salam əleyküm!

Usta Ağabalanın səsinə hamamçı dik atılıb, az qaldı ocağın üstündə qaynayan pitini töksün, sonra salama cavab verib, ustanın halını xəbər aldı. Usta ortadakı soyuq su hovuzunun yanından keçib keçə ilə döşənmiş səkinin üstündə oturdu, hamamçıdan dəllək xəbər aldı. Bir həftə idi ki, usta, dəllək yanına getməmişdi – başını tüklər

deşirdi; saqqalı da pərişan görünürdü – artıq-əskiyini düzəltdirmək lazım idi.

Hamamçı qapıdan bir neçə dəfə "Kərbəlayı Qulu" deyə çağırdı, gəlib oturdu. Bir azdan sonra dəllək hazır oldu və yetişən kimi balaca güzgüsünü ətəyi ilə təmizləyib, ustaya təqdim etdi. Kərbəlayı qısa boylu bir kişi idi. Onun qızarmış burnu nazik bığlarının ortasına qədər uzanmışdı. Birdən ustanın burnundan bir naehmal damcı düşsəydi kişinin düz alt dodağında bənd olardı və qışda da həmişə buz bağlardı. Onun üçün Kərbəlayı Qulu başını ördək başı kimi tez-tez irəli uzadıb silkələr, naehmal damcılar yerə tökülüb rədd olardı.

Kərbəlayı Qulu çox şey bilirdi; təbabətdə də mahir olduğu şübhəsiz idi. Qarın ağrısının qan artıqlığından olduğunu bilirdi, dərhal azarlının arxasını çərtirdi; boğaz ağrayanda peysərə həcəmət yapışdırırdı: ildə bir dəfə yaz vaxtı müştərilərdən qan alırdı – "Yazda bəlğəmiyyət bədəndə qaynar, rütubət tərpəşər, qan ayılıb, cuşə gələn zaman bədəni təmizləmək lazımdır" – deyirdi. Məhərrəmlikdə kərbəlayı altı aylıq uşaqların başını çərtirdi, qan çıxmayanda uşağın peysərinə bir-iki şapalaq çırpan kimi, qan görükərdi. Qan da olmasaydı, sarı, bulanıq su sızardı. Onda uşaq sahibinin nəziri də qəbula keçərdi. Amma ayrı dəlləklər bunu bacarmırlar; uşağın başını qarpız kimi paralayırlar, qan çıxmır; nəzir də qəbula keçmir... Xülasə, kərbəlayının heç bir eybi yox idi; mahir, qabil, kamil, aqil, məsələsində alim bir şəxs idi.

Usta Ağabala güzgüyə baxdıqdan sonra saqqalının hənaya da ehtiyacı olduğunu duyub, hamamçıya həna almağı tapşırdı.

## V

Kərbəlayı Qulu usta Ağabalanın uzun papağını çıxartdı və başını su ilə islatdıqda ona bir neçə sual verdi; zəmanənin dəyişilməsindən bir az danışdı, dərin "ah!" çəkdikdən sonra ülgücünü belindəki qayışa çəkib, təraş etməyə başladı. Usta Ağabalanın başının yarısı təraş olunmamışdı, bir də Kərbəlayı Qulu geri çəkilib dedi:

– Usta, axır başıma bir iş gəlib.

Usta gözünün altınca dəlləyə baxdı, yenə başını aşağı saldı. Dəllək bunu görüb, sözünə davam etdi:

– Dünən gecə namaz üstə çox dualar oxudum, Allah təbarəkü təaladan çox istiğasələr elədim... Ay usta Ağabala, daha bizim əli-



mizdən bundan savayı nə gəlir? Dünya işinə başımız qarışıb, axirət lap yaddan çıxıb... xülasə, gecə yatdım...

Bu sözlərdən sonra Kərbəlayı Qulu bir az geri çəkildi və başını irəli uzadıb silkələdi, naehmal damcılar tökülüb rədd oldu.

Bir neçə dəqiqə sükut etdikdən sonra dəllək eyni ahənglə sözlərinə davam etdi:

– Usta Ağabala, and olsun səni, məni xəlq eləyənə, gördüm bir səbətdi, bilmirəm təndirdi, nədi, bunun qırağında durmuşam. Bir acıqlı adam gəlib mənə bir təpik vurdu, səbətə düşdüm. İstədim çığıram, bir də qurban olduqlarımızdan biri gözümə görükdü. Usta, and olsun getdiyim ağaya! Bir əl gəlib məni səbətdən çıxartdı, ağzıma da bir dolma qoydu. Amma, usta, onu deyim ki, dolmanı yeməmiş ayıldım, gördüm sübh açılır, həyətdə xoruzlar banlaşır. Usta, kişi gərək doğru söz danışsın – tikə hələ ağzımda qaldı, daha yeyə bilmədim...

Usta Ağabala yavaş səslə:

– Etiqadın kamildir, ruzin kəm! – deyib fikrə qərq oldu.

Kərbəlayı Qulu usta Ağabalanın saqqalının altını qırxaraq:

– Biz üzüqara bəndələrin əlindən nə gəlir ki, – deyirdi, – Allahtəaladan nə qədərlənib o olacaq. Məni kəmruzi xəlq eləyib, o öz əlindədir, lap ac-çılpaq qoysa sözüm nədir?!

– Ay kərbəlayı, yavaş, boğazımı kəsdin! – deyə usta Ağabalanın zarıltısı eşidildi. Dəllək fikir verməyib deyirdi:

– Biz gərək naşükür olmayaq və onun yolunda hər bir şeydən keçək ki, qiyamət günü üzümüzə qara çökməsin! Yanı mən, ay usta, elə əlimdən gələni də eləmişəm: iki dəfə Kərbəlaya, üç dəfə Məşhədə...

– Kəlbə Qulu, qayçı burnumu deşdi! – deyə ustanın yenə səsi gəldi.

* * *

Kərbəlayı Qulu qurtarıb, ülgücü belindəki qayış kisbəndə qoydu. Usta Ağabala özünə güzgüdə zənn ilə baxmaqda idi: başı doğrudan çox səliqə ilə təraş edilmişdi; saqqalının ucu qulaqlarına qarmaq şəklində yapışıb ustanın üzünə bir ayrı lətafət vermişdi. Kərbəlayı Qulu bığların qabağını vurmaqda da çox mahirlik göstərmişdi: ustanın qalın dodaqları tükdən ayrılıb nəzəri özünə cəlb edirdi.

Usta Ağabala özünü süzdükdə:

"Görəsən bu nurani sima hamıyamı müyəssərdir?" – deyib Kərbəlayı Quluya bir şahı verdi və səkidə soyunmağa başladı. Dolahadola neçə arşın qurşağını açıb tökdü, sonra çuxa, arxalıq, can arxalığı – hamısını birdən soyunub, tappıltı ilə keçənin üstə saldı (ustanın yay və qış libası bir-birindən seçilməz, həmişə üç-dörd geymədən ibarət olardı). Usta Ağabala paltarının hamısını topladı, dolma bükən kimi bir fitəyə bükdü və papağını da lap fitənin üstündən qoyub səkidən aşağı endi. O biri səkilərdə də usta bükən sayaq çoxluca paltarlar bükülmüşdü, bunların üstlərində cürbəcür papaqlar qoymuşdular. Papağın bəzi uzun qovun şəklində idi, sahiblərinin ruhani və əyan olduqları aydın idi. Bəzisinin qarpıza bənzəyişi var idi – bu əsnaf papaqları idi. Bir-iki də təkərə bənzər gənc papağı görünürdü.

## VI

Usta qapını ararkən, nəzəri divardakı şəkillərə çarpdı... Qoçaq naqqaş! – bütün məharətini sərf etməkdən çəkinməmişdi... Divarın biri Bəhramın fövqəladə rəşadətini təsvir edirdi: atdığı ox ilə ceyranın dal ayağını qulağına yapışdırması bir gənci heyrətə daldırmışdı; biçarə ağacın arxasına girərək şəhadət barmağını dişləyib, gözlərinin qarasını bir tərəfə döndərməkdən başqa bir şeyə qadir ola bilməmişdi...

O biri divardakı padşahın bığları uzanaraq bucaqdan asılı fitələrin altında gizlənmişdi; çəpkənli bir qız padşaha alma təqdim edirdi. Üçüncü divarda çəkilən iki ağac arasında pəhləvanlar güləşirdi.

Pəhləvanlardan birinin qılçasında, o birinin qulağında hörümçək tor qurmuşdu. Bunlardan yuxarıda qara rənglə dağlar çəkilmiş arxasına bir cərgə şəhadət barmaqları ağızlarında kişilər toplanıb yenə gözlərinin qarasını bir tərəfə çevirmişdilər. Görünür pəhləvanların güləşməsi bunları mütəəssir etmişdi... Bu şəkillər İran sənətinin bir nümunəsi olaraq bütün hamama gələnləri heyrətə daldırırdı. Usta Ağabala da ona baxdıqda "Zalım oğlunda nə qabiliyyət varmış!" – deyə ocağa tərəf olan qapıdan içəri rəvan oldu.

Usta qaranlıqda bir neçə addım gedib, qapının yavıqlaşmasını öyrənmək üçün sağ əlini qaldırıb, bir az havada fırladı. Lakin içəriyə olan qapını tapa bilmədiyi üçün bir az da irəliləmək lazım gəldi. Sərbəndin nahamvar olması onu ayağının da birini qaldırıb havada



fırlamağa məcbur etdi. Əlləri ilə divardan yapışıb sağ ayağını qaldırdı, qabağa uzadaraq barmaqlarının uclarını yavaş-yavaş yerə endirməyə başladı. Barmaqlarının ucları yerə toxunar-toxunmaz usta qılçasını boşladı və ayağı şappıltı ilə soyuq horranın içinə düşdü. Sol ayağını qaldırıb boşladıqda, ayağı bundan bir azca isti horraya düşdü... Beləcə soyuq horradan istiyə, istidən soyuğa keçərək, qapıya dəydi. Bir də sağ əlini havada fırladıb, rəzəni tapdı. Qapını açdı. Hədsiz səslər bir-birinə qarışıb, hamamın tağlarına düşmüşdü; içəridəki adamlar hovuzun buğundan kölgə kimi görünürdü. Hamamın sağ divarında bircə pəncərə vardı, şüşələri yaşıl kif basdığından içəriyə az işıq düşürdü. Pəncərənin yarısı küçənin səthindən aşağı olduğu üçün bütün zibilləri yel daşıyıb, buraya toplardı. Bundan başqa, qonşuda yaşayan "Danqılı bəy" ləqəbli birisi nədənsə yediklərinin artığını həmişə buraya atardı. Çox vaxt nökərlərlə "kim qarpız qabığı ilə hamamın pəncərəsini vursa vura bilməyəni minib həyətin o başına getsin!" – deyə mərc edər və pəncərəni nişan alardılar. Təbiidir ki, belə ləzzətli mərc nəticəsində hamamın pəncərəsi zibilli olacaqdı. Yalnız qarpız qabığı deyil, burada köhnə başmaq tayı, it-pişik meyiti, omba sümüyü kimi şeylər də olardı...

Usta Ağabala pəncərəyə diqqət vermədi, ancaq onun qabağında sərilmiş fitələr üstə hənalanıb yatmış iki kişini süzdü – böyük zatlar olsaydı baş əyib hallarını soruşacaq idi.. Çifayda? – Bunların xorultusu hamamı bürümüşdü və qıllı sinələri körük kimi enib qalxırdı.

Camadar ustaya yanaşıb, onun quru fitəsini bucaqda dəyişib, ona köhnə və yaş bir fitə verdi. Usta camadarın bu hərəkətindən bir az incidi: Ağa Əliəsgər ağa ilə gələndə camadar onların quru fitəsini dəyişməzdi. İndi, nədənsə, usta Ağabala kimi kişi camadarın gözündə alçaq təbəqədən hesab olunub, quru fitəsi dəyişildi. Aralıqda "cənnətin qəbzi" məsələsi olmasa idi, usta camadarla başqa cür rəftar edərdi. Ancaq indi belə işlərə etina etmək zamanı deyildi – "Qaçanı qovarlar" – demişlər. Ağa Əliəsgər ağanın kefinin kök vaxtına düşüb, "qəbz" vəd etmişdi. Kim bilir, sonra vədində durardımı? Usta Ağabala behişt çəpərinin altında durub, "Mənə huri, mənə huri!" – deyib, min il də gözlərinin zoqqurunu töksəydi, ona huri verən olmazdı. Buna görə usta camadarın qanacaqsızlığını əfv edərək qapının müqabilində isti su hovuzunun xırda, pilləkənindən çıxıb kiçik qapısından içəri düşdü.

Ustanın canı dincəldi. Ancaq hovuzun suyu bir neçə həftədən bəri dəyişilmədiyi üçün bir az qoxuyurdu. Bunun da ki, heç bir şeyə dəxli və zərəri yox idi. Hovuza girən qaş-qabaqlı çıxmazdı: həmişə şad, nurani, pak-pakizə olardı. Qəmgin adam da oraya girsəydi kefi açılardı: adam hovuzda həmişə həmsöhbət tapır, bir-birilə hallaşır, "məsələ" öyrənir; çimmək də ki, bir kef – hovuzun bu başından girib, o biri başına çıxana qədər on adama toqqaşırsan... Bunun hərəsində bir məlahət, hərəsində gizli bir ləzzət var.

Tağın yırtığından düşən işıq suyun bulanıqlığını çox da bəlli etdirmirdi, yalnız çirk laylarının xırda dalğalara toxunub tərpənməsi görünürdü. Nəzərə daha başqa şey çarpmırdı. Ancaq suda tük çəngələrinin bədənə sıvaşmasını, ya hovuzun dibindəki yumşaq şeylərin ayaqları əhatə etməsini, təbiidir ki, nəzərə almıram; çünki bunların qüslə heç mane olmamasını hər bir Allah bəndəsi bilir. Ustaya da qüsl lazım idi – bir neçə dəfə suya batıb istiğfar edəcək, sonra qəbzi alıb, yerində arxayınca oturacaq idi. Bu məqsədlə usta barmaqlarını burnunun və qulaqlarının dəliklərinə tıxayıb, suya batdı. Kişi məsələsində arif idi. Qüsl etdikdə bədəninin hər bir yerinə su dəyməsini bilirdi. Ona görə ayaqlarını hovuzun dibindən üzüb, balıq kimi o biri tərəfdən çıxdı. Burada uca səslə salavat çəkib, əlini saqqalına çəkdi və suyun üzünə tüpürüb, bir də batdı. Bu dəfə səyahət yarımçıq qaldı: yarı yolda bir ayrı kişiylə baş-başa gəlib toqqaşdı və ikisi də üzünü turşudub sudan çıxaraq bir-birini döyməyə qalxışdılar. Bir də... üz-üzə gəldikdə "Ya Allah!" – deyə mehriban bir halda görüşdülər. Usta məktəb yoldaşı Kərbəlayı Bağıra rast gəlmişdi.

Kərbəlayı Bağır həmişə güləndə gözünün qarası itərdi; burada da gözlərinin qarasını itirib dedi:

– Usta, kefin kök, damağın çağdırmı?

– Allaha şükür!

– Nə təhərsən, yaxşısanmı?

– Niyə, dövlətindən. Sən nə təhərsən?

Kərbəlayı Bağır cavab verdi:

– Allaha şükür!

– Kefin kök, damağın çağdırmı?

– Allaha şükür!

– Nə təhərsən, yaxşısanmı?

– Niyə, dövlətindən.



– Uşaqlar da yaxşıdırmı?

– Canına duası var. Səninkilər necədir?

– Canına duası var.

– Lap yaxşısanmı?

– Allaha şükür!..

On-on beş dəqiqə beləcə bir-birinin halını soruşub, sabiq dostların hərəsi hovuzun bir küncünə çəkildi.

Çox çəkmədi ki, hovuza bir neçə adam da girdi. Bunların biri cüzamlı Abbas idi, qalanının qaranlıqda kim olduqları məlum deyil idi, ancaq birinin keçəli ağarırdı.

Hovuz salavat səsilə doldu. Şappıltı düşdü – kərbəlayı və məşədilər ördək kimi çimirdilər. Biri batıb biri çıxır – bununla qənaətlənməyən, başına neçə çanaq da su tökürdü. Salavatlar məxrəcdən gəlmədə davam edir, saqqallar tumarlanırdı. İstidən ürəkləri tıncıxanlar da divarlara dalbadal tüpürüb canlarını rahat edirdilər.

Usta Ağabala hamamdan çıxar-çıxmaz camadar hazır oldu. Ancaq ustanın hənə qoymaq meylində olması camadarın mırıldanmasına səbəb oldu. Hovuzdan sonra hənə qoyularmı? – dedi, – indi bir quru fitə də islatmalıyıq.

Usta səhvini anladı və başını itirməsinin səbəbi qəbz olduğunu sevinclə duyaraq, yenə camadarın "azğınlığına" məna vermədi. Yerə salınmış fitənin üstə uzandı və camadar onu qurulayıb saqqalına, bığlarına, qaşlarına və barmaqlarının uclarına səliqə ilə hənə yaxdı. Ustanın istidən döyünən ürəyi hənadan sonra sakit oldu. Bədəni rahatlanıb hərəkətsiz qaldı; gözləri yavaş-yavaş qıyılıb yumuldu. Usta əvvəl fısıldayaraq, ağzından bir az hava buraxdı, sonra qəlyan kimi xoruldamağa başladı.

## VII

Veylabad şəhəri sanki dəyişmişdi: hərə bir tərəfə qaçıb dağılmada idi; ətrafdan həyəcanlı səslər gəlirdi; zənginlər qızıllarını basdırıb, fəqirlər də damlara doluşub, "Allah" sədasını göylərə qaldırırdılar. Müharibə idi. Düşmənlər şəhəri əhatə etmişdilər. Şəhər darvazaları bağlanıb arxalarına torpaq çəkilmişdi. Qala qoşunu düşmənin hücumunu dəf etməyə çalışırdı... "Qələbəndlik" ili idi. Ağabala yenicə doğulmuş, bələyinin üstündə göz yaşı tökülürdü.

Qadınlar çağaya baxdıqca deyirdilər: "Suya dönmüş oldu-olmadı, şəhərin növrağı döndü!" Qadınlar haqlı idilər. – Ağabala çox ağlağan idi; ağlayanda da üzünü çox turşudurdu, sanki mərsiyə deyəcək idi...

Bir də usta Ağabala gördü ki, onun bələyini bir biyabana atmışlar, ağlaya-ağlaya qalmış. Səs-küy yox idi, dağ-daşı duman bürümüşdü. Görünən cığır ilə bir adam gəlirdi. Yaxınlaşdıqda Ağa Əliəsgər ağa olduğu bəlli oldu. Yetişən kimi Ağabalanı qucağına götürüb, bələyini açdı və sonra cibindən bir kağız çıxarıb ona verdi: "Bu kağızı al, cənnətdə sənə yer verilməsini tapşırmışam; orada ye, iç, huri-qılmanlarla axirət ləzzəti apar!"

Ağabala kağızı alıb qoşdu. Hər addım atdıqca böyüməyə başladı; şəhərə yetişincə yeddi yaşında oldu.

Bir gün Kərbəlayı Cahangir, oğlu Ağabalanın divardan sərçə düşürməsini görüb onu tutdu və başına bir-iki qapaz saldıqdan sonra onu İrandan gəlmiş bir mollanın məktəbinə apardı.

Sabah açıldıqda Ağabalanı min ah-zarla geyindirib bir qoltuğuna odun, o biri qoltuğuna kömür verib (adətən, şagirdlər məktəbə odun – kömür aparıb özləri üçün ocaq qalardılar. Odun-kömür gətirməyənləri manqalların və buxarının yanına qoymazdılar) çiyninə də heybəsini salıb məktəbə göndərərdilər. Uşaq atasına bir təpik, anasına bir şıllaq atıb qapıları bir-birinə çırparaq evdən çıxardı.

Bir neçə il belə keçdi. Kərbəlayı Cahangir oğlunun Quranı bitirib, məsələsinə arif olacağını gözləyirdi. Halbuki oğlu hələ "Vəlleyli"də qalmışdı. Kərbəlayı məktəbə gedib onu mollaya tapşıranda, molla Ağabalanın çənəsindən tutub: "Maşallah çox səyli uşaqdır!" – deyirdi.

Ağabala çox qoçaq uşaq idi: məktəbdə cəmi işə hamıdan artıq o atılırdı, o biri uşaqlar məktəbə həftədə bir küyüm su verəndə, Ağabala beş-altı küyüm verərdi; məktəbi hər gün süpürər, bazara gedib mollaya piti alardı. Bunun üçün də molla Ağabalanı cəmi şagirdlərindən çox istərdi; hamısından əvvəl onun dərsini deyər, qulunc duranda da arxasını ona tapdaladardı; çubuğunu da o doldurardı. Ağabalanın bu xoşbəxtliyinə bütün şagirdlər həsəd aparardı. "Ağabala məktəbdən çıxsaydı da, bəlkə mollanın arxasını qaşımaq və boynunu ovmaq növbəti bizə çataydı" – deyə düşünərdilər.

Bir gün Kərbəlayı Cahangir yenə oğlunu mollaya tapşırmağa gedir; məktəbi səssiz görərək, heyrət edir: nədənsə molla uşaqları vaxtından əvvəl buraxmışdı. İçəri girdikdə orada molla ilə Ağabaladan başqa kimsəni görmədi. Molla Ağabalanın çənəsindən tutub



deyirmiş: "Ağabala, qurbanın olum, sən mənim qulağımdan tut, mən də səninkindən!" Bu sözlərdən kişi nə anlayırsa, yüyürüb mollanı süpürləyir. Bir az molla bunu, bir az da bu mollanı divara çırpandan sonra küçədən səsə gələn adamlar onları aralayır.

Sabahdan bu işə min rəng verib bazarda danışdılar. Ağabalanın böyük qardaşı bunu eşidən kimi gedib mollanın qoparağını götürdü; dayıları mollanı məktəbə həsrət qoydular; o biri qohumlar özlərinə xəncər-bıçaq tədarük etdilər. Söhbət günü-gündən böyüdü, beyinlər qızdı. Molla baş götürüb İrana qaçdı. Şəhər sakit oldu. Bundan sonra Kərbəlayı Cahangir oğlunu bir daha məktəbə qoymayacağına and içdi. Dediyi kimi də elədi – Ağabalanı bir başmaqçıya şagird verdi.

* * *

Usta Ağabala bir də baxdı, gördü otuz ildir ki, başmaqçıxanada tozlu-çirkli dükanda çərməki döyür... Bu uzun müddətdə Veylabadda hər şey dəyişmişdi: çox şeyxilər dönüb üsuli olmuşdu; hacıkərimxanilər şeyxi olmuşdular. Şəhərdə böyük möcüzələr görünmüşdü: çoxlu ocaqlar, pirlər zühur etmişdi; Ağa Əliəsgər ağanın evi dəfələrlə qeybdən nurani olmuşdu; birdən-birə mollaların pulları bərəkətlənmişdi – qazı ağa ildə altı yüz manat maaşla böyük imarətlər yapdırmışdı; o biri mollalara, Allah haradansa zəngin dul arvadlar yetirmişdi... xülasə şəhərdə hər şey tərəqqi etmiş, dəyişmiş, abad olmuşdu. Yalnız usta Ağabala qədimliyində sakit qalaraq, otuz il idi ki, bu qərar ilə məişət keçirir – elə qayışı suya salıb dişinə çəkir və sonra çərməki ilə döyürdü.

Usta burnunu qurdalayıb dərin fikrə daldı: "Heyhat! Ömrüm getdi, gün getdi! Bu gün-sabah inkir-minkir sual edəcək ki, nə qayırmısan? – onda nə cavab verəcəyəm?"... Bunları düşünərkən cənnət-cəhənnəm gəlib ustanın qabağını kəsdi. Gözləri yaşarıb ürəyi döyündü. Birdən cənnət qəbzini xatırlayıb gülümsündü; çərməkini tullayıb döşlüyü döşündən qopardı... "Asta qaçana imam qənim" – usta qaçmağa başladı. Bazardan keçəndə dükançılar ona tərəzi çaldılar, baqqallar çürük meyvələr ilə salbaladı; uşaqlar yüyürüb, onu ətəkləyirdi. Şəhərdə qayda belə idi – bazarda yüyürmək kimi adətdən kənar bir iş tutan adamla bu cür rəftar edərdilər.

Usta bunlara qulaq verməyib bazardan keçdi. Əyri küçələr bir-bir gəlib getdi. Ustaya ilk dəfə rast gələn hacıkərimxanilər mollası

oldu. Usta ona etina etmədi, o da ustanı acıqla süzdü. Bir az keçdi, bir neçə kömürçü və kankən göründü, sonra bir dərviş və axırda bir neçə seyid, mərsiyəxan və çoxlu kor, şikəst və dilənçi. Usta bunların bəzisinə uca səslə salam verib, bəzisinə də etina etməyib keçdi. Bir neçə addım da atıb şəhərin kənarına çıxdı. "Mazı-mazı" oynayan on yeddi-on səkkiz yaşındakı gənclərin səsindən qulaq tutulurdu. Bunlar ustanın qaçmağını görüb onu hoydu-hoyduya götürürdülər. Usta bunlara da fikir verməyib şəhərdən uzaqlaşdı.

Duman ətrafı bürümüşdü – hər şey zülmət içində idi. Səssizlik arasında ustanın ayağının şappıltısı həyəcanlar doğururdu. Usta qaçır, heç havada dəyişiklik yox idi; heç bir yerdə işıq ucu görünmürdü.

Usta Ağabala qırx gün, qırx gecə yol getdi, işıqlı dünyaya çıxmaq üçün bir yol tapa bilmədi, axırda təngə gəlib bir daşın ətəyində uzandı və öz-özünə dedi: "Allah, yoxsa günahkar idim ki, qabağıma zülmət çıxdı? Buyurmusan Ağa Əliəsgər ağanın dalında namaz qıl, qılmışam; şeyxilərin məscidindən başqasına getmə – getməmişəm; mollanın dediyindən çıxmamışam; öl deyib ölmüşəm, ayıb olmasın, ev adamına İbni Mülcəm (Allah lənət eləsin) ölən axşamı yaxşı kəlləpaça bişirdib aparmışam, yeyiblər (halal xoşları olsun!), bəs mənim günahım nədir?"

Usta ağlaya-ağlaya fikrə getdi və nə isə xatırlayıb birdən başına döyərək hönkürdü: "Pərvərdigara! Mənim günahımdan keç! Məni qır qazanına saldırma; bircə dəfə bilməmişəm, üsulilərin oduna düşüb kişmişli aş yemişəm!.. Öhü! Öhü!.. yoxsa onun zülmətidir, indi məni bürüyüb?.."

Usta Ağabala gözlərinin yaşını axıdaraq, başını daşdan-daşa vurub yatdı.

Azmı-çoxmu yatmışdı – usta yaşlı gözlərini açdı – vəziyyət dəyişmişdi; duman çəkilmiş, dan yeri yenicə sökülürdü; şərq buludları altun kimi parıldayır; ay və ulduzlar sönük bir halda gözdən itirdi; sübhün həzin yeli yaşıl yarpaqları titrədir; bulaqların daşdan-daşa tökülüb şırıldaması bağları canlandırır; çiçəklər baş-başa gələrək bülbülün yanıqlı nəğməsinə səbəb olurdu...

Bir dəqiqə keçmədən günün şüası dağın arxasından qalxıb aləmi işıqlandırırdı; gül qönçələrinə düşmüş şehlərin hərəsi min rəngə çaldı. Cənnətin yavıqlaşması ustaya əyan oldu. Cəld yerindən qalxıb ilan kimi qıvrılmış bir yol ilə getdi. Bir az sonra şiddətli bir mənzərəyə rast gəldi: şimal tərəf od tutub yanırdı; yerdən, göydən alov



qaynayırdı. Usta şaşdı – tutduğu yol alova doğru idi, başqa da yol yox idi. Gülzarlıqla alov arasında uca sədd çəkilmişdi, onu keçmək qabil deyildi. Usta düşüncəyə daldı: "Yoxsa (Allah eləməmiş!) cəhənnəmə gedirəm?" – deyə öz-özündən sordu, lakin qəbzi xatırlayıb toxdadı və qurşağının ucunu açıb alnının tərini silə-silə od çıxan tərəfə getdi.

Günəş göydən yerə enmişdi, isti olduğundan xalqın dili ağzından çıxıb yerlə sürünürdü; dəstə-dəstə adamların üzünə qara çəkib çığırda-çığırda od tərəfə aparırdılar. Əcaib məxluq görünürdü: kimi buynuzlu və at ayaqlı; bəzisi yarı öküz, yarı adam; kiminin dörd-beş əli və hər əlində odlu gürzlər var idi. Bu əcaib zəbanilər tutduqları insanları gürzlə şapparlayıb odlu zəncirlərlə dağlayırdılar. Çığırtıdan qulaq tutulurdu...

Qərb tərəfdə bir təpənin üstündə ağ ələm vurulmuşdu. Burada naməyi-əməllərə və köhnə hesablara baxılırdı. Gözlüklü qoca bir mələikə kitabları vərəqlədikcə toz qalxırdı. Sağ tərəfdə İsrafil sur düdüyünü çalıb ölüləri yuxudan oyadırdı. Qəbirdən qalxan qolqılçasını qoltuğuna vurub ağ ələmə tərəf diyirlənirdi. Burada böyük bir dəstə əmələ gələn kimi, içlərindən biri ayrılıb təpəyə çıxır, mərsiyə deməyə başlayırdı, ölülər də təpələrinə döyüb ağlaşırdılar. Dəftərdə hesab çəlpəşik düşdükdə qoca mələklərdən biri turşlanmış üzünü bunlara tərəf çevirib deyirdi: "Bəs deyil? Sital uşağı sital, lap zəhləmi tökdünüz!"

Ələmin sol tərəfində duran adamlar xaçpərəstlər idi; bunların üzlərinə qara çəkib sorğu-sualsız cəhənnəmə atırdılar. Usta Ağabala bunlara tamaşa edəndə bir zəbani ağzından alov tökə-tökə buna hücum etdi. Qoçaq usta özünü itirmədi, cəld qəbzi göstərib çığırdı: "Vallah, şeyxiyəm!" – dedi. Zəbani ağzını yumub sükut etdi və sonra işarə ilə ustadan üzr istəyib onunla getməsini rica etdi. Usta razı oldu. Bir neçə dəqiqə getməmişdilər ki, bir dağa rast gəlib başına çıxdılar. Dağın o biri tərəfindən gözəl bağlar, uca imarətlər salınmışdı. İmarətlərin önündən çaylar axır, hovuzlar fəvvarə vururdu; gül gülü çağırır, bülbül bülbülü; huri və qılmanlar ağacların dibində səf çəkib boyunları çiyinlərində durmuşdular; yumru totuq uşaqlar qızıl taxtlarda qumaş yastıqlara söykənən möminlərə şərab paylayırdılar. Bir tərəfdə çeşmələr şaqqıldaşır; bir tərəfdə gözəl çiçəklər qoxuyur; mərmər hovuzlarda qızıl balıqlar oynaşırdı; ağaclarda partlamış narların hər

dənəsi yaqut-əhmər kimi qızarıb şəfəq verirdi. Əlvan meyvələrin öz-özünə üzülüb ağaclardan möminlərin ağzına düşməsi yalnız bir arzuya bağlı idi...

Usta Ağabalanın ürəyi məhbubəsini görmüş aşiq ürəyi kimi döyündü. Lakin oraya keçmək mümkün deyildi – orada qıl körpü var idi.

Qıl körpünün hər tərəfi od tutub yanırdı. Minlərcə adam odlu gürzələrin çənginə düşüb məhv olmaqda idi. Cəhənnəmin kənarında çoxlu qır qazanları qaynayırdı. Günahı çox olanları burada qaynadıb sonra əjdahaların ağzına atırdılar.

Birdən həyəcanlı bağırtı səsi gəldi. Usta sol tərəfə baxdıqda bir dəstə üzü qara adam gördü. Bunları qır qazanlarının yanına gətirib bir-bir naməyi-əməllərini oxudular. Biri gəmi, o biri dəmiryol ixtira etdiyi üçün, odlu gürzlər ilə bir neçə dəfə vurub əjdahaların ağzına atdılar. Biri balon qayıran idi; bunu Allaha ox atan firon cərgəsindən hesab edib artıq cəza üçün bir əl qır qazanında qaynadıb sonra alova atılmasını məsləhət gördülər. Təyyarəçi qır qazanına düşəndə, usta Ağabala "Allah sizə lənət eləsin! Az qalıblar Allahın da yanına çıxsınlar!" – sözləri ilə ürəyindən tikan çıxartdı. O biri namələr oxunanda çoxlu qəzetçi adları söyləndi; bunları da əvvəlki qayda ilə odladılar. Sonra rəssamları gətirdilər, bunları sorğusuz qır qazanına doldurdular. Artistləri zəncir ilə döyüb öldürdülər. Avropa və Amerika alim, kəşşaf, ixtiraçı və başqa namaz qılmayıb və şeytan əməllərinə rəvac verənləri təmamən yandırıb küllərini sovurdular. Axırda bir cırıq naməyi-əməl çıxdı; bunun sahibi bir balaca arıq adam idi. "Kimsən? Nə karəsən?" – deyə sual olunduqda – "kərimxaniyəm!" – deyə fəxr ilə cavab gəldi. Bunu eşitcək zəbanilər gülməkdən bayıldı; Əzrail özündən getdi. Şadlığından usta Ağabalanın papağı düşüb diyirləndi: "Buna bax, buna! Alma qaxına oxşayır, məlunun könlündən kərimxanilik keçir!" – dedi. Zəbanilərdən biri kərimxanini barmağının ucunda götürüb qır qazanına atdı və qarışdırmağa başladı...

Usta Ağabala gördü ki, baxmaq ilə qurtarası deyil. Hər dəqiqədə minlərcə adamı çəkib cəhənnəmə tökürlər, yavaşca qıl körpünün üstə çıxdı. Onun önündə rusca oxumuş bir adam və çarşabsız bir qadın gedirdi. İkisi də qıl körpüsünün ortasına çatmamış uçub cəhənnəmə vasil oldu. Usta isə quş kimi gedib ayağa çıxdı.



## VIII

Cənnəti-ənbərin qapıları usta Ağabalanın üzünə açıldı. Rizvanlar təzim edib ustanın pak qədəmlərini təbrik etdilər. Bir dəqiqədə minlərcə huri tökülüb işvə sataraq onu apardı. Səndəl taxtlar, ipək mütəkkələr hazırlanmışdı. Ustanı oturtdular. Gözəl bir çocuq bir piyalə ləl tək şərab gətirdi. Şərab çox ləzzət verdiyindən dünyada çəkdiyi zəhmətlər yadından çıxdı. Bədəninə anlaşılmaz qüvvələr gəldi, gözləri işıqlandı; ürəyində yeni bir hiss-həzz və ləzzət hissi oyandı. Ətrafa baxdıqda gözəlcə hurilər gördü, vücudu odparəyə dönüb ilk dəfə olaraq həqiqi eşqin nə olduğunu duydu. Hurinin birini sağına, birini soluna aldı və incə bellərini qucub almaya bənzər yanaqlarından öpməyə başladı. Öpdükcə də eşq atəşi alovlanıb ustanın varlığına yayıldı.

Bu hal çox davam etmədi. Bir də yan tərəfdən keçəl Həsən çıxıb usta ilə salamlaşdı:

– Ya Allah, usta!

Usta dik atılıb cavabında:

– Ya Allah, Məşədi Həsən! – dedi, – balam, sən hara, bura hara!.. Yəni ağa ilə qulun arasını bilmək olmaz; hər sirr Allah yanındadır.

Keçəl Həsən ustanı qucaqlayıb çəkə-çəkə apardı:

– Əşi, bir gəl, gör burada nə ləzzət var!

İki mömin yaşıl ağacların kölgəsinə getdi. Gəzdilər, dost-aşnaları tapdılar. Əliəsgər ağanı da tapıb "başa qovurma" oynamağa kəsdirdilər. Qotur Səməddən başqa hamı razı oldu; dedi:

– Siz öləsiniz, uşaqlar, bu gecə birə məni yatmağa qoymayıb. Hambal Qulu mənimlə yan-yana yatmışdı, bilmirəm onun birəsidir, ya nədir?

Qotur Səmədin sözlərini hamı, istiğfar etdi, usta Ağabala isə dilgir olub dedi:

– Qələt eləmə, məlun, Allahın cənnətində birə nə gəzir? Görəsən yenə qoturun tutub nədir!

Səməd ustaya darıldı, sıçrayıb onu döymək istədi qoymadılar. Huri və qılmanlar gəlib aralığa sülh, asayiş saldılar. Yenə hərə bir guşəyə çəkilib kefə məşğul oldu.

Usta Ağabala axund Əliəsgər ağanı hələ görməmişdi. Soraqladı: "Gələndən süd gölçələrinin yanında kefə məşğuldur" – dedilər. Usta getdi. Çarhovuzun yanından keçdikdə pinəçi Qafara rast gəldi. Bir-birinin halını soruşduqdan sonra Qafar əyilib ustanın qulağına:

– Gecə birə əziyyət eləmir ki? – deyə sordu.

Usta bir də haldan çıxdı, yenə dava düşəcək idi. Qafar and içib hamının birədən şikayətçi olduğunu söylədi:

– İnanmırsan, – dedi, – palanduz Əkbərdən soruş, kişi dünəndən bəri təndir axtarır ki, paltarlarını çırpsın.

Usta darğın bir halda gedib ağanı tapdı. Ağa Əliəsgər ağa əynində yalnız camaşır olaraq qılmanları başına toplayıb "hoppan-hoppan" oynayırdı. Hərdənbir qılmanları elə çimdikləyirdi ki, yazıqların gözləri yaşarırdı.

Ağanı görcək ustanın cəmi dərdi yadından çıxdı ayağına yıxılıb sevincindən ağladı:

– Cəlalına qurban olum, ay ağa! – dedi.

Ağa, ustanı yanında oturdub:

– Ağabala, – dedi, – mən ölüm mənimlə aran necədir?

– Sənə fəda olum, əcrindir çəkirsən!

Ustanın sözləri ağanı son dərəcə məmnun etdi, əmr verdi, huri və qılmanlar tökülüb ustanı qıdıqlamağa başladılar. Usta Ağabala əvvəl bir az utandı, sonra yavaş-yavaş açılışdı-gördü heç eybi yoxdur; cənnət zatən huri-qılmanlardan ibarət idi. Başını döndərdi, gözləri, ağacın dibində barmaqlarını əmən ala gözlü bir qılmana ilişdi. Qılmanın duruşu ustaya çox xoş gəldi.

– Qadan canıma, ay bala, gəl yanıma! – deyə onu çağırdı.

Qılman gülümsünə-gülümsünə gəlib ustanın qucağında oturdu. Usta başını əyib "Uxay!" – deyə-deyə qılmanı öpmək fikrində idi, bir də hamamın divarından asılan köhnə fitə qopub başına düşdü...

Usta Ağabala yuxudan dik atıldı. Qaranlıq hamamda kimsənin olmaması, ona təəccüblü gəldi. Qılmandan ayrılmağına çox acıyıb acığını fitədən aldı – götürüb gücü gəldikcə yerə çırpdı; səs hamama düşüb gülüşməyə bənzər bir əks-səda verdi. Gülüşmə ustanı bir az qorxutdu; saqqalının tükləri hənanı deşib çıxmaq istəyirdi. Doğrudan da qorxmalı idi: hovuza düşən damcıların hərəsi bir nəğmə oxuyur, divardan asılan fitələr əjdahaya dönmüşdü, hamamın sərbəndinə tökülən yumurta qabıqları, bozbaş sümükləri, qarpız qabığı böyüyüb şişməkdə idi; yavaş-yavaş hərəsi əcaib bir məxluq şəklinə düşüb ustaya tərəf səfər etməkdə idi.

Qılman ustanın yadından büsbütün çıxdı. Nəfəsi büsbütün kəsildi. Nənəsinin uşaq vaxtı cinlər haqqındakı nağılları yadına düşdü: "Cinlər hamamda adamı boğarlar, amma "bismillah" desən qaçışarlar..." Usta nənəsinin sözlərini xatırlayıb qiraətlə "bismillah" çəkdi, yüz yerdən də "bismillah" – deyə əks-sədalar eşidildi. Kişi oturduğu



yerdə büzüşdü; sonra bir-iki "salavat" çevirib şeytana lənət oxudu; yüz yerdən də cavab gəldi. Sanki ustanın ürəyində kankənlər quyu qazır, tappıltısı qulağına gəlirdi.

Ustanın bədəni titrəyirdi.

Usta Ağabala bir neçə dəqiqə yerində sakit oturub kirpiklərini belə tərpətmədi. Bunun ilə də işi düzəlmədi – hər tərəfdən üzərinə hücum edirdilər. Nəhayət, yüyürüb özünü hovuza atdı – arxasınca da yüzlərcə adamlar atılıb ona gülməyə başladılar. Bəzisi gözlərini ağardaraq: "Cənnətin qəbzini bizə ver, verməsən səni boğarıq" belə deyirdi. Cinlərin həyasızlığından biçarə kişi saqqalının hənasını yuyar-yumaz hovuzdan çıxmağa məcbur oldu: amma çifayda, minlərcə adam da bununla bərabər çıxdı və hamamın ortasında ustanı araya alıb, çəpik çalıb oynamağa başladılar.

Ustanın dili daha söz tutmurdu, ayaq üstə durmağa belə taqəti qalmamışdı. Yalnız "vay, dədə, vay" – deyə bilib hissiz yerə yıxıldı.

## IX

Usta Ağabalanın hamamda başına gələn "qəzavü-qədər", sabah Veylabadın hər bir guşəsində danışıldı. Bazarlarda cürbəcür şayiələr yayıldı. Dedilər ki, cinlər usta Ağabaladan cənnətin qəbzini tələb edəndən əvvəl, hamamın yanında cüzamlı Abbasın vurub ağzını əyiblər; dedilər ki, guya Əliəsgər ağa müridləri inandırmış ki, cənnətin qəbzi cinlərə lazım deyil – onlar hər yerə gedə bilərlər; ancaq o hamam cin yığnağıdır; bir dəfə mən oradan keçəndə göydən hamamın üstə bir cüt ayaq sallandığını gördüm... Dedilər ki, guya Əliəsgər ağa "Ayətül-Kürsi" oxuyub neçə dəfə püfləmişdisə də ayaqlar çəkilməmiş, sonra ağa başmaqlarını qoyub qaçmış...

Gün-günü təqib etdi, lakin söhbət şiddətini qeyb etmədi. Məsələ məscid hücrələrində yaşayan tüllab arasında da atəşli münaqişə və mübahisəyə səbəb oldu. Tələbələr iki firqə oldular: bir tərəf deyirdi ki, cənnət qapısı cin-şəyatinə açıqdır, oraya gedə bilərlər, o biri firqə əksini söyləyir və bir mötəbər müctəhidin risaləsinə istinadən cinlərin son mövqeyi zəmhərir olacağını irəli sürürdü.

Seyidlərin gözüaçıq qismi silki hüquqlarını müdafiə edərək, üsyan qopardılar və ikinci firqəyə nifrətlər yağdırdılar. Onlar haqlı olaraq deyirdilər: "Biz cin-şəyatin yoldaşı olmamışıq ki, onları bizim yanımıza buraxalar. Allah zəmhəriri bizdən ötrü xəlq etmiş; oraya cinlər gedə bilməzlər!.."

Xülasə, uzun söhbətlərdən sonra da kimsə bu sirdən agah ola bilmədi. Tələbələr çox mübahisə etdilərsə də, müəyyən nəticəyə gələ bilmədilər. Ancaq davaları düşüb "Ənvari-rəml" ilə vurub biri o birinin dişini saldı...

Şayiələr yenə ətrafa yayılmaqda idi. Ağsaqqallardan birisi əlini Əliəsgər ağanın imarətinin divarına vurub deyirdi: "And olsun bu divardan çıxan nuri-paka! Dünən gecə o hamamın yanından keçirdim, bir də gördüm bacadan bir şey çıxdı. Uzandı, uzandı, bir də gördüm, dalımca gəlir. Qoydum, qaçdım. Gördüm qaçdıqca gülə-gülə dalımca gəlir. Qapıda yıxıldım, ürəyim getdi, sonra necə olduğunu bilmirəm".

Məsələ yenə aydınlaşmadı; dedilər cinlər vurduğu adamların hamısında cənnət qəbzi var imiş. Söz gedib qazıya çatdı. Qazı ağa buyurdu ki, doğrusu mən bu işə qarışmayacağam; çünki külfət sahibiyəm, cinlərin əleyhinə bir şey desəm, gecə gəlib məni boğarlar, balalarım acından qırılar...

Veylabad sakit ola bilmirdi. Camaat işdən əl çəkib "cənnətin qəbzi" məsələsinin həllinə çalışırdı. Bir küy düşdü ki, məşhur seyid Mircəfər ağa rəml atıb hamını bu sirdən agah edəcək. Şəhər həyəcana gəldi. bazar-dükan bağlandı. Camaat məhəllələrə toplanıb gecə sabaha qədər dəstə təpdi. Sabah xəbər çıxdı ki; seyid Mircəfər ağa rəml atıb, görüb ki, usta Ağabalanın hamama düşmüş cənnət qəbzinin ətrafına cinlər yığılıb məsləhət edirlər: Mircəfər ağa dua gücü ilə cinləri cızığa salıb ki, daha bir də oradan çıxa bilməsinlər.

Veylabadda səadət günəşi doğdu. Şəhər böyük bir bəladan xilas olmuşdu. Mircəfər ağanın qapısı tez-tez açılıb xələtlər, qənd kəllələri, çay, quzu... gətirilirdi. O gündən etibarən hamamın qapısı mismarlandı, önünə zibil tökülməyə başlandı. Çox çəkmədi ki, hamam zibilə batdı və yerində böyük bir təpə əmələ gəldi.

## X

Veylabad aram tapmışdı. Camaat öz işinə məşğul idi. Get-gedə "cənnətin qəbzi" məsələsi də unudulub gedirdi. Yalnız cinlərin qorxusu usta Ağabalanın ürəyində hələ davam edirdi. Neçə aydan bəri xəstələnib evdə yatırdı. Dükanında nə var idisə satılıb sərf olunmuş, bir nəticə əldə edilməmişdi. Ailəsi ağır maddi vəziyyət içərisində idi, ev şeylərini satmağa başlamışdı. Körpə uşaqlar aclığa davam



gətirməyib ağlaşırdılar. Kömək gözləniləcək yer yox idi: kimsə qapını açıb hallarını soruşmazdı. Hərdənbir ustanın arvadı Əliəsgər ağagilə işləməyə gedər, axşam uşaqlara çörək qurusu və bayat bişmiş gətirərdi. Bundan da yaraya məlhəm olmazdı. Ustanın azarı hər gün şiddətlənir, aclıq və soyuq onu üzürdü.

* * *

Bir gün bir meyitə rast gəldim – üç-dörd adam aparırdı.

– Ölən kimdir? – deyə sorduqda, öndə gedən tələbə qiraət ilə söylədi.

– Usta Ağabala kəfşduz!

Üç-dörd ay da keçdi. Qış idi. Bir axşam paltonuma bərk-bərk bürünüb bazardan keçdikdə, bir dükan qabağında zarıldayan üç uşaq gördüm. Bunların yalın ayaqları dizlərinə qədər palçığa batmışdı; paltarlarının cırığından bədənləri görünürdü. Səkkiz-doqquz yaşında bir qız kənarda durub başını aşağı dikmişdi. İki balaca oğlan əllərini açıb deyirdi: "Bizə bir çörək pulu ver, dünəndən heç bir şey yeməmişik, acından ölürük!"

Sözlərini bitirməmiş uşaqların üçü də səs-səsə verib ağlaşdı...

Bunlar usta Ağabalanın uşaqları idi. Bunları gördükdə "qəbz" məsələsi başımda təzələndi və yuxarıda yazılan hekayə gəlib gözlərimin önündən keçdi.

*1909*

## AĞ BUXAQDA QARA XAL

*Çağırram hay da verməz,*
*Bədəsil fayda verməz;*
*Ağ buxağın altından*
*Bir öpüş pay da verməz.*

***Bayatı***

Məşhəd məscidlərinin birindən camaat dəstə-dəstə çıxıb dağılırdı. Yolun o tay-bu tayında hasar təşkil edən dilənçilər, kor və şillər, qolları kəsilmiş cahıl və ahıllar camaatı əhatə edərək sədəqə diləyirdilər. Dilənənlər arasında bir çox rübəndli qadınlar da vardı. Bunların bəzisi kişiləri: "Ağa, siğə mixahi?" – deyə yan küçələrə

doğru izləyirdi. Kimi qadınların təkliflərinə razı olaraq, arxalarınca gedir, kimi məna verməyib, onlardan uzaqlaşmağa çalışırdı. Kənardakı hovuzun yanında uca boylu, ağ rübəndli bir qadın durub, gözlərini məscidin qapılarına dikmişdi. Yenə xalq məsciddən axın-axın çıxıb, yan küçələrə yayılırdı. Bir də məscidin qapısında qara xətli, ipək cübbəli, gənc mərsiyəxan göründü. Məğrur bir halda sağ tərəfə yönəlib nəleynini geydi və iki əli ilə tirmə sarığını düzəltdi, sonra gümüş başlı əsasını müceirdən alıb yavaş addımlarla məscidin səkisindən aşağı enməyə başladı. Hovuzun kənarında duran qadın bunu görər-görməz arxasınca getməyə başladı. Mərsiyəxan dar və əyri küçələri birər-birər keçərkən qadın da onu təqib etdi. Tənha bir timçədə qadın mərsiyəxana yanaşıb durdu. Mərsiyəxan da ayaq saxladı.

– Bacı, mənə görə qulluq? – dedi.

Qadın titrək və narın bir səslə:

– Ağa, qulluq deyil, şəriəti-peyğəmbərdir. Məni özünə siğə etməni xahiş edirəm.

Təklif mərsiyəxanı heyrətə gətirmədi–siğə və mütə İranda kök atmış ən adi bir dini adətdir. Buna baxmayaraq mərsiyəxan "yoxsa məni lotular əlinə salmaq istəyir" – deyə düşündü.

Qadın bir az cəsarətli:

– Ağa, məni Xorasanın başqa qadınları kimi gündə neçə kişiyə mütə olan qadınlardan bilmə. Xeyr! Mən bu gün səni minbərdə ağlayan gördüm. Məhz imam yolunda kirpiklərindən axan yaşların məftunu olaraq sənə siğə olmaq istədim. Bəlkə bunun səbəbinə Allahtəala günahlarımı bağışlaya!

Mərsiyəxan xanımın sözlərinin doğru və şəri olduğunu bilirdi, lakin getməyə cəsarət edə bilmirdi, çünki lotular əlinə keçmək ehtimalı qüvvətli idi.

– Nəcibə xatun, mənim siğəyə ehtiyacım yoxdur, şəhərimizdə həm əyalım, həm də siğə kənizlərim var, – deyə mərsiyəxan əsli fikrini gizlədərək xanımın məramını anlamaq istəyirdi.

Qadın ciddi səslə:

– Ağa, bir günlüyə siğə et, yarım günlüyə et, bunu da istəməsən, nə eyib edər, bircə saatlığa et ki, tutduğum və qıldığım halala çıxsın!

Xanımın şirin və etimadkar səsi mərsiyəxanın mühakimələrinə qələbə çalmağa başladı. Çırpınan ürəyi əqlin zəncirindən qurtararaq mərsiyəxanın əndişələrini pərdələdi. Artıq bir söz əlavə etmədən xanımın arxasınca düşüb getdi.



Çox çəkmədən xanım böyük bir darvazanın önündə durdu. Darvaza açıldı, mərsiyəxanı əlvan çiçəkli bağçanın rayihəsi qarşıladı. Gözəl xiyabanlardan keçib, əndərun dairəsinə gəldilər. Xidmətçilər bunlara nəzakətlə təzim edərək, nəqşkar bir otağa gətirdilər. Pəncərələrin rəngarəng şüşələrindən içəri düşən işıq gözəl xalılara, ipək püştə və mütəkkələrə xariqələr bəxş etmişdi, lumu ağacları və çiçəklər bu mənzərəni bir qat daha süsləmişdi...

Xanım rübəndini qaldırmayaraq, mərsiyəxana yer göstərdi. Bir də qapı açıldı, xidmətçi qadın əlində aftafa-ləyən içəri girdi. Mərsiyəxan əllərini yuyub, silindi. Bu gedər-gətməz bir xədim zənci gəldi, bürünc sinidə mavi bir gülabdan gətirdi, mərsiyəxanın önündə diz çökərək, büt kəsildi. Mərsiyəxan gülabdanı alıb ətirləndi. Zənci nəzakətlə çıxıb getdi. Xanım qapını qapayıb yerində durdu. Mərsiyəxan xanımın məramını anlayaraq siğə duasını oxumağa başladı. "Qəbultü!" – deyər-deməz xanım rübəndi və çarşabı atıb, mərsiyəxanın qarşısında cilvələnməyə başladı. Qara çatma qaşları, uzun kirpikləri, ağ buxağındakı qara xalı... ox olaraq mərsiyəxanın ürəyinə batmağa başladı. O, heyrətindən içini çəkərək:

– Xudaya xudavəndə! Bu nazənin sənəm huriyi-rizvanmı?.. Bu sərv qamət, bu cazibəli gözlər, siyəh danə... Bunlar röyamı? – deyə məst oldu.

Xanım arxasında qoşa hörüklərini oynadaraq qapıya doğru getdi və iki dəfə:

– Bəşir! Bəşir! – deyə çağırdı.

Zənci qapının arxasında hazır durmuş kimi haman içəri girdi. İri bir məcməyi gətirib mərsiyəxanın önünə qoydu və cəld yox oldu. Mina kuzənin altına çiçəklər və yarpaqlar döşənmişdi, yanında iki büllur qədəh, dürlü məzələr və çərəzlər vardı.

Xanım mərsiyəxanla yan-yana oturub, şam kimi barmaqları ilə kuzəyə yapışdı. Şiraz şərabı qədəhlərə doldu. Eyş nəşəsi mərsiyəxanı qanadlandırdı. Sarığını çıxarıb kənara qoydu və yaldızlı araqçınını düzəldib, büllur qədəhə yapışdı. "Guşeyi-xərabata" sadiq bir "pir müğan" kimi qədəhi minnətdar bir hal ilə qaldırdı və:

"Bibado bəhar xoş nə başəd,
Bigül ruxi-yar xoş nə başəd..."

– deyə beytin sonunu bitirməmişdi ki, xanım:

"Baqi gülü mül xoşəst, leykin
Bisöhbəti-yar xoş nə başəd!"

– deyə beyti tamamladı. Sonra dodaqları ilə qədəhin kənarına yanaşıb daddı və qədəhi mərsiyəxana verib, onunkunu alıb içdi. Şərab ətrindən məst olmuş dodaqlar bir-birinə qovuşdu. Dadlı bir yoxluq müvəqqəti olaraq onları dari-fənadan ayırdı... Qədəhlər yenidən doldu. Eyş məclisi canlandı. Xanımın tar çaldığını mərsiyəxan heç də gözləməzdi; tar gəldi, xanım köksünə basdı, mərsiyəxan da zümzüməyə başladı...

Şərab, musiqi və incə dilbər nəşəsinə bir də lumu və çiçəklərin rayihəsi qarışıb mərsiyəxanı məst etmiş, səhər bülbülü kimi nalələrilə otağı doldurmuşdu. Arabir susur, alovlu gözlərilə qadını süzür, gülgün badə ilə qurumuş dodaqlarını isladırdı. Xanım da şərab ətri saçan dodaqlarını ona uzadır, qəlb çırpıntıları busələr qucağına atılıb onlar da məst olurdu. Dəqiqələr keçir, sanki qərinələr dolanır. Günəş rəngin şüşələrindən içəri əlvan zolaqlar buraxır, xalılar min bir rəng çalır...

Mərsiyəxanın titrək əli xanımın hərarət saçan belini qucur, o biri əli naşı ovçu kimi, mərmər sinədə dolaşır, məst dodaqlar ağ buxaqdakı qara xala qovuşur... Yenə dəqiqələr illərə, illər qərinələrə qarışıb itir, iki qəlb, iki vücud dadlı bir yoxluğa dalır... Ayılırlar. Mərsiyəxan xumarlanmış gözləri ilə xanımı süzür...

– Xanım, – deyir – bu nə sirdir, anlat görüm?.. Sən kimsən, nəkarəsən? Hansı əfsanənin pərisisən? Anlat, hüsnünün əsiri olub bitirəm.

Xanım totuq əli ilə pərişan zülflərini qızarmış üzündən dağıdıb, ona həsrətlə baxır, susur. Uzun kirpiklərinin arasında odlu yaşlar parlayır:

– Sən əsir deyilsən, – deyir, – mən əsirin olub yanıram. Sənin ilk mərsiyəni dinlədikdə gözəl səsin bütün varlığıma hakim oldu, sızıltılı bir saz kimi tərənələrini daşıyıb durdum. Səsin gecələr yuxumu, gündüzlər rahatlığımı əvəz edirdi. Yer, göy, bütün kainat bir xoş səda olaraq məni oxşayır, eyni zamanda da için-için inlədirdi...

Nəhayət, cəsarətləndim, mənə xudbin hisslər gəldi, o səs mənim olacaq dedim.

Mərsiyəxan özünü xanımın qucağına atdı...

Xanım sona kimi sıçrayıb, mərsiyəxanın qucağından qaçdı və qəhqəhə ilə:



– Molla, məni günaha batırdın: siğənin müddəti çoxdan tamam olmuşdur. Tez ol, geyin, get!

Mərsiyəxan dizi üstə sürünərək, xanımı otaqda izləməyə başladı:

– Gözəlim, günah nə deməkdir – mənəviyyatın ən dadlı nemətlərindən deyilmi?.. Buralar bir cənnət, qədəhlərdə abi-kövsər, sən hurim, ağ buxağın bir kitabi-şərif səhifəsi, xalın ismi-əzəm!.. Qoy o xalı bir də öpüm, qoy doyunca öpüm!..

Mərsiyəxan irəlilədikcə gözəl ondan uzaqlaşıb, qəhqəhəsində davam edirdi:

– Olmaz! Qırxıq baş kişi, olmaz! Eşqində məni yandırdın, odladın; uzun gecələrimi göz yaşları ilə bəzədim, həsrətdən bağrım lalə bağrı kimi yandı... İndi qoy səninki də yansın! Eşq dərdini asanmı sandın?

Mərsiyəxan sıçrayıb xanımı qucdu, lakin xanım yenə ondan buraxılıb qəhqəhə ilə kənara çəkildi. Mərsiyəxan hirsindən gözlərinin yaşını töküb yalvardı:

– Ayüzlü gözəl, zalimlikdən nə çıxar? Eşqin yolunda can verirəm, ağ buxaqda qara xalın dəlisi, divanəsiyəm. Vallah, billah, dəlisi olmuşam!

– Ol, molla, ol, bəlkə qəlbimdən çıxıb məni eşq odundan qurtarasan!.. Mən də sənin yolunda az can verib, az göz yaşı axıtmamışam!..

Gözəl sözlərini qurtarmamış hönkürüb ağladı. "Allahü əkbər, bu nə qəribə iş!" – deyə mərsiyəxan heyrətə daldı. Yalvarırdı, ağlayırdı, ayağına yıxılırdı, yenə xanıma təsir bağışlaya bilmirdi.

– Gözəlim, – dedi – bu əmmaməm, bu Quranım – hamısını o qara xalın yolunda ayağına tökürəm! Göz yaşlarımla qədəm qoyduğun torpağı isladıram... Rəhm qıl, məni eşq sevdasına yandırma!

– Yox, olmaz! Mən yanan kimi sən də yanacaqsan!.. Görürsənmi bu qara zülfü, xalı, bu şux sinəmi... Bunları bir daha görüb bağrına basmayacaqsan; öpüb göz yaşları ilə islatmayacaqsan!.. Get, get! Ağ buxaqda qara xalın illərcə həsrətini çəkərək, mən odlanan kimi, sən də odlan! Sən xal de, buxaq de, ağla; mən da mərsiyəxan, xoş səsli mərsiyəxan deyib ağlayım. Ağlayaq da, bir-birimizi yad edib, həsrətdə yanaq...

* * *

Ağarmış saçları çiyninə tökülmüş, pərişan saqqallı bir qoca yalın ayaqları ilə toz qopararaq, dar küçə ilə gedirdi. Əynindəki paltar solmuş, yıpranmış, qiyafəsindən hansı silkə mənsub olduğu belə sezilmirdi.

Qoca gedir, ayaq saxlayır, əllərini ölçə-ölçə düşünür, göz-qaşını oynadır və öz-özünə "yuxu idimi?" deyə sual verib, yoluna davam edirdi. Qoca bu yolları illərdən bəri dolaşır, bu yollarda illərdən bəri dəyişiklik olmayan kimi, qocanın da hərəkətində dəyişiklik yox idi. Yalnız getdikcə qocalıb, beli bükülürdü.

Qoca yavaş-yavaş gedib bir darvazanın qabağında durdu. Yenə illərdən bəri gördüyü kimi qapalı idi. Ağacların budaqları darvazanın tağının üzərindən sallanaraq sakit durmuşdu. İllərdən bəri şahidi olduğu hal. Ancaq bəzən bu ağaclar yarpaqlı, bəzən yarpaqsız olurdu. Yazda çiçək açırdı, hədsiz arılar onun başına fırlanıb, vızıltı qoparırdı. Bu qədər. Bu neçə ildə o darvazadan bir adamın girib-çıxdığını görməmişdi. Adəti üzrə qoca saatlarca bu darvazanın qarşısında gözlərdi. Bu dəfə də gözlədi. Lakin girib-çıxan olmadı. Yenə əllərini ölçərək düşündü, qaş-gözünü oynatdı və öz-özünə "yuxu idimi?" – deyə sual verib, yoluna davam etdi. Axşam qoca hücrəsinə qayıtdı. Bu dəfə hücrənin havası onda soyuq bir ümidsizlik doğurdu: ürəyi sıxılır, gözlərindən yaş süzülürdü. Başını divara söykəyib oturdu. Onda tühaf bir nəşə oyandı – uzaq keçmiş gözlərinin qarşısında canlanmağa başladı. Sanki hücrənin küncünə göydən bir nur endi, ətraf işıqlandı, mina bardaqlar və büllur piyalələr düzüldü; hər yer çiçəklərlə bəzəndi, incə tar səsi eşidildi... "Yuxumu?" – deyə qoca yerində qımıldandı:

– Gəl, gəl, sənəmim, gəl! Göz yaşları olub yollarına səpildim! Həsrətdən alov olub yandım!..

Ağ, incə geyimli gözəl küncdə dayanmışdı. Qara saçları ağ gərdənini qaplamışdı. İri gözləri hüzn saçırdı, sanki: "Bilirmisən, molla, eşq dərdində yanıram, odlanıram!" – deyirdi. Qoca dəli kimi sıçrayıb, gözəlin ayaqlarını qucaqladı.

– Eşqimlə yan, dedin, yandım! Həsrətlə dolandım. Xal dedim, buxaq dedim, odlandım. Bütün həyat və nəşəmi göz yaşlarında boğdum. Axırda səni tapdım... İndi yenə o səfalı dəqiqələr gəldi, yenə nazlı gözələ qovuşdum. Yenə ağ buxaqda qara xal ruhumu oxşayır... Bilirmisən, gözəl, qara xalın dəlisiyəm, dəlisi, divanəsi! Rəhm qıl, qoy bir də o xalı öpüm, qoy doyunca öpüm!..

Qoca gözəlin ayaqlarını qucub hərəkətsiz qalmışdı. O biri səhər onu hücrədə bu vəziyyətdə də buldular. Soyuq meyit əllərini qoynuna qoyub, dizi üstdə küncdə qalmışdı.

*1910*



## QUMARBAZIN ARVADI

Yayın aydın gecələrindən idi. Söyüdlər və akasiyalar sakit və samit durub, kainatın dərin bir yuxuya dalmağına tamaşa edirdilər. Cavan gəlin Sürəyya pəncərədən küçəyə zənlə baxıb, qulaq verdi və səs-səmir eşitməyib, ehmal ayağının ucunda gəlib yatacağının üstə uzandı. "Gəlmədi, – gəlin öz-özünə dedi, – yəqin qumarxanalardan çıxıb, görəsən haraya getdi... Hər gecə belə, bilmirəm dərdimi açıb kimə deyim. Evdə də bir söz danışa bilmirəm: qayınatam gedib bazarda abrını tökür, o da gəlib məni döyüb incidir ki, niyə mənim gəzdiyimi onlara xəbər verirsən. Demirəm də, gecəyə kimi evə gəlmir. Bilmirəm məni avara qoyacaq idilər, niyə vətəndən diyarbədiyar saldılar... Qürbətə əvvəl qız verib öləni görüm qəbri odla dolsun!.."

Sürəyya bir də yatacağından qalxdı və ərinin gəlməməyini həyətdə yatan qayınana və qayınatasına bildirməmək üçün, yenə ayağının ucunda ehmal yeriyə-yeriyə pəncərəyə tərəf gəldi. Ay batmağa üz qoymuşdu. Küçədə söyüdlərin və akasiyaların uzun kölgəsindən başqa bir şey görünmürdü. Sürəyya pəncərəni açıb başını dışarı çıxartdı və nə qədər diqqətlə zənn etdisə, küçədə gözünə bir adam qaraltısı sataşmadı.

Sürəyya yavaşca pəncərəni örtüb, ayağının ucunda ehmallıqla qayıdıb, yatacağına uzandı.

Sabah günorta Sürəyyanın qayınatası bazardan hirsli qayıdıb, düz gəlinin otağına hücum gətirdi və ağzına gələn latayırı söylədi:

– Bu gün Səməd dükana niyə gəlməyib? Daha nə vaxtacan bu mənim malımı, pulumu aparıb uduzacaq? Nə vaxta kimi əlinə düşəni başqa arvadlara yedirəcək? Daha bəsdir. Adamda da bir həya gərək. Mən səni gəlin gətirdim ki, oğlumun ayağını qumarxanalardan, yava yollardan çəkəsən. Gətirmədim ki, sən də mənə bir tərəfdən yağı olub, oğlumun əməllərini məndən gizləyəsən. Bütün işlər başı sənsən; çörəyimi yeyib, mənə xəyanət eləyirsən. Baba, gözüm, canım, niyə itilib dədəyin xarabasına getmirsən? Dədən biqeyrət oğlu gərək zibilini öz başından rədd eləyib, mənim qapıma tökəydi?!

Kişi ağzına gələn söyüşü gəlinə dedi və sonra da qolundan yapışıb, darta-darta:

– Canım, çıx get mənim evimdən, daha mən sənə çörək verməkdən təngə gəldim, – dedi.

Biçarə Süreyya qayınatası dartdıqca, yaylığı ilə bərk-bərk bürünüb, səsini bilmərrə çıxartmırdı. Ancaq qorxusundan tir-tir əsib, gözlərinin yaşını tökürdü.

* * *

Bir il idi ki, Süreyyanın ömrü belə keçirdi. Əri Səməd bir gecə evdə tapılmazdı; peşəsi neçə günlərlə dükana getməyib, qumarxanalarda, pis yerlərdə eyş-işrətə məşğul olmaq idi. Arvad isə qayınana və qayınata boyunduruğunun altında töhmətzədə olub, cavan ömrünə balta çalırdı. Səməd nə günah eləsə idi, nədə müqəssir olsa idi, nəticəsi Süreyyaya toxunacaq idi. Qayınana axşamadək onun üzünü danlayırdı, qayınlar söyürdülər və çox vaxt acıqları tutanda ev şeylərini bir-bir başına yağdırırdılar. Qayınata isə arvadı ilə namusa xətər yetirən sözlər icad edib, gəlinə min böhtanlar isnad verirdilər. Vicdansızlıq o dərəcəyə çatırdı ki, qoca bu böhtanları bazarda hər ötüb keçənə nağıl etməkdən də çəkinmirdi.

Bu söz və söhbətlərin, müamələ və rəftarın nə qədər Süreyyaya acı təsiri olurdusa da, səbir eləyirdi. Səbir eləməyib də nə edə bilərdi? Müslimələrin səbirdən başqa əllərində bir silahları yoxdur. Bunlar üçün azadəlik, öz diriliyi yolunda mübarizə yaranmayıb; hamısı əsir, tərbiyəsizlik əsiri...

* * *

Bir gün Süreyyanın cehizlərini qayınatası çıxardıb, evdən birbəbir həyətə səpdi və dedi:

– Mənim bundan sonra Səməd adlı oğlum və Süreyya adlı gəlinim yoxdur. Gedin mənim evimdən hara kefinizdir!

O gündən Süreyya əri ilə şəhərin bir kənarında otaq kirayə edib, sakin oldular. Səməd valideyninin təhti-nəzarətindən qurtarıb avara gəzməyə daha da meydan vermişdi. Süreyya yalnız damlarda, tənha həyətlərdə ömrün ağır əziyyətlərinə davam edirdi. Səməd neçə günlərlə naməlum yerlərdə özü üçün ləzzət aparanda, Süreyya ac və yuxusuz onun yolunu gözləyirdi. Gəlib çıxdıqda da arvadın cehizlərindən bir şey alıb aparmamış əl çəkmirdi.



– Ay balam, axır belə olmaz, – Süreyya bir gün ərinə dedi, – sən mənim cehizlərimi tamam aparıb uduzdun.

Səməd arvadının cavabında dinmədi (Səməd tək-tək arvadı ilə danışardı, həmişə evdə sakit və qaşqabaqlı oturardı) və başladı döşənən xalçanı yığıb, aparmağa. Süreyya gözləri yaşlı yeriyib, onun üstə çıxdı və istədi götürülməyinə mane olsun, bir də əri sinəsinə bir yumruq çırpıb, dedi:

– Çəkil o yana, rədd ol! Sən mənim vəzir-vəkilim olmamısan!

Süreyya ağlaya-ağlaya yaxın gəldi:

– Mən onu barmaqlarım tökülə-tökülə toxumamışam ki, aparıb uduzasan. Bu da o biri şeylərim olmayacaq: paltarım getdi, palazım getdi, qızılım getdi, vallah, qoymayacağam daha bunu aparasan!

Süreyya Səmədin əlindən xalçanı dartdıqda Səməd təpiklə arvadını vurdu yıxdı və xalçanı götürüb, qapıdan çıxdı. Üç gün Səməd itdi. Onu şəhərdə "gördüm" deyən olmadı. Dördüncü gün nahar vaxtı qoltuğunda bir çörək gəlib çıxdı. Süreyya çörəyi aldı və yarı acıqlı, yarı sızıltılı bir səslə dedi:

– Balam, nə vaxtacan gedib, batıb gələcəksən; mən də qalacağam damın altında ac, susuz. Bircə adamım olmayacaq ki, bazarlıq eləsin. Pulum olmayacaq qənddən, çaydan alım... Balam, axır mən də insanam – yemək istəyirəm, içmək istəyirəm. Bunu Allah götürərmi, sən mənim başıma bu müsibəti gətirirsən?!

Səməd qaşqabaqlı içəri daxil olub, otağı nəzərdən keçirməyə başladı.

Süreyya sözlərində davam edirdi:

– Mən bu evdə yeməyəcəyəm, geyməyəcəyəm, gün görməyəcəyəm, niyə məni avara qoyursan? Bir üzüm qız, bir üzüm gəlin tək evlərdə qalıram, axırda adıma da söz desələr yaxşıdırmı? Arvad saxlaya bilmirsən kağızımı ver, məni zindandan qurtar!

Səməd arvadının sözlərini kəsib, acıqlı:

– Yenə zəhləmi tökmə, bircə sandığın açarını mənə ver görüm!

Süreyya "sandıq" sözünü eşitcək filfövr dəyişilib, bir ayrı hala düşdü; kədərdən rəngi qaçıb, dodaqları yarpaq kimi əsdi.

– Açarı nə edəcəksən? – dedi, – qalan qızıllarımamı gözünü dikmisən? Vallah, boynuma diri ilan salasan onları verməzəm. İmanım, dinim bir qızıldır, onu da aparıb uduzmaqmı istəyirsən?

Səməd bir az ehmal səslə:

– Axmaq olma, sabah yenə gətirib, özünə verəcəyəm.

– İstəmirəm. Elə xalımı, gəbələrimi də sabah gətirirdin; üzüklərimi, qızıl yaxalığımı da gətirirdin... İstəmirəm, bircə ətəkliyim qalıb, daha onu verməyəcəyəm.

Səməd hirsli bir halda sandığa tərəf yeridi:

– Məni yenə dindən, məzhəbdən çıxartma, açarı ver!

Süreyya ərinin sandığa doğru getməyinə mane olub deyirdi:

– Vallah, verməyəcəyəm! Qızıl mənim yaraşığımdır, adımdır.

Səməd arvadını acıqlı kənara itələdi:

– Sənin yenə döyülməyin yetişib, iki-üç gündür ki, döyülməmisən deyən havalanmısan.

– Döyülməyim yetişib, döy! Daha nəyim qalıb ki; başımda yolunmaqdan bir tük qalmayıb, dişlərimi vurub salmısan.

Səməd yerindən qalxıb, arvadına bir şapalaq çəkdi ki, zərbdən gözlərindən od parladı. Biçarə ağlaya-ağlaya ərinə qarğış eləməyə başladı:

– Qolların qurusun! Sənin gücün məni döyməyə çatırsa, mən də Allaha sığınmışam. Allah bu zülmü götürməsin!

Səməd otaqdan çıxdı və neçə dəqiqədən sonra əlində balta içəri daxil olub, sandığa tərəf getdi. Süreyya qollarını sandığın üstə gərdi və ağladı.

– Vallah, qoymayacağam sındırasan. Mənim göz dikəcəyim bircə qızıldır, onu da aparsan nəyim qalır?

Səməd arvadını zorla kənar edib, baltanı sandığa çırpmağa başladı. Süreyya yenə irəliləyib, gözlərinin yaşını tökə-tökə ərinin əllərini tutdu. Səməd acıqdan rəngi qaçmış:

– Ölümü yetişib ha!..

– Ölümüm yetişibsə, öldür. Bu gündənsə ölüm yaxşıdır.

– Ölümün yetişməsin, o yana qaç!

– Qaçmayacağam!

Səməd bir də güc elədisə arvadın öhdəsindən gələ bilmədi. Baltanı qovzadı sandığa çırpsın, yenə Süreyya özünü qabağa verib, ağlaya-ağlaya yalvardı. Səməd arvadını döydü, söydü, üstünə çığırdısa da, Süreyya qızıllarından əl çəkməmək fikri ilə sandığı qucaqladı. Bir də balta ildırım kimi havadan endi. Süreyya əllərini başına atıb, sandığın qabağına sərildi...

Al-qan gəlinin göz yaşları ilə qarışıb, soyuq yanağı aşağı axırdı.

*1913*



# CƏFƏR CABBARLI

(1899-1934)

*XX əsr Azərbaycan ədəbiyyatının yaradıcılarından olan Cəfər Cabbarlı Xızıda kömürçü ailəsində doğulmuşdur. Təxminən iki-üç yaşlarında valideynləri ilə Bakıya köçmüş, ömrünün axırına qədər burada yaşamışdır. İlk təhsilini molla yanında almış, sonra 7-ci rus-tatar və sənaye məktəblərində oxumuşdur. 1920-ci illərdə o, Bakıda teatr texnikumunu bitirmiş, Dövlət Universitetinin şərq fakültəsində təhsil almışdır. 1929-cu ildən ömrünün axırına qədər Azərbaycan Dövlət Dram Teatrında bədii hissə müdiri vəzifəsində çalışmışdır. 1934-cü ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur. Məzarı Fəxri xiyabandadır.*

*Bədii yaradıcılığa təxminən 15-16 yaşlarında başlayan Cəfər Cabbarlı cəmi 35 il yaşamasına baxmayaraq, özündən sonra zəngin bir ədəbi irs qoymuşdur. Bu irsin mühüm hissəsi nəsr əsərləridir. Hekayə janrında yazılmış həmin əsərlərin ən gözəl nümunələrindən biri "Aslan və Fərhad"dır. 1946-cı ildə yazılmış bu hekayə ilk dəfə 1944-cü ildə "Vətən uğrunda" jurnalında (№1) dərc olunmuş, sonralar dəfələrlə yazıçının müxtəlif kitablarına və ayrı-ayrı antologiyalara daxil edilmişdir. Hekayənin buradakı mətni "Dünya Uşaq Ədəbiyyatı" seriyasından buraxılan "Ata və oğul" (Bakı, 1990) kitabından götürülmüşdür.*

## ASLAN VƏ FƏRHAD

Böyük bir şəhərin ən qaranlıq və tənha küçələrindən birində olan kiçik, birmərtəbəli evdə iki qardaş, bir bacı yaşayırdı. Qardaşlardan biri on altı yaşında Fərhad, o birisi iyirmi altı yaşında Aslan idi. Bacıları isə on beş yaşında Züleyxa adında bir qız idi. Bu kiçik ailədə baş verən və vaxtilə mənə söylənilən olduqca mütəəssir bir hadisə mənim qəlbimi sıxdığı üçün bu hadisəni möhtərəm oxuculara söyləməklə onları da öz dərdimə şərik etmək fikrindəyəm.

Zənnimcə, xilqətdən daha əvvəl ədalətsizlik və vicdansızlıq yaranmışdır. Zira, istər tarixə, istər indiki həyata baxılarsa, çox az insan tapılar ki, ədalətsizlikdən uzaq olsun. Az adam tapılar ki, bir pis iş etdikdə onu vicdanı ilə müqayisə etsin, yaxud fikir eləsin ki,

əcəba, bu əmrə ki, mən iqdam edirəm, bu rəvamıdır?.. Nəinki insanlar arasında, hətta xilqət və təbiətdə daha böyük qanunsuzluq müşahidə olunur. Görürsən, bir nəfər nifrətə şayan olan zalımı ucaldıb bütün arzuların fövqünə yetirdi, amma digər əhli-vicdan, pak və müqəddəs bir şəxsi xar edib ayaqlar altına saldı, hər tərəfdən onu fəlakət buludları çulğaladı, o qədər o biçarəni əzdi ki, axırda onu ya intihara, ya qeyri bir tövrlə canını həyatın əzablarından qurtarıb qara torpaq altına girməyə məcbur etdi.

Ola bilsin ki, siz buna etiraz edəsiniz, möhtərəm oxucularım! Amma səhv edirsiniz. Hər addımda milyonlarla buna sübut tapılar. Onlardan biri də yuxarıda söylənilən ailədə baş verən hadisə ola bilər.

Fərhad, Aslan və Züleyxanın ata-anası kiçik bir kənddən olub, güzəranın ağırlığından köçüb şəhərə gəlmişdilər. Bunlar da hər üçü şəhərdə doğulmuşdur. İllərlə qürbət vilayətdə zəhmət və məşəqqətlə ailəsini dolandıran Aslanın atası, Aslan on altı yaşına yetdikdə vəfat etdi. Bir yandan Aslan nökər durub, o biri tərəfdən də anası qulluqçuluq edib, altı yaşında olan Fərhadı və beş yaşında olan Züleyxanı saxlayırdılar. Altı ay keçmədi ki, biçarə övrət də canından artıq sevdiyi kiçik balalarına həmişəlik əlvida etməyə məcbur oldu. Biçarə ana ölümünə deyil, əziz və hənuz səbavət badəsi ilə bihuş olan balalarının taleyinin necə olacağını fikir edib ağlayırdı. Amma əcəl heç bir məzluma rəhm eləyib aman verməz, bərəks, hamısını dünyadan intizar köçürməyə səy edər.

Qışın soyuq, məşəqqətli bir gecəsi idi. Nə bir işıq görünür, nə də bir zihəyat səsi eşidilirdi. Ancaq Aslangilin evindən zəif bir işıq gəlirdi. Balaca daxmacığın küncündə biçarə ana uzanıb, axırıncı dəfə olaraq, dövrəsinə yığılan əziz balalarının rəngi solmuş sifətlərinə baxırdı. Onlar isə analarının halını görüb: "Anacan, bəs biz?" – deyib səs-səsə verib ağlayırdılar. Külək vəhşi və qorxunc vıyıltılarla qapıları tərpədirdi. Şaxta evə girib xırda uşaqları payız yarpağı kimi titrədirdi. Fərhad və Züleyxa özlərini analarının üstünə yıxıb ağlayırdılar. Aslan bir qədər böyük olduğu üçün onları ovundurmağa çalışır, gah da ürəyi davam etməyib zar-zar ağlayırdı. Bu şəhərdə bir nəfər əqrəbaları yox idi ki, bu fəlakətzadələrə təsəlli verəydi, onları sakit edəydi. Hava daha da sərtləşir, külək daha da gücləşirdi, onsuz da sınıq olan qapını tamamilə sındırmağa səy edir kimi çırpınırdı. Lampanın ziyası yavaş-yavaş sarımtıl bir rəng alırdı. Bu işıq uşaqların solğun üzünü



daha da qəmginləşdirirdi. Uşaqlar ürəkyandırıcı bir səslə ağlayır. "Anacan, ölmə!" – deyib çığırırdılar. Ana biixtiyar balalarının üzünə baxıb ağlamaq istəyirdisə də, taqəti yetmirdi. Yavaş-yavaş gücdən düşürdü. Axır nəfəsdə biçarə ana tamam gücünü yığıb, qollarını açdı, balalarını qucaqlayıb öpdü və zəif bir səslə dedi: "Balalarım, mən ölürəm. Bir-birinizdən muğayat olun. Bir elə adam yoxdur ki, sizi ona tapşırım. Aslan, sən onlardan yenə bir az böyüksən, bir ümidim sənə gəlir. Aslan, oğlum, barı sən balalarıma kiçik pasiban ol. İlahi, üç nəfər yetim balamı sənə tapşırıb gedirəm... Can balalarım!"

Ana gəlinlikdən bir örpək saxlayırdı. Aslana tapşırdı ki, onu Züleyxaya versin. Ondan başqa heç bir şeyə gümanı gəlmirdi. Ana bir də balalarını öpüb, yaşla dolu gözlərini yumdu...

Üç nəfər fəlakətzədə, pasibansız dünya üzündə qaldı. Soyuq qış günləri... dolanacaq yox... tanış yox... bəs bunların halına kim yanacaq? Yenə biçarə Aslan... Axırıncı ümid o idi. Hərçənd o da uşaq idi, ancaq o birilərdən böyük olduğu üçün hər zəhmətə o qatlaşmalı idi.

Doğrudan da Aslan qayət-qəyur, çalışqan bir uşaq idi. Bütün günü küçələri gəzdi ki, özünə bir iş tapsın, mümkün olmadı. Son qəpiklərini də xərcləyib qurtardı. Nökər durmaq istədi, uşaq olduğu üçün heç kəs ona beş manatdan artıq vermədi. Utandığından da heç kəsə dərdini açıb deyə bilmirdi. Yenə axşam oldu. Evə qayıtdı. Pul yox... çörək yox... Yetimlər məlul-məlul Aslanın əlinə baxdılar. Aslan onların üzünə baxmağa utanırdı. Hərdən qaşını qaldırıb nəzəri uşaqların solğun üzünə düşəndə bütün əzası inildəyirdi; nəhayət, o tab gətirməyib gizli-gizli ağlamağa başladı. Bu yaşda bir uşağın üstünə bu qədər əzab düşəndə, əlbət ki, özünü itirər. Uşaqlar: "Mən acmışam", – deyə zırıldayırdı. Uşağa hər möhnət üz versə, anasına gümanı gələr; onlar da "ana" deyib ağlayırdılar. Aslan uşaqların başını dizi üstündə qoyub ovundurmağa çalışırdı; "Ağlamayın, Fərhad, Züleyxa... Sabah sizin üçün çoxlu-çoxlu şey alacağam". Uşaqlar bir-iki saniyə sakit olur, sonra yenə ağlayırdılar.

Ayazlı qış gecəsi idi. Daxmada çıraq yanmırdı. Ayın solğun işığı pəncərədən içəri düşüb uşaqların tutqun üzünü daha da kədərləndirirdi. Uşaqlar, ağlamaqdan yorulmuş kimi, başlarını Aslanın dizi üstə qoyub uzandılar. Ayın solğun işığı hərdən buludla pərdələnib uşaqları qaranlığa qərq edirdi. Aslan daha məhzun bir halda qardaşına və bacısına baxır, gah da onların halına çarə arayırmış kimi məlul-

məlul ətrafını süzürdü. Onun qəmgin gözlərində sayeyi-küdurət və kədərdən başqa heç bir şey görünmürdü.

Bəli, təbiət gərdişi-insaniyyətlə elə bir düşmən deyil ki, fəlakət günündə onlara bir çarə arasın; bərəks, həmişə onların fəlakətindən istifadə edib, onların daha da sərnigun olmasına səy edir. Biçarə insanlar, bir seydi-məzlum və qafil deyillərmi ki, anadan olan gündən təbiət səyyadının səngınə düşür, bir də dünyanı tərk etməklə ondan xilas olurlar?! Təbiətin insanları dünyaya gətirməkdə məqsədi, onlara əzab vermək deyilmi? İnsanın düşməni qüvvətli və mərd olarsa, elə qorxulu olmaz, nə qədər ki, bu düşmən hiyləgər ola. İnsan dünyaya gəlir, təbiətin xain dayələri əlində qərəzgarana məqsədlə nəvaziş olunur, bəslənilir, bununla məxluqu minnətdar edir ki, sizə həyat verdim. Amma neçə illik həyatın hər dəqiqəsi bir sirri-maeyi-əzab deyilmi? Hələ insan bir qədər mətanətli olarsa, onun üçün qurulan torpaqların bir qədərindən özünü xilas edə bilər. Amma vay o şəxsin halına ki, aciz ola! Hər dəqiqədə, hər qədəmdə onun qarşısında bir fəlakət uçurumu açılacaq. Amma təbiət əvvəlincilərin də asudə olmamasına çarə tapmış... Cəmi məxluqat cəm olub təbiətin torunu birdəfəlik qırmağa qəsd etsələr, yenə də onların qarşısında bir ahənin sədd, bir vəhşi və müdhiş düşmən qalır ki, onu heç bir qüvvət, heç bir mədəniyyət silahı ilə rəf etməyə qadir olmazlar; necə böyük bir qüvvət olursa, onun qarşısında payız yarpağı kimi titrər, nə qədər insan xoşbəxt olursa, onun qorxusundan asudə olmaz; o da... ölümdür!.. Bir dəqiqə öz seydinə fürsət və azadəlik verməz; hara getsə, kölgə kimi onu təqib edər. Hər saniyədə, hər nəfəsdə insan onu gözləyir. Bu intizar isə ölümün özündən daha müdhiş deyilmi? İnsanların bu qədər şirin saydıqları və məhəbbətlə adını yad etdikləri həyata bircə kəlmə ilə "əzab" adı versəydilər, daha da gözəl olmazdımı?!

Kiçik daxmada üç nəfər fəlakətzadə, xəyalat içində huşa gedib, bir-birinə sarılmışdı. Yavaş-yavaş sübh açılırdı. Aslan tez qalxıb, "uşaqlar oyanmasın", – deyə bir tək olan köhnə yorğanları ilə üstlərini bərk örtdü, bayıra çıxdı. Küçədə belə tezdən heç kəs yox idi. Aslan xəyalat içində yol yeriyir, hara gedəcəyini özü də bilmirdi.

Budur, uzaqdan bir qaraltı gəlir. Aslan yavaş-yavaş ora gedir ki, nə olduğunu görsün. Burada bir nəfər hacı ticarətdən gəlib vaqondan düşmüş, səhər erkən faytonla gəlirkən faytonun çarxı yolda sınıb,



hacı piyada qalmışdı, iki böyük çamadanı əlinə götürüb gedirdi. Aslan utandığından yavaşca hacıya baxaraq, kəmal-ədəblə dedi:

– Hacı əmi, sənin üçün ağırdır, ver, birini mən aparım, sənə kömək edim.

Doğrudan da hacı elə gözləri ilə bir adam axtarırdı ki, çamadanları ona apartdırsın. Amma o vaxt küçədə heç kəs yox idi. Hacı diqqətlə Aslanın məhzun və sarımtıl üzünə baxıb çamadanın birini ona verdi. Yolla gəldikcə hacı diqqətlə Aslana baxırdı. Aslanın qızmış gözlərində olan məhzunluq və zəbunluq əlaməti hacını da qəmgin edirdi. Axırda hacı ondan:

– Oğlum, sən kimin oğlusan? Haralısan? Nə üçün belə məhzunsan? – deyə sual etdi.

Aslan utana-utana öz macəralarını ona söylədi. Hacının isə ona ürəyi yanıb dedi:

– Gəl mən səni nökər saxlayım.

Aslan məmnuniyyətlə razı olub hacıdan xahiş elədi ki, pulsuz da xidmət eləməyə hazırdır. Ancaq belə olsun ki, iki nəfər yetim qardaş və bacısının dolanmasına da hacı etina etsin.

Hacı həyətdə olan kiçik daxmanı Aslana verdi ki, orada öz qardaş və bacısını sakin eləsin. Hacı həmişə də xörəkdən artıq qalanları və bəzi bu tövr şeylərlə onları saxlayırdı. Aslan isə cani-dildən hacıya xidmət edirdi. Yeməklərindən əlavə ayda beş manat da Aslana verirdi ki, özü üçün gizlətsin. Aslan gecə-gündüz səy edir, çalışırdı, hacı isə bunu görüb onlarla daha da gözəl müamilə edirdi. Fərhad və Züleyxa balaca Aslanın zəhməti sayəsində dolanırdı.

Bu vaxtdan on il keçdi. Aslanın məvacibi bir qədər artmışdı. Fərhadı isə hacı məktəbə qoymuşdu; iki il qalmışdı ki, gimnaziyanı qurtarıb instituta girsin, oxuyub mühəndis olsun. Aslan isə əziz və bu qədər zəhmətlə saxladığı qardaşının dörd və ya beş ildən sonra mühəndis olub gələcəyini xəyalına gətirəndə şadlığından ağlayırdı və həmişə dua edirdi ki, ilahi, hər bəla ki ona gələcək, mənə gəlsin, çünki o, anamın əmanətidir...

Züleyxa böyüdükcə gözəlləşirdi; yanaqlarında olan qızartı, səhər vaxtı gün çıxmamış şərqdə göy üzünü bürüyən zərif qızartıdan daha gözəl, daha xoş idi. Hələ qızılgül yarpaqları kimi təravətli və ondan daha qırmızı olan, qanı axar dərəcəsinə qədər zərif olan dodaqları insanı badeyi-məhəbbət kimi bihuş edirdi.

Hacı Saleh qızı böylə camal sahibi görüb, oğlu Əsgərə təklif etdi ki, Züleyxanı alsın. O isə Züleyxanın sərvi-qamətinə, bulud kimi bürünən qara saçlarına çoxdan vurulmuşdu. Züleyxanın iri, qara gözləri kimin üzünə gülsəydi, onu əfsunlamazdı? Amma Əsgərin Aslandan çox acığı gəlirdi: o, çalışqan olduğuna görə atasının ona olan məhəbbətinə həsəd edirdi. Hər tövrlə olursa çalışırdı ki, onu evdən rədd etsin. Lakin atası onun sözünə baxmırdı. Züleyxanın da məhəbbəti qoymurdu ki, Aslana bir söz desin. Aslan nə qədər səy eləyirdi ki, Əsgərin hüsn-rəğbətini qazansın, mümkün olmurdu. Hacı Saleh çox çalışırdı ki, oğlunu oxutsun, ancaq Əsgər şarlatanlıqdan əl çəkib oxumadı. Nəhayət, hacı, Züleyxanı almağı ona təklif etdi. Əsgər məmnuniyyətlə razı oldu. Hacı bu işi Aslana söylədikdə, Aslan bacısının dövlətli evində bəlkə xoşbəxt olacağını zənn edib, bacısına xəbər verdi. Amma Züleyxa, Əsgərin əziz qardaşı ilə olan pis rəftarını görüb, Əsgəri sevmirdi. Lakin qardaşının xahişinə əməl etməyə məcbur oldu; zira, görürdü ki, qardaşının hər bir işi hacının əlindədir. "Bəlkə bu, qardaşımın da dolanacağına təfavüt elədi", – deyə xah-naxah razı oldu.

Bir az keçmədi ki, Züleyxa gəlin gedib Əsgərin arvadı oldu. Hacının Aslana olan məhəbbəti daha da artdı. Amma Əsgərin Aslana olan münasibəti get-gedə pisləşirdi. Ola bilsin ona görə ki, qorxurdu bəlkə atası Aslanı da onunla öz malına şərik elədi.

Çox keçmədi, hacı vəfat etdi. Əsgər iki gündən sonra Aslanı evindən çıxartdı. Aslan isə naçar öz qardaşını götürüb bir balaca ev tutub, orada sakin oldu. Züleyxa ərinə nə qədər yalvardısa da Aslana kömək etsin, Əsgər deyinib ona acıqlanırdı. Züleyxa bir tərəfdən ərinin rəftarını, digər tərəfdən qardaşının zəlalətini görüb, gün-gündən sınıxırdı. Aslanın indi bir qədər pulu var idi, Fərhad oxuduğu üçün ona xərcləyirdi. Lakin bir qədər pulla alış-veriş etdi. Amma get-gedə pulu azalırdı: o qədər ki, Fərhad ondan pul alırdı, o gərək dövlətli olaydı ki, buna davam gətirəydi. Ancaq Aslan deyirdi: "Canımı da istəsə, onun yolunda qoyaram. Oxuyur, qoy oxusun, qurtarsın, sonra o mənə kömək edər".

Amma Fərhad daha əvvəlki kimi dərsinə səy edib həvəslə oxumurdu. Məktəbin axırıncı sinfində idi ki, yoldaşları bir-iki dəfə onu güclə bulvara, bağa və bəzi yaramaz yerlərə apardılar. Fərhadı bir neçə qızla tanış etdilər. Əvvəlləri Fərhad çox fikir verməyib qızları



başından rədd etmək istəyirdi. Amma sonradan yavaş-yavaş ürəyində elə bir hiss oyandı ki, daha özünü saxlaya bilməyib, o hissə tabe olmağa məcbur oldu. Şəhvət hissi Fərhadın ürəyində bir dərəcəyə çatdı ki, tamam dərs, məktəb nəzərindən qeyb oldu.

Əvvəlləri Fərhad qardaşının çəkdiyi zəhmətləri, onun üçün çalışmasını görüb, ürəyində deyirdi: "Mühəndis olan kimi qardaşımın başının altına bir qu balış qoyub, heç bir işə onu əl vurmağa qoymayacağam. Mən qazanacağam, o yeyəcək. Bəlkə bu tövrlə onun xəcalətindən çıxam". Qardaşının güzəranı üçün çətinlik çəkdiyini görüb utanırdı. Amma indi tamamilə dəyişmişdi. Qardaşının etdiyi yaxşılığı unutmuşdu. Fikrində bulvar qızlarından başqa bir şey yox idi. Məktəbə gəlir, bir tövrlə bir saat oturursa, az qala bağrı çatlayırdı. Tez durub özünü bulvara salır, gah o qızın, gah bu qızın dalınca düşürdü. Gündə də gəlib Aslana deyirdi ki, mənə filan şey lazımdır... bir beş manat ver, filan şey üçün də on manat lazımdır...

Aslan da hər gün öz fəhləliyində olub, Fərhadın işindən xəbəri yox idi. Ancaq dərs pulu, kitab pulu verirdi. Bir vaxt Aslan gördü ki, qəpik pulu qalmayıb. Lakin o, qardaşının başqaları yanında xəcalət çəkməsini istəmirdi. İndi o, daş işində işləyir, gecələri isə evə gəlib özünə və qardaşına xörək hazırlayırdı. Fərhadın isə ürəyi elə bərkimişdi ki, gündə qardaşının qazandığını, "Mənə filan şey lazımdır", – deyə alıb xərcləyirdi. Ömründə bir dəqiqə rahatlıq görməyən Aslan Fərhada güldən ağır söz demirdi. Onu görəndə, ürəyində olan dərdlərə baxmayıb, yalandan da olsa gülümsəyirdi ki, qoy Fərhadın ürəyi şad olsun. Bu zəhmətkeş insan həmişə çalışır, amma Fərhad onun əməyini puç edirdi. Şəhvət hissi Fərhadı tamamilə çaşdırmışdı.

Bir gecə Fərhad bir başqası ilə bir qızın dalınca düşüb tanış olmaq istədilər. Qız onlara dedi ki: "Altmış manata bir üzük var, hansınız onu mənim üçün alsanız, onunla tanış olaram". Fərhad tez evə gəldi. Bu vaxtı Aslan özü və qardaşı üçün xörək bişirirdi. Öz fəqirliyini düşünüb çəkdiyi zəhmətlərdən inləyirdi. Amma Fərhadın mühəndis olacağı yadına düşəndə, sanki gözlərinə işıq gəlirdi: "Barı o mənim kimi hambal olmaz, bir parça çörək sahibi olar".

Aslanın bir fəxri vardısa, o da Fərhaddı. Hara getsə, kimi görsə, Fərhadı tərifləyirdi. Amma Fərhadın yaramaz hərəkətlərə qoşulması heç yuxusuna da girməzdi. O heç güman edə bilməzdi ki, Fərhad onun bu qədər zəhmətini görüb, belə pis işlərin yanından da keçsin.

Fərhad evə çatanda üz-gözünü turşudub, bir tərəfdə oturdu. Aslan Fərhadı pərişan görüb nə olduğunu soruşdu. Fərhad bilirdi ki, Aslan onun halını mütəğəyyir görüb tez soruşacaq. Ona görə özü bir söz deməyə hacət görmürdü.

Fərhad Aslanın sualına cavab vermədi. Aslan dübarə soruşdu:

– Qardaşım, nə olub? Halın niyə pərişandır?

Fərhad yalandan üz-gözünü daha da yığıb dedi:

– Mənə bir mühəndis dəzgahı lazımdır ki, qiyməti altmış manatdır, hərgah bu gecə ondan alıb aparmasam, məni məktəbə qoymayacaqlar. İndi bu saat da məktəbdən gəlirəm.

Aslanın ürəyi inlədi. Bu saat heç bir qəpiyə də gümanı yox idi. Gündə bir manata işləyən adamın altmış manat pulu tapılarmı? Onsuz da bu qədər xərc-məxaric... Hələ 15 gün olmaz ki, Fərhad gəlib yalandan demişdi ki: "Məni sabah paltarsız məktəbə qoymayacaqlar, təzə qanun çıxıb ki, gərək paltarların hamısı bir tövr olsun. Ucuz paltar da əlli manatdır. Aslan o vaxt axırıncı qəpiyinə qədər qoyub paltar almışdı, indi isə bir qəpiyi də yox idi. Bir yandan da Fərhadın fəlakətini təsəvvür edib düşünürdü: "Necə ildir zəhmət çəkirik... mən də, o da... Heç rəvamıdır, indi onu qovsunlar... bütün zəhmətimiz puça çıxsın?.."

Aslan hərçi fikir etdisə, heç bir gümanı gəlməyib, naçar qardaşının başını qucaqlayıb dedi:

– Fərhad, qardaşım, özün görürsən ki, indi mənim bir qəpiyim də yoxdur. Nə qədər də borcluyuq. Olmaz ki, yalvarıb beş-altı gün möhlət alasan, görək bəlkə Allah bir yerdən yol açdı, düzəltdik. İstəyirsən, məni də apar, gedim, yıxılım müəllimlərin ayağına, bəlkə möhlət verdilər.

Fərhad özü bilirdi ki, qardaşının heç bir şeyi yoxdur, amma ürəyi o qədər bərkimişdi ki:

– Olmaz, – dedi, – mən çox yalvarıb ağladım, baş tutmadı.

Aslan çox fikirləşdi. O kimdən pul ala bilərdi? Belə bir adam yox idi. Axırda gümanına bircə bacısının əri gəldi. Bilirdi ki, onun da ondan acığı gəlir. Amma çarəsizlikdən durub:

– Sən dayan, mən görüm nə çarə edərəm, – deyə yavaş-yavaş pərişanhal qapıdan çıxıb, qorxa-qorxa bacısının yanına getdi.

Biçarə Züleyxa daha əvvəlki Züleyxa deyildi; dərd-qəmdən saralıb-solmuşdu.



Aslan yavaşca Züleyxaya əhvalatı bildirdi ki, Fərhad altmış manat pul verməzsə, onu məktəbdən qovacaqlar.

Züleyxa ərinin yanına getdi, ona yalvarıb, qardaşına bir az əl tutmasını təmənna etdi. Əsgər çığıraraq:

– Yenə yapışdın yaxama! – deyə Züleyxanı itələyib yıxdı. – Doğrudan da yolçu tayfasısınız, bir adamı tanıdınızmı, daha əl çəkməzsiniz.

Züleyxa gəlib ağlaya-ağlaya əhvalatı Aslana söylədi, o da naümid evə qayıtdı. Yol ilə gedə-gedə fikir edirdi; birdən yadına düşdü ki, Hacı Saleh öləndə öz qızıl saatını ona bağışlamışdı. Tez onu aparıb qonşularına 65 manata satdı, pulu gətirib Fərhada verdi. Fərhad isə fərəhnak pulu aparıb üzüyü aldı. Həmin Liza xanımla tanış oldu. Daha ondan başqa heç kəslə gəzmirdi. Bu tövrlə Fərhad ölə-ölə məktəbi tamam etdi. Aslan borc-xərc pul düzəldib, onu Kiyevə instituta göndərdi.

Fərhad orada da gecə-gündüz gəzirdi. Belə insan öz işində böyük bir məharət göstərə bilməz. Ölə-ölə tələbə yoldaşlarının dalınca sürünürdü. Həftə səkkiz mən doqquz, kağız yazıb Aslandan pul istəyirdi. O da min zəhmətlə yığdığı, öz boğazına qıymadığı beş-altı şahını Fərhada göndərirdi. Aslan gündüzlər işləyir, gecələr də keşiş çəkirdi ki, bəlkə xərci ödəyə bilsin.

İl qurtardı. Fərhad evə gəldi. Aslan qardaşını görcək, onun boynunu qucaqlayıb, şadlığından ağlamağa başladı:

– Fərhad, əziz qardaşım, necəsən? Dərslər necə gedir?

Fərhad o saat dedi:

– Mən hamıdan yaxşı oxuyuram, mənim kimi bir nəfər orada oxuyan yoxdur.

Fərhad yalandan özünü təriflədikcə, Aslan şadlığından, fərəhindən az qalırdı göyə uçsun. Gah gülür, gah gözləri yaşarırdı, gah da qardaşının üzündən öpürdü, istəyirdi lap onu yalasın. Bu gecə Fərhad üçün plov bişirdi. Aslan bir dəqiqə ayrılığına dözməyən qardaşını bir il idi ki, görmürdü.

Züleyxa da xəbər tutdu, ərinə yalvarıb rüsxət alaraq qardaşıgilə getdi. Zəngin bir evdən gəldiyi üçün, Aslanın fəqiranə, miskin və məhzun daxmasını görüb tez Fərhadı deyil, əvvəlcə Aslanın boynunu qucaqlayıb ağladı. Aslan da Züleyxanın solğun rəngini görüb ağladı. Vaqiən, Əsgər Züleyxanı çox incidirdi. Hər bir söz üçün onun üstünə

çığırırdı. Özünə bir rus qızı tapıb gecə-gündüz onunla olurdu. Aslanın acığına bir ildə Züleyxanı bir dəfə də qardaşının evinə qoymamışdı. Lakin Züleyxa hamısına dözür, səbir edirdi. Bilirdi ki, ərindən çıxarsa, qardaşından başqa elə bir adam yoxdur ki, onun yanına getsin. Qardaşı da özünü ancaq saxlaya bilirdi. Hərdən Züleyxanın ürəyi az qalırdı çatlasın, lakin əlacsızlıqdan dözürdü, gözləyirdi ki, "qoy Fərhad qurtarıb gəlsin, əli bir yerə yetişsin, yəqin ki, məni bu halda qoymayacaq, mühəndis bir adama məni saxlamaq ağır olmaz". İndi isə öz qardaşlarını zəhmətə salmamaq üçün hər əzaba, hər zülmə dözürdü.

Onlar hər üçü bir yerdə şad çörək yedilər. Sabahı Züleyxa evlərinə getdi.

Fərhadın getmək vaxtı idi. Aslan bir qədər pul tədarük edib ona verdi.

– Başına dönüm, Fərhad, görürsən biz nə haldayıq. Dərslərində səy elə, bacımızı da incidirlər. Sən də gəl bizim əlimizdən bir qədər tut. Görürsən mən işləməkdən necə zəifləmişəm. Bacımızı da gördün, necə rəngi saralıb-solmuşdur. O biçarənin də zəhməti ağırdır. Fərhad, başına dönüm, elə elə ki, bir az tez qurtarasan. Bizim indi bir ümidimiz sənə gəlir...

Fərhadın ürəyi bu sözlərdən bir qədər yumşaldı, öz-özünə söz verdi ki, hər bir şeyi atıb oxuyacaq. Amma Aslandan ayrılandan sonra hamısı yaddan çıxdı. Yenə mariyalar gözünün qabağında süzüldü.

Aslan çalışdı, vuruşdu, işlədi, zəhmət çəkdi, qeyrilərə yalvardı, öz paltarını satdı, ilan kimi qabıqdan çıxdı, axırda on dörd ildən sonra məqsədinə yetdi. Fərhaddan kağız gəldi ki, mühəndislik diplomunu almışdır, mayın 12-də gəlir.

Beş-altı gün Aslan şadlığından yata bilmədi. Xırda uşaq kimi atılıb-düşürdü. Bacısının ürəyini şad etmək üçün tez kağızı aparıb ona verdi. Təbii, o da Aslandan az sevinmədi. Fərhad gələcək deyə, Aslan kiçik daxmasını nizama saldı.

Fərhad gündüz saat 10-da vağzala gələcəkdi. Aslan isə "vaxt keçir" deyə, obaşdan gedib vağzalı kəsdirib oturdu. Vaxta hələ altı saata qədər qalmışdı. Lakin Aslan gah o yana, gah bu yana gedir, tələsirdi, az qalırdı ki, tələsməkdən bağrı çatlasın. Əlli dəfə ondan-bundan soruşdu ki, qatarın gəlməsinə az qalıb, ya yox. Ona hər dəqiqə bir il kimi gəlirdi. Axırda qatar qara div kimi ləhləyərək gəldi. Aslan



şadlığından və tələsdiyindən istəyirdi ki, qatarın qabağını əli ilə saxlasın.

Fərhad əlində şapka vaqondan düşdü. Aslan yüyürüb:

– Can, qardaşım! Gözlərimiz aydın olsun! – deyə Fərhadın boynuna sarıldı.

Aslanın paltarı köhnə olduğu üçün Fərhad onu tez geri itələyib, yanında olan və yolda onunla gələn qızlara dedi:

– Bu bizim nökərimizdir. – Aslana bir az burada ona yaxın durmamağı tapşırdı. Aslan qardaşının mühəndis olduğu üçün şeyini əlində aparmasını layiq bilmədi. Doğrudan da tez, nökər kimi, çamadanı Fərhadın əlindən alıb yola düzəldi. Fayton çağırıb mindilər, evə getdilər.

Aslan daha şadlığından bilmirdi nə etsin. Bu gün Aslan üçün böyük bir bayram idi. Neçə ildən bəri çəkdiyi zəhmət bir bu gün üçün idi. Züleyxa da gəldi. Onların hər üçü axşama kimi bir yerdə qaldılar. Əsgər də Fərhadın yanına gəldi. Qonşulardan da gələn oldu. Hamısı Aslana gözaydınlığı verdi. Fərhad öz kağızını göstərdi: 1916-cı ildə mayın 8-də həmin şəhadətnamə Fərhada verilmişdi ki, o, Kiyev Sənaye İnstitutunda oxuyub mühəndislik diplomu almışdır.

Fərhad kağızı oxuyanda Aslan şadlığından bilmirdi nə etsin. Hamısı sevinirdi. Bu ona görə idi ki, müsəlmanlardan oxuyan az-az tapılırdı. Aslangil kimi bir külfətdən mühəndis çıxması hamını təəccübləndirirdi. Fərhad mühəndisdir, deyə qonşular Aslana da hörmət etməyə başladılar. Aslan bunu görüb daha da fərəhlənirdi. Əfsus ki, Aslan dalda onu nələr gözlədiyini bilmirdi.

Bir azdan sonra Fərhad mühəndis vəzifəsində qulluğa girdi. Ayda hələlik 200 manat məvacib alırdı. Bunun 100 manatını Aslana verib, yüz manatını da özü xərcləyirdi. Amma bulvar, klub və bu kimi yerlər üçün 100 manat da azlıq edirdi.

Aslan, pərvanə şam başına dolanan kimi, Fərhadın dövrəsinə fırlanıb ona xidmət edirdi. Bir neçə ay Aslan bu minval ilə dolandı. İndi onun özünün də bir qədər pulu var idi, çünki daha Fərhad üçün xərcləmirdi, əlavə olaraq hələ Fərhad da ona bir qədər pul verirdi. Bütün ömründə Aslanın keçirdiyi bəxtiyar günlər bu bir neçə ay oldu. Bu arada qonşuları Aslana məsləhət gördü ki, yaxında olan Gülzar adlı bir qızı alsın. Aslan şübhəsiz ki, bu işə məmnuniyyətlə razı idi. Lakin xahiş etdi ki, Fərhad ondan kiçiksə də, yenə ona məsləhət eləsinlər. Bu sözü qonşuda olan arvad Fərhada söylədi. Fərhad çox

şadlıqla razılıq verdi. Həmin arvad Gülzarın anasının yanına elçi gedib razılığını bildi və iki nəfər kişini atasının yanına göndərib, axirüləmr Gülzarı Aslan üçün aldılar.

Bir neçə vaxtdan sonra toy edib Gülzarı gəlin gətirdilər.

Toy gecəsi idi. Onsuz da gözəl və sevimli olan Gülzar bu gecə daha başqa bir lətafət əxz etmişdi. Onsuz da həmişə gül yarpaqları kimi qırmızı və zərif olan yanaqları, bu gecə, gəlinlik bəzəyindən sonra daha da gözəl bir rəng almışdı. Gülzarın bədirlənmiş ay kimi gözəl üzünü bulud kimi pərdələyən qara saçlarına bu gecə daha diqqətlə şanə çəkilib nizam verilmişdi və tam diqqətlə vurulmuş çətiri Gülzarın alnına tökülüb insanı əsir edəcək dərəcəyə qədər lətafətli idi. Aslan da bu gecə təzə paltar geymişdi.

Gecə keçdi. Sabah oldu. Aslan üç gün bayıra çıxmadı. İndi o özünü bəxtiyarlığın son pilləsində görürdü və sevincdən üzünü Allah-taalaya tutub deyirdi:

– Pərvərdigara, şükür olsun sənin dərgahi-mərhəmətinə ki, illərcə iki qardaş çəkdiyimiz əzabdan, məşəqqətdən sonra axırda bizə xoşbəxtlik qapılarını açdın.

Aslanın daha bir qəmi yox idi. Bir fikri vardısa, o da qardaşını evləndirməkdi. Lakin Fərhad həmişə eyş-işrətdə olduğu üçün, hər yerdə özünə bir həmdəm tapdığından özünü hələ zəncirləmək istəməyib, Aslanın sözlərini rədd edirdi.

İndi Fərhad üç yüz manat alırdısa da, Aslana əvvəlkindən artıq verməyib, iki yüz manatını həvavü-həvəsə xərcləyirdi. Hələ o yüz manatın da dalınca ürəyi qalırdı, amma keçmişləri yadına salıb dinmirdi. Hərdən ürəyinə gəlirdi ki: "Nə vaxta qədər mən öz pulumdan Aslana xüms verəcəyəm?"

Bəli, siz də gərək rəyimə şərik olaraq etiraf edəsiniz ki, hər ürək Aslanın mərhəmət, qeyrət və səxavətlə dolu olan ürəyi kimi bülənd-pərvaz ola bilməz və hər qardaş da mütləq Aslan ola bilməz ki, qardaşın həyatını təmin etmək üçün öz axırıncı paltarını da satsın. Amma yenə nə qədər daşürəkli qardaş olsa Fərhad ola bilməz ki, Aslan kimi qardaşına mühəqqər bir məbləği verəndə ürəyinə belə çirkin xəyallar gətirsin. Bilirəm, indi sizin ürəyinizə gəlir ki, bu sayaq qardaşımız olsaydı, canımızı ondan əsirgəməyib, qul kimi qabağında işləyib, qiblə yerinə ona səcdə edərdik. Amma yenə, məncə, bu da səhvdir, Fərhad ümumi qanundan bir o qədər də uzaq deyil. Məgər



bizim hamımızın da olmasa, çoxumuzun evində qeyri adlar altında eynilə bir Aslan yoxmudur?! Bəli, təbiət həmişə Aslan kimi yüksək ruhlu, pak və safürəkli mücahidlər yetirir. Amma biz onun mürur ilə elədikləri fədakarlığı ancaq ölən vaxt düşünər və bir azdan sonra onu unudarıq. Zənnimizcə, Fərhad gələcəkdə alçaq təbliyini zühura verməsəydi, ümumi qanundan çox da uzaqlaşmazdı və tamam gücümlə öz qəhrəmanımı müdafiə edib, məzəmmət olunmasına yol verməzdim. Amma əfsus ki, Fərhad alçaq təbliyində bir qədər ümumiyyətdən irəlilədi.

Bəli, Aslangilin evi Gülzarın cəmali-dilarası ilə müzəyyən edilmişdi. Gülzar azadə bir quş kimi gün-gündən gözəlləşirdi. İndi Aslan da işləyirdi, Fərhad da. Onlar heç bir şeydən çətinlik çəkmirdi. Ona görə Gülzar da qeydsiz, fikirsiz yaşayır, həmişə yeni, gözəl paltarlar geyirdi. Gülzarın sərv kimi uca boyu, şux yerişi, ahu kimi süzgün baxışı hər baxanı məftun edirdi.

Təbiidir ki, Aslan arvadını Fərhaddan gizlətməzdi, zira, onu özü bilirdi. Fərhad da Gülzara heç fikir verməzdi. Hərdən nəzəri Gülzarın naz ilə süzülən iri, qara gözlərinə sataşanda, ürəyi yerindən oynayıb tez nəzərini başqa yana döndərirdi. Fərhad gözəl və cavan bir oğlan olsa da, Gülzar ona ayrı bir nəzərlə baxmırdı. Nə səbəbə də baxsın ki, müsəlmanlarda alçaq təblik ola bilməz ki, öz qardaşının arvadına bacı nəzərindən başqa qeyri bir gözlə baxsın.

Yavaş-yavaş yay gəldi. Məxluq bağlara köçdü. Fərhadgil də bağa köçdülər. Gülzar öz qulluqçusu ilə bağda, Aslan ilə Fərhad şəhərdə öz işlərində olurdular. Arabir hərəsi bir neçə günlüyə bağa gedib, yenə də qayıdırdı.

Yayın orta ayı idi. Fərhad istidən dayana bilməyib bağa getdi. Aslan şəhərdə qaldı. Gözəl yay gecəsi idi. Hava sakitdi. Ay çıxıb bütün aləmi müzəyyən bir ziya ilə münəvvər etmişdi. Bağda olan meynələr öz yarpaqları ilə yumşaq qumun üstünü örtmüşdü. Təbiət olduqca gözəl bir mənzərə almışdı. Gülzar ipək bir köynək geymiş, döşünü açmış və gecənin lətafətindən məftun olaraq, bağın içində zərif yarpaqlar arasında bir quş misalı həzin bir halda gəzişirdi. Uzun, şəvə saçları gəlinlərə məxsus şux çiyinlərini qara bulud kimi bürümüş və əsən xəfif küləkdən arabir ləpələnirdi. Hava gözəl olduğundan Gülzarın yanaqları daha da xoşrəng olub duru-al bir rəng almışdı. Zərif ləbləri bir lalə kimi yanırdı. Fərhad da gecənin gözəlliyindən

həzz alaraq bir meynənin altında, yumşaq qumun üstündə uzanmışdı. Gülzar bağın içində gəzişib Fərhadın yanına çatdı. Buradan daha keçməyib Fərhadın yanında oturdu və qulluqçuya dedi ki, bağın içinə onlar üçün çay gətirsin. O saat qulluqçu çay gətirdi.

Aydınlıq, sakit yay gecəsi, yumşaq qumun üstü zərif, yaşıl yarpaqlara bürünmüş, hər yandan üzüm salxımları sallanmış, bir tərəfdə də çay – belə fövqəladə lətif bir mənzərə! Gülzar ilə Fərhad söhbət edirdilər. Gülzarın təbii olaraq naz ilə kəsmə-kəsmə danışması və danışdıqca gözəllərə məxsus olan bir tövrlə gözlərini süzüb özünü əzməsi, Fərhadı, səyinə baxmayaraq, az qalırdı bihuş etsin. Hərdən Fərhadın gözü Gülzarın lalə kimi qızarmış yanaqlarına sataşanda, onun ürəyində bir hiss oyanırdı, amma yenə Aslan yadına düşüb, gözünü qeyri bir tərəfə döndərirdi. Onun ürəyində iki hiss bir-birilə mübarizə edirdi: gözəllik və lətafət arasında Gülzara qarşı yaranmış məhəbbət, bir də, qardaşlıq vəzifəsi.

Bir dəfə çay içdilər. Dübarə çay gəldi. Fərhad artıq, demək olar ki, bihuş bir halda idi. Gülzar da özünü belə hiss edirdi. Xəlvət, səssiz bağ içi. Yarpaqlar arası. Aydınlıq gecə. Şux və həvəsli bir qız, yanında gözəl bir oğlan. Gülzar hərdən iri gözlərini Fərhadın cavanlıq şəhdi ilə ləbaləb olan gözəl üzünə dikib baxırdı. Bir tərəfdən ərinin fikri, digər tərəfdən Fərhadın ürəyini bilmədiyi üçün onun qorxusu, o biri tərəfdən də şuxluq və həvəs. Onlar bir qədər bu halda söhbət elədilər. Ətrafda səs yoxdu. Ancaq arabir ilbizlər bir-birinə səs verib fit çalırdı. Xəfif bir külək arabir dilaviz rayihəsilə insanın ürəyini oxşayırdı. Budur, meh vurub Gülzarın saçlarını titrədərək, Fərhadın üzünə səpdi. Fərhad yumşaq gəlin saçlarının üzünə toxunduğundan bilmərrə məst olub, saçların ətrindən mövcudiyyəti yadından çıxdı. Gülzar tez, vəhşi ahular kimi, başının hərəkəti ilə saçlarını çiyinlərinə atdı. Fərhad gözlərini qaldırıb Gülzarın qırmızı yanaqlarına dikdi. Gülzarın yanaqları elə bil ki, yanırdı, zərif dodaqlarında bir müəyyən təbəssüm, iri gözlərində bir nişaneyi-eşq və həvəs görünürdü. Fərhad özünü saxlaya bilməyib, ürəkdən bir ah çəkdi. Gülzar:

– Ox, Fərhad, – dedi, – belə gözəl bir mənzərəyə tamaşa edən insan da ah çəkərmi?

– Bəli, doğrudan da sizin isbati-vücudunuzla daha da gözəlləşən təbiət mütləq məni ah çəkməyə məcbur etdi.



– Mənim olmağımla təbiət əsla gözəlləşmir, xəta edirsiniz. Mən zənn edirəm ki, mənsiz təbiət daha gözəl olar, – deyə Gülzar naz ilə gülümsədi.

– Yox, təbiət nə qədər gözəlsə də, siz ondan daha gözəlsiniz.

Gülzar gözlərini süzüb dedi:

– Siz allah, Fərhad, mənə gülməyin. Mən nə qədər gözəl olsam da, sizdən gözəl ola bilmərəm ki, bir baxışla gözləriniz insanı məftun edir.

Fərhad Gülzarın fikrini anlayıb dedi:

– Ox, mən çox şad olub, özümü xoşbəxt hesab edirəm. Əgər siz mənə məftun olsaydınız... – Fərhad peşman olmuş kimi diksindi, – yəni onu demək istəyirəm ki, mənə heç kəs məftun olmaz.

Gülzar eşq və həvəsin kəsrətindən özünü tamamilə itirib, bir əlini Fərhadın dizi üstə və bir əlini o biri tərəfə uzadıb yerə uzandı:

– Ax, bu gün o qədər gəzmişəm ki, lap yorulmuşam.

Gülzar əlini Fərhadın dizi üstə qoyanda sanki Fərhadın bədəninə elektrik qüvvəsi keçdi. Fərhad tez Gülzarın qolunu qaldırıb üzünə tərəf apardıqda, Gülzar işvə ilə qalxıb gözlərini süzdü, Fərhadın üzünə baxdı. Onun gözlərində bir təbəssüm parladı. Fərhad Gülzarın əlini bəxtiyar dodaqlarına apardı. Gülzar əsla mümaniət etmədi. Nazla gülərək:

– Ox, Fərhad, dinc dayan, – deyə başını Fərhadın çiyninə qoydu.

Fərhad huşa gəlmiş kimi, tez əlini çəkdi. Amma Gülzarın başını öz çiynində və yumşaq yanaqlarını üzünə yapışmış görəndə, daha dayana bilmədi. Gülzarın təbəssümlərlə oynayan gözlərinə bir də baxıb, hər iki qolunu onun boynuna salaraq, qanı axacaq qədər zərif olan dodaqlarını öz dodaqlarına sıxdı. Gülzar isə, həvəs və eşqdən bihuş bir halda özünü Fərhadın ağuşuna atdı...

Xəyanət! İkitərəfli bir xəyanət! Bəli, bu gərdişin məlunanə hərəkəti! Zənnimcə, Fərhad kimi həris və məlun bir insandan belə bir xəyanətin baş verməsini gözləmək imkan xaricində deyildi. Biz Fərhadı çoxdan tanıyırıq və onun belə bir xəyanətini görəndə bizə təəccüb gəlmir. Amma Aslan, o zəhmətkeş və mərhəmətli insan, o insan surətində göydən enmiş mələk, Fərhadın xəbisliyini bilmədiyi üçün və ona başqa bir nəzərlə baxdığı üçün min nəfər də and içsəydi, belə bir işə inanardımı? Əsla! Aslan elmli deyildi, amma

insaniyyətin tam mənası ilə axırıncı pilləsinə yetmişdi və hamını özü kimi zənn edirdi. Hətta Fərhad oxumuş olduğu üçün onu özündən daha mərhəmətli, insaniyyətpərvər və safdil zənn edirdi. Odur ki, Fərhadın belə bir xəyanət edəcəyini ağlına da gətirmirdi.

Məlumdur ki, Fərhad qardaşından elmli və bilikli idi. Aslan mərhəmətli və əxlaqı düzgün bir şəxs idi. Həmişə təcrübə olunsa görünər ki, insan, ola bilər ki, ziyalı olsun, mədəni olsun və bununla belə pozğun bir əxlaqa malik olsun. İnsan, ola bilər ki, aqil olsun, əqlən və fəhmən mükəmməl olsun, lakin əxlaqı pozğun olsun. Dərin bir ağla malik olan, elm və bilik sahibi olan bir şəxsə demək olmaz ki, hökmən bu şəxs əxlaqən və vicdanən düzgündür. Ola bilər ki, insan aqil və bilikli olsun, amma öz əql və biliyini pislik tərəfinə çevirsin. Azmı aqil var, oğurluğa və xəyanətə irişib, öz iti ağlını özü üçün bir alət edib, ondan sui-istifadə edir?! Əksərən də belədir. Bütün aqil və alim insanların çoxusu özü nəşr etdiyi qanuna özü riayət etmir, xalqa göstərdiyi yolla özü getmir, büruzə çıxardığı və xalqa tövsiyə etdiyi bir məsləkə özü boyun əymir. Onu demək istəyirəm ki, insan ola bilər ağıllı, elmli, bilikli olsun, amma insan olmasın. Əksi də ola bilər; elmsiz, biliksiz və çox da dərin bir ağla malik olmayan bir şəxs Aslan kimi olsun. Bir kəlmə, alim olmaq asandır, insan olmaq çətin! Oxuyub Fərhad kimi vicdansız bir mühəndis olmaq asandır, amma Aslan kimi insan olmaq çətindir.

Bir neçə gündən sonra Aslangil şəhərə köçdülər. Artıq Gülzar Aslanı görmək istəmirdi. Bütün fikri-zikri Fərhadda idi. Fərhad da bir tövrlə Aslanı evdən rədd etmək istəyirdi ki, Gülzar ilə vaxt keçirməyə daha geniş bir fürsət tapsın. Bu aralıq biçarə Züleyxa evinə gəldi. Onu demək gərək ki, Əsgər Züleyxanı əsla döyməzdi, söyməzdi, amma elə müamilə edərdi ki, bu, döyməkdən də, söyməkdən də, betər idi. Çox olurdu ki, həftələrlə evə gəlmirdi. Bir dəfə qonşuluğunda olan iki nəfər arvad (ki, Züleyxa onları özündən çox istəyirdi) Züleyxagilə qonaq gəlmişdi. Züleyxa çox şad olub onları mehmannəvazlıqla qəbul etdi. Necə oldusa, xanımın balaca oğlu Əsgərin stol üstündə olan kağızına toxundu. Bundan ötrü Əsgərin əsəbi məcazlığı cuşə gəlib, dərhal xanımları evdən qovdu. Bu, Züleyxa üçün ölümdən betər deyildimi?! Bundan sərfi-nəzər edən Əsgər başqa yerdə pul uduzar, lakin acığını Züleyxadan alardı. Odur ki, Züleyxa çəkdiyi məşəqqətlərdən cana gəlib öz qardaşının evinə



pənah gətirdi. Aslan Züleyxanı çox şadlıqla qarşılayıb, üzündən öpərək dedi:

– Qorxma, bacım, bilirəm çoxdandır əzab içindəsən, amma indi şükür olsun Allaha ki, bizim də işlərimiz çox yaxşıdır. Mən ayda yüz manata kimi qazanıram. Fərhad da üç yüz manat alır, məgər biz ölmüşük ki, sən əzab və məşəqqət çəkəsən? Eybi yoxdur, həmişə qardaşların evində böyüksən, anam öləndə səni mənə tapşırıb, mən də razı ola bilmərəm ki, sənə bir kəlmə ağır söz deyilsin.

Doğrudan da, Aslan bacısına bir gül qədər də ağırlıq düşməsinə razı deyildi. Amma Fərhad da bunu istəyirdimi? Yox. Məlumdur ki, Züleyxa evdə olanda Fərhad Gülzara yavuq düşə bilməyəcəkdi. Odur ki, Züleyxanın evdə olmasına razı ola bilməzdi.

Züleyxa iki gün qardaşlarının evində qalandan sonra Fərhad mütləq geri qayıtmağını tələb etdi və Züleyxanın məlul-məlul baxan ala gözlərindən bahar buludu kimi yaş tökülməsinə baxmayaraq, məcburi Əsgərin evinə göndərdi. Bu işə Aslan nə qədər ürəkdən müəzzəb oldusa da, bir şey edə bilmədi, zira o, Fərhadı da çox istəyirdi. Hətta o qədər istəyirdi ki, əgər bir şəxs Fərhadın adına onun canını istəsəydi, yəqinən ki, Aslan əsirgəməzdi. Bu məhəbbətlə Aslan Fərhadın xəyanətini xəyalına belə gətirə bilərdimi?

Axşam vaxtı Fərhad ilə Gülzar xəlvət evdə oturub, bir-birinə öz məhəbbətlərini təşrif edirdilər. Hər iki xəbis, öz xainanə və çirkin məhəbbətlərini yek-digərinə söyləyirdi: bu xainanə məhəbbətin ən dərin yerində, bir zamanda ki, Gülzarın nazik beli Fərhadın qolları arasında və dodaqları Fərhadın dodaqlarına sıxılmış idi, Aslan qapını açıb içəri girdi. Sanki bütün ev Aslanın başına fırlandı, gözləri qaraldı, bütün əzası lərzəyə düşüb titrəməyə başladı.

– Fərhad, – dedi, – illərlə çəkdiyim zəhmətlər unuduldusa, barı qardaşlıq vəzifəsi... Ox, Fərhad, mənə xəyanət...

Bu iş Aslanın zəif əsəblərini elə titrətdi ki, bihuş olub yerə yıxıldı. Fərhad bir də Aslanın üzünə baxa bilməyəcəyindən geyinib evdən getdi. Gülzar artıq öz canı üçün qorxurdu: zira, müsəlmanlar həmişə belə bir xəyanəti və təhqiratı qan ilə yuyurlar. Gülzar öz evlərinə getməyə də qorxurdu, çünki atası və qardaşı bu işdən hali olsaydılar, onu öldürərdilər. O hara gedəcəyini, nə edəcəyini fikirləşirdi. Bu halda Aslan huşa gəldi və Gülzara tərəf gəldikdə, Gülzar canının hövlündən stəkanda olan karbola kislotasını qapıb Aslanın üzünə

atdı. Bu əczə qulluqçu naxoş olanda alınmışdı və təbib tövsiyə etmişdi ki, məbadə bu əczə üzünüzə və gözünüzə dəysin, bu, insanın ətini yandırar, gözünə tökülsə, kor edər. Gülzar öz canının hövlündən belə müdhiş bir əczanı götürüb, ömründə bir dəqiqə rahatlıq bilməyən Aslanın gözlərinə atdı.

Əvvəl Aslanın gözləri cızıldadı. Aslan buna baxmayaraq hövlnak Gülzarın dalınca yeridi. Gülzar evə girib qapını bağladı. Aslan bir qədər çalışdıqdan sonra daha durmaq mümkün olmadığını hiss etdi: gözlərindən elə bir sancı qalxdı ki, dərəcəsini göstərmək qabil deyil, sanki bir kürə od onun gözlərinin içinə tökülüb yandırdı. Aslan gözləri yumulu çalışırdı ki, tez özünü həkimə yetirsin. Amma gah bu divara, gah o divara toxunurdu. Axırda qulluqçu onun əlindən tutub bayıra çıxardı və Aslanın xahişinə görə bir fayton çağırıb onu mindirdi. Aslan həkimə gedib məxşuş bir halda yalvardı ki, ona kömək etsin. Həkim tez Aslanın gözlərini yudu, dərman tökdü. Aslan bir yandan ömrünü yolunda sərf etdiyi bir şəxsin xəyanəti təsirindən, bir yandan da gözlərinin sancısından zar-zar ağlayırdı.

Fərhad həmin gün özünə bir evdə ev tutub, ahəstəcə bir arvad göndərib, Gülzarı qurtarmaq üçün öz yanına apartdırdı. Heç kəs bilmədi ki, Gülzar hara getdi. Atası və qardaşı onu nə qədər axtardılarsa, tapa bilmədilər.

Züleyxa qardaşına üz verən bədbəxtliyi eşidib tez özünü qardaşına yetirdi: qardaşını gözləri bağlı xəstəxana libasında görəndə az qaldı ki, bağrı çatlasın. Özünü qardaşının üstünə atıb:

– Ah, qardaş, axır qəza səni nə bəlalara saldı!.. Can, əziz qardaşım! – deyə ağlamağa başladı.

Aslan bacısının səsini eşitcək, qalxıb gözlərini açmaq istədi, amma mümkün olmadı. Gözləri yumuldu, əlini dolandırıb, qollarını bacısının boynuna saldı:

– Ah, bacı, görürsənmi mənə nələr edirlər?.. – deyə ağlamaqdan axıb bacısının qucağına yıxıldı.

Altı ay Aslan xəstəxanalar küncündə çürüyüb, olan-olmaz pullarını həkimlərə verdi. Amma gözləri bir də günəşin zərrin şüalarını görə bilmədi: gözləri ət gətirib, göz pərdələrinin qabağını örtdü. Həkimlər nə qədər çalışdılarsa, heç bir növlə Aslanın gözlərini həmin ətlərdən xilas edib sağalda bilmədilər. İndi Aslanın ürəyində heç bir şey yox idi, ancaq gecə-gündüz Allaha yalvarıb, barı bir



gözünə zəif də olsa, işıq gəlməsini təmənna edirdi. Amma əfsus!.. Zaman dolanır, lakin Aslanın gözlərinə işıq gəlmirdi. Axırda Aslan bir tərəfdən tamam pullarının qurtardığından, digər tərəfdən də gözlərinin sağalmasından naümid olub, həkimlərdən əl çəkərək, öz evinə qayıtdı. Göz yox, bir yerdən gəlir yox, bu qədər dərd, qüssə, fikir, xəyalət, evdə tək bir həmdəm yox... İndi Aslan Allahdan ancaq ölüm istəyirdi.

Züleyxa tez-tez gəlib Aslana baş çəkirdi. O da dərddən lap sınıxmışdı, gözləri çuxura düşmüş, yanaqları saralmışdı.

Əsgər, Aslanın bu fəlakətini eşidib, nə qədər onu görmək istəməyirdisə də, indi ona rəhmi gəlirdi. Züleyxanın hər vaxt Aslana baş çəkib, ona müavinət etməsinə mane olmayırdı. Züleyxa qardaşının tək evdə qalıb daha da qüssə etdiyini və gündən-günə zəiflədiyini görüb, xəlvət evdə bağrı çatlamasın deyə, Əsgərə yalvardı ki, Aslanın evlərinə gəlməsinə razı olsun.

– Əsgər, əzizim, ola bilər ki, məni sevməyəsən, amma necə olsa, mən sənin övrətinəm, barı oğlumuzun xatiri üçün bu bir kəlmə sözümü qəbul elə: qoy Aslan gəlib evimizdə qalsın. Əsgər, başına dönüm...

Əsgər xah-naxah Züleyxaya ixtiyar verdi. O gündən Züleyxa öz qardaşını gətirib sakit elədi. Ancaq Aslan daha əvvəlki adam deyildi. Gecələri o, ağır yuxular görürdü. Biçarə, hövlnak ayağa qalxıb bağırır, qanlı yaşlar arasında deyirdi: "Ox, xain qardaş, mənə xəyanət, mənə zülm... Mən ömrümü sənin yolunda sərf etdim, bumu axırıncı mükafat?!"

Züleyxanın balaca oğlu Kamil ilə o, bir tövr gününü keçirirdi. Amma Əsgər daima deyinir, bir iş olcaq qışqırır, bağırır, heç şey üstə Züleyxanı söyür, incidirdi. Aslan bunları eşidirdi, bacısının bu qədər əzab çəkdiyini görəndə ruhu inciyirdi. Lakin nə etməli idi?! Pullar qurtarıb, göz yox, dolanacaq yox, məcburən səbir etməli idi. Biçarə zəifləmişdi, qırışıq üzünü tük basmışdı, kədəravər bir görkəm almışdı. Kamil daima Aslanın yanında oturur, Aslan onun üçün nağıl danışıb güldürürdü. Kamil isə Aslanı ürəkdən sevirdi. Bir dəfə Əsgər çay içəndə Aslan gözü yumulu gəlib, birdən çaya toxundu. Çay Əsgərin üstünə dağıldı. Əsgər bundan təngə gələrək, o saat yerindən durub, Aslanın üzünə bir şillə vurdu. Aslan bir söz deməyib ağlamağa başladı və əlini göyə qaldırıb dedi:

– Pərvərdigara, mən nə bəd əməldə olmuşdum ki, məni bu qədər zülmə düçar elədin?

Əsgər bunu görüb:

– Evimdə qaldığın bəs deyil, hələ bir məni qarğıyırsan da, – deyib Aslandan evdən getməsini tələb etdi. Züleyxa nə qədər yalvardısa, mümkün olmadı. Əsgər Züleyxanın da yalvarmasından təngə gəlib, ondan da evi tərk etməyi tələb etdi. Züleyxa kor-peşman qardaşının əlindən tutub, bacı-qardaş ağlaya-ağlaya öz köhnə evlərinə gəldilər.

Aslan gün-gündən zəifləyirdi. Züleyxa da hər gün ağlayır, Fərhada qarğıyırdı ki, nə üçün onları bu qədər bəlaya saldı. Hərdən Züleyxa Kamili küçədə görür, bağrına basıb ağlayırdı. Zalım Əsgər ananı öz balasından ayırdığı bəs deyil, Kamili anasının yanına getməyə də qoymurdu.

Aslan bütün olan-olmazını xərcləmişdi. Züleyxa hərdən ev şeylərindən satıb xərcləyirdi. Fərhad isə özünü Gülzarla bir xəlvətə çəkib rahat yaşayırdı. Fərhad arabir küçədə görünürdüsə də, amma Gülzarın harada olduğunu heç kəs bilmirdi. Fərhad qulluqdan çıxanda daha bir yana əylənməyir, tez evə qayıdırdı. Gülzar isə qorxudan əsla bayıra çıxmırdı. Bir dəfə qarı arvad Gülzarın anasıgilə gəlib, söhbət arasında birdən çaşıb dedi:

– Dünən Gülzar xanımgildə idim. Fərhad da... – Birdən işin gizli olduğunu düşünüb, səsini kəsdi. Gülzarın qardaşı bunu eşitcək tez qarıdan tələb etdi ki, Gülzarın yerini desin. Qarı əvvəl demək istəmədi. Amma Əhməd ölüm təhdidilə ona dedirtdirdi. Bu neçə vaxtda Əhməd bacısının belə namussuzluğundan narahat olub, daim intiqam qəsdilə onu axtarırdı. Bacısının xəyanətindən zəlalətə düşmüş Aslana tez-tez baş çəkirdi və ona az da olsa, şey alıb aparırdı. Gülzarın sorağını alcaq Əhməd çox şadlandı, bu gecə nə sayaq olsa üstlərinə atılan bədnamlığı bacısının qanı ilə yumağa qərar verdi.

Qarı bunu görüb, tez Gülzargilə gəldi, əhvalatı Gülzara söylədi. Gülzar da tez Fərhada dedi. Gecə Fərhad əhvalatı xəfiyyə polisinə xəbər verdi. Onlar da bir dəstə gəlib pusquda dayandılar. Gecədən bir qədər keçmiş Əhməd əlində bıçaq Gülzargilin evinə gəldi. Yavaşca özünü hazırlayıb qapını döydü. Bu halda xəfiyyəçilərdən biri qapını açdı. Əhməd içəri gircək dörd tərəfdən onu bürüdülər. Əhvalatı başa düşən Əhməd tez geri döndü. Bayırda onunla üz-üzə gələn xəfiyyəçini görüb, qaçmağa yol olmadığı üçün, əlindəki bıçağı



onun ürəyinə sancdı. Polis nəfəri yıxıldı. O birilər tez yüyürüb Əhmədi tutdular. Bu anda onun üzü bir yerdə duran Gülzar ilə Fərhada sataşdı, hirsindən başı hərləndi:

– Binamus bacı, namussuz qardaş, heç tələsməyin. Nə qədər mən həyatda varam, ləkədar edilmiş namusumun intiqamını sizdən alacağam. Əgər intiqam almamış ölərsəm, qoy xəlayiq desin ki, namusu ləkələnmiş bir binamus dünyadan getdi.

Əhmədi birbaş həbsxanaya apardılar. İndi Gülzar ilə Fərhad heç kəsdən qorxmurdu. Bir Əhməd idi, o da həbsxanaya düşdü. Hökumət adamını öldürdüyü üçün neçə il həbsxanada yatacaqdı. Amma onları vicdan həmişə narahat edirdi. Bir şadlıq vaxtında Aslan yadlarına düşür, hər ikisinin rəngi saralıb sustalırdı.

Kamil on iki yaşında idi – məktəbə gedirdi.

Aslan ilə Züleyxa min üsrət ilə dolanırdılar. Kamil gizlindən onların yanına gəlirdi. Aslan naçar qalıb evi satdı. Qeyri şeylərindən də çox qalmamışdı. Yavaş-yavaş hər şey qurtarırdı. Züleyxa dolanmağın mümkün olmadığını görüb bir evdə qulluqçu dayandı. Hər axşam qardaşının yanına gəlirdi.

Əsgər də özünə bir arvad almışdı. Arvad Kamili incitdiyindən Kamil qüssə edirdi, hər gün xəlvəti anasının yanına gəlirdi. Atasından aldığı xərcliyi gizlin anasına verirdi, hərdən də anasının ağladığını görüb deyirdi:

– Ağlama, ana, məktəbi qurtaran kimi səni hər dərddən xilas edəcəyəm, hələ indi mən də atamın əlinə baxıram.

Aslan lap taqətdən düşmüşdü. Daha tərpənə bilmirdi. Züleyxa min əzabla onu saxlayırdı. Bir gün o da naxoşladı.

Onlar günlərlə evdə ac qaldılar. Aslan o yan-bu yanı axtarıb tapdığı tör-töküntüdən bacısına verirdi, özü yemirdi. Hətta naçar qalıb, utana-utana dilənməyə məcbur oldu. Bir dəfə axşam vaxtı Fərhad yol ilə gedəndə dilənçiyə pul vermək istədikdə, birdən hövlnak geri atıldı, bu sifətdən dönmüş zəif dilənçini tanıdı, – o, ömrünü qardaş yolunda sərf edən Aslan idi. Tez bir beşlik verib, ətrafa baxaraq qaçıb getdi.

O gecə Fərhad xəyalatdan yata bilmədi. Züleyxa hələ naxoş idi. Qonşu arvad onlar üçün bir çörək gətirdi. Aslan ona təşəkkür edəndə, arvad ah çəkib dedi:

– Allah belə qardaşa lənət eləsin ki, səni bu bəlaya saldı, el arasında rüsvay elədi. İndi sənin halından heç xəbər də tutmur. Hələ üç gün bundan qabaq bir oğlu da olub.

Aslan bunu eşitcək tez ayağa qalxdı, lakin zəiflikdən özünü saxlaya bilməyib yıxıldı, bir də qalxdı:

– Ah, xain qardaş, – dedi – ah, can anam! Mən əhdimə vəfa etdim, oğlunu saxladım... Daha tab gətirə bilmirəm...

Qonşu arvad getdi.

Züleyxa Aslanın halını pis görüb, tez yerindən durdu:

– Qardaş, – dedi, – heç fikir eləmə. Allah özü onlara cəza verər.

Aslan dedi:

– Yox, bacı, daha bəsdir mən bu qədər əzabla dünyada qaldım, sənə də əzab verdim. İndi mən gedirəm... anamın yanına... Səndən çox razıyam. Anama deyərəm ki, bir Züleyxa sənin sözlərinə əməl etdi. Məni, halal et, bacım, – deyə yerə yıxılıb öldü.

Züleyxa özü naxoş, bilmirdi ki, nə etsin. Bilmərrə özünü itirmişdi. Anası yadigar qoyduğu örtüyü çıxarıb Aslanın üzünə sərdi. Pul yox idi ki, onu dəfn elətdirsin. Qonşular yığıldılar. Züleyxa biixtiyar ayağa qalxıb, Fərhadgilin evinə getdi ki, xəyanətin nəticəsini ona bildirsin. İçəri gircək, Gülzar illərdən bəri görmədiyi və görmək istəmədiyi Züleyxanı görüb, "burada bir iş var ki, bu bizə gəlib", – deyə tez onun bayıra çıxmasını tələb etdi. Züleyxa bu işdən daha da qeyzə gəlib:

– Qardaşımın evidir, gəlmişəm, sənə nə var, – dedikdə, Gülzar qulluqçuya him elədi ki, Züleyxanı bayıra çıxartsın. Qulluqçu Züleyxanı itələyib, bayıra çıxartdı. Züleyxa qapıya söykənib ağlamağa başladı.

– Ah, nə səbəbə əziz qardaşımın intiqamını xain qardaşımdan almayım, – deyə yaxında olan aptek maqazininə gedib, bir az zəhər istədi. Aptekçi Züleyxanın halını görüb: "Özünü öldürmək istəyir" deyə, vermədi. Züleyxa yalvarmağa başladı. Axırda aptekçinin ona yazığı gəlib, üstündə zəhər adı yazılmış bir şüşəyə bir qədər gülab töküb ona verdi. Züleyxa yavaş-yavaş Gülzargilə gəlib xörək otağına girdi və şam etmək üçün hazırlanmış qablara bir qədər zəhər tökmək istədikdə, Fərhad qapını açıb içəri girdi. Şüşəni onun əlindən alıb, üstündə zəhər adını görcək çığırıb dedi:

– Məni zəhərləmək istəyirsən?!



– Səni zəhərləmək istəyirəm! Səni!

Fərhad Züleyxanın boğazından yapışıb stol üstünə yıxdı və bir vaxt buraxdı ki, Züleyxa ölmüşdü. Fərhad bacısının tappıltı ilə yerə dəydiyini görüb, özünü itirdi və titrəməyə başladı. Bacısına rəhmi gəldi, tez yüyürüb onu qucaqladı və titrək əlləri ilə onu tərpətdi, öldüyünü bilib qalxdı, dal-dalı otaqdan çıxdı. Sabahısı qəzetlərdə yazıldı ki, məşhur mühəndis Fərhadın bacısı zəhər içib özünü öldürmüşdür.

Kamil bunu eşitcək tez məhəlli-hadisəyə gəldi. Şüşənin üstündə aptekin adını oxuyub, tez aptekçinin yanına getdi ki:

– Nə haqla anama zəhər satmışsınız?

Aptekçi məlum etdi ki:

– Mənim ona yazığım gəldiyi üçün zəhər əvəzinə, gülab vermişəm.

Kamil bunu eşitcək, tez həkim götürüb, ora getdi. Həkim, Züleyxanın cənazəsinə baxıb dedi ki:

– Bu zəhərlə ölməyib, bunu boğublar. Hələ boğazında da bəzi nişanələr qalıbdır.

Züleyxanın boğazındakı nişanın Fərhadın mürəkkəbindən olduğunu sübut etdilər. Kamil bu məlumatı və orada iştirak edən şəxslərin adını yazıb, sandığında gizlətdi.

İki bədbəxti, iki bədbəxt bacı-qardaşı bir gündə məzara tapşırdılar.

Fərhad bir qədər pul xərcləyərək, özünü qurtardı.

Lakin insanlar məhkəməsindən özünü pul ilə xilas edən Fərhad, vicdan və həya məhkəməsində də özünü xilas edə bilərdimi? Heyhat!..

Həya və vicdan Fərhadı içindən bir vəhşi kimi çeynəyir, iti çəngəlli bir pələng kimi onu didirdi. Fərhad hara gedirsə, bu hal onu təqib edirdi. Nə qədər şad və fərəh-əfza bir yerdə olsa, Fərhad bir qədər asudə qala bilmirdi. Şadlığın ən dərin bir yerində, zalım əlləri ilə Züleyxanın zərif boğazından yapışdığı gözünün qabağına gəlirdi. Fərhad dərhal hövlnak geri çəkilir, çırpınmağa başlayırdı, adamlar onun başına yığılırdı. Fərhad bir azdan sonra yenə ağlayırdı. Bu, bir dəfə olmadı. Camaat Fərhadın dəli olduğunu zənn etdi. Doğrudan da, Fərhad daima əzab içində idi: o, sifətdən də dönmüşdü: həmişə tutqun, mütəfəkkir və qəmli idi: heç üzü açılmırdı. Tutduğu işlər

xəyalından keçəndə öz-özünə deyirdi: "Ah, bu qədər də vəhşilik olarmı ki, mən etdim! Bu nə vicdansızlıqdı! Həyatını yolumda sərf edən əziz qardaşımı günəşin ziyasından məhrum edib, sailliyə qədər endirdim. Yadımdadır o gecə... Bütün aləmi qaranlıq, hüzn, kədər bürümüşdü, mən yolla gedirdim, gördüm, iki gözdən kor olan qardaşım əllərini açıb yalvarır: "Din qardaşlarım, mənə kömək edin, Allah sizi mənim kimi zəlil eləməsin!" Ah, öz bacımı, mən zalım, mən vəhşi öz əlimlə boğub öldürdüm... Əcəba, qiyamətdə anama nə cavab verəcəyəm?.. "

Fərhad tamamilə özünü itirirdi. Bir gün qəbiristana getdi. Yan-yana qazılmış iki qəbrin arasında oturub ağladı: "Ah, bağışlayın məni, mən sizə zülm etdim... Bağışlayın bir günahkarı ki, dizi üstə çöküb sizdən üzr istəyir..." Fəqət məqbərələrdən heç bir cavab almadığı üçün kor-peşman evə qayıtdı. Qulluğa gedirdisə də, gördüyü işlər nəzərindən keçirkən, durub o tərəf-bu tərəfə çırpınırdı. Gah da yalvarıb zarıldayırdı. Fərhadın artıq işə yaramadığını görüb, qulluqdan xaric etdilər. O tamamilə dəyişib, üzünü tük basmış, başının saçları ağarmış, gözləri çuxura düşmüş, sanki bir qədər bundan irəli şad, məsud və məşhur bir mühəndis olan Fərhad bu deyilmiş, bu ancaq bir cünun imiş.

Həmişə şad bir həyat sürməyə adət edən Gülzar buna davam edə bilməyib, Fərhada:

– Mən sənin evində bu qədər əzab arasında qala bilmərəm, al bu sənin uşağın! – deyə balaca uşağı Fərhadın üstünə atıb getmək istədikdə, Fərhad diqqətlə Gülzarın üzünə baxdı, zira, onu görmək istəmədiyindən çoxdan onun üzünə baxmamışdı: o saatda, bir gecə bağda keçirdiyi xainanə dəqiqələr yadına düşüb, cəld ayağa durdu:

– Ah, xain! Mənim bütün bu bədbəxtliyimə, bu əzabıma səbəb sənsən! Sənin xəyanətin bizim evimizi yıxdı. Bu bəs deyilmiş kimi, indi qeyrisinin də evini yıxmağa gedirsən. Yox, sənin nüfuzun altında bu qədər cinayətə mürtəkib olduğum üçün, bu qədər əzaba düçar olduğum üçün erkən solmuş xoşbəxt ailəmizin intiqamını səndən alacağam, xainliyinin cəzasını öz əlimlə verəcəyəm! Fərhad bunu deyib, Gülzarın boğazından yapışdı, boğub uşağın üstünə yıxdı: – Gör, bu da cəza... ədalət... mükafat... intiqam... – deyə məcnunanə addımlarla otaqdan çıxdı.

Fərhadı tutub həbsxanaya apardılar.



Bir neçə gündən sonra Kamil, yurist vəzifəsində gəlib, bütün anası barəsində cəm etdiyi məlumatı ədalət məhkəməsinə verdi, işin təzədən təhqiq edilməsini tələb etdi.

Mühakimə edilərkən Fərhaddan soruşdular:

– Sənə isnad verirlər ki, Züleyxanı da sən boğub öldürmüşsən, nə ilə özünü safa çıxara bilərsən?

Fərhad əsə-əsə ayağa durub dedi:

– Bəli, doğrudur, mən öldürmüşəm, mən bədbəxt! Züleyxanı da mən öldürmüşəm, qardaşımın da gözlərinin kor olmasına mən bais olmuşam. O zamanlar mənim ürəyim daş kimi idi. Sonra həyatın iti pəncələri altında əzildim, didildim, özümün bu hala düşməyimə səbəb oldum. Məndən savayı bir xain də vardı ki, mənim bu hala düşməyimə çoxu o səbəb olmuşdu. Amma mən ondan öz intiqamımı aldım. İndi də xahiş edirəm ki, bacımla qardaşımın intiqamını məndən alasınız, – deyə Fərhad taqətdən düşüb, yerə yıxıldı.

Bir az keçəndən sonra ədalət məhkəməsinin üzvləri çıxıb məşhur mühəndis Fərhadın iyirmi il katorqa cəzasına məhkum edildiyini bildirdilər.

Fərhad, Züleyxa adını eşidəndə, yenə həmin müdhiş dəqiqələr gözü önündə durdu. Dizi üstə düşüb dedi:

– Bacım, Züleyxa bağışla məni!.. Gəlirəm qara üzlə sənin yanına... Bağışla məni... Oh, Züleyxa, günahkaram, bağışla!.. Ey məndən intiqam alan cavan, səndən çox razıyam ki, mənim tez həlak olub, əzablardan xilas olmağıma səbəb oldun. Barı gəl bu yaxşılığına görə üzündən öpüm.

Kamil Fərhadın acı halını görüb, imtina etməyib, yanına gəldi.

– Mən həmin qətlə yetirdiyin Züleyxanın oğlu Kaniləm, – dedi.

Bunu eşitcək Fərhad geri çəkildi.

– Get, mənim əllərim qanlıdır, sənin pak və müqəddəs bədəninə dəyməsin! Ancaq qiyamət günü anandan öz günahkar qardaşının əfv edilməsini xahiş edərsən. Get, əllərini mənim napak olan bədənimə vurma! Çəkil!.. – Fərhad əsərək, birdən yerə yıxılıb, ruhdan ayrıldı.

Axırıncı nəfəsdə Fərhadın ağzından ancaq bu sözlər eşidildi:

– Bağışla, Aslan!.. Bağışla, bacım Züleyxa!.. Gəlirəm... günahkaram... bağışla!

## MÜNDƏRİCAT

*Ön söz* .......... 4

**Cəlil Məmmədquluzadə**

Poçt qutusu .......... 19
İranda hürriyyət .......... 26
Qurbanəli bəy .......... 43

**Əbdürrəhim bəy Haqverdiyev**

Ata və oğul .......... 63
Şeyx Şəban .......... 78
Mirzə Səfər .......... 90

**Abbas Səhhət**

Cərrahlıq .......... 102
Bədbəxt ailə .......... 107
Qaragünlü Həlimə .......... 110

**Süleyman Sani Axundov**

Əhməd və Məleykə .......... 114
Abbas və Zeynəb .......... 118
Nurəddin .......... 122

**Sultanməcid Qənizadə**

Allah xofu .......... 158

**İbrahim bəy Musabəyov**

Neft və milyonlar səltənətində .......... 185



**Abdulla Şaiq**

Məktub yetişmədi .......... 220
Göbələk .......... 224
Pirin kəraməti .......... 230

**Əlabbas Müznib**

Yusif və Züleyxa .......... 237

**Abdulla bəy Divanbəyoğlu**

Can yanğısı .......... 269

**Yusif Vəzir Çəmənzəminli**

Cənnətin qəbzi .......... 308
Ağ buxaqda qara xal .......... 331
Qumarbazın arvadı .......... 337

**Cəfər Cabbarlı**

Aslan və Fərhad .......... 341

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektor: | *Fəridə Səmədova* |

**Yığılmağa verilmişdir 10.08.2006. Çapa imzalanmışdır 07.09.2006.**
**Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 23. Ofset çap üsulu.**
**Tirajı 25000. Sifariş 150.**

**Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.**

W6
A99